# PİŞAVƏR GECƏLƏRİ

# II

SEYİD MƏHƏMMƏD MUSƏVİ ŞİRAZİ

SULTAN-VAİZİN

| | |
|---|---|
| Kitabın adı: | Pişavər gecələri (2-ci cild) |
| Müəllif: | Seyid Məhəmməd Musəvi Şirazi |
| Mütərcim: | Beytul-Hikmət TM |
| Naşir: | Fəcri-Quran |
| Çap növbəsi: | Birinci |
| Tiraj: | 3000 |
| İSBN | 964-2603-14-4 |

*Kitabın çap və sair hüquqları qorunur*

# ALTINCI GECƏ

28 rəcəb, çərşənbə, 1345-ci il (1924)

Axşam çağı - gün batmamışdan əvvəl əhli-sünnətin çox dəyərli, mətin, şərif və təvazökar tacirlərindən olan və ilk gecədən etibarən fasiləsiz olaraq məclisdə iştirak edən möhtərəm Qulam İmameyn gələrək, uzun söhbət etdi: «Erkən gəlib, narahat etməyimin səbəbi bəzi şeyləri sizə bildirməkdir.

Dünən çox maraqlı dəlillərə əsaslanan bəyanlarınızla bizdən bir qrup şəxsi özünüzə cəzb etdiniz; qəlblər tamamilə yumşaldı. Bəzilərinin təqiyyə edərək söyləmədikləri şeyləri, əlhəmdulillah, siz cəsarətlə dediniz. Həqiqətlərin üzünü örtən pərdələri bir-bir qaldırıb, - ədəb hüdudları daxilində - onları bizə tanıtdırdınız.

Dünən axşam buradan getdikdə alimlər güclü müqavimətimizə məruz qaldılar; hətta bir-birimizə nəzakətdənkənar sözlər söylədik. Çətinliklə də olsa, aranı sakitləşdirdik. Aramızda ciddi bir ixtilaf meydana gəldi; bu gecə ağalar bizə çox acıqlıdırlar».

Namaz vaxtı məğrib və işa namazlarını bizim kimi qıldılar. Məclisdə iştirak edənlər yavaş-yavaş gəlməyə başladılar. İltifat və ehtiramla olan qarşılıqlı münasibət şəraitində içilən çaydan sonra söhbətə Nəvvab Əbdülqəyyum Xan başladı.

**Nəvvab**: «Qibləsahib! Dünənki mövzunun yarımçıq qalmaması üçün hamımız ayənin həqiqi mənasının bəyan olunmasını və mövzunun sona çatmasını gözləyirik».

**Dəvətçi**: «Əlbəttə, alimlər istəyərsə və izn verərsə».

**Hafiz**: «(Əsəbi Halda) Nə çətinliyi var ki?! Əgər mövzunun tamamlanmayan tərəfi varsa, buyurun, dinləməyə hazırıq».

**Dəvətçi**: «Keçən gecədə ərəb ədəbiyyatıyla əlaqəli dəlillərlə bu ayənin Xülafayi-raşidinin xilafəti haqqında olmadığını bəyan etdik. İndi isə pərdələrin qaldırılıb həqiqətlərin aşkar olması üçün mövzunu başqa yöndən araşdıracağıq.

Cənab Şeyx Abdussalam səlləməhullahu təala (Allah-təala onu salamat etsin) keçən gecə ayədəki dörd sifətin Xülafayi-raşidinə aid olduğunu söylədi. Nəzərinizə çatdırım ki, hər iki məzhəbin böyük müfəssirlərindən heç kəs bu ayənin nazil olması haqqında belə bir bəyan verməmişdir.

İkincisi; yaxşı bilirsiniz ki, sifət (xüsusiyyət) movsufu (sifətlənmiş) ilə tam olaraq uyğun olarsa, diqqətə alınıb qəbul olunur. Arada uyğunlu yoxdursa, həqiqət öz yerini tapmayacaqdır.

Əgər təəssüb və küdurətlə deyil, insafla araşdırsaq, ayədə mövcud olan sifətlərin bütün ümmət içərisindən sadəcə mövlamız Əmirəl-möminin həzrət Əli (ə) haqqında olduğunu görəcəyik. Bu sifətlər möhtərəm Şeyxin şamil etdiyi şəxslərə qətiyyən uyğun gəlmir!».

**Hafiz**: «Həzrət Əli (ə) haqqında bu qədər ayə nəql etməyiniz bəs deyilmiş kimi, indi bu ayənin də bəyanını məcburən ona aid etmək istəyirsiniz?! Buyurun, baxaq, görək necə olur bu sadalanan sifətlər Xülafayi-raşidinə uyğun gəlmir?!».

## HƏZRƏT ƏLİ (Ə) HAQQINDA ÜÇ YÜZ AYƏ

**Dəvətçi**: «Quran ayələrinin mövla Əmirəl-möminin (ə) şəninə nazil olduğunu deməyimizi mövzuya niyə qarışdırdığınıza təəccüb edirəm. Biz göz boyamırıq; bütün böyük təfsir və digər mötəbər kitablarınızda həzrət Əlinin şəninə nazil olan ayələr bildirilmişdir. Bunları sadəcə biz nəql etmirik!

Hafiz Əbu Nəim İsfahani «Ma nəzələ min əl-Qurani fi Əliyyin» (Quranda Əli (ə) haqqında nazil olan ayələr) və hafiz Əbu Bəkr Şirazi «Nuzulul-Qurani fi Əliyyin» (Quranın Əli (ə) haqqında nazil olması) adlı kitabını məxsus olaraq yazmışdır. Onlar da şiədirlər?! Sizin imam Sələbi, Cəlaləddin Süyuti, Təbəri və imam Fəxri Razi kimi böyük müfəssirləriniz, eləcə də İbn Kəsir, Müslim, Hakim, Tirmizi, Nəsai, İbn Məccə, Davud, Əhməd ibn Hənbəl və digərləri kimi böyük alimləriniz, hətta mütəəssib İbn Həcər «Səvaiq»də həzrət Əlinin şəninə nazil olan ayələri nəql etmişlər. Məgər bunlar şiədirlərmi?!

Alimlərdən bəziləri, məsələn: Təbərani və Məhəmməd ibn Yusif Gənci Şafei 62-ci babın əvvəlində İbn Abbasdan Şamın mühəddisi isə öz böyük «Tarix» kitabında və digər alimlər üç yüz ayəni həzrət Əli haqqında nazil olduğunu nəql etmişlər. Görəsən, bunlar şiədirlər, yoxsa sizin böyük alimləriniz?! Ağalar, sonradan peşman olmamaq üçün sözlərinizi bir az düşünərək bəyan edin.

Bizim Əmirəl-möminin imam Əlinin (ə) məqamını isbat etmək üçün hədis uydurmağa ehtiyacımız yoxdur ki, zorla bir ayənin Onun haqqında nazil olduğunu isbatlamağa çalışaq! O həzrətin məqamı gün kimi parlaqdır; günəş buludun arxasında daimi qalmaz!

İmam Məhəmməd ibn İdris Şafei deyir: «Mən həzrət Əlinin (ə) halına təəccüblənirəm. Düşmənləri (əməvilər, nasibilər, xaricilər) kin və nifrət üzündən o həzrətin fəzilət və təriflərini nəql etmədilər, dostları isə qorxudan; bütün bunlara baxmayaraq, yenə də bütün kitablar Onun fəzilətləriylə doludur! O, bütün külliyyatların dadıdır».

Ayeyi-kərimə gəlincə, sehrkarlıq etmirik; öz mötəbər kitablarınızdan dəlil gətirdik və gətirməkdəyik.

Diqqət etsəydiniz görərdiniz ki, indiyə qədər şiə mənbələrindən olan hədisləri dəlil gətirmədim, inşallah, bundan sonra da gətirməyəcəyəm. Əgər şiənin bütün kitablarını aradan aparsalar belə, əhli-sünnətin böyük alimlərinin mötəbər kitablarından vilayət və xəlifəlik məqamının mövlamız Əmirəl-möminin həzrət Əlinin (ə) haqqı olduğunu isbat edərəm. Bunu dəfələrlə minbərlərdə və məclislərdə demişəm.

Bu ayə ilə əlaqəli mövcud yozum təkcə mənim nəzərim deyil ki, sehr etmiş olam. Öz alimləriniz bu nəzəri təsdiq ediblər. Çox yaxşı xatırlayıram, iraqlıların fəqih və müftüsü, Şamın mühəddisi Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 23-cü babında «Təşbih hədisi»ni - Rəsulallahın (s) imam Əlini peyğəmbərlərə bənzətdiyi hədisi - nəql edərkən belə deyir: «Peyğəmbərin Əlini həzrət Nuha bənzətməsinin səbəbi onun kafirlərə qarşı şiddətli, möminlərə qarşı isə mərhəmətli olmasıdır. Çünki Qurani-kərim həzrət Əlini belə tanıdır: «Onunla

(həzrət Məhəmmədlə) olan kafirlərə qarşı şiddətli, möminlərə qarşı isə mərhəmətlidir».

Şeyxin nəzərincə «Vəlləzinə məəhu» (Onunla birlikdə olan) kəlməsi Əbu Bəkr haqqındadır. Bu dəlilə görə ki, Əbu Bəkr mağarada bir neçə gün Rəsulallahın (s) yanında qalmışdır.

Dünən gecə ərz etdim ki, sizin öz alimləriniz belə Rəsulallahın Əbu Bəkri təsadüfən və hər hansı bir hadisə baş verməməsi üçün özüylə birlikdə apardığını yazmışlar. Fərz edək ki, Peyğəmbəri-əkrəm onu xüsusilə özüylə birlikdə aparmışdı. Görəsən, bir neçə günlük səfərdə Rəsulallahın xidmətində olan bir kəsin məqamı, doğumundan etibarən Peyğəmbərin təlim və tərbiyəsi altında böyüyən bir şəxsin məqamıyla eyni səviyyədə ola bilərmi? Əgər insaf gözüylə baxsanız, bu xüsusda həzrət Əlinin Əbu Bəkr və digər müsəlmanlardan bu ayəyə aid olduğunda daha üstün olduğunu təsdiq edərsiniz.

Həzrət Əli uşaqlığından etibarən Rəsulallahın yanında, Onun (s) təlim-tərbiyəsi altında böyümüşdür. Xüsusilə də besətin ilk günlərindən Peyğəmbərlə bərabər olan təkcə Əli olmuşdur. Əmirəl-möminnin Rəsulallahla bərabər olduğu günlərdə Əbu Bəkr, Ömər, Osman, Əbu Süfyan, Müaviyə və digər bir çox şəxslər tövhid dinindən azmış və bütpərəstlikdə qərq olmuşdular!

## ƏLİ (Ə) RƏSULALLAHA (S) İLK İMAN GƏTİRƏNDİR

Necə ki, böyük alimlərinizdən Buxari və Müslim öz «Səhih»lərində, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, İbn Əbdülbirr «İstiab»ın 3-cü cildinin 32-ci səhifəsində, İmam Əbu Əbdürrəhman Nəsai «Xəsaisul-Ələvi»də, Səbt ibn Covzi «Təzkirə»nin 63-cü səhifəsində, Şeyx Süleyman Bəlxi Hənifi «Yənabiül-məvəddə»nin 12-ci babında (Tirmizi və Müslmdən), Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul»un 1-ci fəslində, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 3-cü cildinin 258-ci səhifəsində, Tirmizi «Came»nin 2-ci cildinin 2 səhifəsində, Həmuyini «Fəraid»də, Mirseyid Əli Həmədani «Məvəddətül-qurba»da, hətta mütəəssib İbn həcər «Səvaiq»də və digər böyük alimləriniz az bir fərqlə Ənəs ibn

Malikdən və başqalarından nəql etmişlər: «Həzrət Peyğəmbər (s) bazar ertəsi günü peyğəmbərliyə seçildi, Əli də cümə axşamı günü Ona iman gətirdi»; «Peyğəmbər bazar ertəsi günü peyğəmbərliyə seçildi, Əlidə cümə axşamı günü Onunla birlikdə namaz qıldı»; «Əli, kişilərdən Rəsulallaha ilk iman gətirən şəxsdir».

Yenə Təbəri öz «Tarix»inin 2-ci cildinin 241-ci səhifəsində, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 3-cü cildinin 256-cı səhifəsində, Tirmizi «Came»nin 2-ci cildinin 215-ci səhifəsində, imam Əhməd «Müsnəd»in 4-cü cildinin 368-ci səhifəsində, İbn Əsir «Kamil»in 2-ci cildinin 22-ci səhifəsində, hakim Nişapuri «Müstədrək»in 4-cü cildinin 336-cı səhifəsində və Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib»in 25-ci babında sənədiylə İbn Abbasdan belə rəvayət edir: «İslamda Rəsulallahla birlikdə ilk namaz qılan Əlidir».

Zeyd ibn Ərqəmdən də belə nəql edilmişdir: «Rəsulallaha ilk iman gətirən Əli ibn Əbu Talibdir».

Mötəbər kitablarınız bu cür xəbərlərlə doludur. Zənnimcə, misal üçün bu qədər kifayət edər.

## RƏSULALLAHIN (S) HƏZRƏT ƏLİNİ (Ə) UŞAQLIQDAN TƏLİM-TƏRBİYƏ ETMƏSİ

Böyük aliminiz Nurəddin ibn Səbbağ Maliki «Füsulul-mühimmə»nin «Tərbiyətuhun-Nəbiyyu» fəslinin 16-cı səhifəsində, Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul»un 1-ci fəslinin 11-ci səhifəsində və digərlərinin də nəql etdiyi bu sözlərə xüsusilə diqqət etməyiniz lazımdır: Besətdən əvvəl Məkkədə qıtlıq olduğu bir ildə Rəsulallah (s) bir gün əmisi Abbasa belə buyurdu: «Qardaşın Əbu Talibin uşaqları çoxdur, dolanışığı çox çətinləşmişdir. Gedək, hər birimiz onun uşaqlarından birini himayəyə götürək ki, əmimin yükü azalsın».

Abbas bu təklifi qəbul etdi və onlar birlikdə Əbu Talibin yanına getdi. Nə üçün gəldiklərinin səbəbini söylədilər, o da təkliflərini qəbul etdi. Abbas Cəfəri-Təyyarın, Rəsulallah isə həzrət Əlinin himayəçiliyini öz üzərinə götürdü».

Maliki sonra belə deyir: «Əli həmişə Rəsulallahla bərabər idi. Allah-təala həzrət Məhəmmədi peyğəmbərliyə seçdikdə, Əli ona iman gətirdi və tabe oldu. O zaman Əli on üç yaşında idi və həddi-büluğa çatmamışdan Xədicədən (s.ə) sonra Rəsulallaha iman gətirən ilk kişidir».

## HƏZRƏT ƏLİNİN (Ə) İSLAMDAKI QABAQCILLIĞI

Daha sonra Maliki eyni bölümdə imam Sələbidən nəql edərək, «Tövbə» surəsinin 100-ci ayəsinin «(Mühacirdən və ənsardan (İslamı) ilk, əvvəl qəbul edib (başqalarını bu işdə) qabaqlayana)» təfsirinə aid bunları yazır: «İbni Abbas, Cabir ibn Abdullah Ənsari, Zeyd ibn Ərqəm, Məhəmməd ibn Münkədir və Rəbia Mərai belə deyirlər: «Xədicədən sonra Rəsulallaha ilk iman gətirən Əlidir».

Sonra sözünə belə davam edir: «Həzrət Əli bu mənaya toxunaraq, alim və mühəddislərdən nəql edilən şerində belə buyurmuşdur:

***Məhəmməd peyğəmbər qardaşım və əmim oğludur.***
***Həmzə - Seyyidüş-şühəda mənim əmimdir.***
***Rəsulallahın qızı Fatimə həyat yoldaşım.***
***Peyğəmbərin Fatimədən olan iki nəvəsi uşaqlarımdır.***
***Hansınızın mənim kimi qisməti vardır?!***
***Hamınızdan əvvəl uşaqikən iman gətirdim,***
***O zaman hələ buluğ çağına yetişməmişdim.***
***Rəsulallah Qədir-Xum günü***
***Mənim üçün öz vilayətini sizə vacib etdi.***
***Yazıqlar olsun! Yazıqlar olsun! Yazıqlar olsun!***
***Mənə zülm edərək sabah Allahın hüzuruna çıxacaq kimsəyə.***

Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul» kitabının 11-ci səhifəsinin 1-ci fəslinin daxilindəki 1-ci babında və digər böyük mühəddis və tarixçiləriniz belə nəql etmişlər: «Həzrət Əli (ə) bu şeri Müaviyəyə cavab olaraq yazmışdır. Belə ki,

Müaviyə həzrət Əliyə yazdığı bir məktubda babasının cahiliyyət dövründə qəbilə başçısı olmasına görə qürrələnmiş və özünü də möminlərin dayısı, vəhy katibi və fəzilət sahibi kimi tanıtmışdı.

Həzrət Əli (ə) məktubu oxuduqdan sonra belə buyur. «Seyyidüş-şühəda həmzənin ciyərini yeyənin oğlu mənə qarşı fəzilətlərlə öyünür?!». (Müaviyənin anası hind Ühüd döyüşündə Seyyidüş-şühəda həmzənin ciyərini onun üçün gətiriləndə onu ağzında çeynəmişdi)

Daha sonra zikr edilən şeri oxuyaraq, bu şerdə Qədir-Xum hadisəsini dilə gətirdi. Beləcə, özünün imam, xəlifə və müsəlmanların işlərində təsərrüf səlahiyyətinə sahib olduğunu bildirərək, Rəsulallahdan (s) sonra xilafətə daha layiq olduğunu isbat etdi. Müaviyənin imam Əliyə (ə) qarşı dərin düşmənçiliyinə baxmayaraq, Onun (ə) bu üstünlüklərini inkar edə bilmədi».

Yənə hakim Əbülqasim Həsqani (ən tanınan və etibarlı alimlərinizdəndir) zikr edilən ayənin açıqlamasında Əbdürrəhman ibn Ovfdan belə nəql edir: «Qüreyşdən on nəfər iman gətirdi və onların birincisi Əli ibn Əbu Talib idi».

Böyük alimlərinizdən Əhməd ibn Hənbəl «Müsnəd»də, Xətib Xarəzmi «Mənaqib»də və Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə» kitabının 12-ci babında Ənəs ibn Malikdən Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edir: «Mələklər mənə və Əliyə yeddi il salavat göndərdilər. Bu müddət ərzində şəhadət kəlməsi (La ilahə İlləllah) mən və Əlidən başqa heç kimin dilinə gəlmədi. Bu kəlməni yalnız biz ucaltdıq göylərə».

İbn Əbil-Hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi» kitabının 375-dən 378-ci səhifəsinə qədər sizin öz ravi və alimlərinizdən həzrət Əlinin (ə) hər kəsdən daha əvvəl iman gətirməsinə dair bir çox hədis nəql etmişdir. O, son olaraq bütün hədis və ixtilaflı nəzərlərlə əlaqəli belə deyir: «İndiyə qədər zikr etdiklərimizin hamısı ilk iman gətirənin həzrət Əli olduğunu göstərir. Bu mövzuda müxalif nəzərlər çox azdır; az olduğuna görə də etibarsızdır».

«Kutubus-Sittə» sahiblərindən imam Əbu Əbdürrəhman «Xəsaisul-Ələvi» adlı əsərinin girişində bu mövzuda altı hədis gətirərək, həzrət Rəsulallaha ilk iman gətirən və Onunla ilk namaz qılan şəxsin həzrət Əli olduğunu təsdiq etmişdir.

Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə»nin 12-ci babında 31 xəbəri, Tirmizi, Həmuyini, İbn Maccə, Əhməd ibn Hənbəl, Hafiz Əbu Nəim, imam Sələbi, İbn Məğazəli, Əbülmüəyyid Xarəzmi və Deyləmidən bu hədisi müxtəlif şəkildə nəql etmişdir. Onların hamısının əsas nəticəsi budur: həzrət Əli (ə) bütün İslam ümmətindən əvvəl iman gətirmişdir.

Hətta mütəəssib İbn Həcər Məkki «Səvaiq» kitabının 2-ci fəslində eyni mənada bir hədis nəql etmişdir. Süleyman Bəlxi «Yənabiül-məvəddə» kitabında bu hədislərdən bəzilərini ondan nəql etmişdir. «Yənabiül-məvəddə»nin 12-ci babının sonunda «Mənaqib»dən öz sənədliylə Əbu Zübeyr Məkkidən, o da Cabir ibn Abdullah Ənsaridən çox bərəkətli bir hədis nəql etmişdir. Ağaların icazəsiylə, höccəti tamamlamaq üçün bu hədisi oxuyuram: «Rəsulallah (s) buyurdu: «Allah Təbarək və Təala məni xalqın içindən seçdi. elçi etdi və mənə kitabların ən yaxşısını nazil etdi. Ərz etdim: «Allahım! Sən Musanı Firona göndərdin; O, Səndən qardaşı Harunu özünə vəzir etməsini, Harunla onu gücləndirməyini və onunla sözünü doğrulamağını istədi. Ey Allahım və Seyyidim! İndi mən də Səndən istəyirəm ki, mənə də öz ailəmdən (yaxınımdan) vəzir edəsən, onunla arxamı gücləndirəsən. Elə isə Əlini mənə vəzir və qardaş et. Onun qəlbinə cəsarət ver, düşməninə qarşı heybətli et. (Allahım!) O, mənə ilk iman gətirən və məni təsdiq edəndir; mənimlə Sənin vəhdaniyyətini iqrar edən ilk şəxsdir.

Şübhəsiz, mən bunu Rəbbimdən istədim və O da mənə əta etdi (yəni Əlini mənim vəzirim və qardaşım etdi). Elə isə Əli vəsilərin ağasıdır; Ona qoşulmaq səadətdir; itaətində ölmək şəhadətdir; adı Tövratda mənim adımla birlikdədir; zövcəsi Siddiqeyi-Kübra qızımdır; Cənnət gənclərinin ağaları olan iki oğlu uşaqlarımdır; O, iki oğlu - Həsən və Hüseyn onlardan sonra gələcək olan imamlar peyğəmbərlərdən sonra Allahın insanlara höccətidirlər; onlar ümmətim içində elm qapısıdır; onlara tabe olan Cəhənnəmdən qurtulmuşdur; onlara tabe olan sirati-müstəqimə (doğru yola) hidayət olmuş. Allah-təala onların sevgisini kimə əta etmişsə, onu Cənnətə aparar».

Ey bəsirət sahibləri! İbrət alın!

Əgər şiə qaynaqlarına söykənmədən təkcə sizin öz böyük alimlərinizin nəql etdikləri hədisləri zikr etsəm, sabaha qədər qurtarmaz. Lakin bu qədər kifayətdir.

İndiyə qədər ərz etdiklərimlə bunu anlatmaq istədim: ağalar bilsinlər ki, həzrət Əli (ə) Rəsulallah (s) ilə ilk gündən daima birlikdə olan bir şəxsdir. Elə isə o uca şəxsiyyətli insanı «Vəlləzinə məəhu...» (Onunla birlikdə olan...) ayəsinin əhatəsində bilməyimiz bir neçə gecə mağar səfərində olandan daha üstün və həqiqətə daha uyğundur.

## HƏZRƏT ƏLİNİN (Ə) UŞAQ OLDUĞUNA GÖRƏ İMANINI ZƏİF BİLMƏK VƏ BELƏ BİR DÜŞÜNCƏNİN CAVABI

Hafiz: «Əlinin (ə) hər kəsdən əvvəl iman gətirdiyi mövzusu qətidir və heç kim buna şübhə etməmişdir. Amma diqqət edilməsi lazım olan nöqtə budur ki, həzrət Əlinin ilk iman gətirməsi digər səhabələrdən üstün olmasına dəlil ola bilməz! Əbu Bəkr, Ömər, Osman kimi böyük xəlifələrin Əlidən bir müddət sonra iman gətirdikləri doğrudur. Amma onların imanı Əlinin imanından fərqlidir; onların imanı Əlinin imanından daha üstün və daha fəzilətlidir. Əli baliğ olmamış bir uşaq idi. Onlar isə yaşlı və kamil ağıl sahibləri idilər. Aydındır ki, ağlı kamil, yaşlı və dünya görmüş bir insanın imanı, uşaq və hələ baliğ olmayan kimsənin imanından daha fəzilətli və daha üstündür. Əlinin imanı təqlidi (kor-koranə) bir iman idi. Amma onların imanı təhqiqi (araşdırılaraq əldə edilən) imandır. Təhqiqi iman təqlidi imanmadan daha üstündür! Çünki 12 və ya 13 yaşındakı bir uşaq yalnız təqlid yoluyla iman gətirər. Əli də təklif çağına yetişməmiş bir uşaq idi. O, təqlid üzündən iman gətirmişdi».

Dəvətçi: «Sizin kimi böyük şəxsin bu tərzdə danışması heyrətedicidir. Doğrusu, sözlərinizə çox təəccübləndim. Bilmirəm, inad edirsiniz deyim, ya yox, amma sizin kimi bir alimə belə bir şeyi yaraşdırmağa qəlbim razı olmur. Ancaq belə deyərəm: deyəsən, keçmişlərinizə uyaraq, düşünmədən və diqqət etmədən danışırsınız. Yəni Əməvilərin təhrikiylə, xəvaric və nasibilərə təqlid edərək danışırsınız. Bu mövzuda şəxsi araşdırmanız yoxdur!

Sizdən soruşuram: Həzrət Əlinin (ə) uşaq ikən iman gətirməsi, öz meyli və iradəsiylə idi, yoxsa Rəsulallahın (s) dəvətiylə?».

Hafiz: «Əvvəlcə bunu deyim ki, nə üçün danışıq tərzinə və verilən suallara görə kədərlənirsiniz? Şübhələrin insanın qəlbində qalıb onu narahat etməyindənsə, həqiqətlərin ortaya çıxması üçün mübahisə daha yaxşıdır.

İkincisi; sualınızın cavabı aydındır. Əli (ə) öz meyl və iradəsiylə deyil, Rəsulallahın (s) dəvətiylə iman gətirmişdir!».

Dəvətçi: «Rəsulallah (s) həzrət Əlini (ə) İslama dəvət edərkən buluğ olmayan uşağın yetkinlik çağına çatmamış ona hər hansı bir təklifin (dini vəzifənin yerinə yetirilməsi) vacib olmadığını bilirdi, yoxsa bilmirdi? Əgər «bilmirdi» desəniz, o həzrətə cəhalət nisbəti vermiş olarsınız. Əgər «bilməsinə baxmayaraq, yenə də dəvət etdi» demiş olsanız, o zaman Rəsulallah əbəs yersiz bir iş etmiş olar. Bu da aydındır ki, boş və əbəs şeyləri nisbət vermək küfrdür!

Peyğəmbərlər boş və əbəs işlərdən pakdırlar! Xüsusilə də, Xatəmül-ənbiya. Çünki Allah-təala Quranda - «Nəcm» surəsinin 3-cü və 4-cü ayələrində buyurur: «O, həva-həvəs üzündən danışmır. Bu, ancaq nazil olan bir vəhydir».

## HƏZRƏT ƏLİNİN (Ə) KİÇİK YAŞDA İMAN GƏTİRMƏSİ ONUN (Ə) ÇOX AĞILLI VƏ FƏZİLƏTLİ OLMASINDAN İRƏLİ GƏLMİŞDİR

Demək, Rəsulallah (s) həzrət Əlini (ə) dəvətə layiq gördüyü üçün dəvət etmişdir. Çünki o həzrət əbəs və boş bir iş etməz. Üstəlik, yaşın kiçik olması ağlın kamil olmaması demək deyil. Baliğ olma təklifin vacib olmasına dəlil deyildir. Buluğa əqli şeylərdə deyil, ancaq şəri hökmlərdə riayət edilir. Bu səbəbdən iman şəri təkliflərdən deyil, əqli şeylərdəndir.

İmam Əlinin kiçik yaşda iman gətirməsi Onun fəzilətli və üstün olmasındandır. Bu səbəbdən Allah-təala «Məryəm» surəsinin 30-cu ayəsində həzrət İsa ibn Məryəmin (əla nəbiyyinə və alihi və əleyhis-salam) dünyaya

gəldikdə belə dediyini bildirir: «**Şübhəsiz, mən Allahın quluyam. Allah mənə Kitab «İncil» verdi və məni peyğəmbər etdi**».

Yenə həzrət Yəhya (ə) haqqında eyni surənin 12-ci ayəsində belə buyurur: «**Daha uşaq ikən Biz ona hikmət verdik**».

H.q. təqvimi ilə II əsrin ortalarında yaşayan məşhur şair Seyid İsmail Himyeri (vəfat tarixi: h.q. 179) həzrət Əlinin mədhinə yazdığı şerində bu mövzuya toxunmuşdur:

***Yəhyaya uşaqlıqda peyğəmbərlik məqamı verildiyi kimi,***
***Rəsulallahın (s) vəsisi və uşaqlarının atası olan Əliyə də***
***Uşaq ikən vilayət və hidayət məqamı verildi...***

Allah-təala bir nəfərə məqam verirsə, bunun üçün o şəxsin həddi-buluğa çatması əhəmiyyət daşımaz; sadəcə ağlının yetişməsi və o məqama layiq olması yetərlidir!

Gizli və aşkar hər şeyi bilən yalnız Allahdır: Onun üçün İsa (ə) və Yəhyanı (ə) kiçik yaşlarında peyğəmbərliyə, Əlini (ə) isə 12 və ya 13 yaşında vilayət və xilafət məqamına seçməsi çox da təəccüblü bir şey deyildir.

Söylədiklərinizdən çox narahat olmağımın səbəbi aydındır. Bu cür sözlər nasibi, xəvaric və əməvilər tərəfindən o həzrətin məqam və dəyərini alçatmaq üçün uydurulmuşdur. Onlar həzrət Əlinin kiçik yaşda ağılla deyil, təqlidi olaraq, kor-koranə iman gətirdiyini söyləyirlər.

Etibarlı böyük alimləriniz də həzrət Əlinin bu fəzilətini etiraf edirlər. Əgər bu imanın bir faydası yox idisə, o zaman həzrət Əli nə üçün ilk iman etmək şərəfinin özünə aid olduğunu səhabələrə dəfələrlə söyləmişdir?!

Ərz etdiyim kimi, böyük alimləriniz, məsələn: Məhəmməd ibn Təlhə Şafei, İbn Səbbağ Maliki, İbn Əbil-Hədid və digər  şəxslər o həzrətin (ə) şerlərini nəql etmişlər. Şerlərin birində belə buyurmuşdur:

***Hamınızdan əvvəl uşaq ikən iman gətirdim***
***Bu mövzuda kimsə mənə çata bilməz.***

Əgər həzrət Əlinin uşaq yaşda iman gətirməsi bir fəzilət sayılmırsa, o zaman Rəsulallah nə üçün bu vəziyyəti Onun üçün bir fəzilət və şərəf saymış və Özü də (ə) bununla iftixar etmişdir?!

Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə»nin 56-cı babının 202-ci səhifəsində «Zəhairul-uqba»dan nəql edərək imamul-hərəm Əhməd ibn Abdullah Şafeidən, o da II xəlifə Ömər ibn Xəttabdan belə nəql edir: «Mən, Əbu Bəkr, Əbu Ubeyd ibn Cərrah və bir qrup şəxs Rəsulallahın (s) hüzurunda idik. O həzrət (s) əlini Əlinin (ə) çiyninə vuraraq belə buyurdu: «Ya Əli! sən iman və İslam baxımından möminlərin əvvəlisən. Mənə nisbətdə Harunun Musaya olan nisbəti kimisən».

Yenə imam Əhməd ibn Hənbəl «Müsnəd» kitabında İbn Abbasdan nəql edir: «Mən, Əbu Bəkr, Əbu Ubeyd ibn Cərrah və bir qrup səhabə Rəsulallahın (s) hüzurunda idik. Peyğəmbəri-əkrəm (s) mübarək əlini Əlinin (ə) çiyninə vuraraq buyurdu: «Sən İslam baxımından müsəlmanların ilkisən; iman baxımından möminlərin əvvəlisən; mənə nisbətdə Harunun Musaya olan nisbəti kimisən. Ya Əli! Sənə düşmən olub məni sevdiyini söyləyən kəs yalan söyləmişdir».

İbn Səbbağ Maliki «füsulul-mühimmə»nin 125-ci səhifəsində «Xəsais» kitabından nəql edərək bu hədisin bənzərini İbn Abbasdan və imam Əbu Nəim Əbdürrəhman Nəsai də «Xəsaisul-Ələvi» kitabında belə nəql edir: «Ömər ibn Xəttabın belə dediyini eşitdim: «Əlini xeyirlə xatırlayın. Çünki Rəsulallahın belə buyurduğunu eşitdim: «Əlidə üç sifət var...». Mən, Ömər olduğum halda onlardan birinin məndə olmasını arzu etdim. Çünki onlardan hər biri mənim yanımda üzərinə günəşin saçdığı hər şeydən daha sevimlidir».

Sonra belə davam etdi: «Mən, Əbu Bəkr, Əbu Ubeydə və səhabədən bir qrup şəxs də oradaydıq. Rəsulallah əlini Əlinin çiyninə qoyaraq belə buyurdu...». Az əvvəl bu sözləri nəql etdim.

İbn Səbbağ bu sözləri digərlərindən bir az geniş nəql etmişdir: «Rəsulallah (s) buyurdu: «Ya Əli! Kim səni sevərsə məni sevmişdir; kim də məni sevərsə Allah onu sevmişdir; Allah da kimi sevərsə, onu Cənnətə aparar.

Ya Əli! Kim sənə nifrət edərsə mənə nifrət etmişdir; kim də mənə nifrət edərsə Allah da ona nifrət edər və onu Cəhənnəmə salar».

İmam Əlinin kiçik yaşda iman gətirməsi Onun kamil bir ağıl sahibi olmasından qaynaqlanır. Bu da o həzrət üçün böyük bir fəzilətdir və kimsə Onu bu mövzuda qabaqlamamışdır.

Təbəri öz «Tarix» kitabında Məhəmməd ibn Səid ibn Əbu Vəqqasdan belə nəql edir: «Atamdan, «Əbu Bəkr ilk iman gətirənlərdəndirmi?»,-deyə soruşduqda belə dedi: «Xeyr, ondan əvvəl 50 nəfər iman gətirmişdir. Amma İslam baxımından bizdən daha fəzilətlidir».

Yenə Təbəri öz «Tarix» kitabında yazır: «Ömər ibn Xəttab 45 kişi və 21 qadından sonra iman gətirdi. Lakin İslam və iman baxımından Əli ibn Əbu Talib hər kəsdən əvvəldir».

## HƏZRƏT ƏLİNİN (Ə) İMANI KÜFRDƏN SONRA DEYİL, FİTRƏTDƏN OLAN İMANDIR!

Həzrət Əlinin (ə) hər kəsdən əvvəl iman gətirməsi fəzilətindən əlavə, Onun bu mövzuda yalnız özünəməxsus və bütün fəzilətlərdən daha əhamiyyətli olan başqa bir fəziləti vardır. Bu da, Onun imanının fitrətdən olmasıdır. Digərlərinin imanı isə küfrlərindən sonra idi.

Əmirəl-möminin Əli bir an belə müşrik olub, bütə tapınmamışdır. Amma digər müsəlmanlar yalnız bütpərəstlikdən xilas olandan sonra iman gətirmişdilər. Çünki O həzrət, həddi-buluğ çağına yetişmədən iman gətirmişdi. Bu səbəbdən Əbu Nəim İsfahani «Ma nəzəl əl-Quranu fi Əliyyin» və Mirseyid Əli Həmədani «Məvəddətül-qurba» kitabında İbn Abbasdan belə nəql edir: «Allaha and olsun ki, (əshab içərisində) Əli ibn Əbu Talibdən başqa hər kəs bütlərə tapındıqdan sonra Allaha iman gətirmişdir. Amma O, bütlərə tapınmadan Allaha iman gətirmişdir».

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 24-cü babında sənədləriylə Rəsulallahın (s) belə buyurduğunu nəql edir: «Ümmətlərin (iman və tövhiddə) qabaqcılları üç nəfərdir; onlar Allaha bir an belə şərik qoşmamışlar: Həbibun-Nəccar mömini - Ali Yasin, Hüzqayl mömini - Ali Firavun və Əli ibn Əbu Talib. Bax, siddiqlər bunlardır. Bunların ən üstünü isə Əli ibn Əbi Talibdir».

Necə ki, həzrət Əli (ə) «Nəhcül-bəlağə»də belə buyurmuşdur: «Mən (tövhid) fitrət üzrə doğuldum, (Allaha) iman və (Rəsulallahla) hicrətdə hər kəsdən önə keçdim».

Yenə Hafiz Əbu Nəim İsfahani, Şafei, İbn Əbil-Hədid və digər  böyük alimləriniz belə nəql etmişlər: «Şübhəsiz, Əli (ə) bir an belə Allaha şirk qoşmadı».

İmam Əhməd ibn Hənbəl «Müsnəd» və Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə» kitabında İbn Abbasın Zəmət ibn Xaricəyə belə dediyini nəql edir: «O, (həzrət Əli) heç bir zaman bütlərə tapınmadı, şərab içmədi və (Rəsulallahın peyğəmbərliyinə) iman gətirənlərin ilkidir».

İbn Məğazəli Şafeinin «Fəzail», imam Əhməd ibn Hənbəlin «Müsnəd», Xətib Xarəzminin «Mənaqib», Süleyman Bəlxi Hənəfinin «Yənabiül-məvəddə» kitabında və digər  böyük alimlərinizin Rəsulallahdan (s) nəql etdiyi bu hədisi görmədinizmi ki, durub «Şeyxeynin (Əbu Bəkrlə Ömərin) imanı, Əlinin (ə) imanından daha üstündür» deyirsiniz?! O hədis budur: Rəsulallah buyurmuşdur: «Əlinin imanı ümmətin imanıyla ölçülərsə, Əlinin imanı ümmətimin imanından - Qiyamətə qədər - daha ağır gələr».

Mirseyid Əli Həmədani «Yeddinci Məvəddə», Xətib Xarəzmi «Mənaqib», imam Sələbi «Təfsir» kitabında II xəlifə Ömər ibn Xəttabdan belə nəql edir: «Şəhadət verirəm ki, Rəsulallahın belə buyurduğunu eşitdim: «Əgər yeddi göylə yeddi yer tərəzinin bir gözünə, Əlinin imanı da digər gözünə qoyularsa, Əlinin imanı aqır gələr».

Məşhur şair Əbdi  (Süfyan ibn Məsəb Kufi) bu mövzuda yazdığı şerində belə demişdir:

*Şəhadət verirəm ki, Məhəmməd (s) bizə bir söz buyurdu.*
*Bu söz kimsəyə gizli qalmamalıdır:*
*Əgər göy və yerdə olan bütün məxluqatın imanı,*
*Tərəzinin bir gözünə qoyularsa,*
*Əlinin imanı da digər gözünə qoyularsa,*
*Daha ağır gələr Əlinin imanı.*

## HƏZRƏT ƏLİ (Ə) BÜTÜN SƏHABƏ VƏ ÜMMƏTDƏN DAHA FƏZİLƏTLİDİR

Şafeilərin məşhur fiqh alimi Mirseyid Həmədan «Məvəddətul-qurba» kitabında bu mövzuda bir xeyli hədis nəql edərək, həzrət Əlinin (ə) fəzilətlərini dəlillərlə və səhih hədislərlə isbat etmişdir. «Yeddinci Məvəddə»də İbn Abbasdan belə nəql etmişdir: «Rəsulallah (s) buyurdu: «Mənim zamanımda bütün aləmlərin kişilərinin ən üstünü Əlidir».

Sizin öz insaflı böyük alimlərinizin çoxunun nəzəri də həzrət Əlinin fəzilətli olmasıdır. Bu səbəbdən İbn Əbil-Hədid «Nəhcül-bəlağənin Şərhi» kitabının 3-cü cildinin 40-cı səhifəsində belə yazır: «Mötəzilə şeyxlərindən Əbu Cəfər İsqafinin bir kitabı əlimə keçdi. O, belə yazırdı: «Bəşr ibn Mötəmər, Əbu Musa, Cəfər ibn Mübəşşir və Bağdadın digər qədim alimlərinin məzhəbi (nəzərləri) bu idi: Müsəlmanların ən üstünü Əli ibn Əbu Talibdir. Sonra oğlu Həsən, daha sonra oğlu Hüseyn, daha sonra Əbdülmütəllib oğlu Həmzə və Əbu Talib oğlu Cəfərdir...».

Bizim şeyximiz Əbu Abdullah Bəsri, Şeyx Əbül-Qasim Bəlxi və Şeyx Əbul Həsən Xəyyad (Bağdad alimlərinin şeyxlərindən idi) ümumiliklə Əbu Cəfər İsqafinin nəzərində (həzrət Əlinin üstünlüyü qənaətində) idilər. Üstün olmalarından məqsəd isə, onların savablarının hər kəsdən çox olması, Allah təala yanında ən dəyərli zatlar və Qiyamət günü məqamlarının hər kəsdən daha yüksək olması idi.

Daha sonra eyni səhifənin sonunda Mötəzilə inancını şer şəklində bəyan edərək belə demişdir:

***Məhəmməd Mustafadan sonra Allahın ən üstün qulu və ən şərəflisi,***
***Vəsilərin ağası və Bətulun yoldaşı olan Mürtəza Əlidir.***
***Ondan sonra iki oğlu, sonra Həmzə və Cəfərdir.***
***Onlardan sonra isə Ətiqdir (Zeyd), bu, inkar edilməzdir!***

**Şeyx**: «Siz alimlərin xəlifə Əbu Bəkrin imanının üstünlüyünün isbatı haqqındakı nəzərlərini bilsəydiniz, belə bəyan etməzdiniz».

**Dəvətçi**: «Siz də təəssübkeş alimlərdən üz çevirib insaflı alimlərinizə tərəf yönəlsəniz, hamısının həzrət Əlinin üstünlüyünü təsdiq etdiyini görərsiniz!

Məsələn: İbn Əbil-Hədid Mötəzilənin «Nəhcüll-bəlağənin şərhi» kitabının 3-cü cildinin 264-cü səhifəsinə baxın. Sizin «Əbu Bəkrin imanı Əlinin imanından daha üstündür» bəyanınızın eynisini Canizdən bildirmiş və böyük Mötəzilə alimi Əbu İsqafinin bu iddiaya aid verdiyi cavabı da geniş nəql etmişdir. İsqafi verdiyi cavabda Həzrət Əlinin kiçik yaşda gətirdiyi imanının Əbu Bəkr və bütün səhabələrin imanından daha üstün olduğunu əqli və nəqli dəlillərlə isbat edir. Daha sonra 275-ci səhifədə sözünə belə davam edir: «Əbu Cəfər belə dedi: «Biz əshabın fəzilət və sələfliyini inkar etmirik; lakin içərilərindən hər hansı birinin həzrət Əlidən üstün olduğu düşüncəsini rədd edirik!».

Bu anadək danışılan sözlərə əsasən, həzrət Əlini (ə) digər səhabəylə müqayisə etmək doğru deyildir. Çünki İmamın məqamı o qədər ucadır ki, hər hansı bir səhabə və ya başqa bir kəslə müqayisə olunmaz. O ki, qaldı söylədiyiniz birtərəfli olan bir neçə (fərz edək ki, doğrudur) hədislə səhabənin fəzilətlərini o həzrətin uca məqamı qarşısında üstün göstərə biləsiniz!

Bu səbəbdən Mirseyid Həmədani «Məvəddətül-qurba» kitabının 7-ci məvəddəsində Əhməd ibn Məhəmməd Kurzi Bağdadidən nəql edir: «Abdullah ibn Əhməd ibn Hənbəlin belə dediyini eşitdim: «Atamdan – Əhməd ibn Hənbəldən (Hənbəlilərin başçısı) səhabənin fəziləti və məqamı haqqında soruşdum. Əbu Bəkr, Ömər və Osmanın adlarını zikr edib susdu. Dedim: «Ata, nə üçün Əli ibn Əbu Talibin adını qeyd etmədin?». Atam cavabında dedi: «O, Əhli-beytdəndir; bunlar onunla müqayisə edilə bilməz».

Yəni Qurani-kərimin ayələri və cəlal sahibi Peyğəmbəri-əkrəmin (s) sözlərinin hökmünə görə, risalət Əhli-beytinin (ə) məqam və mərtəbəsi ən üstün məqam və mərtəbədir. Həzrət Əlinin məqam və mərtəbəsi də bütün səhabə və digərlərindən daha ucadır. Onun adını əshabın sırasında deyil, nübuvvət və risalət sahibi olan kəslərin arasında zikr etmək lazımdır!

Bu səbəbdən «Mübahilə ayəsi»ndə Allah-təala Əlini Rəsulallahın nəfsi dərəcəsində tanıtmışdır. Bunun dəlili başqa bir hədisdir. «Məvəddət» kitabının 7-ci fəslində Əbu Vail Abdullah ibn Ömər ibn Xəttabdan belə nəql etdiyi zikr olunmuşdur: «Bir gün Rəsulallahın səhabəsini sayırdıq. Əbu Bəkr, Ömər, Osman dedik. Bir nəfər: «Ey Əbu Əbdürrəhman (Abdullah ibn Ömərin günyəsi)! Bəs, Əlini nə üçün saymadınız?»-deyə soruşdu. Abdullah da cavabında belə dedi: «Əli Əhli-beytdəndir. Onunla heç kim müqayisə edilə bilməz.O, Rəsulallah ilə bərabər və Onun dərəcəsindədir».

Yəni Həzrət Əlinin məqamı ümmətin və səhabənin məqamı sırasında deyildir; Onun məqamı, Rəsulallahın məqamı və dərəcəsindədir.

İzn versəniz, «Məvəddət» kitabının eyni fəslində yer alan başqa bir hədisi də hüzurunuza təqdim edərdim. Cabir Abdullah Ənsaridən belə nəql edir: «Bir gün Rəsulallah mühacir və ənsarın hüzurunda Əliyə xitabən belə buyurdu: «Ey Əli! Əgər bir kimsə, Allah-təalaya haqqıyla ibadət edib, sonra sən və Əhli-beytinin insanların ən üstünü olduğuna şübhə edərsə, yeri Cəhənnəm atəşi olar».

(Məclisdə olanların hamısı, xüsusilə də Hafiz, bu hədisi eşitdikdə, şübhə edənlərdən olmaması üçün istiğfar etdilər.)

Xülasə, bunlar həzrət Əlinin bütün ümmət və səhabədən fəzilətli və üstün olduğu haqqında nəql edilən hədislərdən bir nümunə idi. Siz, ya mötəbər kitablarınızda olan bu qədər səhih hədisləri rədd edəcək, ya da ağlın və nəqlin Hökmünə görə həzrət Əlinin Əbu Bəkr və Ömər də daxil olmaqla bütün səhabələrdən daha üstün olduğunu qəbul edəcəksiniz.

Həzrət Əli (ə) Əhzab və «Xəndək» döyüşündə ərəblərin qəhrəmanı olan Əmr ibn Əbdəvidi öldürdükdən sonra Rəsulallahın buyurduğu və hər iki məzhəbin də ittifaq etdiyi bu hədisə - «Əlinin Xəndək döyüşündə vurduğu bir zərbəsi insan və

cinlərin ibadətindən daha üstündür» yaxşı diqqət etsəniz, imam Əlinin bir əməlinin bütün insan və çinlərin ibadətindən üstün olması Onun digər əməlləriylə birlikdə göz önündə canlandırılarsa, o zaman O Həzrətin digərlərindən üstün olması sizin üçün daha yaxşı anlaşılar. Bunu çox inadkar və mütəəssiblərdən başqa heç kəs inkar etməz!

Əgər həzrət Əlinin üstünlüyünə heç bir dəlil olmasa belə, Mübahilə ayəsi (ki, ayədə Allah-təala onu Peyğəmbərin nəfsi olaraq zikr etmişdir) Onun bütün əshab və digər insanlardan üstünlüyünü isbat etməyə kifayət edər. Çünki Rəsulallahın keçmişdəkilərin və gələcəkdəkilərin ən üstünü olduğu sabitdir. Elə isə Mübahilə ayəsindəki «Ənfüsəna» kəlməsinin hökmünə görə Həzrət Əli də keçmişdəkilərin və gələcəkdəkilərin ən üstünüdür!

Bu halda təsdiq edin ki, «Vəlləziynə məəhu»nun (Rəsulallahla birlikdə olanın) həqiqi misdaqı mövlamız Əmirəl-möminin Əlidir. həzrət Əli İslam daha zühur etmədən əvvəl Rəsulallah ilə bərabər idi; İslam zühur etdikdən sonra da Peyğəmbərin ömrünün sonuna qədər davamlı olaraq o həzrətlə (s) birlikdə olmuş, həyatında ən kiçik xəta və yanlışlıq belə görülməmişdir».

(Namaz vaxtı çatdı. Qonaqlar ayağa qalxıb, namazlarını qıldılar. Çay içdikdən sonra sözə başladım.)

**Dəvətçi**: «Həzrət Əlinin (ə) Rəsuli-əkrəmin (s) Hicrət etdiyi gecə Onunla bərabər hərəkət etməməsinə gəlincə, bunun səbəbi çox aydındır. Çünki Rəsulallahın əmriylə İmamın öhdəsinə ağır vəzifələr düşmüşdü. Bu səbəbdən O, Məkkədə qalmalı və vəzifələrini yerinə yetirməliydi.

Xalqın əmanətlərinin özlərinə geri qaytarılması üçün Rəsulallahın Həzrət Əlidən daha əmin bir kəsi yox idi. (Bilindiyi kimi həzrət Peyğəmbər dost və düşmənlərin birgə qərar verdiyi Məkkə əhlinin əmin bildiyi bir şəxs idi. Bunun üçün düşmənləri belə əmanətlərini O həzrətin yanına qoyurdular. Bax, bu səbəbdən İslamdan əvvəl ona «Məhəmməd-Əmin» deyirdilər.)

Həzrət Əlinin üzərinə düşən vəzifələrdən biri də Rəsulallahın ailəsiylə qalan müsəlmanları Mədinədə yerləşdirmək idi.

Bunlara əlavə olaraq deyək ki, o gecə Həzrət Əli mağarada Həzrət Peyğəmbərlə birlikdə olmasa da, ondan daha böyük bir məqam əldə etmişdi. İmam (ə) Rəsulallahın yatağında yatmaqda öz canını təhlükəyə atmış, Peyğəmbəri-əkrəmi qorumuşdu. Əbu Bəkr Peyğəmbərin yol yoldaşı olaraq «ikisindən ikincisi» sayılırsa, eyni gecə mağarada yoldaşlıqdan daha əhəmiyyətli və daha yaxşı olan bir iş üçün müstəqil olaraq bir ayə həzrət Əlinin mədhinə nazil olmuşdur. Həzrət Əlinin bu əməli (hər iki məzhəbin ittifaqıyla) Onun iftixara layiq, məqam və fəzilətlərindən biri sayılır. Əgər o gecə həzrət Əlinin fədakarlığı və canından keçməsi olmasaydı, Həzrət Peyğəmbərin canı böyük bir təhlükəylə qarşı-qarşıya qalardı.

## HİCRƏT GECƏSİ PEYĞƏMBƏRİN (S) YATAĞINDA YATAN HƏZRƏT ƏLİ (Ə) HAQDA AYƏNİN NAZİL OLMASI

Etibarlı və böyük alimləriniz mötəbər təfsir və hədis kitablarında bu böyük fəziləti nəql etmişlər:

İbn Səbi Məğribi: «Şifaus-sudur»; Təbərani: «Ovsət» və «Kəbir»; İbn Əsir: «Usdul-ğabbə», c: 4,səh:25; Nurəddin ibn Səbbağ Maliki: «Füsulul-mühimmə fi mərifətül-əimmə» səh: 33; Əbu İshaq Sələbi, Fazil Nişapuri, imam Fəxri Razi və Cəlaləddin Siyuti «Təfsir»; Şafei olan mühəddis Hafiz Əbu Nəim İsfahani: «Ma nəzələl-Quranu fi Əliyyin»; Xətib Xarəzmi: «Mənaqib»; Şeyxül-İslam İbrahim ibn Məhəmməd Həmuyini: «Fəraid»; Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» bab: 62; imam Əhməd Hənbəl: «Müsnəd» Məhəmməd ibn Cərir (müxtəlif mənbələrdən); İbn Hişam «Sirətun-Nəbi», Hafiz və Şamın mühəddisi «Ərbəin tival» imam Ğəzzali: «İhyaul-ulum», c: 3, səh: 223; Əbu Səadat «Fəzailü itrətit-tahirə»; İbn Əbil-Hədid: «Nəhcül-bəlağənin şərhi»; Səbt ibn Cövzi: «Təzkirətul-xəvass»,səh: 21...

digər böyük alimləriniz öz dəyərli kitablarında müxtəlif cümlələrlə hicrət gecəsi xas bir ayənin həzrət Əlinin şəninə nazil olmasını nəql etmişlər.

Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə» kitabının 21-ci babında bir çox alimlərdən belə nəql edir: «Rəsulallah (s) Allahın əmriylə Mədinəyə hicrət etdikdə Əmirəl-mömini1 Əlini çağıraraq belə buyurdu: «Gecələr üzərimə örtüb yatdığı» yaşıl qüməşı[1] üzərinə örtərək, yatağımda yat!».

Həzrət Əli də Peyğəmbəri-əkrəmin evini pusan müşriklərin yataqda yatanın başqası olduğunu anlamamaları üçün o həzrətin buyurduğu şəkildə etdi. Beləliklə, Rəsulallah  rahatca onların arasından çıxıb getdi.

Allah-təala Cəbrayıl (ə) və Mikayıla (ə) buyurdu: «**Mən sizin aranızda qardaşlıq icad etdim. İndi birinizin ömrü digərindən çoxdur. Sizdən hansı bilmədiyi ömrünün çoxunu digərinə bağışlamağa hazırdır**?». Ərz etdilər: «Allahım, bu bir əmrdir, yoxsa ixtiyaridir?». Allah-təala buyurdu: «**Əmr deyil, ixtiyaridir**».

Lakin onlardan heç biri iradə və ixtiyarla ömrünün çox olan hissəsini digərinə bağışlamağa hazır olmadı. Bu vaxt Allah-təala onlara belə xitab etdi: «**Mən, vəlim olan Əliylə nəbim olan Məhəmmədin arasında qardaşlıq qərar verdim. Əli öz həyatını Peyğəmbərə fəda etməyi qəbul edərək, canıyla Onu qorumaq üçün yatağında yatdı. Yer üzünə enin. Onu düşmənlərin şərrindən qoruyun!**»

Mələklər o an yerə endilər. Cəbrayıl Əlinin (ə) başı üzərində, Mikayıl isə ayaq tərəfində oturdu və Cəbrayıl belə dedi: «Təbriklər olsun, təbriklər olsun, sənə ey Əbu Talibin oğlu! Allah  səninlə mələklər qarşısında iftixar edir».

Bu vaxt «Bəqərə» surəsinin 207-ci ayəsi Rəsulallaha nazil oldu: «**İnsanlardan eləsi var ki, Allahın razılığını qazanmaq üçün canını satar (fəda edər). Allah  da Öz (bu) bəndələrinə qarşı çox mehribandır**».

İndi ricam budur: zəhmət olmasa, evə qayıtdıqda özünüzü hər cür  təəssüb və şiə-sünni düşüncəsindən uzaqlaşdırıb, insafla Mağara ayəsi ilə bu ayəni müqayisə edin. Öz-özünüzdən soruşun: Görəsən, iftixar Rəsulallah ilə qəm-qüssə içində bir neçə gün bərabər olan bir insan üstündür, yoxsa bilərək, sevə-sevə canını həzrət Peyğəmbərə fəda edən. Allahın mələlərlə müqayisədə üstünlük verdiyi və bu fədakarlıq haqqında nazil olan ayənin mistaqı olan bir kəs?!

---

[1] Yataq üçün nəzərdə tutulan örtük

Bir qisim böyük alimləriniz də özlərini təəssübdən uzaqlaşdıraraq müxtəsər olaraq diqqətlə araşdırdıqları üçün həzrət Əlinin Əbu Bəkrdən daha fəzilətll olduğunu təsdiq etmiş və Onun Rəsulallahın yatağında yatmasını, Əbu Bəkrin mağarada Peyğəmbərlə birlikdə olmasından daha üstün bilmişlər!

## ƏLİNİN (Ə) PEYĞƏMBƏRİN (S) YA TAĞINDA YATMASININ ƏBU BƏKRİN YOL YOLDAŞLIĞINDAN FƏZİLƏTLİ OLMASI BARƏDƏ ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ETİRAFLARI

Əgər İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi» kitabının 3-cü cildinin 269-281-ci səhifələrinə baxsanız, mötəzililərin böyük alim və şeyxlərindən olan imam Əbu Cəfər İsqafinin Əbu Osman Cahizin (nasibidir) şübhələrinə verdiyi rədd cavabını görərsiniz. O insaflı alim həzrət Əlinin Əbu Bəkrdən üstünlüyünü açıq dəlillərlə isbat etmiş və Əlinin Hicrət gecəsi Rəsulallahın (s) yatağında yatmasının, Əbu Bəkrin bir neçə günlük yol yoldaşlığından daha üstün olduğunu vurğulamışdır.

İsqafi sözünün davamında belə deyir: «İslam alimləri demişlər: «İshaq və İbrahimin qurbanlıq mövzusunda təslim olmalarından başqa heç bir kəs Həzrət Əlinin o gecəki fəzilətinə yetişə bilməz»[1].

Sözügedən kitabın 271-ci səhifəsində Əbu Cəfər İsqafinin nasibi Əbu Osman Cahizə verdiyi cavabındakı bu sözləri nəql edilir: «həzrət Əlinin Hicrət gecəsi Rəsulallahın yatağında yatmasının Əbu Bəkrin mağarada həzrət Peyğəmbərlə birlikdə olmasından daha üstün olduğunu insaflı şəxslərə açıq-aydın şəkildə bəyan etdik».

İndi, bir az əvvəl zikr etdiyim sözləri daha da möhkəmləndirmək üçün əlavə etmək istəyirəm: hicrət gecəsi həzrət Əlinin Rəsulallahın yatağında yatmasının, Əbu Bəkrin mağarada Rəsulallah ilə birlikdə olmasından daha üstün olmasının iki səbəbi vardır:

---

[1] Amma müfəssir, mühəddis və tarixçilərin çoxunun dəlili İshaqın (ə) deyil, İsmayılın (ə) qurban edilməsidir.

Birincisi; Həzrət Əli Rəsulallaha (s) alışmış və hər vaxt Onunla bərabər olmuşdur. Bu müddət ərzindəki yoldaşlıq və bərabərlikdən sonra ayrılıq çox çətin olur. Hələ, buna bir də Rəsulallahın canının təhlükəyə düşməsindən ehtiyat etmək əlavə olunarsa, daha da çətin olur. Əbu Bəkr isə Peyğəmbərlə çox ünsiyyətdə olmadığına görə yalnız onunla yol yoldaşı oldu, heç bir ayrılıq həsrəti yaşamadı. Bax, Əlinin savabı buna görə Əbu Bəkrin savabından daha çoxdur. Çünki savab, çəkilən zəhmətə görədir!

İkincisi; Əbu Bəkr ardıcıl olaraq Məkkədən ayrılıb ticari səfərlərə gedirdi. Uzun bir müddət idi ki, Məkkədən çıxmamışdı; bu səbəbdən çox sıxılırdı. O, Rəsulallahla bərabər şəhərdən kənara çıxdıqda onun üçün bir çətinlik olmadı. Çünki o, səfərdə olmağa alışmışdı. Bu vəziyyətdə onun üçün qılınclarla üz-üzə qalan, həsrət çəkən birinin fəziləti ilə müqayisə olunacaq hər hansı bir savab yoxdur! Çünki savab, çəkilən zəhmətin əvəzində verilir.

İbn Səb Məğribi «Şifaus-sudur» kitabında Həzrət Əlinin şücaəti haqqında belə deyir: «Ərəb alimləri ittifaq etmişlər ki, Həzrət Əlinin o gecə Peyğəmbərin yatağında yatması O həzrətlə səfər yoldaşı olmaqdan daha üstündür. Çünki həzrət Əli özünü Rəsulallaha fəda etdi, həyatını Ona bağışladı, şücaətini yaxınları arasında isbat etdi.»

Bu mövzu o qədər aydındır ki, heç kim bunu inkar etməmişdir: inkar edən ya dəlidir və ya dəlilikdən daha pis olan təəssüb xəstəliyinə tutulmuşdur! Söz burada bir az uzandığı üçün üzr istəyirəm, indi əsl mövzumuza keçək.

Buyurduğunuz «Kafirlərə qarşı sərt olan»dan məqsəd ikinci xəlifə Ömər ibn Xəttabdır» sözünüzə gəlincə; bu sadəcə iddia ilə olmaz! Görək, bu sifət şamil etdiyiniz şəxsə uyğun gəlir, yoxsa yox? Əgər uyğun gələrsə, onu cani-qəlbdən qəbul edərik.

## ELMİ VƏ DİNİ BƏHSLƏRDƏ ÖMƏRİN SƏRTLİYİ YOXDUR

Aydındır ki, sərtlik iki istiqamətdə ola bilər: Ya elmi və dini bəhslərdə (əcnəbi alimlər qarşısında) bəyanı sərt, güclü və dəlilli, ya da döyüş və cihad meydanlarında sərtlik, rəşadət və şücaət nümayiş etdirilir.

Dini və elmi bəhslərdə xəlifə Ömər Haqqında tarixdə, qətiyyən, hər hansı bir sərtlik və rəşadət görülməmişdir. Hər iki məzhəbin hədis və tarixi, Hətta əcnəbilərin yazdığı kitablarda belə bu iki istiqamətdə xəlifə Ömər haqqında hər hansı bir sərtlik və qətilik görülməmişdir. Əgər möhtərəm ağalar xəlifə Ömərin həyatı haqqında olan tarixi əsərlərdə onu əcnəbilərlə hər hansı bir elmi və dini bəhslərdə görmüşlərsə, buyursunlar; biz də məmnuniyyətlə dinləyərik, elmimiz də artar.

## ÖMƏRİN HƏZRƏT ƏLİNİN (Ə) ELM VƏ ƏMƏL BAXIMINDAN ÜSTÜNLÜYÜNÜ ETİRAF ETMƏSİ

Böyük alimlərinizin yazdığı mötəbər kitablarda xəlifələrin xilafətləri dövründə onların elmi və dini problemlərini həzrət Əlinin (ə) həll etdiyini nəql etmişlər. Əməvilər və bəkrilərin çox sayda hədis uydurmalarına baxmayaraq, bu həqiqəti gizlədə bilməmişlər. Yəhudi, xristian və digər müxalif qurumların dini xadimləri Əbu Bəkr, Ömər və Osmanın xilafət dövründə onların yanına gəlir, çətin suallar soruşduqda və ya məktub yazaraq cavab istədikdə, xəlifələr həzrət Əliyə sığınırdılar və «Bu sualların cavabını Əli ibn Əbu Talibdən başqası verə bilməz deyirdilər. Bax, buna görə Həzrət Əli onların məclislərində iştirak edir, cavablarını təmin edəcək bir şəkildə verir, onlar da musəlman olurdular. Xəlifələrin tarixində bu məsələlər qeyd olunmuşdur.

Bu mövzunun isbatı üçün xəlifələrin çətin suallar qarşısında aciz qalmaları və «Əgər Həzrət Əli olmasaydı həlak olardıq»-deyə etiraf etmələri kifayətdir. Böyük alimləriniz mötəbər kitablarında Əbu Bəkrin belə dediyin nəql etmişlər: «Məni

xəlifəlikdən salın, məni bir kənara qoyun; Əli içinizdə olduğu müddətdə mən ən xeyirliniz deyiləm».

Xəlifə Ömər (müxtəlif yer və hadisələrdə 70 dəfədən çox) «Əli olmasaydı, Ömər həlak olardı»-deyə etiraf etmişdir.

Həlak ola biləcəyi məsələlərin mövzularını da ümumilikdə nəql etmişlər. Amma mən məclisin vaxtını çox almamaq üçün bu mövzuya toxunmaq istəmirəm; çünki bəhs ediləcək daha əhəmiyyətli mövzular qala bilər».

**Nəvvab**: «Qibləsahib! Bu mövzudan daha vacib mövzu varmı? Görəsən, bizim kitablarda bu cür sözlər nəql edilmişdirmi? Nəql edilmişdirsə, yadınızda olanları bəsirətimizin artması üçün buyurun; məmnun olarıq».

**Dəvətçi**: «Ərz etdiyim kimi, əhli-sünnət vəl-cəmaatın böyük alimləri (az bir qrup inadkar və təəssübkeşlərdən başqa) bu mövzuda eyni fikrə gəlmişlər. Xəlifələrin bu cür sözlərini müxtəlif yerlərdə, müxtəlif deyim və ibarələrlə nəql etmişlər. Mövzunun aydınlığa qovuşub, höccəti tamamlanması üçün hafizəmdə olan sənəd və kitabların bəzisini bildirəcəyəm.

## ÖMƏRİN «ƏLİ OLMASAYDI, ÖMƏR HƏLAK OLARDI» SÖZÜNÜN SƏNƏDLƏRİ

1. Mütəəssib Qazi Fəzlullah ibn Ruzbəhan: «İbtalul-batil»; 2. İbn Həcər Əsqalani (ö: 852): «Təhzibut-təhzib»,səh: 337, (Çap: Heydərabad Dekn); 3. İbn Həcər «İsabə», c: 2, səh: 509; 4. İbn Qutəybə Diynəvəri (ö: 276): «Tə vilu müxtəlifil-hədis», səh: 201, 202; 5. İbn Həcər Məkki (ö: 973): «Səvaiqul-muhriqə», səh: 78; 6. Hacı Əhməd Əfəndi: «Hidayətul-murtab», səh: 146-152; 7. İbn Əsir Cəzri (ö: 630): «Usdul-ğabbə», c: 4, səh: 22; 8. Cəlaləddin Siyuti: «Tarixul-xuləfa». səh: 66: 9. İbn Əbdul-birr Qirtəbi (ö: 463): «İstiab». ç: 2. səh: 474; 10. Seyid Mömin Şəblənci: «Nurul-əbsar», səh: 73: 11. Şəvabuddin Əhməd ibn Əbdül-qadir Əciyli: «Zəxirətul-mal»: 12. Məhəmməd ibn Əli Səbban: «İsafur-rağibin», səh: 152: 13. Nurəddin ibn Sabbağ Maliki (ö: 855): «Füsulul-mühimmə». səh: 618: 14. Nurəddin Əli ibn Əbdullah Səmiudi (ö:911): «Cəvahirul-əqdəyn»; 15.

İbn Əbil-hədid Mötəzili (e: 655): «Nəhcül-bəlağənin şərhi». ç: 1, səh: 6; 16. Əllamə Quşçi: «Şərhi təcrid». səh: 407: 17. Xətib Xarəzmi: «Mənaqib», səh: 48, 60; 18. Məhəmməd ibn Talvə Şafei: «Mətalibus-süul», fəsil: 6, səh: 29: 19. İmam Əhməd ibn Hənbəl: «Fəzail» və «Müsnəd»; 20. Səbt ibn Çövzi: «Təzkirə», səh: 85, 87; 21. İmam Sələbi: «Təfsirül Kəşfil-bəyan»; 22.Əllamə İbn Qəyyim Cövzi: «Turuqul-hökmiyyə». səh: 41-53 (O həzrətdən (ə) bir çox hadisələri nəql etməklə): 23. Məhəmməd ibn Yusif Gənci Şafei (ö:658): «Kifayəut-talib». bab: 57; 24. İbn Maccə Qəzvini: «Sünən»; 25. İbn Məğazəli Şafei: «Mənaqib; 26. İbrahim ibn Məhəmməd Həmuyini: «Fəraid»; 27. Məhəmməd ibn Əli ibn Həsənil-Həkim Tirmizi: «Şərhul-fəthil-mubin»; 28. Deyləmi: «Firdovs»; 29. Şeyx Süleyman Bəlxi Hənəfi: «Yənabiul-məvədlə». bab: 14; 30. Hafiz Əbu Nəim İsfahani «Hilyətul-övliya» və «Ma nəzələl-Quranu fi Əliyyin».

Və sizin digər bir çox böyük alimləriniz müxtəlif deyim və ibarələrlə xəlifə Ömərin belə dediyini nəql etmişlər: «Əgər Əli olmasaydı, Ömər həlak olardı».

## HƏZRƏT ƏLİNİN (Ə) XƏLİFƏLƏRƏ NİCAT VERMƏSİ VƏ ONLARIN BU HAQDA ETİRAFLARININ BƏZİ MÖVQELƏRİNƏ İŞARƏ

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-talib fi mənaqibi Əli ibn Əbi Talib» kitabının 57-ci babında bir qrup hədislər nəql etdikdən sonra Huzeyfə ibn Yəməninin hədisini (Digər alimləriniz də nəql etmişdir) sənədləriylə qeyd etmişdir: «Bir gün Ömər Huzeyfə ibn Yəməni ilə qarşılaşdıqda «Necə sübh elədin?»-deyə soruşdu. Huzeyfə belə cavab verdi: «Elə bir halda sübhü açdım ki, haqqı sevmirəm, fitnəni sevirəm; görmədiyim şeyə şəhadət verirəm; məxluq olmayanı qoruyuram, dəstamazsız salavat göndərirəm; mənim üçün yerdə olan Allah üçün göydə yoxdur».

Ömər bu sözləri eşidcək çox əsəbiləşib, onu cəzalandırmaq istədi. Bu vaxt həzrət Əli gəldi. Öməri əsəbi gördükdə, səbəbin soruşdu. Ömər hadisəni danışdıqdan sonra İmam belə buyurdu: «Önəmli deyil, hamısını doğru söyləmişdir.

Onun sevmədiyi haqdan məqsəd ölümdür; fitnəni sevməsində məqsəd mal və övladdır; görmədiyi şeyə şəhadət verməsindən məqsəd Allahın varlığı, Qiyamət günü öldükdən sonra dirilmək, Cənnət-Cəhənnəm və Siratdır; məxluq olmayanı qorumasından məqsəd Qurani-kərimdir, o, məxluq deyildir; dəstamazsız salavat göndərirəm deməsindən məqsəd Rəsulallaha salavat göndərməsidir ki, bu da caizdir (icazə verilir); mənim üçün yerdə var, amma göydə Allah üçün yoxdur deməsindən məqsəd isə öz xanımıdır ki, onun yer üzündə bir xanımı var; amma Allah-təala xanım və övladdan uzaq və pakdır».

Ömər həzrət Əlinin bu açıqlamasını eşidcək dedi: «Əli ibn Əbu Talib gəlməsəydi, haradasa Xəttab oğlu həlak olacaqdı».

Yusif Gənci Şafei sonra belə deyir: «Ömərin bu sözü hədisçilərin yanında qətidir və bir çoxları bunu nəql etmişdir».

«Mənaqib» kitabının müəllifi deyir: «Xəlifə Ömər dəfələrlə belə demişdir: «Ya Əbəl-Həsən! Sənin yaşamadığın bir cəmiyyətdə mən yaşaya bilmərəm»; «Qadınlar Əli ibn Əbu Talib kimi insanı dünyaya gətirməkdə acizdirlər».

Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul» və Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə» kitabının 14-cü babında Tirmizidən, o da İbn Abbasdan uzun bir hədis nəql etmişdir. Hədisin sonunda belə deyir: «Əshab Kitabın (Quranın) əhkamını həzrət Əlidən öyrənib, ondan fitva alırdı. Bu səbəbdən Ömər ibn Xəttab bir çox yerdə belə demişdir: «Əli olmasaydı, Ömər həlak olardı». Rəsulallah (s) belə buyurmuşdur: «Ümmətimin ən alimi Əli ibn Əbi Talibdir».

Bu qısa bəyanla deyilənləri nəzərə alıb diqqət etsəniz, münazirə və dini bəhslərdə Ömərin hər hansı bir sərtliyi və qətiyyəti olmadığını təsdiq edərsiniz. Hətta, özü bu məsələlərdə acizliyini və Əlinin (ə) onun xilaskarı olduğunu etiraf etmişdir. Mövzu o qədər aydındır ki, ən mütəəssib alimlərinizdən olan İbn Həcər Məkki belə «Səvaiqul-muhriqə» kitabının 3-cü fəslində İbn Səddən Ömərin belə dediyini nəql etmişdir: «Əlinin olmadığı yerdə çox çətin və qarışıq işlərdən Allaha sığınıram».

## DÖYÜŞ MEYDANLARINDA XƏLİFƏ ÖMƏRDƏN HƏR HANSI BİR ŞÜCAƏT VƏ QƏHRƏMANLIQ GÖRÜLMƏMİŞDİR

Heç bir tarixçi tərəfindən döyüş meydanlarında xəlifə Ömərin şücaət və qəhrəmanlığına dair bir şey yazılmamışdır. Hətta əksinə, tarixin və hər iki məzhəb tarixçilərinin yazdıqlarına görə, Ömər böyük bir ordu və ya kafirlərdən güclü bir döyüşçü ilə qarşılaşdığı zaman döyüş meydanını tərk edərək qaçmış və onun bu əməli nəticəsində bir qrup digər  müsəlmanlar da qaçaraq, İslam ordusunu məğlubiyyətə uğratmışlar».

**Hafiz**: «Həddinizi aşaraq müsəlmanların iftixarı olan xəlifə Öməri insafsızcasına təhqir edirsiniz. Onun xilafəti dövründə bir çox fəthlər müsəlmanlara nəsib olmuş, İslam ordusu onun vücudu səbəbiylə bütün döyüşlərdə zəfər əldə etmişdir. Bütün bunların müqabilində o böyük insanı qorxaq, döyüş meydanından qaçan və müsəlmanların məğlubiyyətinə səbəb olan bir kəs sayırsınız?! Görəsən, sizin kimi şərif bir şəxsin xəlifə Ömər kimi müsəlmanların iftixar qaynağı olan böyük bir insanı bu qədər təhqir etməsi və bizim də dinləyib susmağımız doğrudurmu?».

**Dəvətçi**: «Çox böyük bir səhv etdiniz. Neçə gecədir birlikdəyik. Lakin məni layiqincə tanımadığınıza təəccüblənirəm! Mənim həvaye-həvəsə tabe olaraq və ya cahilanə sevgi və nifrət üzündən dəlilsiz olaraq, hansı  sinifdən olursa-olsun, hər hansı bir şəxsi, xüsusilə də tarixdə qabaqcıl olan şəxsləri tərifləyəcəyimi və ya pisləyəcəyimi sanırsınız?!

İllər boyu müsəlmanların bədbəxtliyinə səbəb olan şey sui-zəndir. Bu əməl, Quran-kərimin buyurduğuna ziddir; müsəlmanlar bu əməli tərk etməlidirlər. Allah-təala «Hücərat» surəsinin 12-ci ayəsində buyurur: «««.

Bu sözlər bir şiənin dilindən çıxdığı üçün onları pis bir şəkildə qiymətləndirirsiniz. Halbuki, vəziyyət bildiyiniz kimi deyildir. Öz alim və tarixçilərinizin söylədiyindən artıq bir şey demədim. Bu aydındır ki, nə mən, nə də siz keçmişdə yaşamamışıq. Amma hər ağlın hökmüylə insanların yaxşı və pis əməllərini tarix səhifələri üzərində qərar verməmək olmaz!

# YENƏ DƏ HƏQİQƏTİN BƏYANI

«Öməri təhqir etdiniz» sözünüzə gəlincə, burada ifrata getdiniz və ya bu sözlə müxaliflərin hisslərini təhrik etməyə çalışdınız. Halbuki, bizim xəlifəyə aid olan sözümüzdə təhqiredici bir şey yoxdur; sadəcə tarixdə yazılmış həqiqi olan bir hadisəni bəyan etdim və sizin alim və böyüklərinizin yazdıqlarından artıq bir şey söyləmədim, söyləmərəm də. Amma sui-zənn və anlaşılmazlığın ortadan qalxması üçün pərdəni kənara çəkib, mövzunu daha geniş və daha aydın bir şəkildə bəyan etməyim lazım gəlir.

«Böyük fəthlər Ömərin xilafəti dövründə müsəlmanlara nəsib olmuş, İslamın əhəmiyyətli fəthləri onun əliylə gerçəkləşmişdir» sözünüzə gəlincə bildirim ki, Ömərin idarəçiliyi dövründə İslamın böyük fəthlərə nail olduğunu heç kim inkar etməmişdir. Amma bununla birlikdə unudulmamalıdır ki, sizin böyük alimləriniz, məsələn; Qazi Əbu Bəkr Xətib «Tarixi-Bağdad», imam Əhməd ibn Hənbəl «Müsnəd» və İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabında və s. şəxslər öz əsərlərində xəlifə Ömərin ölkənin bütün işlərində, xüsusilə ordu səfərbər etməkdə imam Əliyə müraciət edib, O həzrətin buyurduqlarına uyğun hərəkət etdiyini iqrar və etiraf etmişlər.

Bundan əlavə, İslamın fəthləri hər dövrdə fərq edirdi. Birinci qisim, bilavasitə həzrət Rəsulallahın öz zamanında gerçəkləşən böyük fəthlərdir. Bunlar həzrət Əlinin vücudunun bərəkətiylə olunmuşdur. Çünki demişlər:

***Ordu təkbaşına bir zabit olmadan işə yaramaz;***
***Bir döyüşçü zabit, yüz min kişidən daha yaxşıdır.***

Mükəmməl döyüşçü, İslam və müsəlmanların örnəyi, vücudu İslam ordusunun fəth və zəfərlər əldə etməsinə səbəb olan şəxs Həzrət Əli ibn Əbu Talibdir. Çünki əgər O, hər hansı bir döyüşə qatılmasaydı, zəfər əldə edilməzdi. Bunun dəlili Xeybər fəthidir. Bu döyüşdə O həzrətin gözü ağradığına görə döyüş meydanına getməmişdi. Müsəlmanlar nə qədər hücum etdilərsə də, Xeybər qalasını

fəth edə bilməyib, məğlub oldular. Amma həzrət Əli Rəsulallahın duasıyla yaxşılaşıb, düşmənə amansızcasına hücum edərək, Xeybər qalasını fəth etdi.

Ühüd döyüşündə də bütün müsəlmanlar qaçdı. Rəsulallahın yanında təkcə həzrət Əli qaldı. Bu anda qeybdən bu cümlə eşidildi: «Əli kimi igid, Zülfüqar kimi də qılınc yoxdur!».

Rəsulallahın vəfatından sonrakı ikinci qisim fəthlərə gəlincə, bu fəthlər İslamın şanlı qəhrəmanları, təcrübəli başçıları və onların fədakarlıq və xas döyüş planları ilə düşmənin qarşısına çıxmaları sayəsində baş vermişdir.

Mövzumuz, Ömərin xilafəti dövründə olan fəthlər haqqında deyildir. Mövzu, xəlifə Ömər ibn Xəttabın şəxsi keyfiyyətləri, şücaət və qəhrəmanlığı haqqında idi. Ərz etdiyim kimi, tarixdə onun haqqında belə bir şey görülməmişdir!».

**Hafiz**: «Ömərin döyüş meydanlarından qaçdığını və onun bu fərariliyi səbəbindən müsəlmanların məğlub olduğunu buyurmağınız, xəlifə Öməri təhqir etmək deyil?».

**Dəvətçi**: «Şəxsiyyətlər haqqındakı tarixi həqiqətləri nəql etmək təhqirdirsə, bu təhqiri əvvəl sizin böyük alimləriniz və tarixçiləriniz etmişlər. Mən, sadəcə onların nəql etdikləri şeyləri ərz etdim. Əgər bir müşkül və narahatçılığınız varsa, bunu həmin hadisələri qeyd edən öz böyüklərinizə yönəldin!».

**Hafiz:** «Bizim alimlərimiz harada və hansı kitabda xəlifə Ömərin döyüş meydanlarından qaçdığını və müsəlmanların məğlubiyyətinə səbəb olduğunu nəql etmişlər?».

## ƏBU BƏKR VƏ ÖMƏRİN XEYBƏR DÖYÜŞÜNDƏ MƏĞLUBİYYƏTƏ UĞRAMALARI

**Dəvətçi**: «Bir çox döyüş meydanlarında məğlubiyyətə uğramışlar; onların hamısından daha önəmlisi Xeybər döyüşüdür ki, onlar bu döyüşdə məğlubiyyətə uğrayaraq geri qayıtdılar. Həzrət Əlinin gözləri ağrıdığına görə, Rəsulallah birinci gün İslam bayrağını Əbu Bəkrə verdi. Əbu Bəkr İslam ordusunun komandanı kimi yəhudilərə qarşı bir az döyüşdükdən sonra məğlub olaraq geri döndü. İkinci gün

Peyğəmbər bayrağı Ömərə verdi. Ömər heç düşmənlə qarşılaşmadan, qorxusundan geri dönüb qaçdı».

**Hafiz**: «Bu bəyanlar şiələrin uydurma sözləridir! Onlar çox cəsur və qəhrəman insanlardır».

**Dəvətçi**: «Daha əvvəl də bildirdiyim kimi, şiələr Əhli-beytin sadiq təqibçiləridir; əsla yalan söyləməmiş və söyləməzlər də! Çünki yalan söyləməyi böyük günahlardan bilirlər; hədis uydurmağa da, əsla ehtiyacları yoxdur!

Rəsulallahın zamanında baş verən Xeybər döyüşü İslam tarixinin ən əhəmiyyətli döyüşlərindən biri olduğu üçün hər iki məzhəbin alim və tarixçiləri bunu nəql etmişlər. Zehnimdə olduğu qədər hüzurunuza ərz edərəm:

Hafiz Əbu Nəim İsfahani (ö: 430) «Hilyətul-övliya»nın 1-ci cildinin 62-ci səhifəsində, Məhəmməd ibn Təlhə Şafei İbn Hişamın «Siyrə» kitabından nəql edərək, «Mətalibus-süul»un 40-cı səhifəsində, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib»in 14-cü babında və bir çox böyük alim və tarixçiləriniz kitablarında yazmışlar; məclisin vaxtı onların hamısının sözlərini nəql etməyə imkan vermir. Amma bu mənbələrdən sizin üçün daha etibarlı və mötəbər qəbul etdiyiniz bu iki böyük aliminizin sözləridir:

Məhəmməd ibn İsmayıl Buxari «Səhih»in II cildinin 100-cü və (1320 Misir nəşri), Müslim ibn Həccac da «Səhih» kitabının 2-ci cildinin 324-cu səhifəsində (1320 Misir nəşri) aydın bir şəkildə belə yazır: «Xəlifə Ömər iki dəfə döyüş meydanından geri dönüb qaçdı».

Bu mövzuya aid açıq-aydın dəlillərdən biri də, İbn Əbil-hədid əl-Mötəzilinin Həzrət Əlinin fəziləti haqqında olan «Ələviyyati Səb» adlı məşhur şer kitabının «Xeybər» babında «Baiyyə qəsidəsi» adıyla söylədiyi bu məzmunlu şeridir:

***Xeybər haqqındakı xəbərləri söyləmək istəmirsənmi?***
***O döyüşdə ağıl sahiblərini heyrətə gətirəcək bir qrup şeylər vardır.***
***Önə keçib qaçanlar (yəni Əbu Bəkrlə Ömər)***
***bayraq aparmağa alışmamışdılar.***
***Bax, buna görə o uca bayrağa zillət və xorluq örtüyu örtərək qaçdılar.***

*Halbuki, döyüşdən qaçmağın böyük bir günah olduğunu bilirdilər.*
*Yəhudilərin başçılarından olan cəsur bir gənc qılıncını çəkmişdi.*
*Elə bir atın üzərində ki, o at baharın yaşıl otlarını yemişdi.*
*Şəhvətli və qudurmuş bir erkək dəvə quşu kimi hücum etmişdi;*
*Sanki gəlin evinə xına aparırdı o,*
*Qılıncdan çıxan qığılcımlar*
*ölüm atəşinin alovları onları qorxutmuşdu.*
*Yəhudilərin qarşısından qaçmağınıza görə sizin yerinizə üzr istəyirəm.*
*Çünki ölüm hər kəsin xoşlamadığı, yaşamaqsa sevdiyi bir şeydir.*
*Siz də ölümdən qorxdunuz; halbuki, hər kəs ölümü dadacaqdır!*

Qəbul edin ki, bizim təhqir məqsədimiz yoxdur. Biz, sadəcə tarixdəki həqiqətləri izah edərək döyüş meydanlarındakı mübarizələrdə kafirlərə qarşı sərt olan və onları məğlub edən şəxsin kim olduğunu vurğulamağa çalışdıq! Bilin ki, xəlifə Ömərin «Kafirlərə qarşı sərt» ayəsinin əhatəsinə daxil ola biləcək hər hansı bir qəhrəmanlıq və fədakarlığı yoxdur! hətta onlar, qəhrəmanlıq bir yana, düşmənin qarşısında durmayıb hərbi mövqeyi boş qoyaraq, döyüş meydanından belə kənara çəkilirdilər!

Əgər diqqət edib insafla düşünsəniz, bu böyük sifət (kafirlərə qarşı sərt olma) sahibinin həzrət Əli olduğunu təsdiq edərsiniz. Çünki həzrət Əli, bütün döyüş meydanlarında kafirlərə qarşı sərt olub onları məğlubiyyətə uğradan yeganə şəxsdir! Bu səbəbdən Qurani-kərim «Maidə» surəsinin 54-cü ayəsində bu mənanı təsdiq edərək belə buyurmuşdur: «Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, [bilsin ki,] Allah (onun yerinə) tezliklə elə qövm gətirər ki, Allah onları və onlar da Allahı dost tutarlar. [Onlar] möminlərə qarşı həlim və kafirlərə qarşı isə sərt olar. Allah yolunda cihad edər və heç bir məzəmmət edənin tənəsindən qorxmazlar. Bu, Allahın fəzl-kərəmidir ki, onu istədiyinə verər. Allahın rəhməti (geniş ) və (hər şeyi) biləndir».

**Hafiz:** «Çox qəribədir. Gözəl bəyanınız sayəsində bütün möminlər barədə olan bu ayəni Əli haqqında qərar vermək istəyirsiniz».

**Dəvətçi**: «Dəfələrlə şahid oldunuz ki, söylədiyim heç bir şey dəlilsiz olmayıb. Nə qədər tənqid etdinizsə, cavabınızı aldınız! Buna baxmayaraq, yenə də etiraz edirsiniz. Zəhmət olmasa, sözünüzü sual şəklində «sözünüzün dəlili nədir?»-deyə buyurun, mən də cavab verim. İndi sözünüzün cavabını ərz edirəm.

Birincisi; əgər ayə bütün möminlər haqqında nazil olub onların hamısına şamil olsaydı, əsla döyüş meydanlarından qaçmazdılar!».

**Hafiz**: «Görəsən, bu qədər döyüşüb böyük fəthlər əldə edən Rəsulallahın əshabını və möminləri təhqirlə «fərari» adlandırmağınız insafdandırmı?».

**Dəvətçi**: «Birincisi; mən onlar haqqında təhqirlə danışmadım. Sadəcə olaraq, xüsusiyyətlərini açıqladım.

İkincisi; mən onlara «fərari» demədim; bunu deyən mən deyiləm, tarixdir! Deyəsən, ağalar səhabə və möminlərin, hətta əshabdan olanların belə Ühüd və Hüneyn döyüşündən qaçdıqlarını və Rəsulallahı kafirlər qarşısında tənha qoyduqlarını unutdular! Təbəri və digər tarixçiləriniz bu hadisəni öz kitablarında yazmışdır.

Peyğəmbəri-əkrəmi (s) düşmənlərin qarşısında tənha qoyub cihaddan və döyüş meydanlarından qaçanlar necə Allahın və Rəsulunun sevimlisi ola bilərlər?!

Üçüncüsü; ayənin həzrət Əli haqqında nazil olduğunu sadəcə mən söyləmirəm. Böyük alimlərinizdən məsələn; Əbu İshaq imam Əhməd Sələbi – hədis imamı olduğunu siz də təsdiq edirsiniz -»Kəşful-bəyan» təfsirində belə yazır: «Bu ayə, Əli ibn Əbu Talib haqqında nazil olmuşdur. Çünki ayədə zikr olunan sifətlər həzrət Əlidən başqa heç kəsdə yoxdur».

Heç bir tarixçi Peyğəmbərin zamanında baş verən 36 döyüşdə həzrət Əlinin döyüş meydanından qaçdığını və ya geri çəkildiyini yazmamışdır! Hətta bütün müsəlmanların qaçdığı Ühüd döyüşündə ki, acınacaqlı bir məğlubiyyət zamanı - beş min atlı və piyada düşmən qoşununun müsəlmanlara qarşı həmləsində - həzrət Həmzənin (ə) (Seyyidüş-şühəda) şəhadətindən sonra qələbə və zəfər əldə edildikdə Rəsulallah ilə bərabər döyüşən təkcə Əmirəl-möminin həzrət Əli olmuşdur!

Təxminən 90 yerdən yara almasına, çoxlu qan itirdiyinə görə neçə dəfə halsızlıqdan yerə yıxılmasına baxmayaraq, yenə də qalxıb Rəsulallahı (s) qorumuş və döyüşü müsəlmanların xeyirinə tamamlamışdır!».

**Hafiz**: «Görəsən, böyük səhabələrin döyüşdən qaçdığını söyləməyiniz utandırıcı deyilmi? Halbuki, başda iki haqq xəlifə - Əbu Bəkr və Ömər olmaqla bütün səhabə pərvanə kimi Rəsulallahın ətrafında dövr edib, Onu qoruyurdular».

**Dəvətçi**: «Ağalar, deyəsən, tarix oxumamısınız, buna görə də belə bəyan edirsiniz. Ühüd, Hüneyn və Xeybər döyüşündə (bir neçə nəfərdən başqa) əshabın hamısının qaçdığını tarixçilərin hamısı yazmışlar. Xeybər döyüşündəki vəziyyəti anlatdım. Hüneyn döyüşündə də qaçdıqları qətidir. Bu səbəbdən Həmidi «Cəmun beynəs-Səhihəyn»də, Hələbi də «Siyrətu Hələbiyyə» kitabının 3-cü cildinin 123-cü səhifəsində belə deyir: «Dörd nəfərdən başqa bütün səhabələr qaçdılar. Əli və Abbas Rəsulallahın önündə, Əbu Abdullah ibn Məsud solunda yer almışdı. Əbu Süfyan ibn Haris də Peyğəmbərin mərkəbinin cilovundan tutmuşdu».

Ühüd döyüşündə də müsəlmanların qaçdığını heç kəs inkar etməmişdir. Həqiqətin sizə aşkar olması üçün tarix kitablarını oxumanız yaxşı olardı. Xüsusilə, İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi» kitabının 3-cü cildinin 276-cı səhifəsində nasibi olan Cəhizin rədd edilməsində belə demişdir: «Ühüd döyüşündə bu dörd nəfər - Əli (ə), Zübeyr, Təlhə və Əbu Dücanədən başqa bütün müsəlmanlar qaçdılar. Müsəlmanlar arasından bu dörd nəfər çıxarılırsa, Əbu Bəkr, Ömər və Osmanın da qaçanlar arasında olduğu açıq-aydındır. Bax, bunun üçün Cəbrayıl belə dedi: «Əli kimi igid bir gənc, Zülfüqar kimi də qılınc yoxdur!».

Böyük alim və tarixçilərinizdən məsələn; İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»ndə, Nurəddin Maliki də «Fusulul-mühşmə» kitabının 43-cü səhifəsində və digərləri belə nəql etmişlər: «O gün qeybdən belə bir səs eşidildi: «Əli kimi igid bir gənc, Zülfüqar kimi də qılınc yoxdur».

Bütün döyüşlərdə Həzrət Əli Allah tərəfindən himayə edilmiş; mələklər də Ona yardım etməyə hazır vəziyyətdə gözləmişlər. Bu səbəbdən Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 27-ci babında sənədiylə Abdullah ibn Məsuddan Rəsulallahın belə buyurduğunu nəql etmişdir: «Əli hansı döyüşə

göndərildisə, Cəbrayılı (ə) sağında, Mikayılı (ə) solunda və bir buludu da onu kölgələndirdiyini görürdüm; nəhayət, Allah-təala Ona zəfəri nəsib etdi».

İmam Əbu Əbdürrəhman Nəsai «Xəsaisul-Ələvi» kitabının 202-ci hədisində belə nəql edir: «İmam Həsən (ə) qara əmmamədə xalqın qarşısına çıxaraq atasının üstün cəhətlərini haqqında belə dedi: «Xeybər döyüşündə atam - Əli düşmənin qalasına doğru getdikdə Cəbrayıl sağında, Mikayıl da solunda döyüşürdü».

Bütün zəfər və fəthlər müsəlmanlara Onun qılıncının şiddəti sayəsində nəsib olur, bu vəsilə ilə Allah  və Rəsulunun yanında məcburiyyət məqamına yetişirdi. Cəbrayıl və Mikayıl Onun sağında və solunda yer alıb döyüşməklə iftixar edirdilər. Bax, buna görə Rəsulallah belə buyurmuşdur: «İslam, sadəcə Əlinin qılıncıyla gücləndi».

## HƏZRƏT ƏLİ (Ə) ALLAH VƏ RƏSULUNUN (S) SEVDİYİ BİR ŞƏXSDİR

Dördüncüsü; Allah-təala zikr olunan ayeyi-kərimdə belə buyurur: «Allah onları, onlar da Allahı sevirlər».

Bu məhbubiyyət sifəti həzrət Əlinin xüsusiyyətlərindəndir. Bunun bir çox dəlili vardır. Məsələn; Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 7-ci babında öz sənədiylə Əbdullah ibn Abbasdan belə nəql edir: «Bir gün mən və atam Abbas Rəsulallahın (s) hüzurunda oturmuşduq; bu vaxt Əli gəlib salam verdi. Rəsulallah salamın cavabını verdikdən sonra gülərüzlə yerindən qalxaraq, Əlini bağrına basıb, gözlərinin arasından öpdü və yanında oturtdu. Atam: «Ya Rəsulallah! Onu çox sevirsənmi?»-deyə soruşduqda, O həzrət belə buyurdu: «Ey hörmətli əmi! Vallahi, Allah Onu mənim sevdiyimdən daha çox sevir».

## XEYBƏR FƏTHİNDƏ «RAYƏT HƏDİSİ»

Həzrət Əlinin (ə) Allahın sevimlisi və döyüş meydanlarının yenilməz qəhrəmanı olduğuna və əsla döyüşdən qaçmadığına dəlalət edən dəlillərdən biri də,

səhih kitablarınızda nəql edilən və inadkar nasibilərdən başqa əhli-sünnət vəl-cəmaat alimlərinin heç birinin inkar etmədiyi «Rayət (Bayraq) hədisidir».

**Nəvvab**: «Qibləsahib! Rayət hədisi nədir? Zəhmət olmazsa, sənəd silsiləsiylə bəyan edin».

**Dəvətçi**: «Bu hədisi hər iki məzhəbin böyük alim və tarixçiləri ittifaqla nəql etmişlər:

1. Məhəmməd ibn İsmail Buxari: «Səhihi-Buxari», c: 2 («Cihad və Seyr» kitabı), bab: «Duaun-Nəbi» və c: 3 («Məğazi» kitabı), bab: «Xeybər Ğəzvəsi»; 2. Müslim ibn həccac: «Səhihi-Müslim», c: 2, səh: 324; 3. İmam Əbu Əbdürrəıman Nəsai: «Xəsaisul-Ələvi»; 4. Tirmizi: «Sünəni-Tirmizi»; 5. İbn həcər Əsqəlani: «İsabə». ç: 2. səh: 508; 6. Mühəddisi-Şam: «Tarix»; 7. Əhməd ibn Hənbəl: «Müsnəd»; 8. İbn Maccə Qəzvini: «Sünən»; 9. Şeyx Süleyman Bəlxi Hənəfi: «Yənabiul-Məvəddə», bab: 6; 10. Səbt ibn Cövzi: «Təzkirə»; 11. Məhəmməd ibn Yusif Gənci Şafei: «Kifayəut-talib». bab: 14; 12. Məhəmməd ibn Təlhə Şafei: «Mətalibus-süul»: 13. Hafiz Əbu Nəim İsfahani: «Hilyətul-övliya»; 14. Əbül-Qasim Təbərani «Ovsət», Əbul-Qasim Hüseyn ibn Məhəmməd (Rağibi İsfəhani): «Muhaziratul-üduba», ç: 2, səh: 212 və s...

Xülasə, böyük alim, muhəddis və tarixçiləriniz bu hədisi özlərinin mötəbər kitablarında nəql etmişlər. Hətta hakim belə deyir: «Buhədis, təvatur həddindədir». Tabərani də belə deyir: «Həzrət Əlinin Xeybəri fəth etməsi təvaturlə sabitdir».

Hədis budur: İslam ordusu Xeybər qalasını mühasirə etdiyi zaman Əbu Bəkr və Ömərin komandanlığı altında olan ordu 3 dəfə məğlubiyyətə uğradı. Əshab dalbadal məğlubiyyətdən sonra fərsiz yəhudilər qarşısında aciz qaldı. Ardıcıl surətdə məğlubiyyətə uğradıqlarına görə sıxıntı çəkməyə başladılar. Rəsulallah müsəlmanların əhval-ruhiyyəsinin yenidən yüksəlməsi üçün zəfər müjdəsi verərək belə buyurdu: «Allaha and olsun ki, sabah bayrağı elə bir kəsin əlinə verəcəyəm ki, «kərraru ğeyri-fərrar»dır. (yəni düşmənə amansız hücum edib, qorxub qaçmayan bir şəxsdir) Allah Onun əliylə Xeybəri fəth edəcək. O, Allah və Rəsulunu sevir. Allah və Rəsulu da Onu sevir».

Bütün səhabələr o gecə, bu fəzilət və şərəfin kimə nəsib olacağına çox maraq göstərdikləri üçün rahat yata bilmədilər. Səhəri gün hamı döyüş libaslarını geyib, Rəsulallahın hüzuruna gəldi. Peyğəmbər onlara baxaraq belə buyurdu:

«Qardaşım və əmim oğlu Əli ibn Əbu Talib haradadır? Onun hər müşkülünü həll edən Əli hardadır? Onun qəlbinin açarı Əli haradadır?».

Əshab: «Ya Rəsulullah! Əlinin gözləri ağrıyır; belə ki, hərəkət edə bilmir» dedilər. Peyğəmbər Salmana «Onu mənim yanıma gətir»-deyə buyurdu.

Salman həzrət Əlini gözləri bağlı bir şəkildə əlindən tutaraq Rəsulallahın hüzuruna gətirdi. O, salam verdi. Peyğəmbər İmamın salamının cavabını verdikdən sonra «Ya Əbəl-Həsən! Halın necədir?»-deyə soruşdu. həzrət Əli də «Əlhəmdülillah yaxşıyam, sadəcə başım və gözlərim ağrıyır, gözlərimi aça bilmirəm» dedi. Peyğəmbər buyurdu: «Yaxın gəl». Həzrət Əli də yaxınlaşdı. Rəsuli-əkrəm mübarək ağzının suyundan Həzrət Əlinin gözlərinə sürtərək ona dua etdi. Bu dua nəticəsində Əlinin gözləri yaxşılaşdı, hətta ağrıdan heç əsər belə qalmadı. Sonra İslam bayrağını Əliyə verdi və zəfər qazanması üçün yəhudilərin qalası Xeybərə doğru hərəkət etməsini əmr etdi. Həzrət Əli düşmənə doğru hərəkət edib onların Mərhəb, Haris, Hişam və Əlqəmə kimi böyük sərkərdələrini öldürdü və çox əhəmiyyətli olan Xeybət qalasını fəth etdi.

İbn Səbbağ Maliki «Fususul-mühimmə» kitabının 21-ci səhifəsində bu rəvayəti «Sihahi-Sittə»dən nəql etmişdir. Məhəmməd ibn Yusif Gənci Şafei kitabın 14-cü babında bu rəvayəti zikr etdikdən sonra belə deyir: «Rəsulallahın məxsus şairi olan Həssan ibn Sabit bu şeri o əsnada həzrət Əlini mədh edərək oxudu:

***Əlinin gözləri ağrıyırdı, dərdinə əlac axtarırdı.***
***Əlac edəcək tapmadı bir kəs,***
***Rəsulallah buyurdu bu an Ona***
***«Allahın yardımı əmim oğluma yetişəcəkdir, inşallah***
***Bu gün İslam bayrağını elə bir süvariyə verəcəyəm ki,***
***Döyüşdə dilavər və cəsurdur.***
***O, Allahı və Allah da Onu sevir.***

***Allah  sağlam qalaları Onunla fəth edəcək.***
***Bu səbəbdən Əlini bu xüsusiyyətlərə möhtac qıldı,***
***Onu özünə vəsi və qardaş seçdi.***

İbn Səbbağ «Səhihi-Müslim» kitabından Ömər ibn Xəttabın belə dediyini nəql etmişdir: «Ələmdarlığı (bayraq tutmağı) xoşlamırdım, amma o gün məndə olmasını çox istəyirdim. Belə bir iftixarın mənə nəsib olması üçün məni seçsin deyə, özümü Rəsulallaha göstərirdim. Amma yenə də Əlini çağırdı və bu böyük iftixar ona nəsib oldu».

Səbt ibn Cövzi «Təzkirə»nin 15-ci  səhifəsində və imam Əbu Abdurrəhman Əhməd ibn Əli Nəsai «Xəsaisul-Ələvi» kitabında Əlinin Xeybərdəki ələmdarlığı mövzusunda 12 rəvayət və hədis nəql etdikdən sonra Ömərin yuxarıda qeyd etdiyim sözünü və onun ələmdarlığa olan arzusunu 18-ci hədisdə nəql etmişdir.

Cəlaləddin Siyuti «Tarixül-xuləfa», İbn Həcər  Məkki «Savaiq» və İbn Şiruyə «Firdovsul-əxbar» kitabında Ömər ibn Xəttabın belə dediyini nəql edir: «Əliyə üç şey verildi ki, bunlardan birinin mənə verilməsini qırmızı tüklü dəvələrin mənim olmasından daha çox sevirdim: 1. Fatimə ilə evlənməsi; 2. Bütün Hallarda məscidə daxil ola bilməsi ki, bu Ondan başqa heç bir kəsə caiz deyildi; 3. Xeybər fəthində bayrağın Ona verilməsi».

Qısası, bu rəvayətlərdən də həzrət Əlinin bütün ümmətin içində Allah və Rəsulunun (s) sevimlisi olduğu anlaşılır.

«Təyri Mişviy» (qızardılmış quş) hədisi keçən gecə ərz olundu. O da Həzrət Əlinin Allah və Rəsulunun sevimlisi olduğuna dəlildir. Bunu cahil və ya mütəəssibdən başqa heç kim rədd etməz!

Etibarlı ravilərinizdən qısaca nəql edilən bu rəvayətlərdən aydın olur ki, bütün gözəl sifətləri özündə toplayan və «O, Allah və Rəsulunu sevir, Allah  və Rəsulu da Onu sevərlər» ayəsinin əhatəsində olan şəxs möminlər və ya səhabələr deyil, Əmirəl-möminin həzrət Əlidir!

İndi, mənim təhqir və xəyanət qəsdim olmadığı, deyəsən, aydınlaşdı. Mən, sadəcə tarixdə nəql olan Həqiqətləri və öz alimlərinizin ifadə etdikləri açıq dəlilləri

zikr etdim. Tarixdə qeyd olunan həqiqətlərdən və alimlərinizin açıqladıqları bu qədər sözlərdən aydın olur ki, döyüş meydanında kafirlərə qarşı şiddətli və elmi bəhslərdə güclü olan həzrət Əlidir. Bu dediklərimdən əlavə, zikr olunmuş ayənin həzrət Əlinin vəsfi haqqınla nazil olduğunu sizin böyük alimləriniz də qəbul etmişlər. İndi zehnimdə olanı misal olaraq ərz edirəm: Məhəmməd ibn Yusif Gənci Şafei (ö: 658) «Kifayəut-talib» kitabının 13-cü babında Rəsulallahın buyurduğu «Kim Adəm, Nuh və İbrahim peyğəmbərlərin üzünə baxmaq istəyirsə, Əliyə baxsın» hədisini nəql etdikdən sonra deyir: «Əli elə bir şəxsdir ki, Allah-təala Quranda onu bu ayə ilə vəsf etmişdir: «Onunla bərabər olanlar, kafirlərə qarşı şiddətli, öz aralarında isə mərhəmətlidirlər».

Allah-təala zikr edilən ayədə həzrət Əlinin (ə) kafirlərə qarşı güclü və şiddətli olduğunu bildirir. Əvsər Onun cəsarəti, igidliyi, qılınc və elmi mübarizələrdə məntiqli və anlaşılan dəlilləri olmasaydı, İslam yayılmaz və müsəlmanlar da inkişaf etməzdilər!

Necə ki, Məhəmməd ibn Şafei «Mətalibus-süul» kitabında Rəsulallahın belə buyurduğunu nəql edir: «İslam Əlinin qılıncı və Xədicənin sərmayəsi ilə gücləndi».

Elə isə, həzrət Əli bu məqama hər kəsdən daha çox layiqdir. Amma buyurduğunuz: «Mağara ayəsindəki «Möminlərə qarşı mərhəmətlidir» cümləsi Osman ibn Uffanın şəninə nazil olmuşdur və üçüncü mərtəbədə onun xilafətinə işarə edir; Çünki o, çox yumşaqqəlbli və mərhəmətli bir şəxsiyyət idi» sözünüzə gəlincə, təəssüflər olsun ki, bu etiqad da, tarixin şəhadətinə görə, onun əxlaqi səciyyələri ilə uyğunlaşmır. Bu sözümə bir çox dəlillər vardır. Lakin artıq söhbətimizi tamamlamaq istəyirəm. Çünki bu mövzunu açıqladıqda ixtilaf düşə biləcəyindən ehtiyat edirəm».

**Hafiz**: «Əgər səhih sənəd və dəlillərlə danışsanız, əsla ixtilafa yol açmaz! Onları söymədən dəliliniz varsa, buyurun».

**Dəvətçi**: «İlk əvvəl bunu bildirməliyəm ki, mən söyüş söyən deyiləm. Əksinə, məclisdəkilərin də şahid olduğu kimi, mən söyüldüm. Lakin bunlara, sadəcə dəlil və bürhan ilə cavab verdim.

İkincisi; bu mövzudakı dəlilər o qədər çoxdur ki, hamısını nəql etməli olsam, bu məclisin vaxtı yetməz. Amma əmr etdiyiniz üçün bəzisini xüsusi olaraq bildirmək istəyirəm. Artıq özünüz insafla kimin mərhəmət və yumşaq qəlb sahibi olduğuna hökm verərsiniz.

## OSMANIN ƏDALI DAVRANIŞI ƏBU BƏKR VƏ ÖMƏRİN XİLAFINA İDİ

Əvvəla qeyd edim ki, böyük tarixçilərimizin ittifaq etdiklərinə və hətta mötəbər səhih kitablarınızın yazdığına görə Osman Rəsulallahın sünnət və Şeyxeynin siyrətinə zidd hərəkət etmişdir. Məsələn: İbn Xəldun, İbn Xəllaqan, Əsəmi Kufi: «Sihahi-sittə», Məsudi «Murəvvicuz-zəhəb», c: 1, səh: 435, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi», c: 1...

Digər böyük alimləriniz öz kitablarında belə yazmışlar: «Osman ibn Uffan xilafət məqamına yetişdikdə Rəsulallahın sünnəti və Şeyxeynin (Əbu Bəkrlə Ömərin) siyrətinə zidd Hərəkət etdi...».

Bütün tarixçilərin birgə qərarına görə, Əbdürrəhman ibn Ovf şura məclisində Allahın kitabı, Rəsulallahın sünnəti və Şeyxeynin siyrətinə zidd davranmayacağı və Əməvilərdən kimsəni iş başına gətirməyəcəyinə dair verdiyi sözə görə Osmana beyət etdi. Amma Osman iş başına gəldikdə, sözünün tam əksinə, onların siyrəsinə və verdiyi əhdə zidd hərəkət etdi. Bildiyiniz kimi, Quran-kərim və səhihi-sünnətin hökmünə görə əhdi pozmaq böyük günahlardandır. Böyük alim və tarixçilərinizin açıq-aydın ifadələrinə görə, xəlifə Osman əhdinə vəfa etmədi. Xilafət dövründə bütünlüklə Şeyxeynin xilafına hərəkət etdi və bəni-Üməyyəni iş başına gətirərək, onları xalqın namus və malına müsəllət[1] etdi. Bax, bu, onun üçün birinci böyük bir ləkədir».

**Hafiz**: «Rəsulallahın (s) sünnəti ilə Şeyxeynin siyrətinin əksinə necə davrandı?».

---

[1] "Ələ keçirdi", "hakimiyyəti altına aldı" deməkdir.

**Dəvətçi**: «Rəsulallahın (s) sünnəti və Şeyxeynin siyrətinin əksinə atdığı ilk addımı tarixçilər geniş şəkildə yazmışlar. Məsələn; hər iki məzhəbin qəbul etdiyi mühəddis və tarixçi Məsudi «Murəvvicuz-zəhəb» kitabının 1-ci cildinin 433-cü səhifəsində qısaca olaraq belə zikr etmişdir: «Osman çox bahalı daş və taxtalardan özünə bir saray tikdirdi. Topladığı malları Əməvilərə və digərlərinə bağışlayırdı. Məsələn; öz zamanında fəth edilən xristian şəhərlərinin xümsünü (heç bir şəri səlahiyyəti olmadan) məlun Mərvana bağışladı. Buna əlavə olaraq, beytül-maldan Mərvana nəqd 1000 dirhəm bəxşiş etdi. Yenə beytul-maldan Əbdullah ibn Xalidə 400 min dirhəm, Rəsulallahın sürqün etdiyi məlun Əbul-Asa 100 və 200 min dirhəm də Əbu Süfyana bağışladı».

İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 68-ci səhifəsində qeyd olunanları yazmışdır: «Osman öldürüldükdə şəxsi xəzinəsində 150 min dinar və iki kurur[1] dihrəm nəqd pulu var idi. Bundan əlavə 100 min dinar dəyərində Kura Vadisi və Hüneyndə torpaq ərazisi və çöllərdə çoxlu sayda qoyun, inək və dəvəsi var idi. Osmanın bu əməli iş başına gətirdiyi bəni-Üməyyə və digər qəbilə böyüklərinin xalqın malını talayıb sərvət əldə etməsinə yol açdı».

«Xalq rəhbərlərinin dini üzrədir» məsəli çox məşhurdur. Şeyx də belə deyir:

***Əgər kəndçinin baxçasından padşah bir alma yeyərsə,***
***Onun kölələri ağacı kökündən çıxararlar.***

Əksəriyyətin ac və fəqir olduğu bir dövrdə Osmanın «Rəsulallahın xəlifəsi» adı altında bu qədər mal-sərvət toplaması və davranışı əqlən və nəqlən çirkin olması ilə bərabər, şura günü təəhhüd[2] etdiyi yoldaşları Əbu Bəkr və Ömərin yoluna və baxışlarına da zidd idi.

Məsudi «Mürucuz-zəhəb» kitabının 1-ci cildində Osmanın Həyatı haqqında belə yazır: «Xəlifə Ömər, oğlu Abdullah ilə həccə getdikdə gediş-gəliş xərcləri cəmisi 16 dinar oldu. Xəlifə oğlu Abdullaha «Biz xərclərimizdə israf etdik» dedi».

---

[1] Bir Kurur, hindistanlılara görə 10 milyon, iranlılara görə isə 5 yüz mindir.
[2] Öhdəsinə alma, yerinə yetirəcəyinə söz vermə.

İndi, siz ağalar, xəlifə Ömərin yaşayışı ilə Osmanın beytül-malı göyə sovurması arasında müqayisə edib, özünüz hökm verin! Bunu təsdiq edin ki, Osman verdiyi söz və təəhhüdün tam əksinə hərəkət etmişdir.

## OSMANIN BƏNİ-ÜMƏYYƏ FASİQLƏRİNİ İŞ BAŞINA GƏTİRMƏSİ

İkincisi; Osman bəni-Üməyyənin ən fasiq, ən çirkin insanlarını iş başına gətirdi və onları xalqın mal, can və namusuna müsəllət etdi. Rəsulallahın və Şeyxeynin razı olmadıqları kəsləri iş başına gətirdi. Məsələn; tarixin şahidliyinə görə Osman Rəsulallahın sürgün etdiyi və lənətlədiyi məlun əmisi Həkəm ibn Əbil-Asla, oğlu Mərvan ibn Həkəmi iş başına gətirmişdir».

**Hafiz**: «Onların xüsusən sürgün edildiyinə və lənətlədiyinə dair dəliliniz nədir?».

## BƏNİ- ÜMƏYYƏ, HƏKƏM İBN ƏBİL-AS VƏ MƏRVANIN ALLAH VƏ PEYĞƏMBƏR (S) TƏRƏFİNDƏN LƏNƏTLƏNMƏSİ

**Dəvətçi**: «Lənətlədiklərinə dair iki növ dəlil vardır. Birincisi ümumidir. Allah-təala «İsra» surəsinin 60-cı ayəsində bəni-Üməyyəni «Şəcərətul-məlunə; lənətlənmiş ağac» olaraq tanıtdırır. Bu səbəbdən imam Fəxr Razi, Təbəri, Qirtəbi, Nişapuri, Siyuti, Şukani, Alusi, İbn Əbi Hətəm, Xətib Bağdadi, İbn Mərdəviyə, Hakim, Muqrizi, Beyhəqi və öz alim və müfəssirlərinizdən bir çoxu zikr edilən bu ayənin təfsirində İbn Abbasdan belə nəql etmişlər: «Quranda «lənətlənmiş ağac»dan məqsəd bəni-Üməyyədir. Çünki Rəsulallah yuxuda onları minbər və mehrabına daraşan meymunlar şəklində gördü. Həzrət yuxudan oyandıqdan sonra Cəbrayıl (ə) zikr olunmuş ayənin nazil olduğunu xəbər verdi: «Röyada gördüyün meymunlar bəni-Üməyyədir. Onlar Səndən sonra xilafəti qəsb edəcəklər. Mehrab və minbərin 1000 ay onların idarəçiliyi altında olacaqdır».

Fəxri Razi İbn Abbasdan nəql edir: «Rəsulallah bəni-Üməyyə arasından, xüsusilə Həkəm ibn Əbil-Asın adını xatırladırdı».

Qurani-kərimin hökmünə görə, Həkəm ibn Əbil-As «Şəcərətul-məlunə»dən olduğu üçün məlundur. Rəsulallah, xüsusilə onun adı çəkildikdə lənət deyirdi. Hər iki firqənin mötəbər ravilərindən onların lənətləndiklərinə dair bir çox hədis nəql edilmişdir. Lakin məclisin ilk gecəsində şiə hədislərindən dəlil gətirməyəcəyimə söz verdiyim üçün zehnimdə olanları həqiqətin kəşf olması məqsədilə, sadəcə sizin alimlərinizin nəql etdikləri hədis və rəvayətləri deyəcəyəm.

Hakim Nişapuri «Müstədrək»in 4-cü cildinin 487-ci səhifəsində və İbn Həcər Məkki də «Səvaiq» adlı kitabında hakimdən belə nəql edir: «Rəsulallahdan nəql edilən bu hədis səhih bir sənədlə yetişmişdir: «Əhli-beytim məndən sonra yaxın bir zamanda ümmətimdən onları öldürən və evlərindən çıxarıb, sərkərdan edən bəzi kəslərlə qarşılaşacaqlar. Bəni-Üməyyə, bəni-Müğeyrə və bəni-Məxzum qəbilələrinin bizə olan kin və düşmənçilikləri hər kəsdən daha çoxdur».

Rəsulallah (s) bu sözü buyurduqda Mərvan uşaq idi. Həzrət ona işarə edərək belə buyurdu: «Bax, bu vəzəğ[1] oğlu vəzəğ və məlun oğlu məlundur».

Yenə İbn Həcər bu mövzuda hədisi «Səvaiq»də, Hələbi «Sirətul-Hələbiyyə»nin 1-ci cildinin 337-ci səhifəsində, Bəlazəri «Ənsab»ın 5-ci cildinin 126-cı səhifəsində, Süleyman Bəlxi «Yənəbiul-məvəddə» Hakim «Müstədrək»in 4-cü cildinin 481-ci səhifəsində, Dəmiri «Həyatul-heyavan»nın 2-ci cildinin 299-cu səhifəsində İbn Əsakir öz «Tarix» kitabında və eləcə də İmamul-Hərəm «Zəxairul-üqba» və digərləri bir hədisdə Ömər ibn Mərətul-Cəhənidən belə nəql etmişlər: «Həkəm ibn Əbil-As Rəsulallahın yanına gəlmək üçün izn istədi. Rəsulallah onu səsindən tanıyaraq belə buyurdu: «Ona izn verin, Allahın lənəti olsun ona və mömin olanlardan başqa, soyundan gələnlərə. Onun soyundan gələcək möminlər nə azdır!».

İmam Fəxr Razi «Təfsiri-kəbir» kitabının 5-ci cildində «Şəcərətul-məlunə» (lənətlənmiş ağac) ayəsinin mənasında Ümmül-möminin Aişənin sözünə toxunur.

---

[1] Qurbağa

O, Mərvana belə deyirdi: «Sən atanın sülbündə ikən Allah-təala onu lənətlədi. Sən Allahın lənətlədiyi zatın bir parçasısan».

Əllamə Məsudi «Murəvvicuz-zəhəb» kitabının 1-ci cildi 435-ci səhifəsində deyir: «Mərvan ibn Həkəm Rəsulallahın Mədinədən qovduğu və sürgün etliyi bir kəs idi».

Mərvanın Əbu Bəkr ilə Ömərin zamanında Mədinəyə gəlməsinə izn verilmədi. Amma Osman xəlifə olduqda Rəsulallah, Əbu Bə»r və Ömərin əksinə, onu Mədinəyə gətirdi və bəni-Üməyyədən olan digər şəxsləri yanına toplayaraq, onlara hədsiz dərəcədə ehtiram göstərdi».

**Nəvvab**: «Qiblə sahib! Həkəm ibn Əbil-As kim idi və Rəsulallah nə səbəbdən onu Mədinədən sürgün etmişdi?».

## HƏKƏM İBN ƏBİL-AS

**Dəvətçi**: «Həkəm ibn Əbil-As Osmanın əmisi idi. Təbəri, İbn Əsir və Bəlazərinin «Ənsab» kitabının 5-ci cildinin 17-ci səhifəsində Yazdıqlarına görə, Həkəm cahiliyyət dövründə Rəsulallahın qonşusu idi. O, həzrəti xüsusilə besətdən sonra çox incidirdi. Məkkənin fəthindən sonra Mədinəyə gələrək, zahirdə İslamı qəbul etdi. Amma cəmiyyət içində Peyğəmbəri təhqir etməyə çalışırdı. Rəsulallah hərəkət etdikdə Həkəm Onun arxasınca düşərək gözü, əli, ağzı, burnu və hətta namazda belə bir qrup hərəkətləriylə məsğərəyə qoyur, alçatmaq istəyirdi. Rəsulallah bu hərəkətlərinə görə, ona bəd dua etdi. Bu dua nəticəsində o, havalanıb, dəli kimi oldu. Bir gün (üzr istəmək üçün) Rəsulallahın evinə getdi. Həzrət çölə çıxaraq «heç kim ondan ötrü üzr istəməsin. O, onun oğlu Mərvan və digər ailə üzvləri Mədinəni tərk etməlidirlər»-deyə buyurdu.

Beləliklə, Rəsulallahın (s) əmriylə Taifə sürgün edildilər. Əbu Bəkr və Ömərin xilafətləri dövründə Osman əmisidir deyə şəfaət edərək onların Mədinəyə qaytarılmasını istəsə də, onlar qəbul etmədilər: «Biz Rəsulallahın qovduğu və sürgün etdiyi kəsləri geri qaytara bilmərik!».

Lakin Osman xilafətə yetişdikdə, səhabə və müsəlmanların - etirazlarına etina etməyib, onları Mədinəyə gətirdi. Üstəlik onlara bəxşişlər də verdi. Mərvanı xilafət sarayının rəisi etdi. Bəni-Üməyyənin bütün qabaqcıllarını öz ətrafına toplayaraq onlara çox həssas, önəmli vəzifə və məqamları verdi. Ömərin də əvvəlcədən gördüyü kimi, onlar Osmanın bədbəxtliyinə səbəb oldular.

## FASİQ VƏLİD SƏRXOŞ OLDUĞU HALDA CAMAAT NAMAZI QILDIRDI

Bunlardan biri Osmanın Kufəyə vali göndərdiyi Vəlid ibn Əqəbə ibn Əbu Muit idi. Məsudi «Murəvvicuz-zəhəb» kitabında Osmanın tərcümeyi-halını bildirərkən belə deyir: «Rəsulallah Vəlidin haqqında buyurmuşdur: «O, atəş əhlindəndir». Vəlid fisqu-fücurda, açıq-aşkar günah edənlərin son hddinə yetişmişdi».

Məsudi «Murəvvicuz-zəhəb» və Əbul-Fida öz «Tarix»ində, Siyuti «Tarixül-xuləfa»nın 104-cü səhifəsində, Əbul-Fərəc «Əğani»nin 4-cü cildinin 178-ci səhifəsində, İmam Əhməd «Müsnəd»in 1-ci cildinin 144-cü səhifəsində, Təbəri «Tarixi-Təbəri» adlı kitabının 5-ci cildinin 60-cı səhifəsində, Beyhəqi «Sünəni-Beyhəqi»nin 8-ci cildinin 318-ci səhifəsində, İbn Əsir «Kamil»in 3-cü cildinin 42-ci səhifəsində, Yəqubi «Tarixi-Yəqub»nin 2-ci cildinin 142-ci səhifəsində və İbn Əsir «Usdul-ğabbə» kitabının 5-ci cildinin 91-ci səhifəsində və digərləri yazırlar: «Vəlid Kufədə vali olduqda bir gecə sübhə qədər əyləndi. Sübh azanının səsi eşidildikdə, sərxoş halda məscidə gələrək, mehrabda durdu. Sübh namazını dörd rükət qıldı və sonra xalqa, «istəsəniz, daha da artıra bilərəm» dedi.

Bəziləri isə Vəlidin mehrabda qusduğunu və bütün camaatın Osmana şikayət etdiyini yazırlar.

Osmanın ətrafındakı fasiqlərdən biri də Müaviyədir. Osman onu Şama, Səd ibn Ası isə Kufəyə (Vəliddən sonra) vali təyin etdi. Bunların İslam ölkələrindəki etdikləri zülm və fəsad son həddə yetişdi. Xalqın fəryadları yüksəlməyə başladı; xalqın şikayət məktublarını xilafət sarayına gətirən hər kəs qovulurdu.

# OSMANIN ETDİYİ XƏTALAR ÖLÜMÜNƏ SƏBƏB OLDU

Osmanın Rəsulallahın (s) sünnət və sirətinə, hətta Əbu Bəkr və Ömərin belə yoluna zidd olan bu əməlləri xalqın qəzəbinə gəlib, onların qiyamına səbəb oldu; nəticədə də olan oldu. Qətiyyətlə deyə bilərik ki, Osmanın bədbəxtliyi və qətlinin səbəbkarı özüdür. Çünki etdiyi işləri incələyib gözdən keçirmədi. Həzrət Əlinin nəsihətlərinə qulaq asmadı və özünü ətrafındakı bəni-Üməyyəyə qurban verdi.

II xəlifə Ömər bu vəziyyəti əvvəlcədən müəyyən etmişdi. İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 3-cü cildinin 106-cı səhifəsində Ömər ilə İbn Abbasın söhbətini nəql edərək yazır: «Ömər bu 6 nəfər şura əhlinin hər biri haqqında bəzi sözlər deyib nöqsanlarını vurğuladı. Növbə Osmana gəldikdə, üç dəfə dərin ah çəkərək dedi: «Allaha and olsun ki, Osman xilafəti ələ keçirərsə İbn Muit oğullarını (Mərvan və digərlərini) mütləq xalqın boynuna mindirəcəkdir. Sonra da ərəblər qiyam edib onu öldürəcəklər».

Yenə İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 1-ci cildinin 66-cı səhifəsində zikr olunan sözü nəql etdikdən sonra belə deyir: «Ömərin Osman haqqındakı sözü doğru çıxdı. Çünki o, xilafətə gəldikdə Əməviləri ətrafına yığdı, onları vali təyin edib xalqın boynuna mindirdi. Onlar da lüzumsuz işlər etdilər. Osman onları rəzil etmə və məlun Mərvanı özündən uzaqlaşdırma gücünə sahib olmasına baxmayaraq, bunu etmədi. Nəhayət, onların bu davranışı xalqın rahatsızlığına, qiyamına və Osmanın öldürülməsinə yol açdı».

Onun xalqın şikayət məktublarına etina etməməsi öldürülməsinə səbəb oldu.

Ağalar, insaf yaxşı şeydir. Böyük alimlərinizdən olan hicri 300-cü ildə yaşayan Məhəmməd ibn Cərir Təbərinin «Tarix» kitabına bir nəzər yetirin. 357-ci səhifədə yazır: «Rəsulallah (s) Əbu Süfyanın uzunqulağa mindiyini, Müaviyənin onu qabaqdan çəkdiyini, Yezidin də onu arxadan sürdüyünü gördükdə belə buyurdu: «Allah-təala uzunqulağın tərkindəkinə, onu qabaqdan çəkənə və onu arxadan sürənə lənət etsin».

Bunları öyrəndikdən sonra özünüz hökm verin ki, görəsən, Osman nə səbəbdən Allahın Rəsulunun lənət və sürgün etdiyi bir kəsi möhtərəm sayıb,

bağrına basır?! İslam dininə qarşı üsyankarlıq etmələrinə görə onlara əmirlik və hökümət verir?!

Biz, xəlifənin bu cür əməllərinə və onun düşünçəsizliyinə təəccüblənirik. Sadəcə biz deyil, Təbəri və İbn Əsəmi Kufi kimi böyük alimləriniz də təəccüblənirlər: «Görəsən, xəlifə Osman niyə xilafətinin ilk günlərində İslamı, vəhyi və Cəbrayılın nüzulunu inkar edən Əbu Süfyanı öldürməyib hadisənin üstünü ört-basdır etdi? Halbuki, bütün müsəlmanların ittifaqıyla, belə bir məlunun qətli vacib idi!».

İbrət alın, ey bəsirət sahibləri!

## XALQIN NARAHATÇILIĞI OSMANIN ÖLDÜRÜLMƏSİNƏ SƏBƏB OLDU

Bunlara əlavə olaraq «Nəhcül-bəlağə»nin 163-cü xütbəsinə və İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi» kitabının 2-ci cildinin 482-ci səhifəsində (Misir nəşri) xütbəni şərh edərkən «Tarixi-Təbəri»dən nəql etdiyi rəvayətə müraciət edin: «Rəsulallahın (s) səhabələrindən bəziləri şəhərlərə məktublar yazaraq müsəlmanları cihada dəvət etdilər. Əməvi və digərlərinin Osmanın himayəsiylə etdikləri zülmlərdən cana doyan xalq hicri 34-cü ildə Mədinəyə - həzrət Əlinin hüzuruna gəldilər. Onu vasitəçi qərar verib, xəlifə Osmanın yanına göndərdilər. İmam mümkün olduğu qədər ona nəsihət etdi, bir qrup vali və hakimlərin dəyişməsini və etdiyi əməlləri təkrar gözdən keçirtməsini istədi; onu bu cür işlərin doğura biləcəyi nəticələr haqqında xəbərdar etdi. Hətta canının təhlükədə ola biləcəyini belə bu sözlərlə ona baş saldı: «Allaha and verirəm, çəkin! Bu ümmətin öldürülən rəhbəri olma. Çünki söylənənə görə, bu ümmətdə bir rəhbər öldürüləcəkdir. Onun öldürülməsiylə Qiyamətə qədər ümmətin içində ölüb-öldürülmə olacaqdır».

Amma Mərvan və xəlifə Osmanın ətrafındakı Əməvilər həzrətin ona dəyərli nəsihətlərini təsirsiz hala gətirdilər. O, həzrət Əli yanından getdikdən sonra xalqın məscidə toplanmasını əmr etdi. Valiləri vəzifələrindən uzaqlaşdırmalı olduğu

halda, minbərə çıxaraq elə bir şəkildə danışdı ki, onsuz da incimiş xalqı daha da incitdi. Nəhayət, iş o yerə çatdı ki, Ömərin dediyi kimi Osman ondan narazı xalqın əliylə öldürüldü.

Deməк, Osmanın ölümünə səbəb olan şey onun yanlış işləri oldu; böyüklərin nəsihətini dinləmədiyi üçün etdiklərinin cəzasını gördü. Amma Əbu Bəkr və Ömər belə etmədi; onlar ardıcıl olaraq Əmirəl-möminin həzrət Əlinin nəsihətlərini dinləyib, onları gözləri qarşısında canlandırdılar. Beləcə, bir qrup müsbət nəticələr əldə etmiş oldular.

## OSMANIN ƏMRİYLƏ RƏSULALLAHIN (S) ƏSHABININ DÖYÜLMƏSİ

İkincisi budur ki, Osman etdiyi xətalar ucbatından ona etiraz edən bəzi səhabələrin döyülməsini əmr etdi. Osmanın bu əmri sayəsində onları o qədər döydülər ki, bəziləri öldü, bəziləri isə şikəst oldu.

Osmanın döydürtdüyü səhabələrdən biri Abdullah ibn Məsud idi. O, hafiz, qari, Quran katibi və Rəsulallahın (s) məxsus səhabələrindən idi; Hətta Əbu Bəkr və Ömər ehtiram göstərib, onunla məsləhətləşirdi.

İbn Xəldun «Tarix» kitabında yazır: «İkinci xəlifə Ömər xilafəti dövründə Abdullahın ondan ayrılmamasında israrlı idi. Çünki o, Quran və dini hökmlər haqqında zəruri, lazımlı məlumatlara sahib idi. Rəsulallah onu çox tərif etmişdi». İbn Əbil-Hədid və digərləri də öz əsərlərində bu mövzuya toxunmuşlar.

## İBN MƏSUDUN DÖYÜLMƏSİ VƏ ÖLÜMU

Sizin alim və tarixçiləriniz yazmışlar: Osman Quranı toplamaq istədikdə, Quranın bütün nüsxələrini katiblərindən istəyərək hamısını bir yerə topladı. Rəsulallahın (s) etibarlı əshabından və vəhy katiblərindən olan Abdullahın yazdığı nüsxəni də istədi, amma o, vermədi. Bundan sonra Osman Abdullahın evinə gedərək, zorla Quranın nüsxəsini onun əlindən aldı.

Daha sonra Abdullah onun yazdığı Quranı da digər Quranlar kimi yandırdıqlarını eşitdikdə çox üzüldü. Bundan sonra bir çox məclis və toplantılarda həqiqətlərin üzərindəki pərdələri qaldıraraq, Osman haqqında olan bəzi hədisləri xalqa nəql edir və kinayəli sözlərlə onları bir qrup həqiqətlər xüsusunda şərh edirdi.

Bu xəbər Osmana çatdıqda, kölələrinə onu döymələrini əmr etdi. Abdullahı o qədər döydülər ki, bu döyülmə nəticəsində onun qabırğa sümükləri qırıldı. O, yatağa düşdü və üç gün sonra da dünyasını dəyişdi.

Necə ki, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 67 və 126-cı səhifələrində (Misir nəşri) sözügedən hadisəni 6-cı tənin zimnində geniş bir şəkildə izah edir: «...Osman Abdullahın görüşünə getdi. Bir az söhbət etdikdən sonra dedi: «Əbu Əbdürrəhman! Mənim üçün Allahdan məğfirət dilə». Abdullah da cavabında: «Allahdan, haqqımı səndən almasını istəyəcəyəm»-dedi.

Yenə belə nəql etmişdir: «Osman, Əbuzəri Rəbəzəyə sürgün etdikdə, onu yola salmağa getdiyi üçün Abdullaha 40 qamçı vurdurdu».

Bax, bu səbəbdən Abdullah «Mən öldükdə Osmanın cənazə namazımı qılmasına icazə vermə»-deyə Əmmar Yasirə vəsiyyət etdi və o da qəbul etdi. Abdullah vəfat etdikdə Əmmar bir qrup əshabla birlikdə cənazə namazı qılıb onu dəfn etdi.

Abdullahın dəfn edildiyini xəbəri Osmana çatdıqda o, Abdullahın qəbrinin üstünə gedərək Əmmara «Niyə belə etdin?»-deyə etiraz etdi. Əmmar da cavabında dedi: «Onun vəsiyyətinə uyğun əməl etməyim lazım idi». (Əmmarın bu əməli, daha sonradan əvəzini çıxdığı Osmanın kininə səbəb oldu).

Böyük alimlərinizin nəql etdiklərinə görə xəlifə Osmanın etdiyi işlər insanı heyrətə gətirir; xüsusilə də, Peyğəmbəri-əkrəmin mömin səhabəsinə qarşı etdikləri. Əbu Bəkr və Ömər belə əshaba qarşı bu cür davranmamış, hətta Osmanın etdiklərinin əksinə, Rəsulallahın əshabına ehtiram göstərmişdilər.

# ӘMMARIN OSMANIN ӘMRİYLӘ DÖYÜLMӘSİ

Osmanın daşqəlbli olmasını göstərən işlərindən biri də Əmmar Yasiri döydürməsi və ona qarşı nalayiq həqarətidir. Əmmar Yasir Rəsulallahın yaxın səhabələrindəndir. Böyük alim və tarixçilərinizin də yazığı kimi, İslam dünyasında - bütün şəhərlərdə zülm, təzyiq, oğurluq və rüşvət artdıqca böyük səhabələr toplanıb Osmana məktub yazaraq, edilən zülmləri ona şəfqətlə başa salıb bildirdilər ki, əgər Əməvilərin zülmlərinin qarşısını almazsa, onları himayə etməyə davam edərsə, bunun sonunun pis nəticələrə gətirib çıxaracağını, İslamın zərərinə və daha çox öz əleyhinə tamamlanacağını xatırlatdılar.

Məktubu kimin aparacağı barədə məsləhət olundu. Nəhayət, Əmmarın aparacağı qərarlaşdırıldı. Çünki Əmmarın fəzilət, təqva və böyüklüyünü Osman özü də etiraf edirdi. Rəsulallahın Əmmar haqqında buyurmuş olduğu bu sözləri dəfələrlə onun özündən eşidilmişdi: «İman Əmmarın əti və qanıyla qarışmışdır»; «Cənnət üç nəfərin həsrətin çəkir: Əli ibn Əbu Talib, Salman Farisi və Əmmar Yasir».

Əshabın məsləhəti üzrə Əmmar məktubu götürüb Osmanın evinə getdi. Evə çatdıqda o, evdən çıxmaq üzrə idi. Həyətdə Əmmarı gördükdə: «Ya Əba Yəkzan! (Əmmarın günyəsi) Bir işin var?»-deyə soruşdu. Əmmar dedi: «Xeyr, məxsus bir işim yoxdur; Rəsulallahın (s) bir qrup əshabı sənin xeyir və səlahına olan məktub yazıb, onu mənim vasitəmlə sənə göndərdilər. Zəhmət olmasa, oxu və cavabını ver».

Osman məktubu alıb, bir neçə sətir oxuyar-oxumaz rəngi dəyişdi. Qəzəblə məktubu yerə atdı. Əmmar xəlifənin davranışını gördükdə dedi: «Yaxşı iş tutmadın. Rəsulallahın əshabının məktubunun ehtiramı vardır. Niyə onu yerə atdın? Oxuyub, cavab verməyin lazım idi».

Osman çox hirsli bir halda: «Yalan deyirsən! – deyərək, kölələrinə Əmmarın döyülməsini əmr etdi. Onlar Əmmara hücum çəkib, onu qəddarlıqla döydülər. Sonra yerə yıxaraq təpikləməyə başladılar. Hətta «çox şəfqətli və incə qəlbli Osmanın özü də onun qarnına bir neçə təpik vurdu. Əmmar huşunu itirdi.

Qohumları gəlib, onu möminlərin anası Ümmü-Sələmənin evinə apardılar. Axşamdan gecə yarısına qədər huşsuz idi. Dörd namazı qəzaya getdi. Oyandıqda onların qəzasını qıldı. Yaşlı olan zavallı Əmmar bu təpiklər nəticəsində fitk xəstəliyinə tutuldu...

Bu hadisənin təfsilatı öz alimlərinizin etibarlı kitablarında mövcuddur. İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» və Məsudi də «Murəvvicuz-zəhəb» kitabının 1-ci cildinin 437-ci səhifəsində Osmanın səhvlərini qeyd etdikdə belə deyirlər: «Hüzeyl və bəni-Məxzum qəbilələrinin Osmandan ayrılmalarının səbəbi, onun Əmmar Yasir və Abdullah ibn Məsudu döyməsi idi».

İndi Osmanın nə qədər yumşaq qəlbli və mərhəmətli bir insan olduğuna insaflı ağaların özləri hökm versinlər!

## ƏBUZƏRİN İNCİDİLƏRƏK SÜRGÜN EDİLMƏSİ VƏ ONUN RƏBƏZƏ ÇÖLÜNDƏ VƏFATI

Osmanın, Rəsulallahın (s) yaxın səhabəsi və İslam aləminin ikinci şəxsi olan Cundəb ibn Cunadə (Əbuzər Ğəffari) qarşı etdiyi əməl və davranışları sərbəst, azad düşüncə sahibi olan hər kəsi heyrətə gətirir.

Hər iki firqənin mühəddis və tarixçilərinin etiraflarına görə, Osman 90 yaşındakı yaşlı Əbuzəri təhqiredici şəkildə Mədinədən Şama, Şamdan Mədinəyə və oradan da çılpaq dəvəyə mindirərək qızıyla birlikdə Rəbəzə çölünə sürgün etdi. Əbuzər orada dünyasını dəyişdi və yetim qızı o qorxulu vadidə təkbaşına qaldı.

Böyük tarixçi və alimləriniz (vaxtımız onların hamısının sözlərini geniş şəkildə bildirməyə imkan vermir) Osman, Müaviyə və Mərvan kimi Əməvilərin Rəsulallahın məhbubu olan yaşlı və mömin Əbuzərə, onu yola saldığı üçün həzrət Əliyə qarşı təhqirləri, vəhyin hafiz və katibi olan Abdullah ibn Məsuda da bu səbəbdən 40 qamçı vurduqlarını öz kitablarında yazmışlar:

İbn Səd: «Təbaqat» c: 4. səh: 168; Buxari: «Səhih»in «Zəkat kitabı»; İbn Əbil-Hədid: «Nəhcül-bəlağənin şərhi», c: 1, səh: 240 və c: 2, səh: 375-387;

Yəqubi: «Tarixi-Yəqubi», c: 2, səh: 148: Əbül-Həsən Əli ibn Hüseyn Məsudi[1] (ö: 346): «Murəvvicuz-zəhəb» c.1, səh: 438 və s.

**Hafiz**: «Əgər Əbuzər incidilmişdisə də, hüviyyətsiz məmur və vəzifəlilər tərəfindən incidilmişdir! Xəlifə Osmanın özü çox mərhəmətli və yumşaqqəlbli bir insan idi; onun qətiyyən bu növ əməllərdən xəbəri yox idi».

**Dəvətçi**: «Məşhur bir misal vardır: Dayə xanım anadan daha şəfqətlidir!

Osmanı bu cür himayə etməniz haqq-həqiqətə ziddir. Əgər mötəbər tarix kitablarına müraciət etmiş olsanız, Əbuzər edilən təhqir və əziyyətlərin hamısının Osmanın açıq-aydın əmri ilə olduğunu görər və təsdiq edərsiniz.

Bu sözün dəlili böyük alimlərinizin etibarlı kitablarıdır. Nümunə olaraq, rica edirəm İbn Əsirin «Nihayə» və «Tarixi-Yəqubi» kitabının 1-ci cildlərinə, xüsusilə də İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 241-ci səhifələrinə müraciət edin. Onlar xəlifənin Müaviyəyə yazdığı məktubu qeyd etmişlər. Əbuzər Şamda olarkən Müaviyə ondan xəlifə Osmana şikayət etdi. Osman ona «Əbuzəri işgəncəylə Mədinəyə göndərin» yazdı. Məktubun əsli belədir: «Cündəbi (Əbuzərin adıdır), yaşlı (zəif) və palansız bir dəvəyə mindirərək, gecə-gündüz, durmadan hərəkət etdirən pis əxlaqlı biriylə mənə göndər».

Bu əmrə uyğun olaraq, Rəsulallahın sevimli səhabəsi olan yaşlı və təmizqəlbli insanı çox pis bir şəkildə Mədinəyə göndərdilər. Əbuzər Mədinəyə daxil olduqda baldırlarının əti (yaralanmış olduğundan) tökülürdü.

Allah xatirinə deyin, mərhəmət, yumşaqqəlblilik və şəfqətin mənası budurmu?

## ƏBUZƏR ALLAHIN VƏ RƏSULALLAHIN (S) SEVİMLİSİ ÜMMƏTİN İSƏ DÜZ DANIŞANI İDİ

Görəsən, Əbuzər sizin böyük alimləriniz tərəfindən yazılmış müfəssəl hədislərdə Allah və Rəsulunun (s) tövsiyə etdiyi uca şəxsiyyət deyildimi?

---

[1] IV əsrin məşhur mühəddis və tarixçisi.

Rəsulallah buyurmuşdur: «Allah məni dörd kişini sevməyi əmr etdi və Özünün də bu dörd nəfəri sevdiyini bildirdi». «Ya Rəsulallah, onların adlarını bizə söyləyin» deyildikdə Peyğəmbəri-əkrəm buyurdu: «Onlar Əli, Əbuzər, Miqdad və Salmandır».

Zikr olunan hədisi nəql edən alimlərinizin sıralarına bunlar daxildir: hafiz Əbu Nəim İsfahani: «Hilyətul-övliya», c: 1, səh: 172; İbn Maccə Qəzvini: «Sünəni İbn Maccə», c:1, səh: 66; Şeyx Süleyman Bəlxi Hənəfi: «Yənabiul-məvəddə», bab: 59; İbn Həcər Məkki «Səvaiq» - Əmirul-mömininin fəzilətlərinə dair 40 hədisin beşincisi; Tirmizi və Hakim Boriydədən o da atasından hədisin səhihliyinin şərti ilə; İbn Həcər Əsqəlani: «İsabə», c: 3, səh: 455; Tirmizi: «Səhihi-Tirmizi», c: 2, səh: 213; İbn Əbdülbirr: «İstiab», c: 2, səh: 557; Hakim: «Müstədrək», c: 3, səh: 130; Siyuti: «Camius-səğir» və s...

Demək, bu dörd nəfər Allah və Rəsulunun sevdiyi insanlardır. Görəsən, insaf və vicdanınız onların Allah və Rəsulunun sevdiyi insana belə ədalətsiz davranmalarına və daha sonra da adlarını incəqəlblilik və şəfqət qoymalarına icazə verirmi? Bu nisbətlər nə üçün Əbu Bəkr və Ömərə verilməmişdir? Çünki etməyiblər, tarix də nəql etməyib, biz də söyləməmişik».

**Hafiz**: «Tarixçilərin yazdıqlarına görə Əbuzər başaqrısına səbəb olan biri imiş; Şam bölgəsində Əlini təbliğ edir, əhalini Əlinin məqamı xüsusunda məlumatlandırır, «mən Rəsulallahdan «Əli mənim xəlifəmdir» buyurduğunu eşitmişəm» deyir, digər xəlifələri qəsbkar, Əlini isə Rəsulallahın haqq xəlifəsi olaraq tanıtdırırmış. Bu səbəbdən də xəlifə Osman cəmiyyətin sabitliyini qorumaq və fəsadın qarşısını almaq üçün onu Şamdan Mədinəyə çağırmışdı. Əgər bir adam xalqı cəmiyyətin məsləhətinə zidd olan bir işə dəvət edərsə, zamanın xəlifəsinin onu hadisə yerindən uzaqlaşdırması lazımdır!».

**Dəvətçi**: «Birincisi; haqq söz söyləyənə «Nə üçün haqq olan məlumatları açıqladın?» deyərək döymək, söymək və işgəncə vermək lazımdırmı?! Müsəlman bir fərdi mühakimə etmədən, onun haqqında şikayət edənin sözünün doğruluğu və ya yanlışlığını araşdırmadan xilafət mərkəzinə ihzar etmək, daha sonra 90 yaşında zəif bir qocanı palansız, yaşlı bir dəvəyə mindirərək pis əxlaqlı bir adamın əmri

altında gecə-gündüz dayanmadan yatmasına və istirahət etməsinə izn belə vermədən hərəkət etdirmək, bu əziyyət və işgəncə nəticəsində ayaqlarının ətinin tökülməsi müqəddəs İslam dininin hansı qanununa sığır?! İncəqəlblilik, mərhəmət və mürüvvətin mənası budurmu?!

Bunlara əlavə olaraq, əgər xəlifə fəsadın qarşısını almaq və cəmiyyətin asayişini qorumaq istəyirdisə, o zaman nə üçün Rəsulallahın qovub sürgün etdiyi Mərvan və sərxoş olaraq namaz qılıb mehrabda istifrağ edən Vəlid kimi Əməvi müfsitlərini özündən uzaqlaşdırmadı?! Əgər xəlifə cəmiyyətdə fəsada səbəb olan bu cür insanların əməllərinin qarşısını alsaydı, onların fəsadı xəlifənin ölümünə səbəb olmazdı!».

**Hafiz**: «Əbüzərin doğru söylədiyi, haqq məlumatları aşkar etdiyi və Rəsulallahın (s) adından hədis uydurmadığı haradan məlumdur?».

## CƏHALƏT PƏRDƏLƏRİNİ YIRTMAQ ÜÇÜN İNSAFLA HÖKM VERMƏK LAZIMDIR!

**Dəvətçi**: «Xatəmül-ənbiya (s) onun sədaqət və doğru danışan olduğunu təsdiq və təyid etmişdir. Bu səbəbdən böyük alimləriniz Rəsulallahın belə buyurduğunu nəql etmişlər: «Ümmət arasında doğruluq, sədaqət, zöhd və təqva baxımından Əbuzərin məsəli, İsanın bəni-İsrail arasındakı məsəli kimidir».

«Lisnaul-ərəb» və «Yənabiul-məvəddə» kitablarının müəllifləri Əbuzər Ğəffari haqqındakı hədisləri müxtəlif sənədlərlə nəql etmişlər: «Rəsulallah buyurdu: «Yer üzü Əbuzərdən daha doğru danışan birini üzərində daşımamış, göy də (buludlar da) ondan daha doğru danışan birinin üzərinə kölgə salmamışdır».

Məzkur hədisi digər böyük alimləriniz də nəql etmişlər: Məhəmməd ibn Səd: «Təbaqət», c: 4, səh.: 167-168; İbn Əbdülbirr: «İstiab», c: 1, səh: 84, bab: «Cundəb; Tirmizi: «Səhih», c: 2, səh: 221; Hakim: «Müstədrək», c: 3, səh:342; İbn Həcər: «İsabə», c:3, səh: 622; Müttəqi Hindi: «Kənzül-ümmal», c: 6, səh: 169, İmam Əhməd: «Müsnəd», c: 2, səh: 163 və 175; İbn Əbil-Hədid: «Nəhcül-

bəlağənin şərhi», c: 1, səh: 241 (Vahididən nəqlən); Hafiz Əbu Nəim İsfahani: «Hilyə» və s.

Aydındır ki, alimlərinizin tanıtdığı, Rəsulallahın doğru danışdığını təsdiq etdiyi bir şəxsin söylədikləri, sözsüz ki, doğrudur. Allah-təala yalançı və hədis uyduran birini, əsla, öz məhbubu kimi tanıtmaz! İnsaf gözlərinizi açıb haqq-həqiqəti yaxşı görün. Əgər Əbuzərin keçmişində yalan danışması olsaydı, alimləriniz Əbu Hüreyrə və digərləri haqqında nəql etdikləri kimi, onun haqqında da nəql edərdilər!

Allah xatirinə, bir az düşünün, insafla hökm verin. Allah və Rəsulunun sevdiyi, ümmətin ən doğru danışan, vəzifəsini yerinə yetirərək yaxşılığa əmr edib, haqqı bəyan edən yaşlı bir insanı sadəcə Peyğəmbərin hədislərini nəql etdiyi üçün təhqir etmələri, quru və susuz bir səhraya sürərək ona işgəncə vermələri və ölənədək də geri dönməsinə izn verməmələri düzgündürmü? Mərhəmət, mürüvvət və yumşaqqəlbliliyin mənası budurmu?!

Rəsulallah (s) qarşılaşacağı müsibətləri Əbuzərə xəbər verdikdə, onun saleh olduğunu duymuşdu. Hafiz Əbu Nəim İsfəhani «Hilyətul-övliya» kitabının 1-ci cildinin 162-ci səhifəsində öz sənədləriylə Əbuzər Ğəffaridən belə nəql edir: «Rəsulallahın xidmətində olduqda mənə belə buyurdu: «Sən saleh bir insansan, məndən sonra sənə çox bəlalar üz verəcək». «Allah yolundamı?» soruşduqda, Peyğəmbər: «Bəli, Allah yolunda»,-deyə buyurdu. Mən də: «Allah yolunda gələn bəlaya göz üstündə yer var»-dedim».

Siz ağaların bir-biri ilə zidd vəziyyətləriniz, həqiqətən, qəribədir. Bir tərəfdən alimləriniz Rəsulallahın buyurduğu «Mənim əshabım göydəki ulduzlar kimidir: hansına tabe olsanız, hidayət olarsınız» hədisini nəql edir, digər tərəfdən də həzrət Əlini himayə etdiyinə görə Peyğəmbəri-əkrəmin ən böyük və ən təmiz qəlbli səhabəsini öldürən və ona işgəncə verən zalımların tərəfini tutursunuz! Ya bu vaqiə və hədisləri öz kitablarında yazan bütün alimlərinizi yalanda ittiham edəcəksiniz, ya da ayeyi-kərimdə zikr edilən sifətlərin bu cür zülmləri edən kimsələr haqqında olmadığını təsdiq edəcəksiniz!

## ƏBUZƏRİN RƏBƏZƏYƏ ZORLA GÖNDƏRİLMƏSİ

**Hafiz**: «Bu qətidir ki, Əbuzər öz meyl və istəyi ilə Rəbəzəni seçib, oraya səfər etmişdir».

**Dəvətçi**: «Sözləriniz son zamanlarda mütəəssib alimlərinizin keçmişdəkilərin əməllərini ört-basdır etmək üçün boş səylərinin əlamətidir. Çünki Əbuzərin zorla Mədinədən çıxarılışı hər kəsin yanında qəti olan bir həqiqətdir! Bir xəbəri misal çəkməklə kifayətlənirəm: İmam Əhməd ibn Hənbəl «Müsnəd»in 5-ci cildinin 156-cı səhifəsində, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 1-ci cildinin 241-ci səhifəsində və Vaqidi öz «Tarix» kitabında Əbul-Əsvəd Duelidən (rical alimlərinizin yanında etibarlı şəxsdir) belə nəql edir: «Əbuzəri Rəbəzədə görüb, ondan Mədinədən nə üçün çıxdığını soruşmaq istəyirdim. Bunun üçün yanına gedib, «Nə üçün Mədinədən çıxdın?»-deyə soruşdum. Cavabında belə dedi: «Məni bitkisiz və susuz olan-bu səhraya gəlməyə məcbur etdilər. Həbibim Rəsulallah bunu hələ əvvəldən mənə xəbər vermişdi. Bir gün məsciddə yuxulamışdım. Həzrət (s) gələrək, ayağı ilə mənə vurub soruşdu:

- Niyə məsciddə yatmısan?

- Ya Rəsulallah! Özümdən asılı olmayıb, yuxulamışam.

- Bir vaxt, səni Mədinədən çıxarsalar nə edərsən?

- Müqəddəs Şam bölgəsinə gedərəm.

- Oradan çıxarsalar hara gedərsən?

- Məscidə dönərəm.

- Buradan da çıxarsalar nə edərsən?

- O zaman, qılıncı çəkib döyüşərəm.

- Səni, sənin xeyrinə olan bir şeyə hidayət edimmi?

- Bəli.

- Səni hara sürsələr get, dinlə və itaət et.

Mən də dinləyib itaət etdim. Sonra buyurdu. «Allaha and olsun ki, Osman Allah-təalanın hüzuruna mənim yanımda günahkar olduğu halda çıxacaqdır».

# ƏLİ İBN ƏBU TALİBDƏ (Ə) ŞƏFQƏT VƏ MƏRHƏMƏT İZLƏRİ

Diqqətlə, insafla baxsanız mərhəmət, şəfqət və yumşaqqəlblilik sifətinə hər kəsdən daha layiq və daha qabaqcıl mövlamız Əmirəl-möminin həzrət Əlinin olduğunu təsdiq edərsiniz. Çünki həzrət Əli xilafətə yetişdikdə bütün tarixçiləriniz, xüsusilə də İbn Əbil-Hədidin geniş bir şəkildə yazdığına görə bidətləri aradan apardı. Osmanın xilafəti zamanında müxtəlif İslam bölgələrində valilik və hakimlik məqamına təyin edilmiş Əməvi və digər qəbilələrin zalım, facir və fasiq şəxslərini vəzifələrindən azad etdi.

Zahiri görən bir qrup siyasətçilər və İmamın (ə) dostlarından bəziləri hökumətin təməli sağlamlaşana qədər Müaviyə kimi bəzi vali və hakimlərin bir müddət öz məqamlarında qalmaları üçün icazə vermək və sonra onları vəzifələrindən kənarlaşdırmaq təkliflərini irəli sürdülər. İmam (ə) onların təkliflərinin cavabında buyurdu: «Allaha and olsun ki, mən dində yaltaqlıq və işimdə riya etmərəm. Məni onlara qarşı yaltaqlıq etməyə məcbur edirsiniz. Onların keçmişdə etdikləri kimi mənim hökumətimdə də zülm və haqsızlıq edəcəklərini bilmirsiniz?! O zaman İlahi ədalət məhkəməsində onların hesabını mənim verməyim lazım gələcək; mənim də buna gücüm yoxdur».

Həzrət Əlinin zalım hakim və valiləri istefaya göndərməsi, Müaviyə kimi bir qrup dünyapərəst kimsələrin müxalifət etmələrinə, Cəməl və Siffeyn döyüşlərinin meydana gəlməsinə səbəb oldu.

Təlhə və Zübeyr Bəsrə və Kufə valiliyi üçün Əmirəl-möminin həzrət Əlinin yanına gəldilər. Əgər İmam (ə) razılıq vermiş olsaydı, onlar müxalifət etməz, Bəsrə fitnəsi ilə Cəməl döyüşünü də meydana çıxarmazdılar.

Bəzi dar düşüncəli zahirçilər həzrət Əlinin bəzi siyasətlərinin səhv olduğunu söyləyirdilər. Lakin O, ədalət və siyasətin mənbəyi idi. Amma dünya əhlinin anladığı ümumi siyasət - ikiüzlülük, yaltaqlıq, yalan, hiylə, İslam düşmənləri ilə birlikdə olmaq, zahiri mənfəətləri əldə etmək üçün onları aldatmaq - ədalət, insaf,

təqva və axirətə inanc abidəsi olan həzrət Əli kimi bir şəxsiyyətin yanında keçərli bir siyasət deyildi.

Bir gün O minbərdə danışarkən ağladı. Səbəbi soruşulduqda belə buyurdu: «Müaviyənin əsgərlərinin bir kəndə hücum edib, İslamın amanında olan bir yəhudi qızın ayaqlarından bilərzik çıxartdıqlarını eşitmişəm...»

Həzrət Əlinin mərhəmət hissi dosta və düşmənə qarşı eyni idi. Osmanın etdiyi saysız pisliklərə baxmayaraq, (Əbu Bəkr və Ömər heç həmin pislikləri etməmişdilər) evi xalq tərəfindən mühasirəyə alınanda İmam ona qarşı mərhəmətli davrandı. Osman damın üstündən həzrət Əliyə yemək və suyunun qurtardığını bildirdi. İmam da çörək və su təşkil edib, iki oğlu - Həsən və Hüseyn (ə) vasitəsiylə onun üçün göndərdi. Bu səbəbdən İbn Əbil-Hədid və digər tarixçilər bu mövzuya geniş şəkildə toxunmuşlar.

Həzrət Əlinin (ə) dosta və düşmənə göstərdiyi sevgi və məhəbbət, əsla, kimsənin inkar edə bilməyəcəyi bir faktdır. Yetim uşaqlara, sahibsiz kişi və qadınlara və yoxsul insanlara o qədər yardım etdi ki, «Yetimlər, miskinlər və sahibsiz kişi və qadınlar atası» ləqəbi ilə məşhur oldu.

Zahiri xilafəti dövründə, küçədə yorulmuş, bezmiş və çarəsi kəsilmiş bir qadını səhəng ilə su daşıdığını gördü. Özünü ona tanıtdırmadan su səhəngini alıb, qadının evinə apardı. Daha sonra un, xurma və digər qida maddələri də götürərək, o qadının evinə gətirdi. Zavallı qadının yetim uşaqlarını oxşadı; öz əliylə yemək bişirdi və onların dərdlərini unutdurdu.

Xəlifə Osman da cömərdlik və bağışlamaq xüsusiyyəti ilə məşhur oldu; amma sadəcə Əbu Süfyan, Həkəm ibn Əbil-As və Mərvan ibn Həkəm kimi öz qohum və yaxınlarına! Beytul-maldan, heç bir şəri sənəd olmadan, həddindən artıq və ürəyi istədiyi qədər bağışladı.

## HƏZRƏT ƏLİNİN (Ə) ƏQİLİ ÇOX YARDIM İSTƏDİYİ ÜÇÜN ƏDƏBLƏNDİRMƏSİ

Həzrət Əli (ə) öz yaxınlarına ehtiyaclarından daha az verirdi. Bir gün böyük qardaşı Əqil İmamın yanına gələrək, təyin olunan miqdardan çox istədi. Lakin həzrət onun xahişinə əhəmiyyət vermədi. Əqil: «Sən bu gün xəlifəsən, əmr sənin əlindədir. Bizə daha çox köməklik göstərib, bəxşiş verməlisən»,-deyə israr etdi. Həzrət onu cəzalandırmaq üçün bir dəmir parçasını yavaşca alovda qızdıraraq Əqilin bədəninə yaxınlaşdırdı. Əqil xəstə adamın ağrıya dözə bilməyib inildədiyi kimi zarıdı. Dəmirin istiliyindən dərisi yanacaqdı. Daha sonra İmam buyurdu: «Ey Əqil! Analar sənin müsibətində ağlasın! İnsanların oyuncaq üçün isitdikləri dəmirin istisinə inildəyirsən. Məni qəhhar Allahın yandırdığı atəşə çəkirsən?! Sən bu kiçik istinin müqabilində inildəyirsən, bəs mən o böyük atəşdə inildəməyəcəyəm?!».

İnsaflı ağaların bu iki xəlifənin məqam və mövqelərini müqayisə edib, həqiqəti kəşf etmələri və haqqa tabe olmaları lazımdır!

Həzrət Əlinin mərhəmət və şəfqəti yalnız dostlara qarşı deyildi. Onun mərhəmət və şəfqəti dostlarını əhatə etdiyi kimi, düşmənlərini də əhatə etmişdi. Düşmənə qalib gəldikdə onlarla elə şəfqətlə rəftar edirdi ki, hər kəsi heyrətə gətirirdi.

## HƏZRƏT ƏLİNİN (Ə) MƏRVAN, ABDULLAH İBN ZÜBEYR VƏ AİŞƏYƏ MƏRHƏMƏTİ

Hər kəs məlun oğlu məlun Mərvan ibn Həkəmin Əmirəl-möminin (ə) qatı düşmənlərindən biri olduğunu bilirdi. Həzrət Əli düşmənçiliyinə baxmayaraq, Cəməl döyüşündə Mərvana qalib gəldikdə əfv edib, üzünü ondan çevirdi.

O Həzrətin digər böyük düşmənlərindən biri Abdullah ibn Zübeyr idi. O, xalqın hüzurunda açıq şəkildə həzrət Əlini söyürdü. Hətta bir gün Bəsrədə xalqa belə demişdi: «Axmaq və xəsis olan Əli ibn Əbu Talib sizə doğru gəlir».

Zübeyri Cəməl döyüşündə əsir tutub, İmamın (ə) hüzuruna gətirdilər. Onun etdiyi saysız-hesabsız dünmənçilik və təhqirlərinə baxmayaraq, həzrət ona təhqiredici və ya qorxuducu baxışla belə baxmadı; üzünü çevirib, onları sərbəst buraxmalarını əmr etdi.

Bunlardan daha əhəmiyyətlisi Ümmül-möminin Aişəyə qarşı rəftarıdır. Həzrətin ona qarşı davranışı insanları heyrətə gətirmişdir. Halbuki, Aişənin xilafətin ilk günlərindən fitnə yaratması, İmama qarşı qiyam etməsi və onun haqqında çirkin sözlər danışması insanı o qədər əsəbiləşdirir ki, insan öz-özünə «Onu ələ keçirsəydim, həlak edərdim, ən şiddətli cəzayla cəzalandırardım»-deyə düşünür. Lakin həzrət Əli qalib gəldikdə, ona qarşı heç bir təhqir və əziyyətə yol vermədi.

Qardaşı Məhəmməd ibn Əbu Bəkri ona xidmət göstərməsi üçün vəzifələndirdi. Sonra qəzəblənmək əvəzinə, ona lazım olan dərəcədə ehtiram etdi. Daha sonra Abdülqəys qəbiləsindən 20 igid xanıma qadın olduqlarının bilinməməsi üçün üzlərini örtərək kişi paltarı geyməlerini, silahlanıb Aişəni Mədinəyə aparmalarını əmr etdi. Aişə Mədinəyə yetişdikdə Rəsulallahın (s) zövcələri və digər qadınların hüzurunda həzrət Əlidən razı olduğunu dedi: «Mən ömrümün sonuna qədər Əlidən razıyam, ona minnətdaram. Onun bu qədər böyük insan olduğunu zənn etmirdim. Ona etdiyim bu qədər duşmənçilik və itaətsizliyimə baxmayaraq, etdiyim işlərdən birini belə üzümə vurmadı. Əksinə, həddən artıq lütf və mərhəmət etdi. Amma təkcə bir hərəkəti məni incitdi; o da budur ki, məni qərib kişilərlə Mədinəyə göndərdi». Aişənin sözlərini eşidən qadınlar o dəqiqə gələrək, geydikləri kişi paltarlarını çıxarıb, üzlərini açdılar. Beləcə, onların hamısının qadın olduğu ortaya çıxdı.

Demək, həzrət Əli bu əmriylə bir tərəfdən Aişənin qadınlar ilə getməsini təmin etdi, digər tərəfdən də quldurların onları kişi zənn edərək yollarını

kəsməmələrini əvvəlcədən nəzərdən keçirtdi. Bəli, böyük, dahi insanlar belə edərlər! Onların etdiklərini etmək lazımdır!

## MÜAVİYƏNİN SUYU KƏSMƏSİ VƏ HƏZRƏT ƏLİNİN (Ə) MƏRHƏMƏTİ

Süffeyn döyüşündə Müaviyənin əmri altında olan Şam ordusunun 12 min əsgəri Fərat çayına daha əvvəl yetişdi və həzrət Əlinin əsgərlərinin sudan istifadə etmələrinə mane oldu. Həzrət Əli onların bu əməlindən sonra Müaviyəyə bəyanat göndərdi: «Biz buraya su üçün döyüşməyə gəlməmişik. Hər iki tərəfin əsgərlərinin sərbəst şəkildə sudan istifadə etmələri üçün əsgərlərinə mane olmamalarını əmr et!».

Müaviyə həzrət Əlinin bəyanına cavab olaraq belə dedi: «Əli və ordusu susuzluqdan ölənə qədər, su verməyəcəyik!».

Müaviyənin cavabını eşidən İmam (ə) Malik Əjdərin başçılığı altında bir qrup əsgəri Müaviyənin əsgərləri üzərinə hücuma göndərdi. Düşmən geri çəkildi və Fərat İmamın əsgərləri tərəfindən ələ keçirildi.

Əshabdan bəziləri: «Ya Əmirəl-möminin! İcazə verin, fürsətdən istifadə edək. Döyüşün tez qurtarması və susuzluqdan ölmələri üçün suyu onlara verməyək»- dedi. İmam buyurdu: «Xeyr! Allaha and olsun ki, mən onların etdiyi kimi etməyəcəyəm. Çayın bəzi yerlərini onlar üçün açıq qoyun!».

Məclisin vaxtını nəzərə alıb həzrət Əlinin düşmənlərinə qarşı olan şəfqət və mərhəmətini qısa olaraq ərz etdim. Böyük alimləriniz öz kitablarında bunları daha geniş və daha təfsilatlı şəkildə nəql etmişlər. Məsələn: Təbəri «Tarixi İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi», Məsudi «Murəvvicuz-zəhəb», Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 51-ci babında və digər  bir çox tarixçiləriniz eöz dəyərli kitablarında bu mövzuya toxunmuşlar.

Bu səbəbdən insaflı və aydın fikirli möhtərəm ağalar bu iki xəlifənin - Osman və həzrət Əlinin həyatlarına nəzər yetirib, mütəaliə etdikdən sonra, əvvəlki

nəzərlərindən fərqli olaraq, sağlam bir fikirlə «Möminlərə mərhəmətlidir» ayəsinin onlardan hansına şamil olduğuna baxsınlar!

Ayeyi-şərifə bir az daha diqqət və insafla baxsanız, «Muhəmmədun Rəsulallah»ın mübtəda, «Vəlləziynə məəhu» mübtədaya mətuf[1] olmaqla birlikdə onun xəbəri olduğunu görərsiniz. Ondan sonra gələn cümlələr isə ikinci xəbərdir. Bunların hamısı bir nəfərin sifətidir. Yəni bu sifətlər Rəsulallah ilə bərabər olmaq, döyüş meydanlarında, elmi və dini münazirələrdə kafirlərə qarşı şiddətli olmaq, dost və düşmənə qarşı şəfqət və mərhəmətlilik sadəcə bir nəfərə aiddir. O da, daha öncə isbat etdiyim kimi həzrət Əlidir ! Çünki Əmirəl-möminin bir an belə həzrət Peyğəmbərdən ayrılmamışdır; ayrılmağı ağlından belə keçirməmişdir!

Daha əvvəl ərz etmişdim: Əllamə Fəqih Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabında deyir: «Allah həzrət Əlini bu ayeyi-şərif ilə sifətləndirmişdir».

Şeyx: «Bəyanat və açıqlamalarınızın çox cavabı vardır. Əgər ayənin mənası sizin dediyiniz kimi olarsa, o zaman «Vəlləzinə məəhu» (Onunla birlikdə olanlar) cümləsiylə doğru olmaz. Çünki «Vəlləzinə məəhu» çoxluğu cəmi bildirir; bu ifadənin özü də zikr olunan ayənin bir nəfər haqqında nazil olmadığını göstərir. Əgər bu sifətlər bir nəfər haqqında nazil olubsa, o zaman nə üçün cəm olaraq zikr olunub?!».

**Dəvətçi**: «Birincisi: sözlərimin bir çox cavabı olduğunu buyurdunuz. Ağalar! Bəs nə səbəbdən məsələnin aydınlığa qovuşması üçün cavab vermirsiniz?! Ağaların susub cavab verməməsi sözlərimin məntiqli olduğuna yetərli bir dəlildir! (Lakin münaqişə və söz oyunu üçün yol açıqdır!) Amma siz cənablar insaflı olduğunuz üçün məntiqli cavabların qarşısında susmağı qəbul edirsiniz!

[1] Əlavə olunmuş

# AYƏDƏ KƏLMƏNİN CƏM GƏLMƏSİ TƏZİM VƏ EHTİRAM ÜÇÜNDÜR

İkincisi; bəyanınızdan məqsəd söhbətdə münaqişə yaratmaqdır. Özünüz də bilirsiniz ki, ərəb və ya digər dillərdə təzim və ehtiram üçün təkə cəm şəkilçisinin əlavə olunması çox məşhur və geniş istifadə olunan bir üsuldur.

# ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ÜMUMİ RƏYİNƏ ƏSASƏN «VİLAYƏT» AYƏSİ HƏZRƏT ƏLİ (Ə) HAQQINDA NAZİL OLMUŞDUR

Səmavi kitabların ən sağlam sənədi Qurani-kərimdə bunun bənzəri olan bir çox ayələr vardır. Məsələn: mübarək «Vilayət» ayəsində Allah-təala belə buyurur: «**Sizin əsl vəliniz (sahibiniz) Allah, Onun Rəsulu və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və ruku halında ikən zəkat verirlər**»[1].

Bu ayənin həzrət Əli haqqında nazil olduğu bütün müfəssir (təfsirçi) və mühəddislər (hədis söyləyənlər) tərəfindən qəbul edilmişdir. Məsələn: 1. İmam Fəxri Razi: «Təfsiri-kəbir», c: 3, səh: 431; 2. İmam Əbu Əshəq Sələbi: «Kəşfül-bəyan»; 3. Carullah Zəməxşəri: «Kəşşaf», c: 1, səh: 422; 4. Təbəri: «Təfsiri-Təbəri», c: 6, səh: 186; 5. Əbul-Həsən Rummani: «Təfsir»; 6. İbn Həvazin Nişaburi: «Təfsir»; 7. İbn Sədun Qirtəbi: «Təfsiri-Qirtəbi», c: 6, səh: 221; 8. Nəsəfi Hafiz[2]: «Təfsir», səh: 496; 9. Fazil Nişaburi: «Qəraibul-Quran», c: 1. səh: 461; 10. Əbul-Oəsən Vahidi: «Əsbabun-nüzul», səh: 148; 11. Hafiz Əbu Bəkr Cəssas: «Təfsiri-əhkamil-Quran», səh: 542; 12. Hafiz Əbu Bəkr Şirazi: «Fi ma nəzələ minəl-Qurani fi Əmiril-mömininin»; 13. Əbu Yusif Şeyx Əbdussəlam Qəzvini: «Təfsiri-kəbir»; 14. Qazi Beyzavi: «Ənvarul-tənzil», c: 1, səh: 345; 15. Cəlaləddin Siyuti: «Durrul-mənsur», c: 2, səh: 293; 16. Qazi Şəvkani Sənəai: «Fəthul-qadir»; 17. Seyid Mahmud Alusi: «Təfsiri-Alusi» c: 2, səh: 329; 18. Hafiz İbn Əbi Şəybə

[1] "Maidə" surəsi, ayə 55.
[2] Hazin Bağdadinin "Qəfsir"inin haşiyəsində yer alır.

Kufi. «Təfsir»; 19. Əbul-Bərəkat: «Təfsir», ç: 1, səh: 496; 20. Hafiz Bəğəvi: «Məalimut-tənzil»; 21. İmam Əbu Əbdurrəhman Nəsai: «Səhih»; 22. Məhəmməd ibn Təlhə Şafei: «Mətalibus-süul», səh: 31; 23. İbn Əbil-Hədid: «Nəhcül-bəlağənin şərhi», c: 3. səh: 275; 24. Xazin Əlauddin Bağdadi: «Təfsir», c: 1, səh: 496: 25. Süleyman Hənəfi: «Yənabiul-məvəddə», səh: 212; 26. Hafiz Əbu Bəkr Beyhəqi: «Müsənnəf»; 27. Rəzin Əbdəri: «Cəmun bəynəs-sihahis-sittə»; 28. İbn Əsakir Dəməşqi: «Tarixi-Şam»; 29. Səbt ibn Cövzi: «Təzkirə», səh: 9; 30. Qazi Əzdayici: «Məvaqif», səh: 276; 31. Seyid Şərif Curcani: «Məvaqifin şərhi»; 32. İbn Sabbağ Maliki: «Fusulul-mühimmə», səh: 123; 33. Hafiz Əbu Səd Səmani: «Fəzailus-səhabə»; 34. Əbu Cəfər Əsqafi: «Nəqzul-Osmaniyyə»; 35. Təbərani: «Ovsəd»; 36. Şafei fəqihi İbn Məğazəli: «Mənaqib»; 37. Məhəmməd ibn Yusif Gənci Şafei: «Kifayəut-talib»; 38. Mövla Əli Quşçi: «Şərhi-təcrid»; 39. Seyid Məhəmməd Mömin Şəblənci: «Nurul-əbsar», səh: 77; 40. Muhibbuddin Təbəri: «Riyazun-nəzərə», c: 2, səh: 227 və s.

Xülasə, böyük alim, müfəssir və mühəddislərinizin çoxu Sudey, Mücahid, Həsən Bəsri, Əməş, Utbə ibn Əbu Həkim, Ğalib ibn Abdullah, Qeys ibn Rəbiə, İbayə ibn Rəbi, Abdullah ibn Abbas (Ümmətin alimi və Quranın tərcüməçisi), Əbuzər Ğəffari, Cabir ibn Abdullah Ənsari, Əmmar, Əbu Rafi, Abdullah ibn Salam və digərlərindən nəql edərək Vilayət ayəsinin Həzrət Əli haqqında nazil olduğunu təyid və təsdiq etmişlər.

Bu şəxslərin hər biri müxtəlif ifadə və təbirlərlə «Həzrət Əli, namazda ruku halında ikən üzüyünü fəqirə sədəqə verdikdə bu ayə (Vilayət ayəsi) nazil oldu» demişlər.

Ayənin cəm (çoxluq) şəklində zikr edilməsi də, İmamın (ə) vilayət, imamət və xilafət məqamını təzim və təkrim[1] etmək üçündür. Çünki Allah-təala hüdudlandırma kəlməsi olan (innəma) ilə başlayaraq belə buyurur: «**Sizin əsl vəliniz (sahibiniz) Allah, Onun Rəsulu və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və ruku halında ikən zəkat verirlər (yəni Əli ibn Əbu Talib)**».

[1] Hörmət etmə, əzizləmə, böyütmə.

**Şeyx**: «Mövzu sizin buyurduğunuz kimi o qədər də sağlam deyildir. Bu ayənin nazil olma səbəbi ixtilaflıdır. Bəziləri, ənsar, bəziləri İbadə ibn Samit, bəziləri də Abdullah ibn Salam haqqında nazil olduğunu söyləyirlər».

**Dəvətçi**: (Sizin kimi elmli insanların (şiə alimlərinin təvatürünə əlavə olaraq) bu qədər böyük alim və müfəssirlərinizin zikr olunmuş ayənin həzrət Əli haqqında nazil olmasına dair bildirdikləri fikir və əqidələr qarşısında bəzi məchul, zəif və mütəəssib kimsələrin mərdud[1] sözlərinə istisna etmələri, həqiqətən də, qəribədir! Ancaq bir qrup mühəqqiq alimləriniz bu mənada ümumi rəyə gələ bilmişlər. Məsələn: Fazil Taftazani, Mövla Əli Quşçi («Şərhi-Təcrid») belə deyir: «Müfəssirlərin ittifaqına görə bu ayə Həzrət Əli - namazda ruku halında ikən üzüyünü fəqirə verdiyi zaman - haqqında nazil olmuşdur».

Görəsən, insaflı bir alimin ağlı, əhli-sünnətin böyük alimlərinin fikirlərini nəzərə almayaraq bir qrup mütəəssib, hətta Xəvaric və Nasibilərdən qalan bir ovuc düşmənlərin puç, mənasız sözlərinə etimad etməyə yol verərmi?!

## VİLAYƏT AYƏSİ HAQQINDA ŞÜBHƏLƏR VƏ CAVABLARI

Şeyx: «Bu ayəni nəql edərək Əlinin (ə) davamiyyətli xilafət və imamətini isbat etməyə çalışdınız. Halbuki, bu ayədəki «vəli» sözü imam və davamiyyətli xəlifə olmaq mənasında deyil, mühib və dost mənasındadır.

Əgər buyurduğunuz söz (ki, «vəli»dən məqsəd xəlifə və imamdır) doğru olsa belə, «Səbəbin xüsusi olması deyil, kəlmənin ümumi mənası diqqətə alınır» qanunu çərçivəsində «vəli» sadəcə bir nəfəri deyil, Əli də onlardan olmaqla digərlərini də əhatə edir. Bundan əlavə, «Vəliyyukumullah» və «Əlləzinə» kəlmələrindəki çoxluq kimi, ümumiliyi ifadə edir; dəlilsiz olaraq çoxluğu təkə yozmaq və icazəsiz Allahın kəlamını təvil[2] etmək doğru deyildir!».

Dəvətçi: «Birinci olaraq; «Vəliyyukum» kəlməsi barəsində səhv deyirsiniz. Çünki «vəli» kəlməsi təkdir; «kum» çox. Kum: «siz»dən məqsəd isə ümmətdir.

[1] Rədd edilmiş
[2] Təfsir etmə, izah etmə.

Bu, təkə itlaq[1] olmamışdır ki, tənqid edirsiniz! Amma «vəli», oər zamanda ümmətə vilayəti olan tək bir fərddir.

İkinci olaraq; bəzi mütəəssib, Xəvaric və Nasibilərin hücumlarına aldanan və təkə yozulmaz deyilən kəlmələr – «Əlləzinə», «yuqimunə» və «yutunə» kəlmələridir. Bu tənqidin cavabını da, az öncə ərz etdim: Elm əhli və ədəbiyyatçılar yanında təkrim və təzim üçün çoxluğun təkilə həml[2] edilməsi geniş istifadə olunan və məşhur bir üsuldur.

Əlavə olaraq deməliyəm ki, sizin ləfzin ümumu ifadə etdiyini iddia etdiyiniz kimi, biz də bu ayəni «nəsr»[3] kəlməsi olan «innəma» sözü əhatəsində həzrət Əlinin (ə) şəninə nazik olduğuna inanmağımıza baxmayaraq, məxsuslaşdırmaq iddiası etmirik; ismət ailəsindən olan digər fərdləri də bu ayənin əhatəsində bilirik[4]. Bu səbəbdən bizim mötəbər hədis və rəvayətlərdə yer aldığına görə, İtrətit-tahirədən olan digər məsum İmamlar (ə) da bu ayənin əhatəsinə daxildirlər. Hər imam imamət məqamına yetişdikdə bu fəzilət və böyük xüsusiyyətə sahib olur. Bunlar, sizin də iddia etdiyiniz kimi, həzrət Əli ilə birlikdə sözügedən ayənin şamil olduğu kimsələrdir!

Bu səbəbdən Cərullah Zəməxşəri «Kəşşaf» kitabında deyir: «Düzdür ki, bu ayeyi-şərif həsrdir və həzrət Əli haqqında nazil olmuşdur; lakin çoxluq olaraq zikr edilməsinin səbəbi, başqalarının o həzrətə tabe olması üçündür».

Üçüncüsü; avam xalqı şübhəyə salmaq üçün «şiələr bu ayəni təvil edib, Əliyə nisbət vermişlər» dediniz. Halbuki, bu ayə hər iki firqənin bütün müffəssir və mühəddislərinin ittifaqına görə, (inadkarlar istisna olmaqla) bir az əvvəl də zikr olunduğu kimi, Həzrət Əli haqqında nazil olmuşdur; təkcə şiələrin təviliylə bu məqam O həzrətə nisbət verilməmişdir.

**Şeyx**: «Şübhə yoxdur ki, bu ayədəki «vəli» sözü yardımçı mənasındadır. Əgər xilafət və imamət məqamı olan təsərrüf sahibi (vilayət) mənasında olarsa, Rəsulallahın həyatında da bu məqama sahib olmuş olması lazım gəlir. Lakin belə bir sözün batilliyi aydındır!».

---

[1] Xilas etmə, azad etmə.
[2] İsnad vermə.
[3] (Həsr – Bax: ümumilikdən çıxarıb xüsusiləşdirmə).
[4] Yəni bu ayə, sadəcə həzrət Əli (ə) deyil, digər Əhli-beyt (ə) İmamlarının vilayətini də isbat edir.

**Dəvətçi**: «Bu inancın batil olması üçün əlinizdə hər hansı bir dəlilin olmaması, ayənin zahirinin cümleyi-ismiyyə olması etibarı və «vəli» sözünün də sifəti-müşəbbihə olması və davamlılığı bu məqamın həzrət Əliyə aid olduğunu isbat edir. Bu iki xüsusiyyət bu böyük məqamın əzm və davamlığını və RəsulAllahın (s) İmamı (ə) Təbuk döyüşündə Mədinədə xəlifə təyin etdiyini və vəfat anına qədər də onun etibardan düşmədiyini göstərir.

Ayrıca, sözlərimi qüvvətləndirən digər bir hədis də «Mənzilət» hədisidir. Rəsulallah dəfələrlə belə buyurmuşdur: «Əlinin mənziləti mənə nisbətdə, Harunun Musaya olan mənziləti kimidir» (Bu hədisi əvvəlki gecələrdə geniş şəkildə izah etmişdik). Bunun özü də təkbaşına həzrət Əlinin Rəsulallahın sağlığında və Onun (s) vəfatından sonra vilayət sahibi olmasına böyük bir dəlildir!».

**Şeyx**: «Zənn edirəm, bir az diqqətli düşünsəniz, bu ayənin (İnnəma vəliyyukumullah...) Əli haqqında nazil olmadığını söyləməniz daha düzgün olar. Çünki həzrətin məqamı bu ayə ilə ona bir fəzilət isbat etməyimizdən daha ucadır. Çünki bu ayə bir fəzilət isbat etməməklə birlikdə, onun fəzilətlərini də ləkələyir».

**Dəvətçi**: «Birinci; nə sən, nə mən, nə də ümmətdən hər hansı bir şəxs, hətta heç böyük səhabə belə, ayələrin şəni-nüzuluna dəxalət etmə haqqına sahib deyildir! Ayələrin nazil olma səbəbləri könül istəyinə görə deyildir. Ayələrin məna və nazil olmasında öz istəklərinə görə təsərrüf edənlər, şubhəsiz. dinsizlərdir! Bu səbəbdən Bəkrilər, halı bəlli cail (hədis uyduran) Əkrəmədən bu ayənin Əbu Bəkr haqqında nazil olduğunu söyləyərək təsərrüf etmişdilər.

İkincisi; hər dəfə nitqə başladıqda, həqiqətən, sirlər kəşf edirsiniz! Çünki ilk dəfə belə bir şeyi sizdən eşitdim; Çox uca və gözəl bir kəşf etdiniz! Buyursanız çox yaxşı olardı ki, görəsən, bu ayə hansı baxımdan müvəhhidlərin mövlası möminlərin əmiri həzrət Əlinin vilayət məqamınc ləkəliyir?!».

**Şeyx**: «Mövlamız Əlinin (ə) uca məqamlarından biri budur ki, O, namaz halında Allaha elə diqqət edərdi ki, qətiyyən bir kəsi görməzdi. Hətta bizim yanımızda sabitdir ki, döyüşlərin birində həzrətin bədəninə bir neçə ox batmışdı. Həzrət namazda ikən oxları bədənindən çıxarsalar da bu, Onu heç incitməmişdi də. Çünki xuzu və xuşusunda Haqq-təalanın rəhmətinə qərq olmuşdu. Əgər Əmirəl-

mömininin namaz halında üzüyünü fəqirə verməsi hadisəsi doğru olarsa, Onun namazına böyük bir ləkə vurmuş olarsınız. Adi vəziyyətdə hər insanın təbii olaraq hiss edəcəyi  ağrını xuşu və xuzusu səbəbindən hiss etməyən bir kəs necə olur ki, fəqirin inildəməsini hiss edərək ruku halında üzüyünü ona verir. Üstəlik, zəkat vermə kimi xeyir bir əməl niyyəti edir. Namaz qılarkən bütün vücuduyla Haqq-talaya diqqət etməsi lazım olduğu halda necə olur ki, namaz niyyətindən çıxıb diqqəti xalqa yönəldir?! Biz Onun məqamını daha uca bildiyimiz üçün bunu təsdiq edə bilmərik. Əgər fəqirə sədəqə verilmişsə, şübhəsiz, namaz halında olmayıb! Çünki ruku xuzu və xuşu anlamındadır; yəni həzrət xuzu və xuşu ilə üzüyünü dilənçiyə vermişdir, lakin namaz halında yox!».

**Dəvətçi**: «Əzizim! Duanı gözəl öyrənmisən; amma yerini itirmisən! Tənqidiniz hörümçək yuvasından daha zəifdir!

Birincisi; bu əməl Əmirəl-möminin (ə) məqamına hər hansı  bir nöqsan gətirmədiyi kimi, Onun məqamının ucalması və kamalına, eləcə də fəqirin qəlbini fərəhləndirməsinə, sevindirməsinə səbəb olmuşdur. Çünki O, hər bir halda Allahı xatırlamış və hər zaman olduğu kimi, Allahın rızasını ön cərgəyə keçirmişdir. Bu əməlində də Allah yolunda mal infaq etmək ibadətiylə, həm bədəni, həm də ruhi ibadəti bir araya cəm etmişdir.

Əziz qardaş! Namazın xuşusuna zərər verən və ibadətin savabının azalmasına səbəb olan maraq, nəfsi və dünyəvi şeylərə göstərilən maraqdır. Amma bir ibadətdə ayrı bir ibadət olan xeyir bir əmələ diqqət etmək kamala səbəb olur.

Məsələn, əgər bir kimsə namazda əziz bildiyi birinə, hətta Allahın ən sevimli bəndəsi olan Rəsulallahın (s) ailəsi və Əhli-beytinə (ə) ağlayırsa. namazı batil olur. Amma Allaha olan eşqindən və ya Onun qorxusundan ağlayarsa, kamal və fəzilətə səbəb olur.

İkincisi; buyurdunuz ki, ruku xuşu mənasındadır. Bu söz məlum bir yerdə doğru ola bilir. Amma əgər məlum fərz bir fel olan namazın rukusuna dair əmri lüğətdəki xuşu-xuzu mənasında bilsəniz, ağıl sahibləri, din və elm əhli yanında rüsvay olarsınız.

Bu ayeyi-kərimdə də zahirin xilafına olan fikir irəli sürdünüz. Kəlməni (rukunu) əsl, həqiqi və ürfi mənasından çıxartdınız. Bilirsiniz ki, ruku şəriət ürfündə namazın əməllərindəndir və bir rüknə bağlıdır. O da, əllər dizə yetişəcək qədər əyilmədir. Bu mənanı (həzrət Əlinin (ə) namazın rukusunda üzük verməsini) öz böyük alimləriniz təsdiq etmişlər. Onları daha əvvəl ərz etdim. Fazil Quşçi «Şərhi-təcrid» kitabında müfəssirlərin nəzərlərini açıqlayaraq belə deyir: «Həzrət Əli namazda rukuda olduğu bir halda üzüyünü fəqirə verdi».

Bütün bu sözlər bir tərəfə; indi buyurun görək, həsr (innəma) kəlməsi ilə nazil olan bu ayə (vilayət ayəsi) leyhinə nazil olmuşdur, yoxsa əleyhinə?».

**Şeyx: «Mədh** olunduğu üçün nazil olduğu açıq-aydındır».

**Dəvətçi**: «Hər iki firqənin - şiə və sünninin böyük müfəssir, mühəddis və tədqiqatçılarının çoxu bu ayənin həzrət Əli (ə) haqqında nazil olduğunu və Onu mədh etdiyini bildirdikdən sonra artıq mübahisələrə yer qalmaz! Çünki Xəvaric, Nasibi və mütəəssiblər bu cür sözlər söyləyirlər. Uşaqlıqdan sizin kimi pak bir insanların beyninə «Biz bu hadisəni qəbul etmirik!» sözünü yeritmişlər. Bax, elə bu səbəbdən də belə rəsmi bir məclisdə düşünmədən, ta bir cəsarətlə «Biz bu hadisəni təsdiq etmirik» deyirsiniz».

**Şeyx**: «Çox üzr istəyirəm, xətib, minbəri, natiq və bəyanda usta olduğunuzdan bəzən sözlərinizdə bir qrup kinayələr istifadə edirsiniz ki, bu da bəzi mə lumatsız insanların səhv başa düşmələrinə səbəb ola və yaxşı nəticə verməyə bilər. Bu səbəbdən sözlərinizdə buna riayət edin!».

**Dəvətçi**: «Sözlərimdə həqiqətən başqa bir şey yoxdur. Allah şahiddir ki, kinayəylə nəsə demək qəsdim yoxdur. Həm də ki, kinayəli danışmağa ehtiyac da yoxdur. Çünki istədiyim şeyi açıq şəkildə söyləyirəm. Düz demədiniz və ya qüsur tutmaq üçün belə düşünürsünüz. Zəhmət olmasa, o kinayənin nə olduğunu buyurun».

**Şeyx**: «İndiki söhbətinizdə «Məhəmməd Rəsulallah» ayəsindəki sifətləri bəyan edərkən buyurdunuz ki, bunlar, ömrünün əvvəlindən sonuna qədər imanında şübhə və tərəddüd olmayan Əli ibn Əbi Talibə (ə) məxsus olan bir qrup sifətlərdir. Bu cümlə kinayə yoluyla digərlərinin imanlarında şübhə və tərəddüd olduğunu

vurğulayır. Xülafəyi-Raşidin və digər səhabələrin öz imanlarında şəkk və şübhələri var idimi?! Heç şübhəsiz, bütün səhabə Əli kimi, iman etdiyi ilk gündən ömürünün sonuna qədər inanclarında sabit qalmış və bir an olsun belə azaraq, Rəsulallahdan (s) uzaqlaşmamışlar!».

**Dəvətçi**: «Birincisi; buyurduğunuz kimi demədim. İkincisi; bilirsiniz ki, bir şeyi isbat etmək, başqa bir şeyi nəhy etmsək deyildir. Üçüncüsü; həqiqətləri öyrənmək əvəzinə qüsur tapmaq istəyirsiniz. Amma digərləri bu cür olmaya bilərlər. Heç şübhəsiz, bu bəyanınızda (üzr diləyərək söyləyirəm) müğalitə etdiniz. Allah şahiddir ki, zənn etdiyiniz kimi danışmağı ağlımdan belə keçirmədim. hətta muğalitə və şübhə icad etmək qəsdiniz də olmasaydı, belə bir şey düşünmüş olsaydınız, yavaşca məndən soruşmağınız daha yaxşı olardı; mən də mənfi və ya müsbət bir cavab verərdim».

**Şeyx**: «Danışma tərzinizdən başa düşüldüyünə görə bir şeylər vardır. Əlbəttə, cavab verməməyinizin özü bir qrup şübhələr doğurur. Ağlınızda və zehninizdə olanları səhih sənədləri ilə bəyan etməyinizi xahiş edirəm».

**Dəvətçi**: «Bu sualı soruşmaqla daha çox siz şübhələrə səbəb oldunuz. Yenə də ərz edirəm, bu fikrinizdən imtina etməyiniz dana yaxşı olardı; israr etməyin».

**Şeyx**: «Əgər əxlaqsızlıq oldusa da, artıq arxada qaldı; cavab verməkdən başqa çarəniz yoxdur. Əgər qənaətbəxş cavab verməzsəniz, heç şübhəsiz, narazılıqlara səbəb olacaqdır; bunun da müsbət nəticə verəcəyini zənn etmirəm».

**Dəvətçi**: «Mənim tərəfimdən, əsla, ədəbsizlik olmaz! İsrar və ya başqa bir təbirlə təhdidləriniz həqiqətlərin kəşf olunmasına səbəb oldu. Bu həqiqətlər böyük alimləriniz tərəfindən kəşf olunmuşdur və səhih bildiyiniz kitablarınızda qeyd edilmişdir.

Şəkk və şübhəyə gəlincə, təsadüfən imanları kamal dərəcəsinə yetişməyən əshabın çoxu bəzən şəkk və şübhəyə qapılırdı. Bu səbəbdən bəzi ayələr onlar haqqında nazil olurdu. «Münafiqun» surəsi də onlar haqqında nazil olmuşdur.

Lakin belə sualların olması əxlaqi baxımdan doqru deyildir. Çünki cahil insanlar hədsiz sevgi və ya qəzəblərindən etiraz edə bilərlər. Yenə də xahiş edirəm

ki, bu sualdan imtina edin və ya icazə verin, cavabını başqa bir vaxt, öz aramızda, ərz edim».

**Şeyx**: «Yəni demək istəyirsiniz ki, Xüləfayi-Raşidin şübhə edənlərdən idilər?».

**Dəvətçi**: «Həqiqətən muğalitə edirsiniz, əsəbləri təhrik edirsiniz! Madam ki, bu qədər israr edirsiniz, cavabsız qoymaram! Əgər avam xalqın içərisində hər hansı bir çaxnaşma yaranarsa məsuliyyəti siz daşıyırsınız! «Yanılırsınız və ya qəsdlə belə danışırsınız» deməyimin səbəbi öz böyük alimlərinizin nəql etdikləri və tarixə düşənlərdir».

**Şeyx**: «Hansı mövzuda yazmışlar? Onların şübhəsi harada imiş və şubhə edən şəxslər kimlərdir? Zəhmət olmasa, bəyan edin!».

**Dəvətçi**: «Tarix və hədis kitablarından anlaşıldığına görə, bəzi şəxslər bir dəfə deyil, bəlkə bir neçə dəfə şübhə etmişlər; amma həqiqət zahir olunca şübhələri yox olmuşdur. Ancaq bəziləri şübhə içərisində qalmış və Allahın qəzəbinə uğramışlar.

## ÖMƏRİN HÜDEYDİYYƏDƏ[1] RƏSULALLAHIN (S) PEYĞƏMBƏRLİYİNƏ ŞÜBHƏ ETMƏSİ

Məşhur Şafei fəqihlərindən olan İbn Məğazəli «Mənaqib» və Hafiz Əbu Abdullah Məhəmməd ibn Əbu Nəsr Həmidi də «Cəmun bəynəs-səhihəyn» kitabında belə yazır: «Ömər ibn Xəttab dedi: «Hudeybiyədə şübhə etdiyim qədər, Məhəmmədin (s) peyğəmbərliyinə şübhə etmədim».

Xəlifənin sözunün deyilişindən də aydın olduğu kimi, o dəfələrlə Xatəmul-ənbiya həzrət Məhəmmədin (s) peyğəmbərliyinə şübhə etmişdir. Ancaq Hudeybiyədəki şübhə, digər şübhələrindən daha qüvvətli imiş».

**Nəvvab**: «Qibləsahib! Bağışlayın, Hudeybiyədə nə olmuşdu ki, Məhəmmədin (s) peyğəmbərliyinə şübhə etməsinə yol açmışdı?».

**Dəvətçi**: «Hadisənin izahı çox genişdir. Ancaq məclisimizin vaxtını nəzərə alaraq, hadisənin xüsusiyyətini hüzurunuza ərz edərəm.

---

[1] Hudeybiyyə Məkkə yaxınlığında bir quyunun adıdır; yarısı haramdan, digər tərəfi isə Hərəmin daşından sayılır.

# HUDEYBİYƏ VAQİƏSİ

Bir gecə Rəsulallah (s) röyasında əshabıyla bərabər Məkkəyə gedib Ümrə etdiklərini görür. Səhəri gün yuxusunu əshaba danışır. Əshab: «Siz yuxularımızı təbir edənsiniz. Buyurun, görək yuxunuzun təbiri nədir?» deyirlər. Həzrət (s) belə buyurur: «İnşallah, biz Məkkəyə gedib, əməllərimizi yerinə yetirəcəyik». (Amma nə zaman müşərrəf olacaqlarını bildirmir).

Həmin il Rəsulallah Allahın evinin ziyarəti eşqi ilə əshabla birlikdə Məkkeyi-müəzzamə doğru hərəkət edir. Hudeybiyəyə çatdıqda Qüreyş kafirləri xəbər tutur. Döyüş təchizatıyla onların qarşısına çıxaraq, Məkkəyə daxil olmalarına mane olur.

Peyğəmbər gəlişində döyüş qəsdi deyil, sadəcə ziyarət məqsədi olduğundan, Məkkə kafirləriylə sülh əldə edərək, müqavilə imzalayıb, geri dönür. Bax, bu hadisə əsnasında Ömərin öz etiraf və iqrarına və sizin də böyük alimlərinizin qeyd etdiyinə görə, Rəsuli-əkrəmin nübüvvətinə şübhə edir. Bu səbəbdən Rəsulallahın yanına gələrək belə dedi: «Ya Rəsulallah! Siz ki, peyğəmbər və sözü doğru olansınız. Bizə demədinizmi ki, Məkkəyə gedəcəyik, orada saçlarımızı qırxdıracağıq... Nə üçün əksinə oldu?!». Həzrət (s) cavabında buyurdu: «Məgər zaman təyin etdimmi? Bu il ziyarət edəcəyimizi dedimmi?». Ömər: «Xeyr, ya Rəsulullah»-dedi. Peyğəmbər buyurdu: «Elə isə dediklərim doğrudur! Ziyarət edəcəyik, inşallah. Yuxumun təbiri həyata keçəcəkdir; ancaq yuxunun təbiri Allahın iradəsinə bağlıdır; tez və ya gec ola bilər».

Bundan sonra Cəbrayıl (ə) nazil olaraq «Fəth» surəsindəki bu ayəni oxudu: «**Həqiqətən, Allah, Peyğəmbərinin röyasını doğrultdu: Siz, inşallah əmin-amanlıq içində, başınızı qırxmış, saçınızı qısaltmış və qorxusuz halda Məscidül-hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O, bundan qabaq tezliklə bir qələbə də bəxş edəcəkdir**»[1].

Bax, bu Hudeybiyə hadisəsinin xüsusiyyəti idi. Bu hadisə sabit möminlər və sarsılan insanlar üçün bir imtahandır».

---

[1] "Fəth" surəsi, ayə: 27. Bu fəthdən məqsəd, Xeybər fəthidir.

Söz bura çatdıqda, ağalar saatlarına baxıb, gülərək dedilər: «Söz o qədər şirin və çəkicidir ki, hər şeydən qafil oluruq. Məclisdə olanlara, həqiqətən, çox zəhmət verdik; dünən gecə ağaların vaxtı alındı, bu gecə də gecə yarısından çox keçmişdir. Əxlaq baxımından yaxşı bir iş deyildir. Məclisi bitirsək, yaxşı olar».

Bu arada çay və şirniyyat gətirildi. Qardaşların ümumi vəziyyətlərinin düzəlməsi üçün bir az zarafat da etdik.

## GÖZLƏNİLMƏYƏN SÖHBƏTLƏR

**Hafiz**: «Qibləsahib! Sizi mülaqat etmək və xüsusilə cəzbedici əxlaqınız bizi çox sevindirdi; sizinlə daha çox vaxt keçirtmək istərdik. O qədər cəzbedici əxlaqınız var ki, insan özündən asılı olmayaraq, hər hansı bir sözü olsa belə, səssizcə sizi dinləmək məcburiyyətində qalır. Bu səbəbdən, bizim söyləyəcəklərimiz çoxdur; bir çox məsələlər mücməl[1] və mübhəm[2] qaldı. Amma nə edə bilərəm, vətənə dönmək məcburiyyətindəyik. Orada vaxtı keçən bir qrup şəxsi və umumi işlərimiz vardır. Ümid edirik ki, hüzurunuzdan yetərli dərəcədə istifadə etməyimiz üçün bizi şad edib, evimizə təşrif gətirəsiniz».

**Nəvvab**: (Hafizə dönərək) «Bizi tərk etməyinizə icazə verməriк. Çünki iş elə indicə bir yerə çatmışdır ki, bu birtərəflik olmalıdır. Ardıcıl olaraq bizlərə deyirdiniz ki, şiələrin heç bir dəlil və bürhanları yoxdur; təkbaşlarına {hakim} yanına gedər, qarşımıza çıxdıqda isə aciz qalarlar. Biz isə tam əksinə, sizin susub aciz qaldığınızı gördük. Biz dinləyicilər haqqı harada görəriksə, heç şübhəsiz, ona tabe olmağımız lazımdır.

**Hafiz**: «(Nəvvaba xitabən) Susub və cavab verməkdə aciz olduğumuz zənninə qapılaraq səhv edirsiniz. Xətibin şirin danışması, açıq bəyanı və gözəl əxlaqı bizi susdurdu. Biz də ədəbə riayət edərək, əziz qonağımızı incitmədik. Biz hələ əsl mətləbə keçmədik; gətirəcəyimiz dəlillərlə görəcəksiniz ki, haqq bizimlədir və bizim dəlillərimiz haqqı isbat edir!

[1] Qısa, konkret, xülası.
[2] Qeyri-müəyyən, aydın olmayan, müxtəlif cür başa düşülən.

**Nəvvab**: (Hafiza yönələrək) Lap əvvəldən bu ana qədər mövlamız, sərvərimiz, qibləsahib Sultanul-Vaizindən eşitdiyimiz sözlərin hamısı məntiq, dəlil və bürhan üzrə idi. Amma sizi məntiq və dəlil qarşısında səssiz gördük! «Dəlilimiz var» deyirsinizsə, qalmalı və bəyan etməlisiniz! Sizə açıq şəkildə təhlükə olduğunu elan edirəm. Bu gecəki söhbətləri sabah çıxacaq qəzet və jurnallar nəşr edəcək, bir qrup insanın inancı zəifləyib, şübhəyə düşəcək. Əgər haqqı layiq olduğu kimi aydınlığa qovuşdurmasanız, heç şübhəsiz, din və şəriət sahibilərinin qarşısında məsulliyyət daşıyacaqsınız.

**Hafiz**: «(Rəngi qaçmış bir şəkildə Nəvvaba) Bu əziz müsafiri də nəzərə alın. Özünün buyurduğuna görə Məşhəd yolçusudur, vaxtı dəyərlidir. Yola düşmək istəyir, bizə görə qalmışdır. Ona daha artıq zəhmət vermək əxlaq qaydalarına sığmaz».

**Dəvatçi**: «Lütflərinizdən çox şadam. Hərəkətimlə əlaqəli buyurduğunuz söz doğrudur. Ancaq hər nə qədər əhəmiyyətli işim olsa da, dini xidmətdə qarşınızda hazıram. Mənim tərəfimdən heç bir maneə yoxdur. Hətta bir il belə zəhmətə qatlaşsanız, haqqın pərdə arxasından çıxıb aydınlığa qovuşmasını vəzifəm bilirəm, davam etməyə də hazıram. Ayrıca, dəyərli alimlərin arasında olmaq məni daha xoşbəxt edir. Xüsusilə də siz məni gözəl əxlaqınızla şad etdiniz. Sadəcə ev sahibi Mirzə Yaqub Əli Xana çox zəhmət verdiyimizə görə utanıram».

Möhtərəm Qızılbaş şəxsiyyətlərindən olan Mirzə Yaqub Əli Xan, Zulfüqar Əli Xan, Ədalət Əli Xan qardaşlarının hamısı birdən yüksək səslə dedilər: «Biz sizdən belə sözləri bəyan edəcəyinizi gözləmirdik. Biz ev sahibi deyilik, hətta siz ömrünüzün sonuna qədər də burada qalsanız, bizim üçün zəhmət deyil. Biz burada sizlərə xidmətçiyik, sizin vücudunuz iftixarımızdır».

Seyid Məhəmməd Şah (Pişəvərin şəriflərindən) və Ağa Seyid Ədil Əxtər (Pişəvərin şiə alimlərindən) buyurdular: «Bir neçə gecə də bu məclislərin şərəfini bizim evdə təşkil olmasına izin verin».

Mirzə Yaqub Əli Xan da onların bu sözünə qarşılıq olaraq, «Xeyr! Qibləsahib Sultanul-Vaizinin Pişəvərdə olduğu müddətdə və bu toplantılar davam edənə qədər burada olması lazımdır» dedilər».

**Dəvətçi**: «Ümumilikdə ağaların hamısına, xüsusən də ev sahibinə təşəkkür edirəm».

**Hafiz**: «(Bir az sükut etdikdən sonra) heç bir maneə yoxdur. Madam ki, ağalar istəyirlər, bir neçə gün də qalaram. Amma qibləsahibin buyurduğu kimi, ev sahiblərinə çox zəhmət oldu. Ən yaxşısı, bundan sonra toplantının yeri bizdə olsun, beləcə ədalətə riayət olunar».

**Dəvətçi**: «Mən israr etmirəm. Amma bura daha genişdir və böyük bağçası və imarəsi də vardır, toplantı üçün daha uyğundur. Həm də özünüz buranı seçmisiniz. Yenə də ərz edirəm ki, mənim üçün fərq etməz; hara əmr etsəniz, xidmətinizdəyəm».

**Mirzə Yaqub Əli Xan**: «Ev baxımından və Qızılbaş camaatı tərəfindən heç bir çətinlik yoxdur. Hafiz qardaş buralara təzə gəldiyi üçün bizi yaxşı tanımaya bilər. Amma xalq bizi çox yaxşı tanıyır. Qızılbaşlar qonaqpərvər insanlardır, xidmət etməkdən yorulmazlar.

Xüsusilə, bu ev qonaq qarşılamaq üçün nəzərdə tutulmuşdur; bu cür elmi toplantıların, dini və məzhəbi münazirələrin iştirakçısı və təşkilatçısı olduğumuz üçün həqiqətən şad olduq nə qədər istəsəniz qala bilərsiniz hamınızın xidmətində durmağa hazırıq».

**Hafiz**. «Mənim üçün Pişəvərdə qalmaq çox çətindir; çünki görüləcək bir qrup işlərim vardır. Yenə də ağaların dəvətini qəbul edərək, bir neçə gün də qalaram. İnşallah, sabah gecə görüşmək ümidi ilə ayrılırıq».

# YEDDİNCİ GECƏ

29 rəcəb, Cümə axşamı, 1345-ci il. (1924)

Gecənin ilk saatlarında ağalar gəlib çıxdılar. Çay içib, bir müddət səmimi söhbətdən sonra məclis ağalar tərəfindən açıq elan edildi.

**Seyid Əbdülhəy**: (əhli-sünnət vəl-camaatın imamı): «Qibləsahib! Bir neçə gün əvvəl bəzi açıqlamalar etdiniz, sərvərimiz Hafiz bəy də sizdən dəlil istədi. Ya aralığa söz qatıb, mövzudan kənara çıxdınız, ya da elmi təbir və muğalitələrlə mətləbdən uzaqlaşdınız».

**Dəvətçi**: «Buyurun, mövzu nə idi və hansı sualınız cavabsız qaldı? Zəhmət olmasa, xatırlada bilərsinizmi?»

**Seyid Əbdülhəy**: «Bir neçə gün əvvəl Əlinin (ə) Rəsulallah (s) ilə nəfs eyniliyini və bu səbəblə də Əlinin bütün peyğəmbərlərdən (s) üstün olduğunu buyurmadınızmı?!»

**Dəvətçi**: «Doğrudur, əqidəm belədir və bu sözü indi də söyləyirəm!»

**Seyid Əbdülhəy**: «Elə isə, iradımızı nə üçün cavabsız qoydunuz?»

**Dəvətçi**: «Səhvə yol verdiniz! Sizə təəccüb edirəm! Bütün gecələri qulaqlarınızla dəlillərimizi dinlədiyiniz halda, mənim mövzudan qaçaraq muğalitə etdiyimi söyləyirsiniz?! Nə mövzudan qaçmaq, nə də muğalitə etməkdən söz belə gedə bilməz! Bir mövzu başqa bir mövzunun açılmasına səbəb oldu və beləliklə də, söhbət uzandı və siz də bunu ayrı yerə yozdunuz! Qətiyyən mövzunun xaricinə çıxmadım və vaxtı, söhbətlə əlaqəsi olmayan sözlərə də sərf etmədim! Suallar verdiniz, mən də məcburən cavablandırdım. İndi, buyurun, soruşmaq istədiklərinizi soruşun. Allahın yardımıyla cavab verməyə hazıram».

**Seyid**: «İki insan arasında nəfs baxımdan eyniliyin olması, onların tək vücud halına gəlmələri necə mümkün ola bilər? Bunu bilmək bizə çox maraqlıdır».

# MƏCAZİ EYNİLİKLƏ HƏQİQİ EYNİLİK ARASINDAKI FƏRQ

**Dəvətçi**: «İki insan arasında həqiqi eynilik ola bilməz. Bu, qeyri-mümkündür; batil olduğu aşkardır. Həqiqi eyniliyin imkansız olması məsələsi öz mövzusu daxilində dəlillərlə isbat olunmuşdur. Belə bir şeyin mümkün olmaması açıq-aydındır. Elə isə, aydın olur ki, iddia edilən şey həqiqi eynilik deyildir; məcazidir, mübaliğədir (şişirtmədir). Çünki bir-birini çox sevən və ya bir çox baxımdan bir-birlərinə bənzəyən iki insan, xüsusən də bir vücud olduqlarını hiss edərək eynilik iddiası edərlər.

Ərəb və ərəb olmayan ədəbiyyatçı və şairlərin söz və şerlərində bu cür mübaliğələr olduqca çoxdur. Hətta Övliyaullahın sözlərində də bu cür mübaliğələr açıq-aydın görülür. Məsələn: Əmirəl-möminin həzrət Əli (ə) haqqında yazılan bu şerdə belə deyilir:

***Kişilərin himmətləri müxtəlif işlərdə çoxdur.***
***Amma mənim himmətim dünyada vəfalı bir dostdur.***
***Bu dost, iki bədənə girmiş bir ruh kimidir.***
***Cisimləri iki cisim, amma ruhları birdir.***

Məcnun Amiri haqqında bu söz çox məşhurdur: Bir gün Məcnuna hacamat[1] etmək istədiklərində o, hacamat etməmələri üçün israrla belə deyirdi: «Nə olar, bu fikirdən yayının. İynənin Leylaya toxunacağından qorxuram. Çünki Leyla mənim damarlarımda yer almışdır».

Şairlər bu mənanı şer şəklində də dilə gətirmişlər:

***«Hacamatdan qorxmuram»,-deyə söylədi Məcnun.***
***Çünki dağlardan daha ucadır səbrim mənim.***
***Lakin Leyla ilə dolub daşmışdır bədənim.***

[1] Hacamat – kürəydəki iki qolların arasında bir miqdar qan almağa deyilir.

*Bu sədəf o incinin sifətləri ilə doludur.*
*Aydın bir qəlbə sahib olan ağıl*
*Leyla ilə mənim aramda fərq olmadığını anlar.*
*Ey hacamat edən, mənə hacamat etdikdə,*
*İynənin Leylaya toxunduracağından qorxuram.*
*Mən Leylayam, Leyla da mən.*
*Biz iki bədənə girmiş bir ruhuq.*
*Onun ruhu mənim, mənim ruhum da onun ruhudur.*
*İki ruhun bir bədəndə yaşadığını kim görmüşdür?*

Ədəbiyyat ustadlarının əsərlərinə baxsanız bu növ mübaliğə və məcazi sözləri görərsiniz. Bu səbəbdən şirin dilli ədəbiyyatçı şair belə demişdir:

*Aşiq olan kimsəyəm; aşiq olunan da mənəm.*
*Biz bir bədənə girmiş iki ruhuq.*
*Məni gördüyün zaman, onu görərsən.*
*Onu gördükdə də məni görərsən.*

## PEYĞƏMBƏR (S) VƏ ƏLİNİN (Ə) NƏFS BAXIMDAN EYNİLİYİ

Bundan artıq vaxt almaq istəmirəm. Əmirəl-möminin Əliylə (ə) Peyğəmbəri-əkrəmin (s) nəfs baxımdan eyniliyi olduğunu dedim. Diqqət və duşüncələriniz həqiqi eyniliyə yönəlməsin. Çünki heç kim həqiqi eyniliyi iddia etməmişdir. Əgər kimsə belə bir eyniliyə inanırsa, bilsin ki, belə bir inanc, heç şubhəsiz, batil və etibarsızdır.

Bu səbəbdən də bu eynilik, həqiqi deyil, məcazidir. Ondan qəsd olunan da, cisim deyil, ruh və kamal eyniliyidir. Şübhəsiz, Əmirəl-möminin Əli (ə) - nəss və dəlillə istisna olmaqla, bütün fəzilət, kamal və sifətlərdə Rəsuli-əkrəm (s) ilə eyni məqama sahibdir».

**Hafiz**: «Elə isə, bu qayda-qanuna görə, Məhəmməd (s) və Əlinin (ə) birlikdə peyğəmbər (s) olmaları lazım gəlir! Sözlərinizdən aydın olduğu kimi, Əli (ə) peyğəmbərlikdə ortaq imiş; vəhy də, eyniliyə görə, məcburən hər ikisinə nazil olmuşdur!».

**Dəvətçi**: «Həqiqətən, muğalitə etdiniz; məsələ bəyan etdiyiniz kimi deyil. Biz və şiələrdən heç kim belə bir inanca sahib deyil. Məclisin vaxtını münaqişə ilə alaçağınızı və danışılan mövzuların təkrar olunmasına səbəb olacağınızı gözləmirdim. Daha əvvəl nəss və dəlilin istisna etdiklərindən başqa bütün kamallarda o iki həzrətin ortaq olduqlarını ərz etmişdim. Nəss və dəlilin də istisna etdiyi nübuvvəti-xassə və onun şərtləridir ki, vəhyin nazil olması və hökmlər o şərtlərdəndir.

Əvvəlki axşamlarda edilən açıqlamaları unutdunuzmu? Əgər unutmusunuzsa, nəşr olunan qəzet və jurnallara müraciət edin! Görəcəksiniz ki, biz keçən gecələrdə Mənzilət hədisini araşdıraraq həzrət Əlinin (ə) nübuvvət məqamına sahib olduğunu, lakin Xatəmül-ənbiyanın (s) din və şəriətinin əmri altında olduğunu isbat etmişdik. Bax, bu səbəbdən də vəhy həzrət Əliyə enməmiş və onun nübuvvət məqamı, Harunun (ə) Musanın (ə) dövründəki nübuvvət məqamından da çox olmamışdır».

**Hafiz**: «Bütün fəzilət və kamallarda ortaqlığa inandığınız üçün bu inanc nübuvvət və nübuvvətin şərtlərində də ortaqlığı zəruri bilir».

**Dəvətçi**: «Zahirdə belə düşünülməsi mümkün ola bilər. Amma bir az diqqət etsəniz, məsələnin bəyan etdiyinizdən tamamilə fərqli olduğunu təsdiq edəcəksiniz. Xatırlayırsınızsa, əvvəlki axşamlarda nübuvvət üçün mərtəbə və dərəcələrin mövcudluğunu Quran ayələri ilə vurğulamış və nübuvvətə sahib olanlardan bəzilərinin digərlərinə nəzərən üstün olduğunu isbat etmişdik. Allah-təala da Quranda buyurur: «**Peyğəmbərlərdən bəzisini bəzisindən üstün etdik**».

Peyğəmbərlərin bütün dərəcə və mərtəbələrindən ən üstün dərəcə Məhəmmədin (s) xas nübuvvətinin mərtəbəsidir. Bax, bu səbəbdən də Allah-təala «Əzhab» surəsinin 40-cı ayəsində buyurur: «**Məhəmməd, sizdən heç birinin atası deyildir: yalnız Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur**».

Bax, o kamal xatəmiyyətə səbəb olan xas nübuvvətdir. Elə isə bu xas kamalda heç kim ortaq ola bilməz; amma digər kamal və fəzilətlərdə eynilik hökmündədirlər. Bu mənanın isbat olması üçün dəlil və bürhanlar kifayət qədər çoxdur».

**Seyid**: «İddianızı isbat etmək üçün Qurani-kərimdən dəlil gətirə bilərsinizmi?»

## MÜBAHİLƏ AYƏSİNİ ŞAHİD GƏTİRMƏK

**Dəvətçi**: «Əlbəttə, ilk dəlilimizin Qurandan olduğu məlumdur; O, bizim ən möhkəm səmavi sənədimizdir. Ən böyük dəlil Mübahilə ayəsidir: «**Sənə gələn bu qədər elmdən sonra yenə də bu xüsusda səninlə çəkişmək istəsələr de ki, gəlin, oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, nəfsimizi (özümüzü) və nəfsinizi (özünüzü) çağıraq. Sonra qarşılıqlı lənətləşək və Allahın lənətini yalan söyləyənlərin üstünə qılaq**»[1].

Mötəbər alim və müfəssirləriniz, məsələn; imam Fəxri Razi «Təfsiri-kəbir»də, imam Əbu İshaq Sələbi «Kəşful-bəyan»da. Cəlaləddin Siyuti «Durrul-Mənsur»da, Qazi Beyzavi «Ənvarüt-tənzil»də, Carullah Zəməxşəri «Kəşşaf»da, Müslim bin həccac «Səhih»də, Əbulhəsən fəqih bin Məğazəli Şafei Vasiti «Mənaqib»də, Hafiz Əbu Nəim İsfahani «Hilyətül-övliya»da, Nurəddin Maliki «Fusulul-mühimmə»də, Şeyxul-İslam Həmuyini «Fəraid»də, Əbulmüəyyid Xarəzmi «Mənaqib»də, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»də, Səbt ibn Covzi «Təzkirə»də, Məhəmməd bin Təlhə «Mətalibus-süul»da, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-Talib»də, İbn Həcər Məkki «Səvaiqul-muhriqə»də və digərləri az bir fərqlə bu ayənin nazil olduğu günü Mubahilə günü yazırlar və o gün zilhiccə ayının 24-ü və ya 25-i imiş.

[1] "Ali-İmran" surəsi, surəsi: 61

# HƏZRƏT PEYĞƏMBƏRİN (S) NƏCRAN NƏSRANİLƏRİ İLƏ MÜBAHİLƏSİ

Rəsuli-əkrəm (s) Nəcran nəsranilərini (xristianlar) İslama dəvət etdikdən sonra onların böyük alnmlərindən olan Seyid, Əqib, Casilik, Əlqəmə və 70 nəfərə yaxın digər  insan arxasıncada 300 nəfərə yaxın ardıcılları bir yerə cəm olub Mədinəyə gəldilər. Rəsulallahla etdikləri bir neçə elmi münazirələrdə sabit və möhkəm dəlillərlə cavablandırılaraq, məğlubiyyətə uqradılar. Çünki Peyğəmbərin (s) dəlilləri elə onların əlində olan etibarlı kitablardan idi. O kitablarla öz həqqaniyyətini, həzrət İsanın (ə) O həzrətin (s) əlamət və nişanələri haqqındakı söylədikləri sözləri və zühur edəcəyindən xəbər verdiyini xatırlatdı. Nəsranilər həzrət İsanın verdiyi xəbərlərə görə, belə bir zühuru gözləyirdilər; ki, O (Məhəmməd peyğəmbər), dəvəyə minərək (Məkkədə olan) Faran dağlarından zahir olacaq. İyr və Ühüd (Mədinədə) arasında hicrət edəcəkdir. Rəsulallahın dəlilləri elə guclü idi ki, təslim olmaqdan başqa çarələri yox idi.

Lakin məqam və mövqe sevgisi onların təslim olmasına mane oldu. İslamı qəbul etmədiklərinə görə, Rəsulallahallahın əmri ilə doğrunun Yalançıdan ayırd edilməsi üçün onlara mübahilə etmə (qarşılıqlı lənətləşmə) təklifini irəli sürdü. Nəsranilər də bu fikri qəbul etdilər və «bu iş sabaha qalmalı oldu» söylədilər.

# NƏSRANİLƏRİN MÜBAHİLƏ ÜÇÜN HAZIRLAŞMASI

Ertəsi gün nəsranilər alimlərinin əksəriyyəti ilə birlikdə Mədinənin çıxışında Rəsulallahın (s) izdihamlı bir kütləylə onları qorxutmaq üçün gələcəyini gözləyirdilər.

Birdən Mədinə qalasının qapısı açıldı. Rəsulallah sağında bir gənc, solunda hicablı bir qadın və ön tərəfində isə iki uşaqla gələrək, nəsranilərin qarşısındakı ağacın altında dayandı. Bunlardan başqa onlarla heç kəs gəlməmişdi.

Nəsranilərin ən elmli alimi olan Əsqəf mütərcimlərdən Məhəmməd peyğəmbər ilə gələnlərin kim olduqlarını soruşdu. Mütərcimlər: «O gənc, kürəkəni

və əmisi oğlu Əli ibn Əbu Talibdir. O qadın, qızı Fatimə, iki uşaq isə nəvələri və qızının övladları olan Həsən və Hüseyndir»-dedilər.

Əsqəf bu vəziyyəti gördükdə nəsrani alimlərinə belə dedi: «Baxın, Məhəmməd necə də əmin bir halda ən yaxınlarını, övladlarını və ən çox sevdiyi əzizlərini mübahiləyə gətirib, onları bəlaya məruz qoydu. Allaha and olsun ki, əgər onun tərəddüd və ya qorxusu olsaydı, əsla onları gətirməz, mübahilədən imtina edər, ya da, ən azı ailəsindən olan əzizlərini bu hadisidən uzaq tutardı. Onunla mübahilə etməyimiz, sözsüz, doğru deyildir. Əgər Rum Qeysərindən qorxmasaydım, ona iman edərdim. Elə isə istəklərini qəbul edək; sülh bağlayıb, şəhərimizə dönək». Onların hamısı: «Söylədiklərin səhih və doğrudur»-deyib, Əsqəfin fikrini təsdiq etdilər. Daha sonra Əsqəf həzrət Peyğəmbərə (s): «Biz səninlə mübahilə etmirik, sülh əldə etmək istəyirik»-dedi. Peyğəmbər də onların bu təklifini qəbul etdi.

Sülh müqaviləsi həzrət Əlinin (ə) əli ilə yazıldı, Uvrafi qumaşlarından, hər qumaşın qiyməti qırx dirhəm olmaq şərtilə, iki min qumaş, min misqal qızıl və bunların yarısının, yəni min qumaş və beş yüz misqal qızılın məhərrəm ayında və digər yarısının da rəcəb ayında verilməsi razılaşdırıldıqdan sonra hər iki tərəf müqaviləni imzaladı.

Daha sonra öz yurdlarına döndülər. Yolda gedərkən nəsranilərin alimlərindən olan Aqib öz yoldaşlarına belə dedi: «Allaha and olsun ki, mən və siz bu Məhəmmədin və vəd edilən peyğəmbər və söylədiklərinin də Allah tərəfindən olduğunu bilirik. And olsun Allaha ki, hər hansı biq peyğəmbərlə mübahilə edən kimsə qurtuluşa çatmamışdır; nəticədə onların böyük və kiçiklərindən heç bir nəfər də sağ qalmamış, hamısı həlak olmuşlar. Əgər biz də mübahilə etsəydik, heç şübhəsiz, hamımız həlak olardıq və yer üzündə bir nəsrani belə qalmazdı. And olsun Allaha, mən onlara baxdıqda elə simalar gördüm ki, əgər Allahdan istəsəydilər, dağları yerindən oynadardılar».

**Hafiz**: «Bəyan etdikləriniz səhih və doğrudur və bütün müsəlmanlar tərəfindən qəbul edilir. Amma mövzumuzla - Əliylə (ə) Rəsulallahın (s) nəfs baxımdan eynilik məsələsilə nə əlaqəsi vardır?»

**Dəvətçi**: «Bu ayeyi-kərimdə şahid və dəlilimiz «Ənfüsəna» (nəfslərimiz) kəlməsidir. Çünki bu hadisədə bir neçə əhəmiyyətli mövzu vardır.

Birincisi; Rəsulallahın (s) haqqaniyyətinin isbatıdır. Çünki əgər haqq olmasaydı, mübahiləyə cəsarat etməz və eyni zamanda nəsranilərin böyük alimləri də mübahilədən qaçmazdılar.

İkincisi; bu ayeyi-kərim imam Həsən (ə) və imam Hüseynin (ə) Rəsulallahın (s) övladları olduğuna dəlalət edir ki, birinci gecə bu mövzuya toxunmuşdum.

Üçüncüsü; bu ayeyi-şəriflə Əmirəl-möminin Əli, Fatimə, Həsən və Hüseynin, Rəsulallahdan sonra məxluqatın ən şərif və ən əziz insanları olduqları isbat edilir.

Zəmaxşəri, Beyzavi, Fəxri Razi kimi bütün mütəəssib alimləriniz öz kitablarında bu mövzuya toxunmuşlar. Xüsusilə, Carullah Zəməxşəri bu ayeyi-şərifin təfsirində geniş bəhs edib Ali-Əbanın (ə) beş fərdinin bir araya toplanmasının həqiqətlərini aşkar etdikdən sonra belə deyir: «Bu ayə, Peyğəmbərlə birlikdə əbanın altında olanların ən fəzilətli olduqlarına ən böyük dəlildir və bu ayədən daha böyük bir dəlil ola bilməz!»

Dördüncüsü; bu ayə, Əmirəl-möminin imam Əlinin həzrət Peyğəmbərin bütün əshabından daha üstün və fəzilətli olduğuna bir dəlildir. Çünki Allah-təala bu ayədə həzrət Əlini Peyğəmbərin nəfsi olaraq tanıtmışdır. «Ənfusəna» (nəfislərimiz) kəlməsindən məqsədin Rəsulallahın öz nəfsi olmadığı açıq-aydındır. Çünki dəvət, dəyişikliyi lazım bilər və insan heç bir zaman özünü dəvət etməyə əmr olunmamışdır. Elə isə, bu ayədəki «ənfusəna»dan məqsəd, Rəsulallahın nəfsi məsabəsində (dərəcəsində) olan başqa birinin dəvət olunmasıdır.

Şiə və sünni firqələrinin etibarlı və mötəbər olan bütün müfəssir və mühəddisləri Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyndən (ə) başqa heç kimsənin Mübahilə günü Rəsulallahın (s) yanında olmadığını söyləmişlər. Çünki «əbnaəna əbnaəkum» (oğullarımız və oğullarınız) cümləsindən Həsən və Hüseyn, «nisaəna və nisaəkum» (qadınlarımız və qadınlarınız) cümləsindən də həzrət Fatimə qəsd olunmuşdur. Bu ayədə Əmirəl-möminin Əlidən başqa özünə «Ənfüsəna» (nəfislərimiz) deyiləcək kimsə qalmır.

Bax, «ənfusəna» kəlməsilə həzrət Peyğəmbər (s) və həzrət Əli (ə) arasında nəfs baxımdan eyniliyin olduğu isbat olur. Bu səbəbdən də haqq-təala imam Əlini həzrət Məhəmmədin nəfsi olaraq tanıtmışdır. İki şəxs arasında həqiqi eynilik və birlik qeyri-mümkün olduğundan, buradakı eynilik məcazi eynilikdir.

Ağalar yaxşı bilirlər ki, usul elmində belə bir qanun vardır: Kəlməni ən yaxın məcaza həml etmək, uzağa həml etməkdən daha üstündür. Ən yaxın məcaz da dəlillə istisna edilən xaric olan şey, bütün iş və kamallarda bərabər və ortaq olmaqdır.

Daha əvvəl ərz etdik ki, dəlil və icmayla xaric olan şey həzrət Xatəmül-ənbiyanın (s) nübuvvəti-xassəsi ilə vəhyin nazil olmasıdır; ki, biz imam Əlini bu xüsusda həzrət Peyğəmbərlə ortaq bilmirik. Amma ayeyi-kərimin hökmünə görə, digər bütün kamallarda ortaqdırlar. Heç şübhəsiz, ilahi feyz (lütf) Məbdeyi-Fəyyaz (Allah-təala) tərəfindən mütləq olaraq Rəsulallahın bilavasitə öz vasitəsilə həzrət Əliyə çatmışdır. Bax, bunun özü iddia etdiyimiz nəfs baxımdan eyniliyə dəlildir».

**Hafiz**: «Nəfsin məcazi mənada dəvət edilməsi haradan bəllidir? Bir məcazın digər bir məcazdan üstün olması doğru deyildir!»

Dəvətçi: «Münaqişəyə yol verməməyinizi, məclisin vaxtını israf etməməyinizi, insafın xaricinə çıxmamağınızı və çıxdıqda da, mövzunu bağlamağınızı rica edirəm. Qətiyyən sizin kimi insaflı bir alimdən münaqişə gözləmirdim. Çünki həm siz və həm də fəzilət əhlinin yanında nəfsin məcazi anlamda istifadə edilməsinin digər məcazlardan daha məşhur olduğu sabitdir.

Daha əvvəl ərz etdiyim kimi, ərəb və ərəb olmayan ədib və şairlərin əsərlərində məcazi eynilik çox istifadə olunur. Bu səbəbdən insanların dəfələrlə bir-birlərinə «Sən mənim canımsan» və ya «Sən mənim canım kimisən» dediyini hamımız eşitmişik. Xüsusilə, bu məna hədislərdə həzrət Əli üçün çox rəvayət olunmuşdur və bunların hər biri məqsədimizin isbatı üçün kifayət dəlildir.

# PEYĞƏMBƏRLƏ (S) ƏLİNİN (Ə) EYNİLİYİNƏ DAİR HƏDİSLƏR

İmam Əhməd ibn Hənbəl «Müsnəd», Şafei fəqiki olan İbn Məğazəli «Mənaqib» və Müvəffəq ibn Əhməd Xətib Xarəzmi «Mənaqib» kitabında Rəsulallahın (s) dəfələrlə belə buyurduğunu nəql edir: «Əli məndən və mən də ondanam; onu sevən məni sevmiş və məni sevən də, şübhəsiz, Allahı sevmişdir».

Yenə İbn Maccə «Sünən»inin 1-ci cildinin 92-ci səhifəsində, Tirmizi «Səhih»ində, İbn Həcər «Səvaiq»də imam Əhməd, Tirmizi, Nəsai və İbn Maccədən həzrət Əlinin (ə) fəzilətləri haqqındakı nəql etmiş olduğu 40 hədisin 6-ıncısında, imam Əhməd ibn Hənbəl «Müsnəd»inin 4-cü cildinin 164-cü səhifəsində, Məhəmməd ibn Yusif Gənci Şafei, İbn Səmmakın «Müsnəd»inin 4-cü cildində və Təbərrinin «Mucməul-kəbir»indən nəql edərək «Kiyafətut-talib» kitabının 67-ci babında, imam Əbu Əbdürrəhman Nəsai «Xəsais»də, Hənəfi olan Süleyman Bəlxi «Mişqat»dan nəql edərək «Yənabiul-məvəddə» kitabının 7-ci babında Ceyş ibn Cunadətul-Selulidən Rəsuli-əkrəmin (s) Ərəfatda - Vida həccində belə buyurduğunu rəvayət etmişlər: «Əli məndəndir, mən də Əlidənəm; mən və Əlidən başqa kimsə vəzifəmi əda edə bilməz».

Hənəfi məzhəbindən olan Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 7-ci babında və Abdullah ibn Əhməd ibn Hənbəlin «Zəvaidi-müsnəd»indən İbn Abbasa istinadən belə nəql edir: «Rəsuli-əkrəm (s) möminlərin anası Ümmü-Sələməyə belə buyurdu: «Əli məndəndir, mən də ondanam: Onun əti mənim ətimdən və qanı mənim qanımdandır. O, mənə nisbətdə, Harunun Musaya olan nisbəti kimidir. Ey Ümmü-Sələmə! Eşid və şahid ol ki, Əli müsəlmanların Seyidi və ağasıdır».

Həmidi «Cəmun bəynəs-səhihəyn» və İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabında Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edir: «Əli məndəndir, mən də Əlidənəm. Əli mənə nisbətdə bədəndəki baş kimidir. Ona itaət edən mənə, mənə itaət edən şübhəsiz, Allaha itaət etmişdir».

Məhəmməd ibn Cərir Təbəri «Təfsir» və Şafei fəqihi olan Mirseyid Əli Həmədani «Məvəddətül-qurba» adlı kitabının 8-ci məvəddəsində Rəsuli-əkrəmin

(s) belə buyurduğunu nəql edir: «Allah-təala bu dini Əlinin vasitəsi ilə qüvvətləndirdi Şübhəsiz, o, məndən, mən də ondanam» «**Rəbbindən açıq-aydın bir dəlilə (Qurana) istinad edən, ardınca Allahdan bir şahid (Əli) gələn**»[1] ayəsi onun haqqında nazil olmuşdur».

Şeyx Süleyman Bəlxi «Yənabiül-məvəddə» kitabının 7-ci babını bu mövzuya məxsus edərək, o bölümü belə adlandırmışdır: «həzrət Əlinin Rəsulallahın (s) nəfsi kimi olmasının bəyanı və Əli məndəndir və mən də ondanam».

Süleyman Bəlxi bu babda müxtəlif yol və fərqli ifadələrlə Rəsuli-əkrəmdən (s) 24 hədis nəql edərək, o həzrətin belə buyurduğu qeyd etmişdir: «Əli mənim nəfsim mislindədir».

Babın sonunda «Mənaqib» kitabından nəql edərək Cabirin belə dediyini nəql edir: «Rəsulallahın (s) belə buyurduğuny eşitdim: «Əlidə bir qrup xislətlər (xüsusiyyətlər) vardır ki, əgər onlardan biri hər hansı bir kəsdə olsaydı, fəzilət və şərəf baxımından ona kifayət olardı».

O xislətlər, Rəsulallahın həzrət Əli haqqında buyurduğu bu sözlərdən ibarətdir:

«Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır»; «Əli mənə nisbətdə, Harunun Musaya nisbəti kimidir»; «Əli məndəndir, mən də ondanam»; «Əli mənə nisbətdə, mənim nəfsim kimidir; ona itaət mənə itaətdir, ona itaətsizlik mənə itaətsizlikdir»; «Əliyə qarşı savaş, Allaha qarşı savaşdır; Əliylə sülh içərisində olmaq, Allah ilə sülh içərisində olmaqdır»; «Əlinin dostu Allahın dostudur; Əlinin düşməni Allahın düşmənidir»; «Əli, Allahın qullarına olan höccətidir»; «Əlini sevmək iman və ona düşmən olmaq isə küfrdür»; «Əlinin hizbi Allahın hizbidir; onun düşmənlərinin hizbi isə Şeytanın hizbidir»; «Əli haqq haqq ilə, haqq da Əli ilədir; onlar bir-birlərindən ayrılmazlar»; «Əli Cənnət ilə Cəhənnəmin bölücüsüdür»; «Əlidən ayrılan məndən ayrılmış, məndən ayrılan da Allahdan ayrılmışdır»; «Əlinin şiələri Qiyamət günü qurtuluşa yetişənlərdir».

Babın sonunda «Mənaqib»dən nəql edərək digər uzun bir hədis də zikr edilmişdir. O hədisin sonunda belə qeyd olunur: «Məni nübuvvətə seçən və məni

[1] "Hud" surəsi, ayə: 17.

məxluqatın ən üstünü edən Allaha and olsun ki, Ey Əli, şübhəsiz, sən, Allahın qullarına olan höccəti, Onun sirrinə olan əmini və qullarına olan xəlifəsisən».

Bu cür hədislər alimlərinizin etibarlı kitablarında və «Sihahi-Sittə»də çox zikr olunmuşdur. Bunları görmüsünüz; sonradan mütaliə edib hamısının məcazi eyniliyə əlamət olduğunu təsdiq edəcəksiniz. Bu səbəbdən də «ənfüsəna» kəlməsi nəsəbi, həsəbi və xarici kamallara görə, elm və əməl baxımından imam Əlinin (ə) irtibat və eyniliyinin çox güclü olduğuna aydın bir dəlildir.

Elm əhli olduğunuz üçün, inşallah, inaddan uzaq duraraq, bu ayeyi-kərimin mövzu və məqsədimizə qəti bir dəlil olduğunu təsdiq edərsiniz. Bu ayə ilə eyni zamanda ikinci sualınızın cavabı da verilmiş oldu. Çünki biz həzrət Əlinin «ənfüsəna» ayəsi ilə - xass nübuvvət və vəhyin nazil olması xaric olmaqla - digər bütün kamal, məqam və fəzilətlərdə Rəsulallah ilə ortaq olduğunu isbat etdikdən sonra imam Əlinin bütün səhabə və ümmətdən üstün olduğunu anlamış olaçaqsınız. Bundan əlavə, sözügedən ayənin dəlalətinə, əql və nəqlin nökmünə görə, Əmirəl-mömininin bütün peyğəmbər, səhabə və ümmətdən istisnasız olaraq üstün olması aydınlaşır. Bu səbəbdən Rəsuli-əkrəm də bütün ənbiya və ümmətdən üstün və fəzilətlidir.

## RƏSULALLAH (S) BÜTÜN PEYĞƏMBƏRLƏRDƏN (Ə) ÜSTÜN OLDUĞU ÜÇÜN ƏLİ (Ə) DƏ ONLARDAN ÜSTÜNDÜR

İmam Qazzalinin «İhyaul-ulum», İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi», imam Fəxri Razi, Carullah Zəməxşəri, Beyzavi, Nişaburi kimi şəxslərin təfsir kitablarını oxuduğunuz zaman onların Rəsuli-əkrəmin (s) bir hədisdə «Ümmətimin alimləri bəni-İsrailin peyğəmbərləri kimidir» buyurduğunu nəql etdiklərini görərsiniz. O həzrət (s) digər bir hədisdə də belə buyurmuşdur: «Ümmətimin alimləri bəni-İsrail peyğəmbərlərindən daha üstündür».

Bu ümmətin alimləri elmlərini Məhəmmədin (s) elm qaynağından alıb bəni-İsrail peyğəmbərləri kimi və ya onlardan üstün ola bilirlərsə, mötəbər alimlərinizin də Rəsulallahdan nəql etdikləri dəlillərə görə imam Əlinin (ə) bütün

peyğəmbərlərdən üstün olması zəruri olur və bunda şəkk və ya tərəddüd əsla yoxdur! Çünki Rəsuli-əkrəm (s) buyurmuşdur: «Mən elm şəhəriyəm, Əli də onun qapısıdır» və ya «Mən hikmət eviyəm, Əli də onun qapısıdır».

İmam Əlinin özündən də bu mövzu haqqında sual edildikdə, üstünlüyünün bəzi yönlərinə toxunmuşdu.

## SƏSƏƏNİN HƏZRƏT ƏLİNİN (Ə) PEYĞƏMBƏRLƏRDƏN ÜSTÜNLÜYÜNÜN SƏBƏBİ HAQQINDAKI SUALLARI VƏ ONLARIN CAVABLANDIRILMASI

Hicrətin 40-cı ili mübarək ramazan ayının 20-sində, Rəsuli-əkrəmin də əvvəlcədən xəbər verdiyi kimi, zalım, bədbəxt Əbdürrəhman ibn Mülcəm Muradi tərəfindən zəhərli qılınc ilə mübarək başından zərbə alan imam Əli (ə) ölüm nişanələrini bildiyindən, oğlu imam Həsənə (ə) qapı arxasında toplanan şiələrin gəlib onu görmələrinə izn verməsini əmr etdi. Onlar yatağın ətrafında toplaşıb, sakitcə İmam (ə) üçün ağlayırdılar. həzrət Əli (ə) çox halsız bir halda buyurdu: «Məni itirməmiş istədiyiniz sualı soruşun; ancaq suallarınız qısa olsun».

Əshabın hər biri sual verib cavablarını alırdılar. Onlardan biri şiənin böyük şəxsiyyət və ravilərindən olan Kufənin məşhur xətibi Səsəə ibn Suhan idi. Şiə alimləri və arabir sizin böyük alimləriniz, hətta «Səhih» yazıçıları onun rəvayətlərini həzrət Əli (ə) və İbni Abbasdan nəql etmişlər. İbn Əbdülbirr «İstiab», İbn Səd «Təbəqat» və İbn Quteybə «Maarif» adlı kitabında və digər böyük alimləriniz onun həyat və fəaliyyəti haqqında şərhlər yazaraq etibarlı və adil bilib, həzrət Əlinin (ə) alim, fazil, sadiq və təqvalı əshabından biri olduğunu nəql etmişlər.

Səsəə Həzrət Əliyə (ə) belə ərz etdi:

- Siz üstünsünüz yoxsa, Adəm peyğəmbər? həzrət Əli (ə) cavabında buyurdu:

- İnsanın özünü tərif və təzkiyə etməsi çirkin bir şeydir; amma «Rəbbinin nemətlərini anlat» baxımından söyləyirəm: mən Adəmdən daha üstünəm.

- Ey Əmirəl-möminin! Hansı dəlilə görə siz Adəmdən daha üstünsünüz?

- Adəm üçun buğdadan başqa Cənnətdə bütün rəhmət, rahatlıq və nemətlər hazırlanmışdı. O, nəhy edilməsinə baxmayaraq, buğdadan yeyərək Cənnət və haqqın rəhmətindən çıxdı. Amma Allah-təala məni, buğdanı yeməyi qadağan etməməsinə baxmayaraq, öz istək və iradəmlə, dünyanı əhəmiyyətsiz bilmədiyimdən, buğdadan yemədim.

Bu söz, insanın kəramət və fəzilətinin Allah qatında zöhd və təqva ilə olduğuna işarədir. Çünki dünya və onun gözəlliklərindən daha çox pərhiz edənlərin Allah dərgahında dəyər və yaxınlığı daha çoxdur. Bu səbəbdən zöhd və təqvanın son dərəcəsi də qadağan olunmayan halallardan uzaq durmaqdır.

Səsəə:

- Siz daha fəzilətlisiniz, yoxsa Nuh peyğəmbər?

həzrət Əli (ə):

- Mən Nuvdan daha fəzilətliyəm.

- Hansı dəlilə görə?

- Həzrət Nuh öz qövmünü Allaha dəvət etdikdə onlar itaət etmədilər; üstəlik, o həzrətə çox əziyyət verdilər, zülm etdilər. Sonda onlara qarğış edib dedi: «Allahım, yer üzündə kafirlərə bir diyar belə qoyma. (yəni onların hamısını həlak et) Amma mən Xatəmül-ənbiyadan (s) sonra bu ummətdən qat-qat artıq əzab-əziyyət görməyimə baxmayaraq, onlara qarğış etmədim və təmamilə səbir etdim[1].

Bu söz, bəlalara qarşı səbri çox olan kimsənin haqqa ən yaxın məxluq olduğuna işarədir! Sasəə:

- Siz daha üstünsünüz, yoxsa İbrahim peyğəmbər?

Həzrət Əli (ə):

- Mən İbrahimdən daha üstünəm».

- İbrahimdən üstün olmağınızın dəlili nədir?

- İbrahim Allah-təaladan: «Rəbbim, ölünü necə dirildirsən?», - deyə soruşdu. Allah - təala: «İnanmırsan?!», - deyə buyurdu. İbrahim dedi: «İnanıram, ancaq (onu görməklə) qəlbimin əmin olmasını istəyirəm». Amma mənim imanım elə bir

---

[1] Bu səbəbdən məşhur "Şiqşiqiyyə" xütbəsində belə buyurur: "Gözümdə tikan və boğazımda sümük olduğu halda səbir etdim..."

yerə çatmışdır ki, hətta, əgər bütün hicablar qaldırılırsa belə, zərrə qədər yəqinimdə artım olmaz.

Bu söz şəxsin dərəcə və məqam ucalığının Həqqul-yəqin mərtəbəsinə yetişdiyi üçün onun yəqin məqamına çatdığına işarədir.

Səsəə:

- Siz daha üstünsünüz, yoxsa Musa peyğəmbər?

Həzrət Əli (ə);

- Mən Musadan daha fəzilətliyəm.

- Hansı dəlilə görə?

- Allah-təala həzrət Musanı, Fironu dəvət etmək üçün Misirə göndərdikdə Musa Rəbbinə belə dedi: «Rəbbim, mən onlardan bir nəfər öldürdüm, məni öldürəcəklərindən qorxuram. Qardaşım Harun dil baxımından məndən daha fəsihdir. Onu da mənimlə bərabər, məni doğrulayan bir yardımçı olaraq göndər. Çünki onların məni yalanlayacaqlarından qorxuram».

Atası, qardaşı, əmiri, dayısı və yaxın əqrabasını öldürdüyüm bir çox insanın olmasına baxmayaraq, Rəsulallah (s) Allah tərəfindən məni «Bəraət» surəsinin ilk ayələrini Məkkədə - Kəbənin üzərində Qüreyş kafirlərinə oxumağım üçün vəzifələndirdikdə, əsla qorxmayıb, əmrə itaət etdim. Təkcə getdim, vəzifəmi yerinə yetirib «Bəraət» surəsinin ayələrini onlara açıqladıqdan sonra geri döndüm.

Bu söz, şəxsin üstünlüyünün Allaha təvəkküllə ola biləcəyinə və təvəkkülü çox olanın da üstün olduğuna işarədir. Musa (ə) öz qardaşına etimad edib, ona güvəndi. Amma Əmirəl-möminin Əli (ə) Allaha kamil bir təvəkkül edib, Cəlal sahibi olan haqq-təalanın geniş kərəm və lütfünə etimad etdi.

Səsəə:

- Siz daha üstünsünüz, yoxsa İsa peyğəmbər?

Həzrət Əli (ə):

- Mən İsadan daha üstünəm.

- Hansı dəlilə görə?

- Cəbrail Məryəmin yaxasına üfürdükdən sonra O, Allahın qüdrəti ilə hamilə oldu. Doğum zamanı gəldikdə Məryəmə belə vəhy olundu: «Bu evdən (Beytül-müqəddəsdən) bayıra çıx; çünki bu ev ibadət evidir, doğum evi deyil!».

Bax, bu səbəbdən də Beytül-müqəddəsdən bayıra çıxıb, çöldə - quru bir xurma ağacının altında İsanı dünyaya gətirdi. Amma anamın - Əsəd qızı Fatimənin Məscidül-həramda doğuş sancısı başladıqda Kəbənin Rəbbinə yalvararaq belə ded? - «İlahi, bu evin və bu evi bina edənin haqqı hörmətinə bu doğum sancısını mənim üçün asanlaşdır». Bax, o an Evin divarı aralandı və anamı: «Ey Fatimə, evə gir!», - deyə qeybi bir nida ilə evin içinə dəvət etdilər. Daha sonra anam içəri girdi və mən Allahın evi olan Kəbədə dünyaya gəldim».

Bu söz, insanın şərəfinin ilk mərhələdə əsalət, soy və doğumun təmizliyinə görə olduğuna, ruhu, nəfsi və bədəninin daha təmiz olanın da daha üstün olduğuna işarədir.

Fatimənin Kəbəyə daxil olmasının və Məryəmin də doğum üçün Beytül-müqəddəsdən çıxarılmasına, Məkkənin Beytül-müqəddəsə, Fatimənin Məryəmə və həzrət Əlinin (ə) də həzrət İsaya (ə) nəzərən daha üstün olduğu Allah-təalanın bu əmrindən görülür.

## HƏZRƏT ƏLİ (Ə) BÜTÜN PEYĞƏMBƏRLƏRİN AYNASI İDİ

(Elə bu anda namaz vaxtı oldu. Namazı qılıb, çay içdik. Qısa bir müddət istirahətdən sonra sözümü davam etdirdim).

**Dəvətçi**: «Söylədiklərimə əlavə olaraq deməliyəm ki, alimlərinizin mötəbər və etibarlı kitablarında həzrət Əlinin (ə) bütün peyğəmbərlərin sifətlərinin aynası və bütün sifətlərə sahib olduğunu zikr etmişlər:

Bu səbəbdən Mötəzəli olan İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərihi»in 2-ci cildinin 449-cu səhifəsində, Şafei fəqihi olan Hafiz Əbu Bəkr Əhməd ibn Hüseyn Beyhəqqi «Mənaqib»də, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, imam Fəxri Razi «Təfsiri-kəbir»də «Mübahilə ayəsinin təfsiri»ndə, Muhyiddin Ərəbi «Yəvaqit və cəvahir»in 32-ci mövzusunun 172-ci səhifəsində, Hənəfi olan Şeyx Süleyman

Bəlxi, «Müsnədi İmam Əhməd», «Səhihi-Beyhəqi», «Şərhul-Məvaqif» və «Təriqətul-Məhəmmədiyyə» kitablarından nəql edərək «Yənabiul-məvəddə»nin 40-cı babının əvvəllərində, Nurəddin Maliki Beyhəqqidən nəql edərək «Fusulul-mühimmə»nin 121-ci səhifəsində, Şafei olan Məhəmməd ibn Təlhə «Mətalibus-süul»un 22-ci səhifəsində və Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 23-cü babında müxtəlif ifadələrlə, az çox fərqliliklə Rəsulallahın (s) belə buyurduğunu nəql etmişlər: «Kim, Adəmin elminə, Nuhun təqvasına (hikmətinə), İbrahimin adət və əxlaqına, Musanın heybətinə və İsanın da ibadətinə baxmaq istəyirsə, Əli ibn Əbu Talibə baxsın».

Şafei olan Mirseyid Əli Həmədani «Məvəddətül-qurba» adlı kitabının 8-ci məvəddəsində bu hədisi-şərifi daha geniş şəkildə zikr etmiş və sonda Cabirdən Rəsulallahın belə buyurduğunu nəql etmişdir: «Şübhəsiz, Əlidə peyğəmbərlərin xislətlərindən 90 xislət vardır; Allah-təala Əlidən başqa heç kimdə onların hamısını bir araya toplamamışdır».

## «TƏŞBİH HƏDİSİ» ƏTRAFINDA ŞEYX MƏHƏMMƏD YUSİF GƏNCİ ŞAFEİNİN AÇIQLAMA SI

Şamın mühəddis və fəqihi olan Sədrul-Huffaz Şeyx Məhəmməd ibn Yusif Gənci Şafei hədis etdikdən sonra qısaca olaraq belə bəyan edir: «Əlinin elmdə Adəmə təşbihinin (bənzətmə) səbəbi, Allah-təalanın Adəmə hər şeyin elm və sifətini öyrətməsiydi. Bu səbəbdən «Bəqərə» surəsində belə buyurur: «**Adəmə adların hamısını öyrətdi**...»[1].

Elmi, idrakı və mənasının istinbatı[2] həzrət Əlinin (ə) yanında olmayan heç bir hadisə yoxdur. Çünki həzrət Adəm (ə) bu ilahi elmi vasitəsi ilə Allah-təala tərəfindən xilafətə təyin olundu. Allah-təala «Bəqərə» surəsinin 30-cu ayəsində belə xəbər verir: «**Mən yer üzündə bir xəlifə yaradacağam**». Bax, həzrət Adəm bu İlahi elm vasitəsilə xilafət məqamına yetişmiş oldu.

[1] "Bəqərə" surəsi, ayə: 31.
[2] Xülasə, nəticə.

Həzrət Əlinin elmdə həzrət Adəmə olan təşbihini dərindən düşünən hər bir insan, elm səbəbilə mələklərin Adəmə səcdə etməyindən həzrət Əlinin elm səbəbilə məxluqatın ən üstün və fəzilətlisi və Rəsulallahdan (s) sonra xilafət məqamına sahib olduğunu anlayacaqdır.

Əmirəl-möminin imam Əlini (ə) hikmətdə Nuha (ə) bənzətmənin səbəbi onun kafirlərə şiddətli və sərt, möminlərə isə şəfqətli olduğunu anlatmaq istədiyindəndir. Bu səbəbdən Allah-təala Qurani-kərimdə Onu (ə) belə vəsf etmişdir: «**Onunla bərabər olanlar kafirlərə qarşı şiddətlidirlər, öz aralarında isə mərhəmətli...**».

Daha əvvəl də ərz etdiyim kimi bu ayə, həzrət Əlinin (ə) mədhi haqqında nazil olduğuna bir dəlildir. Nuh (ə) da kafirlərə qarşı çox şiddətli idi. Bu səbəbdən Allah-təala Quranda belə buyurur: «**Nuh dedi: «Ya Rəbbim, yer üzündə bir nəfər belə kafir qoyma**»[1].

Həzrət Əlini (ə) helimdə həzrət İbrahimə (ə) bənzətmənin səbəbi, Onun Quranda bu sifətlə xatırlanmasıdır: «**Həqiqətən, İbrahim yalvarıb-yaxaran və həlim bir zat idi**»[2].

Bu bənzətmələr, həzrət Əlini (ə) əxlaqda peyğəmbərlərin əxlaqı ilə əxlaqlandığını və sifətlə də vəsilərin sifətlərilə vəsfləndiyini göstərir. Elə isə möhtərəm ağalar, əgər bir az insafla diqqət etsəniz, şiə və sünninin ittifaq etdiyi bu hədisin dəlalət və mənasından həzrət Əlinin mümkün olan bütün uca sifətlərə sahib olduğunu və o sifətlərin ənbiyaların üstün sifətlərilə eyni olduğunu anlayacaqsınız. Bax, bütün sifətlərə sahib olma baxımından da o həzrətin butün peyğəmbərlərdən üstün olması aydın olur.

Bu Təşbih (bənzətmə) hədisi də, Xatəmül-ənbiya (s) istisna olmaqla, həzrət Əlinin (ə) bütün peyğəmbərlərdən üstün olduğuna başqa bir dəlildir. Çünki böyük peyğəmbərlərə məxsus olan xislət və sifətlərdə onlarla ortaq olması və başqalarının sifət və fəzilətlərinin də onda cəmlənməsi İmamın bütün peyğəmbərlərdən üstün olduğunu zəruriləşdirir.

---

[1] "Nuh" surəsi, ayə: 26

[2] "Tövbə" surəsi, ayə: 114.

Bu səbəbdən Şafei olan Məhəmməd ibn Təlhə «Mətalibus-süul» adlı kitabında zikr olunmuş hədisi nəql etdikdən sonra bu mənanı sübut etmiş və açıq şəkildə belə demişdir: «Rəsulallah (s) bu hədisi-şərifdə həzrət Əli üçün Adəmin elmi kimi bir elm, Nuhun təqvası kimi bir təqva, İbrahimin helmi kimi bir helim, Musanın heybəti kimi bir heybət, İsanın ibadəti kimi bir ibadət sabit etmişdir».

Daha sonra əlavə edir: «Bu sifətlər həzrət Əlini ən uca məqama qaldırmışdır. Çünki Rəsuli-əkrəm (s) zikr olunan bu sifətlərlə Onu mürsəl peyğəmbərlərə bənzətmişdir».

Görəsən, bu mənanı böyük alimləriniz qəbul etdiyi halda, Əmirəl-möminin həzrət Əlidən (ə) başqa, səhabə və tabein də daxil olmaqla, ümmət arasında böyük peyğəmbərlərin sifət və gözəl əxlaqlarını özündə cəmləşdirən birini tapmağınız mümkündürmü?!

Bu səbəbdən Hənəfi olan Şeyx Süleyman Bəlxi «Yənabiul-məvəddə»nin 40-cı babında Xarəzminin «Mənaqib» kitabından nəql edərək Məhəmməd ibn Mənsurdan belə nəql edir: «Əhməd ibn Hənbəlin belə dediyini eşitdim: «Səhabədən heç kimə Əli ibn Əbu Talibə nəql edilən fəzilətlər kimi fəzilətlər nəql edilməmişdir».

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 2-ci babında Məhəmməd ibn Mənsur Tusiyə söykənərək imam Əhməd ibn Hənbəldən nəql edir: «Əli ibn Əbu Talib üçün gələn şey Rəsulallahın əshabından heç kim üçün gəlməmişdir».

Həzrət Əlinin (ə) üstünlüyü haqqında deyilənlər təkcə imam Əhməd ibn Hənbələ aid deyildir; insaflı alimlərinizin əksəriyyəti bu mənanı təsdiq etmişlər. Bu səbəbdən Mötəzəli olan İbn Əbil-Hədid «Şərhül-Nəchül-bəlağə» kitabının 1-ci cildinin 46-cı səhifəsində belə deyir: «Həzrət Əli fəzilət baxımından vilayətə daha üstün və daha layiq idi. Çünki O, Rəsulallahdan sonra insanların ən üstünü və vilayət məqamından da xilafətə bütün müsəlmanlardan daha layiq idi».

Allah xatirinə, Allah rızası üçün bir az insafla düşünün. Görəsən, düşünmədən keçmişlərinizin adətlərini təqlid edərək, dəlilsiz bu sifətlərdən məhrum olanları belə böyük bir şəxsiyyətdən önə keçirməyiniz insafsızlıq deyilmi?! Görəsən, ağıl

və fikir sahibləri keçmişlərinizin fikir və anlayışlarının nə qədər səviyyəsiz olduğuna gülmürlərmi? Çünki onlar siyasət və firqəçilik səbəbindən ümmətin ən üstün olanını evində oturdaraq, Ondan (ə) tam mənasıyla aşağıda olan birini xilafət məqamına yüksəltdilər! Ən azı, Səqifədəki xilafət kimi mühüm bir iş xüsusunda məşvərət etmək üçün, təmamilə unudulsun deyə, Ona xəbər belə göndərmədilər!»

## MÜXALİFLƏR DEYİRLƏR: İCMAYA SÖYKƏNMƏK HAQQDIR

**Hafiz**: «Biz insafsızlıq edirik, yoxsa siz?! Rəsulallahın (s) səhabəsinin dəlilsiz olaraq xilafətə layiq olmayanları önə keçirib, xilafətə aldıqlarını söyləyirsiniz. Həqiqətən, bizim hamımızı düşüncəsiz, cahil və yersiz təqlidçi elan etdiniz. Hansı dəlil icma dəlilindən daha böyük ola bilir? Çünki bütün səhabə və ümmət, hətta mövlamız həzrət Əli (ə) belə icma edərək, Əbu Bəkrin xilafətinə hökm etmiş və təslim olmuşdu.

Ümmətin icmasının höccət və o icmaya itaətin də vacib olduğu açıq-aydındır. Çünki Rəsuli-əkrəm belə buyurmuşdur: «Mənim ümmətim xəta (başqa bir nəqlə görə, zəlalət) üzrə icma etməz». Elə isə biz kor-koranə öz keçmişlərimizin arxasınca getməmişik! Çünki Peyğəmbərin (s) vəfatından sonra - elə ilk gün bütün ümmətin toplanıb Əbu Bəkrin xilafətinin səhihlyini qəbul etdikləri zaman, biz də ağlın hökmünə uyğun olaraq itaət etdik».

**Dəvətçi**: «Rəsulallahın (s) vəfatından sonra xilafətin haqqaniyyətinə dair dəlilin nə olduğunu söyləyə bilərsinizmi? Yəni xilafət hansı dəlilə görə sabit olur?»

**Hafiz**: «Rəsulallahın (s) vəfatından sonra xilafətin haqqaniyyətinə dair ən böyük dəlil, o həzrətdən (s) sonra ümmətin icmasıdır. Bütün ağıl sahiblərinin təslim olmaq üçün dizini yerə çökdürən icma dəlilindən əlavə, qabaqcıllıq haqqını Əbu Bəkr və Ömərə verən şey onların yaşlı olmaları idi. Əli bütün fəzilət, kamal və Rəsulallaha yaxınlığına baxmayaraq, onlardan yaşca kiçik və gənc olduğu üçün geridə qaldı. Həqiqətən, bir gəncin səhabənin böyüklərindən önə keçməsi doğru

deyildir! Biz xilafət baxımından Əlinin geridə qalmasını onun üçün bir əksiklik görmürük; çünki onun daha fəzilətli olduğu hər kəsin yanında sabitdir.

Xəlifə Ömərin nəql etdiyi bu hədis də - «Nübuvvət və səltənət bir ailədə toplanmaz» Əlini (ə) xilafət məqamından düşürmüşdü; çünki həzrət Əli Rəsulallahın Əhli-beytindən idi. Bu səbəbdən xilafət məqamına keçə bilməzdi».

**Dəvətçi**: «Bu cür dəlillərin sizin kimi bir alimdən deyilməsi,həqiqətən, təəccübləndiricidir. Nə qədər də keçmiş adətlərin təsiri altında qalaraq kor-koranə, düşünmədən haqqı gözardına vurub, boş dəlillərə sarılırsınız! Ki, bu dəlillərə oğlunu təzəcə itirən ana belə gülər. Özünüz də bir az düşünsəniz, bu cür dəlillərin boş və çör-çöpdən yapışmaq olduğunu anlayacaqsınız! Amma təəssüf ediləcək nöqtə budur ki, ağalar bir saat belə təəssüb libasını çıxarıb, əslsiz və boş dəlillər qarşısında böyük şiə alimlərinin dəlilləri haqqında dərindən duşünmür, onları diqqətlə araşdırmağa belə hazır olmurlar.

Sizin avamınız şiənin dəlillərindən xəbərsiz olduğu kimi, söhbət etmiş olduğum alimlərinizi də şiənin dəlillərindən xəbərsiz və təəssübə bürünmüş gördüm! Bunun tək səbəbi, kitabxanalarınızda oxumaq üçün şiənin böyük kəlam və hədis alimlərinin kitablarının olmaması və bu kitabları kütubu-zallə (azdırıcı kitablar) kimi tanıdaraq bir-birlərini onları oxumaqdan yayındırmağınızdır.

Mən özüm Bəsrə, Bağdad, Beyrut və Hələbdə, yəni sünnilərin yaşadığı bölgələrdə kitab satılan yerlərə gedib şiə alimlərinin mötəbər kitablarını soruşduqda tanımadıqlarını söyləyirdilər. Hətta əhli-sünnət alimləri tərəfindən vilayət məqamının isbatı, Peyğəmbərin (s) itrət və Əhli-beytinin (ə) fəziləti haqqında yazılıb çap olunmuş kitabları belə satış məntəqələrinə buraxmazlar. Əgər bəzən, şiə kitablarından biriylə qarşılaşdıqda da, onu oxuduğunuza görə kin və düşmənçilik üzündən elə qəzəblənir, hirslənirsiniz ki, həqiqətin kəşf olub kamil bir nəticənin əldə edilməsi üçün həmin kitabları elm və məntiq dairəsinə daxil etmirsiniz. Amma tam əksinə, şiə cəmiyyətlərində alimlərinizin kitablarını nəşr etmək üçün heç bir maneə, müşkül yoxdur. Hətta alimləriniz tərəfindən yazılmış olan mötəbər kitablar təfsir, ədəbiyyat, hədis və elmi kitabları şiələrin bazarında

satışa təqdim olunmuşdur, şəxsi və ümumi kitabxanalarda, evlərdə oxunub-oxudulur.

İndi üzərimdə olan böyük məsuliyyət səbəbindən - fikirli ağaların diqqətlərini cəlb etmək, sağlam və rədd oluna bilməyəcək dəlillərə sahib olduqları düşüncəsinə qapılmamaları üçün məclisin vaxtına riayət edərək, qısaca cavab vermək istəyirəm.

## İCMANIN RƏDDİNƏ DAİR DƏLİLLƏR

Şahid gətirdiyiniz hədisə görə, ümmətin icmasının sağlam bir dəlil və höccət olduğunu söylədiniz. Əlbəttə, özünüz də çox yaxşı bilirsiniz ki, «ümmət» kəlməsi, «mən» şəkilçisinin mənasını daşıyan «ya» hərfinə əlavə olduqda ümumiliyi ifadə edir. Elə isə, hədisin mənası (əgər səhivdirsə) belə olur: Ümmətimin hamısı xəta və zəlalət üzrə icma etməzlər. Yəni Peyğəmbərin (s) ümmətinin hamısı birləşdikləri zaman xəta olmaz. Biz də ümmətin istisnasız olaraq hamısının icma (ittifaq) etməsinin nəticə verəcəyini qəbul edirik. Çünki Allah-təala bu ümmətin içərisində onların haqla və haqqın da onlar ilə olması üzrə bir qrup xas insanlar qərar vermişdir. Yəni Allahın höccət və xəlifəsi onların içərisindədir. Ümmətin hamısı icma etdikdə, haqq əhli və Allahın höccəti olan o qrup ümmət içərisində olub, onların xəta və zəlalətə düşmələrinə mane olacaqdır.

Əgər bir az diqqət edib ciddi düşünsəniz görərsiniz ki, bu hədis Rəsulallahın (s) xəlifə təyin etmə işini ümmətin öhdəsinə qoymasına dəlalət etməz! Sözünüz doğru olarsa, kamil dinin sahibi olan Xatəmül-ənbiyanın «Mənim ümmətim zəlalət və xəta üzrə icma etməzlər» bəyanına görə, o həzrət (s) xəlifə təyin etmə haqqını özündən uzaqlaşdırıb ümmətə vermişdir. Ancaq hədis belə bir şeyə dəlalət etmir! Ümmətə vermiş olduğu təqdirdə də bütün müsəlmanların (xilafətdə fayda sahibi olduqlarından) hamısının xəlifə seçiminə qatılmaları lazım gəlir. Yəni Peyğəmbərin vəfatından sonra bütün ümmətin hamısının toplanıb məşvərət edərək icmasının rəyi ilə kamil olan bir şəxsi xilafətə seçmələri zəruri olur. İndi sizlərdən soruşuram: Rəsulallah yeni vəfat etmişkən, Səqifə adında üzəri qapalı, kiçik bir

yerdə Əbu Bəkrin xəlifə olaraq elan edilməsi bütün ümmətin toplanıb səs verməsiləhəqiqiləşdi, yoxsa başqa şəkildə?»

**Hafiz**: «Çox qəribə bir açıqlama verdiniz, Əbu Bəkr xilafət məqamında oturduğu iki il ərzində bütün müsəlmanlar ona itaət edib, əmrinə tabe oldular. Bax, bu, haqqaniyyətə dəlil olan icmadır!»

**Dəvətçi**: «Həqiqətən, cavab vermədə muğalitə etdiniz. Sualım, Əbu Bəkrin xilafətinin bütün dövrü ilə əlaqəli deyildi. Mənim sualım budur: Görəsən, bəni-Saidə Səqifəsində[1] Əbu Bəkrin xilafətinə səs verərkən bütün ümmət icma etmişdimi? Yoxsa bir neçə nəfərdən ibarət kiçik bir qrup orada toplanaraq səs verib, beyət etdilər?»

**Hafiz**: «O «kiçik qrup» səhabənin böyüklərindən olduğu və zaman keçdikcə icmanın həqiqiləşdiyi bilinən bir şeydir».

**Dəvətçi**: «Buyurduğunuz «icma»dan məqsəd, səhabənin böyükləri və ağıllılarının icmasıdır» sözünüz dəlilsiz, məntiqsiz və təhəkkümdür![2] Çünki bu hədisdən başqa heç bir dəliliniz yoxdur! İstidlal etdiyiniz bu hədisin harasından səhabənin böyükləri və ağıllıları aydın olur? Siz, alimlərin heyrətlə baxdıqları bu hədisi öz xəyalınızla mənalandırırsınız!

Lakin mən elə indi «ümmət» kəlməsindəki «ya» zəmirinin səhabədən (fəzilət sahibi olsalar belə) bir neçə nəfərlik bir qrupa deyil, ümuma dəlalət etdiyini ərz etdim.

Fərz edək ki, bu sözünüzü qəbul etdik. İndi söyləyin: məgər, səhabənin böyükləri və qabaqcılları təkcə Səqifədə toplanıb Əbu Bəkr, Ömər və qəbir qazan Əbu Ubeydənin (Cərrah) liderliyinə səs verən və beyət edən bir neçə nəfərdən ibarətdirmi?! Məgər, müsəlmanların digər şəhərlərdəki səhabələrdən ağıllı olan böyüklər yox idimi?! Görəsən, Rəsulallahın (s) vəfatı əsnasında Mədinədə olan bütün qövmlərin qabaqcılları və əshabın böyükləri Səqifə kimi kiçik bir yerdə toplanıb icma etdilərmi ki, o icma da bu axşam sizə dəlil olsun?!»

---

[1] Səqifə, bəni-Səid qəbiləsinin əhəmiyyətli bir iş üçün toplanıb məşvərət etdikləri üstü bağlı bir yerin adı idi.
[2] Hakim olma, məhkum etmə

**Hafiz**: «Xilafət məsələsi mühüm iş olduğu üçün fitnə və ixtilaf çıxmasın deyə, vaxt da dar olduğundan digər bölgələrdəki müsəlmanlara xəbər vermədilər. Çünki Əbu Bəkr və Ömər ənsardan bir qrupun Səqifədə toplandığını eşitdikdə, tələsik oraya gedib, söhbətlər etdilər. Ömər siyasi bir şəxs olduğu üçün ümmətin səlahını Əbu Bəkrə beyət etməkdə görüb, ona beyət etdi. Digər bir qrup da Ömərə tabe olub, beyət etdilər. Amma ənsar və Xəzrəc qəbiləsindən olan bir qrup Səd ibn Ubadəyə tabe olaraq, beyət etmədən çıxıb getdilər. Bu məsələdə tələsməyin səbəbi də bundan ibarət idi».

**Dəvətçi**: «Bütün tarixçilərin və böyük alimlərinizin də təsdiq etdiyi kimi, siz də bu həqiqəti təsdiq edirsiniz ki, işin başlanğıcı olan Səqifə günündə icma həqiqiləşmədi. Əbu Bəkr, siyasət işlədərək Ömər və Əbu Ubeydeyə iltifat etdi. Onlar da Əbu Bəkri tərifləyib, «Sən bizdən daha layiq və daha üstünsən» dedilər. Daha sonra da tələm-tələsik Əbu Bəkrə beyət etdilər. Övs qəbiləsindən olan bir neçə nəfər də Xəzrəc qövmü ilə keçmişdən olan düşmənliklərindən Səd ibn Ubadənin əmir olub onlardan önə keçməməsi üçün Əbu Bəkrə beyət etdilər və sonralar da vaxt keçdiyindən bu beyət genişlənməyə başladı. Ancaq əgər icma dəlili sağlam bir dəlil idisə, zaman bütün ümmət (sizin sözünüzə görə ağıllıların) toplanaraq məşvərət edib, səs birliyi ilə xəlifəni təyin etmək üçün səbir etməli idi».

**Hafiz**: «Ərz etdim ki, işin içində fitnə və ixtilaf olduğundan və iki qəbilə olan Övs və Xəzrəc Səqifədə toplanaraq xəlifənin öz içlərindən olması üçün münaqişə etdiklərinə görə onlar da belə etdilər. Həqiqətən, xilafət məsələsində ən kiçik bir qəflət belə ənsarın xeyrinə tamamlanır və mühacirin əli bu işdən uzaqlaşırdı. Bax, bunun üçün tələsməyə məcbur idilər».

**Dəvətçi**: «Biz də göz yumaraq sözlərinizə təslim olur və öz sözlərinizdən dəlil çıxarırıq. Məhəmməd ibn Təbərinin «Tarix» kitabının 2-ci cildinin səhifəsində və digər böyük alim və tarixçilərinizin yazdıqlarına görə, müsəlmanlar Səqifədə xilafət məsələsində məşvərət üçün bir araya toppqamamışdılar; əksinə, iki qəbilə olan Övs və Xəzrəc özlərinə bir əmir təyin etmək üçün toplanmışdılar. Bu əsnada Əbu Bəkr və Ömər tələsik özlərini onların münaqişə məclisinə yetişdirib, bu ixtilafdan öz xeyirlərinə sui-istifadə etdilər. Həqiqətən, əgər onlar belə mühüm

bir iş olan xilafət məsələsində istişarə üçün bir araya toplanmışdılarsa, yerdə qalan bütun müsəlmanlara da rəy vermələri üçün xəbər verməli idilər.

## USAMƏNİN OYUNÇULARLA SÖHBƏTİ

Biz də sizlə həmsəs olub deyirik: Vaxt dar olduğuna görə Məkkə, Yəmən, Taif və müsəlmanların yaşadıqları digər  şəhərlərə xəbər vermək imkanı yox idi. Mədinənin yaxınlığında olan Usamənin ordusundakı böyük səhabələrə də xəbər verə bilmirdilər?! O səhabvlərdən biri, hətta ən təsirli olanı müsəlmanların ordu komandiri olan Usamə ibn Zeyd idi. Rəsulallah (s) Usaməni orduya başçı təyin etdərək, Əbu Bəkr və Öməri də onun rəhbərliyi altına daxil etmişdi.

Usamə fitnənin qopduğunu və onlardan xəbərsiz məşvərət edilmədən üç kişinin öz istəkləri üzrə xəlifə seçdiklərini eşitdikdə, atına minib məscidə gələrək fəryad etdi: «Ortalığı qatıb-qarışdıran bu vəlvələ nədir? Kimin iznilə xəlifə təyin etdiniz? Siz bir neçə nəfər kim idiniz ki, müsəlmanların və səhabənin böyüklərinin məşvərət və icması olmadan xəlifə təyin etdiniz?!»

Usamənin bu fəryadını bütün tarixçilər nəql etmişlərdir. Ömər Usaməni cəzb etmək üçün irəli gələrək belə dedi: «Ey Usamə! İş tamam oldu, beyəthəqiqiləşdi, təfriqə çıxartma, sən də beyət et».

Usamə onun bu sözlərindən narahat olub belə dedi: «Peyğəmbər məni sizlərə komandir etdi, vəzifəmdən də azad edilmədim! Rəsulallahın sizlərə əmir etdiyi bir şəxs neçə olur ki, gəlib əmri altında olan məmurlara beyət etməli olur?!...»

Mübahisə və münaqişəni sonuna qədər danışıb, mövzunu uzatmaq istəmirəm. Bəhanə üçün Usamənin ordusunun şəhərdən uzaq olduğunu və vaxtın keçdiyini deyə bilməzsiniz. Məgər bu məsafə Səqifədən həzrət Peyğəmbərin evinə qədər olan məsafədən uzaq idimi?! Görəsən, şiə və sünni ittifaqına görə müsəlmanlar içərisində təsirli bir şəxs olan həzrət Əliyə (ə), həzrət Peyğəmbərin (s) əmisi olan Abbasa, Rəsulallahın ailəsindən və haqlarında dəfədərlə tövsiyyə etdiyi Quranın bərabəri olan bəni-haşimə və digər böyük səhabələrə orada olduqları halda fikirlərini bildirmələri üçün nə səbəbdən xəbər vermədilər?!»

**Hafiz**: «Zənn edirəm, cəmiyyəti elə təhlükəli bir hal bürümüşdü ki, Səqifədən bayıra çıxmaq üçün fürsət belə tapmamışdılar».

**Dəvətçi**: «Mərhəmətsizlik edirsiniz! Çünki onların fürsətin olmasına baxmayaraq, qəsdən Əliyə (ə), evdə olan bəni-haşim ailəsinə və səhabənin böyüklərinə xəbər vermədilər!»

**Hafiz**: «Onların əməllərinin qəsdli olduğuna dair dəliliniz varmı?»

**Dəvətçi**: «Ən böyük dəlil, Ömərin Peyğəmbərin (s) evinin qapısına qədər gələrək, evdə toplanan Əli (ə), bəni-haşim və səhabənin böyüklərinin xəbərdar olmamaları üçün içəri girməməsidir».

**Hafiz**: «Heç bir şübhə yoxdur ki, bu söz şiələrin uydurmalarındandır!»

**Dəvətçi**: «Yenə də lütfsüzlük etdiniz. Heç kimin uydurması deyil; H.Q III əsrdə yaşayan Məhəmməd ibn Cərir Təbərinin «Tarix» kitabının 2-ci cildinin 456-cı səhifəsinə müraciət etsəniz yaxşı olar! O belə yazır: «Ömər, Rəsulallahın evinin qapısına qədər gəlib içəri girmədi. Əbu Bəkrə işinin olduğunu və təcili gəlməyinin zəruriliyi xəbərini göndərdi. Amma Əbu Bəkr cavabında: «İndi vaxtım yoxdur, gələ bilməyəcəyəm»,-dedi. Ömər Əbu Bəkrə təkrar olaraq: «Mühüm bir hadisə olmuşdur və sənin olmağın lazımdır»,-deyə xəbər göndərdi. Nəhayət, Əbu Bəkr bayıra çıxdı. Ömər gizli bir şəkildə ənsarın Səqifədə toplanma hadisəsini ona bildirdi və «Təcili oraya getməyimiz lazımdır»-dedi».

Hər ikisi Səqifəyə doğru gedərkən yolda qəbir qazan Əbu Ubeydəylə rastlaşdılar. Bu gecə sizə dəlil ola biləcək «ümmətin icması»nı təşkil etmək üçün onu da yanlarına alaraq, birlikdə getdilər!

Allah xatirinə, bir az insaflı olun. Əgər işin içində hiylə və mənfəət yox idisə, nə üçün Ömər Rəsulallahın (s) qapısına qədər gedib, hadisəni bütün bəni-haşim və səhabənin böyüklərinə bildirərək onlardan yardım almaq üçün içəri girmədi?! Məgər, Rəsulallahın ümməti arasında sadəcə Əbu Bəkr kamil bir ağıla sahib idi?! Səhabədən olan digər şəxsiyyətlər və Peyğəmbərin Əhli-beyti yad insanlar idilər ki, Onlara xəbər vermədilər?!

*Göz açıq, qulaq açıq amma Allahın,*
*Bu korun gözlərini bağlamasına heyranam.*

Bütün tarixçilərin yazdığı kimi, uydurmanız olan bu icma üç nəfərlə həqiqiləşdimi?!

Əgər bir şəhərdə, hətta o şəhər ölkənin paytaxtı belə olsa, üç nəfər və ya bir qrup bir yerə toplanaraq bir şəxsin səltənət və xilafətində icma etsələr belə, digər şəhərlərdə yaşayan ağıl sahibləri və alimlərin ona tabe olmalarının zəruriliyinə dair bir inanc dünyanın harasında qəbul edilər?! Və ya cəmiyyət tərəfindən seçilməyən bir qrupun nəzəri digər qruplara necə fərz ola bilər? Hay-huy və səs çıxarmaqla bir millətin fikrini nəzərə almayıb və digər kiçik bir qrupun nəzərinə əsasən xalqın taleyini həll etmək doğrudurmu?

Ağalar bir az insaflı olun! Əgər bir qrup danışmaq istəsə, elmi və əməli mövzularda münazirə etsə, dəlillər gətirərək sözügedən xilafət və icmanın uydurmadan ibarət olduğunu və heç bir səmavi və yer üzündəki qanunlarla uyğunlaşmağına görə qəbul edilmədiyini söyləsə, görəsən, şiə müşrik, nəcis olurmu?! Qətl edilmələri vacib olurmu?! Onlara hər cür iftira yağdırmaq caiz olurmu?!

Buyurursunuz ki, Peyğəmbər (s) xilafət məsələsini ümmətin (və ya sizin nəzərinizə görə ümmətin ağıllılarının) öhdəsinə buraxdı. Zəhmət olmasa, Allah xatirinə insafla deyin, ümmət və ya ümmətin qabaqcılları təkcə üç nəfərdən - Əbu Bəkr, Ömər və qəbir qazan Əbu Ubeydeyi-Cərrahdan ibarət idimi? Bu üç nəfər bir-birlərinə təklif edərək, ikisinin digər üçüncüsünə beyət edib, ona təslim olmaları, yerdə qalan bütün müsəlmanların da o iki nəfərin yolunu davam etdirmələrini vacib bilirmi?! Əgər bəziləri: «Bu üç nəfər də digər ümmət və əshab kimi idi, onların əshabla məşvərət etmələri zəruri idi, niyə belə etmədilər» deyərsə, kafir olurlarmı?! Onların qanları axıdılmalıdırmı?

# İCMANIN HƏQİQİLƏŞMƏDİYİNƏ DAİR İKİ FİRQƏNİN BİRLİYİ

Ağalar, əgər təəssübsüz icma ətrafında bir az düşünsəniz görəcəksiniz ki, azlıq, çoxluq və icma (ittifaq) arasında böyük bir fərq vardır. Əgər şura məclisi əhəmiyyətli bir iş üçün təşkil olunursa, o işə az sayda insan səs verirsə «məclisin az hissəsi səs verdi», əgər çoxu səs verirsə, «məclisin çoxu səs verdi» deyirlər. Amma əgər məclisdə olanların istisnasız olaraq hamısı səs verirsə, «icma hasil oldu» deyirlər. Yəni o iş haqqında bir nəfər belə müxalifət etməmişdir.

Allah xatirinə söyləyin görək, Səqifədə və daha sonra məsciddə və sonralar da Mədinə şəhərində belə bir icma Əbu Bəkrin xilafətinə rəy verdimi? Sizin istəyinizə görə səsvermə haqqını bütün ümmətdən alaraq, icmanın, İslamın mərkəzi olan Mədinədə yaşayan səhabənin böyükləri və qabaqcıllarının bir araya gəlmələrilə həqiqiləşəcəyini söyləsək, yenə də belə bir icmanın həqiqiləşmədiyi bir həqiqətdir (faktdır)!

Sizə and verirəm Allaha, söyləyin: Məgər Mədinənin mühüm şəxsiyyətləri və səhabənin qabaqcıl böyükləri birləşərək Əbu Bəkrin xilafətinə səs verdilərmi ki, belə bir icma da kerçəkləşmiş olsun? Aydındır ki, bu sualın cavabı mənfidir. Bu səbəbdən «Məvaqif» kitabın müəllifi etiraf edərək demişdir: «Əbu Bəkrin xilafəti xüsusunda, hətta Mədinə şəhərində belə icma həqiqiləşmədi; səhabənin qabaqcıllarının hamısı ona səs vermədilər. Çünki ənsardan olan Səd ibn Ubadə, onun övladları, səhabənin mühüm şəxsiyyətləri, bəni-haşimin hamısı, onların dostları və eyni zamanda həzrət Əli (ə) altı ay müddətində müxalifət edərək. onların əmri altına girmədi».

Doğrudan da, həqiqət və insafı göz önünə gətirərək tarixə müraciət etdikdə, İslam dövləti və nübuvvətin mərkəzi olan Mədinədə bütün mühüm şəxsiyyətlərin və səhabənin hamısının bir araya gəlmədiyini, Əbu Bəkri xəlifə olaraq təyin etmək üçün birlikdə səs verilmədiyini, nəticədə belə bir icmanın da həqiqiləşmədiyini görürük!

Etibarlı ravi və böyük tarixçilərinizdən, məsələn: imam Fəxri Razi, Cəlaləddin Siyuti, İbn Əbil-hədid Mötəzəli, Təbəri, Buxari, Müslim və bunlar kimi bir çoxları müxtəlif ifadələrlə Mədinə şəhərində kamil bir icmanın həqiqiləşmədiyini söyləmiş və nəql etmişlər.

Bəni-haşimin hamısı - Rəsulallahın (s) qohum-əqrabaları, ailəsi və Quranın bərabəri olan Əhli-beyti (ə) bəni-Üməyyə və üç nəfər istisna olmaqla əshabın hamısı Səqifədə xilafətə səs verilərkən orada deyildilər. Belə bir hadisənin baş verdiyini eşidər-eşitməz etiraz etməyə başladılar. Hətta mühacir və ənsardan olan səhabənin qabaqcıllarından bəzi şəxslər etirazlarını bildirmək üçün məscidə gedib, Əbu Bəkr ilə xilafət mövzusu barəsində mübahisəyə başladılar. Məsələn: Salman Farsi, Əbuzər Ğəffari, Miqdad ibn Osvəd Kəndi, Əmmar Yasər, Bureydətul-Əsləmi, Xalid ibn Səid ibn As Əməvi (mühacirlərdən), Əbülheysəm ibn Tiyhan, Huzeymə ibn Sabit (Züş-şəhadəteyn)[1], Əbu Əyyub Ənsari, Übey ibn Kəb, Səhb ibn Huneyf və Osman ibn Huneyf.

Bunların hər biri məsciddə Əbu Bəkrə qarşı sağlam höccət və kifayət qədər dəlillər gətirmişdilər. Təəssüflər olsun ki, məclisimizin vaxtı az olduğu üçün onların mübahisələrinə toxuna bilməyəcəyəm. Lakin icma dəlilinin təmamilə batil və əsassız olduğunu açıqlamaq və məclisdə olan və ya olmayanların bəsirətlərinin artması və höccətin onlara tamam olması üçün sadəcə bu qısa açıqlama ilə kifayətləndim.

Mədinənin özündə belə icmahəqiqiləşmədi! Hətta Mədinədə olan «əshabın qabaqcılları və böyük şəxsiyyətlərinin icması» sözü də yalandan başqa bir şey deyildir! İndi isə, Əbu Bəkrin xilafətinin əleyhinə olan bəzi müxaliflərin adlarını mötəbər kitablarınızdan hüzurunuza ərz edim.

[1] Süş-şəhadəteyn, iki nəfərin yerinə şəhadət verən kəs deməkdir. Bu ləqəbi ona Rəsuli-əkrəm (s) vermişdir.

# ƏSHABIN BÖYÜKLƏRİNİN ƏBU BƏKRİN BEYƏTİNDƏN ÇƏKİNMƏSİ

İbn Həcər Əsqəlani və Bəlazəri öz «Tarix» kitablarında, Məhəmməd Xavənd Şah «Rövzətüs-səfa»da, İbn Əbddülbirr «İstiab» adlı kitabında və digər alimləriniz belə deyirlər: «Səd ibn Ubadə, Xəzrəc qəbiləsi, Qüreyşdən bir tayfa və səhabənin böyüklərindən 18 nəfər Əbu Bəkrə beyət etməyərək, şiə oldular; onlar Əli ibn Əbu Talibin (ə) şiələrindəndir. Həmin 18 nəfərin adları bunlardan ibarətdir: 1. Salman Farsi; 2. Əbuzər Ğəffari; 3. Miqdad ibn Osvəd Kəndi; 4. Əmmar Yasər; 5. Xalid ibn Səid ibn As; 6. Bureydətul-Əsləmi; 7. Ubey ibn Kəb; 8. Huzeymə ibn Sabit (Züş-şəhadəteyn); 9. Əbul-Heysəm ibn Tiyhan; 10. Səhl ibn Huneyf; 11. Osman ibn Huneyf (Züş-şəhadəteyn); 12. Əbu Əyyub Ənsari; 13. Cabir ibn Abdullah Ənsari; 14. Huzeyfə ibn Yəman; 15. Səd ibn Ubadə; 16. Qeys ibn Səd; 17. Abdullah ibn Abbas; 18. Zeyd ibn Ərqəm.

Yəqubi «Tarix» kitabında yazır: «Mühacir və Ənsardan bir qrup Əbu Bəkrə beyət etməyərək, Əli ibn Əbu Talibə meyl etdilər. Onlar Abbas ibn Əbdül-Mütəllib, Fəzl ibn Abbas, Zübeyr ibn Əvam ibn As, Xalid ibn Səid, Miqdad ibn Ömər, Salman Farsi, Əbuzər Ğəffari, Əmmar Yasər, Burra ibn Azib və Ubey ibn Kəbdən ibarətdirlər».

Məgər, bu şəxslər öz qəbilələrinin böyükləri, əshabın qabaqcılları və Rəsulallahın (s) məşvərət etdiyi şəxslər deyildilərmi? Görəsən, həzrət Əli, Peyğəmbərimizin əmisi Abbas və bəni-Haşim qəbiləsinin digər üzvləri qövmün ağıllı insanları deyildilərmi?

Allah xatirinə bir az insaflı olun. Onların hüzuru, məşvərəti, rəyi və təsdiqi olmadan özünü həqiqət şəklində göstərən bu icma necə icmadır? Əbu Bəkri gizlicə o cəmiyyətdən bayıra çıxarmaq, səhabənin digər qabaqcıllarına xəbər verməmək və onların fikirlərini nəzərə almamaq icma mənasını verir, yoxsa işin içində siyasi oyunun olduğunu göstərir?! Demək, işin başında bütün ümmətin icması olmadığı kimi, Mədinə əhlinin hamısının də icması yox imiş. Hətta Səd ibn Ubadə və

yanındakıların üstüörtülü Səqifədən çıxmasıyla orada da icma həqiqiləşməmişdir! Bu ilk inqilab idi ki, İslam aləmi bunu bəşər tarixinə əmanət verdi.

## SƏQƏLEYN VƏ SƏFİNƏ HƏDİSLƏRİ

Hamısının üstündən ötüb keçsək belə, bəni-Haşim və Rəsulallahın (s) Əhli-beytinin (ə) icması höccətdir. Çünki keçən gecələrdə də mötəbər qaynaqlardan ərz etdiyim kimi, şiə və sünnilərin səhih qəbul etdikləri bir hədisi-şərifdə Peyğəmbərimiz (s) belə buyurmuşdur: «Aranızda iki dəyərli əmanət qoyuram: biri Allahın kitabı, digəri isə itrətim və Əhli-beytimdir; bu ikisinə sarılsanız, xilas olacaqsınız».

Başqa bir nüsxədə isə; «...qətiyyən azğınlığa düşməzsiniz» kimi qeyd olunur.

Rəsulallahın Əhli-beyti hadisə əsnasında Səqifədə iştirak etmədikləri kimi, Əbu Bəkrin xilafətini də qəbul etmədilər. Yenə keçən axşamlarda sənədilə zikr etdiyim Səfinə hədisi adıyla tanınan səhih bir hədisdə Rəsulallah (s) belə buyurmuşdur: «Mənim Əhli-beytim Nuhun gəmisinə bənzər; ona təvəssül edən qurtulmuş, ondan uzaqlaşan isə həlak olmuşdur».

Bu hədis xatırladır: Nuhun (ə) qövmünə gələn tufan və bəlalarda onların qurtuluşu Nuhun gəmisinə təvəssül etməklərində oldu. Ümmət də qarşılaşdığı sıxıntı, bəla və ixtilaflardan qurtulmaq istəyirsə, Əhli-beytə təvəssül edib, onlara sarılmalıdır. Kim onlardan uz çevirib uzaqlaşarsa, həlak olar.

İbn Həcər «Səvaiq» adlı kitabın 90-cı səhifəsində 4-cü ayənin təfsirində Rəsulallahın Əhli-beytinə əhəmiyyət vermək barədə İbn Səddən iki hədis nəql edir. Onlardan biri həzrət Peyğəmbərin buyurduğu bu hədisdir: «Mən və Əhli-beytim Cənnətdə bir ağacıq; o ağacın budaqları dünyadadır; Allaha doğru gedən yolu tapmaq istəyən onlara sarılmalıdır».

İkinci hədis isə budur: «Hər dövrdə ümmətimin yararlanması üçün Əhli-beytimdən olan adil şəxslər vardır. Onlar azğınların təhrifini, batil əhlinin iddiasını və cahillərin təvilini bu dindən uzaqlaşdırırlar. Bilin ki, İmamlarınız sizi Allaha doğru apararlar. Elə isə sizi aparanın kim olduğuna baxın!»

Qısası, öz mötəbər kitablarınızda çox sayda nəql olan bu cür hədisləri ümmətə anlatmaq istədiyi budur: Əgər Əhli-beytimdən uzaqlaşsanız, düşmənlər qalib gələrək, sizi azğınlığa sürükləyərlər. Aranızada bidət, rəy və qiyas ortaya çıxar. Belə bir vəziyyətdə yenə də qurtuluşunuz Əhli-beytə bağlıdır. Onları özünüzdən uzaqlaşdırmayın, özünüz də Onlardan uzaq durmayın ki, həlak olarsınız.

Xülasə, icma, beyət və xəlifənin təyin olunmasında təsirli ola biləcək bütün şəxslər beyətdən çəkinənlərlə bərabərdirlər. Elə isə bu necə icma idi ki, səhabənin qabaqcılları, qəbilə böyükləri və Rəsulallahın (s) itrət və Əhli-beyti (ə) Mədinədə olmalarına baxmayaraq bu icmaya qatılmamışdılar?! Bunda şəkk yoxdur ki, icma bərpa olmadı, bəlkə əksəriyyət də orada iştirak etmədi.

Böyük alimlərinizdən olan İbni Ədülbirr Qirtəbi «İstiab», İbn Həcər «İsabə» və digər böyük alimləriniz öz mötəbər kitablarında belə deyirlər: «Xilafət iddiasında olan ənsarlı Səd ibn Ubadə Əbu Bəkr və Ömərə qətiyyən beyət etmədi. Onlar da - o, qəbilə rəisi olduğundan fəsad çıxmasın deyə - Ubadədən beyət tələb etmədilər. Daha sonra o, Şama getdi. «Rovzatus-səfa»nın rəvayətinə görə böyüklərdən birinin təhriki ilə (ölüm hökmünün kim tərəfindən verildiyi məlumdur) gecə ikən onu oxla öldürdülər və camaata «onu cinlər öldürmüşdür»- dedilər[1].

Allah xatirinə, adət və təəssübünüzü bir tərəfə qoyub, bir az düşünün! Əli ibn Əbu Talib (ə), Peyğəmbərin (s) əmisi olan Abbas, İbn Abbas, bəni-Haşimin hamısı, Rəsulallahın itrət və Əhli-beyti, bəni-Üməyyə və ənsarın qatılmadığı bir icma necə bir icmadır?».

**Hafiz**: «Fəsad baş verəcəyi ehtimalı olduğu və bütün ümmətə əl çatmadığı üçün, məcburən Səqifədə olanlarla kifayətlənərək beyət etmişlər. Sonradan da ümmət bu əmrə təslim olmuşdur».

**Dəvətçi**: «Mədinədən xaricdə olan səhabənin qabaqcılları və böyüklərinə əl çatmadı. Bəs, görəsən Mədinədə olan səhabələrə necə? Allah xatirinə insafla danışın. Əgər işin içində hiylə yox idisə, o zaman nə səbəbdən Mədinədə olanlara

---

[1] Amma bir qrup tarixçilərin rəvayətinə görə, onu oxla öldürən Xalid ibn Vəliddir. O, Əbu Bəkrin xilafətinin ilk dəvrlərində Malik ibn Nuveyrəni öldürmək və onun xanımının namusuna toxunmaqla Ömərin qəzəbinə gəlmişdi. Ömərin xilafəti dövründə onun yanında özünü təmizə çıxartması üçün gecə ikən oxla Cəd ibn Ubadəni öldürdü. Conra “onu cinlər öldürmüşdür”, - deyə şayə yaydılar.

şurada iştirak etmələri üçün xəbər vermədilər? Məgər Peyğəmbərin (s) əmisi Abbas (şeyxul-qəbilə), kürəkəni Əli ibn Əbu Talib, bəni-Haşim və Mədinədə olan səhabənin böyüklərinin nəzəri lazım deyildi? Təkcə Ömər və Əbu Ubeydə Cərrahın nəzəri ümmətin adına kifayət idi? Elə isə ey bəsirət sahibləri ibrət alın!

Beləliklə, ümum və xüsus olaraq icmanızın dəlili, səhabənin mühacir və ənsardan olan böyükləri bu icmaya qatılmadıqlarından, hətta müxalifət belə etdiklərinə görə, tamamilə boş, batil və etibarsızdır! Çünki ərz etdiyim kimi icma, bir nəfərin belə müxalifət etmədiyi bir toplantıya deyilir.

Alim və tarixçilərinizin, eyni zamanda öz etirafınıza görə də, səhabənin böyük və qabaqcıl şəxsiyyətləri icma dediyiniz toplantıya qatılmamışdılar. Bu səbəbdən imam Fəxri Razi «Nihayətul-üsul» adlı kitabında açıq-aydın belə deyir: «Səd ibn Ubadə öldürülənə qədər Əbu Bəkr və Ömərin xilafətində icma formalaşmadı. Ancaq o, öldürüldükdən sonra icma gerçəkləşdi».

Həqiqi olmayan belə bir icmanın həqqaniyyətini necə qəbul etdiyinizi anlaya bilmirəm. Birinci dəlilinizin cavabı məclisin vaxtı az olduğu üçün qismən də olsa verildi.

## «ƏBU BƏKR YAŞ BAXIMINDAN BÖYÜK OLDUĞUNA GÖRƏ XİLAFƏTƏ YETİŞDİ» SÖZÜNÜN CAVABI

İkinci dəlilinizə gəlincə; Əbu Bəkrin yaş baxımından həzrət Əlidən (ə) böyük olduğu üçün xilafətə daha layiq olduğunu buyurdunuz. Bu dəliliniz qəbul edilməzdir! Birinci dəlildən daha boş, gülünc və mənasızdır! Əgər xilafətdə yaş şərtdirsə, Əbu Bəkr və Ömərdən daha yaşlı olanlar var idi! Onda bəs nə üçün Əbu Bəkrin atası Əbu Quhafəni o dövrdə oğlundan daha böyük olmasına baxmayaraq xəlifə etmədilər?»

**Hafiz**: «Əbu Bəkr yaşlı olmasıyla bərabər bu işə də layiq idi. Dünya görmüş və Rəsulallahın (s) məhbubu olan yaşlı bir adam qövmün arasında olarsa, bir gənc xəlifə qoymazlar!».

# YAŞLI SƏHABƏLƏRİN OLMASINA BAXMAYARAQ PEYĞƏMBƏR (S) ƏLİNİ (Ə) SEÇDİ

Dəvətçi: «Təcrübəli bir ağsaqqalın olduğu bir yerdə gənci, hər hansı bir işdə, xüsusilə Allaha aid olan bir işdə məsuliyyət verərək iş başına gətirmək doqru olmadığını deyirsiniz. Əgər məsələ dediyiniz kimidirsə, o zaman sizin bu etirazınız ilk öncə Peyğəmbərə (s) istiqamətlənir; çünki Rəsulallah Təbuk döyüşündə hücuma keçmək istədikdə münafiqlər gizlicə bir saziş bağlayıb, Ona qarşı üsyan etməyi qərarlaşdırdılar. Rəsulallahın Mədinədə öz yerinə bu şəhərin işlərini idarə edəcək və münafiqlərin əməliyyatlarını zərərsizləşdirə biləcək güclü və siyasətçi bir kəsi təyin etməsi lazım gəlirdi. İndi möhtərəm ağalardən təmənnam budur ki, buyursunlar: Görəsən Peyğəmbər Mədinədə öz yerinə kimi xəlifə təyin etdi?»

**Hafiz**: «Aydındır ki, öz yerinə xəlifə və naib olaraq həzrət Əlini qoydu».

**Dəvətçi**: «Məgər Əbu Bəkr, Ömər və səhabədən digər yaşda böyük olanlar Mədinədə deyildilər ki, Rəsulallah (s) yaşda gənc olan Əmirəl-möminin həzrət Əlini (ə) öz yerinə rəsmi bir xəlifə və vəzir olaraq təyin etdi! Rəsulallah açıq-aydın belə buyurdu: «Sən Əhli-beytim arasında və mənim hicrət evim olan Mədinədə xəlifəmsən».

Ağalar, dəlil gətirdiyiniz zaman bir az düşünün ki, cavab verməli olduqda çaşıb qalmayasınız. Rəsulallahın, Əbu Bəkr və Ömər kimi əshabın yaşlılarının orada olmalarına baxmayaraq, gənc yaşda olan həzrət Əlini xilafətə təyin etməsi bu axşamkı sözlərinizə əməli bir cavabdır. Rəsuli-əkrəmin əməli, xəlifə təyini və risalətin təbliğində yaşlı və ya gəncin əhəmiyyətli olmadığına ən böyük dəlildir. Əgər yaşlı insanların həyatda olmasıyla gənclərin iş başına gətirilməməsi lazım gəlirsə, o zaman nəyə görə «Tövbə» surəsinin ilk ayələrinin Məkkə əhlinə açıqlanması üçün yaşlı olan Əbu Bəkr göndərildikdən sonra Peyğəmbər onu yolun yarısından geri qaytarıb, Allah-təala «Bu əmri ya özün və ya özün kimi bir olan icra etsin!»,-deyərək, bu işi gənc olan həzrət Əlinin öhdəsinə buraxdı?! Zahirdə belə əhəmiyyətli və təhlükəli bir işi dünya görmüş, təcrübəli və yaşlı bir kəsin etməsi daha uyğun olardı!

Başqa bir misal çəkim. Nə üçün yenə Rəsulallah Yəmən əhlinin hidayəti üçün Əbu Bəkr, Ömər və digər yaşlı olanlardan istifadə etməyib, Əmirəl-möminin həzrət Əlini bu işlə vəzifələndirdi.

Bu cür misallar olduqca çoxdur. Rəsulallah (s) Əbu Bəkr, Ömər və digər ağsaqqaların olmalarına baxmayaraq, gənc Əlini (ə) seçərək, böyük işləri Onun öhdəsinə qoydu. Bu dəliliniz boş və mənasızdır! Əsla nübuvvət, vilayət və xilafət məsələlərində keçmir.

Həqiqətdə xilafətin nübuvvət kimi əsl şərti Allahın qəbul etdiyi və bəyəndiyi bütün kamal sifətlərə sahib olmaqdır. Kim bütün uca kamal sifətlərə sahib olarsa, istər yaşlı olsun istər gənc, Allah-təala onu xilafət məqamına çatdırar, Peyğəmbərin vəsitəsilə Onu xalqa tanıdar və onların da belə bir şəxsə itaət etməsi vacib olar. Onların xilafətinin batil olduğunu isbat edən digər böyük dəlili indi xatırladım: haqla batili ayırd edən Əmirəl-möminin həzrət Əlinin o saxta icmaya qarşı müxalifət etməsi.

## HƏZRƏT ƏLİ (Ə) HAQLA BATİLİ AYIRANDIR

Rəsulallahın (s) buyurduğuna görə, həzrət Əli (ə) Haqla batili bir-birindən ayırd edəndir. Böyük alimləriniz bu mövzuda bir çox hədis nəql etmişlər. Məsələn: Şeyx Süleyman Bəlxi Hənəfi, «Kitabus-səbin fi fəzaili Əmiril-möminin» kitabından nəql edərək «Yənabiul-məvəddə»nin 16-cı babında hərəmi-şərifin imamı olan Əbu Cəfər Əhməd ibn Abdullah Şafei «Firdovsi-Dəyləmi»dən nəql edərək 70 hədisin 12-ci hədisində, Mirseyid Əli Həmədani Şafei «Məvəddətul qurba»nın 6-cı məvəddəsində, Hafiz «Əmali»də və Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib»in 44-cü babında İbn Abbasın sənədi ilə, Əbu Leyla Ğəffari və Əbuzər Ğəffari bu hədisi fərqli ibarə və təbirlərlə axırıncı cümləni eynən nəql etxmişlər ki, Rəsulallah belə buyurmuşdur: «Yaxın zamanda məndən sonra bir fitnə baş qaldıracaqdır. Belə olduqda Əli ilə olun; çünki Qiyamət günü məni ilk görən və mənimlə ilk görüşən o olacaqdır. O, uca məqamda mənimlə bərabərdir. O, haqla batili bir-birindən ayırd edəndir».

Bu halda, Peyğəmbərin (s) vəfatından sonra xəlifənin özlərindən olmasını istəyən ənsar və mühacir bir-birinin əleyhinə çıxdıqda, baş verən fitnə-fəsad qaşısında Rəsulallahın hökm və əmrinə əsasən, haqla batilin bir-birindən ayırd olması üçün ümmət həzrət Əlini (ə) çağırmalı və ətəyindən yapışmalı idi. Çünki Rəsulallahın buyurduğuna görə, «Əli hansı tərəfdə olsa, o tərəf haqq, qarşı tərəf isə batildir».

**Hafiz**: «Nəql etdiyiniz hədis xəbəri-vahiddir. Xəbəri-vahid mötəbər olmadığı üçün ona əməl edilməz!».

**Dəvətçi**: «Çox təəccüblüdür, nə tez unudursunuz? Bəlkə də qəsdən belə deyirsiniz. Axı keçən gecələrdə ərz etdim ki, əhli-sünnət alimləri xəbəri-vahidi höccət qəbul edirlər. Siz bu səbəbdən hədisi xəbəri-vahid olaraq rədd edə bilməzsiniz! Bu mövzuda olan rəvayətlər bir deyil; etibarlı böyük alimləriniz tərəfindən bu mövzuda fərqli ibarələrlə məqsədi isbatlayan bir çox hədis nəql olunmuşdur. Biz bu hədislərin bəzilarinə keçən kecələrdə toxunmuşduq. Amma indi məclisin vaxtı çox alınmasın deyə, sadəcə ravilər silsiləsi və onların kitablarıyla kifayətlənirəm; sənədli hədislərin hamısını zikr etmək fikrində deyiləm. İndi vaxtın və hafizəmin imkan verdiyi qədər bəzi hadislərə toxunmaq istəyirəm. Məhəmməd ibn Təlhə Şafei «Mətallbus-süul»da, Təbəri «Təfsiri-kəbir»də, Beyhəqi «Sünən»də, Nurəddin Maliki «Fusulul-mühimmə»də, Hakim «Müstədrək»də, Hafiz Əbu Nəim «Hilyə»də, İbn Əsakir «Tarix»də, İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»ndə, Təbərani «Ovsəd»də, Muhibbuddin «Riyaz»da, Həmuyini «Fəraid»də, Siyuti də «Dürrül-Mənsur»da İbn Abbas, Salman, Əbuzər və Huzeyfədən belə nəql etmişlər: «Peyğəmbər (s) mübarək əli ilə Əli ibn Əbu Talibə (ə) işarə edərək belə buyurdu: «Şübhəsiz, O, mənə ilk iman gətirən və Qiyamət günü mənimlə ilk görüşəcək şəxsdir. O, ən böyük düz danışan, haqq ilə batili bir-birindən ayırd edəndir və ümmətin fərq qoyanıdır».

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib»in 44-cü babında buhədisi, bu bir neçə cümləni əlavə etməklə nəql etmişdir: «...O (Əli), möminlərin sultanıdır. O, mənə yaxınlaşmaq üçün gələnlərə bir qapımdır; O, məndən sonra xəlifəmdir».

Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul»da, Xətib Xərəzmi «Mənaqib»də, İbn Səbbağ Maliki «Fusulul-Muhimmə»də, Xətib Baqdadi «Tarixi-Bağdad» adlı kitabının 14-cü cildinin 21-ci səhifəsində, Hafiz ibn Mərdəviyə «Mənaqib»də, Səmani «Fəzailus-səhabə» də, Deyləmi «Firdovs»da, İbn Quteybə «Əl-İmamətu vəs-siyasət» adlı kitabının 1-ci cildinin 68-ci səhifəsində, Zəməxşəri «Rəbiul-əbrar»da, Həmuyini «Fəraid»in 37-ci babında Təbərani «Ovsəd»də, Fəxri Razi «Təfsiri-kəbir»in 1-ci cildinin 111-ci səhifəsində, Yusif Gənci Şafei «Kifayətut-Talib»də, imam Əhməd «Müsnəd»də və sizin digər alimləriniz Rəsulallahın belə buyurduğunu nəql etmişlər: «Əli hara dönsə, haqq da ora dönər. Əli haqq ilə, haqq da Əli ilədir».

Adlarını sadaladığım kitablarda və əlavə olaraq Şex Süleyman Qunduzi Hənəfi «Yənabiul-məvəddə»nin 20-ci babında Həmuyinidən nəql edərək, Rəsulallahın (s) belə buyurduğunu zikr etmişdir: «Əli haqq ilədir; haqq da Əli ilə. Haqq hansı tərəfə meyl edərsə, Əli də onunla dönər».

Hafiz Əbu Nəim Əhməd ibn Abdullah İsfahani «Hilyətul-övliya»nın 1-ci cildinin 63-cü səhifəsində sənədilə Rəsulallahın belə buyurduğunu nəql etmişdir: «Ey ənsarlar! Sizlərə elə bir şəxsi göstərimmi ki, ona söykənsəniz, əsla yolunuzdan azmayasınız?». Əshab: «Bəli, ya Rəsulallah»-dedi. Peyğəmbəri-əkrəm buyurdu: «O kəs Əlidir! Elə isə mənim sevgimlə onu sevin; mənim kəramətimlə ona hörmət edin. Şübhəsiz, Cəbrayıl Allah tərəfindən sizə söylədiklərimi mənə əmr etdi».

Müxtəlif ravilər tərəfindən bir-birindən fərqli kəlmələrlə nəql edilmiş bu nəbəvi hədislər ilk baxışda xəbəri-vahid olaraq xas bir məna üçün bəyan olunmuş olsa da, elm əhli yanında bunlara təvatüri-mənəvi deyilir. Təvatüri-mənəvi müxtəlif kəlmələrlə nəql olan xüsusi dəlillərinəhatə etdiyi mənadan əldə edilən ümumi və ortaq bir mənadır. Ümumi və ortaq mənadan məqsəd də, Rəsulallahın vilayət məqamına olan diqqətdir ki, Rəsulallahın (s) digər kəslərə deyil, məhz Əmirəl-möminin imam Əliyə (ə) olan meylini isbat edir.

Bundan əlavə, imam Əli daim həzrət Peyğəmbərin şəfqət və sevgisini duymuş, hiss etmişdi. Rəsulallah daim imam Əlidən yardım tələb etmişdir. Çünki həzrət Əli yardım etməkdə dahi bir kəs idi. Bax buna görə Peyğəmbəri-əkrəm

ümməti də özündən sonra imam Əliyə müraciət etməyə və ona bağlanmağa dəvət etmişdi. Çünki Əli (ə) daim haqqilədir və haqla batili bir-birindən ayırd edəndir.

Bu cür hədisləri mütaliə etdikdən sonra bir az insafla danışın. Görəsən, həzrət Əlinin Əbu Bəkrə qarşı müxalifət etməsi, sizin xəyali icmanızın xaricində qalması və beyət etməməsi Əbu Bəkrin haqqaniyyətinə dəlildir, yoxsa xilafətinin batilliyinə? Əgər Əbu Bəkrin xilafəti haqq idisə, o zaman nə üçün haqq və həqiqət cövhəri olan və Peyğəmbərin də haqqında: «O haqq ilə, haqq da onunladır və haqq daima onunla dönər» buyurduğu həzrət Əli ona beyət etmədi və əksinə onlara qarşı müxalifət belə etdi?

Səqifə günü onların tələskənliyi, həqiqətən çox qəribə və təəccüblüdür. Hər bir mühəqqiq o günə qarşı pis fikirdədir. Əgər işin içində hiylə və fitnə yox idisi, nəyə görə Peyğəmbərin (s) də buyurduğu kimi, haqla batili bir-birindən ayırd edən Əlinin (ə) səhabənin qabaqcıllarının, bəni-Haşimin, xüsusilə Peyğəmbərin əmisi Abbasın ümuma aid olan xilafət kimi ciddi, əhəmiyyətlti məsələdə bir yerə toplanıb nəzər və fikirlərini bildirmələri üçün bir neçə saat səbir etmədilər?»

**Hafiz**: «İşin içində hiylə və siyasətin olmadığı hamıya aydındır. Ancaq hər hansı bir təhlükənin meydana kəlmə eitimalı var idi. Bu səbəbdən İslamı qorumaq məqsədi ilə xəlifənin təyin olunması tezləşdirildi».

**Dəvətçi**: «Yəni Əbu Ubeydə Cərrahın (Məkkənin əvvəlki qəbirqazanı) və ya digərlərinin həzrət Peyğəmbərin (s) əmisindən, öz canını din yoluna həsr edən həzrət Əlidən (ə) və ya səhabənin digərləri və bəni-Haşimdən daha çox İslamı düşündüklərini söyləmək istəyirsiniz?! Əgər orada danışdıqları qədər səbir etsəydilər və ya Əbu Bəkr və Ömər məclisdə danışıb onların başını qatsaydı, Əbu Ubeydə və ya başqa birisini həzrət Əlini və Abbası çağırmağ və İslamın təhlükədə olduğunu onlara bildirmək üçün göndərib, o iki mühüm şəxsiyyətin gəlməsi üçün bir az səbir etsəydilər nə ola bilərdi ki? İslamın aradan getməsinə səbəb olan bir fitnə-fəsadmı qopacaqdı? İnsaflı olun, əgər bir az səbir edib ən azından bəni-Haşim və səhabələrin qabaqcılları olan Abbas və həzrət Əlinin Səqifəyə gəlmələri üçün xəbər göndərsəydilər, o üç nəfər haqq olduğu təqdirdə güç qazanacaqdılar. Belə olduqda, İslamda «ixtilaf» kəlməsi doğmazdı; 1335 ildən sonra bu gecə

müsəlman, din qardaşı olan biz və sizlər bu məclisdə bir-birimizə qarşı çıxmazdıq. Əksinə güçümüzü bir yerə toplayaraq İslamın əsl düşmənləriylə savaşardıq. İslamın başına nə gəldisə, o gündən gəldi! Siz də təsdiq edin; bax bu ixtilaf o üç nəfərin gizli hədəf və məqsədlərinə yetişmək üçün tələsgənliklərindən ortaya çıxmışdır».

**Nəvvab**: «Qibləsahib! Tələsib məsçid əhli və Peyğəmbərin Əhli-beytinə xəbər verməmələrinin səbəbi nə idi?»

**Dəvətçi**: «Bunu qəti bilin ki, tələsmələrinin səbəbi bu idi: əgər bütün müsəlmanların və ya ən azından Usamə ibn Zeydin ordusundan olan sərkərdələrin Mədinədə olan səhabə ilə bəni-Haşimin böyüklərinin oraya gəlmələri və məşvərətə qatılmaları üçün səbir etsəydilər, o yığıncaqda xəlifəliyə irəli sürülən namizədlərin arasında həzrət Əlinin (ə) də adı zikr olunacaqdı. Əgər həzrət Əlinin və ya Abbasın adı o toplantıda xatırlansaydı, haqq və həqiqət tərəfdarları əldə olan açıq dəlillərlə onları siyasət meydanından atacaqdılar. Bax buna görə, bəni-Haşim və səhabənin qabaqcılları Peyğəmbərin (s) qüsl, kəfən və dəfn işləriylə məşğul ikən, onlar öz işlərini görmək və Əbu Bəkri iki nəfərin icmasıyla xəlifə təyin etmək üçün tələsdilər və elə bu səbəbdən də fitnələrinə nail oldular. Sizlər də bu gecə durub belə bir işə «müsəlmanların icması» adını verirsiniz. Buna görə də sizin Təbəri və İbn Əbil-hədid kimi böyük alimləriniz və başqaları Ömərin belə dediyini yazmışlar: «Əbu Bəkrin xilafəti çox tez bir anda gerçəkləşdi. Allah onun işinə xeyir versin».

## ÖMƏRİN «NÜBUVVƏT VƏ SƏLTƏNƏT BİR AİLƏYƏ MƏNSUB OLA BİLMƏZ» SÖZÜNÜN CAVABI

Ömərin «Nübuvvət və səltənət bir ailənin əlində cəmlənə bilməz» sözünə əsaslanmağınıza gəlincə; bu fikir «Nisa» surəsinin 54-cü ayəsində rədd edilmişdir: «Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar? Halbuki Biz, İbrahim övladına da Kitab və hikmət vermişdik və onlara böyük bir mülk (səltənət) də bəxş etmişdik».

Bu ayənin hökmünə görə dəliliniz keçərsizdir. Əminliklə deyə bilərəm ki, bu hədis zəifdir, hətta xəlifə Ömərə istinad edilmiş uydurma hədislərdəndir. Çünki Rəsulallah (s), əsla Qurana zidd bir söz buyurmaz! Beləcə, bu ayə nübuvvət və səltənətin bir yerdə ola biləcəyinə ən möhkəm bir dəlildir.

Ali-İbrahim və başqalarında bu iki xüsusiyyət bir yerdə cəm olmuşdur. Bundan əlavə, xilafət məqamı nübuvvətin bir hissəsi, hətta o məqamın davamıdır. Qəsd etdiyiniz mənada bir əldə cəm olan sultanlıq və padşahlıq deyildir. Əgər həzrət Musanın (ə) qardaşı həzrət Harun (ə), Musanın xilafət məqamından uzaq idisə, Həzrət Əli (ə) də Xatəmul-ənbiyanin (s) xilafət məqamından uzaq olmalıdır. Quranın hökmü ilə nübuvvət və xilafət həzrət Musa və Harunda bir yerdə olduğuna görə, keçən gecələr də ərz etdiyim Mənzilət hədisindən də Məhəmməd (s) və Əli (ə) də bir yerdə olmuşdur. Söylədiyiniz hədis Əməvilərin uydurduqları saxta sözlərdir və heç bir baxımdan qəbul edilə bilməz. Əgər nübuvvət və xilafət (xəlifə Ömərə görə səltənət) bir ailəyə mənsub ola bilməzsə, o zaman nəyə görə xəlifə Ömər həmin diktatorluq şurasında həzrət Əlinin xəlifəliyə namizədliyini təklif etdi?! Siz özünüz də həzrət Əlini 4-cü xəlifə olaraq qəbul edirsiniz. Görəsən, fasiləsiz xilafət (uydurulmuş bir hədislə) nübuvvət ilə bir arada ola bilmirsə, fasiləli xilafət onunla bir yerdə ola bilərmi?!

***Göz görür, qulaq eşidir, bu korluq,***
***Allahın göz bağlamasına mat qalıram!***

Üstəlik, Rəsulallah (s) açıq-aydın: «Əlinin getdiyi yolla gedin; başqalarının yolu ilə yox!»,-deyə buyurub.

Deyirsiniz ki, nübuvvət və səltənət bir ailənin əlində cəm ola bilməz. Halbuki, Rəsulallah (s), əvvəlki gecələrdə sənədləri ilə hüzurunuza ərz etdiyim və hər iki tərəfin qəbul etdiyi Səqəleyn hədisinə görə Əhli-beytinə (ə) itaət edilməsini ümmətə vacib və onlara müxalifət etməyi isə azğınlıq olaraq bəyan etmişdir. Peyğəmbəri-əkrəm dəfələrlə belə buyurmuşdur: «Sizin aranızda iki dəyərli əmanət qoyuram: Allahın Kitabı və itrətim olan Əhli-beytimi. Bunlara bağlandığınız

müddətdə, əsla azğınlığa düşməzsiniz». Necə ki, həzrət Nuhun (ə) dövründəki tufan hadisəsində onun əmriylə gəmiyə minənlər xilas, minməyənlər isə həlak oldu; hətta oğlu belə. Xatəmul-ənbiya da Onları Nuhun gəmisi mislində tanıtmışdı. Bununla Rəsulallah Əhli-beytinin ümmətin içində bütün ixtilaflı məsələlərdə düzgün mövqe tutduğunu, müsəlmanların xilas olmaları üçün Ali-Məhəmmədin əql, fikir, elm, zahir və batinlərindən istifadə etmələrinin onlara daha xeyirli olduğunu bildirmək istəyirdi. Peyğəmbər bu bənzətmə ilə həzrət Nuhun gəmisinə minməyənlərin necə həlak olduğunu xatırladaraq, Əhli-beytə bağlanmayanların da eləcə həlak olacaqlarını buyurdu.

Bu mövzuya daha əvvəl də geniş şəkildə toxunmuşduq. Bunun kimi açıq-aydın dəlillərin müqabilində bu ümmətin qarşılaşdıqları hadisələr və ixtilaflı məsələlərdə Əhli-beytin (ə) nəzər və fikirlərindən istifadə etmələri lazımdır.

Əmirəl-möminin imam Əli bir qrup şəxsi xüsusiyyətləri və həzrət Peyğəmbərin haqqında təkidlə buyurduğu sözlərinə əlavə olaraq O, Əhli-beytinin ən kamil və üstün bir şəxsidir. Belə isə nə səbəbdən Onun doğru nəzər və fikirlərindən faydalanmaları və yardım almaları üçün bir saat belə gözləmədilər. Bu işin içində bir sirr olmasaydı, elm əhli, əqa və fikir sahibləri çaşıb qalmazdılar. Hər kəs ədalətlə hökm verə bilsə, həqiqətin dərinliklərinə yetişər keçmişdəkilərin kor-koranə getdikləri yolu getməz və siyasi oyunları anlayar, Əbu Bəkri tələm-tələsik xilafət kürsüsünə gətirib imam Əlini sabit olan haqqından uzaqlaşdıranları tanıyar.

**Şeyx**: «Hansı dəlilə görə təkcə Əli ibn Əbu Talibə itaət edilməsinin vacib olduğunu, səhabənin fikir və icmasının isə üzərinə xətt çəkilməsini buyurursunuz?»

## XİLAFƏTƏ TƏYİN OLUNMA HAQQINDA HƏQİQƏTLƏRİN BƏYANI

**Dəvətçi**: «Birincisi; səhabənin nəzər və icmasının möhtərəm olmadığını ərz etmədik. Aramızdakı fərq budur ki, siz səhabə adıyla hər hansı bir kəslə

qarşılaşdıqda, ikinci xəlifənin şallaqladığı və «yalançı» adlandırdığı Əbu Hureyrə olsa belə, qeydsiz-şərtsiz onun qarşısında olursunuz. Amma biz belç deyilik; biz səhabədən, Rəsulallahla (s) həqiqi səhabəlik şərtlərini yerinə yetirən, ömrünün sonuna qədər Allah və Rəsulunun (s) əmrinə itaət edən, həvaye-nəfsinə uymayan bir səhabəyə əhəmiyyət verib, onun ayaqlarını gözümüzün üzərinə qoyuruq.

İkincisi; dəlillərlə sizə sübut etdik ki, beyət günu Səqifədə Əbu Bəkrin xilafəti üçün hər hansı bir icma gerçəkləşməmiş və ümmətin icmasıyla da Əbu Bəkr xilafətə təyin edilməmişdir. Əgər Dəvətçinin (özünü nəzərədə tutur) sözlərinə doğru-dürüst bir cavabınız varsa, buyurun məclisdə iştirak edən ağalar hökm versinlər, mən də səhabənin icması qarşısında boyun əyim. Əgər siz öz kitablarınızda, bütün ümmətin və ya azından sizə görə ümmətin qabaqcıllarının Səqifədə toplanaraq hamı eyni rəydə Əbu Bəkri xəlifə təyin etdiklərini göstərə bilsəniz, biz də qəbul edərik. Amma əgər Ömər, Əbu Ubeydə və Övs qəbiləsindən (Xəzrəc ilə aralarında olan köhnə ədavətə görə) bir qrup şəxslərdən başqa Əbu Bəkrə beyət etmədiklərini görsəniz, o zaman bizim doğru yolda olduğumuzu təsdiq edin.

Üçüncüsü; sözünüzü tənqid edərək deyirik ki, hətta dünyanın bütün ağıllılarını hökm vermələri üçün çağırıb onlardan, «görəsən səhabədən olan üç nəfər bir-birlərinə iltifat göstərərək aralarından birini seçib ümmətin taleyini həll etməyə və zorla, təhdidlə, xəyanət etməklə, qorxutmaqla xalqı öz planlarına təslim olmağa məcbur etməyə haqları var idimi?!» soruşsaq, verəcəkləri cavab aydındır. Yenə təkrarən ərz edirəm ki, bizim iradımız bundadır ki, o gün o 3 nəfər (Ömər, Əbu Bəkr, Əbu Ubeydə) Səqifəyə getdikləri zaman xilafətdən söhbət getdiyini gördükdə nəyə görə Rəsulallahın (s) evində dəfn-kəfən işləriylə məşğul olan və Usamənin ordusunda olan əshabın böyük şəxsiyyətləri və qabaqcıllarını çağırıb, onların nəzər və fikirlərindən yararlanmadılar?»

**Şeyx**: «Biz də deyirik: bir qəflət olmuş və ya olmamış, biz orada yox idik ki, onların müşküllərinin nə olduğunu biləк. Amma indi o görülən bir işlə qarşı-qarşıya qalmışıq; icma zaman keçdikcə yavaş-yavaş təşəkkül tapsa da, onun

əleyhinə çıxmamalıyıq. Hətta ektiram göstərərək, onların getdiyi yolu getməyimiz lazımdır».

**Dəvətçi**: «Nə gözəl istidlal edirsiniz... Afərin belə uca bir fikir və inancınıza! Müqəddəs İslam dininin kor-koranə bir din olduğunu söyləmək istəyirsinizmi?! İslam dini, hər harada olursa-olsun, bir neçə nəfər yığışıb bir qərar qəbul edirsə və bir neçə nəfər də onların başına toplanırsa, digər müsəlmanların bu baş verənləri kor-koranə qəbul etmələrinimi əmr edir? Bu pak xatəmiyyət dininin mənası budurmu? İslam dini «Zümər» surəsinin 19-cu ayəsində belə buyurur: «**Elə isə sözü dinləyib (araşdıraraq) ən gözəlinə tabe olan qullarımı mücdələ**».

Bax, İslam dini təhqiq və araşdırmanı əmr edən bir dindir; Əbu Ubeydə Cərrah kimi bir kəsi kor-koranə təqlid etməyi əmr edən bir din deyildir! Rəsulallah (s) özü bizə yol göstərmişdir; ümmət iki dəstəyə bölündükdə, qurtuluşa çata bilməyimiz üçün hansı tərəfdə olmağımızı bizə açıqlamışdır. «Hansı dəlilə görə Əmirəl-möminin həzrət Əliyə (ə) itaətimiz lazımdır?» deyə soruşsanız, Quranın ayələri və etibarlı kitablarınızda yer alan sağlam hədislərdə cavabı vardır.

Hər hansı bir hadisə baş verdikdə və ya ixtilaf düşdükdə, həzrət Əliyə (ə) itaət etməyin vacibliyini bildirən dəlillərdən biri də Əmmar Yasərin rəvayətidir. Böyük alimlərinizdən Hafiz Əbu Nəim İsfahani «Hilyə»də, Məhəmməd ibn Təlhə Şafii «Mətalibus-süul»da, Bilazəri «Tarix»də və Şeyx Süleyman Bəlxi Hənəfi[1] Həmuyinidən, Mirseyid Əli Həmədani Şafii «Məvəddətul-qurba» 5-ci məvəddədə, Deyləmi «Firdovs»da və digər etibarlı qaynaqlarınızda Əbu Əyyub Ənsaridən uzun bir hədis nəql etmişlər. Məclisin vaxtı qısa olduğuna görə hamısını nəql edə bilməyəcəyəm. Hədisin xülasəsi belədir: Əbu Əyyubdan etiraz edilərək «Nəyə görə Əlinin tərəfində oldun, Əbu Bəkrə beyət etmədin?»,-deyə soruşulduqda o, cavabında belə dedi: «Bir gün Rəsulallahın (s) hüzurunda idim. Əmmar Yasər gəlib, həzrətdən bəzi şeylər soruşdu. Peyğəmbər söhbət əsnasında buyurdu: «Ya Əmmar! Əgər bütün insanlar bir yoldan getsə və Əli də başqa bir yolu seçsə, sən Əlinin getdiyi yolu seç, digərlərin getdiyi yolu burax. Ya Əmmar! Əli səni

---

[1] "Yənabiul-məvəddə", bab: 43.

hidayətdən uzaqlaşdırmaz, zəlalətə salmaz. Ey Əmmar! Əliyə itaət mənə itaətdir. Mənə itaət isə Allaha itaətdir».

Görəsən, etibarlı kitablarınızda bu cür nəql edilən səhih hədislər və həzrət Əlinin (ə) də Əbu Bəkrin xilafətinə açıq-aydın müxalifət etməsinə baxmayaraq, bəni-haşim, bəni-Üməyyə ənsar və mühacirlərin qabaqcıllarının Onunla olmadığı düşünülsə belə (halbuki Onunla birlikdə idilər) Əlinin yolunu buraxıb, başqa birinin sözünə itaət doğrudurmu? Görəsən, imam Əlinin fikrini bilmək üçün Onun kəlməsini gözləmələri lazım deyildimi?»

(Bu vaxt işa namazı üçün azan oxundu. Ağalar durub namazlarını qıldılar. Qısa bir fasilədə çay içildikdən sonra Hafiz ağa sözə başladı.)

**Hafiz**: «Söhbətlərinizdə iki qəribə söz istifadə etdiniz. Birincisi; «qəbirqazan Əbu Ubeydə» deyirsiniz. Bu möhtərəm şəxsin qəbirqazan olduğu sizə haradan məlumdur?

İkincisi; dediniz ki, «Əli, haşimilər və əscabdan bə zisi beyᶜət etmədi; hətta müxalifət belə etdilər». Halbuki bütün mühəddis və tarixçilər onların hamısının beyət etdiklərini yazmışlar».

**Dəvətçi**: «Belə anlaşılır ki, kitablarınızı dərindən, diqqətlə araşdırmamısınız.

Əvvəla; Əbu Ubeydəyə «qəbirqazan» biz deməmişik; bunu kitablarınız da qeyd etmişlər. İbn Kəsir Şami «əl-Bidayətu Vən-Nihayə» kitabının 5-ci cildinin 266-cı səhifəsində «Rəsulallahın (s) dəfni» babında belə yazmışdır: «Əbu Ubeydə Cərrah qəbirləri məkkəlilər kimi qazırdı. İbn Abbas, Rəsulallaha (s) qəbir qazmaları üçün bir nəfərə göstəriş verdi, başqa birisini də Mədinənin qəbirqazanı olan Əbu Təlhənin arxasınca göndərdi».

İkincisi; «Əli, bəni-haşim və əshabın hamısı beyət etdilər» sözünüzə gəlincə, bəli, siz təkcə «beyət etdilər» kəlməsini oxuyub keçirsiniz; amma o beyətin həqiqəti haqqında, «nə zaman və necə beyət etdilər?», - deyə düşünmürsünüz. Bütün böyük mühəddis və tarixçiləriniz yazmışlar ki, Əli (ə) və bəni-Haşim zahirdə beyət etmişdilər, amma altı aydan, o da zorla, ölümlə təhdiddən və bir sıra məhrumiyyət və məcburiyyətdən sonra».

**Hafiz**: «Sizin kimi şərif bir insanın avam şiənin inandığı və söylədiyi sözü ağzına alıb deməsi, həqiqətən, qəribədir. Şiənin cahilləri: «həzrət Əlini zor və təhdidlə beyət üçün apardılar», - deyirlər. Halbuki, O cənab, Əbu Bəkrin xilafətinin ilk günlərində onun xilafətinə istək və rəğbətlə təslim olmuşdu».

## HƏZRƏT ƏLİ (Ə) VƏ BƏNİ-HAŞİMİN BEYƏTİ ALTI AYDAN SONRA TƏHDİDLƏ BAŞ VERDİ

**Dəvətçi**: «Əli (ə) və haşimilərin elə ilk gündən beyət etdiyini söylədiniz. Hesab edirəm, bu iddianız məlumatsızlıqdan qaynaqlanır. Çunki tarixçilərinizin ümumi həzrət Əlinin Peyğəmbəri-əkrəmin (s) əziz qızı Fatimeyi-Zəhranın (s.ə) vəfatından sonra beyət etdiyini yazırlar. Bu səbəbdən Buxari «Səhih»in 3-cü cildinin 37-ci səhifəsində - «Xeybər döyüşü» babında və Müslim ibn Həccac «Səhih»in 5-ci cildinin 154-cü səhifəsində - «Qovlun-Nəbi la nuvərrisu» babında belə nəql edir: «Həzrət Əli Fatimənin vəfatından sonra beyət etdi».

Abdullah ibn Müslim ibn Quteybə Deynəvəri (ö/t: 276-cı il) «Əl-İmamətu vəs-siyasət» kitabının 14-cü səhifəsinin sonunda belə deyir: «Həzrət Fatimə vəfat etməyənə qədər həzrət Əli beyət etmədi».

Ancaq sizin İbn Quteybə kimi bəzi alimləriniz həzrət Fatimənin (s.ə) Rəsulallahın (s) vəfatından 75 gün sonra vəfat etdiyi fikrindədir. Amma tarixçilərinizin ümumi həzrət Fatimənin vəfatının Rəsulallahın vəfatından 6 ay sonra olduğunu bildirirlər. Son nəticə olaraq məlum olur k, həzrət Əli və haşimilər 6 ay sonra beyət etmişlər. Bu səbəbdən Məsudi «Murucuz-zəhəb» kitabının 1-ci cildinin 414-cü səhifəsində belə demişdir: «Fatimə həyatda olduğu müddətdə haşimilərdən heç kim beyət etmədi».

Hər iki tərəfin mötəbər alimlərindən olan İbrahim ibn Səd Səqəfi Zuhəridən belə rəvayət edir: «Əli ibn Əbu Talib 6 aydan sonra beyət etdi; həzrət Fatimə həyatda olduğu müddətdə həzrət Əlini beyət etdirməyə cəsarət etmədilər». İbn Əbil-hədid də «Nəhcül-bəlağənin şərhi»ndə eyni sözü yazmışdır.

Xülasə, böyük alimləriniz öz mötəbər kitablarında həzrət Əlinin əvvəlcədən beyət etmədiyini, əksinə uzun bir müddət keçdikdən sonra bəzi səbəblərə görə məcburən beyət etdiyini nəql etmişlər.

İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»nin 2-ci cildinin 18-ci səhifəsində Zuhəri vəsitəsilə Aişənin belə dediyini nəql etmişdir: «Əli 6 ay ərzində beyət etmədi; O, beyət etmədiyi müddətdə bəni-Haşimdən də heç kim beyət etmədi».

Kufəli Əhməd ibn Əsəm Şafei «Futuh»da, Əbu Nasir Həmidi «Cəmun beynəs-səhihəyn»də Nafidən, o da Zuhəridən Həzrət Əlinin (ə) 6 ay ərzində beyət etmədiyini nəql etmişdir.

«Şiənin avam xalqının inandığı və söylədiyi sözləri deyirsiniz» iddianıza gəlincə; bu ifadəmə görə üzr istəyirəm, siz heç məsələni anlaya bilməmisiniz! Bunlar avamın inancı deyil, alimin və mühəqqiqin inancıdır. Bu məsələlər kitablarınızda olduğu halda bizi niyə ittiham edirsiniz?! Allaha and olsun ki, hər qövmin alimləri avam xalqı aldatdığına görə məhsuliyyət daşıyır. Sizin bu cür danışmağınızdan, onlar elə zənn edirlər ki, guya bu sözləri biz uydurmuşuq; halbuki, bu sözləri böyük alimləriniz söyləmişlər».

**Hafiz**: «Alimlərimiz nə vaxt, harada; «Əlini zorla, sürükləyərək beyət etməyə məscidə apardılar, evinin qapısını yandırdılar» demişlər? Bu cür sözlər, şiələrin dilində məşhurdur, məclislərində təəssüflə nəql edirlər; «Fatiməni incitdilər, uşağını saldılar»-deyərək, hissləri təhrik edirlər».

**Dəvətçi**: «Möhtərəm ağalar, ya həqiqətən mütaliəniz çox azdır, ya da bilərək və sələfinizə bağlanıb, zavallı və məzlum şiələri öz avam millətinizin yanında ittiham edib, bu cümlələrlə sələfinizi təmizə çıxarmağa çalışırsınız. Bax, buna görə «Bu sözləri şiələr uydurmuşdur»-deyir və yazırsınız. Halbuki, vəziyyət belə deyildir. Daha əvvəl də ərz etdim ki, bu tarixi hadisələri təkcə şiələr nəql etməmişlər; sizin böyük və insaflı alimləriniz də yazmışlar. Amma bəziləri təəssüblərinə görə nəql etməkdən çəkinmişlər. Əgər istəyirsinizsə, günahsız olduğumuzu və tarixin söylədiklərindən başqa bir şey söyləmədiyimizi isbat etmək üçün məclisin vaxtı imkan verdiyi qədərilə etibarlı alimlərinizdən gələn bir neçə rəvayəti nəql edim».

**Hafiz**: «Buyurun, dinləməyə hazırıq».

## HƏZRƏT ƏLİNİ (Ə) QILINC GÜCÜNƏ MƏSCİDƏ APARDIQLARINA DAİR ON İKİ DƏLİL

**Dəvətçi**: «Sizin məhşur və etibarlı mühəddis və tarixçilərinizin əksəriyyəti öz mötəbər kitablarında bu barədə qeyd etmişlər:

1. Əbu Cəfər Bilazəri (Əhməd ibn Yəhya ibn Cabiri-Bağdadi, ö/t:279-cu il) «Tarix» kitabında belə nəql etmişdir: «Əbu Bəkr həzrət Əlini beyət üçün çağırdı, amma o, qəbul etmədi. Öməri göndərdi, o da evi yandırmaq üçün od gətirdi. Həzrət Fatimə (s.ə) qapıda onu gördükdə buyurdu: «Ey Xəttabın oğlu! Evimi yandırmaq üçün gəlmisən?!» Ömər; «Bəli! Bu iş, (xilafət) atanın gətirdiyindən (risalətdən) daha əhəmiyyətlidir»,-deyə cavab verdi.

2. İzzəddin ibn Əbil-hədid Mötəzili və Məhəmməd ibn Cərir Təbəri belə nəql etmişdir: «Ömər, Useyd ibn Xüzeyr, Sələmə ibn Əsləm və bir qrup insanla Əlinin qapısına gəldi. Ömər: «Çölə çıxın! Çıxmayacağınız təqdirdə evinizi yandıracağam»,-deyə qışqırdı».

3. İbn Xuzabə «Ğurər» adlı kitabında Zeyd ibn Əsləmin belə dediyini rəvayət edir: «Mən, odun toplayıb Ömərlə Fatimənin qapısına gedənlərdən biriyəm. Əli və əshabı beyət etməkdən çəkinmişdilər. Ömər Fatiməyə dedi: «Bu evdə kim varsa bayıra çıxsın! Əks təqdirdə, evi və evdə olanları yandıracağam». Evdə Əli, oğlu Həsən və Hüseyn, Fatimə (ə), bəni-Haşim və əshab da var idi.

Fatimə dedi: «Evi və uşaqları yandırmaq istəyirsən?». Ömər: «Bəli, Allaha and olsun ki, bayıra çıxıb Peyğəmbərin xəlifəsinə beyət etmələri üçün bu işi edəcəyəm».

4. İbn Əbdurəbbih «Əqdul-fərid» kitabının 3-cü cildinin 63-cü səhifəsində belə yazır: «Əli və Abbas Fatimənin evində oturmuşdular. Əbu Bəkr Ömərə dedi: «Get, onları beyət etmək üçün buraya gətir. Gəlməsələr, onlarla döyüş».

Ömər əlinə od götürüb, evi yandırmağa getdi. Fatimə qapıya gələrək belə dedi: «Ey Xəttabın oğlu! Evimizi yandırmaq üçün gəlmisən?!». Ömər: «Bəli!...»- dedi.

5. İbn Əbil-hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi»nin 1-ci cildinin 134-cü səhifəsində «Səqifeyi-Cövhəri» kitabından nəql edərək, Səqifeyi-bəni-Saidə Hadisəsini geniş şəkildə nəql etmişdir: «Haşimilər Əlinin evində toplaşmışdılar. Zübeyr də onlarla bərabər idi; çünki özünü haşimilərdən bilirdi[1].

Ömər bir qrup əsgərlə Fatimənin (ə) evinə getdi. Useyd və Sələmə də onunla birlikdə idilər. Ömər belə dedi: «Çölə cıxın! Beyət edin!». Lakin onlar beyət etməkdən çəkindilər. Zübeyr qılıncını çəkərək bayıra çıxdı. Ömər: «Bu köpəyi tutun!» - dedi. Sələmə ibn Əsləm qılıncı alıb divara vurdu. Bu vaxt Əlini çəkərək, qollarından tutub Əbu Bəkrin yanına apardılar. Haşimilər də o həzrətlə birlikdə gəlib, nə baş verəcəyini izləyirdilər. Əli (ə): «Mən Allahın quluyam, Rəsulallahın qardaşıyam», - deyirdi. Amma heç kim əhəmiyyət vermədi.

Nəhayət, Onu Əbu Bəkrin yanına gətirdilər. Əbu Bəkr: «Beyət et!»-dedikdə, həzrət Əli cavabında belə buyurdu: «Mən bu məqama daha layiqəm, sizə beyət etmirəm; sizin mənə beyət etməyiniz lazımdır. «Rəsulallaha (s) daha yaxınıq», - deyərək xilafəti ənsarın əlindən qopartdınız. Eyni dəlillə mən də sizə müraciət edirəm. Bu halda insaflı olun; necə ki, ənsar sizə qarşı insaflı davrandı. Allahdan qorxun, haqqımızı etiraf edin. Əgər belə etməsəniz, bilin ki, mənə zülm etmiş olarsınız».

Bu əsnada Ömər: «Beyət etməsən səni buraxmayacayıq»-dedi. həzrət Əli də cavabında belə buyurdu: «Bir-birinizlə yaxşı anlaşmısınız! Bu gün onun üçün çalışırsan ki, sabah o, bu məqamı sənə ötürsün. Allaha and olsun ki, sənin sözünü qəbul edərək ona beyət etməyəcəyəm».

Sonra üzünü xalqa çevirərək belə buyurdu: «Ey mühacirlər! Allahdan qorxun! Allahın Məhəmməd ailəsinə verdiyi hakimiyyəti onlardan almayın; onları öz haqq və məqamlarından uzaqlaşdırmayın. Aranızda Allahın kitabını və Rəsulallahın sünnətini bizdən daha yaxşı bilən və dini tam mənasıyla qavrayan bir kəs yoxdur.

---

[1] Həzrət Əli (ə) buyurmuşdur: "Zübeyr həmişə bizimlə idi. Ancaq uşaqları böyüdükdən sonra onu bizdən ayırdılar".

Allaha and olsun ki, bunların hamısı bizdədir. Elə isə, nəfsinizə uyaraq, haqdan uzaqlaşmayın».

Həzrət Əli beyət etmədən evinə qayıtdı. Həzrət Fatimə həyatda olduğu müddət ərzində evində oturub, beyət etmədi. Amma onun vəfatından sonra beyət etmək məcburiyyətində qaldı».

6.Uzun illər Deynavərdə rəsmən qazılıq etmiş və hicri 276-cı ildə vəfat edən Əbu Məhəmməd ibn Müslim ibn Quteybə ibn Əmr Bahili Deynəvəri «Tarixi-Xulafayi-Raşidin və dövləti-Əməvi»[1] kitabının 1-ci cildinin 13-cü səhifəsində Səqifə hədisini geniş açıqlayaraq, mövzuya bu təbirlə başlayır: «Əbu Bəkr əshabdan bir qrupun beyət etmədiyini və Əlinin (ə) evində toplaşdıqlarını öyrəndikdə, Ömərdən onların beyət etmələri üçün evdən çölə çıxartmasını istədi. Amma onlar çölə çıxmaqdan imtina etdilər.

Ömər onların bu hərəkətini gördükdə odun toplatdırıb belə dedi: «Ömərin canı əlində olan Allaha and olsun ki, ya bayıra çıxacaqsınız, ya da evi içindəkilərlə birlikdə yandıracağam». Camaat: «Ey Əba Həfs (Ömərin günyəsi)! Rəsulallahın qızı Fatimə də bu evdədir!»,-deyə etiraz etdilər. Ömər: «O, olsa da belə! Evi yandıracağam!»-dedi. Bu vaxt evdəkilər bayıra çıxıb, beyət etdilər. Amma həzrət Əli beyət etməkdən çəkinərək dedi: «Mən Quranı toplayıb qurtarmayınca çölə çıxmayacağam! Bayırlıq libasımı geyməyəcəyimə dair and içmişəm». Ömər yenə də qəbul etmədi. Ancaq həzrət Fatimənin ağlaması, xalqın da qınaması ilə Ömər Əbu Bəkrin yanına dönüb, həzrət Əlidən beyət alması üçün Onu təhrik etdi. Əbu Bəkr bir neçə dəfə Qunfuzu Əlinin qapısına göndərdi. Amma hər dəfə «yox!» cavabı aldı.

Sonda Ömər bir qrup əsgərlə birlikdə həzrət Fatimənin evinə gəlib, qapını döydü. həzrət Fatimə onların səsini eşitcək, uca səslə belə fəryad etdi: «Atacan! Ya Rəsulallah! Səndən sonra Ömər ibn Xəttab və Əbu Bəkr ibn Əbu Quhafədən nələr çəkdik!»

Camaat Fatimənin (s.ə) fəryadını eşidcək geri döndü. Amma Ömər bir neçə əsgərlə qaldı və onlar zorla həzrət Əlini Əbu Bəkrin yanına apardılar. «Tez ol, Əbu

[1] "Əl-İmamətu vəs-siyasət" adıyla məşhurdur.

Bəkrə beyət et!»-dedilər. həzrət Əli: «Beyət etməsəm nə edəcəksiniz?» buyurduqda, dedilər: «Bu halda Allaha and olsun ki, boynunu vurarıq». Həzrət Əli buyurdu: «Allahın qulu və Rəsulallahın qardaşını öldürəcəksiniz?!». Ömər dedi: «Sən Rəsulallahın (s) qardaşı deyilsən!»

Əbu Bəkr onun bu sözləri qarşısında sakit durub heç bir şey söyləmədi. Ömər Əbu Bəkrə tərəf dönərək dedi: «Bütün bu işləri sənin əmrinlə etmirikmi?» Əbu Bəkr də: «Fatimə həyatda olduğu müddətdə onu məcbur edə bilmərik»-dedi.

Həzrət Əli Rəsulallahın qəbrinin üstünə gələrək, gözüyaşlı halda Harunun qardaşı Musaya dediklərini həzrət Peyğəmbərə ərz etdi. Allah-təala Quranda Harunun Musaya belə dediyini nəql etmişdir: «**Anam oğlu, bu camaat məni zəiflətdi, az qala məni öldürəcəkdilər**»[1].

Deynəvəri hadisəni geniş şəkildə rəvayət etdikdən sonra belə deyir: «Həzrət Əli beyət etməyərək, evinə qayıtdı. Sonra Əbu Bəkr və Ömər həzrət Fatimənin razılığını əldə etmək üçün onun evinə gəldilər. Fatimə onlara belə buyurdu: «Allah şahid olsun ki, sizin ikiniz də məni incitdiniz. Atama qovuşana qədər hər namazda sizə bəd dua edəcəyəm; sizdən atama şikayət edəcəyəm».

## İNSAFLA HÖKM VERMƏK LAZIMDIR

Allah xatirinə ağalar, insaflı olun; görəsən, icmanın mənası budur? Rəsulallahın (s) əshabını zorla, qorxutmaqla, ölümlə hədələyərək və evi yandırmaqla beyət etməyə aparıb, adını icma qoymaları doğrudurmu?!

İnsaflı ağalar bir az diqqət edib, adətlərini kənara qoysalar görəcəklər ki, o günün siyasəti eynən bu günün siyasəti kimidir. Bu cür hadisələrin oxşarını çox görmüşük; bir qrup adam birinin ətrafına toplaşaraq hay-hüylə, gurultulu çıxışlarla onu yuxarı başa gətirib və sonra da «xalq onu bu məqama seçdi» deyiblər. Bax, o gün də bir neçə siyasətçi bir araya gələrək bir nəfəri seçdilər; sonra da digərlərini zorla, qorxutmaqla, evlərini yandırmaqla və qılınc gücünə beyətə məcbur etdilər.

[1] "Əraf" surəsi, ayə: 150.

İndi də siz bunun adını icma qoyub, öz haqqaniyyətinizə dəlil sayırsınız! Qəribə olan budur ki, durub bizə də: «kor və kar olun, keçən tarixə baxmayın, araşdırma aparmayın. Hər nə etdilərsə yaxşı etdilər. Kor-koranə təsdiq edin ki, icma təşkil olunmuş, xilafət icma yoluyla təyin edilmişdir deyin»-deyirsiniz!

Allaha and olsun ki, əgər hadisəyə ədalətlə, diqqətlə baxsanız, onların əməllərinin siyasi oyun olduğunu təsdiq edərsiniz. Amma şiə camaatı Rəsulallahın (s) əmri istiqamətində hərəkət edərək, o həzrətin Əhli-beytinin (ə) ətrafında toplanmışdır; Peyğəmbəri-əkrəm «Quran və Əhli-beytimə sarılın» buyurduğuna görə onlardan ayrılmamış, başqalarına deyil, təkcə onlara itaət etmişlər!

7.ƏHMƏD ibn Əbdul-əziz Cövhəri «Səqifə» kitabında Əbul-Əsvədə istinadən belə demişdir: «Əshab və mühacirlərdən bir qrup Əbu Bəkrin beyəti xüsusunda onlarla məsləhətləşmədiklərinə görə əsəbiləşib, beyət etmədilər. Əli və Zübeyr də əsəbiləşərək beyət etməyib Fatimənin evinə getdilər. Bu vaxt Ömər, Useyd ibn Xuzeyr, Sələmə ibn Sələmə (hər ikisi də bəni-Əbdul-Əşhəl qəbiləsindəndir) və bir qrup camaatla birlikdə Fatimənin evinə hücum etdi. Fatimə hər nə qədər ağladı, sızladı və rica etdisə də, fayda vermədi. Əli ilə Zübeyrin qılınclarını aldılar. Qılınclarını divara vurub qırdılar və zorla onları Məscidi-Nəbiyə beyət etməyə apardılar!»[1]

8.Cövhəri Sələmə ibn Əbdür-Rəhmandan rəvayət etmişdir: «Əbu Bəkr minbərdə oturduqda, Əli, Zübeyr və haşimilərdən bir qrup şəxsin Fatimənin evində toplandığını eşitdi. Bundan sonra Öməri onların gətirməsi üçün göndərdi. O, Fatimənin evinin qapısına gəlib: «Çölə çıxın, əks təqdirdə Allaha and olsun ki, evi sizinlə birlikdə yandıracağam»-dedi».

9.İbn Əbil-hədidin «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 19-cu səhifəsində yazdığına görə Cövhəri, Şəbiyə istinad edərək, belə nəql etmişdir: «Əbu Bəkr, haşimilərin Əlinin evində toplandıqlarını öyrəndikdə Ömərdən: «Xalid haradadır?»,-deyə soruşdu. Ömər də: «Buradadır»-dedi. Əbu Bəkr dedi: «Elə isə gedin, Əli və Zübeyri beyət etmələri üçün çölə çıxarın».

---

[1] İbn Əbil-Hədid onun haqqında belə demişdir: "O, alim, mühəddis, ədəbiyyatçı, etibarlı, təqvalı, alimlərin çox təriflədiyi və öz əsərlərində ondan hədis nəql etdikləri bir şəxsdir". "Nəhcül-bəlağənin şərhi" kitabının 2-ci cildinin 49-cu səhifəsində ondan nəql etmişdir.

Ömər və Xalid Fatimənin evinə getdilər. Ömər içəri girdi, Xalid də qapıda gözlədi. Ömər Zübeyrdən «Bu qılınc nədir?», - deyə soruşdu. Zübeyr də cavabında: «Bunu Əliyə beyət etmək üçün hazırlamışam»-dedi. Ömər Zübeyrin qılıncını dartıb əlindən alaraq, daşa vurub qırdı. Sonra Zübeyrin yaxasından tutub çəkərək, bayıra çıxartdı və Xalidə təslim edib, təkrar evə döndü.

Evdə Miqdad və bəni-Haşimdən bir çox adam var idi. Həzrət Əliyə: «Qalx, gedək Əbu Bəkrə beyət et!»-dedi. Həzrət Əli getməkdən imtina etdi. Buna görə də həzrət Əlinin əlindən tutub Onu bayıra çəkdi. O həzrəti də Xalidə təslim etdi. Çöldə Xalidlə birlikdə bir çox əsgər də var idi. Əbu Bəkr onları Ömərə yardım etmələri üçün göndərmişdi.

Nəhayət, Ömər və Xalid həzrət Əlini darta-darta zorla apardılar; camaat da torlaşıb bu hadisəni seyr edirdi. Həzrət Fatimə Ömərin hərəkətlərini gördükdə, yanına təsəli gələn qadınlarla bərabər çölə çıxdı. Fəryad edib, yüksək səslə ağlamağa başladı. Əbu Bəkrin yanına yetişdikdə, ona sərt bir tərzdə belə buyurdu: «Rəsulallahdan sonra onun Əhli-beytinin evinə basqın etdiniz! Allaha and olsun ki, Allaha qovuşanadək Ömərlə danışmayacağam»[1].

Bu səbəbdən Buxari və Müslim «Səhih»lərində belə yazmışlar: «Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənə qədər də onunla danışmadı»[2].

10. Uzun illər Hənəfi məzhəbinin Hələbdə qazisi olan (ö/t: Hicri 815-ci il) Əbu Vəlid Muhibbiddin Məhəmməd ibn Məhəmməd ibn Şəhnə Hhənəfi «Rovzətul-mənazir fi əxbaril-əvaili vəl-əvaxir» adlı kitabında Səqifə hədisində od vurub yandırmaq məsələsini belə açıqlıyır: «Ömər həzrət Əlinin evini və içində olanları yandırmaq üçün gəlmişdi. Həzrət Fatiməylə qarşılaşdıqda dedi: «Ümmətin daxil olduğu şeyə (beyətə) siz də daxil olun...»[3]

11. Təbəri «Tarix» kitabının 2-ci cildinin 443-cü səhifəsində Ziyad ibn Kuleybdən belə nəql edir: «Təlhə, Zübeyr və mühacirlərdən bir qrup həzrət Əlinin evində idilər. Ömər ibn Xəttab gələrək belə dedi: «Beyət üçün bayıra çıxın; əks təqdirdə, hamınızı yandıraçağam».

---

[1] Həzrət Fatimə (s.ə.), həyatda olduğu müddətdə onlarla danışmayaraq, öz andı və əhdinə vəfalı qaldı.
[2] Bu sözlər "Səhihi-Buxari" kitabının 5 və 7-ci cildlərində nəql edilmişdir.
[3] Yəni beyət edənlər kimi, siz də beyət edin.

12. İbn Şəhnə İbn Kəsirin «Kamil» kitabının haşiyəsində (cild: 11,səh: 112) Səqifə hədisini belə yazmışdır: «Bəni-Haşim və əshabdan bəziləri məsələn: Zübeyr, Utbə ibn Əbu Ləhəb, Xalid ibn Səid ibn As, Miqdad ibn Əsvəd Kəndi, Səlman Farsi, Əbuzər Ğəffari, Əmmar ibn Yasir, Bərra ibn Azib, Ubey ibn Kəb Əbu Bəkrə beyət etməkdən imtina edib, Əliyə (ə) meyilləri olduğu üçün Onun evində toplanmışdılar. Evdə olanları yandırmaq məqsədi ilə gəlib qapıda həzrət Fatimi ilə qarşılaşan Ömər ibn Xəttab dedi: «Xalqın daxil olduğu şeyə (beyətə) siz də daxil olun».

Bu sözlərin şahidi hər iki tərəfin qəbul etdiyi çox dəyərli alim, fazil və tarixçi Əbül-Həsən Əli ibn Hüseyn Məsudidir. O, «Mürucuz-zəhəb» kitabının 2-ci cildinin 100-cü səhifəsində Məkkədə özünü xəlifə elan edən Abdullah ibn Zübeyrin hadisələrini belə yazmışdır: «Bəni-Haşim həzrət Əlinin oğlu Məhəmməd ibn Hənəfiyə ilə Şöbu-Əbi Talibdə toplandıqları zaman, Abdullahın ordusu onları mühasirəyə alıb yandırmaq üçün çoxlu odun gətirdi. Sonra odunlara od vurub alovlandırdılar. Amma bununla birlikdə yenə də bəni-Haşim təslim olmadı. Nəhayət, Muxtarın ordusu gələrək, onları xilas etdi».

Bunları nəql edərkən belə deyir: «Nofəli öz kitabında belə nəql etmişdir: «Abdullahın qardaşı Urvə ibn Zübeyr, Şöbu-Əbi Talibin mühasirəsi hadisəsi haqqında bir məclisdə söz açdıqda, camaat oranı yandırdıqlarını və Abdullahın haşimilərə etdiklərini qınayarkən belə üzr gətirdi: «Qardaşım Abdullah günahkar deyil. Onun od vurmaqda məqsədi, ancaq bəni-Haşimi qorxutmaq üçün idi. Bu səbəbdən keçmişdə də bəni-Haşim (Əbu Bəkrə) beyət etməkdən çəkindikdə, təslim olub beyət etmələri üçün evlərinin ətrafına odun toplayıb onları yandırmaqla qorxutmuşdular. Qardaşım Abdullah da onların etdiklərindən başqa bir şey etməmişdir!»

Bunlar sizin böyük alimlərinizin yazıb nəql etdikləri sözlərdən sadəcə bir neçə misal idi. Bu hadisə insaflı və tərəfsiz alimlərin yanında çox açıq və qətidir; hətta şairlər belə öz şerlərində bu hadisəni xatırlamışlar. Amma sizin bəzi alimləriniz icma inancının batilliyinə bir sənəd olmaması üçün ehtiyat edərək, bu hadisələri nəql etməkdən çəkinmişlər.

Tanınmış şair və alimlərinizdən biri olan Hafiz İbrahim Misri Öməriyyə qəsidəsində xəlifə Ömәri mədh edərək belə demişdir:

***Bir söz söylədi o gün Ömər Əliyə,***
***Onu, dinləyənə eşitdir və söyləyənini böyük san!***
***Beyət etməsən yandıracağam evini, heç kimi sağ qoymaram***
***Hətta o evdə Mustafanın qızı olsa da!***
***Bunu Əbu Həfsdən (Ömərdən) başqası söyləyə bilməz,***
***Ədnan qəbiləsinin qəhrəman və himayəçisi olan Əliyə.***

**Hafiz**: «Bu rəvayətlər göstərir ki, odu sadəcə Əbu Bəkrin xilafətinə müxalifət edənlərin toplantısını dağıtmaq və onları qorxutmaq üçün gətirmişdilər. Amma şiələr: «Həzrət Fatimənin (ə) evinin qapısını yandırdılar. Onu qapı ilə divar arasında qoyaraq Möhsin adındakı altıaylıq körpəsini bətnindən saldılar»,-deyə bir qrup sözlər uydurmuşlar!»

## HƏZRƏT FATİMƏNİN (Ə) UŞAĞININ SİQT OLDUĞUNA DAİR RƏVAYƏTLƏR

Dəvətçi: «Bir az əvvəl ərz etdim ki, vaxtımız qısa olduğuna görə, nəql olan xəbərləri yığcam şəkildə çatdırmağa çalışdım. Bu mövzuda rəvayət çoxdur. Sadəcə bunu bildirmək istədim ki, müvəhhid və axirətə inanan təqvalı şiələr yalan söyləməzlər və heç kimə qarşı şəxsi qərəz və düşmənçilikləri də yoxdur! Hər iki tərəfin qəbul etdiyi məşhur tarixçi və dəyərli alim Əbul-Həsən ibn Əli ibn Hüseyn Məsudinin[1] «Mürucuz-zəhəb» adlı əsərinə müraciət etməniz çox yaxşı olardı.

Məsudi o günün hadisələrini geniş şəkildə nəql edərək belə deyir: «... həzrət Əliyə qarşı təcavüz etdilər; Onun evinin qapısını yandırdılar və evdən olanları zorla çölə çıxartdılar. Xanımlar xanımı Fatiməni isə qapı ilə divar arasında sıxdılar; bu əsnada Möhsin adlı uşağı düşdü».

[1] Ölüm tarixi: hicri 347-ci il.

Bilin ki, bu deyilənlər şiələrin uydurması deyil, əksinə tarixə düşən hadisələrdir. Tarixdə baş verən hadisələr tamamilə aradan getmir; əgər bəziləri o hadisələri yazmaqdan çəkinsə də, digər insaflı insanlar onları yazıb qorumuşlar.

Siqt hadisəsi tarixdə günəşdən daha aydındır. Ancaq bəzi alimlər xəlifələrini sevdiklərinə görə həqiqətləri gizlədib, susmağı məqsədə uyğun bildilər. Lakin bəzi tarixçilər hadisələri qələmə alaraq, bizim iddiamıza bir dəlil oldular.

Mövzunun daha da aydınlaşması üçün İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi» adlı kitabının 3-cü cildinin 351-ci səhifəsinə müraciət edin. O, belə deyir: «Mötəzilə şeyxlərinin böyüklərindən olan ustadım Əbu Cəfərə: «Həbbar ibn Əsvədn süngü ilə Rəsulallahın (s) qızı Zəynəbin (gəcavəsinə) təxti-rəvanına hücum etmişdi. Zeynəbin qorxudan uşağının düşdüyü[1] xəbəri Peyğəmbərə çatdıqda o həzrət Həbbarın qanını mübah qərar verdi»-dedim. Əbu Cəfər bu sözün cavabında dedi: «Əgər Rəsulallah həyatda olsaydı, Fatiməni qorxudaraq onun uşağının düşməsinə səbəb olan şəxsin də qanını mübah qərar verərdi».

Səlahəddin Xəlil ibn Əbik Sifdi «Vafi bil-vəfəyat» adlı əsərində «Əlif hərfli adlar siyahısında İbrahim ibn Səyyar ibn Hani Bəsrinin (Nəzzam Mötəzili adıyla məşhurdur) söz və inanclarını nəql edərkən onun belə dediyini yazır: «Ömər beyət günü Fatimənin qarnına bir zərbə vurdu. Bu zərbə nəticəsində Fatimənin Möhsin adlanan uşağı düşdü».

Bu halda möhtərəm ağalar, əbəs yerə keçmişlərinizə uyub, şiələrə iftira yaxmayın! Hər şeydən xəbərsiz, avam xalqın yanında «bu sözləri şiələr özlərindən çıxarmışlar, bizim xəlifələr Əli və Fatiməni incitməmişlər, əksinə onlar xəlifələrin

---

[1] Rəsulallahın qızı Zeynəb (ə) xalası oğlu Əbul-As ibn Rəbi ibn Əbdül-Əzzanın xanımı idi. Əbul-As Bədir döyüşündə müsəlmanların əlinə əsir düşdü. Müşriklərin fidyə verərək onları qurtara biləcəkləri razılaşdırıldıqda, Əbul-As xanımı Zeynəbə xəbər göndərərək ona bir miqdar mal göndərməsini istədi. Zeynəb, anası Xədicədən (ə) ona yetişmiş olan Yzmzn əqiqi və Rum yaqutu ilə bəzədilmiş incisini, həyat yoldaşı Əbul-Asın azad olunması üçün Peyğəmbərə (s) göndərdi. Rəsulallah qızının göndərdiyi incini gördükdə çox pərişan oldu. Əshab Rəsuli-əkrəmin xatirinə fidyə almadan qızının həyat yoldaşını azad etdilər. Rəsulallah Əbul-Asa "Zeynəb sənə haram olduğuna görə onu Mədinəyə göndər", - deyə buyurdu. O da qəbul etdi. Peyğəmbəri-əkrəm yaşlı olan Zeyd ibn Harisəni, Zeynəbi Mədinəyə aparması üçün onunla birlikdə Məkkəyə göndərdi.
Müşriklər Peyğəmbərin qızı Zeynəbi Mədinəyə yola düşdüklərini eşitdikdə Əbu Süfyanla birlikdə bir qrup süvari onları təqib etməyə məmur oldu. Müşriklər "Zi Tuva" deyilən bir yerdə onlara çatdı. Həbbar ibn Əcvəd adlı bir şəxs nizəni Zeynəbin gəcavəsinə tuşladı. Belə ki, nizənin ucu Zeynəbin kürəyinə sancıldı. Qorxu və dəhşətdən bətnindəki uşağı düşdü. Mədinəyə çatıb bu hadisəni Rəsulallaha nəql etdikdə, həzrət həddən artıq narahat oldu. Bundan sonra Həbbarın qanını mübah qərar verib, əliylə qolunun kəsilərək öldürülməsini əmr etdi.

xilafətinə razı idilər»-deyərək bizi günahlandırmayın, məsələni yanlış çatdırmayın».

Fatimənin (s.ə) evini yandırmaq cəhdi, beyət etdirmək üçün Əli (ə) və haşimilərə təzyiq edilməsi, onlara qarşı zorakılıq əmələri və s. zülmlər öz insaflı alimlərinizin mötəbər kitablarında qeyd edilmişdir. Əgər etirazınız varsa, Bilazəri, Təbəri, İbn Xizabə, İbn Əbdürəbbih, Cövhəri, Məsudi, Nəzzam, İbn Əbil-Hədid, İbn Quteybə, İbn Şəhnə və Hafiz İbrahim kimi böyük alimlərinizə etiraz edin! «Nəyə görə kitablarınızda yazmısınız?»,-deyə onları sorğu-sual edin. Söylədiklərimizin hamısı sabit mənbələr əsasındadır; həvayi-nəfsə və cahilcəsinə təəssübə görə deyildir!».

**Hafiz**: «Bu cür sözləri nəql etməyin nə faydası vardır? Nifaq, münaqişə, kin, təfriqə və ikitirəlikdən başqa heç bir faydası yoxdur!»

## HAQQI MÜDAFİƏ ETMƏK LAZIMDIR

**Dəvətçi**: «Əvvəla; etirazınız varsa, etirazınızı bu cür sözləri yazıb nəql edən alimlərinizə edin. Qətiyyən haqq daimi olaraq pərdə arxasında qalmaz, tarix aradan getməz: «Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər O, istəsəydi, hamınızı doğru yola yönəldərdi»[1].

Hər qövm və millətin içində həqiqətləri yazan qərəzsiz, təəssübsüz və əməlisaleh insanlar tapılır. Bunlar sizin insaflı alimləriniz kimi həqiqətləri öz kitablarında yazaraq, onu pərdə arxasından göz önünə çıxartdılar.

İkincisi; «Bunları nə üçün söyləyib yazırsınız?» iradınıza gəlincə, bilin ki, bu soz və yazılar sizin vicdansız, ağılsız, iftiraçı və təfriqə salan yazar və alimlərinizin hücumları qarşısında özünümüdafiədir!

Bu cür alim və yazarlar hər şeydən xəbərsiz müsəlmanların arasına təfriqə salmaq üçün məsələni din qardaşlarımıza yanlış çatdırırlar. Müvəhhid mömin şiələri «kafir», «müşrik» və «mülhid» olaraq tanıtdırırlar. «Bu cür tarixi hadisə və həqiqətləri şiələr uydurmuşdur»-deyərək, saf insanların beyinlərini doldururlar.

[1] "Ənam" surəsi, ayə: 149.

Biz də öz haqqımızı müdafiə etmək məcburiyyətindəyik; dünyanın dörd bir tərəfində yaşayan ziyalı müsəlman qardaşlarımıza «Biz Əhli-beyt şiələri, yəni Əli və Ali-Əli övladının dostları «La ilahə illallah Muhəmmədən Rəsulallah» deyir və Əmirəl-möminin Əli (ə) haqqında həzrət Peyğəmbərin (s) buyurduğundan başqa bir şey söyləmirik» demək istəyirik.

Keçən gecələrdə əqli və nəqli dəlillərlə sübut etdik ki, biz həzrət Əlini Allahın saleh qulu, Rəsulallahın sünnəti ilə gedən hzəqiqi xəlifəsi, vəsisi və qardaşı bilirik və Allah rızası üçün olmayan hər əməlin əleyhinəyik.

Buyururdunuz ki, nə üçün söyləyirsiniz, həqiqətləri söyləməyin nə faydası vardır? Siz söyləməyin, biz də söyləməyək; siz yazmayın, biz də yazmayaq. Vacib olan haqq və həqiqətləri müdafiə etməyimiz zəruridir. Biz söyləmirik, amma bizi söyləməyə məcbur edirsiniz. Bax, bu gecə «bunlar şiənin avamının etiqadıdır, həqiqəti yoxdur» deməsəydiniz, mən də məclisdə iştirak edən qardaşlara «bu deyilən sözlər şiənin avam qisminin sözləri deyildir; əksinə əhli-sünnətin insaflı alimlərinin etiqadıdır» deməyə məcbur olmazdım. Elə bu səbəbdən onlardan bəzi misalları hüzurunuza ərz etdim. Pak müvəhhid olan biz şiələr, kitab, sünnət, əql və icmaya söykənən səhih inanclardan başqa bir şeyə inanmaz və haqqın xaricində hər hansı bir söz söyləmərik».

**Hafiz**: «Doğrusu, buyurduqlarınıza təəccüblənirəm; çünki qaynaq və əhəmiyyətli kitablarınızda, Kitaba və sünnətə zidd olan bir qrup rəvayətlər vardır. Bunlar şiələrin arsızlaşıb günah etməyə cəsarət tapmalarına səbəb olur. Yəqinliklə deyə bilərik ki, bu cür rəvayətlər uydurmadır; ümmətin əxlaqını pozmaqdan başqa bir dərdə deyməzlər; sizlər də onlardan uzaq durmursunuz!»

**Dəvətçi**: «Zati-alinizin mətləbə heç bir əlaqəsi olmayan sözlər söyləməsi, həqiqətən, qəribədir. Məsələnin açılması və aydınlaşması üçün lütfən uydurulmuş və fəsada səbəb ola biləcək hədisləri bəyan edin».

## «ƏLİNİ SEVMƏK SAVABDIR», «HÜSEYNƏ AĞLAYANA CƏNNƏT VACİB OLAR» HƏDİSLƏRİNİN TƏNQİDİ VƏ ONLARIN CAVABI

**Hafiz**: «Böyük alimlərinizdən olan Axund Molla Məhəmməd Baqir Məclisi İsfahani «Biharul-ənvar» kitabının bir çox cildlərində uydurma hədislər nəql etmişdir. O hədislərdən biri, Rəsulallahdan (s) nəql etdiyi bu qəribə hədisdir: «**Əlinin sevgisi Həsənədir (rəhmət və savabdır)**».

Yenə Rəsulallahın belə buyurduğunu nəql etmişdir: «**Kim Hüseynə ağlayarsa, Cənnət ona vacib olar**».

Bunlara bənzər bir çox hədislərlə rastlaşdım. Bu cür hədislər fəsad yaranmasına səbəb olur. Bax, bu rəvayətlər şiələrin günah etməyə çəsarətlənmələrinə və həyasızlığa yol açır. Belə ki, Əli (ə) sevgisi ümidiylə «bu günahlar bizə hər hansı bir zərər verməz» və ya «Hüseynə (ə) bir damla göz yaşı tökmək bütün günahları silib-təmizləyir» fikri ilə hər cür günah edə bilərlər. Ümidin xalqda bu qədər artması əxlaq pozğunluqlarının yayılmasına səbəb olur. Bu səbəbdən biz, bir çox şiənin illər boyu günahlarda qərq olduqlarını görürük. Məhərrəm ayı on gün matəm tutub, mərsiyə oxuyurlar; on gün bitdikdən sonra; «biz on gün yas tutaraq, anadan doğulduğumuz gün kimi günahlardan təmizləndik» deyirlər».

## SÜNNİLƏRİN YAŞADIĞI ŞƏHƏRLƏRDƏ FƏSAD DAHA ÇOX YAYILMIŞDIR

**Dəvətçi**: «Əvvəla; fəsadın baş alıb getməsinin və bəzi şiələrin etinasız olmasının bu hədislərə inanmaqla heç bir əlaqəsi yoxdur. Bunları bir-birilə əlaqələndirməklə böyük bir xəta etdiniz. Əgər avam xalqdan bəzisinin günaha düçar olmalarının səbəbi belə rəvayətlərə inanmaqdan qaynaqlanırsa, o zaman buyurun görək, sünni qardaşların günah və fəsada qərq olmaları, hətta açıq-aşkar

günah etmələri nəyə görədir?! Onlar ki, bu cür hədislərə inanmırlar; o zaman nə üçün açıq-aşkar günah işlər görüb, harama yol verirlər?

Əhli-sünnətin böyük məntəqələrində, hətta hamısı əhli-sünnət olan şəhərlərdə məsələn: Misir, İskəndəriyyə, Şam, Beytül-Müqəddəs, Beyrut, Omman, Hələb, Bağdad, Bəsrə kimi böyük şəhərlərdə, hətta kiçik qəsəbələrdə belə böyük-kiçik qəhvəxanalarda kütləvi şəkildə qumar oynayıb, şərab içirlər. Bəzi avam şiələr arasında olan çirkin işlər onların arasında çox yayılmışdır. Bütün yol və küçələrdə qumar oynamaq, sərxoşedici içkilər içmək, rəsmi fahişəxanalar və bəyan etməkdən utandığım digər fəsadlar yoxdurmu?! Əgər biz də sizin kimi qüsur və bəhanə axtarası olsaydıq, onda belə deyərdik: sünni qardaşlar arasında zina, ləvat, şərab içmək və qumar oynamaq kimi böyük günahların yayılması və dinin hökmlərə qarşı çıxmağa cəsarət tapmalarının səbəbi, imam və fəqihlərinin yersiz fitvaları olmuşdur. Çünki böyük müctehidləriniz itin pak olması, ətinin yeyilməsi, məni, sərxoşedici şeylər və haramdan cünub olanın tərinin pak olması, səfərdə tənasül üzvünü bir bezlə sarayıb məhrəmlərlə (anası-bacı və s.) cinsi əlaqənin caizliyi və başqa şeylər haqqında bir qrup gülünc fitvalar vermişlər. Amma şiə fəqihləri bunların hamısını haram bilir; bu işləri edənlərdən uzaqdırlar».

**Hafiz**: «Bunlar yalan və əfsanədir! Söylədiklərinizə bir dəlil varmı?»

## ZƏMƏXŞƏRİNİN ETİRAFI VƏ ƏHLİ-SÜNNƏTİ TƏNQİD ETMƏSİ

Dəvətçi: «Özünüz yaxşı bilirsiniz! Lakin qəsdən qəlbinizin razı olmadığı şeyi müdafiə etmək məcburiyyətində qalmısınız. Bu toxunduğum mətləblər alimlərinizin fiqh kitablarında mövcuddur. Vaxtımız onların hamısını nəql etməyə kifayət etmir. Məsələ o qədər məntiqsizdir ki, bir çox böyük aliminiz də onları tənqid etmişlər. Məsələn: «Təfsiri-Kəşşaf» kitabının 3-cü cildinin 301-ci səhifəsinə müraciət edə bilərsiniz. Cərullah Zəməxşəri belə deyir: «Məndən məzhəbimi soruşarkən, salamat qalmaq üçün gizlədirəm. «Hənəfiyəm» desəm, «haram şərabı halal bilirsən» deyəcəklər. «Malikiyəm» desəm, «it ətini halal etmisiniz»

deyəcəklər. «Şafeiyəm» desəm, «qızıyla evlənməyi halal sayırsan» deyəcəklər. «Hənbəliyəm» desəm, «hululi-məzhəb və mücəssiməsən» deyəcəklər[1]. «Hədis əhliyəm» desəm, «keçidir, bir şey anlamaz» deyəcəklər.

***Bu zamanın insanlarına məətəl qalıram, kimsə dilindən qurtula bilmir.***
***Zaman məni keçmişə qaytarıb, bir qrup anlamaz cahilləri iş başına gətirmiş.***
***Çahillər iş başına gəldikdə, mum kimi alışıb yanmağıma yəqin oldum.***

Belə böyük bir alim və müfəssir bu cür azğın fitva və inanclara görə özünü derd məzhəbdən birinə mənsub olduğunu söyləməyə utanır. Ağalar, bu halda belə qəribə məzhəblərə tabe olmağımızı gözləyirsiniz?! Bunları bir kənara qoyub, əsl mövzuya qayıdaq.

İkincisi; buyurduğunuz bu cür rəvayətlər iki səbəbə görə şiələrin uydurması deyildir: Dəfələrlə ərz etmişəm ki, şiələrin hədis uydurmağa ehtiyacı yoxdur; bu cür rəvayətlər öz böyük alimlərinizin mötəbər kitablarında da nəql edilmişdir.

Bunları təkcə Əllamə Məclisi nəql etməmişdir. Şiənin bütün alimləri bunları nəql etmişlər. Əhdimi pozmaq istəmədiyimə görə şiə alimlərinin sözlərini bir kənara qoyub, sizin alimlərinizin sözlərini nəql etmək istəyirəm.

## «ƏLİNİ SEVMƏK SAVABDIR» HƏDİSİNİN ƏHLİ-SÜNNƏT KİTABLARINDAN SƏNƏDLƏRİ VƏ MƏNASI

Əllamə Məclisinin «Biharul-Ənvar» kitabından nəql etdiyiniz bu hədisi İmam Əhməd ibn Hənbəl «Müsnəd»də, Xətib Xarəzmi «Mənaqib»in 6-cı fəslinin sonlarında, Süleyman Qunduzi Hənəfi «Yənabiul-məvəddə»nin 42-ci və 56-cı bablarında «Kunuzud-Dəqaiqdən» nəql edərək, Şeyx Əbdurrauf Mənavi Misri

[1] Bunlar dörd məzhəb imamlarının fitvalarından misaldır.

«Mənaqibis-səbin»in 239-cu səhifəsində 49-cu hədisdə Firdovs Deyləmidən, o da Məaz ibn Cəbəldən nəql edərək, Mirseyid Əli Fəqihi-Həmədani Şafei «Məvəddətul-qurba»nın 6-cı məvəddəsində, İmamul-hərəm Şafei Muhibbuddin Əbu Cəfər Əhməd ibn Abdullah Təbəri «Zəxairul-Uqba»nın Əhli-beytin (ə) fəziləti haqqında nəql etdiyi 70 hədisdən 59-cuhədisində, Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-suul»da. Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib»də və digər alimləriniz Ənəs ibn Malik və Məaz ibn Cəbəldən Rəsulallahın (s) belə buyurduğunu rəvayət etmişlər: «Əlini sevmək rəhmətdir. Bu sevgi ilə heç bir günah və qüsur zərər verməz; Əliyə düşmənçilik etmək isə seyyiədir (günah və qüsurdur), onunla (düşmənçiliklə) birlikdə heç bir yaxşı əməl fayda verməz».

İmamul-Hərəm Əhməd ibn Abdullah Təbəri Şafei «Zəxairul-Uqba»da, İbn Həcər «Tarix»in 215-ci səhifəsində, Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 56-cı babının 33-cü hədisində «Mənaqibi-Səbin»dən nəql edərək, İbn Əsakir «Tarix»in 1-ci cildinin 159-cu səhifəsində Nisaidən, o da İbn Abbasdan Rəsulallahın (s) belə buyurduğunu nəql etmişdir: «Əbu Talib oğlu Əlinin sevgisi, alovun odunu yediyi (yandırdığı) kimi günahları yeyər».

Üçüncüsü; hədisi mənalandıran pərdələrin qalxması və müəmmaların həll edilməsi üçün olduqca diqqət göstərib, dərin düşünər. Bir hədisi anlaya və ya onun həqiqi mənasına yetişə bilmədikdə «uydurmadır» deyib, pis nisbət verməz. Mənfi tərəfi düşünmək asandır!

Daim Allahı nəzərə alın. Qurani-kərim «Ənbiya» surəsinin 7-ci ayəsində bizə belə əmr edir: «**Bilmirsinizsə, bu halda zikr əhlindən soruşun!**»

Hər iki tərəfin ittifaq etdiyi və sizə həlli çətin gələn bu hədisin mənası çox aydın və həlli bəsitdir. Qurana müraciət etdikdə görürük ki, O, günahları, kəbirə (böyük) və səğirə (kiçik) olmaqla iki qismə bölmüşdür. Bəzi ayələrdə böyük günahlar qarşısında kiçik günahlara «seyyiə» (pis) təbiri zikr edilmişdir. Bu səbəbdən Allah-təala «Nisa» surəsinin 31-ci ayəsində açıq-aydın belə buyurur: «**Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz də qəbahətlərinizin (kiçik günahlarınızın) üstünü örtər və sizi (şərəfli bir mənzilə) çatdırarıq**».

Bu ayəyə görə, əgər bəndə böyük günahlardan çəkinərsə, kiçik günahları görməməzliyə vurular, bağışlanılar.

Dediyimiz bu hədisdə də buyurulur: «Əlinin sevgisi elə bir həsənədir ki, heç bir seyyiə (kiçig günah) ona zərər verməz.

**Hafiz**: «Allah-təala Quranda açıq-aydın belə buyurmurmu?: «Şübhəsiz, Allah bütün günahları bağışlar»[1]

Elə isə günahkar bir bəndə, etdiyi günah istər böyük olsun istər kiçik, peşman olub Allaha təslim olarsa, əfv edilər. Bu halda böyüklə kiçik arasında bir fərq yoxdur».

## HƏQİQƏTİN KƏŞFİ

**Dəvətçi**: «Deyəsən, ayeyi-şərifə yaxşı diqqət etmədiniz, yoxsa etiraz etməzdiniz. Əvvəla; böyük günah ilə kiçik günah arasında fərq qoyan mən deyiləm. Bu fərqi Allah-təalanın özü qoymuşdur.

İkincisi; mən də sizin kimi inanıram ki, Allahın bağışlayan olduğuna inanan hər bəndə etdiyi əməllərdən peşman olaraq tövbə edib Allaha təslim olarsa, Allah-təala onun günahlarını bağışlayar. Əgər tövbə etmədən ölərsə, ölümdən sonrakı aqibəti hesab gününə qədər əzablı keçər; etdiyi günah çox böyük olmazsa, artıq öz cəzasını alıb, o gün əfv edilər.

Amma əgər böyük günahlar etmişsə, hesab günündən sonra o, Cəhənnəmə gedər; günahlarının cəzasını çəkər və sonra Cəhənnəmdən xilas olar. Əlini (ə) sevən bir kəs əgər kiçik günahlardan tövbə etmədən dünyadan ayrılarsa, Allah-təala öz lütfüylə onu əfv edər. Ölümdən sonrakı mənzillərdə cəza verilmədən, Cəhənnəm əzabı görmədən Cənnətə düşər. Bu səbəbdən ayədə «**...Sizi (şərəfli bir mənzilə) çatdırarıq**» buyrulmuşdur.

Anlaya bilmirəm, necə ola bilər bu hədis günah etməyə cəsarət tapmağa səbəb olsun?! Hədisdə böyük və ya kiçik günah etməyə hər hansı göstəriş varmı? Cavab əminliklə «xeyr»dir! Elə isə yersiz belə düşünürsünüz. Halbuki, bu hədisi-şərif

[1] "Zumər" surəsi, ayə: 53.

günaha cəsarət etməyə deyil, ümidsizliyə qapılmağa mane olur. Bir çox insanlar vardır ki, həvayi-nəfsinə qapılaraq kiçik günah etdikdə Şeytan: «artıq rəhmət üzü görməyəcəksən», - deyə onlara vəsvəsə edib, ümidsizliyə sürükləməyə çalışır. Onlar da gənc və cahil olduqlarına görə aldanaraq, ümidsizliyə qapılırlar: «artıq əfv edilməyəcəyik. Bu halda nəyə görə kef çəkməyək?!»-deyirlər. Beləcə, yavaş-yavaş kiçik günahlardan keçib böyük günahlara aludə olurlar. Amma bu cür hədislər qəlblərə ümid işığı saçır, insanın xəta etdikdə və həzrət Əlini (ə) həqiqətən sevdikdə qüsurların ona zərər verməyəcəyini insana xatırladır. Allah-təala Quran ayələrində bağışlama və əfv etməyi vəd etdiyinə görə, bağışlaması üçün də bir qrup səbəblər qoymuşdur; Həzrət Əlinin (ə) sevgisi də o səbəblərdən biridir.

Şiə, əsla etinasız olmaz; «şiə» təqibçi deməkdir; həzrət Əlinin (ə) şiəsi sözündə və əməlində həzrəti təqib edən və tam mənada Onu örnək bilib, kamilləşəməyə çalışan bir kəs deməkdir. Bax, bu sifətlərə sahib olan bir şiə qurtuluş əhlidir. Bu səbəbdən bütün təfsir və digər mötəbər kitablarınızda, əvvəlki gecələrdə də ərz etdiyim kimi, fərqli təbirlərlə Rəsulallahın (s) belə buyurduğu nəql edilmişdir: «Ya Əli! Sən və şiələrin Cənnətdə qurtuluşa yetişənlərsiniz».

Bu cür hədislərə irad tutmaqdansa, belə deməyiniz bəlkə də daha yaxşı olardı: Şiə qurtuluş və Cənnət əhli olduğunu bildiyinə görə, cəsarətlənib pis əməllər etməyə təşəbbüs göstərə bilər! Ancaq özünüz də yaxşı bilirsiniz ki, belə bir iradın həqiqətlə heç bir əlaqəsi yoxdur.

Şiənin, təklif çağına yetişdikdən, Allahı və Peyğəmbərini (s) tanıdıqdan sonra, şiənin nə demək olduğunu bilməsi lazım gəlir. Bunu bildikdə söz, əməl, qarşılıqlı münasibət, ictimai həyat və digər bütün davranış və əxlaqında həzrət Əli və Onun övladlarını təqlid etməsinin zəruri olduğunu artıq özü müəyyənləşdirir. Yəni Əmirəl-mömininin böyük və kiçik günahlar etmədiyini, hətta məkruh əməllərdən belə uzaq olduğunu gördükdə, mövlası kimi olmağı, Onun gözəl sifətləriylə sifətlənməyi, pis əxlaq və adətləri tərk etməyi özünə vəzifə bilir. Peyğəmbərlər (ə) və imamlarda (ə) olan məsumluq məqamına sahib olmadığından və tam mənasıyla Əli (ə) kimi olmağın çox çətin, hətta imkansız olduğuna görə, imam Əlinin sevgisini qazanmaq və Onun şiələrindən olmaq üçün bacardığı qədər Ona

bənzəməyə çalışır. Məsum olmadığına və caizul-xəta olduğuna görə, bəzi vərdişlər və kiçik günahlar edə bilər. O da imam Əliyə olan məhəbbətlə əfv olunar. Allah göstərməsin, tövbə etmədən ölərsə, həzrət Əliyə olan sevgisi sayəsində etdiyi qüsur və kiçik günahlarına görə sorğu-sual olunmaz və onların bu əməllərinin üstündən qələm çəkilər.

Amma ikinci, yəni «Kim Hüseynə ağlayarsa, Cənnət ona vacib olar» hədisinin mənasına gəlincə; bu hədisin mənası, alim və avamın anlaya biləcəyi qədər çox sadə, açıq və aydındır. Məclisdə iştirak edən ağalar dəfələrlə cavab verərkən onların da vəziyyətini nəzərə almağımı xatırlatdıqlarına görə, istəklərini yerinə yetirərək çox qısa bir şəkildə ərz edirəm. Bu hədisin çox sadə bir şəkildə mənası budur: Kim Hüseynə (Onu can-qəlbdən sevdiyinə və məzlumiyyətinə görə) ağlayarsa, Cənnət ona vacib olar. Bu hədisin məfhumunun əksi də budur; Hüseynə nakəs (pis əməli) bir kəs ağlayarsa, Cənnət ona vacib olmaz; hətta bu ağlamasından bir nəticə belə əldə edə bilməz».

**Hafiz**: «Kəs» ilə «Nakəs» arasındakı fərq nədir ki, ağlamağın kəsə faydası olur, amma nakəsə yox?».

## «KƏS» İLƏ «NAKƏS» ARASINDAKI FƏRQ

**Dəvətçi**: «Məni-movsulə» kəlməsində «kəs» ilə «nakəs» deyə bir şey yoxdur. Lakin farsca mənasında bu kəlmələr yerinə düşür. «Kəs» Allahın birliyini qəbul edən, Adəmdən (ə) Xatəmül-ənbiyaya (s) qədər böyük peyğəmbərlərin nübuvvətinə inanan, peyğəmbərlərin sonuncusu olan həzrət Məhəmmədin şəriətinə riayət edən, cismani-mənada, Cənnət və Cəhənnəmə inamı olan, Rəsulallahın Əhli-beytinin (ə) vilayətini qəbul edən, həzrət Əli (ə) və Onun 11 övladının hamısını Allahın ən saleh bəndələri, itaətləri vacib olan imamlar və Rəsulallahın vəsi və xəlifələri bilən, Onun 12-ci vəsisini, yəni Əmirəl-mömininin 11-ci övladı həzrət Məhdinin (ə) hal-hazırda yaşadığına, Allah istədiyi zaman dünyada zülm tüğyan etdikdən sonra zühuru ilə ədaləti bərpa edəcəyinə, səmavi kitablardan sonra

Qurani-məcidin Allah tərəfindən haqq olmasına inanan, onun əmr və qadağalarına riayət edən bir mömindir.

Ancaq «nakəs» dinin əmrlərini zahirdə qəbul edən, lakin əməldə saleh olmayan, onları bütünlüklə tərk edən və ya bəzilərini yerinə yetirib, bəzilərini tərk edən və yaxud adam öldürmək, şərab içmək, zina etmək, riba kimi böyük günahlara duçar olan, ya da namaz, oruc, xums, həcc və s. tərk etdiyi vacibləri təlafi etməyə çalışmayan müsəlmandır. Belə bir müsəlman hər nə qədər ağlasa da, ağlamasının ona bir faydası olmaz. Lakin pis əməllərindən tövbə edər, etdiyi əməlləri təlafi etməyə çalışar, xalqın malını özlərinə və ya dünyada yaşamadıqları təqdirdə varislərinə geri qaytarar və onları özündən razı salarsa, bax, o zaman Əhli-beytin (ə) məzlumluğuna ağlamasının ona bir faydası olar. Yoxsa yuxarıda qeyd etdiyimiz günahların ağlamaqla əfv ediləcəyi xəyalında olaraq günah edən zavallılar ağlayıb sızıldasalar da, Məhəmməd (s) və Ali-Məhəmməd (ə) ondan razı olmaz və belə bir ağlamağın onlara heç bir faydası dəyməz.

Biz minbərlərdə, dərslərdə, dini məclislərdə daim bunları xatırladırıq. Əgər zülm edib böyük günahlara aludə olan Məhəmməd (s) və Ali-Məhəmməd (ə) ağlamaq və ya onları ziyarət etməklə hər şeyin bu asanlıqla bitəcəyi və xilas olacağı zənn edilirsə, o zaman düşmənlər keçmişlərini təlafi etmişlər. Çünki onlar da hamılıqla Əhli-beytin məzlumluğuna ağlamışlar. Bu səbəbdən Kərbəla vaqiəsini yazan kəslər öz kitablarında «Allaha and olsun ki, o gün (Aşura günü), dost və düşmən hər kəs Hüseynin məzlumiyyətinə ağladı» yazmışlar.

Düşmən Peyğəmbərin (s) oğlunu, əshabını, nəvələrini, hətta südəmər uşaqlarını belə qətlə yetirdi. Daha sonra onların bu acı halına da ağladı. Bax, belə nakəs (alçaq) insanlara bu ağlamağın qətiyyən heç bir yararı olmayacaq».

**Hafiz**: «Bir müsəlman dinin əsaslarını qəbul edib əmrlərini yerinə yetirərsə, o, qurtuluş əhlidir. Elə isə ağlamanın ona nə faydası vardır?! Ağlama və yas məclisləri təşkil etmək nə üçündür? Onlara nə kimi bir fayda verir? Möminlərin ağlaması üçün hər il böyük miqdarda məsrəflər edirlər!».

# AĞLAMA VƏ YAS TUTMANIN NƏTİCƏ VƏ FAYDALARI

**Dəvətçi**: «Aydındır ki, insan hər nə qədər əməl edən və kamil olsa da, yenə də xətalardan qaçıb, məsum ola bilməz. Nəticədə insandır, xəta edə bilər. Əgər qəflətdə qalıb bəzi səhvlərə yol verərsə, Allah -təala bəndələrinə olan şəfqət və lütfünə görə, bəxşiş olaraq bir qrup səbəb və vəsilələrlə onların xətalarını bağışlayar. Bəzən həzrət Əlinin (ə) sevgisini vəsilə edər, bəzən şəhidlər ağası həzrət Hüseyn (ə) və digər Əhli-beyt (ə) imamlarının məzlumiyyətinə ağlamağı nəzərə alaraq tökdükləri göz yaşlarını tövbə suyu qəbul edib, onları bağışlayar. Əgər tam mənada mömin və adil olaraq kiçik və böyük günah etməmişlərsə, Əhli-beyti sevmələri və Onların müsibətlərinə sevgilərinin nişanəsi olan ağlamaları məqamlarının ucalmasına səbəb olar.

Amma dediyiniz «Peyğəmbərin Əhli-beytinə yas tutmaq adı altında qurulan bu mərasim və xərclərin faydası nədir?» sözünüzə gəlincə, bilin ki, uzaq olduğunuza görə bu mərasimlərin müsbət nəticə və faydalarından xəbərsizsiniz. Əgər insaf və sevgi ilə yaxınlaşıb qatılsanız, bu məclislərin Ali-Məhəmməd məktəbinin ən böyük təlim mərkəzi olduğunu görər və təsdiq edərsiniz. Belə ki, Ali-Məhəmməd adına təşkil olunan bu məclislərdə xalqın hər təbəqəsindən, hətta dindən uzaq olan insanlar belə iştirak edir. Xətib, vaiz, alim, mütəkəllim, müfəssir, mühəddis və digər sahələrdəki alimlər tövhid, nübuvvət, məad, dinin şəri hökmləri, əxlaq, axirət, ictimai və başqa vəzifələr haqqında saatlarla söhbət edirlər. Günah və pis əxlaqın cəmiyyət və ailədə zərər və ziyanlarını bildirir, müqəddəs İslam dininin digər dinlər qarşısında haqq olduğuna dair dəlilləri insanların diqqətinə çatdıraraq çox gözəl nəticələr əldə edirlər.

Hər il bir çox insan bu tədbirlərdə söylənilən ayə, hədis və nəsihətlər sayəsində İslamı qəbul edir. Bir çox günahkar, azğın insanlar yol verdikləri günahlardan tövbə edib, doğru yola hidayət olurlar.

Bax, bu, hər iki firqənin Rəsulallahın həzrət Hüseyn haqqında buyurmuş olduğu sözün yalnız bir tərəfidir. Peyğəmbəri-əkrəm: «Hüseyn məndəndir, mən də

Hüseyndənəm»,-deyə buyurmaqla, dinin imam Hüseyn vasitəsilə həyat qazanacağına işarə edir.

Həzrət Hüseyn canını İslam yolunda fəda edərək, İslamın kökünü qoparmaq istəyən Əməvilərin kökünü öz məzlumiyyətilə qırdı. Min ildən bəri O böyük zatın (ə) adına mərasimlər təşkil olunur və xalq kütləlləri bu məclislərə qatılaraq mübəlliğ və natiqlər vasitəsilə dinin həqiqətlərini öyrənib, düz yola hidayət olurlar. Sadaladıqlarım, təhsil ocağı olan və Ali-Məhəmməd adına bu toplantıların faydalarının sadəcə bir qismi idi.

İzah üçün yenə ərz edirəm: həzrət Əlinin şiəsi və Onu sevənlər, həzrət Hüseynin ziyarətçisi və Ona yas tutanlar, xülasə Əhli-beyt aşiqləri vacibləri tərk etməz, böyük günahlara yol verməzlər. Çünki imam Hüseynin din üçün ailəsini, övladlarını fəda etdiyini və şəhadət şərbətini içdiyini yaxşı bilirlər. Bu səbəbdən «Ziyarəti-varis»də belə oxuyuruq: «Şəhadət edirəm ki, şübhəsiz, sən namazı iqamə etdin, zəkat verdin, yaxşılığı əmr etdin, pisliklərdən çəkindirdin; ölüm anınadək Allaha və Rəsuluna itaət etdin».

Hər iki firqənin mötəbər kitablarında Ümmül-möminin Aişə, Cabir, Ənəs və digərlərindən Rəsulallahın (s) belə buyurduğu nəql edilmişdir: «Kim Hüseyni, haqqına arif olduğu halda Kərbəlada ziyarət edərsə, Cənnət ona vacib olar».

Yenə buyurmuşdur: «Kim Hüseynə, haqqına arif olduğu halda ağlayarsa, Cənnət ona vacib olar».

Bildiyiniz kimi, vacib və müstəhəb əməllər Allahı tanımağa bağlıdır. Allahı olduğu kimi tanımayan bir kəsin qürbət qəsdi doğru ola bilməz; zahiri ibadəti doğru olsa belə, mərifət olmadan faydasız və batildir.

Ağlama və ziyarətlər də Peyğəmbər və İmamları tanımağa bağlıdır. Yəni insan bilməlidir ki, imam Hüseyn Rəsulallahın övladı və üçüncü vəsisidir. O, dini diri saxlamaq üçün qiyam edərək, bu yolda şəhid olmuşdur. İmamın Yezidə qarşı qiyamı o məlunun dini hökmləri ayaq altına atması, vacibatı tərk edərək, haramlara əməl edib, batil işləri yaymasına görə idi. Bunları bildiyi halda İmamlarını ziyarət edən və onlara yas tutub ağlayan, heç şübhəsiz mövlasının yoluna zidd hərəkət etməz!»

**Nəvvab**: «Qibləsahib! Həzrət Hüseynin haqq əhli olduğunu və haqq üçün bəni-Üməyyənin adamları tərəfindən haqsızca öldürüldüyünə biz də inanırıq. Amma bəziləri, xüsusilətəhsilli, oxumuş gənclər deyirlər: Kərbəla savaşı dünyəvi mənfəətlər üçün edilmişdi. Məqam eşqi və xəlifəlik tamahı Hüseyn ibn Əlini Kufəyə çəkib apardı. Təbii ki, hər güclü hökumət ona qarşı yönələn təhlükələri uzaqlaşdırmaq istəyəcəkdir. Yezid və ətrafı bu fitnəyə qarşı çıxmaq məcburiyyətində idi. Həzrət Hüseynə şərtsiz təslim olub, itaəti vacib olan xəlifə Yezidə tabe olmağı, Şama gedib xəlifənin yanında ehtiram qazanmağı və ya sağ-salamat vətəninə dönməyi təklif etdilər. Amma O, bunları rədd etdiyi üçün öldürüldü. Buna görə də məqam və riyasət eşqi olan belə bir kəsə matəm tutmağın mənası yoxdur, əksinə bidətdir!

Görəsən, Kərbəla savaşının dünya sevgisindən qaynaqlanan bir savaş olmadığını, əksinə həzrət Hüseynin Allah və Onun dinini qorumaq üçün qiyam etdiyini və bu yolda döyüşüb öldürüldüyünü bilmələri və onları bu inanclarından döndərmək üçün kifayət qədər cavabınız varmı?»

**Dəvətçi**: «Vaxt bir az gec oldu. Bu mövzuya başlasaq, sözün uzanmasından və narahatlığa səbəb olmasından qorxuram».

**Nəvvab**: «Xeyr! Xeyr! Qətiyyən narahat olmayın. Böyük bir maraq ilə sizi dinləməyə hazırıq. Həqiqət aşkar olsun ki, müxaliflərə cavab verə bilək. Az da olsa cavab verə bilmək böyük bir xidmət olacaqdır. Rica edirəm, buyurun».

## İMAM HÜSEYN (Ə) MƏQAM ARXASINCA DEYİLDİ

Dəvətçi: «Əvvəldə qeyd etdim ki, hər yaxşı və pis mərifətin nəticəsidir. İlk öncə öz Allahını tanımalı və daha sonra ucalardan uca olan Allah tərəfindən Xatəmul-ənbiyaya (s) nazil olan səmavi Kitabı təsdiq etməlidir. Təsdiqin mənası budur: O kitabda mövcud hər şey qeyd-şərtsiz qəbul edilməlidir. Etiraz edən materialistdirsə və hissi (boş) dəlillər istəyirsə, onlara cavab vermək çox asandır. Vaxt gec olduğuna görə, mövzuya qısaca toxunmaq istəyirəm.

# BEŞ NÜMUNƏVİ İNSAN HƏR CÜR ÇİRKİN ƏMƏLLƏRDƏN UZAQDIR

Qurana təslim olan müsəlmanın Xatəmül-ənbiyanın (s) reyhanı olan Hüseyn ibn Əlinin (ə) məqam və səltənət eşqinə düşdüyünü söyləməsi haqqa və həqiqətə ziddir, Kitabi-məcidi və Rəsulallahı inkar etmək deməkdir. Çünki «Əhzab» surəsinin 33-cü ayəsində Allah-təala imam Hüseynin pak və təmizliyiyinə şəhadət verərək, Babası (s), Atası (ə), Anası (s.ə) və Qardaşı (ə) kimi hər cür çirkinlikdən, pislikdən uzaq olduğunu söyləyir. Allah-təala belə buyurur: «**Allah-təala, ancaq siz Əhli-beytdən ricsi (hər cür pisliyi) uzaqlaşdırıb, sizi pak etmək istər**».

Müslim, Tirmizi, Sələbi, Səcistani, Əbu Nəim İsfahani, Əbu Bəkr Şirazi, Siyuti, Həmuyini, Əhməd ibn Hənbəl, Zəməxşəri, Beyzavi, İbn Əsir, Beyhəqi, Təbərani, İbn Həcər, Fəxri Razi, Nişapuri, Əsqəlani, İbn Əsakir və digər böyük alimlərinizin əksəriyyəti bu ayənin Ali-Aba (ə), yəni Məhəmməd (s), Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə) haqqında nazil olduğunu qəbul etmişlər. Ayrıca, bu mövzuya geniş yer ayırmışlar.

Bu ayə beş nümunəvi insanın hər cür pislik və çirkin əməllərdən uzaq olduğuna ən böyük dəlildir. Aydındır ki, dünya məqamına olan sevgi və dünyaya olan düşgünlük bu pisliklərdən biridir. Bir çox ayə və hədislərdə əmir və sultanların həvayi-nəfsi üzündən dünyaya, yəni dünya məqam və riyasətinə könül bağladığı buyurulmuşdur. Rəsuli-əkrəm və məsum imamlardan bu mövzu haqda bir çox hədis nəql edilmişdir. Peyğəmbəri-əkrəm bu hədislərin birində belə buyurur: «Dünya sevgisi bütün pisliklərin başıdır».

Əbu Əbdillahil-Hüseyn qətiyyən dünya məqamına talib deyildi, fani bir səltənət üçün canını fəda etmədi, ailəsini bu yolda düşmənə əsir etmədi. Kim bu mənadan xəbərdar olduğu halda imam Hüseyni dünya düşgünü bilərsə, Qurani-kərimi inkar etmişdir.

# İMAM HÜSEYNİN (Ə) QİYAMI ZAHİRİ RİYASƏT VƏ XİLAFƏT ÜÇÜN DEYİLDİ

Bir dəstə insanlar vardır ki, hissi dəlillər istəyirlər. Onlara cavab olaraq veriləcək hissi dəlil çoxdur. Ancaq vaxt az olduğuna görə bu dəlillərin hamısını zikr edə bilməyəcəyəm. Sadəcə misal olaraq bəzilərinə qısa şəkildə toxunmaq istəyirəm.

İmam Hüseynin Yezidin əleyninə olan qiyamı dünyəvi məqamlara yetişmək üçün olsaydı, Nəbiyyi-əkrəm Ona yardım etməyi əmr etməzdi. Bu mövzuda sizin mötəbər qaynaqlarınızda bir çox hədislər nəql edilmişdir. Onlardan birini nəzərinizə çatdırım: Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 60-cı babında Buxari, Bəğəvi və İbn Siqqin «Tarix»indən, İmamul-Hərəm Şafeinin «Zəxairul-üqba»sından, «Sirei-Molla»dan və daha başqa alimlərinizdən nəql edərək Ənəs ibn Haris ibn Bəyədən belə nəql edir: «Rəsuli-əkrəmin (s) belə buyurğuqunu eşitdim: «Şübhəsiz, bu oğlum (Hüseyn), Kərbəla deyilən bir yerdə öldürüləcəkdir. Sizdən hər kim o gün orada olsa, ona yardım etsin».

Ənəs ibn Haris Peyğəmbərin (s) əmrinə əməl etməsi üçün Kərbəlaya getdi və orada həzrət Hüseyn (ə) ilə bərabər öldürüldü».

Demək ki, imam Hüseynin Kərbəladakı qiyamı məqam eşqi üçün deyil, haqq üçün idi. Etiraz edənlər əgər imam Hüseynin şəhadəti, Əhli-beytinin əsarəti üzərində düşünsələr, haqq və həqiqəti görərlər.

Məqam üçün baş qaldıran və dövrünün dövlətinə qarşı qiyam edən bir kəs, əsla arvad-uşaqla yola çıxmazdı; kiçik uşaqları, hamilə qadını, qundağdakı südəmər görpəni özü ilə götürməzdi. Əksinə yalnız ona kömək edən bir dəstə ilə hərəkət edər, düşmənə qalib gəlib hakimiyyəti ələ keçirdikdən və hədəfinə çatdıqdan sonra ailəsini yanına gətirərdi.

Həzrət Əba Əbdillahil-Hüseynin ailəsi və kiçik uşaqları ilə birlikdə etdiyi bu hərəkət, Onun dünyəvi xilafət və riyasətdə gözü olmadığına və düşmənə qalib gəlmək üçün hərəkət etmədiyinə böyük bir dəlildir. Belə bir niyyəti olsaydı, Yəmənə gedər, özünün və Atasının dostlarını başına toplayar və oranı mərkəzə

çevirib döyüşə tam olaraq hazırlandıqdan sonra hücuma keçərdi. Bu səbəbdən əmisi uşaqları, dostları və qardaşları dəfələrlə bu fikri təklif etmiş, nəticədə mənfi cavab almışlar. Çünki onların İmamın əsl hədəf və məqsədindən xəbərləri yox idi.

## İMAM HÜSEYNİN QİYAMI LA İLAHƏ İLLƏLLAH AĞAÇINI QORUMAQ ÜÇÜN HƏQİQİLƏŞMİŞDİ

İmam Hüseyn (ə) qalib olmaq üçün heç bir maddi imkanının olmadığını bilirdi. 84 qadın və uşaqla etdiyi hərəkət qəti bir nəticə əldə etmək üçün idi. İmam babası Xatəmül-ənbiyanın (s) böyük zəhmətlər bahasına ucaltdığı, Bədir, Ühüd və Hüneyn şəhidlərinin qanıyla suvardığı və Əli ibn Əbu Talib kimi bir bağbanın becərdiyi pak La ilahə illəllah ağacını qorumaq istəyirdi. Digər tərəfdən isə zülm, təhdit, qətl və od vurub yandırmaqda təcrübəli olan hökumət pak ağacın bağbanını kənarlaşdırmaqla, tövhid və nübuvvət baxçasının təməlini məhv etməyə istiqamətləndiyini görürdü. Pak ağac əsl bağban tərəfindən güclənsə də, amma bu tam mənada kifayət etmirdi.

Bu bağın baxımı çahil və inadçı bağbanların - yəni bəni-Üməyyənin əlinə düşmüşdü. III xəlifə Osman ibn Uffanın xəlifəliyindən etibarən bəni-Üməyyənin əlinə daha çox fürsət keçdi. O zaman kor olan məlun Əbu Süfyanın əlindən tutub bəni-Üməyyənin məclisinə gətirdilər. O, orada yüksək səslə belə dedi: «Ey bəni-Üməyyə! Xilafəti əldən ələ, bir-birinizə verin. Çünki nə Cənnət vardır; nə də Cəhənnəm» (yəni ikisi də yalandır).

O belə deyirdi: «Ey bəni-Üməyyə! Xilafəti top kimi əlinizdə tutmağa çalışın. And olsun Əbu Süfyanın and içdiyi o şeyə ki, (məqsədi daim and içdiyi bütlərdir), hər zaman sizin üçün belə bir səltənət arzu edərdim; onu miras olaraq uşaqlarınıza ötürün».

Bu inancsız qövm bütün yolları bağlamış, həqiqi və ənəvi bağbanın bu bağı qorumasına mane olmuşdu. Azğın Yezidin xilafəti zamanına qədər pak ağac az da olsa qorunurdu. Şəriət ağacının ömrü bitmək üzrə idi. Pak ağac olan La ilahə illallah, Allahın adı və dinin həqiqət yox olmağa üz tutmuşdu.

Bağçasının afətlərə uğradığını görən hər alim bağban, təbii ki, o dəqiqə onu qorumağa çalışacaqdır. Yoxsa baxçasının məhsulları bütünlüklə məhv ola bilərdi. O zamanlar tövhid və risalət baxçasının bağbanlığı həzrət Əba Abdullahil-Hüseynə verilmişdi. Bəni-Üməyyə inadlı işi elə bir yerə gətirmişdi ki, az qala tövhid ağacı məhv olacaq, hətta La ilahə illallahın kökü quruyacaqdı.

Bu vəziyyəti görən imam Hüseyn yalnız və yalnız risalət bağını sulamaq və pak ağacı gücləndirmək üçün Kərbəlaya doğru hərəkət etdi. İmam susuzluğun ağacın köklərinə qədər işlədiyini, normal suların artıq təsir göstərmədiyini və daha güclü bir qulluğa ehtiyacı olduğunu bilirdi. Əkinçilər yaxşı bilirlər; bir ağac gücdən düşdükdə, onu qurbanla gücləndirməyə çalışırlar. Yəni qoyun və s. kimi bir canlı varlığı o ağacın dibində kəsər, dərisi, əti və qanıyla birlikdə həmin ağacın altına dəfn edərlər. Rəsulallahın reyhanı olan Seyyidüş-Şühəda alim bir bağban olduğu üçün pak ağacın, xüsusilə son illərdə bəni-Üməyyənin zamanında susuz qaldığından xəbərdar idi. Onun normal sularla cücərib, boy atmayacağını bilirdi. Artıq fədakarlıq vaxtı gəlmişdi. O, ancaq qanla suvarılmalı idi. Bu səbəbdən ən yaxşı silahdaşlarını, əshabını və ailəsini götürərək Kərbəlaya apardı. Axı onları orada pak ağaca qurban edəcəkdi. Bəzi dar düşüncəlilər deyirlər ki, imam Hüseyn Mədinədən niyə çıxdı? Orada qalmalı, qiyam etməli və qurbanlarını orada verməliydi! Amma onlar anlamırdılar ki, əgər imam Hüseyn Mədinədə qalaraq qiyam etsəydi, düşünən insanların bu qiyamdan xəbərləri olmayacaqdı və həzrətin nə üçün baş qaldırdığını başa düşməyəcəkdilər. Bir çox din tərəfdarları öz şəhərlərində haqq üçün qiyam etmiş, lakin heç kimin onların hədəf və məqsədlərindən xəbəri olmamışdı. Niyə öldürüldüklərinin səbəbi belə bilinməmişdi. Hətta düşmənlər, xalqa onların məqsədlərinin əksini söyləyir və beləliklə də digərlərinin də üsyan etmələrinin qarşısını almış olurdular.

İmam Hüseyn haqq və həqiqəti üzə çıxarmaq üçün rəcəb ayında Məkkəyə yola düşdü. Çünki bu ayda insanlar Məkkəyə Ümrə ziyarətinə gəlirdilər. Ərəfə gününə qədər orada yüz minlərlə insana həqiqətləri bəyan etdi. İmam, xalqa Yezidin şərab içib qumara qurşandığını, it və meymunlarla oynadığını, dinin Hökmlərini ayaq altına atdığını, pak ağac olan La ilahə illallahın kökünü qırmaq

istədiyini, xilafət iddiasında olan bu azğın insanın dinin təməlini aradan aparmağa və cəddi Peyğəmbərin zəhmətlərini boşa çıxartmağa çalışdığını, öz babalarının isə İslamı qorumaq üçün qiyam etdiyini və hər şeyi gözönünə alaraq bütün varlığını fəda etməyə hazır olduğunu bildirirdi.

Deməк ki, imam Hüseynin qiyamı, Mədinədən Məkkəyə və Məkkədən də Kufəyə gedişi dini nişanaləri qorumaq və bütün cəmiyyətə Yəzidin dinsiz, əxlaqsız bir inanca sahib olduğunu və təlafi edilməyəcək bir qrup zərərli əməllərini elan etmək üçün idi. İmamın qardaşları, əmisi oğlanları və Onu sevən dostları həzrətin (ə) Kufəyə hərəkətinə mane olmaq üçün belə deyirdilər: «Sizə məktub yazıb dəvət edən kufəlilər vəfasızlıqlarıyla məhşurdurlar. İllər boyu bu məmləkətdə kök salmış bəni-Üməyyənin qüdrəti və azğın Yezidin səltənəti ilə baş-başa gələ bilməzsiniz; çünki haqq əhli çox azdır. İnsanlar dünyanın köləsi olmuşlar. Onların dünyası bəni-Üməyyə ilə uyuşduğu üçün bəni-Üməyyənin ətrafına toplaşmışlar. Qalib gəlməyəcəksiniz, bu səfərdən əl çəkin.

Əgər hicazda qalmaq istəmirsinizsə, onda Yəmənə gedin. Çünki orada sizi sevən çoxdur, camaatı da qeyrətlidir. Sizi yalnız, tənha qoymazlar. Orada ömrünüzün sonuna qədər rahat qala bilərsiniz».

İmam Hüseyn (ə) həqiqətləri hər kəsə bəyan edir, bu hərəkətinə mane olmaq istəyənlərə qısa cavablar verirdi. Amma qardaşı Məhəmməd ibn Hənəfiyyəyə, əmisi oğlu Abdullah ibn Abbas kimi yaxın və sirdaşlarına belə buyurdu: «Zahirdə qalib olmayacağımı mən də bilirəm. Zəfər və fəth üçün getmirəm: mən ölməyə gedirəm. Məzlumiyyətin gücüylə zülm və fəsadın kökünü qazımaq istəyirəm».

Bəzilərinin qəlbini gücləndirmək üçün həqiqətlərdən (sirlərdən) bir qismini onlara söyləmək məcburiyyətində qalırdı. Bir cavabında belə buyurur: «Cəddim Rəsulallahı yuxuda gördüm. Mənə belə buyurdu: «İraqa get. Şübhəsiz, Allah-təala səni şəhid olaraq görmək istəyir».

Məhəmməd ibn Hənəfiyyə və İbni Abbas: «Elə isə qadınları nə üçün aparırsan?»-dedikdə İmam belə buyurdu: «Cəddim buyurdu: «Şübhəsiz, Allah onları əsir olaraq görmək istəyir». Rəsulallahın əmriylə onları əsarət üçün aparıram. Yəni şəhadətimlə Əhli-beytimin əsarətində bir sirr vardır. Onların əsarəti

şəhadətimin tamamlayıcısıdır. Məzlumiyyətin bayraqdarlığını edərək Şama gedəcəklər. Yezidin xilafət və dünyəvi qüdrətinin kökünü qazıyacaq, küfr və zülmün bayrağını yıxacaqlar».

Elə də oldu. Həzrət Zeynəbi-Kubranın (s.ə) Yezidin qüdrət və əyləncə məclisində yüzlərlə bəni-Üməyyənin başbilənləri, xarici elçilər və bir çox yəhudi və xristianların qarşısında öz mübariz bəyanı və eləcə də imam Seyyidus-Sacidin Zeynul-Abidinin (ə) Şamda - Məscidi-Əməvidə Yezidin qarşısında minbərdəki xütbəsi ilə bəni-Üməyyənin əzəməti yox oldu. Bu bəyan və xütbələr xalqın qəflət yuxusundan oyanmasına səbəb oldu.

İmam Səccad (ə) Şamdakı xütbəsində Allah-təalaya həmd-səna etdikdən sonra belə buyurdu: «Bizə (Ali-Məhəmmədə) Allah tərəfindən altı xüsusiyyət verilmişdir; başqa insanlara görə yeddi fəzilətimiz vardır. Bizə elm, səbir, cömərdlik, fəsahət, igidlik və möminlərin qəlblərinə sevgimiz verilmişdir. Başqa insanlara görə fəzilətlərimiz isə bunlardır: Seçilmiş peyğəmbər – Məhəmməd bizdəndir; Siddiq Əmirəl-möminin Əli ibn Əbu Talib bizdəndir; Cəfəri-Təyyar bizdəndir; Allahın Rəsulunun aslanı Həmzə bizdəndir; bu ümmətin iki övladı imam Həsən və imam Hüseyn bizdəndir və bu ümmətin Mehdisi bizdəndir!»

Sonra özünü tanıtmağa başlayaraq belə buyurdu: «Tanıyanlar məni tanıyır; tanımayanlara isə indi özümü tanıdaram: Mən, xas sifət və fəzilətlərə sahib olan Xatəmul-ənbiya Məhəmməd ibn Abdullahın övladıyam...»

Məclisin vaxtının qısa olması İmamın (ə) buyurduğu sifətlərin hamısını söyləməyə imkan vermir. Daha sonra imam Səccad məlun Muaviyənin dövründə gecə-gündüz açıq-aydın mövlamız və müvəhhidlərin mövlası Əmirəl-möminin Əliyə lənət oxunan, illər boyu iftira deyilən minbərin üzərində durub Yezid, bəni-Üməyyə və düşmənlərinə xitabən şamlılara çatdırılması qadağan olunan Əmirəl-möminin həzrət Əlinin fəzilətlərini bəyan edərək belə buyurdu: «Mən, insanlar «La ilahə illallah» deyənədək onların burunlarına qılınc vuranın oğluyam; Mən, iki qılıncla[1] Rəsulallahın önündə döyüşənin, düşməni iki qılınıla vuran, iki dəfə hicrət edən, iki dəfə beyət edən, kafirlərlə Bədir və Hüneyndə döyüşən və bir

---

[1] İki qılıncdan məqsəd, Zülfiqar və ondan əvvəlki qılıncdır.

gözqırpımında olsa belə Allahı inkar etməyənin oğluyam; Mən, möminlərin salehi, Peyğəmbərlərin varisi, dinsizləri yox edən, müsəlmanların əmiri, mücahidlərin nuru, abidlərin ziynəti, Allah qorxusundan ağlayanların tacı və səbirlilərin səbirlisi, aləmlərin Rəbbinin elçisi olan Ali-Yasinin namaz qılanlarının ən yaxşısının oğluyam; Mən, Cəbrayılın təyid etdiyi və Mikayılın yardım etdiyi insanın oğluyam; Mən müsəlmanların hərəmini qoruyan, dindən çıxanları (nəhravanlıları), beyətdən dönənləri (Cəməl döyüşündə iştirak edənləri), zülm və tağut əhlini (Siffeyn döyüşünə qatılanları) və öz düşməni olan nasibiləri öldürən, Qureyşin hamısının ən iftixarlısı olan, möminlərin içində Allah və Rəsulunun dəvətini ilk qəbul edən, imanda hər kəsdən önə keçən, zalımların belini qıran, müşrikləri həlak edən, Allahın münafiqlərə qarşı oxlarından bir ox olanın oğluyam; Mən, Rəbbul-Aləmininhikmət dili, Allahın hikmət gülüstanı, Onun elm heybəsi, cömərd, bağışlayan, gülərüzlü, bütün döyüşlərdə qabaqcıl, igid, çox səbirli və gözəl əxlaqlı olan, ibadət üçün çox qiyam edən, nəfsini saflaşdırmış, fasiq dəstələri dağıdan, mübarizəsi ilə nəfsinin iradə cilovunu əlində tutan, qəlbi hər kəsdən daha güclü və daha sabit və əzmi hər kəsdən güclü olan, məzlumların haqqını hər kəsdən daha yaxşı alan, ən etibarlı, döyüş meydanlarında qızğın bir aslan kimi olan, döyüşlərdə istər piyada olsun, istər atlı, ona yaxınlaşanları yerə sərən, fırtınanın qumu, tozu, torpağı dağıtdığı kimi din düşmənlərini dağıdan, hicazlıların ən cəsuru, iraqlıların ən qəhramanı, məkkəli və mədinəli olan, hər batil dindən üz çevirib İslama yönələn, Əqəbədə beyət edən, Bədir və Ühüd qəhramanı, Ağacın altında Rizvan beyətinə qatılan, Allah üçün hicrət edən, ərəblərin ağası, Peyğəmbərin iki övladı Həsən və Hüseynin atasının oğluyam! Bax, bu sifətlərin sahibi cəddim Əli ibn Əbu Talibdir!».

İmam Zeynul-Abidin sonra belə buyurdu: «Mən, Xədiceyi-Kubranın oğluyam; Mən, Fatimeyi-Zəhranın oğluyam; Mən, başı arxadan kəsilmişin oğluyam; Mən, susuz dodaqlarla şəhid olanın oğluyam; Mən, digər insanların ixtiyarına qoyan, amma özünə isə suyun qadağan edildiyi kimsənin oğluyam; Mən, qüsl verilməyib, kəfənlənməyənin oğluyam; Mən, kəsilmiş başı nizədə dolaşanın oğluyam; Mən, Kərbəlada ailəsinin hörməti saxlanılmayanın oğluyam; Mən,

müqəddəs bədəni bir yerdə, başı digər bir yerdə olanın oğluyam; Mən, ailəsi əsir düşüb Şama gətirilənin oğluyam».

Sonra İmam (ə) yüksək səslə ağlamağa başladı; ardıcıl «mən..., mən...» deyir, babası həzrət Əlinin fəzilətlərini sayırdı. Nəhayət, camaat da cuşa gəldi, çığırıb ağlamağa başladı.

İmam Hüseynin şəhadətindən sonra Ona tutulan ilk matəm məclisi, Şamda - Əməvi məscidində tutulan bu matəm idi. Seyyidüs-Sacidin həzrət Zeynul-Abidin babası həzrət Əlinin fəzilətlərini xatırladıqdan sonra Yezidin və düşmənlərinin qarşısında atası imam Hüseynin başına gələnləri anlatmağa başladı. O qədər anlatdı ki, camaat hönkür-hönkür ağlamağa başladı. Yezid qorxuya düşərək, məscidi tərk etmək məcburiyyətində qaldı.

İmam Səccadın bu məsciddəki bəyanı Əməvilərin əleyhinə başlayacaq qiyamın təməlini qoydu. Bu səbəbdən Yezid peşman olduğunu bildirib, bu hadisənin günahını Ubeydullah ibn Mərcanının üstünə ataraq, onu lənətlədi. Sonda bəni-Üməyyənin küfr, zülm və dinsizlik səltənəti yıxıldı.

İndiyə qədər bəni-Üməyyənin zülümlə hökm sürdükləri Şamda onlardan heç bir kəsin belə qəbri qalmamışdır. Ancaq bəni-Haşim və Rəsulallahın Əhli-beytindən olan bir çox şəxsin məzarı oradadır. Şamlıların və hər arif, alim şiə və sünni müsəlmanların ziyarətkahı halına gəlmişdir.

Qısası, bütün tarixçilər və Kərbəla hadisəsini qələmə alanlar imam Hüseynin Mədinədən Məkkəyə, Məkkədən Kərbəlaya qədər olan müddət ərzində açıq-aydın və üstüörtülü olaraq daima şəhid olacağını söylədiyini və insanlara, ölmək üçün getdiyini anlatdığını yazmışdır.

İmam Hüseyn Məkkədə «Tərviyə» günü bir çox müsəlmanın qarşısında xütbə oxuyaraq öz şəhadətini açıq-aydın xəbər verdi. Allaha həmd-səna, Xatəmül-ənbiyaya səlat və salamdan sonra belə buyurdu: «Ölüm gənc qızın boynuna taxılan boyunbağı kimi Adəm oğullarının boyunlarına taxılmışdır, onlara əzəldən yazılmışdır. Yaqub Yusifin həsrətini necə çəkirdisə, mən də keçmişlərim üçün elə

darıxıram. Yetişəçəyim şəhadət yeri mənim üçün təyin edilmişdir. Sanki görürəm: Nəvavis[1] ilə Kərbəla arasında ac qurdlar bədənimi paramparça edirlər...»

Bu sözləri ilə insanlara Kufəyə, yəni xilafətin mərkəzinə gedə bilməyəcəyini, Kərbəla ilə Nəvavis arasında qaniçən qurdlar tərəfindən öldürüləcəyini bildirirdi. «Qurdlar»dan məqsəd bəni-Üməyyə və digər qəbilələrdən olan qatilləri idi ki, qaniçən qurdlar kimi onları tikə-tikə edib qətlə yetirərlər.

Bu kimi sözlər imam Hüseynin xilafət üçün deyil, şəhadət üçün hərəkət etdiyini göstərir. Yol boyunca müxtəlif ibarələrlə ölüm xəbərini verirdi. Fasilə verdiyi hər yerdə uşaqları və əshabını toplayıb hey belə buyururdu: «Yəhyanın başını kəsib zinakar bir qadına göndərmələri bu dünyvnın nə qədər puç və dəyərsiz olduğunu göstərməyə yetər. Yaxında mən məzlumun başını da bədənimdən ayırıb, şərab içən Yezidin yanına aparacaqlar».

Kufəyə 10 fərsəx qaldıqda Hürr ibn Yezid Riyahi 1000 atlı ilə imam Hüseynin yolunu kəsərək: «Ubeydullah Kufəyə getməyinizə mane olmağı və sizdən uzaqlaşmamağı mənə əmr etmişdir» - dedi. İmam hər hansı bir müqavimət göstərmədən təslim olub, orada yerləşdi.

Bir az düşünün, əgər imam Hüseyn əmirlik və xilafət sevdasında olsaydı, Hürrə təslim olardımı? Hürrün 1000-dən çox əsgəri yox idi, amma İmamın 1300 atlı və piyadə əsgəri vap idi. Bunların içində Qəməri-bəni-Haşim həzrət Abbas və həzrət Əli Əkbər kimi igid gənclər də var idi. Onların hər biri təkbaşına min nəfəri dağıtmağa yetərdi. Kufəyə də 10 fərsəxdən çox qalmamışdı. Tabeliyində olanlarla onları məğlub edib hökumətin mərkəzinə (Kufəyə) daxil olması lazım idi, xalq da döyüş hazırlığında İmamı gözləyirdi. Bu cür qalib gələ bilərdi; lakin İmam belə etmədi. Hürrün sözü ilə orada çölün ortasında qaldı. Dörd gün sonra düşmənə yardımçı dəstələr gəldikdə, Peyğəmbər övladının vəziyyəti daha da çətinləşdi.

Ağalar bu hadisələrə yaxşı diqqət etmiş olsalar cavablarını taparlar. İmam Hüseyn başqa bir məqsədlə bu qədər yol gəlmişdi. Xilafət düşüncəsi olsaydı,

---

[1] Mərhum Siqətul-İslam Mühəddis Cəlilul-qədr Hacı Şeyx Abbas Qumi (r.ə.) "Nəfsul-Məhmum"da belə deyir: "Şeyximiz Mühəddis Nuri (r.ə) "Nəasur-Rəhman" adlı kitabında belə deyir: "Nəvavis xristianların qəbiristanıdır". Kəfəminin haşiyəsində də belə yazmışlar: "Eşitdiyimizə görə, bu qəbiristanlıq orada yerləşmişdir. O bölgənin xalqı arasında cənub tərəfdə, çayın kənarında bir parça yerdir ki, ibn Həmzənin qəbrinin də orada olmağı mərufdur. Buranın bir qismi yığım, digər qismi də əkin yeridir. Kərbəla bu iki yerin arasında yerləşir".

düşmənlər onu hər tərəfdən mühasirə etdikdə və bu mühasirə ən şiddətli hala gəldikdə ətrafında olan insanların dağılması üçün şərait yaratmazdı.

Aşura axşamı söhbət və xütbələri iddiamızı təsdiqləyir. Çünki o gecəyə qədər atlı və piyada birlikdə 1300 nəfər İmamın yolunda döyüşməyə hazır idi. Amma İmam məğrib və işa namazlarından sonra yüksək bir yerə çıxaraq, uzun bir xütbə söylədi. Xütbəsində bir qisim məsələlərə toxundu ki, İmamın ordusuna məqam və dünya malı üçün qoşulanların canına böyük bir qorxu saldı. Bütün tarix kitablarında İmamın belə buyurduğu yazılmışdır: «Buraya hökumət və riyasət fikri ilə gələnlər bilsinlər ki, sabah burada olan hər kəs öldürüləcəkdir. Onlar məndən başqa kimsəni istəmirlər. Mən beyətimi sizlərdən götürdüm. Gecənin qaranlığından istifadə edərək durub gedin».

Hələ İmamın sözləri bitməmişdi ki, 42 nəfərdən başqa hamı durub getdi.. O 42 nəfərdən 18-i bəni-Haşimdən, 24-ü isə imam Hüseynin əshabından idi. Gecə yarısından sonra düşmən ordusundan 30 nəfər imam Hüseyni arxadan vurmaq üçün hücuma keçdi. İmam o arada Quran oxuyurdu. İmamın bu tilavəti onlara elə təsir göstərdi ki, tövhid ordusuna qatılıb imam Hüseynin cərgqəsinə keçdilər. Onlar ilə birlikdə haqqın qurbanları 72 nəfərə çatdı. Onların da çoxu zahid, abid və Quran qarisi idi.

Bütün bunlar, imam Hüseynin məqam düşgünü və xilafət arzusunda olmadığını göstərən açıq-aydın dəlillərdir. İmam Hüseynin hədəfi yalnız dini Əhya etmək və İslamın müdafiəsi idi. Vəzifəsini bu yolda canı və qanı bahasına yerinə yetirmək istəyirdi. Can verərək La ilahə illallah bayrağını yüksəldib, küfr və fəsad bayrağını yıxmağı qarşısına məqsəd qoymuşdu. Çünki dinə yardım etmək bəzən öldürmək, bəzən də ölməklə mümkün olur.

İmam Hüseyn də mərd-mərdanə qiyam edib, bir çox, xüsusilə kiçik uşaqlarını qurban verərək məzlumiyyətin gücu ilə bəni-Üməyyənin fəsad və zülmünün kökünü qazıdı.

İmam Hüseynin La ilahə illallah kəlməsini ucaltmaq üçün dinə böyük bir xidmət göstərdiyini dost-düşmən hər kəs təsdiq və təqdir edir. Hətta müsəlman olmayanlar belə bunu etiras edirlər.

# İMAM HÜSEYNİN (Ə) MƏZLUMİYYƏTİ HAQQINDA İNGİLTƏRƏLİ QADININ MƏQALƏSİ

XIX əsrdə fransız dilində yazılan bir ensiklopediyada bir ingiltərəli tədqiqatçı qadının «Üç şəhid» adlı uzun məqaləsi yer almışdır. O məqalənin məzmunu belədir «İnsanlıq tarixində üç nəfər haqqın ucalması üçün hər fədakarlıqdan daha üstün bir fədakarlıq göstərmişdir: Atomluqda Yunan həkimi Sokrat, həzrət İsa ibn Məryəm[1] və üçüncüsü müsəlmanların peyğəmbəri Həzrət Məhəmmədin nəvəsi həzrət Hüseyn».

Daha sonra belə davam edir: «Bu üç nəfərin şəhadət məqamına baxıldığı zaman, həzrət Hüseynin Sokrat və həzrət İsadan daha əhəmiyyətli və daha güclü olduğunu hər kəs təsdiqləyir. Bu səbəbdən Ona Seyyidüş-Şühəda (Şəhidlərin ağası) deyilir. Çünki Sokrat və həzrət İsa haqq yolunda sadəcə öz canlarını fəda etdilər. Amma həzrət Hüseyn vətənindən uzaq bir çölün ortasında, kimsənin əlinin yetişmədiyi bir yerdə düşmənlər tərəfindən mühasirəyə alındı və ən əzizlərini haqq yolunda fəda etdi. Onların hər birini fəda etmək, Hüseyn üçün öz başını verməkdən daha çətin idi. Öz əli ilə onları düşmənin qarşısına göndərərək bu yolda qurban etdi.

İmam Hüseynin məzlumiyyətinə ən böyük dəlil, qundaqda olan südəmər uşağını qurban etməsidir. Südəmər uşağa su vermək üçün apardıqda, o alçaq qövm su vermək əvəzinə onu oxladı. Dünya tarixində belə bir şey görülməmişdir. Düşmənin bu hərəkəti Hüseynin məzlumiyyətini sübut etdi. Bax, bu məzhlumiyyətin gücü ilə güclü bəni-Üməyyə ailəsinin izzətini yox edərək, onları bütün aləm qarşısında rəzil etdi. Onun və ailəsinin fədakarlıqları nəticəsində Məhəmmədin dini yenidən həyat qazandı».

[1] Bu qadın xristian olduğu üçün həzrət İsanın (ə) öldürüldüyünə inanır, amma biz müsəlmanlar Onun öldürüldüyünə və asıldığına inanmırıq. Çünki Qurani-kərim "Nisa" surəsi 157 və 158-ci ayəsində açıq-aydın belə buyurur: "... Halbuki, onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqda ixtilafda olanlar onun barəsində, əlbəttə, şəkk-şübhə içindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onlar İsanı öldürməmişlər. Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır..."

Milliyyətcə alman olan doktor Marbin, fransalı doktor Cozef və başqa bu kimi avropalı tarixçilərin hamısı yazdıqları tarix kitablarında Seyyidüş-Şühəda həzrət Hüseynin (ə) qiyam və fədakarlığının İslam dinini canlandırdığını və bəni-Üməyyənin zülm və küfrünün qarşısını aldığını təsdiqləmişlər. Əgər Onun bu qiyamı olmasaydı, bəni-Üməyyə tövhid dininin əsasını tamamilə aradan aparacaq və aləmdə Allah, Peyğəmbər, din və şəriət adına heç bir şey qalmayacaqdı.

## İSTƏNİLƏN NƏTİCƏNİN ƏLDƏ EDİLMƏSİ

Ərz etdiklərimin nəticəsi budur ki, insaflı dost-düşmən hər kəs həzrət Seyyidüş-Şühədanın (ruhlarımız ona fəda olsun) qiyam və döyüşünün din yolunda olduğunu qəbul edir. İmam Hüseynin (ə) şiələri, matəm tutanları və ziyarətçiləri bilirlər ki, O, Yezidin çirkin işlərinə qarşı çıxaraq savaşmışdır. O həzrətin haram və çirkin işlərin tüğyan etməsinə razı olmadığını anlayırlar. Bax, buna görə şiələr imam Hüseynin sevmədiyi çirkin işlərdən uzaq durub, vacib olan əməlləri diqqətlə yerinə yetirməyə çalışırlar.

Şiələr, həzrət Hüseynin bu böyük müsibət və bəlalara baxmayaraq Aşura günü - ki, dünya tarixində belə bir şey görülməmişdir - namazını tərk etmədiyini, hətta məğrib namazını camaatla qıldığını eşitdikdə və tarix kitablarında oxuduqda İmamın sevgisini qazanmaq üçün vacibləri, hətta sünnətləri yerinə yetirməyə səy göstərirlər. Çünki İmamın sevgisini qazanmaq, Allahın sevgi və rızasını qazanmaq deməkdir.

İmam Hüseynin qiyamının məqam əldə etmək üçün baş verdiyini zənn edən sizin kimi ağalar yanılaraq, həqiqəti gizlətmək istəyirlər. Belə hədislər, sizin düşüncənizin əksinə olaraq, şiələrin ruhunu gücləndirib, onları əmələ sövq edir. Xüsusilə bu mövzu geniş açıqlanar və İmamın şəhadətinin fəlsəfəsi gözəl bir şəkildə bəyan edilərsə, çox yaxşı nəticələrin əldə olunmasına səbəb olar.

Daim belə gözəl nəticələrin şahidi olmuşuq. Çünki hər il məhərrəm ayında xalqın yas libasları geyərək imam Hüseynin əzadarlıq mərasimlərində fəal bir şəkildə iştirak etmələri və alimlərin İmamın qiyamının fəlsəfəsini açıqlamaları

nəticəsində şeytanın hiylələrinə aldanmış bir çox gənc İmamın vücudunun bərəkəti ilə tövbə edib doğru yola gələrək, günahları tərk edir və həqiqi şiələrin cərgələrinə qatılırlar».

(Bu yerdə iştirakçıların çoxunun gözlərindən yaş axmağa başladı, məclisə böyük bir sükut hakim oldu. Biz də məclisi sona çatdırmaq istədik.)

**Nəvvab**: «Qibləsahib! Həqiqətən bizi çox təsirləndirdiniz. Peyğəmbərin reyhanı olan çox fədakar insan haqqında qısa bir vaxt ərzində gözəl bir şəkildə məlumat verdiniz. Cəddiniz Rəsulallah sizə əvvəzin versin. Bu anda burada hər kəsin imam Hüseyn üçün üzüldüyünü görürəm. Allah sizdən razı olsun, sizi öz lütf və rəhmətinə çatdırsın. İndiyə qədər kor-koranə başqalarının təsiri altına düşüb o məzlum mövlanın ziyarətinə gedə bilmədik və matəm məclislərində iştirak etmədik; bu söylədiyiniz faydalardan da məhrum olduq. Bunun səbəbi yalnış, xətalı təbliğlər, yersiz təəssüblərdən başqa bir şey deyildir! Bizə o mövlanı ziyarət etmək və onun matəm məclislərində olmağın bidət olduğunu deyirlər. Həqiqətən, necə gözəl bir bidətdir! İnsanı ayıldır, mərifət sahibi edir. Peyğəmbərin Əhli-beytinin həqiqətini və İslama xidmət edənləri insana tanıdır».

## ZİYARƏTİN SAVAB VƏ FAYDALARI

**Dəvətçi**: «Peyğəmbərin pak Əhli-beytinin matəm məclisləri və onların qəbirlərini ziyarət etməyin bidət olmasıyla əlaqəli söylədiyiniz sözlərə gəlincə, qətiyyətlə deyə bilərəm ki, o sözlər Xəvariç və Nasibilərdən qaynaqlanmışdır; alimləriniz də düşünmədən onlara tabe olmuşlar. Halbuki, bidət Allahdan, Peyğəmbərdən və Quranın bərabəri olan Rəsulallahın Əhli-beytindən gəlməyən hər əmirdən ibarətdir.

İmam Hüseynə ağlamaq və o həzrəti ziyarət etmək haqqında şiə, arabir də öz etibarlı kitablarınızda və hər iki tərəfin böyük alimlərinin yazdığı məqtəllərdə bir çox hədis nəql edilmişdir. Onların bəzilərini daha əvvəl zikr etmişdik.

İndi, vaxtın darlığını nəzərə alaraq, bütün məqatil və mötəbər hədis kitablarında imam Hüseyni ziyarət etmə haqqında nəql edilən məşhur bir hədisi

deməklə kifayətlənirəm: «Bir gün Rəsulallah Ümmül-möminin Aişənin evində idi. Bu vaxt imam Hüseyn gəldi. Peyğəmbər onu qucağına aldı, o qədər öpüb iynədi ki, sonda Aişə (dözməyərək) belə dedi:

- Anam, atam sənə fəda olsun! Hüseyni nə qədər çox sevirsən? Rəsulallah ağlayaraq:

- Onun ciyərimin parçası və reyhanım olduğunu bilmirsənmi?

Aişə, ağlamasının səbəbini soruşduqda, Peyğəmbər (s) belə buyurdu:

- Bəni-Üməyyənin Hüseynimə vuracağı qılınc və nizələrinin yerini öpürəm.

- Onu öldürəcəklərmi?

- Bəli. Susuz və ac olaraq şəhid edəcəklər. Mənim şəfaətim onlara yetişməyəcək. Xoş şəhadətindən sonra onu ziyarət edənlərin halına!

- Ya Rəsulallah! Onu ziyarət edənin savabı nə qədər olacaq?

- Mənim bir həccim qədər.

- (təəccüblənərək) Sizin bir həcciniz qədərmi?

- Mənim iki həccimin savabı qədər.

Aişə daha da təəccübləndi. Peyğəmbər (s) buyurdu: «Mənim dörd həccimin savabı qədər».

Bu minvalla Rəsulallah imam Hüseyni ziyarət edənlərin savabını durmadan artırırdı. Aişə isə bu savablar qarşısında çaşıb qalmışdı. Sonda Rəsulallah (s) belə buyurdu: «Aişə! Kim mənim Hüseynimi ziyarət edərsə, Allah-təala mənim doxsan həcc və doxsan ümrəmin savabını o ziyarətçinin əməl dəftərinə yazar». Artıq Aişə bir şey deməyib susdu». (Şəkil: 20-21)

Ağalar, Allah xatirinə insafla hökm verin. Rəsulallahın əhəmiyyətlə tövsiyə etdiyi belə bir ziyarət bidət ola bilərmi? Bilin ki, imam Hüseynin qəbrinin ziyarətinə və matəm mərasimlərinə getməyə müxalifət edən və buna bidət deyən kəs, Peyğəmbər və Onun Əhli-beyti ilə düşmənçilik edir.

# ƏHLİ-BEYT İMAMLARININ (Ə) QƏBİRLƏRİNİ ZİYARƏT ETMƏYİN FAYDALARI

Məsum imamların (ə) qəbirlərini ziyarət etməyin mənəvi faydaları və uxrəvi savablarının dünyəvi yararları da vardır. Çünki bu ziyarətlər insanlara can verir, bir çox ibadətləri yerinə yetirmələrinə səbəb olur. Düşünə bilən hər kəs bundan binəsib qalmaq istəmir. Əgər bu müqəddəs yerlərin ziyarətinə getməli olsanız, öz gözlərinizlə insanların ora necə axışdığını görərsiniz. Gecə-gündüz - bir neçə saat fasilə verməklə - o məkanlar zəvvarların üzünə açıq olur.

Bağlı olduğu müddət ərzində nəzarətçilər istirahat edirlər, daxildə isə təmizlik işləri görülür. Ziyarətçilərin hamısı vacib və sünnət namazları qılmaq, Quran oxumaq, zikr və dua etmək kimi müxtəlif ibadətlərlə məşğul olurlar. Öz şəhər və vətənlərində vaciblərdən başqa digər ibadətləri yerinə yetirə bilməyənlər sübh azanından iki saat əvvəl Allaha ibadət edər, Quran oxuyar və Allah qorxusundan ağlayarlar. Şəhər və vətənlərinə döndükdə də eyni ibadətləri adət halına salıb davam etdirər, günah işləməz, sünnət və qəza namazlarını böyük bir istəklə yerinə yetirərlər. Hər gün, sübh, günorta və axşam ən az üç dəfə, hər dəfə də ən az iki-üç saat namaz qılmaqla, dua, Quran və zikrlər oxumaqla Allahın rəhmət və lütfünü qazanmağa çalışarlar. Məgər bir çox əməlin yerinə yetirilib insanların müxtəlif ibadətlərlə məşğul olmasına səbəb olan bu ziyarətlər bidətdirmi?

Əgər məsum İmamların (Allahın rəhməti onların üzərinə olsun) ziyarəti bu cür ibadətlərə səbəb olmaqdan başqa digər hər hansı bir faydası olmasaydı belə, sırf bunun müsəlmanların ziyarətə təşviq edilməsinə bais olurdu. Öz şəhərlərində dünyəvi işlər ilə məşğul olduqlarına görə çox ibadət edə bilməyənlər bu vəsilə ilə xoşbəxtlik və səadətin təməli olan uca Allahla əlaqələrini sağlamlaşdıraraq, mənəviyyat əldə etmiş olurlar.

Əhli-sünnət şəhərlərində istər alim, istər cahil hər kəsin, iyirmi dörd saat ərzində ardıcıl ibadətlə məşğul olduğu - məscidlər istisnadır - müqəddəs bir yer göstərə bilərsinizmi? Məscidlərdə də xalq, sadəcə namaz qılır və o dəqiqə dağılırlar. Bağdadda Şeyx Əbdül-Qadir Kilani və Müəzzəmdə imam Əbu

Hənifənin qəbirlərinin olduğu məkanlar isə hər zaman bağlı, təkcə namaz vaxtları açıq olur. Orada da bir neçə nəfər gəlib namazlarını qılır, sonra da dağılıb gedirlər.

Amma şiənin iki haqq İmamının - yəni 10-cu imam Əli Nəqi (ə) ilə 11-ci imam Həsən Əsgərinin (ə) qəbirlərinin olduğu məscidlərin qapıları və bütün xalqı, hətta xidmətçiləri belə sünni olan Samirra şəhərində şəfəq vaxtı olan kimi türbələrin qapıları ziyarətçi və elm əhli olan tələbələrin izdihamına görə çətin açılır. Sünnilərdən istər alim olsun, istər cahil, heç kəsin oradakı məscidin bir günçündə ibadətlə məşğul olduğunu görmədim. Hətta o xadimlər belə qapıları açdıqdan sonra gedib yatırlar. Ancaq şiələr hərəmdə böyük bir şövqlə ibadətlə məşğul olurlar. Bu müqəddəs yerlərin şiələrə qazandırdığı təsir və bərəkətlər bax, bunlardır.

Allah nəsib edər, inşallah İraqa gedərsiniz. Orada bir-birindən iki fərsəx uzaqlığı olan iki şəhər görəcəksiniz: Kazimeyn və Bağdad.

Kazimeyn şiələrin mərkəzi olub, imam Musa ibn Cəfər (ə) və imam Məhəmməd ibn Əli Cavadın (ə), Bağdad isə əhli-sünnətin mərkəzi olub, Şeyx Əbdul-Qadir Kilani və sizin imam əzəminiz Əbu Hənifənin qəbirlərinin olduğu yerdir.

Bir az diqqət etsəniz, şiələrin haqq İmamlarının (ə) uca hədəflərini öz gözünüzlə görməyə çətinlik çəkməzsiniz. Kazimeyn xalqı məsum İmamların qəbirlərinin bərəkəti və o iki nurlu məzarın ziyarəti eşqinə görə axşam tez yatıb, sübh azandan əvvəl qalxaraq böyük bir şövqlə (türbələrin olduğu yerə gedərək) ibadətə başlayırlar.

Evləri Kazimeyndə, dükkanları isə Baqdadda olan bir çox şiə tacir də sübh ibadətlərini orada edər, sonra işləri üçün Bağdada gedərlər. Amma Bağdad xalqı, qəflət yuxusuna dalıb, günah və əyyaşlıqda qərq olmuşlar!»

**Nəvvab**: «Doğrusu, indiyə qədər araşdırmadan, kor-koranə bəzilərinin sözünə inanıb onlara tabe olduğum üçün özümə lənət etmək istəyirəm.

Bir neçə il əvvəl buradan bir axmaq Bağdada gedirdi. Mən də onlarla imam əzəm Əbu Hənifə və Şeyx Əbdul-Qadirin ziyarətinə getdim. «Bir gün də

Kazimeyni gəzməyə gedək»-dedim. Gedib qayıtdıqdan sonra yoldaşlarımın mənə çox qəzəbləndiklərini gördüm.

Həqiqitən çox qəribədir. Necə olur, Peyğəmbərdən hər hansı bir hədis olmadığı halda Müəzzəmdə imam Əzəmin, Bağdadda Şeyx Əbdul-Qadirin, Hindistanda Nizaməddinin və ya Misirdə Şeyx Əkbər Muqbiluddinin ziyarəti caiz olur, amma Rəsulallahın reyhanı olan və Allah  yolunda fədakarlıq edən Hüseynin ziyarəti bidət olur?! Halbuki, Peyğəmbər həzrət Hüseyni ziyarət etməyin o qədər çox savabı olduğunu buyurmuşdur. Ağıl da bunu qəbul edir!

İndi qəti qərara aldım ki, əgər sağ qalsam, inşallah  bu il Allahın rizasını qazanmaq üçün Rəsulallahın əziz övladı şəhid Hüseynin ziyarətinə gedəcəyəm. Allahdan keçmişdə etdiklərimizin bağışlamasını diləyirəm. Bu gecə qəmli halda hüzurunuzdan ayrılıram. İnşallah, sabah axşam görüşərik.

# SƏKKİZİNCİ GECƏ

1 şaban, Cümə, 1345-ci il. (1924)

İşa namazını qıldığım vaxt möhtərəm ağalar gəldilər. Namazdan və çay süfrəsindən sonra məclis açıq elan edildi.

**Seyid Əbdülhəy**: «Keçən axşam, sizin kimi şəxsə heç də yaraşmayan, bir qrup şeylər söylədiniz. Bu sözləriniz müsəlmanların birlik və bərabərliyinin pozulmasına, onların iki hissəyə bölünməsinə səbəb olur. Sizin də bildiyiniz kimi, nifaq və ixtilaf müsəlmanların zəifləmələrinə bais olduğu kimi, ittifaq və birlik də müsəlmanların əzəmət və üstünlüyünə səbəb olur».

**Dəvətçi**: «(Təəccüblənərək) hansı sözlərimin müsəlmanların parçalanmasına səbəb olduğunu bəyan etsəniz, çox yaxşı olardı. Əgər sözünüz doğrudursa və məndən bir qəflət hasil olmuşsa, bu halda mən də öyrənmiş olar, əks təqdirdə cavab verərək, müşkülü həll etməyə çalışaram».

**Seyid Əbdülhəy**: «Açıqlamalarınız əsnasında müsəlmanları «müslim» və «mömin» deyə iki yerə ayırdınız. Halbuki məlum olduğu kimi, müsəlmanların hamısı birdir və «La ilahə illəllah Muhəmmədun Rəsulullah» deyən hər kəs qardaşdır. Onları bir-birindən ayırmaq, əsla doğru deyildir. Müsəlmanları parçalamaq İslama zərər verir.

Sizin kimilərin sözləri nəticəsində şiələr özlərini mömin, bizləri isə müslim kimi tanıyırlar. Bu səbəbdən Hindistanda şiələri mömin, sünniləri isə müslim adlandırırlar. Halbuki bilindiyi kimi, iman və İslam birdir. Çünki İslam təslimlik və şəri hökmləri qəbul etməkdən ibarətdir. İmanın mənası və təsdiqin həqiqəti də budur.

Bu səbəbdən ümmətin çoxu İslamın iman ilə eyni olduğu və imanın İslamın açıq-aydın bir həqiqəti olduğu fikrində ittifaq etmişlər. Bunlar bir-birindən ayrılmaz. Daha doğrusu, iman və İslamı bir-birindən ayırmaqla, çoxluğun əksinə danışmış oldunuz».

# İSLAM VƏ İMANIN FƏRQİ

**Dəvətçi**: «(Bir az səssiz durduqdan sonra təbəssüm edərək) Necə cavab verəcəyimi bilmirəm. Əvvəla; sözünüzdə işarə vurub qəsd etdiyiniz çoxluq, ümmətin çoxu mənasında deyildir. Çoxluqdan məqsəd, əhli-sünnət vəl-camaatın sadəcə bəzisidir.

İkincisi; iman və İslam haqqındakı bəyanınız kifayət deyildir. Çünki bu mövzuda fikir ayrılığı təkcə əhli-sünnət və şiə arasında deyil; Əşərilər, Mötəzilər, Hənəfilər və Şafeilər də bu mövzuda fərqli nəzərlərə sahibdirlər. Təəssüflər olsun ki, vaxt dar olduğuna görə burada müxtəlif firqələrin bütün nəzərlərini rəvayət etmək imkanımız yoxdur.

Üçüncüsü; sizlər də alim və Quran əhlisiniz; müqəddəs Kitabın ayələrini bilirsiniz. Çox təəccüb edirəm: belə avam suallar verməkdə məqsədiniz nədir? Bəlkə də ağaların məqsədi məclisin vaxtını almaqdır! Axı burada istifadə edə biləcəyimiz daha çox əhəmiyyətli mövzular vardır. Uşaq kimi etiraz etməyinizi, doğrusu sizdən gözləmirdim. Mənim iman və İslamı iki yerə ayıraraq ikitirəlik yaratdığımı iddia etməniz sizə yaraşmaz! Halbuki, bu ayrıseçkiliyi bilavasitə Quran bəyan etmişdir. Məgər siz Quranda bəzi əshabın əhvalatını yaddan çıxartdınız. Məgər Allah-təala «hücurat» surəsinin 14-cü ayəsində aşkar surətdə belə buyurmamışdır?: «**Bədəvi ərəblər: «Biz iman gətirdik!» dedilər. (Ya Peyğəmbər! Onlara) De: «Siz (qəlbən) iman gətirmədiniz! Ancaq «Biz İslamı qəbul etdik!» deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır**»[1].

Bildiyiniz kimi, bu ayə bəni-Əsəd ərəblərini qınamaq üçün nazil olmuşdur. Onlar qıtlıq ilində Mədinəyə gələrək iman və İslam izharında olmuş, iki şəhadət (La ilahə illəllah Muhəmmədun Rəsulullah) kəlməsini söyləmişdilər. Halbuki onlar Mədinənin nemətlərindən istifadə etmək üçün İslamı qəbul etmişdilər. Bu ayə onların yalanının üstünü açır.

Bu ayənin zahiri hökmünə əsasən müsəlmanlar iki yerə ayrılır: müsəlmanlardan bir qrup qəlbdən iman gətirib, həqiqətlərə inanmışdır. Bunlara

---

[1] "Hücurat" surəsi, ayə: 14.

«mömin» deyilir. Digər qrup isə qorxu, tamah və sair oxşar hədəflər üçün (bəni-Əsəd qəbiləsi və digərləri kimi) zahirdə iki şəhadət kəlməsini söyləmiş, müsəlman olduqlarını ifadə etmişlər. Amma bilindiyi kimi, onların qəlbində mənəvi iman və İslam həqiqətindən bir iz belə yoxdur. Onlarla muaşirət etməyə icazə də zahirə görə verilmişdir. Bilindiyi kimi, Quranın hökmünə əsasən axirətdə onlar üçün bir savab yoxdur. O halda, sadəcə şəhadət gətirmək və zahirdə İslamı qəbul etmək mənəvi nəticələr doğurmaz».

**Seyid Əbdulhəy**: «Bu bəyanınız doğrudur, imansız İslamın (təslimiyyətin) heç bir dəyəri, həmçinin İslamsız imanın da heç bir faydası yoxdur. Allah-təala Quranda belə buyurur: «Sizə müsəlman olduğunu söyləyənə «Sən mömin deyilsən!» deməyin!»[1]

Bu ayə zahirə görə hökm verməyimizin zəruriliyini göstərən ən böyük dəlildir. Hər kim «La ilahə İlləllah, Muhəmmədun Rəsulullah», deyərsə, onu təmiz, müqəddəs və qardaşımız sayar; iman etdiyini rədd etmərik. Bu, İslam və imanın birliyini göstərən ən yaxşı dəlildir».

**Dəvətçi**: «Əvvəla; bu ayə bəlli bir şəxs haqqında nazil olmuşdur; (o, Üsamə ibn Zeyd və ya Mühəlləm ibn Cüsameyi-Leysidir ki,) döyüş meydanında «La ilahə illallah» deyən bir döyüşçünün qorxudan şəhadət verdiyini düşünərək öldürmüşdü. Amma sizin də təsdiq etdiyiniz kimi, ayə ümumu ifadə edir. Buna görə də açıq-aşkar zidd bir əməl və zəruriyyəti inkar edən və dindən uzaqlaşma kimi bir vəziyyətə şahid olmayana qədər bütün müsəlmanları təmiz bilir və onlarla yaxın unsiyyətdə olarıq. Zahiri hökmlərdən kənara çıxmaz, batinləri ilə maraqlanmaz və özümüzü insanların daxilini araşdırmaqda vəzifəli bilmərik.

## İMANIN MƏRTƏBƏLƏRİ

Həqiqətin kəşfi üçün bu mövzu barədə bir az izahat vermək istəyirəm. İman və İslam arasında fərq vardır: ümumi-mütləq və ümumi-min vəch (bir baxımdan

---

[1] "Nisa" surəsi, ayə: 94.

ümumi və xüsusi əlaqə növü. Yəni hər müsəlman mömin deyil, amma bilindiyi kimi, hər mömin müsəlmandır).

İmanın bir çox mərtəbəsi vardır. Əhli-beytdən (ə) nəql edilən rəvayətlər ixtilafları ortadan qaldırır və gün kimi aydın həqiqəti kəşf edir.

Əmr Zübeyridən nəql olunur ki, haqqı deyən və həqiqətin sirlərini açıqlayan imam Sadiq (ə) belə buyurur: «İmanın bir çox hal, dərəcə, təbəqə və mərtəbələri vardır; onlardan bəzisi naqisliyi açıq-aydın görünən nöqsan, bəzisi üstünlüyü çox olan ağır bir məqam, bəzisi tamamlığı aydın dərəcədə olan tam və kamildir».

Naqis iman küfr dairəsindən çıxıb müsəlmanlara qatıldıqdan sonra can, mal, namus və qanını qorumağa çalışdığı qüvvə imanın ilk mərtəbəsidir. Amma məlum olduğu kimi, hədisdəki racih (üstünlüyü ağır edən) iman, imanın bir qisim sifətlərinə sahib olub, başqa bir qism sifətlərə sahib olmayanın imanından üstün olanın imanıdır. Bu sifətlərdən bəzisinə «Kafi» və «Nəhcül-bəlağə» kimi kitablarda nəql olunmuş hədislərdə işarə edilmişdir. Bu səbəbdən mömindərin ağası Əmirəl-möminin Əli (ə) və imam Cəfər ibn Məhəmməd Sadiqdən (ə) belə nəql edirlər: «Şübhəsiz, Allah-təala imanı 7 əsas üzrə qərar vermişdir: Yaxşılıq, doğruluq, yəqin, riza, vəfa, elm və helim. Daha sonra Allah-təala bu sifətləri insanlar arasında bölmüşdür. Elə isə bu 7 qisim iman (xüsusi) kimdə olarsa, o, kamil mömindir».

O halda, bu iman sifətlərindən bəzisinə sahib olanın imanı, bu sifətlərin heç birinə sahib olmayanın imanından üstün olur. Amma kamil iman, bütün təriflənmiş sifət və bəyənilmiş əxlaqa sahib olanın imanıdır. Bu halda İslam, imanın ilk dərəcəsi olan Allah-təalanın birliyinə və Məhəmmədin (s) nübuvvətinə iqrar etməkdən ibarətdir. Amma din və imanın həqiqəti belə bir insanın qəlbinə hələ girməmişdir. Bu səbəbdən Peyğəmbəri-əkrəm ümmətindən bəzisinə belə buyurmuşdur: «Ey diliylə müsəlman olduğunu söyləyib, lakin qəlbinə iman ixlası daxil olmayan cəmiyyət!»

Şübhəsiz, iman və İslam arasında fərq vardır. Amma bilindiyi kimi, biz də insanların batinini bilməklə vəzifələndirilməmişik.

Keçən gecə müsəlmanların arasına ixtilaf və ikitirəlik toxumunun atılmasına səbəb olan bir söz söyləmədim. Sadəcə olaraq, möminin əlamətinin onun əməlləri olduğunu bildirdim.

Bilindiyi kimi, müsəlmanların əməllərini təftiş etmə kimi bir vəzifəmiz yoxdur. Lakin qafil olanları əməl etməyə sövq etmək və zahirdən batinə, surətdən mənaya yönəldərək, imanın açıq-aydın həqiqətinə çatmalarını təmin etmək üçün mütləq imanın əlamətlərini bildirmək məcburiyyətindəyik. Beləcə, axirətdə qurtuluşun, yalnız əməl ilə olduğunu bilmiş olarlar. Bu səbəbdən bir hədisdə belə buyurulur: «İman dil ilə iqrar, qəlb ilə etiqad və orqanlarla əməl etməkdir».

O halda dil ilə iqrar və qəlb ilə etiqad əməlin ilk hazırlığıdır. Daha doqrusu, «La ilahə illəllah, Muhəmmədun Rəsulullah» deyən, lakin vacibləri tərk edən və haramlardan uzaq durmayan bir insanı mömin saya bilməz, zahirdə onu özümüzdən uzaqlaşdırmaz, onunla İslam çərçivəsində rəftar edərik.

Digər tərəfdən, bu dünyanın bir hazırlıq mərhələsi olduğunu, axirət aləmində belə insanın qurtuluşa çatmayaçağını da bilirik. Orada qurtuluş sadəcə xalis və saleh əməllərlə mümkündür. Bu səbəbdən «Əsr» surəsində belə buyurulur: «Əsrə and olsun ki, iman edənlər və saleh əməldə olanlar xaricində bütün insanlar ziyandadırlar».

O halda, Quran hökmünə əsasən imanın əsası saleh əməldir; əməli olmayanın dil və qəlblə inancı olsa da, imanı yoxdur.

## ƏHLİ-SÜNNƏT QURANİ-KƏRİMİN ƏKSİNƏ OLARAQ ŞİƏ MÜSƏLMANLARI RƏDD EDİR

Burada bilavasitə sözlərinizə əsaslanaraq deyirəm: əgər zahirə hökm edərək «La ilahə illəllah, Muhəmmədun Rəsulullah» deyəni müsəlman, mömin və qardaşınız sayırsınızsa, o halda nə üçün Allah-təalanın birliyini və Xatəmül-ənbiyanın (s) nübuvvətini iqrar edən, bir qiblə və bir Kitaba inanan, vacibləri müstəhəblərlə yerinə yetirən, namaz qılan, oruc tutan, həccə gedən, haramlardan çəkinən, xums və zəkat verən, cismani dirilişə inanan şiə müsəlmanları və Əhli-

beyt (ə) tərəfdarlarını kafir, müşrik və rafizi sayaraq, özünüzdən uzaqlaşdırırsınız?! Xarici, nasibi və Əməvi təbliğatının təsirinin hələ də üzərinizdə olması, həqiqətən təəccübedicidir!

Əslində, müsəlmanları iki yerə bölən və nifaq çıxaran sizlərsiniz. Çünki 100 milyondan çox müsəlman, mömin və müvəhhidi rədd edir, onları kafir, müşrik və rafizi sayırsınız. Halbuki, onların müşrik və kafir olduğuna dair kiçik bir dəliliniz də yoxdur. Dedikləriniz iftiradır, mövzuları qarışdırmadır; sözləriniz puç və məntiqsizdir! Bilin ki, bu təhriklər müsəlmanları bölüb-parçalamaq və onlara hakim olmaq istəyən xarici qüvvələrinin oyunudur.

İmamət və vilayət istisna olmaqla, əhkam və qayda üsullarında heç bir ixtilafımız yoxdur. Əgər əhsamın təfərruatındakı ixtilafları söyləməyə çalışsanız, bilin ki, bu cür ixtilaflar bizdən çox, bilavasitə sizin dörd məzhəbiniz arasında daha şiddətlidir. Bu anda hənəfi, maliki, şafei və ya həmbəlilərin ixtilaflarını saymağı məqsədə uyğun bilmirəm. İlahi ədalət məhkəməsində şiə müsəlmanların şirk və küfrlərinə dair deyə biləcəyiniz iftira və təəssübdən başqa bir dəlilinizin ola biləcəyini düşünmürəm.

Əhli-sünnət qardaşlarının gözündə şiə müsəlmanların əfv edilməyəcək tək günahı Peyğəmbəri-əkrəmin (s) hədislərini, hökm və əmrlərini sizin nəfsani istəklərinizə və məqsədlərinizə uyğun dəyişdirməməsidir; Fəqihlərinizin, hətta böyük xəlifələrinizin belə rədd etdiyi Əbu Hureyrələr, Ənəsilər və Səmurə kimilərini Rəsulallah arasında vasitəçi qəbul etməmələridir. Xarici, nasibi və Əməvilərin təhrikinə qapılaraq, onların şiələr haqqında atdıqları iftiraları, təəssüflər olsun ki, ciddi qəbul etmiş, inanmış və əhəmiyyətli saymısınız.

## ŞİƏNİN HƏZRƏT ƏLİ VƏ ƏHLİ-BEYTİN TƏQİBÇİSİ OLMASI VƏ DÖRD MƏZHƏB İMAMINA TƏQLİD ETMƏMƏSİNİN SƏBƏBLƏRİ

Şiələr bilavasitə Peyğəmbəri-əkrəmin (s) əmriylə Əhli-beytə (ə) tabedirlər; Rəsulallahın bilavasitə ümmətinə açdığı qapını bağlamağı çaiz bilmir, könüllərinin

istədiyi bir qapını da açmırlar. Əhli-sünnətin etdiyi ən böyük etiraz şiələrin nə üçün dörd məzhəb imamlarını deyil, Peyğəmbərin Əhli-beytindən olan on iki imama təqlid etmələridir.

Müsəlmanların gərək üsulda (əqidədə) Əşəri və ya Mötəzili, füruda (əməldə) isə Maliki, Hənəfi, Hənbəli və ya Şafei olmasının vacibliyi haqda Peyğəmbəri-əkrəmdən, əsla bir dəlil gətirə bilməzsiniz! Tam əksinə, bilavasitə ravilərinizin də Rəsulallahdan nəql etdiyi bir çox rəvayət (şiədə mütəvatirdir) Əhli-beyti Quranla bərabər bilməyi və ümmətə Əhli-beyti təqib etməyi əmr edir. Səqəleyn, Səfinə, Hittə qapısı və əvvəlki gecələr yeri gəldikcə sənədləriylə birlikdə təqdim etdiyim digər bir çox hədislər də dediklərimə sübutdur. Bunlar alimlərinizin mötəbər kitablarında yer alan və şiələr üçün ən böyük sağlam sənəd olan rəvayətlərdir.

Bu halda siz də öz kitablarınızdan üsulda Əbülhəsən Əşəri, Vasil ibn Əta və digərlərini, füruda isə dörd məzhəb imamlarınızdan birini - Malik ibn Ənəs, Əhməd ibn Hənbəl, Əbu Hənifə və ya Məhəmməd ibn İdris Şafeiyə təqib etməyin vacibliyini əmr edən bir dənə belə Peyğəmbər hədisi söyləyə bilərsinizmi?

Ağalar, bir az da olsa adət və təəssübünüzü kənara qoyun! Şiə müsəlmanların nə günahı var? Əgər sizin kitablarınızda Əhli-beyti təqib etməyin vacibliyini söyləyən mötəbər rəvayətlərdən yüzdə biri belə dörd məzhəb imamlarınızdan biri haqqında rəvayət edilmiş olsaydı, biz də qəbul edərdik.

## RƏSULALLAHIN ƏMRİNƏ ƏSASƏN ÜMMƏT ƏHLİ-BEYTƏ TABE OLMALIDIR

Amma nə edək ki, bütün mötəbər kitablarınız bizim inancımızı təyid edir. Əgər hamısını tək-tək zikr etsəm, aylarla vaxt aparar. Misal olaraq hafizəmdə olan bir rəvayəti danışım; bəlkə şiələrin getdiyi yoldan başqa çarələri olmadığını anlayasınız.

Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə» kitabının 4-cü bölümündə Həmuyinin «Fəraid» kitabından İbn Abbasdan nəql edərək Peyğəmbəri-əkrəmin (s) həzrət Əliyə (ə) belə buyurduğunu rəvayət edir: «Ya Əli, mən elm şəhəriyəm,

sən də onun qapısı. Şəhərimə gəlmək istəyən qapıdan girməlidir. Sənə nifrət etdiyi halda məni sevdiyini söyləyən yalan deyir; çünki sən məndənsən və mən də səndən; ətin mənim ətim, qanın mənin qanım, ruhun mənim ruhum, batinin mənim batinim, zahirin mənim zahirimdir. Sənə itaət edən səadətə çatar, üsyan edən alçalar. Səni sevən qazanar, sənə düşmənçilik edən zərər edər. Səninlə olan nicat tapar, səndən ayrılan həlak olar. Sənin və soyundakı imamların məndən sonrakı misalı, Nuhun gəmisi kimidir; ona minən nicat tapmış, qaçan isə boğulmuşdur. Sizin misalınız ulduzlar kimidir; Qiyamətə qədər bir ulduz gizləndikdə digər bir ulduz ortaya çıxar».

Şiə və əhli-sünnətin eyni tərəfdən yanaşdığı Səqəleyn hədisində də belə buyurulur: «Əgər Peyğəmbəri-əkrəmin (s) Əhli-beytinə (ə) sarılsanız, əsla azğınlığa düşməzsiniz».

Bu hədisi etibarlı ravilərininz fərqli yollarla rəvayət etmişlər. Bu səbəbdən əvvəlki gecələr bəzi ravilərinizə, sənəd silsiləsinə və mötəbər kitablarınıza işarə etməyə çalışdım.

İndi vaxt əl verdiyi qədər təkidlə həqiqətin isbatı üçün ərz edirəm: mütəəssib İbn Həcər Məkki «Səvaiq» kitabının 11-ci babının ilk bölümünün 92-ci səhifəsində «**Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar**»[1] ayəsinin təfsirində bu mövzuda araşdırma aparmışdır. Şeyx Süleyman Bəlxi Oənəfi də «Yənabiul-məvəddə» kitabının 59-cu babının (İstanbul çapı) 296-cı səhifəsində «Səvaiq»dən nəql edərək bu hədisin müxtəlif yollarla rəvayət edildiyini etiraf edir. Bu səbəbdən İbn Həcər belə deyir: «Səqəleyn hədisi bir çox yolla və Rəsulallahın 20-dən çox əshabından rəvayət edilmişdir».

Bəzisi Ərəfədə, bəzisi Peyğəmbəri-əkrəmin (s) ölüm döşəyində yatdığı və otağının əshabıyla dolub-daşdığı anda və bəzisi də Vida xütbəsində buyurduğunu söyləyir.

[1] "Saffat" surəsi, ayə: 24. Şiə və sünni yolları ilə nəql edilən bir çox mötəbər rəvayətlərdə İbni Həcərin də sözügedən ayənin təfsirində yer aldığı bir çox hədisdə ümmətin Qiyamət günündə həzrət Əlinin (ə) vilayətindən hesaba çəkiləcəyi yer almışdır.

İbn Həcər daha sonra öz inancını belə açıqlayır: «Rəsulalah bu hədisi Qurani-kərim və Əhli-beytin dəyərini göstərmək üçün fərqli yerlərdə söyləmiş ola bilər. Bunlarda heç bir ziddiyyət və ixtilaf yoxdur».

Eyni səhifənin əvvəlində belə deyir: «Səhih bir rəvayətdə belə deyilir: «Aranızda iki əmanət qoyub-gedirəm. Onlara tabe olduğunuz müddətdə, əsla azmazsınız. Bunlar Allah-təalanın Kitabı və itrətim olan Əhli-beytimdir».

Təbərani bu hədisi bir az əhatəli rəvayət edir: «Sizdən Quranı və Əhli-beytimi soruşacağam. O halda onlardan önə keçməyin və onlardan geri qalmayın! Yoxsa həlak olarsınız. Onlara bir şey öyrətməyə cəhd göstərməyin; çünki onlar sizdən daha elmlidir».

İbn Həcər «Səvaiq»in 92-ci səhifəsinin sonunda bu hədisi Təbərani və digərlərindən rəvayət etdikdən sonra, hədsiz təəssübünə baxmayaraq, belə deyir: «Qurani-kərim və Əhli-beytin «Səqəleyn» adlandırılmasının səbəbi, onların hər baxımdan ağır və izzəti-şərəfli olmalarıdır. Çünki «səql»dən[1] məqsəd təmiz, bəyənilmiş, dəyərli və çox faydalı olan şeydir; onlar hər cür pislikdən pakdırlar. Hər ikisi də din elminin mədəni, elmi hikmət, sirlər və şəri hökm və qanunlardır».

Məhz buna görə də Peyğəmbəri-əkrəm onlara (Quran və Əhli-beytə) sarılmağı və onlardan öyrənməyi əmr etmişdir. Rəsulallah bir yerdə belə buyurur: «Həmd olsun o Allaha ki, hikməti biz Əhli-beytdə qərar vermişdir».

Bəzilərinə görə də Quranla Əhli-beytin «Səqəleyn» adlandırılmasının səbəbi, onların haqlarına riayət etməyin vacibliyidir. Peyğəmbəri-əkrəmin Əhli-beyti bu qədər tövsiyə etməsinin səbəbi də onların Quran və sünnət xüsusunda elmli olmalarıdır.

Qurani-kərim və Əhli-beyt hovuzun başında Peyğəmbəri-əkrəmə yetişənə qədər, əsla bir-birindən ayrılmayacaqlar. Bu bəyanın dəlili də daha əvvəl zikr olunan «Onlara öyrətməyə cəhd göstərməyin; çünki onlar sizdən daha elmlidirlər» hədisidir. Onları bu sifətlərlə öz digər alimlərinizdən ayırın. Çünki Allah-təala onları pak yaratmış, üstün kəramət və fəzilətlərlə ümmətə tanıtmışdır.

---

[1] Təsbehin ipi, sıra, cərgə, tərtib, məslək.

Əhli-beytə sarılma əmrini göstərən rəvayətdə incə bir nöqtə vardır: dünya Qiyamət gününə qədər Allah-təala tərəfindən İlahi hökmləri yaymaqla vəzifələndirilən Əhli-beytdən əsla məhrum olmayacaqdır.

Çox qəribədir! Əhli-beytdən elmi uca mərtəbələrə və əməli dini vəzifələrə sahib olanların Əhli-beytdən olmayanlardan üstün olduğunu bilavasitə özü də etiraf edir. Buna baxmayaraq o, Rəsulallahın (s) bu əmrinin tam əksinə, birincilik haqqı olmayanları önə keçirmiş və Əhli-beyti (ə) tərk etmişdir. Ey bəsirət sahibləri, ibrət alın! Fitnə və təəssübdən Allah-təalaya sığınırıq!

İndi sizdən insafla cavab verməyinizi istəyirəm: Qurani-kərim və Əhli-beytə itaəti ümmətin qurtuluş və səadəti üçün yeganə yol bilən bu açıq əmrlər qarşısında vəzifəmiz nədir? Ağalar, yol olduqca təhlükəli və incədir, keçmişlərin adətini buraxın; elm, əxlaq və insafa sarılın. Məgər biz Quranı dəyişdirib zaman və məkanın tələbi ilə başqa bir kitabı seçə bilərikmi?».

**Seyid Əbdulhəy**: «Əsla belə bir şey ola bilməz; çünki Peyğəmbərin (s) əmanəti səmavi, möhkəm bir sənəd və böyük yol göstərəndir».

**Dəvətçi**: «Afərin! bax, həqiqət budur; necə ki, Quranı dəyişdirə bilmərik, Qurani-kərimin ayrılmaz bir hissəsi olan Əhli-beyti (ə) də tərk edə bilmərik. Bu halda Əhli-beytdən olmayanı Ondan necə önə keçirdirlər? Mənim bu sadə sualıma cavab verin. Məgər Əbu Bəkr, Ömər və Osman, haqqında bir çox ayə və (Səqəleyn, Səfinə, Babi-hittə və s.) hədis olan Əhli-beytdəndirmi ki, biz də Rəsulallahın (s) hökmünə görə onlara itaət etmək məcburiyyətində qalaq?!»

**Seyid Əbdülhəy**: «Əsla, heç kim Əlidən (k.v) başqa digər raşidi xəlifələrin Əhli-beytdən olduğunu söyləməmişdir; amma onlar Rəsulallahın (s) saleh səhabələrindəndir».

**Dəvətçi**: «Zəhmət olmasa, söyləyin; Peyğəmbəri-əkrəm (s) bir fərd və ya cəmiyyətə itaəti əmr etdikdə bəzisinə «Başqalarına itaətimiz bizim səlahımızadır» deməsi doğrudurmu? Digər insanlar hər nə qədər mömin və saleh olsalar belə, Rəsulallahın əmrinə itaət etmək vacibdir, yoxsa ümmətin salehlərinə?!».

# KOR-KORANƏ TƏQLİD İNSANA YARAŞMAZ

Rəsulallah (s) Qurani-kərimə və Əhli-beytə (ə) birlikdə bağlanmağı və onların önünə heç kimi keçirməməyi əmr etmişdir. Bu halda nə üçün başqalarını ən elmli və ən fəzilətli olan Əhli-beytdən önə keçirmişlər? Əbülhəsən Əli ibn İsmail Əşəri, Vasil ibn Əta, Malik ibn Ənəs, Əbu Hənifə, Məhəmməd ibn İdris Şafei və Əhməd ibn Hənbəl Peyğəmbəri-əkrəmin Əhli-beytidir, yoxsa həzrət Əli (ə) və onun nəslindən olan imam Cəfər Sadiq (ə) kimi digər on bir imam? İnsafla cavab verin».

**Seyid Əbdülhəy**: «Şübhəsiz, heç kim onların Peyğəmbəri-əkrəmin Əhli-beytindən olduğunu söyləməmişdir. Amma məlum olduğu kimi, onlar da ümmətin seçilənləri, fəqihləri və salehləri idilər».

**Dəvətçi**: «Lakin hamıya aydındır ki, 12 imam Rəsulallahın (s) Əhli-beytidir (ə). Sizin alimlərinizin də etiraf etdiyi kimi Peyğəmbər, Əhli-beyti Qurani-kərimin bərabəri yəni canlı Quran qəbul etmiş, itaətlərini qurtuluşa səbəb bilmiş və açıq-aydın onların hər kəsdən daha elmli olduğunu buyuraraq, onlardan önə keçilməməsini əmr etmişdir.

Bu qədər əhəmiyyətlə vurğulanan açıq-aydın əmrlərə baxmayaraq nə cavab verəcəksiniz? Peyğəmbəri-əkrəm: «Nə üçün əmrimə tabe olmadınız?! Niyə hamınızdan daha elmli olan Əhli-beytimdən başqalarını üstün bildiniz etdiniz?! Halbuki, mən onlardan önə keçilməməsini istəmişdim»,-deyə soruşarsa, nə cavab verəcəksiniz?

Bilin ki, şiələr öz məzhəblərini Rəsulallahın əmrinə əsasən, risalət elminin qapısı olan Xatəmül-ənbiyadan və Onun pak Əhli-beytindən almışlar. Həzrət Əli, Həsən və Hüseyn (ə) bir-birinin ardınca bu məzhəbə rəhbərlik etmişlər.

Amma üsulda Əşəri və ya Mötəzilə, Füruda isə Maliki, Hənbəli, Hənəfi və Şafei olanlar onlara tabelik mövzusunda Rəsulallahdan bir dənə belə olsun əmr almışlarmı? Onlar, hər şeydən əvvəl Əhli-beytdən deyillər və onlara tabe olma barədə heç bir əmr yoxdur.

İkincisi; Peyğəmbəri-əkrəmdən sonra səhabə və tabein dövrü olan III əsrə qədər də əsla adları hallanmamış, sonralar siyasi hadisələrin cərəyan etməsiylə və

ya bilmədiyim başqa səbəblərdən meydana çıxmışlar. Lakin məlum olduğu kimi, Rəsulallahın Əhli-beytindən olan İmamlar, xüsusilə imam Əli, imam Həsən və imam Hüseyn (ə) Peyğəmbərin dövründə yaşamışlar. Onların digər  fəziləti isə Əshabi-kisadan olmalarıdır. Bundan əlavə, yaddan çıxarmayın ki, Onlar haqqında Təthir ayəsi nazil olmuşdur.

Məgər Xatəmül-ənbiyanın əmriylə onun pak Əhli-beytindən həzrət Əli, Həsən və Hüseyn (ə) kimi məsum imamlara tabe olan şiə müsəlmanları müşrik, kafir adlandırmaq, qanlarını halal elan etmək doğrudurmu?

Onlar lazımsız işlər etdilər; əhliyyətdən olmayanları önə keçirtdilər, Peyğəmbəri-əkrəmin Əhli-beytindən olmayanları üstün tutdular.

Qurani-məcidin bərabəri olan Əhli-beyt xüsusunda sizinlə bir çəkişməmiz yoxdur. Əhli-təsənnün məzhəbinə tabe olanları kafir, müşrik adlandırmır, onları dini qardaşlarımız bilirik. Amma siz zavallı xalqın başını puç, mənasız ittihamlarla doldurub, Peyğmbəri-əkrəmin əmriylə Əhli-beytə tabe olan şiələri kafir, müşrik, rafizi və bidət əhli elan edirsiniz. Bu əməlinizə görə İlahi ədalət məhkəməsində nə cavab verəcəksiniz?

## İNSAN ELM VƏ AĞILA TABE OLMALIDIR

«Niyə Hənəfi, Maliki, Hənbəli və ya Şafei deyil, Əhli-beyt imamlarından olan Cəfər ibn Məhəmməd Sadiqin məzhəbinə tabe olursunuz?»,-deyərək bizi günahlandırırsınız. Lakin biz şiələrin heç kəsə qarşı kin və düşmənçiliyi yoxdur. Ağıl və elm bizə kor-koranə addım atmamağı əmr edir. Səmavi haqq kitab olan Qurani-məcid də bizə belə yol göstərir: «Sözü dinləyib, ən yaxşısına tabe olan qulları müjdələ»[1].

Biz də dəlil və bürhan olmadan heç kimə tabe olmuruq. Bizim yol göstərənimiz Allah-təala və onun Rəsuludur (s). Allah-təala və Xatəmül-ənbiya bizə hansı yolu göstərirsə, o yolla da gedirik.

[1] "Zümrə" surəsi, ayə: 19.

Quran ayələri və mötəbər kitablarınızda yer alan bir çox nəbəvi hədislərdə (şiədə mütəvatirdir) saysız-hesabsız dəlil və bürhan bizə düz yolun Peyğəmbəri-əkrəmin Əhli-beytinə tabelikdə olduğunu göstərir.

Əgər Qurandan bir ayə, öz hədislərinizdən də olsa, üsulda Əşəri və ya Mötəzili, Füruda isə dörd məzhəbdən birinə (Əbu Hənifə, Malik, Əhməd, Hənbəl və Şafeiyə) tabe olmağı əmr edən bircə hədis göstərə bilsəniz, mən elə o an təslim olub, sizdən olduğumu elan edərəm. Lakin belə bir dəliliniz yoxdur! Sadəcə onların islami fəqihlərdən olduğunu və hicri 666-ci ildə Məlik Tahir Bibrəsin insanları bu dörd məzhəbdən birini təqlid etməyə məcbur etdiyini söyləyə bilərsiniz. Hal-hazırda bu hadisəni şərhi ilə izah etməyə vaxtımız yoxdur.

Xüsusi izn və nəss olmadan, sadəcə bu dörd imamın təqlil edilməsinin vacibliyini deməklə, bütün İslam alim və fəqihlərinə açıq-aşkar zülm edir və onların elmi haqqlarını zay edirsiniz. Bunu təkcə mən söyləmirəm. Tarixdən də göründüyü kimi, məzhəbinizdən bir çox alim və fəqih çıxmışdır. Əldə olan məlumata görə, elmi səviyyədə bu dörd məzhəb imamından daha üstün, daha alim və daha fəqih idilər. Halbuki, onların haqqı zay edilmişdir.

Bilavasitə öz alimlərinizin mötəbər kitablarında yer alan o qədər aydın dəlil və nəslərə baxmayaraq, həzrət Əliyə (ə) tabe olmağı qəbul etməməyiniz, çox qəribədir. Halbuki, Allah-təala və Peyğəmbəri-əkrəm (s) bir çox ayə və Hədislərdə müsəlmanlara həzrət Əlini tanıtmışdır. Lakin heç bir dəlil və nəssinizin olmamasına baxmayaraq, sadəcə 4 imamı təqlid edir, onlara tabe olur və ictihad qapısını da bağlayırsınız».

**Seyid Əbdülhəy**: «Siz 12 İmama tabe olmağı məcburi bildiyiniz dəlillər əsasında, biz də 4 İmama tabe olmağı məcburi bilmişik!».

**Dəvətçi**: «Afərin! Afərin! Nə qədər gözəl bəyan etdiniz. Mən bürhan və dəlilə tabe oluram. Əgər dəliliniz varsa söyləyin. Bu səbəbdən Quranda belə buyurulur. «**De ki: «Doğru söyləyirsinizsə, dəlilinizi gətirin!**»[1].

Əvvəla; İmamların (ə), əhli-təsənnüdən fərqli olaraq, şiələr və ya onların sonrakı əsrlərdə yaşayan alimləri öz iradələrinə əsasən 12 nəfərdən ibarət olduğunu

---

[1] "Bəqərə" surəsi, ayə: 111.

icad etməmişlər! Əksinə, hər iki məzhəbdən nəql olunan rəvayətlər və bir çox nəslər İmamların (ə) 12 nəfərdən ibarət olduğunu, bilavasitə Peyğəmbəri-əkrəm (s) tərəfindən söyləndiyini təsdiq edir.

## XƏLİFƏLƏRİN 12 NƏFƏR OLDUĞUNU PEYĞƏMBƏR (S) BƏYAN ETMİŞDİR

Hörmətli alimləriniz də buna işarə etmişlər. Şeyx Süleyman Qunduzi Hənəfi «Yənabiül-məvəddə» kitabının (İstanbul nəşri) 77-ci babının əvvəlində, 444-cü səhifədə belə deyir: «Peyğəmbəri-əkrəmin: «Məndən sonra xəlifələr 12 nəfərdir»hədisinin təhqiqi. ..»

Bir rəvayəti nəql etdikdən sonra belə deyir: «Yəhya ibn Həsən «Əl-Ümdə» kitabında Rəsulallahdan (s) sonra xəlifələrin 12 nəfər, hamısının da Qüreyşdən olduğuna dair 20 yolla hədis rəvayət etmişdir. «Səhihi-Buxari» də 3, «Səhihi-Müslim»də 9, «Sünəni-Əbu Davud» da 3, «Sünəni-Tirmizi» də 1 və Həmididən isə 3 müxtəlif yoldan rəvayət edilmişdir».

Digər alimləriniz də, məsələn: Həmuyini «Fəraid»də, Xarəzmi və İbn Məğazəli «Mənaqib»də, imam Sələbi «Təfsir»də, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»ndə və xüsusilə Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba»nın 10-cu məvəddəsində, Abdullah ibn Məsud, Cabir ibn Səmurə, Salman Farsi, Abdullah ibn Abbas, Əbayə ibn Rəbi, Zeyd ibn Haris, Əbu Hureyrə və Əmirəl-möminin həzrət Əlidən (ə) müxtəlif yollarla Peyğəmbəri-əkrəmin (s) belə buyurduğunu nəql edirlər: «Məndən sonrakı xəlifə və imamlar 12 nəfərdir; hamısı da Qüreyşdəndir».

Bəzi rəvayətlərdə isə «Bəni-Haşimdəndir» yer almışdır. Bəzi rəvayətlərdə də bilavasitə adları zikr edilmiş, bəzilərində isə ancaq sayı qeyd olunmuşdur.

Bunlar sizin mötəbər kitablarınızda yer alan rəvayətlərdir. İndi əgər Peyğəmbəri-əkrəmdən 4 imam ilə əlaqəli bir rəvayətiniz varsa söyləyin, biz də təslim olaq. Etiraf edilməlidir ki, 4 imam haqqında bir dənə belə rəvayətiniz yoxdur. Şiə imamları ilə sizin imamlar arasında çox böyük fərq vardır!

Əvvəlki gecələrdə də işarə etdiyim kimi, bizim 12 imamımız (ə) Rəsulallahın (s) vəsiləri və Allah-təalanın təyin etdiyi imamlardır. 4 imam Onlarla (ə), əsla müqayisə edilə bilməz! Sizin imamlarınızın fiqh və ictiiad yönü vardır. Onlardan bəzisi məsələn; Əbu Hənifə, bilavasitə öz alimlərinizin etiraf etdiyi kimi hədis, fiqh və ictihad əhli deyil, qiyas əhli idi. Bu da onun elmsizliyini göstərir. Lakin bilindiyi kimi, bizim 12 imamımız (ə) İlahi höccətlər, vəsilər və Rəsulallahın xəlifələridir. Onlara səbəbsiz yerə təqlid etmirik; bilavəsitə Peyğəmbəri-əkrəmin əmrinə tabe olaraq yollarını izləyirik.

Hər dövrdə yaşayan şiə fəqih və müctehidləri İlahi əhkamı Kitab, sünnət, ağıl və icma ölçüləri ilə istinbat[1] edir və hökm çıxarırlar. Biz də onların fitvalarını yerinə yetirir və təqlid edirik.

Sizin fəqihləriniz Əhli-beyt (ə) imamlarının tələbələri idilər; təqlid və adət üzrə elm və əməl ustadlarını buraxıb, elmi təməlləri görməməzliyə vurub, qiyas və rəylə əməl edən tələbələrə yönəldiniz!».

**Seyid Əbdülhəy**: «İmamlarımızın sizin imamlarınızdan elm öyrəndiyi haradan bəllidir?

## İMAM CƏFƏR SADİQİN (Ə) MƏQAMINA İŞARƏ

**Dəvətçi**: «Həm tarixi həqiqətlər, həm də kitablarınızdakı qeydlər dediklərimi təsdiq edir. Böyük və dəyərli alimləriniz öz kitablarında bunu etiraf etmişlər. Bu mövzuda dəyərli alim Nurəddin ibn Səbbağ Malikinin «Fusulul-mühimmə kitabının haqq və həqiqətlərin sirlərini kəşf edən «İmam Sadiq (ə)» nəslinə müraciət edin. O, İmamın elm və fəziləti haqqında belə deyir: «İmam Sadiq (ə) elm və fəzilətdə seçilən və üstün şəxsiyyət idi. Elm əldə etmək istəyənlər dörd bir tərəfdən Onun ətrafına toplanırdılar. İmamın şöhrəti bütün bölgələrə yayılmışdı. Alimlər Əhli-beytin heç birindən, Ondan nəql etdikləri qədər hədis rəvayət etməmişlər. Ümmətin böyüklərindən çoxu Yəhya ibn Səid, İbn Cüreyh, Malik ibn

[1] Məna çıxarma, kəşf etmə, nəticə.

Ənəs, Süfyan Suri, Əbu Uyeynə, Əbu Əyyub Səcistani, Əbu Hənifə (hənifəlilərin imamı), Şöbə və daha bir çoxları imam Sadiqdən rəvayət nəql etmişlər».

Kəmaləddin ibn Əbu Təlhə özünün «Mənaqib» kitabında belə yazır: «Bir çox din imamı və böyük alimlər imam Sadiqdən (ə) hədis rəvayət edib, Onun elm və məlumatından istifadə etmişlər». Daha sonra da «Fusulul-mühimmə»nin müəllifinin saydığı adları sıralamışdır.

İmamın (ə) zahiri və batini kamal və fəzilətləri dost-düşmən - hər kəsin qəbul etdiyi bir şeydir. Bunu insaflı və inadkar olmayan böyük alimləriniz də öz mötəbər kitablarında qeyd etmişlər. Məsələn; Şəhristani «Miləl və Nihəl»də, Maliki «Fusulul-mühimmə»də və xüsusilə Şeyx Əbdürrəhman Sələmi «Təbəqatul-Məşayix» kitabında belə deyir: «İmam Cəfəri-Sadiq bütün həmdövrlərindən üstündür; O, dində tükənməz bir elmə sahibdir. Dünyaya qarşı zahid, şəhvətlərdən uzaq və hikmətlərdə kamil bir hikmətə sahibdir».

Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul» kitabının 6-cı babının əvvəlində bu mənanı əhatəli şəkildə rəvayət edərək belə deyir: «İmam Sadiq Əhli-beytin böyüklərindən və sayılanlarından idi. Bütün elmlərin və ibadətlərin əhli idi; davamlı zikr edir, açıq-aydın zöhd içində yaşayırdı. Quran oxumağa böyük həvəs göstərir, Quran dənizindən incilər çıxarır, maraqlı nəticələr əldə edirdi. Vaxtını hər cür itaətə ayırmışdı. Qiyamətdə verilən hesab kimi nəfsini hesaba çəkir, həmişə axirəti yada salırdı. Onun sözlərini dinləmək insanı dünyada zahid edir, hidayətinə uymaq insana Cənnəti qazandırırdı. Yanaqlarındakı nur Onun nübuvvət xanədanından olduğuna şəhadət verir, əməllərinin təmizliyi haqq və həqiqəti açıqlamağı, risalət soyundan olduğunu göstərirdi. Bir çox imam və böyük şəxsiyyətlər elmindən istifadə etmiş və Ondan hədis rəvayət etmişlər. Yəhya ibn Səid, İbn Cüreyh, Malik ibn Ənəs, Suri, İbn Uyeynə, Şöbə, Əyyub Səcistani və başqaları İmam Sadiqdən elm aldıqları üçün fəxr edir, qürurlanır və əsrin əhlinə məhz Ondan elm və hədis öyrəndiklərinə görə üstünlük iddiası irəli sürürdülər».

Əgər alimlərinizin imam Sadiq (ə) haqqındakı fikir və inanclarını rəvayət etməli olsam, mövzu olduqca uzanar. Bütün insaflı alimləriniz İmamın (ə) elm, zöhd, təqva və gözəl əxlaqda zamanının ən üstünü olduğunu etiraf etmişlər.

Əlbəttə, o imamət günəşini və sahib olduğu uca məqamlarının mində birini bu naqis dillə ifadə edə bilmək mümkün deyildir».

**Nəvvab**: «Qiblə sahib! Sözünüzü kəsdiyim üçün üzr dilərim. İcazənizlə, yadımdan çıxmasın deyə, bir şey soruşmaq istəyirəm».

**Dəvətçi**: «Buyurun, istədiyiniz zaman soruşa bilərsiniz; əsla narahat olmaram».

**Nəvvab**: «Əvvəlki gecələrdə də bəyan etdiyiniz kimi, şiə məzhəbi 12 İmam məzhəbidir. Bu halda niyə imam Cəfər Sadiqin adına bağlayaraq «Cəfəri məzhəbi» deyirlər?»

## CƏFƏRİ MƏZHƏBİNİN ZÜHURU

**Dəvətçi**: «Həzrət Məhəmməd (s) də, özündən sonra vəsi təyin edən digər peyğəmbərlər kimi, Əmirəl-möminin Əlini (ə) vəsisi, xəlifəsi və elm qapısı olaraq tanıtmış və ona itaəti ümmətinə əmr etmişdir. Amma bilindiyi kimi, Peyğəmbəri-əkrəmin vəfatından sonra müəyyən siyasi səbəblərdən xilafət məqamı Əbu Bəkr, Ömər və Osmanın əlinə keçdi. İlk günlər istisna olmaqla, bütün xilafət dövründə Əbu Bəkr və Ömər həzrət Əli ilə məşvərət edir və Onun məsləhətləri ilə hərəkət edirdilər. Gün kimi aydın həqiqətləri kəşf etmək üçün Mədinəyə gələn din alimləri də həzrət Əli ilə müzakirələr aparırdılar. Həzrət Əli həyatda olduğu müddət ərzində müqəddəs İslam dininə böyük xidmətlər göstərmişdir.

Lakin Əmirəl-mömininin şəhadətindən sonra xilafət Əməvilərin əlinə keçdi, vilayət və imamət tamamilə təhlil edilib, hücuma məruz qaldı. Peyğəmbəri-əkrəmin Əhli-beytinə böyük zülm və düşmənçiliklər edildi.

İmam Həsən (ə) və Hüseyn (ə) şəhid oldu, İmam Zeynul-Abidin (ə) və imam Məhəmməd Baqir (ə) böyük təzyiq və əziyyətlərə məruz qaldı; bütün yollar üzlərinə bağlandı. Sadəcə bir ovuc xalis şiələr onlardan elm və həqiqətləri öyrənirdi. Sonda onlar şəhid edildi.

Hicri II əsrin əvvəllərində Əməvilərin pis idarəçiliyi və zülmündən canadoyan xalq qiyam etməyə başladı; xüsusilə də Abbas və Üməyyə oğulları arasında qanlı

döyüşlər başladı. Əməvilərin başı özünümüdafiəyə qarışdığı üçün, artıq Rəsulallahın Əhli-beytinə əvvəllər olduğu kimi təzyiq göstərməyə imkan tapa bilmirdilər. İmam Sadiq (ə) bu fürsəti dəyərləndirərək, evinin qapısını açdı. Əməvilərin təzyiqi üzündən tənha bir guşəyə çəkilmiş İmam, məsciddə minbərə çıxıb, dini hökm və elmləri təbliğ etməyə başladı, 4 minə qədər tələbə dərslərinə qatılaraq, dini elm və hədislər öyrənib, İmamın sonsuz elm dəryasından istifadə etdilər.

İmamın dərsinə qatılan seçilən tələbələr əldə etdikləri elm nəticəsində 400 üsul (ədəb, ərkan) yazdılar; bunlar «Dörd yüz üsul» adı ilə məşhur oldu.

İmam Yafei Yəməni özünün «Tarix» kitabında imam Sadiqin elm və fəzilətdə tay-bərabəri olmadığını, uca elminin sonsuzluğunu yazmışdır. Bundan başqa, İmamın tələbələrindən olan Cabir ibn Həyyan Sufi o həzrətdən əldə etdiyi elmlər nəticəsində 1000 səhifəlik bir kitab və 500 risalə təlif etmişdir.

Əhli-sünnətin böyük imam və məşhur fəqihləri də imam Sadiqin feyzindən istifadə edən tələbələrdəndir. Məsələn: Əbu Hənifə, Malik ibn Ənəs, Yəhya ibn Səid Ənsari, İbn Cüreyh, Məhəmməd ibn İshaq, Yəhya ibn Səid Qəttan, Süfyan ibn Uyeynə, Süfyan Suri və başqaları. Bir çox insan qabiliyyətləri ölçüsündə İmamın nurlu hüzurundan istifadə etmişlər.

Belə elmi riyasətin həqiqətləşməsi Əhli-beytdən heç kimə nəsib olmamışdır. Heç bir maneə ilə qarşılaşmadan dini hökmləri, Quran ayələrinin təfsirini, elm və hədis təməllərini, sirr və həqiqətləri açıq-aşkar açıb söyləmək Onlardan heç birinə nəsib olmamışdır. Çünki Əməvilər həzrət Sadiqin ata-babalarını, Abbasilər isə İmamın oğullarından olan imamlara hədsiz dərəcədə ehtiramsızlıq göstərmiş, daim təzyiq altına saxlamışlar.

Şiə məktəbinin gün kimi aydın həqiqəti və Peyğəmbəri-əkrəmdən miras alınan Əhli-beyt (ə) elminin sirləri imam Sadiq vasitəsi ilə ortaya çıxmışdır. Elə buna görə də haqq şiə məzhəbi Onun adı ilə şöhrət tapmışdır. Yoxsa imam Sadiqlə digər Əhli-beyt imamları arasında əmisi İmam Həsən Müctəba başda olmaqla heç bir fərq yoxdur.

# BÖYÜK ÜRƏK AĞRISI VƏ ƏHLİ-BEYTƏ (Ə) ETİNASIZLIQ

Təəssüf ki, sizdən əvvəlkilər dost-düşmən hər kəsin ən elmli və kamil insan olduğunu qəbul etdiyi böyük bir İmamı hər kəsdən daha alim, daha faqih və daha kamil olaraq tanımadılar. Mübarək adını 4 məzhəb imamları arasında zikr etməyi belə rəva görmədilər. Halbuki imam Cəfəri-Sadiqin, alimlərinizin də təsdiq ediyi kimi, elm, fəzilət, zöhd, təqva və kamaldakı uca mərtəbəsinə və Peyğəmbəri-əkrəmin Əhli-beytindən olduğuna görə öndə durmağına haqq var idi.

Əgər say baxımından da baxsaq, 4 məzhəb imamlarından birinin tərəftarları belə imam Sadiqin (ə) tərəftarları qədər deyildir.

Təəssübkeş alimləriniz Peyğəmbəri-əkrəmin (s) pak Əhli-beytinə (ə) qarşı saysız-hesabsız tövsiyəsinə baxmayaraq əməldə onlara etina göstərməmişdir. Buxari və Müslim kimi böyük fəqihləriniz Əhli-beyt fəqihi imam Sadiqin (ə) rəvayətlərini öz kitablarında nəql etməmişlər. Hətta Əhli-beyt imamlarından Ələvi, Hüseyni, Səccadi, Musəvi, Rəzəvi və başqaları Zeyd ibn Əli ibn Hüseyn (şəhid), Yəhya ibn Zeyd, Məhəmməd ibn Abdullah (pak nəfsli), Hüseyn ibn Əli (Fəxdə dəfn olunub), Yəhya ibn Abdullah ibn Həsən və qardaşı İdris, Məhəmməd ibn Cəfəri-Sadiq (ə), Məhəmməd ibn İbrahim (İbn Təbatəba adı ilə məşhurdur), Məhəmməd ibn Məhəmməd ibn Zeyd, Abdullah ibn Həsən, Əli ibn Cəfər (Ərizi) və başqaları risalət xanədanının böyük alimlərindən də hədis və rəvayət nəql etməmişlər. Lakin halı bəlli Əbu Hureyrə, Əkrəmeyi-xarici və daha əvvəlki gecələrdə də söylədiyim kimi, bilavasitə alimlərinizin də təsdiq etdiyi bir ovuc iftiraçı, yalançı və saxtakar insanları cani-qəlbdən qəbul etmiş, onlardan hədis rəvayət etmişlər!

İbnul-Bəy belə yazmışdır: «Buxari həzrət Əlinin (ə) qatili İbn Mülcəmi tərifləyən İmran ibn Həttan kimi 1200-ə qədər xarici və nasibilərdən hədis rəvayət etmişdir»

# TƏƏSSÜFLƏR OLSUN!

Çox təəssüflər olsun! Rəsulallahın (s) Əhli-beytindən (ə) olmayan imam Əzəm (Əbu Hənifə), imam Malik, imam Şafei və imam Hənbəlin təqibçi və müqəllidlərini, üsul və füruda bir-birləriylə o qədər ixtilafları olmalarına baxmayaraq, təmiz müsəlman bilir və onlar üçün öz məzhəblərinə görə azad əməl etmələrinə haqq qazandırır, lakin imam Cəfəri-Sadiqin (ə) təqibçilərini kafir, müşrik və rafizi kimi tanıyırsınız. Şiələrin, hətta Allah-təalanın sığınacaq yeri qərar verdiyi Məkkədə belə inanc, əməl və ibadət azadlığı yoxdur. Hafiz Şirazi necə də gözəl bəyan edir:

***Əgər müsəlmançılıq Hafizdə olandırsa,***
***Ey vay, bu günün bir də sabahı varsa!***

Bilin ki, biz şiələr, əsla, ikitirəlik yaratmırıq. Əksinə siz, sizinlə eyni qibləni, namazı, orucu, həcci və digər dini hökmləri paylaşan yüz milyondan çox mömin və müvəhhid müsəlmanı özünüzdən uzaqlaşdırır, onları müşrik və kafir sayırsınız!

(Bu əsnada işa azanı oxundu. Namazdan sonra çay içildi və məclis Hafiz tərəfindən davam etdirildi.)

**Hafiz**: «Həqiqət buyurduğunuz kimidir; mən insafsız və haqqı qəbul etməyənlərdən deyiləm. Sizin də əhəmiyyətlə vurğuladığınız kimi, bir çox haqsızlıqlar olunduğunu qəbul edirəm; bütün ixlasımla sizdən olduqca istifadə etdiyimi və aydınlandığımı bildirmək istəyirəm.

İzn versəniz, həm sizdən şikayət etmək, həm də əhli-sünnəti müdafiə etmək üçün bir neçə şey söyləmək istəyirəm. Siz şiə alimləri nə üçün savadsız xalqınızı küfrə aparan bir qrup söz və davranışlardan çəkindirmirsiniz? Əlbəttə, onların bu söz və davranışları başqalarının da kafir deməsinə bəhanə yaradır.

İnsan yersiz bir söz və ya davranışı ilə hücuma məruz qalır; əbəs yerə əhli-sünnəti günahlandırmayın! Əksinə başqalarına söylədiyi sözlərlə qəlblərində nifrət yaradan və kafir deyilmələrinə səbəb olan siz şiələrsiniz».

**Dəvətçi**: «Küfr ilə nəticələnən söz və hərəkətlər nələrdir deyə bilərsinizmi? Təmənna edirəm, izah edin, mən də cavab verməyə çalışaram.

## NƏ ÜÇÜN ŞİƏ SƏHABƏLƏRƏ VƏ PEYĞƏMBƏRİN (S) XANIMLARINA TƏNƏ EDİR?

Hafiz: «Şiələr Xatəmül-ənbiyanın (s) xüsusi səhabələrinə və bəzi pakizə həyat yoldaşlarına böhtan ataraq, onları təhqir edirlər; bu isa açıq-aydın küfrdür! Çünki onlar illər boyu Rəsulallahın yanında tövhid kəlməsini 346-11-66 mir tahir ucaltmaq üçün kafirlərə qarşı döyüşmüşlər. Onların xidmətləri hər cür nöqsandan uzaqdır. Heç şübhəsiz, onlar Cənnəti əldə etmişlər; xüsusilə «Fəth» surəsinin 18-ci ayəsində qəsd edilən səhabələr «**(Hüdeybiyyədə) ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı olmuşdur**» ayəsinin hökmünə əsasən, Allah-təalanın rizayətini qazanmışlar. Şübhəsiz, Rəsulallah da söz və əməlləriylə onları ucaltmışdır. Daha doqrusu, onların üstünlüyünü inkar edən azğınlığa düşmüşdür və «Nəcm» surəsinin «**O, nəfsinin həvasından danışmaz. O, şübhəsiz, özünə enən vəhydir**» ayəsinə əsasən, Peyğəmbəri-əkrəmi və Quranı rədd etmiş olur! Qurani-kərim və Rəsulallahı rədd edən isə kafir olur»!

**Dəvətçi**: «Belə açıq məclislərdə bu kimi mövzuları açmağınızı və onların müzakirəsini istəmirəm. Çünki məcburən verəcəyim cavablar cahil insanların əlinə bəhanə verər və əksinə hökm edə bilərlər. Daha doğrusu, öz aramızda gizlicə danışası olsaq, mən də lazım olan doğru cavabı verərəm. İndi bu ricamı qəbul edin və mövzunu açıq müzakirə etməkdən imtina edin. Özüm bir gün sübh yanınıza gələr, bu məsələni ikilikdə öz aramızda həll etməyə çalışaram».

**Hafiz**: «Bu mövzuda mən təqsirsizəm; çünki neçə gecədir bəziləri bu mövzunu müzakirə etməyimizi istəyirlər. Mən də onların istəyinə əsasən tələb etdim; nitqdə mətanətli olduğunuz üçün zərər verəcəyini zənn etmirəm; qonaqlara qane edən bir cavab verin və ya haqlı olduğumuzu təsdiq edin».

**Nəvvab**: «Doğrudur, hamımız bu mövzunun həll edilməsini istəyirik».

**Dəvətçi**: «Madam belə əmr edirsiniz, mən də itaət edirəm. Ancaq sizdən - əvvəlki gecələr etdiyim o qədər açıqlamaya baxmayaraq - yenə də şiə müsəlmanlarına kafir deməyinizi, doğrusu, gözləmirdim.

Əvvəlki gecədə şiənin Peyğəmbəri-əkrəmin (s) Əhli-beytinin (ə) təqibçisi olduğu üçün, əsla, kafir olmadığını açıq şəkildə bəyan etmişdim.

Müxtəlif cümlələrinizi bir-birindən ayıraraq, hamısına ayrı-ayrı cavab verməyə çalışacağam. Beləcə, həm burada olanlar, həm də olmayanlar insaf üzrə hökm versinlər, qəlblərinə atılan şübhələrdən qurtulsunlar və şiə müsəlmanların, əsla, kafir sayılmadığını və küfr yollarının möhtərəm ağanın düşündüyü kimi olmadığını açıq-aydın anlasınlar.

## SƏHABƏNİ TƏNQİD ETMƏK VƏ ONLARA TƏNƏ VURMAQ KÜFR DEYİLDİR!

Əvvəla; şiə müsəlmanların səhabə və Peyğəmbəri-əkrəmin (s) bəzi xanımlarını tənqid etdikləri və onları qınadıqları üçün kafir olduqlarını söylədiniz. Bunu hansı dəlil və bürhan üzrə bəyan etdiyinizi başa düşə bilmirəm. Edilən tənqid və tənələr dəlil və bürhan üzrədirsə, küfr bir tərəfə dursun, müzakirəsi belə edilə bilməz, qınanılmaz! Əgər dəlil və bürhan üzrə deyildirsə və iftiradırsa, yenə də küfr sayıla bilməz! Hətta, səhabə də olsa, yersiz olaraq bir mömini tənqid və ya təlin edən (lənətləndirən) kafir olmaz! Zina edən və ya şərab içən biri kimi, sadəcə fasiq sayılır. Bilindiyi kimi, hər fisq[1] və üsyan əfv edilə və görməməzliyə vurula bilər.

Bu səbəbdən h.q. 456-ci ildə anadan olan İbn Həzm Zahiri Əndülusi «Əl-fəslü fil-miləli vən-nihən» kitabının 3-cü cüzünün 227-ci səhifəsində belə deyir: «Cəhalət və elmsizliyindən səhabəyə tənə vurub nalayiq sözlər deyən məzurdur (üzrlüdür). Bilərəkdən nalayiq sözlər deyən isə, zina və ya oğurluq edənlər kimi sadəcə fasiq sayılır. Amma məlum olduğu kimi, yalnız Rəsulallahın səhabəsi olduğna tənə vurub nalayiq sözlər deyərsə, Allah-təalaya və Peyğəmbərə

---

[1] Əxlaqsızlıq, mənəvi pozğunluq.

düşmənçilik etmək və nalayiq sözlər demək mənasına gələcəyi üçün, əlbəttə, küfr sayılır. Yoxsa, sadəcə səhabəyə küfr etmək, söymək küfrə gətirib çıxartmaz. Bu səbəbdən Ömərin Peyğəmbəri-əkrəmin böyük səhabə, mühacir və Bədir əshabından olan Xətib üçün «İzn ver, bu münafiqin boynunu vurum!» deməsinə baxmayaraq, bu təhqiri və onu nifaqda ittiham etməsi Ömərin küfrünə səbəb olmamışdır».

Bu hal, doğru olsa belə, şiə müsəlmanları «Bəzi səhabəni təhqir etdilər» deyərək onları küfrlə ittiham etmək necə mümkündür?! Məlum olduğu kimi, böyük və dəyərli alimləriniz mötəbər kitablarında nəzərnizin tam əksini iddia edərək, haqq və həqiqəti müdafiə etmişlər. Məsələn: Qazi Əbdürrəhman İyci Şafei «Məvaqif» kitabında təəssüb əsiri olan alimlərinizin şiə müsəlmanları küfr ilə ittiham edərkən ortaya qoyduğu dəlilləri rədd etmiş və onlara təəssüb nəzəri ilə baxmışdır.

İmam Məhəmməd Ğəzzali açıq-aydın belə deyir: «Səhabəni söymək, əsla, küfrə səbəb olmaz; hətta ilk iki xəlifəni söymək belə insanı küfrə salmaz».

Molla Səd Təftəzani isə «Şərhi əqaidi-nisfi» kitabında yazır: «Bəzi təəssüb əhlinin səhabəni söyənləri küfrlə ittiham etməsi, əsla, doğru deyildir. Bəzi alimlər səhabələrə qarşı olan hüsnü-zənləri səbəbiylə onların pis əməllərini görməzliyə vurmuş və tutarsız təvillərlə Rəsulallahın (s) əshabının azğınlıq və fisqdən məsum olduğunu söyləmişlər. Halbuki bilindiyi kimi, bu, əsla, doğru deyildir! Tarix, aralarında etdikləri savaşlarda onların bəzisinin fisq və üsyana düşdüyünü göstərir. Həsadət və məqam düşgünlüyü səbəbiylə çirkin işlərə bulaşmış, azmışlar. Çünki Rəsulallahı görən hər səhabə məsum və günahsız deyildir!»

Bundan əlavə, bilmək lazımdır ki, «Camiul-üsul» kitabının sahibi İbn Əsir Cəzri də şiə müsəlmanları İslami firqələrdən biri saymışdır. O halda, siz onları küfrlə necə ittiham edirsiniz?!

Bəzi əməlləri səbəbiylə səhabələri söyənlərin kafir sayılmadığına dair bir dəlil də, bilavasitə xəlifələr ərəfəsində bəzilərinin səhabəyə ağır küfrlər etmiş olduğu halda, xəlifələrin onları küfrlə ittihamlandırmaması və öldürülmələrini əmr verməməsidir.

Bu səbəbdən Hakim Nişaburi «Müstədrək»in 4-cü cüzünün 335-ci və 354-cü səhifələrində, imam Əhməd ibn Hənbəl «Müsnəd»in 1-ci cüzünün 9-cu səhifəsində, Zəhəbi «Təlxisi-müstədrək»də, Qazi Əyyaz «Şifa»nın 4-cü cüzünün ilk babında və imam Ğəzzali «İhyaül-ulum» kitabının 2-ci cildində belə rəvayət edir: «Əbu Bəkrin xilafəti zamanında bir nəfər xəlifənin yanına gələrək, onu söydü. Orada olanlar bu vəziyyətə görə çox narahat oldular. Əbu Bərzeyi-Əsləmi: «İzn verin, onu öldürüm; çünki o, kafir oldu!» dedikdə, Əbu Bəkr belə dedi: «Xeyr, elə deyildir; Peyğəmbərdən başqa heç kim belə bir hökmü verə bilməz!».

Həqiqətən, siz əhli-sünnət qardaşlar hökmdardan daha hökmlüsünüz; xəlifə özünü söyəni küfrdə günahlandırıb öldürməyə çalışmır, amma siz qardaşlar şiə müsəlmanları səhabəni söymək bəhanəsiylə öz xəyallarınızla küfrdə ittiham edir, qanlarını halal sayırsınız!

Əgər səhabəni söymək küfrdürsə, nə üçün səhabənin ən üstünü olan həzrət Əlini (ə) söyən və lənət edən Müaviyə və tərəftarlarını küfrdə ittiham etmirsiniz?! O halda məqsədiniz başqadır: siz, Əhli-beyt (ə) və tərəftarlarıyla savaşmaq istəyirsiniz!

Əgər səhabəni, xüsusilə də raşidi xəlifələri söymək küfrdürsə, siz ağalar nə üçün Ümmül-möminin Aişəni küfrlə ittiham etmirsiniz?! Çünki o bütün alim və tarixçilərinizin yazdığı kimi, ardıcıl olaraq Osmanı söyür, təhqir edirdi. Osman üçün belə deyirdi: «Bu Nəseli öldürün! O, şübhəsiz, kafir olmuşdur».

Amma əgər bir şiə «Yaxşı oldu Osmanı öldürdülər; çünki o kafir idi!» deyərsə, siz ağalar o dəqiqə onu küfrdə ittiham edər, ölüm hökmünü verirsiniz! Aişə isə bilavasitə Osmanın hüzurunda ona kafir, nəsel demişdi. Amma bilindiyi kimi, nə xəlifə, nə də səhabə ona toxunmadı. Bu səbəbdən siz də onu qınamırsınız».

**Nəvvab**: «Qibləsahib! Sözünüzdə bəyan etdiyiniz «nəsel»in mənası nədir?»

**Dəvətçi**: «Alimlərinizdən Firuz Abadi «Qamusul-lüğət» kitabında «nəsel»in mənası haqqında belə deyir: «Nəsel, yaşlı axmaq adama deyirlər».

«Qamusul-lüğət»i şərh edən Əllamə Qəzvini də bu mənanı zikr etdikdən sonra belə deyir: «İbn Həcər «Təbsirətül-müntəbih» kitabında zikr etmişdir ki,

«nəsel» Mədinədə yaşayan çox saqqallı bir yəhudi idi və xalq Osmanı ona bənzədirdi».

Əgər səhabəyə pis söz söyləmək küfrə səbəb olursa, nə üçün Əbu Bəkr səhabənin və bütün müsəlmanların hüzurunda minbərə çıxaraq səhabənin ən üstünü olan həzrət Əlini (ə) söydü?! Amma siz buna heç təəssüflənmir və hətta Əbu Bəkri tərifləyirsiniz. Halbuki, qınamağınız lazımdır!».

**Hafiz**: «Niyə iftira atırsınız? Əbu Bəkr (r.z) harada Əlini (k.v) söymüşdür?»

**Dəvətçi**: «Biz iftira əhli deyilik! Bir şey haqqında elm sahibi olmasaq, rəvayət etmərik! Zəhmət olmasa, «Nəhcül-bəlağənin şərhi» adlı kitabın 4-cü cildinin 80-cı səhifəsinə müraciət edin. Orada görəcəksiniz ki, Əbu Bəkr məsciddə minbərə çıxaraq həzrət Əli (ə) haqqında belə demişdir: «Şübhəsiz, Əli quyruğu olan tülküdür. Əli macəraçı və fitnəçidir; böyük fitnələri kiçik göstərərək, xalqı fitnə və fəsada təşviq edir və yaxınlarıyla zina etmək istəyən Ümmü-Təhhal (cahiliyyət dövründə yaşayan fahişə bir qadın) kimi zəiflərdən və qadınlardan yardım diləyir!»

Bəli ağalar, xəlifə Əbu Bəkrin həzrət Əliyə (ə) söylədiyi bu ağır sözləri, şiə müsəlmanların onlar haqqındakı tənqid və qınamalarıyla müqayisə edin!

Əgər əshabdan birini söymək küfrdürsə, Əbu Bəkr, qızı Aişə, Müaviyə və tərəfdarları kafir sayılır: əgər küfr deyilsə, o halda şiə müsəlmanlarına kafir deyə bilməzsiniz!

Böyük fəqih və alimlərinizin hökm və fitvalarına görə də, söyüş söyən kafir deyildir və qətli vacib sayılmır. Məsələn, imam Əhməd ibn Hənbəl «Müsnəd»in 3-cü cildində, İbn Sədi Katib «Təbəqat»ın 5-ci cüzünün 279-cu səhifəsində və Qazi Əyyaz «Şifa» kitabının 4-cü cüzünün ilk babında rəvayət edir: «Ömər ibn Əbdüləzizin bir valisi Kufədən ona məktub yazaraq, Ömər ibn Xəttabı söyən bir nəfəri öldürmək üçün izn istədi. Ömər ibn Əbdüləziz cavabında ona Peyğəmbəri-əkrəmə (s) söyənlərdən savayı bir müsəlmanı söyməkdən ötrü heç kimin öldürülməsinin caiz olmadığını yazdı».

Bundan əlavə, Əbülhəsən Əşəri kimi böyük aliminizin və ona tabe olanların əqidəsi budur: «Qəlbən mömin olduğu halda küfrünü izhar edən (yəhudi, xristian və s.) Peyğəmbərə (s) qarşı çıxan və ya Allah-təala və Rəsulunu üzrü olmadan

şiddətli şəkildə söyənlər kafir olmazlar, bunlara kafir hökmü şamil olmaz. Çünki iman qəlbə bağlı inancdır: qəlblərdən kimsə xəbərdar olmadığı üçün heç kimsə küfr izharlarının qəlbdən, yoxsa zahirdən olduğunu bilə bilməz».

Bu həqiqəti Əşəri alimləri də kitablarında yazmışlar. Xüsusilə də İbn Həzm Əndülusi «Əl-Fəsl» kitabının 4-cü cüzünün 204 və 206-cı səhifələrində bu inancı geniş şəkildə nəql etmişdir.

O halda müvəhhid, təmizqəlbli, Allah-təalaya və Peyğəmbəri-əkrəmə itaət edən, bütün şəri hökm, vacib və müstəhəblərə tabe olan şiə müsəlmanları necə kafir sayırsınız?! Fərz edək ki, onlardan bəzisi dəlil və bürhan üzrə səhabələrdən bəzisini söysə belə, böyük alimlərinizin inancına və sözlərinə görə, onları kafir saya bilməzsiniz!

Əhməd ibn Hənbəl «Müsnəd»in 2-ci cildinin 236-cı səhifəsində, Hələbinin «Sirətül-Hələbiyyə»nin 2-ci cildinin 107-ci səhifəsində, «Səhihi-Buxari»nin 2-ci cildinin 74-cü səhifəsində, «Səhihi-Müslim»in «Cihad» kitabında, «Əsbabun-nuzuli-vahidi»nin 118-ci səhifəsində və s... bir çox alimlərinizin mötəbər kitablarında yer aldığı kimi, bilavasitə Peyğəmbəri-əkrəmin (s) hüzurunda Əbu Bəkr və bir çox səhabə bir-birini söyür və hətta bir birini döyürdülər. Peyğəmbəri-əkrəm onları belə gördükdə kafir saymır, əksinə, islah etməyə çalışırdı[1].

İlk iradınızın cavabını bu qısa bəyanla verdim: səhabədən birini söymək, əsla, küfrə səbəb olmaz! Əgər dəlil və bürhanları olmadan söyüş və lənət deyərlərsə, kafir deyil, fasiq olurlar. Hər fəsad isə əfv edilə bilər.

## SƏHABƏNİN PİS VƏ YAXŞI ƏMƏLLƏRİ RƏSULİ-ƏKRƏMİN (S) DİQQƏTİNDƏ İDİ

İkincisi; Xatəmül-ənbiyanın (s) səhabəyə ehtiram göstərdiyini söylədiniz. Doğrudur, mən də qəbul edirəm. Bütün elm əhli Rəsulallahın hər hansı bir insanın yaxşı və gözəl əməllərinə təvəccöh etməsi xüsusunda fikir birliyi içindədir.

[1] Qeyd: Əshabın Rəsulallahın (s) hüzurunda söyüşmə və dalaşmalarına aid xəbərlərşiə alimlərinin deyil, sünni alimlərinin kitablarında yer almışdır.

Peyğəmbəri-əkrəm hər kəsin yaxşı əməllərini təriflәyirdi. Bu səbəbdən Ənuşirəvanın ədalətini və Hatemi-Tainin də comərdliyini təriflәmişdir.

Bu da məlumdur ki, Rəsulallah bir fərd və ya camaatı təriflәmişsə, buna səbəb onların yaxşı əməlləri olmuşdur. Şübhəsiz, bir şəxs və ya camaatı, onlardan xilaf bir əməl görmədən xüsusi bir əmələ görə təriflәmək, onların Hüsn-aqibət və salamatlıqlarına dəlalət etməz. Xilaf edəcəkləri qəti olsa belə, bir günah etmədikcə onları cəzalandırmaq caiz deyildir. Bu səbəbdən həzrət Əli (ə) Əbdürrəhman ibn Mülcəm Muradi tərəfindən öldürüləcəyini bilib bunu dəfələrlə dilə gətirərək bir yerdə açıq şəkildə belə buyurmuşdur:

***Mən onun həyatını istəyirəm, o isə mənim qətlimi.***
***Bu dost qılıqlı hiyləgər Murad qəbiləsindəndir[1].***

Buna baxmayaraq, həzrət Əli (ə) onu cəzalandırmağa cəhd göstərmədi. O halda, xüsusi bir əməli öyən rəvayətlər, bütün əməlləri və ümumiyyəti ifadə etməz.

## RİZVAN BEYƏTİNƏ DAİR CAVAB

Üçüncüsü; səhabənin Rizvan beyətində ağac altında Peyğəmbəri-əkrəmə (s) beyət etmiş olduğu üçün tərifə layiq olduğunu, zikr olunmuş ayə səbəbiylə qınanılmayacağını söylədiniz. Tədqiqatçı alimlər bu mövzuda bir qrup cavablar zikr etmişlər ki, sadəcə o xüsusi beyət hadisəsi ilə əlaqəlidir; ömürlərinin sonuna qədər olan əbədi bir rizayət deyildir! Çünki bildiyiniz kimi, Hudeybiyyədə (ağaç altında) edilən bu beyətdə ümmətdən sadəcə 1500 nəfər vardı. Bu səbəbdən onlardan bəziləri nifaq ayələrinin misdaqı olmuş və Allah-təala onlara əbədi Cəhənnəm atəşini vəd etmişdir. Məgər Allah Rəsulunun razı olduğu kimsələrdən bir qisminin Cəhənnəmdə, bir qisminin də Cənnətdə olması mümkündürmü? O halda aydın olduğu kimi, Allah-təalanın rizayəti, sadəcə ağac altında olan beyətlə əlaqəli deyildir; xalis iman və saleh əmələ bağlıdır. Yəni tövhidə və nübuvvətə

[1] İbn Həcər Məkki "Səvaiq" kitabının 9-cu babının 72-ci səhifəsində bunu rəvayət etmişdir.

qəlbən inanaraq beyət edənlər Allah-təalanın rizayətinə nail olmuş və əbədi Cənnəti qazanmışlar.

Lakin bilindiyi kimi, imanları olmadığı halda beyət edənlər və ya imanları olub beyət etməyənlər Allah-təalanın qəzəbinə uğrayıb, Cəhənnəmi əldə etmişlər. O halda, bu beyət yalnız Allahın rizayəti üçün kifayət deyildir. Cəhənnəmə və edilənlərin o gündə iman sahibi olmadıqları anlaşılır.

Heç bir müsəlmanın inkar edə bilməyəcəyi bir həqiqət də budur ki, səhabənin etdiyi gözəl əməllər tərifə layiqdir. Bu səbəbdən kimdən yaxşı əməl görülərsə, tərifə layiqdir. Əlbəttə, bu tərif, ondan pis bir əməl görülmədiyi müddətə qədərdir. Amma mömin, hətta səhabə olsa belə, pis əməl işldiyi təqdirdə tənqidə məruz qalır, qınanılır.

Şiələr səhabənin yaxşı əməllərini ardıcıl olaraq rəvayət edir və tərifləyirlər. Pis əməllərini tənqid etməklə bərabər, səhabənin yaxşı əməllərini də qəbul edirlər. Məsələn: Onların Rizvan beyəti, Rəsulallaha hicrət, o həzrətə yardım etmək, (fəthlərin həzrət Əli (ə) vasitəsiylə həqiqiləşdiyinə baxmayaraq) döyüşlərə qatılmaq və s... bir çox gözəl əməllərini tərifləmiş, eyni zamanda çirkin və pis əməllərini tənqid etmişdir».

**Hafiz**: «Rəsulallahın (s) əshabının pis əməllər etdiyini söyləməyiniz çox qəribədir. Halbuki, Rəsulallah (s) onları tək-tək bu ümmətin hidayətçisi və rəhbəri bilmişdir. Bu səbəbdən bir hədisdə belə buyurulur: «Şübhəsiz, əshabım ulduzlar kimidir; hansına tabe olsanız hidayətə çatarsınız».

Bu, heç şübhəsiz, sadəcə sizin əqidənizdir; biz də tək əqidəni qəbul edə bilmərik!

## «ƏSHABA TABE OLUN» HƏDİSİNƏ DAİR CAVAB

**Dəvətçi**: «Özünüzə elə bir hədis dəlil gətirdiniz ki, onu gətirməklə məni böyük bir daşlığa atdınız; gövhəri də onların arasından tapıb çıxarmaq böyük bir iftixardır!

Dediyiniz hədis haqqında qısa da olsa, izah vermək məcburiyyətindəyəm. Sonra da lazım olan cavabı verməyə çalışacağam.

Əlbəttə, biz bu hədisin sənədini müzakirə etməyəcəyik; çünki mövzumuzdan uzaqlaşa bilərik. Sadəcə hədisin dəlalət etdiyi məna haqqında bəhs edəcəyəm.

Bilindiyi kimi, Rəsulallahı (s) ziyarət edən və ya Ondan hədis qeyd edənlərə səhabə və əshab deyilir. Bunda mühacir, ənsar və digərləri arasında bir fərq yoxdur.

Etdiyiniz ən böyük səhv sahib olduğunuz hüsn-zənlə bütün əshabın hər cür nöqsan və eyibdən pak olduğunu saymağınızdır. Halbuki, bilindiyi kimi, Peyğəmbəri-əkrəmin əshabı arasında yaxşı və pis olanlar vardır. Rəsulallah da onların yaxşı və pis hallarından xəbərdar idi. Bunun ən böyük dəlili də «Munafiqun», «Tövbə» və «Əhzab» surələrində münafiq və fasiqlərə aid olan ayələrdir. Böyük və dəyərli alimləriniz də öz mötəbər kitablarında onların eyib və qüsurlarını nəql etmişlər. Məsələn: Hişam ibn Məhəmməd Sayib Kəlbi səhabənin eyib və qüsurları haqqında xüsusi bir kitab yazmışdır.

Allah-təalanın Quranda və Rəsulallahın da nitqlərində qınadığı və Cəhənnəm atəşi vəd etmiş olduğu münafiqlər zahirdə müsəlman, amma batində fasiq və fasid insanlar idi. Hamısı da Peyğəmbəri-əkrəmin əshabı arasında idi. O halda, onların hamısına yaxşı gözlə baxa bilmərik! Daha doğrusu, onlardan hər birinə tabe olmaqla da qurtuluşa çata bilmərik!

Görəsən, «Əqəbə» hadisəsində Peyğəmbəri-əkrəmi öldürmək istəyənlər zahirən yaxşı insanlar, əshabın münafiq olanları deyildimi?!»

**Hafiz**: «Əqəbə hadisəsini bəzi alimlərimiz şiənin uydurması bilirlər. Daha doğrusu, doğruluğu məlum deyildir!»

**Dəvətçi**: «Səhvə yol verdiniz, xarici və nasibilərin əqidələrini özünüzə sənət etdiniz! Çünki bu hadisə bilavasitə alimlərinizin də qəbul etmiş olduğu çox məşhur və açıq bir hadisədir. Məsələn: böyük alimlərinizdən olan Hafiz Əbu Bəkr, Əhməd ibn Hüseyn Beyhəqqi Şafeinin «Dəlailun-nübuvvə» kitabına müraciət edin. Beyhəqqi Bətni-Əqəbə Hadisəsini sənəd və ravi silsiləsiylə birlikdə zikr etmişdir. İmam Əhməd Hənbəl «Müsnəd»in 5-ci cildinin sonunda Əbu Tufeyldən və İbn

Əbil-Hədid isə «Nəhcül-bəlağənin şərhi» kitabında bunu qeyd etmişdir. Peyğəmbəri-əkrəmin o gecə əshabdan bir qrupa lənət etməsi hadisəsi məhşur bir hadisədir».

## ƏQƏBƏ HADİSƏSİ VƏ PEYĞƏMBƏRƏ (S) SUİ-QƏSD

**Nəvvab**: «Zəhmət olmasa, Əqəbə hadisəsini və Peyğəmbəri-əkrəmi (s) öldürmək istəyənlərin kimlər olduğunu bəyan edin».

**Dəvətçi**: «Hər iki məzhəbin alimlərinin yazdığına görə, Təbuk döyüşündən döndükdə münafiqlərdən 14 nəfər Rəsulallahı (s) öldürməyi qərarlaşdırdı. Dağın ətəyində ancaq bir nəfərin keçəbiləcəyi qədər dar bir keçid olan Bətni-Əqəbədən keçdikdə əvvəlcədən hazırladıqları hiylələrini yerinə yetirmək istədilər. Cəbrayıl (ə) hadisəni Peyğəmbəri-əkrəmə xəbər verdi. Rəsulallah Huzeyfəni dağın ətəyinə göndərdi. Huzeyfə orada gizləndi. Münafiqlər gəldikdə onların danışıqlarını eşidib, hamısını tanıdı. Onlardan 7 nəfər bəni-Üməyyədən idi. Huzeyfə geri dönərək onları Peyğəmbəri-əkrəmə tanıtdı. Rəsulallah buyurdu: «Bu sirri gizli saxla, Allah-təala bizi qoruyacaqdır».

Peyğəmbər gecə ordunun önündə hərəkət edirdi. Əmmar Həzrətin dəvəsinin ipindən çəkir, Huzeyfə isə arxadan sürürdü. Dar keçidə gəldikdə münafiqlər xırda daşla doldurduqları qablarını (və ya yağla dolu şüşələri) qışqıraraq Rəsulallahın dəvəsinin önünə atdılar. Münafiqlər Peyğəmbərin dəvəsini hürküdərək onu uçuruma yuvarlatmaq istəyirdilər. Amma bilindiyi kimi, Allah-təala Peyğəmbəri-əkrəmi qorudu. Münafiqlər də qaçdılar; orduya qoşulub, özlərini gizlətdilər.

Bunlar əshabdan deyildilərmi?! Elə isə onların bu əməli yaxşı və onlara tabe olmaq da hidayət yoludurmu?! İndi, Peyğəmbəri-əkrəmi görənləri və Ondan hədis rəvayət edənləri əshab saymaq, onların hər cür pisliklərini görməməzliyə vurmaq, Cənnət əhli olduqlarına inanmaq, özlərini, bəlkə özlərinə tabe olanları da qurtuluş əhli bilmək doğrudurmu?!

# HƏZRƏT PEYĞƏMBƏR (S) YALANÇILARA TABE OLMAĞI ƏMR ETMƏMİŞDİR

Daha əvvəlki gecələrdə söylədiyim kimi, məgər Ömərin: «Peyğəmbərdən yalan hədis rəvayət edir»,-deyərək qamçıladığı Əbu Hureyrə əshabdan deyildimi?! Rəsuli-əkrəmdən (s) bir çox hədis rəvayət etməmişdirmi?! Səmurə ibn Cündəb kimi yalan hədis rəvayət edənlər əshabdan deyildimi?! Görəsən, Rəsulallah ümmətə hidayətə yetmələri uçün yalançı və hədis uyduranlara tabe olmağımı əmr etmişdir?

Əgər əshabın əzəməti haqqında rəvayət etdiyiniz bu hədis doğrdursa, o zaman iki fərqli yolla gedən əshabdan hansına tabe olsaq qurtuluşa çatmış olarıq? Qurtuluşa çatmağımız üçün inanclarında bir-birinə müxalif olan və ya bir-birləri ilə savaşan əshabdan hansına tabe olmaq lazımdır?!»

**Hafiz**: «Əvvəla; Peyğəmbəri-əkrəmin əshabı, əsla, bir-biri ilə müxalifət etmir və savaşmırdılar. Əgər müxalifət etmişdilərsə də, araşdıraraq daha təmiz və daha dəlilli olanına tabe olun!».

**Dəvətçi**: «Əgər dediyiniz kimi, araşdırıb bunlardan birinin təmiz və haqq əhli olduğunu görsək və ona tabe olsaq, o halda digəri batil əhli sayılmış olmazmı?! O halda, bu hədis özlüyündə etibar dərəcəsindən düşmüş olur! Daha doğrusu, səhabədən hansına tabe olarıqsa, hidayət və qurtuluşa yetişərik iddiasının da puç olduğu aydınlaşır.

# ƏSHABIN SƏQİFƏDƏ MÜXALİFƏTİ

Fərz edək ki, bu hədis doğrudur. Onda nə üçün şiə müsəlmanları qınayırsınız?! Halbuki, onlar da Əbu Bəkrə beyət etməyən və ona müxalifət edən Salman, Əbuzər, Miqdad, Əmmar Yasər, Əbu Əyyub Ənsari, Huzeyfeyi-Nəxi, iki şəhadət sahibi Xuzeymə və əvvəlki gecələr adını zikr etdiyim başqa səhabələrə tabe olmuşdur.

Bir-birinin qarşısında yer alan bu səhabələrdən hansı haqq, hansı batiləhli idi? Onlardan biri mütləq batil üzrə idi. Halbuki, rəvayət etdiyiniz hədis səhabələrdən hansına tabe olarsa, qurtuluşa yetişəcəyini bəyan edir!

## SƏD İBN ÜBADƏNİN ÖMƏR VƏ ƏBU BƏKRLƏ MÜXALİFƏTİ

Ömər və Əbu Bəkrə beyət etməyən Səd ibn Übadə Ənsari əshabdan deyildimi?! Şiə və sünni alimlərinin ittifaq etdiyi kimi, Səd gedib Şamda qaldı. Ömərin xilafətinin ortalarında isə öldürüldü. Elə isə, bu hədisə uyğun olaraq, Səd ibn Übadəyə tabe olub Əbu Bəkr və Ömərə müxalifət edənlər də qurtuluşa yetmiş olurlar!

## TƏLHƏ VƏ ZÜBEYRİN BƏSRƏDƏ HƏZRƏT ƏLİYƏ (Ə) QARŞI QİYAMI

Görəsən, Təlhə və Zübeyr ağacın altında həzrət Peyğəmbərə (s) beyət edənlərdən deyildilərmi? Təlhə və Zübeyr Rəsulallahın haqq xəlifəsi (sizə görə dördüncü xəlifə) həzrət Əliyə (ə) qarşı qiyam etmədilərmi?! Bir çox müsəlmanın qanının tökülməsinə səbəb olmadılarmı?: Qarşı-qaşıya duran bu iki qrup səhabəyə tabe olan hər kəs qurtuluşa çata bilərmi? Əkəq hər ikisinin də əshaba tabe olduğu üçün nəticədə haqq olduğunu söyləsəniz, səhvə yol vermiş olarsınız! Çünki iki zidd şeyi cəm etmək mümkün deyildir. Bir-biriylə döyüşən iki qrupun hər ikisinin də hidayət və Cənnət əhli olduğunu söyləməksə, əsla doğru deyildir!

Şübhəsiz, həzrət Əliyə (ə) tabe olanlar hidayətə çatmış digər qrup isə zəlalətə düşmüşdür. Bu da, sizin Rizvan ağacı altında beyət edənlərin hidayət və qurtuluşa çatdığını ifadə edən inanclarınızın doğru olmadığını göstərir. Çünki Rizvan beyətində aqac altında beyət edənlərdən olan Təlhə və Zübeyr sonda haqq xəlifə həzrət Əliyə qarşı döyüşə əl atdılar. Peyğəmbərin xəlifəsinə qarşı qiyam edən və o həzrətin: «Səninlə döyüşən, mənimlə döyüşmüşdür»,-deyə buyurduğu kimsəyə qarşı döyüşən, həqiqətdə Rəsulallahla döyüşmüş olmazmı?! Böyük bir günaha

düşmüş sayılmazmı?! O halda sadəcə əshab kəlməsi və ya Rızvan beyətində olmaq, necə insanın qurtuluşuna səbəb ola bilər?!

## MÜAVİYƏ VƏ ƏMR İBN ASIN HƏZRƏT ƏLİNİ (Ə) SÖYMƏSİ

Peyğəmbəri-əkrəmin (s) xəlifəsiylə döyüşən, minbər, məç və hətta cümə xütbələrində həzrət Əliyə (ə) lənət deyən Müaviyə və Əmr ibn As da əshabdan deyildimi?! Halbuki, bilavasitə böyük alimləriniz mötəbər kitablarında Rəsulallahın (s) belə buyurduğunu nəql etmişlər: «Əlini söyən məni söymüşdür; məni söyənsə Allahı söymüşdür».

Elə isə dəlil olaraq nəql etdiyiniz hədisə görə, Rəsula11ahın təbiri ilə «lənətli oğlu lənətli»yə və həqiqətdə Peyğəmbəri söymək olan həzrət Əlini söyənlərə (ki, öz alimləriniz də bunu qeyd etmişlər) tabe olanlar da hidayətə yetişmişlər və Cənnət əhlidirlər?

Fazil Təftəzani «Şərhi-məqasid» kitabında ətraflı olaraq bu mövzu haqqında belə deyir: «Səhabə arasındakı şiddətli savaş və mübarizələr onlardan bəzisinin haqq yoldan azdığını, həsəd, inad, şəhvət və məqam sevgisi üzündən hər cür zülmə bulaşdığını göstərir».

Məlumdur ki, hər səhabə məsum olmayıb və bir çox pis əməllərə mürtəkib olub. Buna baxmayaraq, bəzi alimlər hüsn-zənn cənnətindən səhabənin pis rəftarını və əməlini dəyişdirərək yazıblar. Rəvayət etdiyiniz hədisin doğru olmadığını göstərən bir çox dəlil vardır. Amma təəssüflər olsun ki, bundan daha artığını danışmaq imkanımız yoxdur.

O halda, bu hədis, bilavasitə öz alimlərinizin də yazdığı kimi, uydurmadır və sənəd zəncirində zəiflik vardır.

## «ƏSHABIM ULDUZLAR KİMİDİR...» HƏDİSİNİN SƏNƏDLƏRİ ZƏİFDİR

Bu səbəbdən Qazi Əyyaz «Şərhuş-Şifa» kitabının 2-ci cildinin 91-ci səhifəsində bu hədisi nəql edərək belə deyir: «Dariqutni «Fəzail» kitabında və İbn Əbdülbirr də onun yoluyla bu hədisin sənədinin dəlil ola bilməyəcəyini söyləyir. Əbd ibn Həmid «Müsnəd» kitabında Abdullah ibn Ömərdən nəql edərək Bəzzarın bu hədisin səhihliyini inkar etdiyini söyləyir».

Bu səbəbdən İbn Əddi «Kamil» kitabında öz sənədiylə Nafidən, o da Abdullah ibn Ömərdən bu hədisin sənədinin zəif olduğunu rəvayət edir. Beyhəqqi də bu hədisin mətninin məşhur olduğunu, amma bilindiyi kimi, sənədinin zəif olduğunu rəvayət edir. Çünki bu hədisin sənədində yer alan Haris ibn Ğəzziynin halı məchuldur. Həmzə ibn Əbu Həmzeyi-Nəsiri isə iftira və yalançılıqla günahlandırılmışdır. Aydın olduğu kimi, bu hədisin zəifliyi sabitdir!

Bunlardan əlavə, İbn Həzm də bu hədisin uydurma, yalan və batil olduğunu açıq-aydın tərzdə bəyan etmişdir.

Bu səbəbdən də belə zəif sənədə etimad etmək, əsla, doğru deyildir! Hətta doğru olsa belə, ümumiliyi ifadə etməz. Sadəcə Qurani-kərim və Əhli-beytə (ə) tabe olan yaxşı səhabələr qəsd edilmiş ola bilər.

## SƏHABƏ MƏSUM DEYİLDİR

Bu məlumatlarla yalnız bəzi səhabələri hesaba almamaq mümkündür; çünki səhabə adi və məsum olmayan insanlar idi. Məsum olmadıqları üçün də xəta etmələri mümkündür».

**Hafiz**: «Biz də səhabənin məsum olmadığına inanırıq; amma, heç şübhəsiz, hamısı adil idi və günah etməzdilər».

**Dəvətçi**: «Yenə diqqət etmədiniz, onları adil və günahlardan pak qəbul etməklə səhvə yol verdiniz. Çünki bilavasitə öz alimlərinizin mötəbər kitablarında

nəql edilən rəvayətlər bunun tam əksini göstərir. Böyük səhabələrdən bir çoxu köhnə adətləri üzrə günah etmişdilər».

**Hafiz**: «Bizim bu rəvayətlərdən xəbərimiz yoxdur; sizin varsa, açıqlayın!»

**Dəvətçi**: «Cahiliyyət ərəfəsində etdikləri kimi, arabir İslamda da bir çox günahlara bulaşmışdılar. Misal olaraq sadəcə birini zikr edəcəyəm.

Alimlərinizin mötəbər kitablarında rəvayət edildiyinə görə, hicri 8-ci ildə - Məkkə fəthində böyük səhabələrdən bəzisi bir əyləncə məclisində gizlicə şərab içmişlər».

**Hafiz**: «Şübhə yoxdur ki, bu rəvayət düşmənlərin uydurmasıdır. Çünki böyük səhabələr fəsad məclislərinə belə getmirdilər, o ki, qaldı haram olduğu halda şərab içsinlər!»

**Dəvətçi**: «Müxaliflərin uydurması deyildir! Əgər uydurmadırsa, bilavasitə öz alimləriniz uydurmuşdur!»

**Nəvvab**: «Qibləsahib! Əgər belə bir məclis olmuşdursa, mütləq ev sahibi və dəvət edilənlərin adı da qeyd olunmuşdur. Zəhmət olmasa, bu mövzunu açıqlayın».

**Dəvətçi**: «Bəli, bu mövzu öz alimlərinizin kitablarında da aydın şəkildə bəyan edilmişdir».

**Nəvvab**: «Rica edirik, açıqlayın, bizə aydın olsun».

## SƏHABƏDƏN ON NƏFƏRİN ƏYLƏNCƏ MƏCLİSİNDƏ ŞƏRAB İÇMƏSİ

**Dəvətçi**: «İbn Həcər «Fəthül-Bari» kitabının 10-cu cildinin 30-cu səhifəsində belə yazır: «Əbu Təlhə Zeyd ibn Səhl öz evində şərab məclisi təşkil etdi. On nəfəri də dəvət etdi, hamısı birlikdə şərab içdilər. Əbu Bəkr də, kafir müşriklər və Bədirdə öldürülənlər üçün bəzi şerlər oxudu!

**Nəvvab**: «Görəsən, ora dəvət edilənlərin adlarını zikr etmişlərmi? Zikr etmişlərsə, həqiqətin ortaya çıxması üçün onların adlarını bəyan edin».

**Dəvətçi**: «Bəli, zikr etmişlər; onlar bunlardır: 1. Əbu Bəkr ibn Əbu Quhafə, 2. Ömər ibn Xəttab, 3. Əbu Übeydə Cərrah, 4. Ubey ibn Kəb, 5. Səhl ibn Beyza, 6.

Əbu Əyyub Ənsari, 7. Əbu Təlhə (dəvətçi və ev sahibi), 8. Əbu Dücanə Səmaq ibn Xərşə, 9. Əbu Bəkr ibn Şəğub və o vaxtlar 18 yaşında olan və məclisdə şərab paylayan 10. Ənəs ibn Malik.

Bu səbəbdən Beyhəqqi «Sünən» kitabının 8-ci cildinin 29-cu səhifəsində, bilavasitə Ənəsdən belə rəvayət edir: «Mən o gün yaşda hamıdan kiçik və məclisin şərab paylayanı idim».

(Bu əsnada məclisdə böyük bir gurultu qopdu.)

**Şeyx**: «(Əsəbi halda) Allah-təalanın zatına and olsun ki, bu rəvayət düşmənlərin uydurmasıdır!».

**Dəvətçi**: «(Təbəssüm edərək) Çox dərinə getdiniz, lüzumsuz yerə and içdiniz. Amma bilindiyi kimi, sizdə günah yoxdur, mütaliəniz azdır. Əgər öz kitablarınıza müraciət etmə zəhmətinə qatlanmış olsaydınız, orada böyük alimlərinizin də bunu yazdığını görərdiniz. O halda, zəhmət olmasa, istiğfar edin.

İndi, siz ağların zehnini aydınlatmaq və dediklərimizin bilavasitə alimlərinizin fikirlərinə söykəndiyini göstərmək üçün bu hadisənin, sadəcə bəzi sənədlərinə işarə etməyə çalışacağam:

1. Məhəmməd ibn İsmayıl Buxari: «Səhih», «Maidə» surəsindəki şərab ayəsinin təfsiri»; 2. Müslim ibn Həccac: «Səhih», bab: «Kitabul-əşribə», «Təhrimul-Xəmr»; 3. İmam Əhməd Hənbəl: «Müsnəd», c: 3,səh: 181 və 227; 4. İbn Kəsir «Təfsir», c: 2, səh: 93-94; 5. Cəlaləddin Siyuti: «Durrul-mənsur», c: 2, səh: 321; 6. Təbəri: «Təfsir», c: 7, səh: 24; 7. İbn Həcər Əsqəlani: «İsabə», c: 4, səh: 22 və «Fəthül-Bari», c: 10, səh: 30; 8. Bədruddun hənəfi: «Umdətul-Qari», c: 10, səh: 84; 9. Beyhəqqi: «Sünən» səh: 286, 290 və s».

**Şeyx**: «Bəlkə də, bu hadisə şərab haram edildikdən əvvəl olmuşdur».

**Dəvətçi**: «Tarix və təfsir kitablarındakı məlumatlara əsasən, şərab haram edildikdən sonra belə bəzi müsəlmanlar və səhabələr şərab içmişlər.

Bu səbəbdən Məhəmməd ibn Cəriri Təbəri «Təfsiri-kəbir» kitabının 2-ci cildinin 203-cü səhifəsində Əbülqəmus Zeyd ibn Əlidən belə rəvayət edir: «Allah-təala şərab ayəsini üç dəfə nazil etdi. İlk əvvəl bu ayə nazil oldu: «**Səndən şərab və qumar haqqında sual soruşarlar, de: hər ikisində də böyük bir günah və**

**insanlar üçün bir qrup faydalar vardır; ancaq hər ikisinin də günahı faydasından dana böyükdür**»[1].

Amma məlum olduğu kimi, müsəlmanlar oyanmadılar və şərab içməyə davam etdilər. Hətta iki nəfər şərab içərək namaz qıldı, namazda mənasız sözlər söylədi. Bundan sonra bu ayə nazil oldu: «Ey iman gətirənlər! Sərxoş ikən namaza yaxınlaşmayın; ta ki, nə söyləmiş olduğunuzu biləsiniz...»[2].

Səhabə yenə də şərab içməyə davam etdi. Amma sərxoş ikən namaz qılmırdılar. Lakin bir gün bir nəfər[3] şərab içib. Bədir döyüşündə öldürülənlər haqqında mərsiyə və şerlər oxudu. Bunu eşidən Peyğəmbəri-əkrəm (s) qəzəbli halda gələrək, əlindəki şeylə onu vurmaq istədi. O sərxoş adam: «Allah-təalanın və Peyğəmbərinin (s) qəzəbindən Allaha sığınıram: Allaha and olsun bir daha içməyəcəyəm»-dedi. Bundan sonra da bu ayə nazil oldu: «**Ey İman gətirənlər! Şərab, qumar, büt və fal oxları Şeytan əməlindən olan murdar bir şeydir: bunlardan uzaq durun ki, nicat tapasınız**»[4] .

Xüsusilə bilməyiniz zəruridir ki, səhabə də digər müsəlmanlar kimi yaxşı və pis yönlərə sahibdir. Allah-təalanın və Peyğəmbəri-əkrəmin əmrinə ciddi olaraq tabe olanlar böyük səadətlərə yetişmişlər. Hər kim də nəfsinə tabe olub Şeytana uymuşsa, ziyana və fəsada uğramışdır.

O halda səhabəni tənqid edənlərin də məntiqli dəlilləri vardır. Əshabın pis sifətləri, bilavasitə öz kitablarınız yer aldığı kimi, Quranda bir çox ayələrdə də şiddətli şəkildə qınanmışdır. Şiələr də bu baxımdan onları tənqid edirlər. Amma bilindiyi kimi, əgər məntiqli bir tənqid qarşısında məntiqli bir cavab varsa, onu da qəbul etmək lazımdır.

Qınanmış sifətlərdən biri insanın lüzumsuz yerə sevməsi və ya nifrət etməsidir. Yəni insanın fərd və ya camaata qarşı maraq və sevgisinə görə onların bütün söz və davranışlarını görməməzliyə vurması və heç bir pisliyin olmadığını söyləməsidir».

---

[1] "Bəqərə" surəsi, ayə: 219.
[2] "Nisa" surəsi, ayə: 43.
[3] Bəzzar, İbn Həcər və İbn Mərdəviyənin rəvayət etdiyinə görə bu, Əbu Bəkr idi.
[4] "Maidə" surəsi, ayə: 90.

**Hafiz**: «Çox yaxşı, əshabın nə kimi pis sifət və işləri var idi? Əgər dəlil və bürhana söykənirsə, buyurun, biz də qəbul edək!»

## SƏHABƏNİN ƏHDİ POZMASI

**Dəvətçi**: «Qəribədir, xülasə də olsa, saydığım bu qədər pis sifətlərinə baxmayaraq, yenə də «onların nə kimi pis sifətləri vardır?» deyirsiniz. Amma bilindiyi kimi, sözlərimin təyidi üçün şiə və sünni alimlərinin kitablarında yer alan səhabənin pis əməllərinin birinə işarə edirəm. Məsələn: əhd və beyətlərini pozmaları.

Allah-təala Quranda əhdlərini pozanlara məzəmmət və onlara lənət edir: «**Əhd-peyman bağladığınız zaman Allahın əhdinə vəfa edin! Və andlarınızı bərkitdikdən sonra pozmayın! Bir halda ki, Allahı özünüzə şahid tutubsunuz. Həqiqətən, Allah sizin nə etdiyinizi bilir**»[1].

Yenə onlar haqqında belə buyurmuşdur: «**Allahla əhd bağladıqdan sonra əhdlərini pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri qıranlar və yer üzündə fitnə-fəsad törədənlər lənətə düçar olacaqlar və onları pis aqibət gözləyir**»[2].

O halda, Quran ayələri və iki tərəfin də kitablarında yer alan rəvayətlərə görə, əhdi pozmaq böyük bir günahdır. Xüsusilə də, Allah-təalaya və Rəsuluna (s) verilən sözü yerinə yetirməmək əshab və o həzrətin yaxınları üçün çirkinlərin ən çirkini olan bir şeydir!»

**Hafiz**: «Əshab Allah-təalanın əmri və Peyğəmbəri-əkrəmin (s) də təbliğ etmiş olduğu hansı əhd və beyəti pozmuşdur ki, bu ayənin misdaqı olsun? Diqqət etsəniz, bunların şiənin avam xalqının uydurması olduğunu təsdiq edərsiniz! Peyğəmbərin əshabı bu kimi şeylərdən pakdır!»

---

[1] "Nəhl" surəsi, ayə: 91.
[2] "Rəd" surəsi, ayə: 25.

# MƏHƏMMƏD (S) VƏ ƏLİ (Ə) QURANDAKI SADİQLƏRDİR

**Dəvətçi**: «Dəfələrlə ərz etdiyim kimi, şiələr sadiq İmamlara (ə) tabe olmaq məcburiyyətindədirlər. Əks təqdirdə, şiə sayılmazlar. Daha doğrusu, onlar hədis uydurmaz, iftira və yalana söykənməzlər! Bu səbəbdən onların İmamları da, sözün əsl mənasında, sadiq idilər. Quran da onların doğruluğunu təsdiq edir. İmam Sələbi və Cəlaləddin Siyuti öz «Təfsir»inda, Hafiz Əbu Naim İsfahani «Ma nəzələ minəl-Qurani fi Əliyyin»də, Xətib Xarəzmi «Mənaqib»də, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə»nin 39-cu babında, Xarəzmi Hafiz Əbu Naim İsfahani və Həmuyinidən, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 62-ci babında istinad edərək və həmçinin tarixə görə Şamın hədis söyləyənlərinin hamısı nəql etmişlər ki, aşağıda zikr edilən ayədəki «sadiqin»dən (doğrulardan) məqsəd, Məhəmməd (s) və Əlidir (ə): «**Ey İman gətirənlər! Allahdan qorxun və doğrularla bərabər olun**»[1].

Bəzi rəvayətlərə görə isə «doğrular»dan məqsəd Peyğəmbəri-əkrəm (s) və Əhli-beyt (ə) imamlarıdır.

O böyük ailəyə tabe olan arif və avamdan heç kim hədis uydurmaz, iftira və yalan söyləməz! Çünki haqq olduğuna dair hər hansı bir dəlili olmayan kimsələr ancaq iftira və yalan söyləyərlər!

Şiə müsəlmanlarının söylədikləri şeylər, böyük alim və tarixçilərinizin yazdığı şeylərdir. Əgər tənqid edirsinizsə, onda əvvəl elə bunları yazan öz alimlərinizi tənqid etməlisiniz!

Əgər böyük və dəyərli alimləriniz mötəbər kitablarında səhabənin əhdlərini pozduqlarını yazmasaydılar, mən də belə bir məclisdə bunu bəyan etməzdim!»

**Hafiz**: «Hansı alimimiz, harada səhabənin əhdini pozduğunu yazmışdır? Onların pozduğu əhd nə idi? Bu, sadəcə iddia ilə olmaz!»

**Dəvətçi**: «Bu, bir iddia deyildir! Bürhan, məntiq və həqiqətdir. Səhabə bir çox yerdə sözünün üstündə durmamış və Peyğəmbəri-əkrəmin (s) əmr etdiyi beyəti pozmuşdur. Bunların ən əhəmiyyətlisi Qədiri-Xumdakı əhd və beyətləridir.

---

[1] "Tövbə" surəsi, ayə: 119.

# QƏDİRİ-XUM HADİSƏSİ

Şiə və sünni alimlərinin əksəriyyəti etiraf edirlər ki, hicri 10-cu il «Vida həcci»ndə, zilhiccətül-həramın 18-ci günündə, Məkkədən qayıdarkən Xatəmül-ənbiya həzrət Məhəmməd (s) Qədiri-Xum deyilən yerdə bütün əshabını bir yerə topladı. Rəsulallahın əmriylə öndə gedənlər geri qaytarıldı və geridə qalanlar da oraya yetişdi. Şiə və bir çox sünni alim və tarixçilərin rəvayət etdiklərinə görə 70 min və ya Sələbinin «Təfsir»inə görə, Səbt ibn Cövzinin «Təzkirətu xəvassil-ümmə fi mərifəthl-əimmə» adlı kitabına əsasən orada 120 min nəfər cəmlənmişdi.

Peyğəmbəri-əkrəm (s) onun üçün düzəldilmiş minbərə çıxaraq, olduqca uzun bir xütbə oxudu. Bu xütbənin çox yerində həzrət Əlini (ə) təriflədi. Onun haqqında nazil olan ayələri oxudu. Oradakı müsəlmanların diqqətini həzrət Əlinin uca məqamına çəkdi və belə buyurdu: «Ey insanlar! Mən sizə öz nəfsinizdən daha üstün deyiləmmi?» Onlar «Bəli, üstünsən» dedilər. Bundan sonra Rəsulallah (s) belə buyurdu: «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır».

Sonra əllərini qaldıraraq belə dua etdi: «Allahım, onu sevəni sev, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onu yalnız buraxanı yalnız burax».

Daha sonra bir çadır qurmalarını əmr etdi, həzrət Əliyə də o çadırda oturmasını söylədi. Orada cəmləşən bütün ümmətə belə buyurdu: «Gedin Əliyə beyət edin; çünki mən Allah-təala tərəfindən sizdən Əli üçün beyət almaqla vəzifələndirildim».

O gün həzrət Əliyə ilk beyət edən Ömər, sonra Əbu Bəkr, sonra Osman, sonra Təlhə, sonra Zübeyr idi. Orada tam üç gün müddətində imam Əliyə beyət etdilər».

**Hafiz**: «Görəsən, anlatdığınız kimi, belə əhəmiyyətli bir hadisəni böyük alimlərimizin rəvayət etməməsi inandırıcı bir şeydirmi?»

**Dəvətçi**: «Sizdən belə bir şeyi söyləməyinizi, doğrusu, gözləmirdim. Halbuki, bilindiyi kimi, Qədiri-Xum hadisəsi günəş kimi aydındır. Özünü rəzil etmək istəyən inadkar və təəssübkeşlərdən başqa bunu heç kim inkar edə bilməz! Çünki etibarlı, böyük və dəyərli alimləriniz bu böyük hadisəni öz mötəbər kitablarında rəvayət etmişlər. Onlardan hafizəmdə olanları nəql etmək istəyirəm ki, böyük

alimlərinizin əksəriyyətinin bunu qəbul etdiyini biləsiniz. Əhli-sünnət alimlərindən Qədiri-Xum hədisini rəvayət edən mötəbər ravilər bunlardır:

1. İmam Fəxrəddin Razi: «Məfatihul-ğeyb»; 2. İmam Əhməd Sələbi: «Təfsiri Kəşfül-bəyan»; 3. Cəlaləddin Siyuti: «Təfsiri Durrul-mənsur»; 4. Əbülhəsən Əli ibn Əhməd Vahidi Nişapuri: «Əsbabun-nuzul»; 5. Məhəmməd ibn Cərir Təbəri: «Təfsiri-Kəbir»; 6. Hafiz Əbu Nəim İsfahani: «Ma nəzələ minəl-Qurani fi Əllyyin» və «Hilyətül-övliya»; 7. Məhəmməd ibn İsmayıl Buxari: «Tarix», c: 1, səh: 375; 8. Müslim ibn Həccac Nişapuri: «Səhih» c: 2, səh: 325; 9. Əbu Davud Səcistani: «Sünən»; 10. Məhəmməd ibn İsa Tirmizi: «Sünən»; 11. Hafiz ibn Uqdə: «Kitabul-vilayət»; 12. İbn Kəsir Şafei Dəməşqi: «Tarix»; 13. Əimmətul-hədis imam Əhməd ibn hənbəl (Hənbəlilərin imamı): «Müsnəd», c: 4, səh: 281 və 371; 14. Əbu Hamid Məhəmməd ibn Məhəmməd Ğəzzali: «Sirrül-aləmin»; 15. İbn Əbdülbirr: «İstiab»; 16. Məhəmməd ibn Təlhə Şafei: «Mətalibus-süul», səh: 16; 17. Şafei fəqihi İbn Məğazəli: «Mənaqib»; 18. Nurəddin ibn Sabbağ Maliki: «Fusulul-mühimmə», səh: 24; 19. Hüseyn ibn Məsud Bəğəvi: «Məsabihus-sünnə»; 20. Əbulmuəyyəd Müvəffəq ibn Əhməd Xətib Xarəzmi: «Mənaqib»; 21. Məcdəddin ibn Əsir Məhəmməd ibn Məhəmməd Şeybani: «Camiul-üsul»; 22. Hafiz Əbu Abdurrahman Əhməd ibn Əli Nəsai: «Xasaisul-Ələvi» və «Sünən»; 23. Süleyman Bəlxi Hənəfi: «Yənabiül-məvəddə», bab: 4; 24. Şahabuddin Əhməd ibn Həcər Məkki: «Səvaiqül-mühriqə» və «Əl-mənhul-mələkiyyə»;[1] 25. Məhəmməd ibn Yəzid Hafiz ibn Maccə Qəzvini: «Sünən»; 26. Hafiz Əbu Abdullah Məhəmməd ibn Abdullah Hakim Nişaburi: «Müstədrək»; 27. Hafiz Süleyman ibn Əhməd Təbərani: «Ovsəd»; 28. İbt Əsir Cəzri: «Usdul-ğabbə»; 29. İbn Cövzi: «Təzkirətul-xəvassil-ümmə», səh: 17; 30. Əbu Ömər Əhməd ibn Abdurəbbih «Əqdul-Fərid»; 31. Əllamə Səmhudi: «Cəvahirul-Əqdeyn»; 32. İbn Teymiyyə Əhməd ibn Əbdülhəlim: «Minhacus-sunnə»; 33. İbn Həcər Əsqəlani: «Fəthul-Bari» və «Təhzibut-təhzib»; 34. Əbülqasim Məhəmməd ibn Ömər Carullah Zəməxşəri: «Rəbiyul-əbrar»; 35. Əbu Səid Səcistani: «Kitabud-dirayə fi hədisil-vilayə»; 36. Ubeydullah ibn Abdullah

[1] İbn Həcər, xüsusilə “Səvaiq”in 1-ci babında 25-ci səhifəsində təəssübkeşliyinə baxmayaraq belə deyir: “Bu hədis (Qədir hədisi) heç bir şəkk-şübhə daşımayan səhih hədisdir; Tirmizi, Nəsai və Əhməd ibn Hənbəlin və digərlər tərəfindən rəvayət edilmişdir. Həqiqətən, onu rəvayət edənlər olduqca çoxdur”.

Həskani: «Duatul-Huda ila ədai-həqqil-muvalat»; 37. Rəzin ibn Müaviyə Əbdurey: «Əl-cəmu beynəs sihahis-sittə»; 38. İmam Fəxri Razi[1]: «Ərbəin»; 39. Muqbili: «Əhadisul-mütəvatirə»; 40. Siyuti: «Tarixul-xülafa»; 41.Mir Seyid Əli Həmədani: «Məvəddətül-qurba»; 42. Əbülfəth Nəzəri: «Xasaisul-Ələvi»; 43. Xacə Parsayi Buxari: «Fəslül-xitab»; 44. Cəmaləddin Şirazi: «Ərbəin»; 45. Əbdürrauf Mənavi: «Feyzül-ğədir fi şərhi camius-səğir»; 46. Məhəmməd ibn Yusif Gənci Şafei: «Kifayəut-talib», bab: 1; 47. Yəhya ibn şərəfun-Nəbəvi: «Təhzibül-əsma vəl-luğət»; 48. İbrahim ibn Məhəmməd Həmuyini: «Fəraidus-simtəyn»; 49. Qazi Fəzlullah ibn Ruzbəxan: «İbtalul-batil»; 50. Şəmsuddin Məhəmməd ibn Əhməd Şərbini: «Siracul-munir»; 51. Əbülfəth Şəhristani Şafei: «Miləl və Nihəl; 52. Hafiz Əbu Bəkr Xətib Bağdadi: «Tarixi-Bağdadi»; 53. İbn Əsakir Əbülqasim Dəməşqi: «Tarixi-kəbir»; 54. İbn Əbil-hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi»; 55. Əlaiddin Simnani: «Ürvətül-vüsqa»; 56. İbn Xəldun: «Tarix» kitabının müqəddiməsi; 57. Mövla Əli Müttəqi Hindi: «Kənzul-ümmal»; 58. Şəmsuddin Əbülxəyr Dəməşqi: «Əsnəl-mətalib»; 59. Seyid şərif hənəfi Curcani: «Şərhi-məvaqif»; 60. Nizamuddin Nişapuri: «Təfsirül ğaraibul-Quran» və s.

Həmçinin, Təbəri, İbn Uqdə və İbn Həddad da Qədir hədisini nəql etmişlər; xülasə, bu anda zehnimə gələni ərz etməyə çalışdım. Əslində, böyük alimlərinizdən 300-dən çoxu fərqli yollarla Qədiri-Xum hədisini, Təbliğ və İkmal ayələrini və Röhbədəki mübahisələrini sənədiylə 100-dən çox səhabədən rəvayət etmişlər.

Əgər ravilərin hamısının adlarını zikr etsəm, bütöv bir kitab əmələ gələr. Hesab edirəm, sözügedən hədisin təvatürünü isbat etmək üçün bu qədərini zikr etmək kifayətdir.

Bəzi böyük və dəysrli alimləriniz bu mövzuda müstəqil kitab belə yazmışlar. Məsələn: h.q. IV əsrin məşhur müfəssir və tarixçisi olan Məhəmməd ibn Cərir Təbəri (ö: 310 h.q.) Qədir hədisi haqqında yazdığı «Əl-Vilayət» kitabında bu hədisi 75 müxtəlif yolla rəvayət etmişdir.

[1] Bütün ümmətin bu hədis haqqında icma etdiyini söyləyir.

Hafiz Əbulabbas Əhməd ibn Məhəmməd ibn Səid ibn Əbdürrəhman Kufi (İbn Uqdə) (ö/t: 333 h.q.) «Əl-Vilayət» kitabında bu hədisi bəlağətli təhqiqat əsasında 125 səhabədən 125 müxtəlif yolla rəvayət etmişdir.

Hicri 492-ci ildə vəfat edən İbn Həddad Hafiz Əbülqasim Həskani isə «Kitabul-vilayət» kitabında geniş olaraq Qədir Hadisəsini nazil olan ayələrlə birlikdə rəvayət etmişdir.

Xülasə, bir ovuc təəssübkeş alimdən başqa, bütün tədqiqatçı alimləriniz Peyğəmbəri-əkrəmin (s) Vida həccində (zilhiccə ayının 18-i) açıq şəkildə həzrət Əlini (ə) vilayət məqamına təyin etdiyini yazmışlar.

Hətta Ömər ibn Xəttab bütün əshabdan daha çox sevinmiş və həzrət Əlinin (ə) əlindən tutaraq belə demişdir: «Xoş sənin halına ya Əli! Mənim və hər mömin və möminənin mövlası oldun».

Bilməlisiniz ki, bu hədis hər iki firqə yanınla mütəvatirdir.

## CƏBRAYILIN (Ə) ÖMƏRƏ NƏSİHƏTİ

Xüsusilə Hicri H.Q. VIII əsrdə yaşayan böyük alimlərinizdək olan Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba» kitabının 5-ci məvəddəsində belə yazır: «Bir çox səhabə müxtəlif yerlərdə Ömərin belə dediyini rəvayət etmişdir «Rəsulallah Əlini ümmətin rəhbəri qərar verdi. Daha sonra Əlinin dost və düşmənləri haqqında dua etdikdən sonra belə buyurdu: «Allahım, sən onlar barədə mənim şahidimsən» (Yəni mən risalətimi təbliğ etdim).

Ömər davamında belə deyir: «O anda gözəl simalı və gözəl ətirli bir gənc yanımda oturmuşdu. Mənə belə dedi «Peyğəmbəri-əkrəm elə bir əqd etdi ki, o əqdi münafiqdən başqa heç kim poza bilməz; elə isə o əqdi pozmaqdan çəkin».

Bu hadisədən sonra Rəsulallahın (s) yanına gedərək belə dedim: «Sən Əli haqqında danışarkən yanımda oturan və gözəl ətirli bir gənc də mənə «əqdi pozma» dedi. Peyğəmbəri-əkrəm (s) buyurdu: «O, Adəm oğullarından deyildi; o, Cəbrayıl idi və Əli haqqında söylədiklərimi sizə təkid etmək istəyirdi».

Rəsulallahın (s) Allah-təalanın əmriylə əshabla etdiyi əqd heç iki ay keçmədən pozuldu. Həva və həvəslərinə tabe olaraq beyətdən əl çəkdilər, haqqı tərk etdilər; etmələri lazım olmayan şeyləri etdilər: həzrət Əlinin (ə) evinin qapısında od yandırdılar, üstünə qılınc çəkdilər, təhqir etdilər, zorla, təhditlə, dava və izdihamla başqasına beyət etməsi üçün məscidə apardılar! İndi insafla danışın, görəsən, həzrət Əliyə qarşı belə davranması doğrudurmu?»

**Hafiz**: «Sizin kimi hörmətli və ədəbli bir Seyiddən Peyğəmbəri-əkrəmin (s) əshabının həva və həvəsinə uyduğunu söyləyəcəyinizi gözləmirdik. Halbuki, bilindiyi kimi, Peyğəmbəri-əkrəm əshabını doğru yola istiqamətlənmə vəsiləsi saymışdır: «Əshabım ulduzlar kimidir; hansına tabe olsanız, doğru yola hidayət olarsınız» buyurmuşdur».

## «ƏSHABA TABE OLMAQ...» HƏDİSİ SƏHİH DEYİL

**Dəvətçi**: «Əvvəla; rica edirəm sözləri təkrarlamayın! İndi də bu hədisi şahid göstərməyə başladınız. Cavab olaraq söylədim ki, əshab da digər insanlar kimi xəta edə bilər. Daha doğrusu, dəlil üzrə onlardan bəzisinin nəfsinə uyduğunu söyləməyimdə təəccüb ediləcək bir şey yoxdur!

İkincisi; zehninizin aydınlanması və yenə bu hədisi şahid göstərməmək üçün təkrar cavab vermək məcburiyyətindəyəm. Sözünüzü təkrar etdiyiniz üçün mən də cavabımı təkrarlamaq istəyirəm.

Bilavasitə böyük tədqiqatçı alimlərinizin nəzərində «Əshaba tabe olmaq...» hədisi səhih deyildir! Əvvəl də söylədiyim kimi, Qazi Əyyaz Maliki bu hədisin ravilərindən olan Haris ibn Quzeynin tərcümeyi-halı məlum deyil, Həmzə ibn Əbu Həmzə Nəsibinin isə iftira və yalançılıqda ittiham edildiyini və daha doğrusu, bu hədisin rəvayət edilmək üçün dəyəri olmadığını açıq-aydın şəkildə bəyan etmişdir.

Ayrıca bilməyiniz zəruridir ki, Qazi Əyyaz «Şərhi-Şifa» və Beyhəqqi də öz kitabında bu hədisin uydurma, sənədinin də zəif və rədd olunmuş olduğunu açıq şəkildə bəyan etmişlər.

# ƏSHABDAN BƏZİSİ NƏFSİNƏ TABE OLARAQ HAQDAN UZAQLAŞDI

Üçüncü olaraq; əsla, ədəb və nəzakətdən ayrılmadım, sadəcə öz alimlərinizin söyləmiş olduğunu söyləyirəm!

Zəhmət olmasa, Fazil Təftəzaninin «Şərhi-məqasid» kitabına müraciət edin. Orada aydın şəkildə belə deyir: «Səhabə öz arasında müxalifət edir və savaşırdı. Bundan da anlaşılır ki, onlardan bəzisi haqq yoldan azmış, nəfsinə uymuş və hətta zalım və fasiq olmuşdur».

O halda, Rəsulallahı (s) görən hər kəsi ehtiram və etimadla qəbul etmək mümkün deyildir. Ehtiram və etimad onların əməl və davranışlarına bağlıdır. Əgər nifaq əhli olmaz və Rəsulallahın əmrinə itaət edərlərsə, o zaman onlara ehtiram göstərər, etibar edərik. Bizim üçün ayaq tozları belə göz nurumuz olar.

Möhtərəm ağalar, ya Peyğəmbəri-əkrəmin (s) «Əli ilə savaşan mənimlə savaşmışdır» hədisi kimi həzrət Əliyə qarşı edilən savaşlarla əlaqəli buyurduğu və böyük alimlərinizin də səhih sənədlərlə nəql etdikləri bir çox hədislərin yalan olduqlarını söyləyəcək və ya əshabdan Müaviyə, Əmr ibn As, Əbu Hureyrə, Səmurə ibn Cündəb, Təlhə və Zübeyr kimilərinin fasiq, zalım və batil əhli olduğunu qəbul edəcəksiniz! Çünki əshabdan bir çoxu həzrət Əli ilə döyüşərək haqq yolundan azmış və zikr olunmuş hədisə görə Rəsulallah ilə döyüşmüşdür.

O halda, əgər əshabdan bəzilərinin həva və həvəslərinə qapıldıqlarını söyləsək, yersiz bir söz söyləmiş olmarıq. Əksinə, bürhan və dəlil üzrə danışarıq. Ayrıca bilmək lazımdır ki, əshabdan bəzisini fasiq, zalım, haqdan üz çevirən və münafiq olduğunu yalnız biz söyləmirik; böyük alimləriniz də bu mövzuda bizimlə ittifaq etmişlər.

# ĞƏZZALİNDƏN ƏSHABIN ƏHDİ POZMASINA DAİR DƏLİLLƏR

Höccətül-İslam Əbu Həmid Məhəmməd ibn Məhəmməd Ğəzzali Tusinin «Sirrul-aləmin» kitabını araşdırsanız, əsla, bizi qınamazsınız. Haqqı isbat etmək üçün bu kitabın 4-cü məqaləsindən, sadəcə bəzi bölümləri ərz etmək məcburiyyətindəyəm: «Müsəlmanların müxtəlif firqələri Qədiri-Xum hadisəsini və o gün Peyğəmbəri-əkrəmin (s) oxuduğu xütbəni şəksiz-şübhəsiz doğru bilmişdir. Daha doğrusu, hər cür etiraz batildir. Bu səbəbdən Rəsulallah xütbəsini bitirər-bitirməz Ömər həmin an Əlini (ə) təbrik etmişdi. Şübhəsiz, bu təbrik yeni bir əmrə təslimiyyət və Əlinin (ə) xilafətinə rizayət üçün həqiqiləşmişdi. Təssüflər olsun ki, böyük bir sevinclə təbrik etdikləri halda, nəfsi-əmmarə onlara qalib gəldi və məqam sevgisi onların insani xüsusiyyətlərini və hisslərini yox etdi. Şəhvətlərinə uyaraq güc bayraqlarını dalğalandırdılar və ordulara hökm edərək ölkələri fəth etməyə yönəldilər. Beləcə, tarix səhifələrinə adlarını qeyd etmək istədilər. Nəfsani həva badələrindən şərab içdilər, Quranı arxalarına atdılar, Peyğəmbəri-əkrəmin sünnətinə etinasızlıq göstərdilər, dinlərini dünyalarına satdılar və Allah-təala ilə çox çirkin müamilə etdilər.

Haqqı gizlətdikləri üçün axirətdə ziyana uğrayacaqlar. Əgər belə olmasaydı, Peyğəmbəri-əkrəm yatağında xəstə yatarkən qələm, kağız istədikdə ona «Şübhəsiz, sayıqlıyır» demədilərmi? O halda, Əbu Bəkrin xilafəti batildir. Əgər xilafəti qurtarmaq üçün icma silahına sarılsanız, bu da, əsla, doğru deyildir. Çünki Abbas, oğulları, Əli (ə) və həyat yoldaşı, uşaqları - heç biri bu icmaya qatılmadı. Hətta Səqifədə olanlardan bəzisi də bu icmaya müxalifət etmiş və oradan ayrılmışdı. Ənsar da açıq şəkildə müxalifət etmişdi».

Bu halda gördüyünüz kimi, şiələr böyük və insaflı alimlərinizin söylədiklərindən başqa bir şey söyləmirlər. Bizə pis gözlə baxdığınız üçün doğru sözlərimizi də qəbul etmirsiniz. Amma bunları yazan alimlərinizə bir şey demir, görməməzliyə vurursunuz. Halbuki, məlum olduğu kimi, onlar elm və insaf üzrə həqiqətləri açıqlamış və tarixdə qeyd etmişlər».

**Şeyx**: «Sirrül-aləmin» kitabı imam Ğəzzalinin kitabı deyildir! O, belə bir kitabı yazmaqdan uzaqdır! Böyük alimlər bu kitabın Ğəzzaliyə aid olduğunu qəbul etmirlər!»

## «SİRRÜL-ALƏMİN» ĞƏZZALİNİN KİTABIDIR

**Dəvətçi**: «Öz alimlərinizdən bir qrupu bu kitabın imam Ğəzzaliyə aid olduğunu söyləmişlər. Bu anda hafizəmdə olanı deyə bilərəm ki, mövzuları şərh etməkdə olduqca diqqətli, ehtiyatla yazan və hədsiz təəssübkeş olan Yusif Səbt ibn Cövzi «Təzkirətu xavassil-ümmət» kitabının 36-cı səhifəsində bu mövzuda imam Ğəzzalinin «Sirrul-aləmin» kitabından şahid göstərir və az əvvəl ifadə etdiyim sözləri rəvayət edir. Bundan da başa düşüldüyü kimi, bu kitabın Ğəzzalinin olduğunu qəbul edir. Məclisin vaxtını nəzərə alaraq deyim ki, nəql etdiyimdən daha çoxunu nəql edərək onunla eyni fikirdə olduğunu vurğulayır. Əks təqdirdə, bir sənəd kimi Ğəzzalinin «Sirrül-aləmin» kitabına müraciət etməz, bu mövzuda tədqiqat aparardı.

Amma bilindiyi kimi, təəssüb əsiri olan alimləriniz bu cür həqiqətlər və böyük alimlərin bəyanları qarşısında məntiqli cavab verməkdə aciz qaldıqda ya bu kitabın Ğəzzaliyə aid olmadığını söyləyir, ya da onun şiə olduğunu ifadə edirlər.

Gücləri yetərsə, hətta onları kafir sayır və yox etməyə çalışırlar. Daha doğrusu, bu alimlərin tək günahı insaflı olmaları və həqiqətləri aşkara çıxartmalarıdır.

***Sirrin ortaya çıxması məsləhət deyildir,***
***Yoxsa, rindlər məclisində xəbər yox ki, yox!***

# İBN UQDƏNİN AQİBƏTİ

Tarixin də göstərdiyi kimi, bir çox aliminiz həqiqətləri söyləyib yazdıqları üçün böyük bəlalara duçar olmuşlar kitablarının oxunması haram edilib, sonda da öldürülüblər.

Böyük alimlərimizdən Hafiz ibn Uqdə Əbülabbas Əhməd ibn Məhəmməd ibn Səid Həmədani, (ö/t: 333 h.q.) buna bir örnəkdir. Rical alimlərinizdən Zəhəbi, Yafe və İbn Uqdənin etibarlı olduğunu bəyan etmiş və tərcümeyi-halında 300 min hədisi sənədləri ilə əzbərlədiyini yazmışlar.

Amma hicri 3-cü ildə Kufə və Bağdadda Əbu Bəkr və Ömərin xətalarını söylədiyi üçün rafizi şiə elan edilmiş, rəvayətlərinin nəqli qadağan olunmuşdur. Bu səbəbdən İbn Kəsir, Zəhəbi və Yafe onun haqqında belə yazmışlar: «Bu şeyx İbn Uqdə Bərasa[1] məscidində oturub xalqa Əbu Bəkr və Ömərin eyiblərini söyləyirdi. Bu səbəbdən onun rəvayətlərini tər etdik. Yoxsa onun doğruluğu və etibarlılığında heç bir şəkk-şübhə yoxdur».

Xətib Bağdadi də «Tarix» kitabında onu təriflədikdən sonra belə deyir: «İbn Uqdə Əbu Bəkr və Ömərin qüsur və eyiblərini açıb söylədiyi üçün şiə olmuşdur».

Ağalar, sadəcə şiə müsəlmanların həqiqətləri bəyan etdiyini zənn etməyin; imam Ğəzzali, İbn Uqdə və bənzərləri də böyük səhabələrin qüsur və eyiblərini nəql etmişlər.

# TƏBƏRİNİN ÖLÜMÜ

Tarixdə bu kimi insanlar olduqca çoxdur. Həqiqətləri söylədikləri və ya yazdıqları üçün pərişan olmuş, rədd edilmiş və öldürülmüşlər. Məsələn: hicri 3-cü ildə böyük alim, tarixçi və müfəssir Məhəmməd ibn Cəriri Təbəri 310-cu ildə 86 yaşında ikən vəfat etdi. Cənazəsinin gündüz qaldırılıb dəfn edilməsinə mane olunduğuna və təhlükəyə görə onu evinin içində basdırdılar.

---

[1] Bərasa, indi Bağdadla Kazimeyn arasında məşhurdur.

# NİSAİNİN ÖLDÜRÜLMƏSİ

Bundan da qəribəsi imam Əbu Əbdürrəhman Əhməd ibn Əli Nisainin öldürülməsidir. Nisai hicri 3-cü ilin sonlarında yaşayan və «Kutubi-Sittə»nin də müəlliflərindən olan əhli-sünnətin böyük alimlərindən biridir. O, hicri 303-cü ildə Dəməşqə getmişdi. Orada Əməvilərin təfqirələri nəticəsində hər namazdan sonra və hətta cümə xütbələrində həzrət Əliyə (ə) lənət deyildiyini gördükdə çox narahat oldu. Elə o an sənədləriylə birlikdə Peyğəmbəri-əkrəmdən (s) rəvayət edilən həzrət Əlinin fəzilətləriylə əlaqəli hafizəsində olan hədisləri qələmə aldı. «Xəsaisul-Ələvi» kitabını da həzrət Əlinin fəzilət və uca məqamını isbat etmək üçün yazdı. Minbərdə o kitabda qeyd edilən hədisləri oxuyaraq həzrət Əlinin fəzilət və üstünlüklərini yaymağa çalışırdı.

Günlərin bir günü minbərdə Əlinin fəzilətlərini izah etdiyi halda cahil xalqın hücumuna məruz qaldı. Əvvəl onu minbərdən aşağı çəkdilər, şiddətli şəkildə döydülər, xayalarını əzdilər və tənəssül orqanından tutaraq onu bayıra sürüklədilər. Aldığı bu ağır zərbələr nəticəsində vəfat etdi; vəsiyyətinə görə cənazəsini aparıb, Məkkədə torpağa tapşırdılar.

Bax, bu inadkar, qara cahil camaat və axmaq təəsübkeşlər öz böyük alimlərini haqqı söylədiyinə görə rəzil-rüsvay edərək öldürmüşlər. Təkcə günahları da həqiqətləri açıqlamaq idi. Halbuki, həqiqətlər Günəş kimidir, bir gün mütləq doğacaqdır!

Mövzudan uzaqlaşdığım üçün üzr diləyirəm. Məqsəd budur ki, təkcə şiə müsəlmanlar deyil, böyük alimləriniz də həzrət Əlinin (ə) vilayət məqamını yazıb, nəql etmişlər. Böyük alimlərinizin yazdığı kimi Peyğəmbəri-əkrəm (s) 70 və ya 120 min insanın hüzurunda həzrət Əlinin (ə) əlindən tutaraq, Onu xalqın imamı və mövlası olduğunu elan etmişdir».

## «MÖVLA» KƏLMƏSİNİN ARAŞDIRILMASI

**Hafiz**: «Bu hədisin əsli haqqında heç bir şəkk-şübhə yoxdur. Amma izah etdiyiniz kimi də deyildir. Bilmək lazımdır ki, hədisin mətnindəki bir qrup ibarələr də məqsədinizə ziddir.

Hədisdəki «mövla» sözünün «təsərrüfdə övləviyyət» mənasında olduğunu söyləməyə çalışdınız. Halbuki, bu hədisdəki «mövla» sözü mühib, dost və yardımçı mənasındadır. Çünki Peyğəmbəri-əkrəm (s) Əlinin (k.v) düşmənlərinin çox olduğunu bildiyindən ümmətinə «Mən kimin mühib, dost və yardımçısıyamsa, Əli də onun mühib, dost və yardımçısıdır» söyləmək məcburiyyətində qaldı. Xalqda beyət almasının səbəbi də özündən sonra Əliyə (k.v) əziyyə etməmələrini təmin etmək üçün idi».

**Dəvətçi**: «Zənn edirəm, bəzən məcburən keçmişlərinizə və adətlərinizə tabe olursunuz; əks təqdirdə, bir az diqqət və insafla baxıb qərinə və dəlilləri də gözünüz önündə canlandırsanız, həqiqətləri görə bilərsiniz».

**Hafiz**: «Hansı qərinə və dəlillə sabit etmək istəyirsiniz. Zəhmət olmasa, bəyan edin».

## «MÖVLA»NIN «TƏSƏRRÜFDƏ ÖVLƏVİYYƏT» OLDUĞUNUN SÜBUTU VƏ «EY RƏSUL! RƏBBİNDƏN SƏNƏ NAZİL OLANI TƏBLİĞ ET» AYƏSİNİN NAZİL OLMAS1

**Dəvətçi**: «Birinci qərinə və dəlilim Qurandır. Allah-təala «Maidə» surəsinin 67-ci ayəsində belə buyurur: «**Ya Peyğəmbər! Öz Rəbbin tərəfindən sənə nazil olunmuşu tamamilə [camaata] çatdır. Çatdırmasan Allahın risalətini (sənə verilmiş peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah, səni insanların [şərrindən] qoruyacaq. Allah kafir qövmləri [doğru yola] yönəltməz!**»

**Hafiz**: «Bu ayənin o gün və bu iş üçün nazil olduğu haradan məlumdur?»

**Dəvətçi**: «Sizin böyük alimlərinizdən. Məsələn: Cəlaləddin Siyuti: «Dürrül-mənsur», c: 2, səh: 298; 2. Haf ibn Əbu Hatəm Razi:  «Təfsiri-Qədir»; 3. Hafiz Əbu Cəf Təbəri: «Kitabul-vilayət»; 4. Hafiz Əbu Abdullah Muhamili: «Amili»; 5. Hafiz Əbu Bəkr Şirazi: «Ma nəzələ min əl-Qurani fi Əmiril-möminin»; 6. Hafiz Əbu Səid Səcistani: «Kitabul-vilayət»; 7. Hafiz ibn Mərdəviyə: «Təfsir» (ayənin təfsirində); 8. Hafiz Əbülqasim Həskani; «Şəvahidut-tənzil»; 9. Əbülfəth Nəzəzi: «Xəsaisul-Ələvi»; 10. Muiniddin Meybu; «Şərhi-divan»; 11. Qazi Şəvkani: «Fəthul-Qədir», c: 3, səh: 57; 12. Seyid Cəmaləddin Şirazi: «Ərbəin»; 13. Bədruddin Hənəfi: «Umdətul-qari fi şərhi səhihi-Buxari, c: 8, səh: 584»; hədis əshabının imamı Əhməd Sələbi: «Təfsirul-Kəşfil bəyan»; 15. İmam Fəxri Razi: «Təfsiri-kəbir», c: 3, səh: 636: Hafiz Əbu Nəim İsfahani: «Ma nəzələ min əl-Qurani Əliyyin»; 17. İbrahim ibn Məhəmməd Həmuyini: «Fəraid simtəyn»; 18. Nizaməddin Nişapuri: «Təfsir», c: 6, səh:170; 19. Seyid Şəhabuddin Alusi Bağdadi: «Ruhul-məani», c: 2, səh: 348; 20. Nurəddin ibn Sabbağ Maliki: «Fusulul-mühimmə», səh: 27; 21. Əli ibn Əhməd Vahidi: «Əsbabun-nüzul», səh: 150; 22. Məhəmməd ibn Təlhə Şafei: «Mətalibus-süul», səh: 16; 23. Mirseyid Əli Həmədani Şafei: «Məvəddətül-qurba», məvəddə: 5; 24. Şeyx Süleyman Bəlxi Hənəfi: «Yənabiül-məvaddə», bab: 39 və s...

Xülasə, görmüşəm ki, alimlərinizdən 30-dan çoxu öz mötəbər kitab və təfsirlərində bu ayənin Qədir günü həzrət Əli (ə) haqqında nazil olduğunu yazmışlar.

Hətta Qazi Fəzl ibn Ruzbəhan bütün inad və təəssübünə baxmayaraq, belə yazmışdır: «Bizim mötəbər «Səhih» kitablarında da sabitdir ki, bu ayə nazil olduqda Peyğəmbəri-əkrəm (s) həzrət Əlinin əlindən tutaraq belə buyurdu: «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır».

Maraqlı bir xüsus da budur ki, bu inadkar alim «Kəşfül-ğummə» kitabında Rəzin ibn Abdullahdan bu maraqlı rəvayəti nəql edir: «Biz Rəsulallahın (s) zamanında bu ayəni belə oxuyurduq: «**Ey Rəsul, Rəbbindən sənə endiriləni təbliğ et; ki, şübhəsiz, Əli möminlərin mövlasıdır. Belə etməsən, risalətini təbliğ etməmiş olursan**».

Həmçinin, Siyuti «Dürrül-mənsur»da İbn Mərdəviyədən, İbn Əsakir İbn Əbu Hatəm Əbu Səid Xidri və Abdullah ibn Məsuddan (vəhyi yazanlardan biri) və Qazi Şovkani də «Fəthul-Qədir» təfsirində belə rəvayət edir: «Biz də Rəsulallahın (s) zamanında zikr olunmuş ayəni belə oxuyurduq».

Xülasə, ayədə Peyğəmbəri-əkrəmə edilən təhditdən aydın olduğu kimi, təbliğ edilməsi olan iş zəruri və risalətin davamı üçün çox əhəmiyyətlidir. Daha doğrusu, bu iş Rəsulallahdan sonra dinin və hökmlərinin qoruyucusu olan imamət, vəsilik və təsərrüfdə övla (hər kəsdən səlahiyyətli) olmaqdır.

## «BU GÜN SİZƏ DİNİNİZİ KAMİL ETDİM» AYƏSİNİN QƏDİR-XUMDA NAZİL OLMASI

İkinci dəlil isə bu ayədir: «Bu gün sizə dininizi kamil etdim, sizə olan nemətimi tamamladım. Din olaraq sizin üçün İslamı bəyənib-seçdim»[1].

**Hafiz**: «Qətidir ki, bu ayə Ərəfədə nazil olmuşdur! Alimlərdən heç biri bu ayənin Qədiri-Xumda nazil olduğunu söyləməmişlər!»

**Dəvətçi**: «Rica edirəm, inkar edərkən tələsməyin; isbat imkanını da nəzərə alaraq ehtiyatlı düşünün ki, cavab anında ruhi baxımdan narahat olmayasınız!

Əlbəttə, doğrudur; bəzi alimləriniz bu ayənin Ərəfədə nazil olduğunu bəyan etmişdir. Amma bilindiyi kimi, böyük alimlərinizin bir çoxu bu ayənin Qədiri-Xumda nazil olduğunu açıq şəkildə bəyan etmişlər. Hətta bəzi alimləriniz bu ayənin iki dəfə nazil olduğu ehtimalını da vermişlər. Yəni bir dəfə Ərəfədə, bir dəfə də Qədir-Xumda. Bu səbəbdən Səbt ibn Cövzi «Təzkirətul-xəvassil-ümmə» kitabının 18-ci səhifəsində belə deyir: «Ehtimal var ki, bu ayə bir dəfə Ərəfədə, bir dəfə də Qədiri-Xumda olmaqla iki dəfə nazil olmuşdur. Bu səbəbdən «Bismillahir-rəhmanir-rəhim» də bir dəfə Məkkədə, bir dəfə də Mədinədə nazil olmuşdur».

Cəlaləddin Siyuti «Dürrül-mənsur»un 2-ci cildinin 256-cı səhifəsində və «İtkan»ın 1-ci cildinin 31-ci səhifəsində, müfəssirlərin imamı Sələbi «Kəşfül-bəyan»da, Hafiz Əbu Nəim İsfahani «Ma nəzələ min əl-Qurani fi Əliyyin»də,

[1] “Maidə” surəsi, ayə: 3.

Əbülfəth Nəzəzi «Xəsaisul-Ələviyyə»də, İbn Kəsir Şami Hafiz ibn Mərdəviyə yoluyla «Təfsir»inin 2-ci cildinin 14-cü səhifəsində, hicri III əsrin böyük tarixçi və müfəssiri Məhəmməd ibn Cəriri Təbəri «Təfsirul-Kitabil-vilayət»də, Hafiz Əbülqasim Həskani «Şəvahidut-təzil»də, Səbt ibn Cövzi «Təzkirətu xəvassil-ümmə»nin 18-ci səhifəsində, Əbülishaq Həmuyini «Fəraidus-simtəyn»nin 12-ci babında, Əbu Səid Səcistani «Kitabul-vilayət»də, Xətib Bağdadi «Tarixi-Bağdad»ın 8-ci cildinin 290-cı səhifəsində, Şafei alimi İbn Məğazəli «Mənaqib»də, Əbülmüəyyəd Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib»in 14-cü fəslində və «Məqtəlul-Hüseyn»in 4-cü fəslində və digər alimləriniz öz mötəbər kitablarında belə yazmışlar: «Qədiri-Xumda Rəsulallah (s) Allah-təalanın əmriylə həzrət Əlini (k.v) vilayət məqamına təyin edib məmur olduğu sözləri xalqa söylədikdə, qoltuğunun altları görünəcək şəkildə Əlinin əlindən tutub yuxarı qaldırdı və ümmətinə belə buyurdu: «Əlini əmirəl-möminin (ümmətin əmiri) olaraq salamlayın». Ardınca ümmətin hamısı bu əmri yerinə yetirdi və hələ yerindən ayrılmamış zikr etdiyim ayə nazil oldu.

Peyğəmbəri-əkrəm (s) bu ayənin nazil olmasına çox sevindi və ümmətinə buyurdu: «Dini kamala çatdıran, nemətini tamamlayan, mənim risalətimə və məndən sonra Əlinin vilayətinə razı olan Allah-təala necə də böyükdür!»

İmam Həskani və imam Əhməd Hənbəl bu hadisəni ətraflı şəkildə rəvayət etmişdir. Əgər bir saat adətinizdən uzaqlaşıb insaf gözüylə baxsanız, nazil olan ayə və nəql edilən rəvayətlərdən «mövla» sözündən məqsədin imamət və vilayət məqamı olduğunu asanlıqla anlaya bilərsiniz.

Əgər «vəli» və «mövla» kəlmələri «hər cür təsərrüfdə övləviyyət» mənasını ifadə etməsəydi, sonrakı cümlə anlamsız olardı. Bu cümlə (Mən kimin mövlasıyamsa...) nə zaman Peyğəmbəri-əkrəm (s) tərəfindən ifadə edilmişsə, «mövla» kəlməsi mütləq «təsərrüfdə övləviyyət» mənasını ifadə etmişdir. Rəsulallah (s): «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır» buyurmaqla nail olduğu vilayət məqamını özündən sonra Ona məxsus etmişdir.

Üçüncüsü; bir az insafla baxsanız, həqiqətləri görərsiniz. Peyğəmbəri-əkrəm nə üçün isti, bu otsuz və susuz yerdə ümmətini topladı; öndə gedənlərin geriyə

dönməsini, geridə qalanların da irəli kəlməsini əmr etdi; qızmar Günəşin altında minbərə çıxdı və Xarəzmi və İbn Mərdəviyənin «Mənaqib»ində, Təbərinin isə «Kitabul-vilayət» kitabında rəvayət etdiyi həzrət Əlinin (ə) fəzilət və məqamını bəyan edən uzun xütbəni oxudu. O isti və quraqlıq çöldə tam üç gün xalqın vaxtını alaraq hər kəsdən imam Əli üçün beyət aldı. Bütün bunlar sadəcə xalqın həzrət Əlini sevməsini təmin etmək və ya onlara Əlinin onların dost və yardımçısı olduğunu bildirmək üçün idimi?!

Halbuki, Peyğəmbəri-əkrəmin həzrət Əliyə olan böyük sevgi və məhəbbətini bilməyən yox idi. Çünki Rəsulallah dəfələrlə bunu tövsiyyə etmişdi. Belə isti bir yerdə üç gün gözlətmək yalnız Əlini sevdirməyə yönəlmişdi? Sizçə mənası nə ola bilər? Nazil olan ayə və deyilən xütbə, vurğulanan kəlmələr nəyi bildirir?

Hətta əgər yaxşı-yaxşı diqqət etsəniz, anlayarsınız ki, bu hadisənin çox əhəmiyyətli bir yönü olmazsa, ağıl sahibləri yanında bu əməl əbəs bir iş sayılar. Peyğəmbəri-akrəmin əbəs bir işlə məşğul olması isə qeyri-mümkündür!

Bu halda, ağıl sahiblərinin də qəbul etdiyi kimi, bu təntənəli mərasim yalnız dostluq və məhəbbəti izhar etmək üçün deyildi; əksinə, risalət məqamının ardınca gələn vilayət məqamının təyini və sübutu idi.

## «MÖVLA»NIN MƏNASI HAQQINDA SƏBT İBN CÖVZİNİN NƏZƏRİ

Bu səbəbdən bəzi böyük və dəyərli alimləriniz də diqqət və insaf üzrə bu mənanı təsdiq etmişlər. Məsələn: Səbt ibn Cövzi «Təzkirətu xavassil-ümmə» kitabının 2-ci babının 20-ci səhifəsində «mövla» kəlməsi üçün 10 məna zikr etmiş, sonda da belə demişdir: «Bu 10 mənadan 9-u Rəsulallahın (s) sözünə uyğun gəlmir. Hədisdən məqsəd, xüsusi olaraq itaətdir; o halda onuncu məna qəsd edilmişdir. Bu da, «təsərrüfdə övləviyyət» mənasıdır; buna uyğun olaraq hədisin mənası belə olur: Mən kimin nəfsinə özündən daha övlayamsa, Əli də onun nəfsinə ondan daha övladır.

Bu mənanı Hafiz Əbülfərəc Yəhya ibn Səid Səqəfi İsfahani də «Mərcul-bəhreyn» kitabında açıq-aydın tərzdə ifadə etmişdir. Orada öz sənədiylə şeyxlərindən belə bir hədis rəvayət edir: «Peyğəmbər (s) Əlinin (k.v) əlini tutaraq belə buyurdu: «Mən kimin vəlisi və nəfsinə özündən daha övlayamsa, Əli də onun vəlisidir».

Burada Səbt ibn Cövzi belə deyir: «Peyğəmbərin (s) «Mən möminlərə özlərindən daha övla deyiləmmi?» sözü də buna dəlalət edir. Bu da həzrət Əlinin imamət və itaətinin vacibliyini göstərən aydın bir dəlildir».

## «MÖVLA»NIN MƏNASI HAQQINDA İBN TƏLHƏ ŞAFEİNİN NƏZƏRİ

Məhəmməd ibn Təlhə Şafei də «Mətalibüs-süul» kitabının 1-ci babının 5-ci fəslinin ortalarında belə deyir: «Mövla» kəlməsinin bir çox mənası vardır; təsərrüfdə övləviyyət, yardımçı, varis, siddiq və ağa. Bu hədis də Mübahilə ayəsinin sirlərindəndir. Allah-təala həzrət Əlini (ə) Peyğəmbari-əkrəmin (s) nəfsi olaraq qərar vermiş və onların nəfsini bir saymışdır. Yəni Rəsulallah bu hədislə möminlərin nəfsi üzərində olan haqlarını həzrət Əli üçün də sabit etmişdir.

Xatəmül-ənbiya möminlərin işində, idarəçiliyində ən övla (səlahiyyətli) olandır, möminlərin yardımçısı və ağasıdır. Rəsulallah üçün mövla kəlməsinin ifadə etdiyi hər məna, bu hədislə həzrət Əli üçün də sabit olmuşdur. Bu uca məqamı və ali dərəcəni Peyğəmbər həzrət Əliyə məxsus etmişdir. Bu səbəbdən Qədir günu o həzrətin (ə) dostları üçün bayram və sevinc günü olmuşdur».

**Hafiz**: «Özünüzün də bildirdiyi kimi, «mövla» kəlməsinin bir çox mənası vardır. Elə isə «təsərrüfdə övləviyyət» mənasını bu qədər mənalar arasından dəlil olmadan seçmək batildir!»

**Dəvətçi**: «Əlbəttə, elmi-usul alimləri fərqli mənaları olan kəlmələr haqqında sadəcə bir mənasının həqiqi, digər mənalarının isə məcazi olduğunu söyləmişlər. Daha doğrusu, hər yerdə həqiqi məna, məcazi mənadan qabaqdır.

Bu əsas üzrə «mövla» və «vəli» kəlməsinin əsl mənası «təsərrüfdə övləviyyət»dir. Bu səbəbdən «vəliyun nikah»ın mənası, nikah işi üstələnən kimsədir. Qadının vəlisi həyat yoldaşıdır, uşağın vəlisi isə atası. Sultanın vəliəhdi də özündən sonra səltənət işində idarəçilikdə olan kimsədir. Bütün mənalar da bu baxışdandır.

Ayrıca, bilmək lazımdır ki, əsl müşgül sizin sözlərinizdədir ki, «vəli» və «mövla» kəlmələrini, o qədər məna arasından yalnız «dost» və «yardımçı» mənalarına yozursunuz. Səbəbsiz xüsusiləşdirmək isə batildir! Bu məsələ bizdən çox sizin üçündür. Çünki bizim məxsus etməyimizin bir dəlili vardır. Bilavasitə alimlərinizdən Səbt ibn Cövzi və Məhəmməd ibn Təlhə Şafei kimilərin dediyi kimi, bir çox ayə və rəvayətlər də bu mənanı təyid edir.

Ən böyük dəlil, bu mənanı məxsus edən daxili və xarici səbəblərdir ki, onlardan bəzisinə toxunduq. Şiə və sünninin rəvayət yoluyla nəql edilən bir çox rəvayətlərdə Təbliğ ayəsi belə nəql edilmişdir: «Ey Rəsul! Əlinin vilayəti və imaməti haqqında sənə endiriləni təbliğ et...»

Böyük alimlərinizdən olan Cəlaləddin Siyuti də «Durrul-mənsur» kitabında bu hədisləri bir yerə toplamışdır.

## HƏZRƏT ƏLİNİN (Ə) RƏHBƏDƏ QƏDİR-XUM HƏDİSİNİ DƏLİL GÖSTƏRMƏSİ

Əgər bu hədis və mövla kəlməsi imamət və xilafətə dəlalət etməsəydi, Həzrət Əli (ə) dəfələrlə onu dəlil göstərməz, xüsusilə də şura toplantılarında şahid olaraq ortaya qoymazdı. Necə ki, Xətib Xarəzmi «Mənaqib»in 217-ci səhifəsində, İbrahim ibn Məhəmməd Həmuyini «Fəraid»in 58-ci babında, Hafiz ibn Uqdə «Kitabul-vilayət»də, İbn Hətəm Dəməşqi «Durrun-nəzim»də və İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 2-ci cildinin 61-ci səhifəsində incəlikləri ilə bunu rəvayət etmiş, xüsusilə də Rəhbədə əshabdan 30 nəfəri buna şəhadət vermişdilər.

İmam (ə) xalqın qarşısına çıxaraq belə buyurmuşdu: «Sizi and verirəm Allaha, kim Qədiri-Xumda mənim haqqımda bir şey eşitmişsə, qalxsın və desin».

Böyük alimləriniz mötəbər kitablarında həzrət Əlinin (ə) Kufənin rəhbəsində müsəlmanlara bu hədisi dəlil göstərdiyini qeyd etmişlər:

İmam Əhməd ibn Hənbəl: «Müsnəd», c: 1,səh: 119 və c: 4, səh: 370; İbn Əsir Cəzri: «Usdul-ğabbə», c: 3, səh: 307 və c: 5, səh: 205 və 276; İbn Quteybə: «Maarif», səh: 194; Məhəmməd Yusif Gənci Şafei: «Kifayəut-talib»; İbn Əbil-Hədid: «Nəhcül-bəlağənin şərhi», c: 1, səh: 362; Hafiz Əbu Nəim İsfahani: «Hilyətul-övliya», c: 5, səh: 26; İbn Həcər Əsqəlani: «İsabə», c: 2, səh: 408; Muhibuddin Təbəri: «Zəxairul-üqba», səh: 67; İmam Əbu Abdurrəhman Nəsai: «Xasaisul-Ələvi», səh: 26; Əllamə Səmiudi: «Cəvahirul-əqdeyn»; Şəmsəddin Cəzəri: «Əsnəl-mətalib», səh: 3; Süleyman Bəlxi Hənəfi: «Yənabiül-məvəddə», bab: 4; Hafiz ibn Uqdə: «Kitabul-vilayət» və s...

Orada olanların 12-si Bədir əshabından olan tam 30 səhabə ayağa qalxaraq belə şahidlik etdilər: «Peyğəmbəri-əkrəm gözümüzün önündə Əlinin əlindən tutaraq xalqa belə buyurdu: «Mənim möminlərə nəfslərindən daha övla olduğumu bilirsinizmi?!» Oradakılar: «Bəli»-dedikdə, Rəsulallah buyurdu: «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır...»

O cəmiyyətdən 3 nəfər şahidlik etməkdən boyun qaçırtdı. Bunlardan biri də «qocaldığım üçün unutdum» deyən Ənəs ibn Malik idi. Həzrət Əli onlara, xüsusilə də Ənəsə pis dua edərək belə buyurdu: «Əgər yalan söyləyirsənsə, Allah-təala səni əbrəş[1] xəstəliyinə düçar etsin ki, əmmamənlə də sarıyıb örtə bilməyəsən».

Ənəs hələ yerindən qalxmamış yara xəstəliyinə tutuldu. Bəzi rəvayətlərdə isə kor və yaralı olduğu qeyd edilmişdir.

Şübhəsiz, həzrət Əlinin bu hədisi şahid göstərməsi, Onun İlahi xilafət və vilayətinin ən böyük dəlilidir.

(Bu əsnada müəzzin azan oxumağa başladı. İşa namazını qılıb, istirahət və çay içdikdən sonra söhbətə davam edildi)

---

[1] Ekzema (yara xəstəliyi)

## DÖRDÜNCÜ ŞAHİD «MƏN SİZİN NƏFSİNİZDƏN DAHA ÖVLA DEYİLƏMMİ?!» HƏDİSİDİR

**Dəvətçi**: «Dördünçü olaraq hədisin özündə mövcud olan qərinə də mövladan məqsədin təsərrüfdə övləviyyət olduğunu ortaya qoyur. Çünki Peyğəmbəri-əkrəm (s) Qədiri-Xumda oxuduğu xütbədən əvvəl ümmətə belə buyurmuşdur: «Mən sizə öz nəfsinizdən daha övla deyiləmmi?!» Rəsulallahın bu sözü «**Peyğəmbər, möminlərə öz nəfslərindən daha övladır**»[1] ayəsinə işarədir.

Hər iki firqənin kitablarında yer alan səhih bir rəvayətə görə Peyğəmbər belə buyurmuşdur: «Mən dünya və axirətdə bütün möminlərə öz nəfslərindən daha övla deyiləmmi?» Orada olanlar hamısı birdən «Bəli, sən bizə öz nəfslərimizdən daha övlasan!» dedilər. Bundan sonra Rəsulallah belə buyurdu: «O halda, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır».

Sözün deyilişi də «mövla»dan məqsədin Rəsulallahın (s) ümmət üzərindəki övləviyyətli olduğunu göstərir».

**Hafiz**: «Bir çox rəvayətlərdə Peyğəmbəri-əkrəmin: (s) «Mən sizə öz nəfsinizdən daha övla deyiləmmi?»-deyə buyurduğu yer almamışdır!»

**Dəvətçi**: «Qədir hədisi mövzusunda yer alan ləfz, ibarə və ravilərin nəqlləri fərqlidir. Şiə rəvayətlərində fikirbirliyi vardır; şiə alimlərinin əksəriyyəti mötəbər kitablarında sözügedən hədisi bu qərinəylə rəvayət etmişlər. Sizin bir çox mötəbər kitablarınızda da məzkur hədis bu qərinəylə nəql edilmişdir. Hal-hazırda yaddaşımda olanlar bunlardır: Səbt ibn Cövzi: «Təzkirətu xavassil-ümmə», səh: 18; İmam Əhməd ibn Hənbəl: «Müsnəd», Nurəddin ibn Sabbağ Maliki imamƏhməd: «Fusulul-mühimmə» (Zuhəri və Hafiz Əbu Bəkr Beyhəqqidən nəqlən); Əbülfutuh Əsəd ibn Əbil-Fəzail ibn Xələf əl-İcli: «Əl-Mucəzu fi Fəzailil-xuləfail-Ərbəə»; Xətib Xarəzmi: «Mənaqib», fəsil: 14; Məhəmməd ibn Yusif Gənci Şafei: «Kifayəut-talib», bab: 1; Şeyx Süleyman Bəlxi hənəfi: «Müsnədi-Əhməd» və «Mişkatul-Məsabih»dən nəqlən; İbn Maccə: «Sünən»; Hafiz Əbu Nəim İsfahani: «Yənabiül-məvəddə», bab: 4 («hilyətul-övliya»dan nəqlən) və s...

[1] "Əhzab" surəsi, ayə: 6.

İbn Məğazəli Şafei «Mənaqib»dən və İbn Uqdə «Muvalat» kitabından nəql edərək və digər  bir çox böyuk və dəyərli alimləriniz cüzi kəlmə və bəyan fərqliliyi ilə Qədir hədisini rəvayət etmiş və hamısında da «Mən sizə öz nəfsinizdən daha övla deyiləmmi?!» sözü yer almışdır.

Təbərrük olaraq imam Əhməd ibn Hənbəlin «Müsnəd» kitabının 4-cü cildinin 281-ci səhifəsində Burra ibn Azibdən sənədiylə rəvayət etdiyi bu rəvayəti zikr etmək istəyirəm. Burra ibn Azib belə deyir: «Bir səfərdə Peyğəmbəri-əkrəmlə (s) birlikdə idik. Qədir deyilən yerə gəldikdə Rəsulallah camaat arasında: «Əs-səlatu-camiə»,-deyə səsləndi. Əhəmiyyətli bir hadisə olduqda Peyğəmbər ümmətinə belə səslənir və ümmət toplandıqda da qılınan namazdan sonra onlara o əhəmiyyətli hadisəni təbliğ edirdi.

İki ağacın arasında bir yeri Peyğəmbəri-əkrəm üçün hazırladılar. Rəsulallah namaz qıldıqdan sonra camaatın qarşısında həzrət Əlinin (ə) əlindən tutaraq oradakılara belə buyurdu: «Mənim möminlərə öz nəfslərindən daha övla olduğumu bilirsinizmi?» Oradakılar: «Bəli, bilirik» dedilər. Peyğəmbər: «Mənim hər döminə nəfsindən daha övla olduğumu bilirsinizmi?»,-deyə buyurdu. Oradakılar: «Bəli» dedikdə həzrət buyurdu: «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Allahım! Onu sevəni sev, düşməninə düşmən ol!» Ömər onu qarşılayaraq belə dedi: «Ey İbn Əbu Talib, bu məqam sənə mübarək olsun; sən hər mömin və möminənin mövlası oldun».

Həmçinin Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba»nın 5-ci məvəddəsində, Süleyman Bəlxi «Yənabi»də və Hafiz Əbu Nəim isə «hilyə» kitabında az bir fərqliliklə bu hədisi nəql etmişdir.

Xüsusilə İbn Sabbağ Hafiz Əbülfəthin «Fusulul-mühimmə»sində qeyd etdiyi Peyğəmbəri-əkrəmin sözünü bu şəkildə rəvayət etmişdir: «Ey insanlar! Allah Təbarək və Təala mənim mövlamdır, mən isə sizə nəfsinizdən daha övlayam və bilin ki, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır».

Yenə İbn Maccə Qəzvini «Sünən»də, imam Əbu Əbdürrəhman Nəsai 81, 83, 93 və 95-ci hədislərdə bu qərinəni nəql etmişlər. 84-cü hədisdə isə Zeyd ibn Ərqəmdən Rəsulallahın sözünü bu ibarələrlə rəvayət etmişdir: «Mənim hər mömin

və mömináyə öz nəfslərindən daha övla olduğumu bilmirsinizmi?!» Onlar da belə dedilər: «Bəli, şəhadət edərik ki, sən hər möminə öz nəfsindən daha övlasan». Bunun üzərinə Peyğəmbər (s): «Şübhəsiz, mən kimin mövlasıyamsa, bu da onun mövlasıdır» buyuraraq Əlinin (ə) əlindən tutdu».

Əbu Bəkr Əhməd ibn Əli Xətib Bağdadi (ö/t: 462) «Tarixi-Bağdad» kitabının 8-ci cildinin 289-290-cı səhifələrində Əbu Hureyrədən uzun bir hədis rəvayət edir. O rəvayətdə bu hədisi nəql etmişdir: «Kim zilhiccənin 18-ində (Qədir günündə) oruc tutarsa, 60 ay oruc tutmanın savabını əldə edər». Daha sonra da Qədir hədisini deyilmiş qərinəylə birlikdə rəvayət etmişdir.

Zənn edərəm, «Sizə nəfsinizdən daha övla deyiləmmi?!» cümləsinin də hədislərdə rəvayət edildiyi xüsusunda misal olaraq gətirdiyim dəlillər bu miqdarla kifayət edər. Artıq ağalar bir də bu qərinənin məşhur rəvayətlərdə olmadığını söyləməsinlər!

## HƏSSANIN RƏSULALLAHIN (S) HÜZURUNDA OXUDUĞU ŞERLƏR

Beşinci qərinə də, həssan ibn Sabit Ənsarinin Peyğəmbəri-əkrəmin (s) Əlini (ə) vilayət məqamına təyin etdikdən sonra o həzrətin (s) hüzurunda söylədiyi şerdir. Səbt ibn Cövzi və digərlərinin rəvayət etdiyinə görə, Peyğəmbəri-əkrəm (s) bu şerləri eşitdikdə, buyurdu: «Ey Həssan, bir tərif və ya gözəl bir kəlmə ilə bizə (Əhli-beytə) yardım etdiyin müddət ərzində Ruhul-Qüds ilə təyid edilirsən».

Hicri IV əsrin məişur mühəddis və müfəssiri Hafiz ibn Mərdəviyə Əhməd ibn Musa (ö:352) «Mənaqib»də, Sədrul-əimmə Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib»də və «Məqtəlul-Hüseyn»in 4-cü fəslində, Cəlaləddin Siyuti «Risalətul-Əziar fima əqdəhuş-şuəra»da, Hafiz Əbu Səd Xərquşi «Şərəful-Mustafa (s)»da, Hafiz Əbülfəth Nəzəzi «Xasaisul-Ələviyə»də, Hafiz Cəmaləddin Zərəndi «Nəzmu durəris-simtəyn» də, Hafiz Əbu Nəim İsfahani «Ma nəzələ minəl-Qurani fi Əliyyin»də, İbrahim ibn Məhəmməd Həmuyini «Fəraidus-simtəyn»in 12-ci babında, Hafiz Əbu Səid Səcistani «Kitabul-vilayət»də, Yusif Səbt ibn Cövzi

«Təzkirətul Xavassil-ümmə»nin 20-ci səhifəsində, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib»in 1-ci babında və digər bir çox alim və tarixçiləriniz öz kitablarında Əbu Səid Xidridən belə rəvayət edirlər: «Qədiri-Xum günü həzrət Əli (ə) vilayət məqamına təyin edildikdə Həssan ibn Sabit belə dedi: «Ya Rəsulallah! Bu mövzuda bir neçə beyt şer söyləməyimə izn verərsinizmi?» Peyğəmbəri-əkrəm (s): «Allah-təalanın bərəkətiylə söylə» buyurdu. Həssan hündür yerə çıxaraq bədahətən bu beytləri söylədi:

***Qədir günü Peyğəmbəri-əkrəm ümmətə səsləndi,***
***Onlar da Rəsulallahın nidasını eşitdi,***
***O: «Mövlanız və vəliniz kimdir?»,-deyə buyurdu.***
***«Allah -təala bizim mövlamız və sən bizim vəlimizsən,***
***Heç kim bu mənanı inkar etməz» dedilər.***
***Peyğəmbəri-əkrəm: «Qalx Ya Əli» buyurdu.***
***«Şübhəsiz, məndən sonra imam və hidayətçi olmağına razı oldum.***
***O halda, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır,***
***Elə isə Əliyə kölələr kimi həqiqi yardımçılar olun».***
***Sonra dua edərak: «Allahım, Əliyə dost olanla dost ol,***
***Düşmən olanla da düşmən ol» buyurdu.***

Bu şer də əshabın o gün «mövla» sözündən imamət və xilafəti anladığına ən böyük dəlildir. Əgər «mövla» kəlməsi «imam» və «təsərrüfdə övləviyyət» mənasında olmasaydı, Peyğəmbəri-əkrəm (s) həssanın şerlərini və «Şübhəsiz, məndən sonra imam və hidayətçi olmağına razı oldum» sözünü eşitdikdə, ona yanlış anladığını buyurar, məqsədini anlamadığını ifadə edərdi! Ona «mövla»dan məqsədin imam, rəhbər və nübuvvət məqamından sonra gələn idarəçilikdə rəhbərlik məqamı olmadığını xatırladar, dost və yardımçı mənasını qəsd etdiyini söyləyərdi. Halbuki, Peyğəmbəri-əkrəm onu yalançı saymayaraq, «Ey Həssan, bir tərif və ya gözəl bir kəlmə ilə bizə yardım etdiyin müddət ərzində Ruhul-Qüds ilə

təyid edilirsən» sözüylə də onu təyid və təsdiq etdi. Onsuz da, xütbəsində də imamət və xilafət məqamını bütün açıqlığıyla ifadə etmişdi.

Peyğəmbəri-əkrəmin Qədir günündə oxuduğu bu xütbəni, zəhmət olmasa, yaxşı-yaxşı oxuyun. Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri (ö/t: 310) «Kitabul-vilayət» kitabında bu xütbəni təmamilə nəql etmişdir. O, yazır: «Rəsulallah (s) belə buyurmuşdur: «Dinləyin və itaət edin; Allah-təala mövlanız, Əli isə imamınızdır; o halda imamət Qiyamətə qədər Əlinin soyundan mənim övladlarım arasındadır. Ey insanlar, bu Əli mənim qardaşım, vəsim, elmimin qoruyucusu, mənə iman edən hər kəsin xəlifəsi və Rəbbimin Kitabının müfəssiridir».

Ağalar, Allah xatirinə, insaflı olun. Peyğəmbəri-əkrəm (s) bu şerləri eşitdikdə bir şey demədi və bundan əlavə bilməlisiniz ki, öz sözləri də «mövla»dan məqsədin «yardımçı» və «dost» olmadığının ən aşkar dəlilidir. Rəsulallahın «mövla»dan məqsədi, Həssanın şerində də ifadə edildiyi kimi imam, hidayətçi və müsəlmanların işlərində «təsərrüfdə övla» olmaqdır. Bu səbəbdən «Həssan, bu həqiqət Ruhul-Qüdsün təyidiylə dilində cari oldu»,-deyə buyurdu.

## SƏHABƏNİN ƏHDİ POZMASI

Xülasə, «mövla» həqiqi mənasıyla vilayəti-mütləq də olsa və ya sizin inancınıza görə dost və yardımçı da olsa, həqiqət budur ki, əshab o gün Peyğəmbəri-əkrəmin (s) əmri ilə Əliyə (ə) beyət etmişdir. Bunda şiə və sünni alimlərinin birgə qərarı var. O halda, əshab nə üçün əhd və beyətlərini pozdu? Allah xatirinə, insaflı olun, dediyiniz doğru («mövla» yardımçı və dost mənasındadır) olsa belə, görəsən, dostluq və yardımçı olmanın mənası evinə od vurmaq, həyat yoldaşını və Peyğəmbəri-əkrəmin övladları olan uşaqlarına əziyyət vermək, onları zorla məscidə aparmaq, qılıncla təhdit etmək, Allah-təala və Peyğəmbərin sevimlisi Fatiməni (.ə) o cür incitmək və bətnindəki körpəsini siqd etdirməkdirmi?

Bütün o böyük mərasimdən və Peyğəmbəri-əkrəmin o qədər tövsiyyələrindən sonra həzrətin vəfatı ərəfəsində edilən bu hərəkətlər Allaha və Rəsulallaha (s) verdikləri sözü ayaqlar altına atmaq mənasını ifadə etmirmi?!

Görəsən, sözünün üstündə durmayanlar və ya sizin inancınıza görə dostluq əhdlərinə riayət etməyənlər «Rəd» surəsinin 25-ci ayəsini oxumamışlarmı?![1] Əgər cahil sevgi və nifrəti bir kənara buraxsanız, haqq və həqiqətin büs-bütün ortada olduğunu görərsiniz.

***Əgər işin pərdəsi kənara çəkilərsə,***
***Hamımızın nə olduğu ortaya çıxar.***

## SƏHABƏNİN ÜHÜD, HÜNEYN VƏ HÜDEYBİYYƏDƏ ƏHDİNİ POZMASI

Peyğəmbəri-əkrəm (s) Ühüd və Hüneyn döyüşlərində bütün əshabdan qaçmayacaqlarına dair söz almasına baxmayaraq qaçmadılarmı?! Məgər Təbəri, İbn Əbil-Hədid, İbn Əsəmi Kufi və digər tarixçilərinizin də yazdığı kimi, əshabın bu qaçışı və həzrət Peyğəmbəri düşmən qarşısında tək buraxmaları sözünün üstündə durmamaq deyilmi?

Allah-təalaya and olsun, lazımsız yerə bizə etiraz edirsiniz. Şiələr böyük alimlərinizin dediklərini deyirlər; kitablarında alim və tarixçilərinizin söylədiklərini yazırlar. Əgər şiə alimləri səhabəni tənqid edirsə, bu bilavasitə öz alimlərinizin yazdıqlarıdır!

## İNSAFLA HÖKM VERMƏK LAZIMDIR

O halda, niyə görə lazımsız yerə bizə hücum edirsiniz?! Siz yazanda eybi olmur və tənqid edilmirsiniz, amma biz söylədikdə və ya yazdıqda kafir oluruq;

---

[1] "Rəd" surəsinin 25-ci ayəsində Allah-təala belə buyurur: "**Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirməsini əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları pis yurd (Cəhənnəm) gözləyir**".

qətlimiz halal olur; əshabın etdiyi bəzi çirkin əməlləri söyləməklə günahlandırılırıq?!

Əgər səhabəni tənqid etmək pis və rafizilikdirsə, demək, bütün səhabə rafizi olmuşdur; çünki səhabənin çoxu, hətta Əbu Bəkr və Ömər belə bir-birini qınamış, əməllərini pisləmişlər.

Əgər vaxtımız olsaydı, onların sözlərini bütünlüklə bəyan edərdim. Əshab da digər, insanlar kimi xəta edə bilər. Onlardan təqva sahibi olanlar tərifl ənmiş, həva və həvəslərinə uyanlar isə qınanılmışdır. Məsələni daha yaxşı anlaya bilməyiniz üçün, zəhmət olmasa, İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi» kitabının 4-cü cildinin 454-462-ci səhifələrinə müraciət edin. Orada Zeydinin səhabə haqqında Əbülməali Cuvəyninin etirazlarına verdiyi uzun cavabı və səhabənin ixtilafa düşərək bir-birlərini lənətlədiklərini, küfr və fəsadda ittiham etdiklərini görün.

Əlbəttə, qəzəb və sevgi məsələsində şiələr ilə alimləriniz arasında böyük fərq vardır. Çünki səhabədən yalnız bəzisinə qarşı hədsiz sevgi bəsləyirsiniz. «Bir şeyi sevmək insanı kor və kar edər» qaydası əsasında onlar aqqında heç bir pislik görmürsünüz. Onlara məhəbbət gözüylə baxdığınız üçün pis əmələrini də yaxşı görürsünüz. Bax, bu səbəbdən də onları bütün xəta və eyiblərdən pak etməyə çalışırsınız. Onların gün kimi aydın eyibləri qarşısında verdiyiniz cavablar, həqiqətən, gülüncdür!

Allah şahiddir ki, Peyğəmbərin (s) əshabına nifrət və düşmən gözüylə baxmırıq. Biz hadisələrə dəlil və məntiq baxımından baxırıq. Yaxşıları yaxşı, pisləri də pis görərək, haqla hökm edirik.

Ağalar, biz və siz Qiyamətə inanırıq, dörd günlük dünya həyatının heç bir dəyəri yoxdur, O günü düşünməliyik.

Allaha and olsun ki, biz şiələr məzlumuq. Səbəbsiz yerə məsələni avam xalqa yanlış bildirməyin! Müvəhhid şiələri kafir və rafizi kimi günahlandırmayın! Məgər Peyğəmbəri-əkrəm (s) və Əhli-beytinin (ə) təqibçilərini boş yerə şiə adlandırmaq və onlara hücum etmək doğrudurmu? Əgər şiələri, həqiqətləri izah etdikləri və tənqid və təhqiq etdiklərinə görə pis zənn edib kafir elan edirsinizsə, ilk əvvəl öz

böyük alimlərinizi pis bilməlisiniz! Çünki bu cür tənqidlər onların öz qələmləriylə yazılmış və mötəbər kitablarında qeyd edilmişdir.

## SƏHABƏNİN HUDEYBİYƏDƏ QAÇMA SI

Məsələn, Hudeybiyə hadisəsi haqqında İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabında və digər tarixçiləriniz öz əsərlərində belə yazırlar: «Hudeybiyə sülh müqaviləsindən sonra başda Ömər ibn Xəttab olmaqla bir çox səhabə həzrət Məhəmmədlə (s) kobud danışaraq belə dedilər: «Biz sülh istəmirdik, döyüş tərəfdarı idik, nə üçün sülh etdin?» Rəsulallah da onlara: «Döyüşmək istəyirsinizsə, azadsınız, döyüşün»,-deyə buyurdu. Onlar da hücuma keçdilər. Amma bilindiyi kimi, qarovulda duran Qüreyş həmin an müdafiəyə keçdi. Qüreyşdən elə ağır bir zərbə aldılar ki, qısa bir müddət sonra məğlubiyyətə uğrayıb, qaçmağa başladılar. Hətta Peyğəmbərin yanında belə dura bilməyib, səhraya dağıldılar.

Həzrət Peyğəmbər (s) onları belə gördükdə, imam Əliyə (ə) Qüreyşin qarşısını almasını əmr etdi. Qüreyş həzrət Əlini qarşısında gördükdə geri dönmək məcburiyyətində qaldı. Bundan sonra qaçanlar bir-bir geri dönərək, etdiklərindən utanıb üzr diləməyə başladılar.

Rəsulallah onlara belə buyurdu: «Mən sizi tanımırammı?! Böyük Bədir döyüşündə düşmən qarşısında titrəyən sizlər deyildinizmi?! Bunun üçün də Allah-təala mələklərini yardıma göndərdi. Ühüd günü məni tək buraxaraq, qaçıb dağlara çıxan sizlər deyildinizmi?! Nə qədər çağırdımsa da, gəlmədiniz!»

Xülasə, Peyğombəri-əkrəm (s) onları şiddətli bir şəkildə qınadı və xətalarını bir-bir sadaladı. Onlar da xətalarını etiraf edərək, üzr dilədilər.

İbn Əbil-Hədid burada belə deyir: «Ömər Peyğəmbəri-əkrəmin (s) vədələrini yalan saydıqda, Rəsulallah onu qınadı. Beləliklə, həzrət Peyğəmbərin Öməri bu şəkildə qınamasından anlaşılır ki, Ühüddə qaçanlardan biri də Ömər olmuşdur».

İndi gördüyünüz kimi, İbn Əbil-Hədid və başqaları kimi boyük aliminizin dediklərini biz də desək, «Nə üçün xəlifəni təhqir edirsiniz?»-deyə o dəqiqə bizləri

qınayar, şiə və kafir sayarsınız. Amma bilindiyi kimi, İbn Əbil-Hədid və başqalarına bir şey demirsiniz. Halbuki, biz söyləyərkən də həqarət etmək niyyətində deyilik, sadəcə tarixi hadisələri dilə gətiririk. Bizə pis gözlə baxdığınız üçün də səylədiklərimizin bir təsiri olmur. Baxın, ərəb şairi bu vəziyyəti necə də gözəl bəyan edir:

***Sevən gözlər heç bir eyibi görməz,***
***Amma qəzəb gözləri bütun pislikləri görər.***

Qiyamətdə alimlərinizlə hesablaşacağımız çox şeylər vardır. Dünya keçicidir; özünüzü İlahi məhkəmədə əks-səda verəcək məzlumanə fəryadlarımıza cavab verməyə hazırlayın!»

**Hafiz**: «Sizə, Qiyamət günü şikayət edə biləcəyiniz nə zülm edildi ki?»

**Dəvətçi**: «Bir çox zülmlər edildi, hörmət və izzət ayaqlar altına atıldı. Bütün bunların üstündən ötsək belə, iftixar edərək həzrət Fatimeyi-Siddiqeyi-Məzlumənin (s.ə) övladlarından biri olan mən, əsla, haqqımdan keçməyəcəyəm! İlahi ədalət məhkəməsi qurulduqda bir çox zülm və haqsızlıqların hesabını soruşacağıq. O məhkəmənin movcudluğuna və ədalətlə hökm ediləcəyinə də şəksiz-şübhəsiz inanırıq».

**Hafiz**: «Zəhmət olmasa, əsəbləri təhrik etməyin; əlinizdən alınan hər haqqı və sizə edilən hər haqsızlıq və zülmləri bəyan edin».

**Dəvətçi**: «Bizə edilən zülmlər bu günə aid deyildir; bizə edilən zülmlər böyük cəddimiz Peyğəmbəri-əkrəmin (s) vəfatından sonra başlamışdır. Peyğəmbərin (s), uşaqlarının ruzisini təmin etsin deyə, onlara bağışladığı bütün haqları qəsb edildi. Həzrət Fatimənin (s.ə) məzlumanə fəryadına qulaq asılmadı. Həzrət Fatimə qəlbi hüzn və dərdlə dolu bir halda bu dünyadan köçdü».

Hafiz: «Siz çox hiyləgərsiniz!; həyəcanlı sözlərlə hissləri qıcıqlandırırsınız. Həzrət Fatimənin sabit olan hansı haqqı qəsb edildi? Əgər siz, qardaşların hüzurunda iddianızı isbat edə bilməsəniz, İlahi ədalətməhkəməsində, əsla isbat edə

bilməzsiniz! Fərz edin, bu gün İlahi ədalət məhkəməsi qurulmuşdur, buyurun, haqqınızı isbat edin».

**Dəvətçi**: «Ora, ədalət məhkəməsi yeridir, qəzəb və təəssüb yeri deyildir. Təmiz və ləkəsiz baxışlarla hökm edilir. Əgər ədalətlə hökm etsəniz və insafla dinləsəniz, haqqaniyyətimizi təsdiq edərsiniz».

## ALLAH BİLİR Kİ, MƏN CƏDƏL ƏHLİ DEYİLƏM

**Hafiz**: «Allahın və böyük cəddiniz Rəsulallahın (s) haqqına and olsun ki, mənim şəxsən heç bir inad, qəzəb və təəssübüm yoxdur. Hüzurunuza gəldiyim bu bir neçə gecədə cədəl əhli olmadığımı bilməyiniz lazım idi. Nə vaxt dəlil və bürhan üzrə danışdınızsa, sükut etdim. Sükutum haqlı sözünüzü qəbul etdiyimi ifadə edir. Əks təqdirdə, cığallıq etmək istəsəydim, cədəlləşər və bütün dəlillərinizi inadkarlıqla rədd edərdim. Keçmişlərimiz həmişə bunu etmişlər!

Amma bilindiyi kimi, təbiətən cədəl və oyun əhli deyiləm. Xüsusilə söyləməliyəm ki, əvvəl başqa niyyətlərlə gəlmişdim. Amma sizi gördükdə təmiz qəlbinizə, ədəbinizə, gözəl əxlaqınıza, sadəliyinizə və cazibənizə heyran qaldım. Şəxsi arzularımla uyğunlaşmasa da, məntiqli və dəlilli sözlərinizin qarşısında inkarçı olmayacağıma dair Allah-təalaya söz verdim.

Əmin olun ki, mən, o ilk gecəki insan deyiləm; heç kimsədən qorxum da yoxdur. Dəlil, bürhan və dərdləşmələriniz məndə boyük təsirlər qoydu. Peyğəmbəri-əkrəm (s) və Əhli-beytin (ə) sevgisilə ölmək və Rəsulallahın qarşısına üzüağ çıxmaq istəyirəm».

**Dəvətçi**: «Sizin kimi alim və insaflı bir şəxsdən bundan başqa bir şey gözlənilə də bilməzdi! Sözləriniz məndə tamam başqa bir hiss yaratdı. Qəlbən sizə qarşı xüsusi bir maraq duymaqa başladım. Sizdən, qəbul edəcəyinizi umduğum bir rica etmək istəyirəm».

**Hafiz**: «Xahiş edirəm, buyurun».

**Dəvətçi**: «Xahiş edirəm, siz bu gecə hakim olun, digər ağalar da şahid olsunlar; təəssübsüz, tərəfkeşliksiz və insafla hökm edin. Bu söylədiyim şeylərin

haqq olub-olmadığını və iddialarımı isbat edib-etmədiyimi siz soyləyin. Əlbəttə, bəhs edəcəyim mövzu səbəbiylə əvvəlki gecələrdən daha uzun danışa bilərəm. Sizdən səbir etməyinizi xahiş edirəm. Mən də qəlbimdəkiləri açmış, bir az rahatlamış olaram.

Bəzi cahillər 1300 il bundan əvvəl olan hadisələri bu gün danışmağın nə faydası olduğunu soruşurlar. Halbuki, elmi sözlər hər dövr və zamanda müzakirə olunur və ədalətli müzakirələrdə həqiqətlər ortaya çıxır. Ayrıca, bilmək lazımdır ki, miras mövzusu qanunən hər zamanda mirasçılardan biri vasitəsiylə məhkəməyə intiqal etdirilə bilər. Mən də o varisçilərdən biriyəm və sizdan insafla cavab verməyinizi xahiş edirəm.

**Hafiz**: «Böyük maraq və həvəslə sizi dinləməyə hazırıq».

**Dəvətçi**: «Əgər bir ata həyatda ikən övladına bir mülkü hədiyyə edərsə, atası öldükdən sonra həmin mülkün zorla onun əlindən alınması zülmdür, ya yox?»

**Hafiz**: «Şübhəsiz, başqalarının malına haqsız olaraq sahiblik edən, zülm və qəsb edən doğrudanda zalımdır».

**Dəvətçi**: «Əgər bir ata Allah-təalanın əmriylə övladına bir mülk hədiyə edərsə, ata vəfat etdikdən sonra həmin mülk zorla onun əlindən alınarsa hökmü nədir?»

**Hafiz**: «Aydındır ki, dediyiniz şəkildə olarsa, bu ən böyük zülmdur. Zalım və məzlumdan, qəsb və qəsbə uğrayandan məqsədiniz kimdir? Zəhmət olmasa, daha aydın şəkildə buyurun».

**Dəvətçi**: «Şübhəsiz, bizim nənəmiz həzrət Fatimə (s.ə) haqqında edilən zülmün heç kimsəyə edilmədiyi göz qabağındadır».

## FƏDƏKİN HƏQİQƏTİ VƏ ONUN QƏSB OLUNMASI

Xeybər qalasının fəthindən sonra Fədəkin[1] malikləri və böyükləri Peyğəmbəri-əkrəmin (s) yanına gələrək sülh müqaviləsi imzaladılar. Bu razılaşma

[1] Mədinə dağları ətəklərindən Seyful-Bəhrə qədər uzanan bölgədə dağınıq 7 kənd var idi. Əkinə əlverişli və xurmalıqlarla dolu bir bölgə idi. Bir ucu Mədinə yaxınlarındakı Ühüd dağlarəna, bir ucu Ərişə, bir ucu Seyful-Bəhrə və bir ucu da Dövmətul-Cəndələ qədər uzanan çox geniş torpaqlara sahib idi.

əsasında Fədəkin yarısını özlərinə, digər yarısını da Rəsulallaha bağışladılar. Mühəddis və tarixçiləriniz öz mötəbər əsərlərində bunu qeyd etmişdilər: Yaqut Həmuyi: «Fütuhul-buldan», c: 6, səh: 343; Əhməd ibn Yəhya Bəlazəri Bağdadi (o/t: 279): «Tarix»; İbn Əbil-Hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi», c: 4, səh: 78; Məhəmməd ibn Cərir Təbəri «Tarixi-kəbir» və s.

## «VƏ ATİ ZƏL-QURBA HƏQQƏHU» AYƏSİNİN NAZİL OLMASI

Peyğəmbəri-əkrəm (s) Mədinəyə döndükdə Cəbrayıl bu ayəni nazil etdi: «**Qohum-əqrəbanın haqqını ver, miskinə və yolda qalmışa da [haqqını ver]. Və səpib-sovurma (israf etmə)!**»[1].

Peyğəmbəri-əkrəm (s) «zəvil-qurba»nın (Qohum-əqrəbanın) kimlər və haqlarının nə olduğunu düşündüyü bir halda, Cəbrayıl yenidən nazil olaraq: «Allah-təala buyurur ki, Fədəki Fatiməyə ver»,-deyə ərz etdi. Rəsulallah da həzrət Fatiməni (s.ə) çağıraraq: «Allah-təala Fədəki sənə verməyimi əmr etdi»,-deyə buyurdu. Bu səbəbdən o məclisdə Fədəki həzrət Fatiməyə hədiyyə etdi».

**Hafiz**: «Şiənin təfsir kitablarında söylədiyiniz ayənin nazili haqqında bu məna zikr edilmişdir, yoxsa bizim mötəbər kitablarımızda bunun şahidlərini görmüsünüz?»

**Dəvətçi**: «Müfəssirlərin imamı Əhməd Sələbi «Kəşfül-bəyan» təfsirində, Cəlaləddin Siyuti «Təfsir»inin 4-cü cildində (Hafiz ibn Mərdəviyə tanınmış təfsirçi Əhməd ibn Musa (ö/t: 352), Əbu Səid Xidri və Hakim Əbülqasim Həskanidən nəql edərək), şafei fəqihi İbn Kəsir İmadəddin İsmayıl ibn Ömər Dəməşqi «Tarix» kitabında və Şeyx Süleyman Bəlxi Hənəfi «Təfsiri-Sələbi», «Cəmül-fəvaid» və «Uyunul-əxbar»dan nəql edərək «Yənabiül-məvəddə»nin 39-cu babında belə nəql edir: «Və ati zəl-qurba...» (Yaxınlarına haqqını ver) ayəsi nazil olduqda, Peyğəmbəri-əkrəm Fatiməni çağırdı və ona böyük Fədəki hədiyyə etdi».

---

[1] "İsra" surəsi, ayə: 26.

Rəsulallah yaşadığı müddət ərzində Fədək həzrət Fatimənin əlində idi; özü kirayə verir və kirayəsini üç hissəylə alırdı.

Aldığı bu kirayədən özünə və övladlarına bir gecə yetəcək qədərini ayırır, bir bölümünü Haşim oğullarının fəqirlərinə paylayır, artıq qalanlarını da digər fəqir və yoxsullar arasında bölüşdürürdü.

Peyğəmbəri-əkrəm vəfat etdikdən sonra xəlifənin məmurları Fədəkə əl uzatdılar. Zəhmət olmasa, Allah xatirinə söyləyin, bu işin adını nə qoymaq olar?»

**Hafiz**: «Peyğəmbəri-əkrəmin (s) Allah-təalanın əmriylə Fədəki Fatiməyə (s.ə) hədiyyə etdiyini ilk dəfə sizdən eşidirəm».

**Dəvətçi**: «Sizin görməməyiniz mümkündür, amma biz çox gördük! Söylədiyim kimi, bir çox böyük alimləriniz mötəbər kitablarında bunu qeyd etmişlər: Hafiz ibn Mərdəviyə, Vahidi və Hakim öz «Təfsir» və «Tarix» kitablarında, Cəlaləddin Siyuti «Dürrül-mənsur»un 4-cü cildinin 177-ci səhifəsində, Mövla Əli Müttəqi «Kənzul-ümmal»da və Əhməd ibn Hənbəlin «Müsnəd»inə yazdığı haşiyədə və İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 4-cü cildində Əbu Səid Xidridən savayı müxtəlif yollardan belə rəvayət edir: «Bu ayə (Və ati zəl-qurba həqqəhu) nazil olduqda, Peyğəmbəri-əkrəm Fədəki Fatiməyə hədiyyə etdi».

## «BİZ PEYĞƏMBƏRLƏR MİRAS QOYMURUQ» HƏDİSİNİN DƏLİL GÖSTƏRİLMƏSİ VƏ ONUN CAVABI

**Hafiz**: «Bilinən budur ki, xəlifələr Fədəki Əbu Bəkrin Peyğəmbəri-əkrəmdən (s) rəvayət etmiş olduğu «Biz peyğəmbərlər miras qoymarıq, bizdən qalan şeylər (ümmətə) sədəqədir» hədisi səbəbiylə almışlar».

**Dəvətçi**: «Əvvəla; Fədək miras deyil, hədiyə idi. İkincisi; hədis deyə rəvayət etdiyiniz müxtəlif yönlərdən rədd edilmişdir».

**Hafiz**: «Qəti olan bu hədisin mərdudluğuna dair dəlil nədir?»

**Dəvətçi**: «Bu hədisin mərdudluğuna dair bir çox dəlil vardır; ki, elm və insaf əhli hər kəs bunu təsdiq edir. Az əvvəl söylədiyiniz hədisi uyduran şəxs

düşünmədən bu kəlmələri söyləmişdir. Əgər düşünsəniz, ağıl və elm sahibləri yanında gülünc vəziyyətə düşməz və «Biz peyğəmbərlər miras qoymarıq» deməzdi. Çünki bir gün bu iftira və yalanın, bilavasitə cümlədən anlaşılacağını düşünməmişdi.

Əgər «Mən Xatəmul-ənbiya miras qoymuram» demiş olsaydı, bundan boyun qaçırmağa yer olardı. Amma məlum olduğu kimi «Biz peyğəmbərlər miras qoymuruq» dediyinə görə, özlərinin buyurduqları kimi, həqiqətlərin ortaya çıxması üçün Qurana müraciət etmək məcburiyyətindəyik.

Bu hədisi Quran ayələriylə uyğunlaşdırdığımız zaman onun doğru olmadığı aydın olur; çünki Quranda bir çox ayə Peyğəmbərlərin mirasıyla əlaqədar nazil olmuşdur. Böyük peyğəmbərlərin hamısının da mirası olmuş və varisləri olümlərindən sonra onların mallarına sahib çıxmışlar. Bu səbəbdən, sözügedən hədisin uydurma olduğu aydındır!

Böyük mühəddis Əbu Bəkr Əhməd ibn Əbdüləziz Cövhəri[1] «Səqifə» kitabında, İbn Əsir «Nihayə»də, Məsudi, «Əxbaruz-zaman» və «Ovsət»də, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 4-cü cildinin 78-ci səhifəsində «Səqifə» kitabında Əbu Bəkr Əhməd Cövhəridən nəql edərək, İmam Baqirdən (ə), Siddiqeyi-Suğra Zeynəbi-Kubradan, bəziləri Abdullah ibn Həsən ibn Həsəndən və həzrət Fatimədən (s.ə) bir çox yol və sənədlərlə, 93-cü səhifəsində Aişədən, 94-cü səhifəsində isə Məhəmməd ibn İmran Mərəbani və Zeyd ibn Əli ibn Hüseyndən, o da atasından, o da babasından, o da həzrət Fatimədən (s.ə) rəvayət etmişdir. Eləcə də digər bir çox alimləriniz öz mötəbər kitablarında həzrət Fatimənin məsciddə ənsar və mühacirlərə qarşı oxuduğu xütbəsini ətraflı şəkildə rəvayət etmişlər. Fatimeyi-Zəhra bu xütbədə onları cavab vermək məcburiyyətində qoymuşdur. Məntiqli bir cavabları olmadığı üçün də sükut etmiş, sonradan isə ortalığa vəlvələ salmışlar.

---

[1] İbn Əbil-Hədid "Nəhcül-bəlağənin şərhi" kitabının 4-cü cildinin 78-ci səhifəsində onun əhli-sünnətin təqvalı, etibarlı və böyük hədis alimlərindən olduğunu qeyd etmişdir.

Həzrət Fatimə sözügedən hədisin iftira və yalan olduğu xüsusunda belə dəlil gətirir: «Əgər bu hədis doğrudursa və peyğəmbərlərin mirası da yoxdusa, o halda Quranda yer alan bu qədər miras ayəsi nə üçündür?!»

## HƏZRƏT FATİMƏNİN (S.Ə) «İRS APARMIRIQ» HƏDİSİNİN RƏDDİNƏ DAİR DƏLİLƏRİ

Allah-təala bir ayədə belə buyurur: «**Süleyman Davuda varis oldu**»[1]. Zəkəriyya hadisəsində də belə buyurur: «**Dərgahından mənə bir vəli ver ki, o, mənə varis olsun, Yaqub xanədanına da varis olsun**»[2].

Yenə Zəkəriyyanın duası ilə əlaqədar olaraq belə buyurur: «**Zəkəriyyanı da xatırla! O, Rəbbinə belə niyaz etmişdi: «Rəbbim! Məni yalnız buraxma. Sən varislərin ən xeyirlisisən». Biz onun duasını qəbul etdik, ona Yəhyanı verdik**»[3].

Daha sonra həzrət Fatimə (s.ə) buyurdu: «Ey İbn Əbu Quhafə (Əbu Bəkr)! Görəsən, Allah-təalanın ayəsində varmı ki, sən atandan miras ala bilərsən, amma mən ala bilmərəm?! Allah-təalaya böyük bir iftira yaxırsınız! Görəsən, bildiyiniz halda, qəsdənmi Allah-təalanın Kitabıyla əməl etmirsiniz və Quranı arxanıza atırsınız?

Görəsən, mən Peyğəmbərin (s) qızı deyiləmmi ki, məni haqqımdan məhrum edirsiniz?! O halda, bütün insanlar və xüsusən də peyğəmbərlər haqqında nazil olan bu qədər miras ayələri nədir?!

**Quran ayələri Qiyamətə qədər bütün həqiqətləriylə baqi deyilmi? Quran belə buyurmurmu?: «Əqrabalar Allahın Kitabında bir-birlərinə (mirasda) daha yaxındırlar»[4].**

**Həmçinin, «Allah övladlarınız haqqında sizə tövsiyə edir ki, oğula iki qız hissəsi qədər pay düşür»[1].**

---

[1] "Nəml" surəsi, ayə: 16
[2] "Məryəm" surəsi, ayə: 5-6
[3] «Ənbiya" surəsi, ayə: 89-90
[4] "Ənfal" surəsi, ayə: 75

**Həmçinin, «Sizin birinizi ölüm haqlayan zaman qoyub-gedəcəyiniz maldan valideynlərinizə, yaxın qonumlarınıza verilməsi üçün ədalət üzrə (malın üçdə birindən çox olmamaq şərti ilə) vəsiyyət etməyiniz zəruridir. Müttəqilərə bu, vacibdir»[2].**

Görəsən, hansı xüsusiyyət məni atamın mirasından məhrum etdi? Allah-təala sizi bir ayəyə məxsus etdimi ki, atamı o ayədən xaric etdiniz?! Olmaya, atamdan və əmim oğlu Əli ibn Əbu Talibdən Qurani-kərimin ümumi və xüsusi hökmlərini daha yaxşı bilirsiniz?!»

Bu dəlillər və haqq sözlər qarşısında hamı aciz qaldı. Verəcək cavabları olmadığı üçün sözdən qaçaraq, Fatiməni (s.ə) söydülər. Həzrət Fatimə (ə) çarəsiz qaldı. Fəryad edərək belə buyurdu: «Bu gün qəlbimi qırdınız, haqqımı qəsb etdiniz. Amma Qiyamətdə - ilahi ədalət məhkəməsində sizlərdən haqqımı istəyəcəyəm və qadir olan Allah-təala haqqımı sizdən alacaqdır! Ən gözəl hökm Allah-təalanındır! Məhəmməd himayədarım və mövlamdır. Sizinlə Qiyamətdə görüşəcəyik; o gün batil əhli ziyana uğrayacaq, peşmanlıqları isə heç bir fayda verməyəcək. Hər şeyin bir vaxtı vardır və vaxtı gəldikdə o şey həqiqiləşir. Əbədi və zillətli əzabın kimə nəsib olacağını çox yaxında görəcəksiniz!»

**Hafiz**: «Kim Peyğəmbəri-əkrəmin (s) əmanəti və bədəninin bir parçası olan həzrət Fatiməyə (s.ə) qarşı ədəbsizlik edə və soyüş söyə bilər?! Bu sözünüzə inana bilmirəm, sözdən qaçmaları mümkündür; amma söyməsləri, əsla, mümkün deyildir! Zəhmət olmasa, bunu bir daha təkrarlamayın!»

**Dəvətçi**: «Şübhəsiz, xəlifəniz Əbu Bəkrdən başqa heç kim buna cəsarət edə bilməzdi! Həzrət Fatimənin dəlilləri qarşısında cavab verə bilmədiyi üçün o dəqiqə minbərə çıxaraq, sadəcə Fatiməyə (ə) deyil, həyat yoldaşı, əmisi oqlu, Allah-təala və Rəsulunun sevimlisi olan həzrət Əlini də təhqir etdi!»

**Hafiz**: «Güman edirəm, bu iftiralar avam və ifratçı şiələr tərəfindən uydurulmuşdur!»

---

[1] "Nisan" surəsi, ayə: 11
[2] "Bəqərə" surəsi, ayə: 180

**Dəvətçi**: «Yanlış düşünürsünüz. Bütün bunlar avam şiələr tərəfindən deyil, bilavasitə öz alimləriniz tərəfindən yazılmışdır. Şiə müsəlmanların belə iftira və yalanlar uydurması qeyri-mümkündür! Hər nə qədər təəssübkeş olsalar belə iftira və yalan uydurmazlar! Bütün bunlar həqiqətdir və bilavasitə böyük və dəyərli alimləriniz tərəfindən rəvayət edilmişdir. Onların mötəbər kitablarına baxsanız, bilavasitə insaf sahibi alimlərinizin də bu həqiqətləri qəbul etdiyini görərsiniz. Məsələn: İbn Əbil-Hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi» kitabının (Misir çapı) 4-cü cildinin 80-cı səhifəsində Əbu Bəkr Əhməd ibn Əbdüləziz Cövhəridən nəql edərək Əbu Bəkrin Əli (ə) və Fatimənin (s.ə) nitqindən dərhal sonra minbərə çıxdığını və Peyğəmbəri-əkrəmin (s) bu iki əmanətinə etdiyi təhqirləri qeyd etmişdir.

## HƏZRƏT ƏLİNİN (Ə) ƏBU BƏKRƏ DƏLİL GƏTİRMƏSİ

Digərlərinin də yazdığına görə, məzlum həzrət Fatimə (s.ə) məsciddə xütbəsini bitirdikdən sonra həzrət Əli (ə) mühacir, ənsar və müsəlmanların hüzurunda Əbu Bəkrə dönərək belə buyurdu:

- Niyə Fatiməni atasından qalan mirasdan məhrum etdin? Bilindiyi kimi, Fatimə hələ Peyğəmbər həyatda ikən Fədəkin sahibi idi. Əbu Bəkr cavabında belə dedi:

- Fədək müsəlmanların malıdır, əgər Fatimə Fədəkin onun mülkü olduğuna dair şahid gətirərsə, özünə verərəm; əks təqdirdə, məhrum edərəm!

- Bizim barəmizdə müsəlmanlar arasında hökm etdiyindən başqa bir şəkildə hökm edirsən?! Məgər Peyğəmbər belə buyurmamışdımı?: «İddia edən şahid göstərməlidir; əleyhinə iddia edilən isə and içməlidir».

Sən Rəsulallahın sözünü rədd edir və şəri hökmlərin əksinə olaraq Peyğəmbər zamanından bəri malının sahibi olan Fatimədən şahid istəyirsən?! Kisa əshabından biri olub, haqqında Təthir ayəsi nazil olan Fatimənin əməl və sözü haqq deyilmi?!

Soylə görüm, iki şahid Fatimənin (Allaha pənah aparıram) çirkin iş etmiş olduğuna şahidlik edərsə, ona nə edərsən»?

- Ona digərləri kimi hədd təyin edərəm»!

- O zaman Allah dərgahında kafirlərdən olarsan; Çünki Allah-təalanın Fatimənin təmizliyi ilə əlaqəli şahidliyini rədd etmiş olarsan. Allah-təala belə buyurmuşdur: «**Allah, ancaq siz Əhli-beytdən hər cür pisliyi aradan aparmaq və sizi pak etmək istər**». Məgər Təthir ayəsi bizim haqqımızda nazil olmamışdırmı»?!

- Bəli, sizin haqqınızda nazil olmuşdur. Allah-təalanın pak bir insan olduğuna şəhadət etdiyi Fatimə dəyərsiz bir dünya malı uçün yersiz iddia edərmi?! Pakizə bir insanın şahidliyini rədd edib, dabanına bövl ifraz edən bir ərəbin şəhadətinimi qəbul edirsən?!

Həxrət Əli bu cümlələri buyurduqdan sonra qəmgin halda evinə döndü. İmamın bu dəlilli sözləri xalqın narazılığına səbəb oldu. Hər kəs imam Əli və həzrət Fatimənin haqlı olduqlarını söyləyir və Allah-təalaya and içərək Əlinin (ə) düz dediyini, Peyğəmbəri-əkrəmin qızına qarşı edilən bu davranışın haqsız olduğunu dilə gətirirdi.

## ƏBU BƏKRİN MİNBƏRDƏ HƏZRƏT ƏLİ (Ə) VƏ FATİMƏNİ (S.Ə) SÖYMƏSİ

İbn Əbil-Hədidin rəvayət etdiyinə əsasən, həzrət Əli və həzrət Fatimənin dəlil uzrə danışması xalqın etirazına gətirib çıxartdı. Bunu görən Əbu Bəkr böyük bir təhlükənin yarana biləcəyindən qorxub, tələm-tələsik minbərə çıxaraq belə dedi: «Ey insanlar, qopardığınız bu vəlvələ nədir? Hər kəsin sözünə inanırsınız, şəhadətini rədd etdiyimiz üçün bu sözləri bəyan edirlər. Şübhəsiz, o, (nəuzubillah Əli, bəzi nəqllərə görə Fatimə) quyruğu ona şahid olan tülküdür. O, macəraçı və fitnəçidir; böyük fitnələri kiçik göstərərək xalqı fitnə və fəsada təşviq edir və yaxınlarıyla zina etmək istəyən Ümmü-Təhhal (cahiliyyət dövründə yaşayan fahişə qadın) kimi zəiflərdən və qadınlardan yardım diləyir!»

Siz ağalar söyüş və təhqirə inana bilmirsiniz. Bu sözlər ədəbsizlik, sözlə xəyanət və təhqir deyilmi?! Həzrət Əli (ə) və ya Fatiməni (s.ə) «tülkü», «tülkünün

quyruğu» adlandırmaq onlara Peyğəmbəri-əkrəmin (s) əmr etdiyi sevgi, dostluq və ehtiramı göstərməkdirmi?! Siz ağalar nə vaxta qədər təəssübdən xilas olmayacaqsınız?! Amma bilindiyi kimi, zavallı şiələrə gəldikdə pis gözlə baxır, öz kitablarınızda yazılmış həqiqətləri dedikləri üçün onları kafir və rafizi adlandırırsınız!

## İNSAFLA HÖKM VERMƏK LAZIMDIR!

Niyə həqiqəti görmək üçün haqqı görəbiləcək insaf və bəsirət gözlərinizi açmırsınız? Məgər Peyğəmbəri-əkrəmin (s) mağara yoldaşı olan bir yaşlının belə çirkin sözlər söyləməsi düzgündürmü?! Başıboş gəzən sərsərinin söyməsiylə, gecə-gündüz məsciddə qalan, ibadət edan bir kəsin söyməsi çox fərqli şeylərdir. Müaviyə, Mərvan və Xalid kimilərii söymələri insanı o qədər narahat etməz. Amma Peyğəmbəri-əkrəmin mağara yoldaşı olan bir insanın ağzından bu sözlərin çıxması insanı yaralayar, qəlbini qırar.

Ağalar, biz də o zamanda yaşamamışıq. Əli, Əbu Bəkr, Ömər, Osman, Təlhə, Zübeyr, Müaviyə, Mərvan, Xalid, Əbu Hüreyrə və başqa kimilərinin, sadəcə adlarını eşitmişik. Heç birinə də xüsusi maraq və düşmənçiliyimiz yoxdur! Sadəcə onların əməl və sözlərinə diqqət edərək hansının Allah-təala və Rəsulunun dostu olduğuna haqq üzrə hökm veririk. Siz ağalar kimi tez inanan insanlardan deyilik; yersiz yerə heç kimə təslim olmarıq, nikbinliklə bir qrup şeyləri görməzliyə vurmarıq. Gördüyümüz pis əməlləri yozmarıq, onları ört-basdır edə bilmərik, hər pis əməli yersiz müdafiə etmərik.

İnsan ağ bir eynək taxarsa, hər rəngi olduğu kimi görər; qara, sarı və qırmızı rəngləri ağ görməz. Siz ağalar da ağ nurlu və insaflı bir eynək taxsanız, sevgi və kininizi bir kənara qoyar, gözəli gözəl, pisi də pis görərsiniz. O zaman da Əbu Bəkr kimi bir insandan bu cür sözlərin çıxmasını yaxşı bir iş kimi qəbul etməzsiniz. Özünü müsəlmanların xəlifəsi bilən və bir zaman Peyğəmbəri-əkrəmin yanında olan bir insanın məqam və movqe xatirinə belə çirkin sözlər söyləməsini,

xüsusən də Allah-təala və Rəsulallahın sevdiyi iki insanı söyməsini, əsla, qəbul etməzsiniz!

## İBN ƏBİL-HƏDİDİN ƏBU BƏKRİN SÖZLƏRİNƏ TƏƏCCÜBLƏNMƏSİ

Bu cür davranışlara təkcə biz deyil, insaflı alimləriniz də məəttəl qalırlar. Bu səbəbdən İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 4-cü cildinin 80-cı səhifəsində belə deyir: «Xəlifənin bu sözlərinə çox təəccüb etdim. Ustadım Əbu Yəhya-Nəqib Cəfər ibn Yəhya ibn Əbu Zeyd Bəsridən soruşdum:

- Xalifənin bu kinayəli sözləri kimə yönəlmişdir?

O, belə dedi:

- Bu bir kinayə deyil, açıq-aydın bir kəlamdır.

- Bu qədər açıq olsaydı, soruşmazdım!

- (gülərək) Əli ibn Əbu Talib haqqında söyləmişdir.

- Bu sözlərin hamısını həzrət Əli haqqında söyləmişdir?!

- Bəli, oqlum. O, sultan idi.

İisaflı ağalar, ibrət alın və insafla hökm edin. Əgər bir nəfər ana və atanıza «tülkü», «tülkunün quyruğu» və «zinakar» kimi sözlər deyərək söyərsə, narahat olmazsınız? Niyə tənqid etdiyimizi söyləməyiniz insafa sığırmı? İmanımıza görə, sadəcə vaqe olanları və bilavasitə boyük alimlərinizin təsdiq etmiş olduğu həqiqətləri bəyan edirik.

Əgər bir nəfər bu qədər cəmiyyət içində sizə «Hafiz bəy tülküdür, Şeyx də onun quyruğudur, o filan fahişə qadın kimi danışır!» deyərsə, narahat olub qəzəblənməzsiniz?!

Ağalar, zəhmət olmasa, gözlərinizi bağlamayın, insaf gözüylə həzrət Peyğəmbərin (s) məscidinə baxın! Peyğəmbərin mağara yoldaşı olan yaşlı bir adam xəlifə adıyla Rəsulallahın minbərinə çıxaraq, ənsar və mühacirlər qarşısında belə deyir: «(Allaha pənah aparıram) Əli ibn Əbu Talib tülküdür, Fatimə də

tülkünün quyruğudur (və ya bəzi ravilərin rəvayət etdiyinə görə, əksinə!) və filan zinakar qadın kimi xalqın arasında dolaşır!»

Əmirəl-möminin Əlinin və məzlum nənəmiz Fatimənin (s.ə) halını artıq özünüz düşünün! Allah-təalaya and olsun ki, bunları nəql edərkən belə bütün bədənim titrəyir. Gördüyünüz kimi, titrəyərək və göz yaşları ilə danışıram. Bu mövzuda daha çox danışacaq halım qalmadı. Qəlbimizdə dərd doludur, buraxın bu mövzunu başqa bir vaxta...

Görəsən, Peyğəmbəri-əkrəmin (s) yol yoldaşı və xəlifəsi olan bir kəsin haqq sözlər qarşısında bu şəkildə söyməsi və Rəsulallahın əmanətləri və həqiqi möminlər olan şəxsləri təhqir etməsi doğrudurmu?! Şübhəsiz, söyüşlə məsuliyyətdən canını qurtarmaq acizlərin işidir! Doğru sözü olmayanlar qarşısındakını söyərək özlərini müdafiə edib, vəziyyətdən çıxmağa çalışırlar! Həm də həzrət Əli (ə) kimi birini!...

Bütün alimləriniz mötəbər kitablarında Peyğəmbəri-əkrəmin (s) imam Əli (ə) haqqında belə buyurduğunu yazmışlar: «Əli haqq ilə, haqq da Əli ilə dolanır».

Belə bir insanı əvvəl söyür, sonra da Onu (ə) bütün fitnələrin qaynağı olaraq göstərir!

## ƏLİYƏ (Ə) ƏZİYYƏT PEYĞƏMBƏRƏ (S) ƏZİYYƏTDİR

Bütün alimlərinizin kitablarında da yer alan Peyğəmbəri-əkrəmin (s) Əli (ə) və Fatimə (s.ə) haqqında ümmətinə etdiyi tövsiyyələrin nəticəsi bu idimi?! Halbuki, bilindiyi kimi, Peyğəmbər onların hər ikisi haqqında belə buyurmuşdur: «Onları incidən məni incitmişdir; məni incidən isə Allahı incitmişdir».

Yenə buyurmuşdur: «Əliyə əziyyət verən, mənə əziyyət vermişdir».

## ƏLİNİ (Ə) SÖYMƏK PEYĞƏMBƏRİ (S) SÖYMƏKDİR

Bunlardan da ucası, bütün mötəbər kitablarınızda yer aldığı kimi, Peyğəmbəri-əkrəmin (s) buyurduğu bu sözlərdir: «Əlini söyən məni söymüşdür, məni söyən isə Allahı soymüşdür».

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib» kitabının 10-cu babının əvvəllərində İbn Abbasdan sənədiylə uzun bir hədis rəvayət edir. Hədisdə imam Əlini (ə) söyən bir qrup Şam əhlinə qarşı belə buyurmuşdur: «Peyğəmbəri-əkrəmin Əliyə belə buyurduğunu eşitdim: «Səni söyən məni söymüşdür; məni söyən isə Allah-təalanı söymüşdür. Allah-təalanı söyən isə üzüstü Cəhənnəmə atılacaqdır».

Bu hədisdən sonra sənədiylə rəvayət etdiyi digər hədislərin hamısı da imam Əlini söyənlərin küfrünə dəlalət edir. Bu səbəbdən 10-cu babını «Əlini söyənlərin küfru» adlandırmışdır.

Həmçinin Hakim «Müstədrək»in 3-cü cildinin 121-ci səhifəsində bu zikr olunmuş hədisi son cümlə istisna olmaqla olduğu kimi nəql etmişdir.

Bu hədislərə əsasən, imam Əlini söyənlər Allah-təalanı və Peyğəmbəri-əkrəmi söymüşlər. Onları söyənlər isə (Müaviyə, Əməvilər, xaricilər və nasibilər kimi) məlun va Cəhənnəm Əhlidirlər!

Hesab edirəm, bu qədər kifayətdir. Qiyamət, gec də olsa, gələcək. Məzlum anamız həzrət Fatimə (s.ə) səssiz qalıb hesablaşmağı Qiyamət günü ilahi məhkəməyə həvalə etdiyi üçün biz də susuruq! İndi şahid olaraq göstərdiyiniz hədisin (Biz peyğəmbərlər miras qoymarıq...) rəddinə dair gətirdiyim dəlillərə dönək.

## ƏLİ (Ə) ELM VƏ HİKMƏT QAPISIDIR

«Biz peyğəmbərlər miras qoymuruq» hədisinin mərdudluğu haqqındakı ikinci dəlilimiz isə Peyğəmbəri-əkrəmin (s) buyurduğu və sünni, şiə - bütün müsəlmanların qəbul etdiyi bu hədisdir: «Mən elm şəhəriyəm, Əli isə onun qapısıdır». Həmçinin, «Mən hikmət eviyəm, Əli isə onun qapısıdır».

Ağıl və elmin də zəruri bildiyi kimi, Rəsulallahın (s) elm qapısı olan, Ondan qanunları, hədisləri nəql edən bir şəxs, xüsusilə də cəmiyyətin əminliyini təmin edən miras kimi əhəmiyyətli hökmləri hər kəsdən daha yaxşı və kamil bilməlidir. Əks təqdirdə, Peyğəmbəri-əkrəmin elm qapısı olmasının heç bir mənası olmaz və «Elm öyrənmək istəyən qapıdan gəlməlidir» buyurmasına ehtiyac qalmaz.

Mötəbər kitablarınızda yer alan hədislərə görə, Peyğəmbəri-əkrəm həzrət Əlini ümmətin ən yaxşı hökm verəni kimi təqdim edərək belə buyurmuşdur: «Əli sizin ən yaxşı hökm verəninizdir».

Həzrət Peyğəmbərin, hökm verməkdə hər kəsdən üstün olduğunu buyurduğu bir şəxsin miras və hüquqdan xəbərsiz olması düşünülə bilərmi?! Rəsulallahın (s) bu mövzudakı hökmləri Ona (ə) söyləmədiyi mümkündürmü? Halbuki, bilindiyi kimi, hökm verən bir insanın mirasın da bütün hüquq və fiqh hökmlərini bilməsi lazımdır.

Peyğəmbəri-əkrəmin şəxsi işi sayılan miras hökmünü həzrət Əli kimisinin - O həzrətin elm qapısı olan bir şəxsin eşitməməsi, lakin Övs ibn Hətsan və ya Əbu Bəkr ibn Quhafə kimilərin eşitməsi mümkündürmü?

Görəsən, ağlınız bunu qəbul edirmi ki, adi bir insan tam etibar etdiyi birini özünə vəsi etsin, amma ailəsinə qoyacağı miraslar haqqında ona heç bir şey söyləməsin?! Amma yad bir kəsə miras barədə necə rəftar etməsini əmr etsin?!

Məlum olduğu kimi, Rəsulallahın (s) besəti insanların dünya axirət səadətini təmin etməkdir; Allah-təala da həzrət Əlini Peyğəmbərin vəsisi qərar vermişdir; həzrət Əli bundan başqa Rəsulallahın elm və hikmət qapısıdır. Bütün bunlara baxmayaraq, həzrət Peyğəmbərin cəmiyyətin əmniyyətini pozan belə bir mövzuda həzrət Əliyə bir şey söyləməməsi mümkündürmü?!»

**Şeyx**: «Bu iki mövzunun heç biri bizim nəzərimizdə sabit deyildir! Çünki «Mən elmin şəhəriyəm» hədisini böyük alimlərimiz qəbul etmirlər. Vəsiyyət mövzusu da əhli-sünnət alimlərinin əksəriyyəti tərəfindən rədd edilmişdir və qəti deyildir. Çünki Buxari və Müslim öz «Səhih»lərində, digərlərinin də böyük alimlərdən sənədiylə rəvayət etdiyinə görə, Ümmül-möminin Aişə belə demişdir:

«Peyğəmbər xəstə idi. Yatağında yatarkən başı sinəmə söykənmişdi və bu şəkildə də dünyadan köçdü».

Yəni O həzrətin (s) heç bir şey vəsiyyət etmədiyinə şahid olmuşdur. Peyğəmbər bir vəsiyyət etmiş olsaydı, Ümmül-möminin onu mütləq yerinə yetirər və rəvayət edərdi. Buna görə də, vəsiyyət mövzusu, əsla, doğru deyildir!»

**Dəvətçi**: «Dediyim hədis haqqında yanılırsınız; çünki hər iki firqənin də ittifaq etdiyi bir hədisdir. Hətta təvatür dərəcəsinə yaxınlaşmışdır. Sələbi, Firuz Abadi, Hakim Nişaburi, Məhəmməd Cəzəri, Məhəmməd ibn Cərir Təbəri, Siyuti, Səxavi, Müttəqi Hindi, Məhəmməd ibn Yusif Gənci Şafei, Məhəmməd ibn Təlhə Şafei, Qazi Fəzl ibn Ruzbəhan, Mənavi, İbn Həcər Məkki, Xətib Xarəzmi, Süleyman Qunduzi Hənəfi, İbn Məğazəli Şafei fəqihi, Deyləmi, İbn Təlhə Şafei, Mirseyid Əli Həmədani, Hafiz Əbu Nəim İsfahani, Şeyxul-İslam Həmuyini, İbn Əbil-Hədid Mötəzili, Təbərani, Səbt ibn Cövzi, imam Əbu Əbdürrəhman Nəsai və başqaları bunu rəvayət etmişlər.

Vəsiyyət mövzusu və Peyğəmbərdən nəql edilən rəvayətlər də təvatür dərəcəsindədir. Daha doğrusu, sadəcə inadkar, qəzəb və təəssüb əsiri olan insanlar onu rədd edə bilər!»

Nəvvab: «Peyğəmbəri-əkrəmin (s) xəlifəsi Onun (s) ailə işləriylə də maraqlanan bir vəsisi məqamındadır. Bu səbəbdən, xəlifələr həmişə bununla maraqlanmış və Peyğəmbərin (s) həyat yoldaşlarının məsrəflərini təmin etmişlər. Bu halda, həzrət Əlini vəsiliyə xüsusi olaraq təyin etdiyi haradan bəllidir?»

**Dəvətçi**: «Doğru bəyan edirsiniz, şübhəsiz, Peyğəmbərin (s) xəlifəsi və vəsisi birdir. Daha əvvəlki gecələr xilafətin dəlil və nəslərini bəyan etdim. həzrət Əlinin vəsiliyi olduqca açıq və qətidir.

Başqaları hiyləylə məşğul olduğu halda, həzrət Əli Peyğəmbəri-əkrəmin qüsl, kəfən və dəfn işləriylə məşğul idi. Daha sonra da Rəsulallahın yanında olan əmanətləri öz sahiblərinə verməyə başladı. Bunlar hər iki məzhəb alimlərinin ittifaq etdiyi şeylərdir!»

# VƏSİLİK HAQQINDAKI RƏVAYƏTLƏRİN NƏQLİ

Cənab Şeyxin bir daha «Alimlərimiz bu hədisi rədd etmişlər» deməməsi üçün bu mənanın isbatı haqqında qısa olaraq bir neçə hədis nəql etmək məcburiyyətindəyəm:

1. İmam Sələbi «Mənaqib» və «Təfsir»ində, şafei fəqihi İbn Məğazəli «Mənaqib»də və Mirseyid Əli Həmədani «Məvəddətül-qurba» kitabının 6-cı məvəddəsində II xəlifə Ömər ibn Xəttabdan belə rəvayət edir: «Rəsulallah (s) əshabı arasında qardaşlıq əqdi etdikdə belə buyurdu: «Bu Əli dünya və axirətdə qardaşımdır. Əhlim yanında xəlifəm, ümmətim arasında vəsim, elmimin varisi, borclarımın ödəyicisidir. Onun malı mənim malım, mənim malım da onun malıdır. Onun xeyri mənim xeyrim, zərəri də mənim zərərimdir. Onu sevən məni sevmişdir. Ona qəzəblənən mənə qəzəblənmişdir».

2. Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə» kitabının 15-ci babını bu mövzuya ayırmış və imam Sələbi, Həmuyini, Hafiz Əbu Nəim, Əhməd ibn Hənbəl, İbn Məğazəli, Xarəzmi və Deyləmidən Əlinin (ə) vəsiliyini isbat edən 20-dən çox rəvayət nəql etmişdir. Bu rəvayətlərdən yalnız bəzisini ağalar üçün aydın olsun deyə nəql etmək istəyirəm. Əhməd Hənbəlin «Müsnəd»indən rəvayət etdiyi kimi, Ənəs ibn Malik belə deyir: «Salmana, Peyğəmbərdən (s) vəsisinin kim olduğunu soruşmasını söylədim. Salman da: «Ya Rəsulallah, vəsin kimdir?»,-deyə soruşdu. Rəsulallah buyurdu: «Ey Salman, Musanın vəsisi kim idi?» Salman: «Yuşa ibn Nun idi»-dedi. Peyğəmbər buyurdu: «Mənim vəsim, varisim, borclarımı ödəyən və vədimə vəfa göstərən Əli ibn Əbu Talibdir».

Həmçinin Səbt ibn Cövzi də «Təzkirətul-xavassil-ümmət»in 26-cı səhifəsində və İbn Məğazəli Şafei də «Mənaqib» kitabında bu rəvayəti nəql etmişlər.

3. Müvəffəq ibn Əhməd xətiblər xətibi Xarəzmidən o da Bureydədən Rəsulallahın (s) belə buyurduğunu rəvayət edir: «Hər nəbinin bir vəsi və varisi vardır. Şübhəsiz, Əli də mənim vəsim və varisimdir».

Məhəmməd ibn Gənci Şafei də «Kifayəut-talib» kitabının 62-ci babının 131-ci səhifəsində sənədiylə bu rəvayəti nəql edərək belə deyir: «Bu hədis, Şam Mühəddisinin də «Tarix» kitabında rəvayət etdiyi gözəl bir hədisdir».

4. Şeyxul-İslam Həmuyinidən, o da Əbuzərdən Peyğəmbəri-əkrəmin (s) belə buyurduğunu rəvayət edir: «Mən peyğəmbərlərin üstünüyəm. Ey Əli! Sən də Qiyamətə qədər vəsilərin üstünüsən».

5. Xətib Xarəzmidən, o da Ümmü-Sələmədən Peyğəmbəri-əkrəmin (s) belə buyurduğunu rəvayət edir: «Allah-təala hər peyğəmbərə bir vəsi seçmişdir; Əli də məndən sonra Əhli-beytim, itrətim və ümmətim arasında vəsimdir».

6. İbn Məğazəli Şafei fəqihindən, o da Əsbəğ ibn Nəbatədən[1] Həzrət Əlinin (ə) bəzi xütbələrdə belə buyurduğunu rəvayət edir: «Ey insanlar, mən yaradılmışların imamı və məxluqatın ən yaxşısının vəsisiyəm. Doğru yola hidayətedici, pak itrətin atasıyam. Mən Rəsulallahın qardaşı, vəsisi, vəlisi, dostu və həbibiyəm. Mən möminlərin əmiriyəm. Ayağı və alnı ağların (səcdə üzvləri nurlu olanların) rəhbəri və vəsilərin ağasıyam. Mənimlə döyüşmək Allah-təala ilə döyüşmək və mənimlə barışmaq Allah-təala ilə barışmaqdır. Mənə itaət Allah-təalaya itaətdir. Mənim vilayətim Allahın vilayətdir. Mənə tabe olanlar Allahın dostlarıdır, mənim dostlarım Allah-təalanın dostlarıdır».

7. İbn Məğazəli Şafei «Mənaqib» kitabında Abdullah ibn Məsuddan nəql edərək Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edir: «Dəvət (risalət) mən və Əli ilə sona çatdı; ikimiz də, əsla, bütə tapınmadıq. Allah-təala məni peyğəmbər, Əlini də vəsi qərar verdi».

8. Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba» kitabının 4-cü məvəddəsində Utbə ibn Amir Cəhənidən belə rəvayət edir: «Rəsulallaha Allah-təalanın birliyi, Məhəmmədin peyğəmbərliyi və Əlinin vəsiliyi üzrə beyət etdik. Daha doğrusu, bu üçündən hər birini tərk etsək, kafir olarıq».

9. «Məvəddətül-qurba» kitabında yer alan bir hədisdə də Peyğəmbəri-əkrəm (s) belə buyurur: «Şübhəsiz, Allah-təala hər peyğəmbərə bir vəsi qərar vermişdir.

---

[1] Həzrət Əlinin (ə) xass səhabələrindən idi. Buxari və Müslim də ondan rəvayət nəql etmişdir.

Şeysi Adəmə, Yuşanı Musaya, Şəmunu İsaya və Əlini də mənə vəsi seçmişdir. Əli vəsilərin ən üstünüdür. Mən dəvətedici, Əli isə (haqq və həqiqəti) aydınladandır».

10. «Yənabi» kitabının sahibi Muvəffəq ibn Əhməd Xarəzminin «Mənaqib» kitabından Əbu Əyyub Ənsarinin belə dediyini rəvayət edir: «Rəsulallah (s) xəstələndikdə Fatimə (s.ə) Həzrətin yanına gəldi. O xanım ağlayırdı. Peyğəmbəri-əkrəm onun ağladığını gördükdə belə buyurdu: «Ey Fatimə, Allah-təalanın sənə olan kəraməti hər kəsdən əvvəl İslamı seçən, elmi hər kəsdən daha çox olan və helmi hər kəsdən böyük olan birini sənə həyat yoldaşı seçməsidir. Allah-təala yer üzünün əhlinə baxdı, onların arasından məni seçdi və məni peyğəmbər olaraq göndərdi. Yenə yer üzünün əhlinə baxdı, onların arasından yoldaşın Əlini seçdi və onu səninlə evləndirməyi və özümə vəsi təyin etməyi mənə dzoq etdi».

Şafei fəqihi İbn Məğazəli «Mənaqib» kitabında bu rəvayətin davamında bu cümlələri də artıraraq nəql edir: «Ey Fatimə, biz Əhli-beytə kimsəyə verilməyən və bizdən sonra da kimsənin dərk edə bilməyəıəyi yeddi xüsusiyyət verilmişdir: ən böyük nəbi bizdəndir, o da sənin atandır. Vəsimiz ən üstün vəsidir, o da sənin yoldaşındır. Şəhidimiz ən xeyirli şəhiddir, o da əmin Həmzədir. Cənnətdə istədiyi yerə uçan iki qanadlı da bizdəndir, o da əmin oğlu Cəfərdir. Cənnət əhlinin iki sərvəri də bizdəndir, onlar da sənin oğullarındır. Nəfsim əlində olan Allah-təalaya and olsun ki, İsa ibn Məryəm onun arxasında namaz qılacağı bu ümmətin Məhdisi də sənin övladlarındandır».

İbrahim ibn Məhəmməd Həmuyini də «Fəraid» kitabında dediyim hədisi nəql etdikdən sonra bu cümlələri əlavə edərək zikr etmişdir: Mehdi (ə.c) sözündən sonra: «Yer üzü zülmlə dolduqdan sonra Mehdi yer üzünü ədalətlə dolduracaq. Ey Fatimə, üzülmə, ağlama; şübhəsiz ki, Allah-təala sənə məndən daha mərhəmətli və şəfqətlidir. Bu da qəlbimdə olan yerin və məqamın səbəbiylədir. Allah-təala səni soy baxımından ən böyük, xalqa ən mərhəmətli, bərabər bölmədə ən ədalətli və hökmləri ən yaxşı bilən bir insanla evləndirmişdir».

Zənn edirəm, Nəvvab ağanın yəqinliyini təmin etmək və Şeyxin yanlışlığını düzəltmək üçün Peyğəmbəri-əkrəmdən (s) rəvayət etdiyim bu qədər hədislər

kifayətdir. Əks təqdirdə, həzrət Peyğəmbərdən imam Əlinin vəsiliyini ifadə edən çox sayda hədis mövcuddur.

## RƏSULALLAH (S) VƏFAT EDƏRKƏN BAŞI ƏLİNİN (Ə) SİNƏSİ ÜSTÜNDƏ İDİ

Peyğəmbəri-əkrəm (s) vəfat etdikdə başı Ümmül-möminin Aişənin sinəsinin üstündə deyildi. Çünki Əhli-beytdən (ə) rəvayat edilən səhih və mütəvatir rəvayətlər, şiə üləmasının icması və böyük alimlərinizin mötəbər kitablarında yer alan rəvayətlər də bu iddianızı rədd edir. Bütün bunlar Rəsulallah vəfat etdikdə başının Əmirəl-möminin Əlinin sinəsi üzərində olduğu və o saatlarda sinəsinə elm qapılarının açıldığı rəvayat edilir».

**Şeyx**: «Hansı alimimizin kitabında belə bir şey yazılmışdır?»

**Dəvətçi**: «Zəhmət olmasa, «Kənzul-ummal»ın 4-cü cildinin 55-ci və yenə 6-cı cildinin 392-ci və 400-cü səhifəsinə, «Təbaqati Məhəmməd ibn Səd Katib»in 2-ci cildinin 51-ci səhifəsinə, «Müstədrəki Hakim Nişaburi»nin 3-cü cildinin 139-cu səhifəsinə, imam Əhməd ibn Hənbəlin «Müsnəd»nin 3-cü cildinə, Hafiz Əbu Nəimin «hilyətül-övliya», «Təlxisi-Zəhəbi», «Sünənu İbn Əbi Şeybə» və «Kəbiri-Təbərani» və digər bir çox mötəbər kitablarınıza müraciət edin! Hamısında fərqli təbirlərlə Ümmül-möminin Ümmü-Sələmə, Cabir ibn Abdullah Ənsari və digərlərindən belə rəvayət edilmişdir: «Peyğəmbəri-əkrəm vəfat etməzdən əvvəl həzrət Əlini yanına çağırdı və ruhu bədənindən ayrılanadək mübarək başı o həzrətin sinəsi üzərində idi».

Bütün bu rəvayətlərdən daha əhəmiyyətlisi, bilavasitə həzrət Əlinin (ə) «Nəhcül-bəlağə»də buyurduğu sözdür. İbn Əbil-Hədid ««Nəhcül-bəlağənin şərhi» kitabının 2-ci cildinin 561-ci səhifəsində İmamın belə buyurduğunu qeyd etmişdir: «Rəsulallah vəfat etdikdə başı sinəmin üstündə idi; əlimin üzərində olduğu halda ruhu bədənindən ayrıldı və (təyəmmüm üçün) əllərimi üzümə sürtdüm».

İbn Əbil-Hədid həmin kitabın 562-ci səhifəsində İmamın sözündən sonra belə deyir: «Rəsulallahın (s) vəfatı zamanı başı həzrətin (ə) sinəsi üzərində idi. Neçə qətrə qan Ondan (s) cari olduqdan sonra həzrət (ə) öz üzünə çəkdi».

Eyni cildin 590-cı səhifəsində isə imam Əlinin həzrət Fatiməni dəfn etmək bəhsinin içində Rəsulallaha xitabən belə buyurduğu nəql edilmişdir: «Şübhəsiz, Səni məzara mən qoydum, ruhun sinəmin və boynumun arasında xaric oldu».

Sağlam olan bütün bu dəlillər, Aişənin rəvayətini rədd edir. Çünki Aişənin hələ çox-çox əvvəldən Əmirəl-möminin Əliyə qarşı barışmaz kini var idi. İnşallah, qarşıdakı gecələrdə fürsət əldə edə bilsəm, Aişənin həzrət Əliyə olan düşmənçiliyini də bəyan etməyə çalışacağam.

## VƏSİLİK XÜSUSUNDA ARAŞDIRMA

Bütün bu hədislərlə Nəvvab ağanın «Xəlifə olduğu halda vəsiyə nə ehtiyac var?!» etirazına da ikinci cavabı vermiş olduq. Çünki əgər insan bir az olsa belə insafla bu nəql olunmuş hədislərə baxar və xüsusilə də, «Böyük peyğəmbərlərin vəsilorini təyin edon Allah-təala, Əlini mənim vəsim qərar verdi» hədisinə diqqət edərsə, bu vəsiliyin adi bir ailə vəsiliyi olmadığını çox asanlıqla anlayar. Çünki buradakı vəsidən məqsəd, ümmətin fərdi və cəmiyyətlə əlaqəli bütün işlərini idarə edən xilafətdir. Yəni nübuvvət məqamından sonra gələn vəsilik məqamıdır.

Həzrət Əlinin vəsiyyət məqamı bütün böyük alimlərinizin də qəbul etdiyi bir həqiqətdir. Bunu, sadəcə həzrət Əlinin bütün fəzilətlərini rədd edən bir ovuc mütəəssib insanlar rədd etmişdir.

Bu səbəbdən İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» (Misir çapı) kitabının 1-ci cildinin 26-cı səhifəsində belə deyir: «Bizim yanımızda, şübhəsiz ki, Əli (ə) Rəsulallahın (s) vəsisidir. Təkcə inad əhli bunu rədd edir».

## VƏSİLİYƏ TOXUNAN BƏZİ SƏHABƏLƏRİN ŞERLƏRİ

İbn Əbil-Hədid daha sonra Rəsulallahın əshabından bir çox şerlər nəql edir ki, hamısı da həzrət Əlinin vəsiliyini bəyan edir. Bu şerlərdən ikisi ümmətin alimi Abdullah ibn Abbasın bu şerləridir:

***Rəsulallahın vəsisi onun ailəsinin böyüklərindəndir,***
***«Döyüşəcək bir kəs varmı?» deyildikdə onun qəhrəmanıdır.***

Yenə Huzeymə ibn Sabitdən (Züş-şəhadəteyn), onun öz şerlərində belə dediyi nəql edilmişdir:

***Rəsulallahın vəsisi onun ailəsinin böyuklərindəndir,***
***Sən də onun, o məqama sahib olduğuna şahidsən.***

Səhabə olan Əbülheysəm ibn Təyyan da bir şerində belə deyir:

***Vəsi, bizim imam və vəlimizdir.***
***Gizlilik zay oldu, sirlərsə açığa çıxdı.***

Məqsədin isbatı üçün bu qədəriylə kifayətlənirəm. İstədiyiniz təqdirdə bu babdakı digər şerlərə də müraciət edə bilərsiniz ki, belə deyir: «Əgər yorulmayacağınızı bilsəydim, həzrət Əlinin vəsiliyini ifadə edən bir çox şerlərlə vərəqlər doldurardım».

Bunlardan da anlaşıldığı kimi, bu vəsilik məqamı nübuvvət məqamından sonra gələn İlani bir xilafət məqamıdır».

**Şeyx**: «Əgər bu rəvayətlər doğrudursa, nə üçün kitablarda Rəsulallahın (s) Əli (ə) ilə əlaqəli vəsiyyətini görmürük?! Bilindiyi kimi, Əbu Bəkr və Ömərin vəsiyyətləri kitablarda qeyd olunmuşdur».

**Dəvətçi**: «Həzrət Əlinin (ə) vəsilik mövzusu və Peyğəmbəri-əkrəmin (s) vilayət məqamıyla əlaqəli əmrləri böyük şiə alimlərinin mötəbər kitablarında Əhli-beyt (ə) mənbəyi ilə təvatür dərəcəsində yer almışdır. Lakin ilk gecədə qərara alındığına görə, öz kitablarımızdan dəlil gətirməmək üçün bilavasitə sizin mötəbər kitablarınızda yer alan və bu anda hafizəmdə qalan bəzi rəvayətləri zikr etmək istəyirəm.

## VƏSİLİK ƏMRİNƏ İŞARƏ

Əgər Rəsulallahın vəsiyyətini və Əmirəl-möminin həzrət haqqındakı əmrləri ilə əlaqəli bütün hədisləri görmək zəhmət olmasa, bu kitablara müraciət edin: «Təbəqati-İbn Səd», c: 2, səh: 61 və 63; Müttəqi: «Kənzul-ümmal», c: 4, səh: 54, həmçinin c: 6, səh: 155, 393 və 403; «Müsnədi-imam Əhməd ibn Hənbəl», c: 4, səh: 164; «Müstədrəki-hakim», c: 3, səh: 59 və 111.

«Sünən» və «Dəlaili-Beyhəqqi», «İstiabi-İbn Əbdülbirr», «Kəbiri-Təbərani, «Tarixi-İbn-Mərdəviyə» və digər bir çox alimləriniz də müxtəlif dövürlərdə və fərqli təbirlərlə Peyğəmbəri-əkrəmin (s) bu mövzudakı bəyanlarını nəql etmişlər.

Zikr edilən ibarələrin xülasəsi Xatəmül-ənbiyanın (s) bu sözüdür: «Ya Əli! Sən mənim qardaşım, vəzirim, borclarımı oləyən, vədlərimə vəfa edən və mənə etibar edilən əmanətləri sahibinə qaytaran kəssən. Sən məni yuyacaq, borclarımı ödəyəcək və məni məzara qoyacaqsan».

Peyğəmbəri-əkrəmdən bu cür açıq rəvayətlər olduqca çoxdur. Hamısı da Rəsulallahın vəsiyyətinə əməl etmə nişanələrinin əlamətləridir. Bu səbəbdən həzrət Əli vəsiyyətə uyğun olaraq Rəsulallaha qüsl vermiş, kəfənləmiş və məzara qoymuşdur. Əbdurrəzzaqın «Cami» kitabında rəvayət etdiyinə görə, Əmirəl-möminin Peyğəmbəri-əkrəmin 500 min dirhəm borcunu da vermişdir.

**Şeyx**: «Qurani-kərimdə belə bir qanun vardır: «**Hər biriniz ölüm vaxtı gəlib çatanda qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarıaıza**

**ədalətlə [bəyənilmiş surətdə] vəsiyyət edin, [bu iş] təqvalılar uçün bir borcdur**»[1].

Bu ayəyə uyğun olaraq, Peyğəmbəri-əkrəm (s) vəfat zamanında vəsiyyət etməli və vəsisini təyin etməli idi. O halda, Rəsulallah niyə vəsiyyət etmədi? Oalbuki, Ömər və Əbu Bəkr belə vəsiyyət etmişlər».

**Dəvətçi**: «Əvvəla; «Hər biriniz ölüm vaxtı gəlib çatanda» cümləsindən məqsəd, ölümü görmək (can vermək) anı deyildir. Çünki o anda insan şüurunu itirir və bu vəzifəsinə tam əməl edə bilmir. Ayədən məqsəd yaşlılıq, bədən taqətsizliyi və xəstəlik səbəbindən ölümün əlamətləridir.

İkincisi; bu sözləriniz məni böyuk qəm-qüssəyə qərq etdi və əsla unuda bilməyəcəyim böyük bir müsibəti yadıma saldı. Böyük cəddimiz Rəsulallah (s) vəsiyyət haqqında belə buyurmuşdur: «Kim vəsiyyət etmədən ölərsə, cahiliyyət ölümü ilə ölmüş olur».

Peyğəmbəri-əkrəm ümmətindən heç kimin vəsiyyətsiz ölməsini, öldukdən sonra da yerdə qalanların ixtilafa düşməsini istəmirdi.

Amma bilindiyi kimi, Peyğəmbər 23 il ərzində Allah-təalanın vəsi təyin etdiyi şəxsi ümmətə xatırlatmış və bunu açıq-aydın şəkildə bəyan etmişdir. Ölüm anında da ümmətin savaş, ixtilaf və zəlalətə düşməsinin qarşısını almaq üçün bu müddət içərisində söylədiyi sözləri bu vəsi vasitəsiylə kamala çatdırmaq istədi. Amma təəssüflər olsun ki, siyasətbazlar Ona İlahi vəzifəsini yerinə yetirməsinə mane oldular. Siz də burada Peyğəmbərin ölüm anında vəsiyyət etməməyinə etiraz edirsiniz».

## PEYĞƏMBƏRİN (S) ƏMRİNƏ İTAƏT VACİBDİR

**Şeyx**: «Bu bəyanlarınız, əsla, doğru deyildir! Çünki heç kəsin Xatəmül-ənbiyaya (s) mane ola biləcəyini düşünmürəm. Bu səbəbdən Quran da belə buyurur: «**Peyğəmbərin sizə verdiyini alın və nəhy etdiyindən də çəkinin**»[2].

---

[1] "Bəqərə" surəsi, ayə: 180
[2] "Həşr" surəsi, ayə: 7

Həmçinin, bir çox ayədə də Peyğəmbəri-əkrəmə (s) itaət edilməsi əmr edilərək belə buyurulmuşdur: «**Allaha və Rəsula itaət edin**».

Şübhəsiz, Rəsulallahın əmrinə itaət etməmək küfrdür. Heç bir səhabə Peyğəmbərin vəsiyyətinə mane olmamışdır. Bu cür rəvayətlər din düşmənlərinin ümmətin Rəsulallahın əmrinə etinasızlıq göstərməsini təmin etmək üçün uydurduğu iftira və yalandır.

## PEYĞƏMBƏRİN (S) VƏSİYYƏT ETMƏSİNƏ MANE OLUNMASI

**Dəvətçi**: «Zəhmət olmasa, qəsdli olaraq qəflət etməyin. Bu uydurma bir rəvayət deyildir. Əksinə, müsəlmanların ümumilikdə səhihliyi haqqında ittifaq etdikləri hədislərdir. Hətta müxaliflərin dəlil olaraq göstərə biləcəyi bir rəvayəti nəql etmək xüsusunda olduqca diqqətli davranan Buxari və Müslim belə öz «Səhih»lərində Peyğəmbəri-əkrəmin (s) ölüm anında belə buyurduğunu rəvayət etmişlər: «Mənə kağız-qələm gətirin, əsla azğınlığa düşməyəcəyiniz şeyləri yazım».

Orada olanlardan bəziləri bir siyasi insanın küframiz sözlərinə aldanaraq, bağırıb çığırmaqla vəsiyyətin yazılmasına mane oldular. Rəsulallahın hüzurunda elə gurultu və səs çıxardılar ki, Peyğəmbərin qəlbi qırıldı və narahat olub, onları yanından çölə çıxartdı».

**Şeyx**: «Mən belə bir şeyə inana bilmirəm! Kim belə cəsarət edə bilər?! Kim Peyğəmbəri-əkrəmin (s) sözünə qarşı çıxıb, itaətsizlik göstərə bilər?! Halbuki, bilindiyi kimi, adi bir müsəlman belə vəsiyyət edərsə heç kim ona mane ola bilməz! O ki, qaldı Rəsuli-əkrəm kimi itaəti vacib və müxalifəti küfrə səbəb olan bir şəxsə mane olsunlar! Çünki böyüklərin vəsiyyəti doğru yola yönəlmə vəsiləsidir və heç kim ona mane ola bilməz! Bu səbəbdən Əbu Bəkr və Ömər də vəsiyyət etdilər və heç kim onlara mane olmadı. Belə bir rəvayətə, əsla, inana bilmərəm!»

Dəvətçi: «İnanmamaqda haqlısınız; sadəcə siz deyil, hər müsəlman təəccüb edir. Hətta bu hadisəni duyan hər kəs təəccüb edir. Peyğəmbəri-əkrəm (s) ömrünün son anlarında ümmətini azqınlıqdan, cəhalətdən, fəlakətdən qurtarmaq və onlara doğru yolu göstərmək üçün vəsiyyət etmək istəmiş, lakin Ona mane olmuşlar. Lakin bu hadisə həqiqiləşmiş və müsəlmanları boyük bir qəm və qüssəyə qərq etmişdir.

## İBN ABBASIN PEYĞƏMBƏRİN (Ə) VƏSİYYƏTİNƏ MANE OLUNMASINA AĞLAMASI

Buna, sadəcə mən və sizlər üzülmürük. Peyğəmbəri-əkrəmin (s) əshabı da bu müsibətə ağlamışdır. Bu səbəbdən Buxari, Müslim və digər böyük və dəyərli alimləriniz də Abdullah ibn Abbasın daim ağladığını və «Cümə axşamı, ah gün cümə axşamı!» deyərək o qədər ağlıyırdı ki, göz yaşları axıdığını qeyd etmişlər.

Ondan «Cümə axşamı nə olmuşdur ki, belə ağlayırsan?» soruşulduqda deyirdi: «Peyğəmbəri-əkrəm ağır xəstələndikdə, ümmətini yazacağı vəsiyyətlə azğınlıqdan qorumaq üçün qələm-kağız istədi. Amma orada olanlardan bəziləri ona mane oldular. Bundan da ağırı odur ki, ona «Sayıqlayır!» dedilər. O gün, Cümə axşamı əsla, unudulmayacaq. Peyğəmbərə mane olmaları bir yana qalsın, ədəbsizcəsinə çirkin sözlər də söylədilər!»

**Şeyx**: «Rəsulallahın (s) vəsiyyətinə kim mane oldu?»

**Dəvətçi**: «İkinci xəlifə Ömər ibn Xəttab mane oldu».

**Şeyx**: «Belə açıq şəkildə danışaraq fikrimi rahat etdiyiniz üçün çox məmnun oldum!; çünki bu cür bəyanlardan çox narahatlıq keçirirəm. Bu cür rəvayətlərin şiələrin uydurması olduğunu düşünürəm. Amma ehtiramınızı qoruyaraq bunu sizə qarşı bəyan etmək istəməmişdim. İndi içimdə olanı bəyan edirəm və sizə tövsiyyə edirəm: bu cür uydurma xəbərlərə inanmayın!»

**Dəvətçi**: «Mən də sizə tövsiyyə edirəm ki, düşünmədən o dəqiqə rədd və ya qəbul etməyin! Çünki həqiqətlər ortaya çıxdıqda narahat olarsınız. Həmişə olduğu kimi, bu mövzuda da tələskənliyə yol verdiniz. Heç düşünmədən, köhnə adətiniz

üzrə bizə pis baxdığınız üçün təmiz şiə müsəlmanları hədis uydurmaqda ittiham etdiniz. Halbuki dəfələrlə dediyim kimi, biz şiələr hədis uydurmağa heç bir ehtiyac duymuruq! Çünki bilavasitə öz kitablarınızda lehimizə olan və inanclarımızı sübut edən saysız-hesabsız dəlillər vardır.

## PEYĞƏMBƏRİN (S) VƏSİYYƏTİNƏ MANE OLUNDUĞUNU BİLDİRƏN HƏDİSLƏRİN MƏNBƏLƏRİ

Bu mövzuda da mötəbər alimlərinizin kitablarına nəzər salsanız, boyük alimlərinizin bir az əvvəl söylədiklərimi rəvayət etdiklərini görərsiniz. Məsələn: Buxari «Səhih»in 2-ci cildinin 118-ci səhifəsində, Müslim «Vəsiyyət»in sonunda, Həmidi «Cəmun beynəs-Səhiheyn»də, imam Əhməd Hənbəl «Müsnəd»in 1-ci cildinin 222-ci səhifəsində, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 2-ci cildinin 563-cü səhifəsində, Kirmani «Şərhi Səhihi-Buxari»də, Nəvəvi «Şərhi Səhihi-Müslim»də, İbn Həcər «Səvaiq»də, Qazi Əbu Əli, Qazi Ruzbəhan, Qazi Əyyaz, imam Ğəzzali, Qutbuddin Şafei, Məhəmməd ibn Əbdul-Kərim Şəhristani, İbn Əsir, Hafiz Əbu Nəim İsfahani, Səbt ibn Cövzi və xülasə, bir çox böyük və dəyərli alimləriniz sözügedən ələmli hadisəni təsdiq edərək belə demişlər: «Peyğəmbəri-əkrəm (s) vida həccindən qayıtdıqdan sonra xəstələndi və bir qrup səhabə Rəsulallahı ziyarət etməyə gəldikdə həzrət: «Mənə kağız-qələm gətirin, sizə məndən sonra əsla aza bilməyəcəyiniz şeyləri yazım».

İmam Ğəzzali «Sirrul-aləmin»in 4-cü məqaləsində Səbt ibn Cövzi də «Təzkirə» kitabının 36-cı səhifəsində ondan rəvayət etmişdir və digər alimləriniz də öz kitablarında Rəsulallahın belə buyurduğunu nəql etmişlər: «Mənə kağız-qələm gətirin, məndən sonra işlərin çətinliklərini qaldıran və sizə lazımlı olan şeyləri yazım».

Bəzi rəvayətlərdə isə belə yer almışdır: «Sizə məndən sonra ixtilafa düşməyəcəyiniz şeyləri yazım». Ömər isə belə dedi: «Buraxın bu adamı. Şübhəsiz, o, sayıqlayır! Allahın kitabı bizə kifayət edər!»

Orada olan əshab iki yerə bölündü; bəziləri Öməri, bə zilləridə Peyğəmbəri-əkrəmi müdafiə etdi. Daha sonra aləm bir-birinə dəydi, bir-birlərinə səslərini yüksəltdilər. Böyük bir əxlaq abidəsi olan Rəsulallah narahat olaraq buyurdu: «Çıxın yanımdan, mənim yanımda dava etmək düzgün deyil!»

Bu, bilavasitə Peyğəmbəri-əkrəmin hüzurunda baş verən müsəlmanların ilk fitnəsi idi və bu fitnə həzrətin 23 illik o qədər zəhmətlərindən sonra baş verdi. Bu fitnə və bölünməyə Ömər səbəb oldu; nifaq və ixtilaf toxumlarını əkdi, müsəlmanları iki yerə böldü. Bu günə qədər də belə davam etmiş və bu anda da, bax, burada müsəlman qardaşları bir-birinə qarşı qoymuşdur».

**Şeyx**: «Sizin kimi ədəbli və əxlaqlı bir insandan ikinci xəlifə haqqında bu cür sözlər söyləyəcəyənizi heç gözləmirdim!»

**Dəvətçi**: «Allah xatirinə, yersiz sevgi və nifrətinizi bir kənara qoyun! Pis baxan gözlərinizi bağlayın və insaf üzrə danışın! Görəsən, inkarınız qarşısında bilavasitə öz kitablarınızdan tarixi həqiqətləri nəql etməklə mən ədəbsizlik etdim, yoxsa Xatəmül-ənbiyaya qarşı cəsarət edib bu şəkildə ağır danışan Öməmi? Ömər vəsiyyətin yazılmasına mane oldu, fitnə və fəsad yaratdı, Peyğəmbər kimi xəstə bir insanın yanında səsini yüksəltdi və adətinə uyğun söyərək belə dedi: «Buraxın bu adamı, o, sayıqlayır!».

Bu mövzuda şair necə də gözəl söyləmişdir:

***Mənim gözümdəki tikanı görürsən,***
***Amma öz gözündəki xurma budağını görmürsən!***

Halbuki, Allah-təala Qurani-məciddə belə buyurur: «**Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Fəqət o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur**»[1].

Yəni Peyğəmbəri adı ilə çağırmayın; Ona «Rəsulallah» deyin. Amma bilindiyi kimi, Ömər ədəb və İlahi əmrə riayət etmədi. Adı ilə çağırmaq bir yana, O

[1] "Əhzab" surəsi, ayə: 40

Həzrətə işarə edərək: «bu adam»-dedi. İnsafla söyləyin, ədəbsizlik edən mənəm, yoxsa Ömər?»

**Şeyx**: «Məgər «La yəhcur» kəlməsinin mənası «sayıqlamaq»dır ki, cəsarət və ədəbsizlik sayılsın?!»

## TƏƏSSÜB İNSANI KOR VƏ KAR EDİR

**Dəvətçi**: «Bütün ədəbiyyatçılar, müfəssirlər və xüsusilə də böyük alimləriniz, məsələn; İbn Əsir «Camiul-üsul»da, İbn Həcər «Şərhi Səhihi-Buxari»də, «Səhih» yazarları və digərləri də bu kəlmənin «sayıqlamaq» mənasına gəldiyini qəbul etmişlər.

Bəli ağalar, insan açıq-aydın həqiqətləri görə bilmək və yersiz müdafiyəyə qalxmamaq üçün təəssüb və inaddan uzaq durmalıdır. Görəsən, Qurani-kərimin «Ona Rəsulallah və Xatəmül-ənbiya deyin» əmrinə baxmayaraq, «Bu adam sayıqlayır!» deyərək Peyğəmbəri-əkrəmin məqamını alçaldan bu insan müqəddəs Kitaba və ədəbə zidd davranmamışdımı? Xüsusilə Peyğəmbərin son nəfəsinə qədər nübuvvət və ismət məqamından ayrılmadığı hamıya məlumdur. Xüsusilə də təbliğ və doğru yola yönəltmək istiqamətində sayıqlamamışdır. Bunun əksini iddia edən Onu tanımamış və iman gətirməmişdir!»

**Şeyx**: «Ömər kimi bir şəxsi imansızlıqda ittiham etmək doğrudurmu?»

**Dəvətçi**: «Əvvəla; niyə Ömərin Peyğəmbəri-əkrəmə (s) «Bu adam sayıqlayır!» dediyini eşitdikdə narahat olmadınız? Halbuki hər bir müsəlman bu sözləri eşitdikdə narahat olmalıdır. Amma məqamı təkcə Rəsulallahın əshabı olmaqdan ibarət olan və sonralar bəzi insanlar tərəfindən yüksək məqam kürsüsünə yüksələn birinə qarşı bir söz söyləndikdə narahat olursunuz?! Məlumunuz olsun ki, bu söz təkcə mənim düşüncəmdən irəli gəlmir, hər ağıllı bir insan, təmizqəlbli müsəlman bu hadisəni eşitdikdə «İman gətirmiş bir insan Peyğəmbəri-əkrəmə belə sözlər söyləməz»,-deyə düşünər.

# ƏHLİ-SÜNNƏT ALİMLƏRİ DƏ «SAYIQLAYIR» KƏLMƏSİNİ SÖYLƏYƏNİN RİSALƏT MƏQAMINA İNANMADIĞINI ETİRAF EDİRLƏR

Bu səbəbdən Qazi Əyyaz Şafei «Kitabuş-şəfa»da, Kirmani «Şərhi Səhihi-Buxari»də, Nəvəvi «Şərhi Səhihi-Müslim»də və bir çox insaflı və təfəkkürlü alimləriniz öz kitablarında belə demişlər: «Bu sözü hər kim söyləmişsə, Peyğəmbəri-əkrəmə (s) iman gətirməmiş və Onun uca risalət məqamını tanımamışdır. Çünki məzhəb imamlarına görə, peyğəmbərlər insanları doğru yola çatdıran və irşad məqamında qeyb aləmiylə irtibat halındadırlar. Qətiyyətlə deyə bilərəm ki, xəstə olduğu halda da əmrlərinə itaət edilməsi vacibdir. O Həzrətə bu cür nisbət verməklə müxalifət etmək, Onun böyük məqamını tanımamaqdır!».

# İSLAMDA PEYĞƏMBƏRİN (S) HÜZURUNDA BAŞ VERƏN İLK FİTNƏ

Ömərin fitnə və nifaq yaratdığını söyləyən təkcə mən deyiləm; bilavasitə insaflı alimləriniz də bunu təsdiq etmişlər. Misal üçün: böyük alim Hüseyn Meybudi «Şərhi Divan»da belə deyir: «İslamda baş verən ilk fitnə Peyğəmbəri-əkrəmin (s) hüzurunda oldu. Rəsulallah xəstə ikən yatağında nəsiyyət etmək istəyəndə, Ömər ona mane oldu və beləcə, müsəlmanların arasında fitnə və ixtilaf çıxmasına səbəb oldu».

Şəhristani «Miləl və Nihəl» kitabının 4-cü müqəddiməsində belə deyir: «İslamda baş verən ilk ixtilaf Ömərin, Peyğəmbəri-əkrəmin (s) kağız-qələm istəyərək vəsiyyət yazmasına mane olmasıdır».

İbn Əbil-Hədid də «Nəhcül-bəlağənin şərhi»nin 2-ci cildinin 563-cü səhifəsində bu mənaya işarə etmişdir».

**Şeyx**: «Əgər Ömər bu sözü söyləmişsə də, hörmətsizlik etmək fikri ilə söyləməmişdir. Bu cür vəziyyətdə hər bir insan sayıqlaya bilər, bu insanın

orqanizminin bir xüsusiyyətidir. Bu halda Peyğəmbəri-əkrəm ilə digər insanlar arasında heç bir fərq yoxdur».

**Dəvətçi**: «Sizin də bildiyiniz kimi Peyğəmbəri-əkrəmin (s) xüsusi sifətlərindən biri ismətdir (məsumiyyət); ki, ölənə qədər Ondan ayrılmaz. Xüsusilə də insanları irşad və doğru yola hidayət etmək məqamında «Azğınlığa düşməməyiniz üçün sizə bir neçə sətir yazılı surətdə vəsiyyət etmək istəyirəm» deməsinə diqqət yetirin.

Doğru yola hidayət etmək və irşad məqamında olduğu üçün də ismət məqamında və Allah-təala ilə irtibat halında idi. Bu səbəbdən Quran belə buyurur: «**Peyğəmbər həvayi-nəfsinə görə danışmaz, o, (söz) vəhy edilən bir vəhydir**»; və yaxud «**Rəsulun sizə verdiklərini alın**»; və ya «**Allaha və Rəsuluna itaət edin**».

Bu və bənzəri ayələr həqiqətləri göstərir. Bilməlisiniz ki, ümmətin hidayəti üçün istənilən kağız və qələmə mane olmaq Allah -təalaya müxalifət etməkdir və heç şübhəsiz, «sayıqlamaq» kəlməsi açıq-aydın təhqirdir! «Bu adam» təbiri də açıq-aşgar xəyanətdir!

Zəhmət olmasa, insaflı olun. Əgər bir kəs bir cəmiyyət arasında sizə işarə edərək «Bu adam sayıqlayır» deyərsə, nə düşünərsiniz?! Üstəlik bizlər məsum da deyilik, sayıqlaya da bilərik. İndi deyin görək, bu kəlməni siz ədəb və hörmət kimi qəbul edərsiniz, yoxsa xəyanət və təhqir? Əgər ədəbsizlik və hormətsizlik sayırsınızsa, Peyğəmbərə nisbət daha böyük ədəbsizlik və hörmətsizlikdir! Daha doğrusu, bu kəlməni Peyğəmbəri-əkrəmə söyləyəndən uzaq durmaq hər bir müsəlmanın vəzifəsidir. Çünki Allah-təala Quranda açıq-aydın Peyğəmbəri-əkrəmi «Rəsulallah» və «Xatəmul-nəbiyyin» olaraq xatırladır. Zəhmət olmasa, hər şeyi kənara qoyaraq deyin: Peyğəmbəri-əkrəmi «Rəsulallah» və «Xatəmul-nəbiyyin» deyə çağırmayan, Ona hörmət göstərməyən və hətta «Bu adam sayıqlayır!» deyən bir kəs haqqında ağıl və insafınız nəyi hökm edir?»

**Şeyx**: «Fərz edək ki, xəta etmişdir. Peyğəmbərin (s) xəlifəsi olduğuna görə dini qorumaq üçün ictihad etmişdir. Bu səbəbdən, əfv edilə bilən bir xətadır».

**Dəvətçi**: «Əvvəla; Peyğəmbəri-əkrəmin xəlifəsi olduğu üçün ictihad etdiyini söyləməklə haqsızlıq edirsiniz. Çünki Ömər bu kəlməni söylədikdə xəlifə deyildi. Hətta xilafət röyasını belə görməmişdi!

Peyğəmbəri-əkrəm vəfat etdikdə tələm-tələsik bir şəkildə bildiyiniz bir yolla Əbu Bəkr xəlifə seçildi. Sonra da təhdid, ölümlə hədələmək, evinə od vurmaq və başqa yollarla hər kəs təslim olmağa məcbur edildi. 2 il 3 ay müddət keçdikdən sonra Əbu Bəkr ölüm ayağında ikən Öməri xəlifə təyin etdi.

İkincisi; Sizin xəlifənin ictihad etdiyini söyləməyiniz çox qəribədir. Məgər bilmirsiniz ki, nəss, dəlil qarşısında ictihad etməyin mənası yoxdur! Bu əfv edilməyəcək bir xətadır!

Üçünçüsü; dini qorumaq üçün mane olduğunu söyləməyiniz də çox qəribədir. Elm və insafınız təəssüb və inadınızın əsiri olmuşdur!

Ağalar, dini qorumaq Rəsulallahın vəzifəsi idi, yoxsa Ömər ibn Xəttabın? Məgər Rəsulallah ümmət üçün yazmaq istədiyi bir vəsiyyətin yazılmasının dinə zidd olub-olmadığını bilmirdi, amma Ömər ibn Xəttab bildiyinə görə dini qorumaq üçün o vəsiyyətin yazılmasına mane oldu?! Ağlınız bunu qəbul edirmi? Ey bəsirət sahibləri ibrət alın!!!

Siz də, biz də yaxşı bilirik ki, dinin zəruriyyəti xüsusunda yol verilən xəta əfv edilməyəcək böyük bir xətadır!»

**Şeyx**: «Hər halda Ömər Rəsulallahın (s) vəsiyyət yazdıracağından ixtilaf çıxacağını anlamışdı. Bu səbəbdən Peyğəmbərin istəyinin əksinə olaraq, kağız və qələm gətirilməsinə mane oldu».

## ÜZRÜ GÜNAHINDAN DAHA PİS

**Dəvətçi**: «Üzrü günahından daha böyük olan bir söz soylədiniz. Dərs oxuduğum zaman dəyərli, böyük, bütün əqli və nəqli fəzilət dəryasını özündə cəm edən fazil ustadım Hacı Şeyx Məhəmməd Əli Qəzvini belə deyirdi: «Bir xətanı düzəltmək istəyərkən yüz xətanın ortaya çıxması mümkündür».

Eynən siz də; xəlifənin açıq-aydın bir xətasını müdafiə etmək üçün bir çox xətalara yol verdiniz. Söylədiklərinizdən anlaşıldığı kimi, sanki Peyğəmbəri-əkrəm ismət və qeyb aləmiylə əlaqə məqamına sahib olduğu halda ummətin doğru yola yetişmək və irşadı xüsusunda ümmətin xeyir-zərərini düşünə, anlaya bilmirdi. Yəni dediyinizdən belə çıxır ki, guya Ömər Peyğəmbərin xeyrini düşünürdü! Əgər bu ayə haqqında - «**Allah və Rəsulu bir işə hökm verdiyi zaman, heç bir mömin kişi və qadına öz işlərində öz istəklərinə görə seçim haqqı yoxdur. Hər kim Allah və Rəsuluna qarşı çıxarsa, açıq-aydın azğınlığa düşər**»[1] ətraflı düşünsəniz, fikrinizi dəyişər və Ömərin etdiyi əməlləri anlayacaqsınız. Çünki Peyğəmbəri-əkrəmin əmrinə itaət etməmək, vəsiyyətinə mane olmaq və «sayıqlayır!» söyləmək o həzrəti olduqca narahat etmişdi. Nəticədə, Rəsulallah onları yanından çölə çıxarmışdı».

**Şeyx**: «Xəlifənin Peyğəmbəri-əkrəmin yaxşılığını düşündüyü «Allah-təalanın Kitabı bizə kifayətdir» sözündən anlaşılır».

**Dəvətçi**: «Əksinə! Bilavasitə bu söz Quranı yaxşı bilmədiyindən və ya Peyğəmbəri-əkrəmi incitmək qəsdi ilə müxalif olmasından irəli gəlib. Çünki Quran haqqında kifayət qədər məlumatı olsaydı, bilərdi ki, işlərin idarə olunmasında təkcə Qurani-kərim kifayət etmir. Çünki Quran əhkamın ümumiliyini bəyan edir; hər hökmü ayrı-ayrılıqda, xırdalığı ilə açıqlamağı məsuliyyəti olana həvalə edən, mücməl və mucəz olan sağlam bir Kitabdır. Qurandakı o mücməl və ümumi hökmlərin də nasix, mənsux, möhkəm, mütəşabih, ümumi, xüsusi, mütləq, müqəyyəd, mücməl və müəvvəl olanları vardır. İlahi bir feyz və rəbbani bir şəxsin bəyanı olmadan az kəlməli, çox mənalı bir kitab olan Qurani-məciddən istifadə etməsi necə mümkün ola bilər?!

Bundan başqa, əgər təkcə Quran yetərli olsaydı nə səbəbdən müqəddəs Kitabda bu ayələr buyurulardı?!: «**Rəsulun verdiyini alın və nəhy etdiyindən çəkinin» və ya «Onu Rəsula və ya ozlərindən olan əmr sahiblərinə demiş**

---

[1] "Əhzab" surəsi, ayə: 36.

**olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan kimsələr bilərdilər**»[1].

Xülasə, təkcə Quran yetərli deyildir. Qurani-kərimin həqiqi müfəssirləri olan Peyğəmbəri-əkrəmin (s) Əhli-beytinin (ə) açıqlayıcı bəyanları da lazımdır. Bu səbəbdən şiə və sünninin ittifaq etdiyinə görə Rəsulallah dəfələrlə, hətta olüm yatağında olduğu halda belə buyurmuşdur: «Sizlər üçün iki dəyərli əmanət qoyuram: Qurani-kərimi və itrətim olan Əhli-beytimi. Bunlar hovuzun başında yanıma gələnə qədər bir-birlərindən, əsla ayrılmazlar. Onlara sarılın və xilas olun. Bu halda əbədi olaraq azğınlığa düşməzsiniz».

Sizin kimi zəkalı insanların nə səbəbdən düşünmədiyinə təəccüblənirəm! Məlum olduğu kimi, Quranın hökmünə əsasən də «**Peyğəmbər həva-həvəs üzrə danışmaz, söylədiyi hər şey Ona vəhy olunur**».

Bilavasitə Quran özünü ümmətin qurtuluş və doğru yola yetişməsi üçün yetərli görmür və bəyan məqamında Əhli-beytlə iç-içə olduğunu ifadə edir. Bu səbəbdən Peyğəmbəri-əkrəm də Qurani-kərim və Əhli-beytə (ə) itaət edildiyi təqdirdə ümmətin azğınlığa düşməyəcəyini açıq-aydın bəyan etmişdir.

Lakin Ömər Qurani-kərimin təkbaşına yetərli olacağını soyləyir. Zəhmət olmasa, insaflı olun və haqqına hökm verin!

Bir tərəfdən Allah-təalanın elçisi Qurani-kərim və Əhli-beytə sarılmağın vacibliyini, bunların bir-birindən ayrılmayacağını və itaət edənlərə doğru yola yetişmək vəsiləsi olacağını bəyan edir; digər tərəfdən də Ömər Qurani-kərimin təkbaşına yetərli olduğunu, Əhli-beyti, hətta Peyğəmbəri-əkrəmin yazılı hədislərini qəbul etmədiyini belə açıq-aydın bəyan edir. Bunlardan hansına itaət vacibdir?! Şübhəsiz, ağıl sahibi olan hər bir insan, Allah-təala ilə irtibat halında olan Peyğəmbəri-əkrəmi bir kənara qoyub, Öməri qəbul etməyin vacibliyini söyləməz!

Nə uçün Ömərin sözünü tutub Peyğəmbəri-əkrəmin sözünü bir kənara atdınız? Əgər həqiqətən Quran təkbaşına yetərli olsaydı, niyə müqəddəs Kitabda belə buyurulur?: «**Əgər bilmirsinizsə, zikr əhlindən soruşun**»[2].

---

[1] "Nisa" surəsi, ayə: 83
[2] "Nəhl" surəsi, ayə: 43

Göründüyü kimi, Quran «zikr əhli»ndən soruşulmasını əmr edir. Bu ayədəki «Zikr əhli» Peyğəmbəri-əkrəm (s) və Onun pak Əhli-beytidir (ə). Bu səbəbdən əvvəlki gecələrdə ərz etdim ki, sizin Siyuti kimi bir çox böyük alimləriniz bu ayədəki «Zikr əhli»ndən məqsədin Qurani-kərimin bərabəri olan Əhli-beyt olduğunu bəyan etmişlər.

Zəhmət olmasa, sözlərimizə pis nəzərlə baxmayın və təkcə bu sözləri bizim dediyimizi zənn etməyin. İnsaflı böyük alimləriniz də Ömərin bu sözlərini tənqid atəşinə tutmuşlar.

## QUTBUDDİN ŞİRAZİNİN ÖMƏRİN SÖZLƏRİNƏ ETİRAZI

Bu səbəbdən böyük alimlərinizdən olan Qutbuddin Şafei Şirazi «Kəşfül-ğuyub» kitabında belə deyir: «Aydındır ki, rəhbərsiz yolu tapmaq mümkün deyildir. Ömərin: «Allahın kitabı aramızdadır, rəhbərə ehtiyacımız yoxdur» sözünə çox təəccüblənirəm. Ömərin bu sözü «tibb kitabları yanımızdadır, həkimə ehtiyacımız yoxdur» kimi söylənilən bir sözə bənzəyir. Şübhəsiz, ki, bu söz yanlışdır və qəbul edilməz! Çünki hər kəs tibb kitabını anlaya bilməz; mütləq o elmi bilən bir təbibə yanaşması lazımdır.

Qurani-kərim də belədir; öz fikriylə Ondan istifadə edə bilməyənlər də, Quran elminə sahib olanlara müraciət etməlidirlər. Bu səbəbdən Kitabi-məciddə açıq-aydın belə buyurulur: «**Onu Rəsula və ya özlərindən olan əmr sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan gimsələr bilərdilər**».

Həqiqət kitabı elm əhlinin qəlbidir. Bu səbəbdən Quran da belə buyurur: «Bu Quran özlərinə elm verilənlərin sinələrində (yer edən) açıq-aydın ayələrdir»[1].

Həzrət Əli (ə) buyurmuşdur: «Mən Allah-təalanın danışan, bu Quran isə Allah-təalanın susan kitabıdır». (Qutbuddinin sözünün sonu)

İnsaf, elm, ağıl vz elm sahibi olan hər kəs Ömərin sözünü rədd edib və Peyğəmbəri-əkrəmin (s) vəsiyyətinə mane olmaqla çox böyük bir zülm etdiyini təsdiq edir.

---

[1] "Ənkəbut" surəsi, ayə: 49

## ƏBU BƏKRİN ÖLÜM ANINDA VƏSİYYƏTİNƏ MANE OLUNMAMASI

Sizin dəfələrlə «Əbu Bəkr və Ömərin vəsiyyətinə mane olunmamışdır» dediyiniz sözə gəlincə, bu doğrudur. Bax, buna görə bu çox qəribə və heyrətləndiricidir. Bütün tarixçi və hədisçilərin yazdığına görə, Əbu Bəkr ölüm ayağında ikən Osman ibn Uffana belə dedi: «Dediklərimi yaz, bu mənim xalqa olan vəsiyyətimdir...». Osman da Əbu Bəkrin dediyi hər şeyi yazdı.

Ömər və başqaları da orada idi, heç kim onun vəsiyyət yazdırmasına mane olmadı; xüsusilə də Ömər. Bu nə hikmətdirsə, «Bizə Allahın kitabı kifayətdir, Əbu Bəkrin vəsiyyətinə ehtiyacımız yoxdur»,-demədi! Amma məlum olduğu kimi «Allahın kitabı bizim üçün kifayətdir!» bəhanəsiylə Peyğəmbəri-əkrəmin (s) vəsiyyətinə mane oldular və özlərinə sərf edəni söylədilər. Elə isə ibrət alın, ey bəsirət sahibləri!

Xatəmül-ənbiyaya edilən bu xəyanət və təhqiri və ümmətin zəlalətə düşəcəyini bəhanə edib vəsiyyətin yazılmasına mane olan kəsləri əsla qəbul etməz, onlara itaət etmərik! Ağıl, elm və insaf əhli olan hər kəs bütün bunların dəlil və məntiqə əsaslanmadığını, həvayi-nəfsə görə olduğunu bilir!

## BÖYÜK MÜSİBƏT: ÖLÜM ANINDA PEYĞƏMBƏRƏ (S) TƏHQİR VƏ HİDAYƏTİ GÖSTƏRMƏSİNƏ MANE OLUNMASI

Ümmətin alimi olan İbn Abbas ağlamaqda haqlı idi. Hətta bütün müsəlmanların qan ağlamaları lazım gəlir. Çünki Peyğəmbəri-əkrəmin (s) vəsiyyət edib, ümmətin vəzifəsini bildirməsinə mane oldular; risalətinin mükafatı olaraq ömrünün son anında o həzrətə xəyanət və söyüş yağdırdılar. Nəsiyyət etməsinə mane olmasaydılar, xilafət işi daha çox inkişaf edər, müsəlmanlar saədətə qovuşar, Rəsulallahın xilafətlə əlaqəli əvvəlki sözləri təsdiqlənmiş, qüvvətlənmiş olardı.

Amma bilindiyi kimi, hiyləgər siyasətçilər bunu başa duşüb, Peyğəmbərin vəsiyyət yazmasına mane oldular».

**Şeyx**: «Həzrət Peyğəmbərin (s) xilafət haqqında yazdırmaq istədiyini haradan bilirsiniz?»

**Dəvətçi**: «Əvvəla; məlum olduğu kimi, o zaman artıq ümmətin hidayətinə vəsilə olacaq açıqlanmamış əhkam və dini qanunlar qalmamışdı. Çünki dinin tamamlandığını bəyan edən ayə nazil olmuşdu. 23 il müddət ərzində söylədiyi xilafət mövzusunu yenidən bəyan etmək istəyirdi. Bu səbəbdən imam Ğəzzali «Sirrül-aləmin»in kitabının 4-cü məqaləsində belə deyir: «Mənə kağız-qələm gətirin, müşküllərinizi aradan aparım və məndən sonra ona (xilafətə) kimin layiq olduğunu xatırladım» və xüsusilə də «məndən sonra, əsla, açmayasınız» cümləsindən ümmətin hidayətiylə əlaqəli mətləblərin yazılacağı aydın olur. Digər tərəfdən ümmətin hidayəti mövzusunda xilafət və rəhbərlikdən başqa bir şeyin qalmadığını da bilirik».

Tutaq ki, biz də Peyğəmbəri-əkrəmin xilafət haqqında nə isə yazdırmaq istədiyini israr etmirik. Amma, şübhəsiz, ümmətin hidayətini və onları zəlalətdən xilas edə biləcək müəyyən mətləbləri yazdırmaq istəyi qətidir. Bu halda niyə mane oldular? Belə fərz edək ki, anlamadıqları üçün mane oldular. Bəs niyə təhqirlə, söyüşlə xəyanət etdilər?

***Gözünüzü açın, qulağınızı açın! Və bu korluq,***
***Allahın göz bağlamasından heyrətdəyəm.***

Uzun-uzadı danışdığım üçün üzr istəyirəm. Qəlbimdə qubarlanan dərdlərdən bir qismini bu naqis dilimlə nəzərinizə çatdırmağa çalışdım.

Bütün bunlardan anlaşıldığı kimi, Əmirəl-möminin imam Əli həzrət Peyğəmbərin vəsisi idi və bu mövzuda, qismən də olsa fikrimizi bildirmişəm. Amma ölüm yatağında vəsiyyəti tamamlamaq üçün onu yazmaqla ümmətin vəzifəsini təyin etmək istəyirdi. Lakin hiyləgər siyasətçilər, Rəsulallahın (s) nə yazacağını çox yaxşı anladıqlarına görə hay-haray salıb, buna mane oldular.

Xüsusilə höccəti tamamlamaq və şübhələri ortadan qaldırmaq üçün bəzi hədislərdə o həzrət (s) belə buyurmuşdur: «Allah-təala Adəm, Nuh, Musa və İsa üçün bir vəsi təyin etdiyi kimi, mənim üçün də Əlini vəsi təyin etdi».

Yenə buyurmuşdur: «Əli məndən sonra Əhli-beytim və ümmətim arasında vəsimdir».

Bütün bunlar, vəsilikdən məqsədin xilafət olduğunu açıq-aydın aşkar edir. Bu halda həzrət Əli Peyğəmbəri-əkrəmin xəlifəsidir».

**Şeyx**: «Bu rəvayətlər səhih olsalar belə, mütəvatir deyillər. Bunları necə sənəd qəbul edirsiniz?»

**Dəvətçi**: «Bizə görə Qurani-kərimin bərabəri olan Əhli-beytdən (ə) gələn rəvayətlər qəti və etibarlıdır. Əvvəlki gecələrdə bəyan etdiyim kimi, alimləriniz də xəbəri-vahidi höccət bilirlər. Daha doğrusu, bundan da başqa əgər bu rəvayltlərdə ləfzi təvatür olmasa da, mənəvi təvatür vardır. Vaxt az olduğu üçün bu anda hamısını yadıma sala bilmədim. Ancaq nəql etdiyim bu bir neçə rəvayətdən də anlaşıldığı kimi, Peyğəmbəri-əkrəm həzrət Əlini xilafət mənasında vəsilik məqamına təyin etmişdir.

Qeyd edim ki, siz təvatürə çox önəm verirsiniz. Bizə cavab verdiyiniz hər yerdə təvatürü irəli çəkirsiniz. Bu halda «Biz peyğəmbərlər miras qoymuruq» hədisinin təvatürünü necə isbat edə bilərsiniz? Sizin dediyinizə görə, bu hədisi Əbu Bəkr və ya Övs ibn Hədsan rəvayət etmişdir və bir neçə nəfər halı məlum mənfəətçilər də bunu təsdiq etmişlər. Amma milyonlarla müvəhhid müsəlmanlar bunu hər zaman rədd etmişlər. Xüsusilə də Xatəmül-nəbinin (s) elm qapısı olan həzrət Əli (ə) və Qurani-kərimin bərabəri sayılan Əhli-beyt (ə) imamlarının inkarı bu hədisin ləğvi üçün ən böyük dəlildir. Bunların hamısı məntiqli dəlillərlə bu hədisin uydurma olduğunu isbat edir. Bu səbəbdən biz də sadəcə bəzisinə işarə etdik.

Dəlillərin ən böyüyü həzrət Əli (ə) və həzrət Fatimənin (s.ə) bilavasitə Əbu Bəkrin hüzurunda bu hədisi inkar etmələridir. Əlbəttə, Rəsulallahın elm qapısı və vəsisi olan həzrət Əli bu hədisi rədd etmişsə, artıq höccət tamamlanmış və bu hədisin uydurma olduğu məlum olmuşdur. Əgər nəbilərin və xüsusilə də Xatəmül-

ənbiyanın miras qoymaq səlahiyyəti yoxdursa, bu halda özlərinə necə varis təyin etmişlər?

Əvvəldən də söylədiyim kimi, Peyğəmbəri-əkrəm (s) belə buyurmuşdur: «Hər nəbinin bir vəsisi və varisi vardır; Əli də mənim vəsim və varisimdir». Maldan mirası olmadığı bir vəsi və varisin heç bir mənası yoxdur. Əgər maldan mirası olduğunu isbat edən bu qədər elmi və əqli dəlillərə baxmayaraq, elmi-mirasın qəst edildiyini bəyan edirsinizsə, onda bu iddiamız daha yaxşı isbat olur. Çünki Peyğəmbəri-əkrəmin (s) elmi varisi, bu elmə sahib olmayanlardan xilafət məqamına daha layiqdir!

İkincisi; Allah-təalanın həzrət Əlini bu məqama təyin etdiyi, Peyğəmbəri-əkrəmin də Onu vəsi və varis qərar verdiyi, alimlərinizin də bu hədisləri nəql etdiyi bir halda, necə ola bilər ki, belə bir hədisi ixtilaf düşməsin deyə, məhz vəsisinə yox, başqalarına söyləmiş olsun?

Çox qəribədir, həzrzt Əli hər hansı bir məsələdə qəzavət etdikdə, Ömər və Əbu Bəkr hökmlərdən xəbərsiz olduqları halda, Onun sozünü təsdiq edərək, dediklərinə əməl edirdilər.

Möhtərəm alimləriniz və tarixçiləriniz də həzrət Əlinin Əbu Bəkr, Ömər və Osmanın xilafəti dövründə verdiyi hökmləri nəql etmişlər. Amma nə üçünsə bu xüsusda həzrət Əlinin sözünü qəbul etmədilər, hətta həqarət etdilər və insanın dilinə gətirməyə belə utandığı sözləri söylədilər».

**Hafiz**: «Xəlifələrin dini hökmləri bilmədiklərini və hökmləri onlara Əlinin (ə) xatırlatdığını söyləməyiniz çox gülüncdür».

**Dəvətçi**: «Təəccüblü bir şey yoxdur, bütün hökm və qaydaları qavramaq, həqiqətən çox çətindir. Peyğəmbər (s) və ya Onun elm qapısından başqa, normal bir insanın bütün hökm və bəndləri kamil bir şəkildə bilmək imkanı yoxdur. Bunu təkcə mən demirəm, sizin alimləriniz də mötəbər kitablarında nəql etmişlər. Xəyanət etdiyimizi sanmasınlar deyə, mövzunun aydınlaşması üçün bu hadisələrdən sadəcə bir nümunə zikr etmək istəyirəm.

# ALTIAYLIQ UŞAQ DOĞURAN QADIN HAQQINDA HƏZRƏT ƏLİNİN (Ə) VERDİYİ HÖKM

İmam Əhməd Hənbəl «Müsnəd»də İmamül-Hərəm Əhməd ibn Abdullah Şafei «Zəxairul-üqba»da, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhin»də, Şeyx Süleyman Hənəfi «Yənabiul-məvəddə»nin 56-cı babında, Əhməd ibn Abdullah, Əhməd ibn Hənbəl, Qəli və İbn Simandan belə rəvayət edirlər: «Ömər altıaylıq bir uşaq doğan qadını daşqalaq etmək istəyirdi. Bunu görən Əli (ə) belə buyurdu: «Allah-təala Quranda buyurur: «**Hamiləlik və süddən kəsilmə müddəti 30 aydır. Süddən kəsilmə 2 il, hamiləlik müddəti isə 6 aydır**»[1]. Buna görə Ömər o qadını daşqalaq etməkdən daşındı və belə dedi: «Əli olmasaydı, Ömər həlak olardı».

Eyni babda Əhməd ibn Hənbəlin «Mənaqib»indən belə rəvayət edir: «Ömər ibn Xəttab bir çətinliklə qarşılaşdıqda hökmü həzrət Əlidən öyrənirdi».

Bu cür hadisələr Əbu Bəkr, Ömər və Osmanın xilafəti dövründə olduqca çox olmuşdur. Qarşılarına bir müşkül məsələ çıxdıqda həzrət Əlinin (ə) verdiyi hökmə görə əməl edirdilər.

Ağalar bir az düşünün. Sizcə qəribə deyilmi? Başqa hər hökmü qəbul etdikləri halda həzrət Əlinin miras haqqındakı hökmünü qəbul etmədilər; hətta təhqirə yol verdilər. Hay-küy salaraq, məzlum Zəhranın (s.ə) haqqını əlindən aldılar.

Bu hədisin uydurma olduğunun üçüncü dəlili də bilavasitə Əbu Bəkrin öz əməlidir. Əgər bu hədis doğru olmuş olsaydı, Peyğəmbəri-əkrəmdən qalan hər şeyin toxunulmazlığı təmin olunardı. Amma bildiyimiz kimi, xəlifə Fatimənin (s.ə) hücrəsini özünə verdi, Aişə və Həfsənin hücrələrini də miras babından özlərinə verdi. Bu ziddiyyətli deyilmi? Bəzisinə inanıb, bəzisini inkar etmək deyilmi? Əgər bu hədis səhih idisə və Rəsulallahın söylədiyinə qəti inanmışdılarsa, o halda nəyə görə Əbu Bəkr Fədəki müsadirə etdikdən sonra məktub yazaraq Fədəki Fatiməyə (ə) qaytardı? Amma Ömər mane olaraq həmin məktubu alıb cırdı».

**Hafiz**: «Bunu təzə eşidirəm. Əbu Bəkrin Fədəki həzrət Fatiməyə geri qaytardığı harada yazılmışdır?»

---

[1] Yəni uşaq altıaylıq doğula bilər. Çünki hamiləliyin ən qısa müddəti 6 aydır.

# ƏBU BƏKRİN FƏDƏKİ FATİMƏYƏ (S.Ə) GERİ QAYTARMASI VƏ ÖMƏRİN BUNA MANE OLMASI

**Dəvətçi**: «Zənnimcə, heç bir halda sənədsiz danışmadığımı artıq bilirsiniz. Heyfslər olsun ki, siz çox az oxuyursunuz. İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhində, Əli ibn Burhanəddin Şafei «Tərhi Sirətil-Hələbiyyə»nin 3-ci cildinin 391-ci səhifəsində belə yazır: «Əbu Bəkr Fatimənin (s.ə) sözlərindən təsirləndi və ağladı. (əlbəttə, bu hadisə, bir neçə gün sonra Əbu Bəkrin evində baş verdi) Sonra Fədəkin həzrət Fatiməyə geri qaytarılması haqda yazılı surətdə hökm verdi. Ancaq məlum olduğu kimi, Ömər məktubu alıb cırdı».

Qəribə budur ki, o gün məktubu cıran və Fədəkin geri verilməsinə etiraz edən Ömər öz xilafəti dövründə Fədəki geri qaytardı və Ömərdən sonrakı Əməvi və Abbasi xəlifələri də Fədəki Fatimənin (s.ə) varislərinə verdilər».

**Hafiz**: «Çox qəribə şeylər bəyan edirsiniz. Sizin dediyiniz kimi Fədəkin geri verilməsinə qarşı çıxan və əlaqəli məktubu cıran Ömər necə olur ki, bilavasitə özü Fədəki yenidən Fatimənin (s.ə) varislərinə qaytarır?»

Dəvətçi: «Təəccüblənməkdə haqlısınız, çünkü oxumamısınız, görməmisiniz; bilavasitə alimlərinizin sənədllrindən Fədəki alıb geri qaytaran xəlifələri sizlərə söylədikdə də təəccüb etməyin və bizim haqlı olduğumuzu bilin.

# XƏLİFƏLƏRİN FƏDƏKİ FATİMƏNİN (S.Ə) ÖVLADLARINA GERİ QAYTARMA SI

Mədinənin tanınmış tarixçisi Əllamə Səmiudi (ö/t: 921) «Tarixül-Mədinə» və Yaqut ibn Abdullah Rumi Həməvi «Mucəmul-buldan» kitabında belə rəvayət edir: «Əbu Bəkr xilafəti dövründə Fədəki müsadirə etdi. Amma Ömər öz xilafəti dövrundə onu Əli (ə) və Abbasa geri qaytardı».

Əgər Əbu Bəkr Rəsulallahın (s) əmrinə əsasən Fədəki müsadirə etmişdisə, o zaman Ömər hansı haqla onu Əliyə (o) verdi?»

Şeyx: «Bəlkə, müsəlmanlara məsrəf etmək səbəbi ilə, səlahiyyəti çatan bir müsəlman kimi həzrət Əlinin (o) ixtiyarına qoymuşdur».

**Dəvətçi**: «Bu dediyiniz, sahibinin də qəbul etmədiyi bir nəzərdir. Çünki xəlifənin belə bir niyyəti yox idi. Əgər belə olmuş olsaydı, tarixdə qeyd olunardı. Tarixçiləriniz Ömərin Fədəki Əli (ə) və Abbasa verdiyini qeyd etmişlər. Həzrət Əli (ə) də Fədəki bir müsəlman fikrində yox, məhz miras hökmündə geri aldı; dediyiniz səlahiyyəti çatan bir müsəlman o niyyətlə də vermədi! Bundan başqa, bir müsəlmanın bütün müsəlmanların haqqına əl qoymaq səlahiyyəti yoxdur!»

**Şeyx**: «Bəlkə də, məqsəd Ömər ibn Əbdüləzizdir».

## ÖMƏR İBN ƏBDÜLƏZİZİN FƏDƏKİ GERİ QAYTARMASI

**Dəvətçi**: «(Gülümsəyərək) Əli (ə) və Abbas Ömər ibn Əbdüləzizin xilafəti dövründə yaşamamışdır! Ömər ibi Əbdüləzizin məsələsi başqadır. Bu səbəbdən Əllamə Səmhudi «Tarixül-Mədinə»də və İbn Əbilhədid «Nəhcül-bəlağənin şərhi» 4-cü cildinin 81-ci səhifəsində (Misr çapı) Əbu Bəkr Cövhəridən belə rəvayət edir: «Ömər ibn Əbdüləziz xilafətə gəldikdə Mədinədəki varisinə bir məktub yazaraq, Fədəki Fatimənin (s.ə) övladlarına verməsini əmr etdi. Buna görə də vali, Həsən ibn Həsəni-Müctəbanı (ə) və ya Həzrət Əli ibn Hüseyni (ə) yanına çağıraraq Fədəki ona qaytardı».

İbn Əbil-Hədid eyni səhifənin ilk sətirində belə yazmışdır: «Bu, Fatimənin (s.ə) övladlarına geri qaytarılan ilk haqq idi ki, zülmlə qarət olunmuşdu. Bir müddət sonra Yezid ibn Əbdülməlik yenidən Fədəki alaraq Əməvilərin mülkiyyətinə çevirdi. İlk Abbasi xəlifəsi olan Abdullah Səffah Fədəki yenidənhəzrət Həsənin (ə) övladlarına verdi. Onlar da miras haqqı olaraq (Fədəkdən gələn gəliri) Fatimə (ə) övladları arasında bölüşdürürdülər».

## ABDULLAH, MEHDİ VƏ MƏMUNUN FƏDƏKİ FATİMƏ (S.Ə) ÖVLADLARINA YENİDƏN GERİ QAYTARMASI

Həsən oğulları Mənsurun əleyhinə qiyam etdikdə, o, Fədəki onların əlindən aldı. Oğlu Mehdi xəlifə olduqda, təkrar Fədək Fatimə (s.ə) övladlarına qaytarıldı. Musa ibn Hadi xəlifə olduqda Fədək yenidən qəsb edildi. Məmun xəlifə olduqda isə onu yenidən Əlinin (ə) övladlarına qaytardı. Yaqut Həməvi «Mucəmul-buldan»ın (İlk nəşri) «F-D» hərfində Məmunun Mədinə valisi Qəsəm ibn Cəfərə ünvanladığı məktubda bunları yazdığını qeyd etmişdir: «Rəsulallah Fədəki qızı Fatiməyə bağışladı. Bu, onun övladları arasında da məşhur və məlum bir şeydir».

Məmun Fədəkin qaytarılmasını bəyan etdiyi mərasimdə məşhur şair Debel Xəzai bir şer söyləmişdir. O şerin ilk beyti bundan ibarətdir:

***Bu gün zamanın çöhrəsi güldü,***
***Məmun Fədəki Haşimilərə verdi.***

## FƏDƏKİN HƏDİYYƏ OLDUĞUNUN İSBATI

Möhkəm dəlillərlə isbat edilmişdir ki, Fədək həzrət Fatimənin (s.ə) mülkiyyəti olmuşdur. Ancaq məlum olduğu knmi, sonradan qəsb edilmişdir. Buna görə də bəzi xəlifələr insaflı olduqlarına və ya dövrün siyasi tələblərinə görəmi onu Fatimənin (ə) övladlarına qaytardılar».

Hafiz: «Əgər Fədək Fatiməyə (s.ə) Rəsulallah (s) tərəfindan bağışlanmış mülkiyyət idisə, onda nəyə görə miras iddiasında idi?»

**Dəvətçi**: «Həzrət Fatimə əvvəlcə Fədəkin Rəsulallah tərəfindən ona bağışlandığını söylədi. Amma İslam hökmlərinin əksinə olaraq şahid istədilər. Şahidləri gəldikdə isə yeni şəri hökmlərin əksinə olaraq şahidlər rədd edildi. Bu səbəbdən miras yoluyla haqqını əldə etməyə çalışdı».

**Hafiz**: «Zənnimcə yanılırsınız; çünki həzrət Fatimə heç bir yerdl Fədəkin ona bağışlandığı haqda söz açmamışdır».

**Dəvətçi**: «Xeyr! Heç də yanılmıram, hətta yəqinim vardır. Təkcə şiə kitablarında deyil, alimlərinizin kitablarında da açıq-aydın qeyd olunmuşdur: Əli ibn Burhanəddin Hələbi Şafei (ö/t: 1044) «Sirətul-Hələbiyyə» kitabının 39-cu səhifəsində belə deyir: «Həzrət Fatimə ilk əvvəl mülkiyyət sahibi olduğu, Peyğəmbəri-əkrəmin Fədəki ona bağışladığı mövzusunda Əbu Bəkr ilə mübahisə etdi. Şəriət baxımından şahidləri olmadıqda, miras iddiasıyla haqqını tələb etdi!»

Buyurulduğu kimi, miras iddiası hədiyyə iddiasından sonradır. İmam Fəxrəddin Razi «Təfsiri-kəbir» kitabının «Fatimənin (s.ə) iddiası» babınında, Yaqut Həməvi «Mucəmul-buldan»da, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 4-cü cildinin 80-cı səhifəsində Əbu Bəkr Cövhəridən nəql edərək və mütəəssib İbn Həcər də «Səvaiqul-muhriqə»nin 21-ci səhifəsində «Rafizilərin şübhələrindən 7-ci şubhə»dən söz açarkən belə nəql edir: «Fatimə (s.ə) ilk əvvəl Fədəkin bir hədiyyə olduğu iddiasında idi. Şahidləri rədd edildikdən sonra narahat olub belə buyurdu: «Artıq sizinlə danışmayacağam».

Fatimə (s.ə) artıq o gündən sonra onlarla görüşmədi və danışmadı[1]. Vəfatından əvvəl vəsiyyət etdi ki, onlardan heç biri cənazəsinə namaz qılmasın. Əmisi Abbas cənazə namazını qıldı və onu gecə ikən dəfn etdilər»[2].

## «ƏBU BƏKR ŞƏHADƏTAYƏSİNƏ ƏSASƏN ƏMƏL ETDİ» İRADI VƏ ONUN CAVABI

Hafiz: «Həzrət Fatimənin inciməsi və narahat olmasında şəkk-şübhə yoxdur. Amma Əbu Bəkri də çox günahkar saymaq olmaz. Çünki Əbu Bəkr şəri hökmlərə tabe olmaq məcburiyyətində idi. Həzrət Fatimə iddiasının isbatı üçün iki kişi və ya bir kişi ilə iki qadın və ya iki kişini əvəz edən dörd qadın şahid gətirmək məcburiyyətində idi. Yetərli şahid gətirə bilmədiyi üçün artıq onun xeyrinə hökm verə bilmədilər».

---

[1] Hətta əhli-sünnətin böyük alimlərindən olan İbn Təymiyyə, İbn Qəyyim və digərləri Rəsulallahın (s) Fədəki Fatiməyə (s.ə) bağışladığını iddia edir.

[2] Amma şiə rəvayətlərinə və Əhli-beytin (ə) buyurduqlarına görə cənazə namazını həzrət Əli (ə) qılmışdır.

**Dəvətçi**: «İndi söz uzana bilər. Ağaları yormamaq üçün bəlkə bəhsimizi sabah axşama qoyaq?».

**Nəvvab**: «Qibləsahib! Bizim xüsusilə öyrənmək istədiyimiz əhəmiyyətli mövzulardan biri də bu idi; əgər yorulmamısınızsa, davam etdirin. Çünki sözü yarıda qoysanız diqqətimiz yayınar. Sabaha qədər uzansa belə, biz tərəfdən bir çətinlik yoxdur. Tam bir şövq və istəklə sözlərinizi dinləməyə hazırıq. Bu məsələni həll etməyincə getməyəcəyik! Mövzunu tam incəliyinə qədər söyləyin. Yox, əgər həqiqətən yorğunsunuzsa, onda sizi narahat etmək istəmərik».

**Dəvətçi**: «Mən elmi və dini mövzularda, əsla, yorulmaram; məclisdə iştirak edən qardaşlara görə narahatam. Çünki digərlərinin də vəziyyətini nəzərə almaq lazımdır».

(Orada iştirak edənlərin hamısı birağızdan yorulmadıqlarını bildirdilər, xüsusilə Fədək mövzusunda. Çünki eşidilməli və mühüm bir mövzudur ki, hamımız istəyirik)

**Dəvətçi**: «Hafiz ağa xəlifənin şəri hökmlərə əsasən yetərli şahid göstərilmədiyindən həzrət Fatimənin xeyrinə hökm vermədiyini söylədi. Mən burada bir neçə məsələ haqqında söz açmaq istəyirəm, siz ağalar də hökm verin.

## MÜLKİYYƏT SAHİBİNDƏN ŞAHİD İSTƏMƏK ŞƏRİƏTƏ ZİDDİR

Əvvəla; əgər Əbu Bəkr dediyiniz kimi şəri hökmləri həyata keçirmək məcburiyyətində idisə, onda söyləyin görək, şəriətin harasında müfəsərrifdən (mülkiyyət sahibi) şahid gətirmək tələb olunmuşdur? Bu məsələdə hər iki tərəfin rəyi sabitdir ki, Fədək həzrət Fatimənin mülkiyyətində idi. Əbu Bəkrin Fatimeyi-Zəhradan şahid istəməsi dinin hansı qanunlarına görədir? Şəri hökmlərə görə mülkiyyət sahibi yox, iddia edən şahid göstərməlidir! Görəsən, xəlifənin bu əməli şəri hökmlərə zidd deyilmi? Siz insafla hökm verin.

İkincisi; Şəhadət ayəsinin ümumiliyini kimsə inkar etmir. Amma məlum olduğu kimi «bütün ümumilər xüsusiləşə bilər» qaydasına görə bu ayə də istisna və məxsus oluna bilər».

**Hafis:** «Hansı dəlilə görə Şəhadət ayəsinin məxsus oluna biləcəyini buyurursunuz?»

## «ZUŞ-ŞƏHADƏTƏYN» LƏĞƏBLİ XUZEYMƏ

**Dəvətçi**: «Bu mənanın ən böyük dəlili sizin mötəbər «Səhih» kitablarınızda da rəvayət edilmişdir: Xuzeymə at alverində bir ərəb kişi üçün Peyğəmbəri-əkrəmin (s) hüzurunda iddiaçı qərar verilmişdir. Rəsulallah Xuzeymə ibn Sabitin şəhadətini iki nəfərin şəhadəti yerinə qəbul etmişdir və onu «Zuş-Şəhadətəyn» (iki şəhadət sahibi) adlandırmışdır. Bu halda Şəhadət ayəsi də məxsus oluna bilər. Xuzeymə kimi mömin bir səhabə bu ayəni məxsus edə bildiyinə görə, Təthir ayəsi hökmünə əsasən məsum olan Əli (ə) və Fatimə (s.ə) də istisna edilə bilərlər. Bu məsum insanlar, əsla, iftira və yalan söyləməzlər! Onları rədd etmək Allah-təalanı rədd etmək kimidir.

## FATİMƏNİN (Ə) ŞAHİDLƏRİNİN RƏDD EDİLMƏSİ

Həzrət Fatimə Fədəkin öz mülküyyəti olduğunu söylədi. Atasının həyatda ikən Fədəki ona bağışladığını və o gündən bəri həmin ərazinin sahibi olduğunu bəyan etdi. Bildiyiniz kimi, şəri hökmlərin tam əksinə olaraq, ondan şahid istədilər. Həzrət Fatimə də həzrət Əli, Ummü-Əymən və övladları Həsən və Hüseyni şahid qismində gətirdi. Əbu Bəkr isə bunların şəhadətini qəbul etmədi. Görəsən, onların bu əməli, həqiqətdə şəri qaydalara zidd deyilmi? Həzrət Zəhranın bundan başqa heç bir dəlili olmasaydı belə, bu, şəriətə görə həqqaniyyəti üçün yetərli idi!

Məlumunuz olsun ki, Quran da həzrət Fatimənin paklığına şahidlik etmiş və Onun hər cür pislikdən uzaq olduğunu bildirmişdir. Yalan və haqsız iddia etmək də o cümlədəndir. (yəni həzrət Fatimə bunlardan uzaqdır)

Xüsusilə də həzrət Əli kimi kamil bir şahid, həzrət Fatimənin (ə) həqqaniyyətinə şahidlik etdi. Həzrət Əlinin şahidliyini rədd etmək Allah-təalanı rədd etməkdir. Çünki Əliyyu-Əla olan Allah-təala Quran ayələrində həzrət Əlini sadiq və siddiq olaraq tanıtmışdır. Allah-təalanın təsdiq etdiyi bir kəsin şahidliyini hansı cürətlə rədd etdilər?!

Quran Əli (ə) ilə birlikdə olmağı, yəni Ona itaəti əmr edir. Sədaqətinin çox olduğundan düzlük abidəsi olmuş və sadiq olaraq zikr edilmişdir. Bu səbəbdən Allah-təala Quranda belə buyurur:

**1. «Ey iman gətirənlər! Allahdan çəkinin və sadiqlərlə (doğrularla) birlikdə olun»[1].**

**Hafiz**: «Bu ayənin sizin məqsədiniz və Əliyə itaət etməyin vacib olması ilə nə əlaqəsi vardır?»

## «SADİQLƏR»DƏN MƏQSƏD PEYĞƏMBƏR (S) VƏ ƏLİDİR (Ə)

**Dəvətçi**: «Möhtərəm alimləriniz təfsir və digər kitablarında bu ayənin Məhəmməd (s) və Əli (ə) haqqında nazil olduğunu qeyd etmişlər. Burada «sadiqlər» (doğrular) dedikdə məqsədin həzrət Məhəmmədlə həzrət Əli, bəzi rəvayətlərdə imam Əli, bəzi rəvayətlərdə isə Əhli-beyt olduğu yer almışdır.

İmam Sələbi «Kəşfül-bəyan» təfsirində, Cəlaləddin Siyuti «Dürrül-Mənsur»da İbn Abbasdan, Hafiz Əbu Səd Əbdülməlik ibn Məhəmməd Xərquşi «Şərəfül-Mustafa»da Əsməidən və Hafiz Əbu Nəim İsfahani isə «Hilyətul-övliya»da Rəsulallahın (s) belə buyurduğunu rəvayət edir: «Bu ayədəki «sadiqlər»dən məqsəd Məhəmməd və Əlidir».

Şeyx Süleyman Hənəfi də «Yənabiul-məvəddə»nin (İstanbul nəşri) 39-cu babının 119-cu səhifəsində Müvəffəq ibn Əhməd Xarəzmidən, Hafiz Əbu Nəim İsfahani və Həmuyinidən nəql edərək İbn Abbasın belə dediyini rəvayət edir: «Bu ayədəki «sadiqlər»dən məqsəd həzrət Məhəmməd və Əhli-beytidir».

---

[1] “Tövbə”surəsi, ayə:119

Böyük alimlərinizdən olan İbrahim ibn Məhəmməd Həmuyini «Fəraidus-simtəyn»də, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib»in 62-ci babında, Mühəddisi-Şam isə «Tarix» kitabında sənədi ilə belə rəvayət edir: «Sadiqlərlə birlikdə olun. Yəni Əli ibn Əbu Taliblə birlikdə olun».

2. «**Haqqı (Quranı) gətirən və onu təsdiq edən (Peyğəmbər və möminlər) isə təqva sahibi olanlardır**»[1].

Cəlaləddin Siyuti «Dürrül-Mənsur»da, Hafiz ibn Mərdəviyə «Mənaqib»də, Hafiz Əbu Nəim «Hilyətul-övliya»da, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib»in 62-ci babında, İbn Osakir «Tarix»də bir qrup təfsir əhlindən, onlar da İbn Abbas və Mücahiddən belə nəql etmişlər: «Ayədəki «doğrunu gətirən»dən məqsəd həzrət Məhəmməd (s), «onu təsdiq edən» isə Əli ibn Əbu Talibdir (ə)».

3. «**Allaha və Onun Rəsuluna iman gətirənlər; məhz onlar Rəbblərinin dərgahında siddiqlər və şəhidlik mərtəbəsinə yetişənlərdir. Onların mükafatları və nurları vardır**»[2].

İmam Əhməd ibn Hənbəl «Müsnəd»də, Hafiz Əbu Nəim İsfahani «Ma nəzələ min əl-Qurani fi Əliyyin»də İbn Abbasdan bu ayənin həzrət Əli haqqında nazil olduğunu və o həzrətin də siddiqlərdən olduğunu nəql etmişlər.

4. «**Kim Allaha və Rəsuluna itaət edərsə, onlar Allahın lütfü ilə peyğəmbərlər, siddiqlər, şəhidlər və saleh kişilərlə bərabərdir. Nə gözəl dostlardır onlar!**»[3]

Ayədəki «siddiqlər»dən məqsəd həzrət Əlidir (ə). Sünni və şiə mənbələrində nəql edilən saysız-hesabsız rəvayətlər imam Əlinin ümmətin siddiqi (doğrusu), hətta siddiqlərin ən üstünü olduğunu vurğulayır.

---

[1] "Zümrə" surəsi, ayə: 33
[2] "Hədid" surəsi, ayə: 19
[3] "Nisa" surəsi, ayə: 69

# HƏZRƏT ƏLİ (Ə) SİDDİQLƏRİN ƏN ÜSTÜNÜDÜR

Fəxri Razi «Təfsiri-kəbir»də, Sələbi «Kəşfül-bəyan»da, Cəlaləddin Siyuti «Dürrül-Mənsur»da, Əhməd ibn Hənbəl «Müsnəd»də, İbn Şiyrvəyh «Firdovs»da, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 2-ci cildinin 451-ci səhifəsində, İbn Məğazəli Şafei «Mənaqib»də, İbn Həcər Məkki «Səvaiq»də həzrət Əlinin (ə) fəzilətləri haqqında rəvayət etdiyi 40 hədisin 30-cu hədisində Buxaridən o da İbn Abbasdan (son cümlədən başqa) nəql edərək həzrət Peyğəmbəri-əkrəmin (s) belə buyurduğunu rəvayət etmişdir: «Siddiqlər (doğrular) üç nəfərdir: Firon ailəsinin mömini Həzqil, Yasin ailəsinin mömini Həbibi-Nəccar və onların ən üstünü olan Əli ibn Əbu Talib».

Şeyx Süleyman Bəlhi Hənəfi «Yənabiul-məvəddə»nin 42-ci babının əvvəlində imam Əhmədin «Müsnəd»indən nəqlən, Əbu Nəim, İbn Məğazəli və Xarəzmi «Mənaqib»də Əbu Leyli və Əbu Əyyub Ənsaridən nəql edərək, İbn Həcər Məkki «Səvaiq»də 40 hədisin 31-ci hədisində Əbu Nəimdən nəql edərək, İbn Əsakir Əbu Leylidən nəql edərək, Məhəmməd ibn Yusif Gənci «Kifayətut-Talib»in 24-cü babında sənədilə Əbu Leyladan rəvayət edir. Rəvayətin sonunda belə deyir: «Mühəddisi-Şam öz «Tarix»ində və Hafiz Əbu Nəim «hilyətul-övliya» kitabının həzrət «Əlinin (ə) əhvalatının tərcüməsi»ndə həzrət Məhəmmədin (s) belə buyurduğunu rəvayət edir: «Siddiqlər (doğrular) üç nəfərdir: Yasin ailəsinin mömini Həbibi-Nəccar (belə dedi: «Ey qövmüm Allahın elçilərinə itaət edin»), Firon ailəsinin mömini Həzqil (belə dedi: «Görəsən «Allah rəbbimdir» deyən bir kimsənimi öldürəcəksiniz?!») və onların ən üstünü olan Əli ibn Əbu Talib».

Həqiqətən qəribədir, adət və təəssüb necə də elm və insafınızı məğlub etmişdir! Bilavasitə özünüzün nəql etdiyi bir çox rəvayətlər də Quran ayələri kimi həzrət Əlinin siddiqlərin ən üstünü olduğunu sübut edir, bununla belə başqalarına siddiq deyirsiniz. Lakin bir ayə belə onların siddiq olduğuna dair nəql edilməmişdir.

Allah eşqinə bir az insaflı olun və adətlərinizi bir kənara qoyun. Görəsən Qurani-kərimin siddiqlərdən olduğunu soylədiyi və ona itaət olunmasını əmr etdiyi

bir şəxsin şəhadətinin rədd edilməsi və hətta ona qarşı həqarət edilməsi doğrudurmu? Görəsən Rəsulallahın: «Bu, ümmətin siddiqidir»,-deyə şahidlik etdiyi və Qurani-kərimin də sədaqətini təsdiqlədiyi bir şəxsin yalandan şahidlik etməsini ağıl qəbul edərmi?!

## ƏLİ (Ə) HAQQ VƏ QURANLADIR

Peyğəmbəri-əkrəm (s): «Əli haqq ilədir, haqq da Əli ilə birlikdəlir»,-deyə buyurmamışdırmı?

Rəsulallahın (s) buyurduğu: «Əli Quran ilədir, Quran da Əli ilədir; bu ikisi hovuzun başında yanıma gələnə qədər bir-birindən ayrılmazlar» hədisini sizin alimlərinizin bəzisi Ümmü Sələmə, bəzisini Aişə, bəzisi də Məhəmməd ibn Əbu Bəkrdən nəql edərək yazmışlar. Məsələn: Xətib Bağdadi: «Tarixi-Bağdadi», c: 4, səh: 321; Hafiz ibn Mərdəviyə: «Mənaqib»; Deyləmi: «Firdovs»; Hafiz Heysəmi: «Məcməuz-zəvaid», c: 7, səh: 236; İbn Qutəybə: «Əl imamətu vəs-siyasət», c: 1, səh: 68; Hakim Əbu Abdullah Nişaburi: «Müstədrək» c: 3, səh: 124; İmam Əhməd ibn Hənbəl: «Müsnəd»; Təbərani: «Ovsət»; Xətib Xarəzmi; «Mənaqib»; Fəxri Razi: «Təfsir», c: 1, səh: 111; İbn Həcər Məkki: «Camius-Səğir», c: 2, səh: 74, 75, 140, Səvaiq», bab: 9, fəsil: 2 (həzrət Əlinin (ə) fəzilətləri haqqındakı hədislərin 21-ci hədisində Ovsəddən, o da Ümmü Saləmədən nəqlən), Şeyx Süleyman Bəlxi Hənəfi: «Yənabiul-məvəddə», bab: 20; «Cəmul-Fəvaid», «Ovsəd», «Səğiri-Təbərani», «Fəraidi-Həmuyini», «Mənaqibi-Xarəzmi» və «Rəbiul-əbrar»; Məhəmməd ibn Yusif Gənci Şafei: «Kifayətut-Talib» və s.

Zaməxşəri Ümmü-Sələmə və İbn Abbasdan, həmçinin «Yənabiul-məvəddə» kitabından, Cəlaləddin Siyutinin «Camius-Səğir» kitabının 65-ci babının 185-ci (İstanbul çapı) və eləcə də 116-cı səhifəsi və «Tarixül-xüləfa»dan va eləcə də 358-ci səhifədə, «Feyzül-Qədir»in 4-cü cildindən İbn Abbasdan nəql edərək 237-ci səhifəsində, «Mənaqibus-Səbih»in 44-cü hədisindən «Sahibi-Firdovs»dan nəqlən 283-cü səhifəsində, 59-cu babın əvvəlində «Səvaiq»in 2-ci fəslindən - Ümmü

Sələmədən nəql edərək və bəziləri isə bu ibarə ilə rəvayət etmişlər: «Haqq Əli ilədir, Əli də haqq ilə; bunlar, əsla, bir-birlərindən ayrılmazlar».

İbn Hacər «Səvaiq»in 9-cu babının 2-ci fəslin axırının 77-ci səhifəsində Xatəmül-ənbiyanın (s) ölüm yatağında belə buyurduğunu ravayət edir: «Mən sizin aranızda Allah-təalanın Kitabını və itrətim olan Əhli-beytimi qoyuram».

Sonra həzrət Əlinin (ə) əlindən tutub qaldıraraq belə buyurdu: «Bu Əli Quran ilədir və Quran da Əli ilədir; bunlar hovuzun kənarına gələnə qədər bir-birindən ayrılmazlar. Mən onların hər ikisindən xilafət məqamını soruşacağam».

Yenə ümumiliklə Peyğəmbəri-əkrəmin (s) belə buyurduğunu nəql edirlər: «Əli haqq ilədir, haqq da Əli ilədir; Əli haraya dönərsə haqq da onunla dönər».

Səbt ibn Cövzi «Təzkirətu xəvassil-ümmə» kitabının 20-ci səhifəsində - Qədir hədisinin əvvəlində Rəsulallahın (s) bela buyurduğunu nəql edir: «Allahım, Əli haraya va necə dönərsə haqqı Onunla döndər».

İbn Cövzi qeyd edilən hədis haqqında nəzərini belə deyir: «Bu hədis, Əli ilə əshabdan olan bir kəsin arasında ixtilaf olduqda haqqın Əli ilə olduğuna dəlalət edir».

## ƏLİYƏ (Ə) İTAƏT, ALLAHA VƏ PEYĞƏMBƏRƏ (S) İTAƏTDİR

Bu zikr etdiyim kitablardan əlavə, digər mötəbər kitablarınızda da nəql edildiyinə görə Peyğəmbəri-əkrəm (s) bir çox yerdə fərqli ibarələrlə belə buyurmuşdur: «Əliyə itaət edən mənə itaət etmişdir, mənə itaət edən isə Allaha itaət etmişdir. Əlmnm inkar edən məni inkar etmişdir, məni inkar edən də Allahı inkar etmişdir». Əbülfəth Məhəmməd ibn Əbdülkərim Şəhristani «Miləl və Nihəl» kitabında Rəsulallahın belə buyurduğunu nəql edir: «Əli bütün hallarda haqdır; hansı tərəfə dönərsə-dönsün haqq Onunla dönər».

Bu qədər mötəbər kitablarınızda yer alan açıq rəvayətlərə baxmayaraq, Əlini (ə) rədd və ya inkar etmək, Ondan üz çevirmək Allah-təala və Rəsulunu (s) rədd və inkar etmək, haqq və həqiqətdən üz çevirmək deyilmi?

Əbülmüəyyid Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib»də, Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul»da və İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabında Peyğəmbəri-əkrəmin (s) açıq-aydın belə buyurduğunu rəvayət edir: «Əliyə hörmət edən mənə hörmət etmişdir, mənə hörmət edən də Allah-təalaya hörmət etmişdir. Əliyə xəyanət edən mənə xəyanət etmişdir, mənə xəyanət edən də Allah-təalaya xəyanət etmişdir».

## İNSAF VƏ ƏDALƏTLƏ QƏZAVƏT EDİN

İnsaflı ağalar, baş verən hadisələri öz kitablarınızda mövcud olan bu qədər rəvayət və hədislərlə müqayisə edərək ədalətlə hökm edin və günahsız şiələrə pis nəzərlərlə baxmayın.

«Xəlifə şəriətin zahirinə görə hökm etməyə məcbur idi və Şəhadət ayəsi ümumi olduğu üçün də şəriətin qəbul etdiyi şahidlər olmadan sadəcə bir iddiaya görə müsəlmanların malını Fatiməyə verə bilməzdi» sözünüzə gəlincə; əvvəl də söylədiyim kimi, bu mal müsəlmanların malı deyildi. Həzrət Fatiməyə bağışlanmış, Onun sərəncamında olan bir mülk idi. Xəlifə bir az ehtiyat edib nurlu şəriətimizin qanunlarına zidd getməyərək malı əlində olan şəxsdən şahid istəməməli idi.

İkincisi; əgər xəlifə həqiqətən şəriət hökmlərini icra edən idisə, bir tük qədər şəriət hökmlərinə zidd davranmaması lazım gəlirdi. Bu halda nəyə görə ayrıseçkilik edərək bəzi şəxslərə, şahidləri olmadan, müsəlmanların malından onlara verirdi? Bu hökm və xəlifənin ehtiyatı təkcə Peyğəmbəri-əkrəmin (s) əmanəti olan məzlum Fatimə (s.ə) haqqında idimi?! Halbuki, həzrət Fatimənin sözünün doğruluğu və həzrət Əlinin şahidliyi hamı üçün aydın və bəlli idi.

İbn Əbil-Hədid «Nəhcül bəlağənin şərhi»nin 4-cü cildinin 105-ci səhifəsində belə deyir: «Bağdadın qərb mədrəsəsinin ustadı Əli ibn Ğariqidən: «Fatimə doğru danışandırmı?»,-deyə soruşdum. Cavabında: «Bəli»,-dedi. Mən: «Əgər doğru danışandırsa, bu halda xəlifə nə səbəbdən Fədəki ona vermədi?»,-deyə soruşduqda, təbəssümlə edərək söz ustası olmadığı halda gözəl bir söz söylədi: «Əgər o gün

Fatimənin iddiasına görə Fədək ona qaytarılsaydı, sabahı gün gəlib əri üçün xilafəti tələb edəcəkdi. Belə olduqda, xəlifə haqqı haqlıya verməyə məcbur olacaqdı. Çünki əvvəldən onun sədaqətini bilirdi».

Bu mövzu alimlərinizin nəzərində qaranlıq deyil; insafı olan hər kəs həqiqəti olduğu kimi təsdiq etmişdir. İlk gündən haqq məzlum Fatimə (s.ə) ilə idi. Ancaq siyasi məqamlarını qorumaq üçün bilərəkdən həzrət Zəhranı öz haqqından məhrum etdilər».

**Hafiz**: «Xəlifə kimə şahidi olmadan müsəlmanların malını vermişdi?»

## CABİRƏ BAĞIŞLANAN MAL, AĞIL SAHİBLƏRİNİN İBRƏT ALMASINA SƏBƏB OLDU

**Dəvətçi**: «Məsələn: Cabir; «Peyğəmbəri-əkrəm mənə Bəhreynin beytül-mala aid büccəsindən bir miqdar pul verəcəyini vəd etmişdi»,-deyə iddia etdikdə, etiraz belə edilmədən, şahid belə istənilmədən ona müsəlmanların malından 1500 dinar verildi».

**Hafiz**: «Əvvəla; bu xəbəri mən heç yerdə görməmişəm! Ola bilsin sizin kitablarınızda var. İkincisi; haradan məlumdur ki, şahid istənilməyib?»

**Dəvətçi**: «Görməməyiniz çox qəribədir. Çünki alimlərinizin adil bir səhabənin rəvayət etdiyi xəbəri-vahidin qəbul ediləcəyinə dair gətirdikləri dəlil Cabir ibn Abdullah ibn Ənsarinin xəbəridir. Şeyxül-İslam Əsqəlani «Fəthül-Bari fi şərhi Səhihil-Buxari»nin «Mən yukəffilu an meyyitin Deynen» babında belə deyir: «Bu xəbər, səhabədən adil olanların verdiyi xəbərin qəbul edilə biləcəyinə dəlalət edir; bu, onun mənfəətinə də olsa fərq etməz. Çünki Əbu Bəkr Cabirdən, iddiasının səhihliyi haqda şahid istəmədi».

Bu xəbəri Buxari öz «Səhih»ində daha ətraflı nəql etmişdir. «Xüms» kitabının «Ma Qətəən-nəbiyyu min əl Bəhreyn» babında belə yazmışdır: «Bəhreynin beytül-malı Mədinəyə gətirildikdə Əbu Bəkrin çağırcısı belə dedi: «Hər kimə Peyğəmbəri-əkrəm bir şey vəd etmişsə və ya Rəsulallahdan bir alacağı varsa gəlib

alsın». Cabir gələrək: «Rəsulallah Bəhreynin beytül-malından mənə bir miqdar mal verməyi vəd etmişdi»,-dedi.

Bəhreyn fəth edilib müsəlmanların hakimiyyəti altına keçdikdə, şahid istənilmədən Cabirə təkcə iddiasına görə 1500 dinar verildi.

Həmçinin Cəlaləddin Siyuti «Tarixül-xüləfa» kitabının «Xilafətu Əbi Bəkr» fəslində Əbu Bəkrin xilafəti dövründə meydana çıxan hadisələri rəvayət edərkən Cabirin hadisəsini rəvayət etmişdir.

Ağalar, indi Allah rizasına söyləyin, görəsən, bu əməl ayrıseçkilik deyilmi? Əgər Əbu Bəkr şəhadət ayəsinin xilafına şahid istəmədən müsəlmanların malının iddiasına görə Cabirə bir miqdar pul vermişsə və bundan bir azda olsa belə narahat olmamışsa, (fərz edək ki, Fədək müsəlmanların ümumi mülkiyyətinə aiddir) onda Rəsulallahın (s) əmanəti və doğru danışan qızı olan həzrət Fatimənin (s.ə) qəlbini qırmaması və sözünü yerə salmaması lazım gəlirdi!

Buxari və digər alimləriniz öz mənfəətinə olsa, adil bir səhabənin xəbərini qəbul edirlər. Amma bilindiyi kimi, işim növbə Əliyə gəlincə, öz lehinə olduğu bəhanəsilə İmamın sözünü rədd edirlər. Məgər həzrət Əli əshabdan, hətta əshabın ən mükəmməl bir fərdi deyildimi? Əgər məsələyə ədalətlə baxsanız, işin içində hiylə olduğunu, haqq və həqiqətin icra edilməsi niyyətində olunmadığını təsdiq edərsiniz».

**Hafiz**: «Əbu Bəkrin Cabirdən şahid istəməsinin səbəbi, Cabirin Peyğəmbəri-əkrəmin (s) yaxın əshabı olduğuna və Onun tərbiyə etdiyinə görə idi. Bilmək lazımdır ki, Cabir «Kim bilərəkdən mənə qarşı iftira və yalan istinad edərsə, Cəhənnəmdə yerini hazırlamalıdır» hədisini və mütləq eşitmişdi. Bu şiddətli təhdid qarşısında Rəsulallahın yaxını və Onun tərbiyə etdiyi mömin bir səhabə qətiyyən iftira və yalan söyləməz, bu dəyərsiz dünya üçün Axirətini əldən verməz və Peyğəmbərə istinad edərək yalan söz nəql etməz!».

**Dəvətçi**: «Cabir Peyğəmbəri-əkrəmə (s) daha yaxındır, yoxsa həzrətin tərbiyə etdiyi həzrət Əli (ə) və həzrət Fatimə (s.ə)?»

**Hafiz**:»Şübhəsiz, Əli (ə) və Fatimə (ə) Peyğəmbəri-əkrəmdən (s) tərbiyəalmış və o Həzrətə hər kəsdən daha yaxın olmuşlar».

**Dəvətçi**: «O halda, həzrət Əli və həzrət Fatimənin belə şiddətli bir təhdid qarşısında həzrət Peyğəmbərə iftira və yalan istinad etməyəcəklərini qəbul edin. Onlar Fatimeyi-Siddiqənin iddiasını qəbul etməliydilər; çünki onlar da sizin etiraf etdiyiniz kimi, həzrət Əli və Fatimeyi-Zəhranın Cabirdən, hətta bütün əshabdan daha üstün olduğunu bilirdilər. Bu səbəbdən həzrət Əli və həzrət Fatimə Təthir ayəsinin misdaqı olmuş məsum şəxslərdir. Təthir ayəsi açıq-aydın Məhəmməd (s), Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseynin (ə) məsumiyyətinə dəlalət edir.

Alimləriniz də onların sədaqət və doğruluğunu təsdiq etmişlər. Bu səbəbdən Peyğəmbəri-əkrəm həzrət Əlini ümmətə «Ümmətin siddiqi və doğru olanı» kimi tanıtmış, Allah-təala da Quranda Onu «Sadiq» adlandırmışdır.

Həzrət Fatimə haqqında isə hədis olduqca çoxdur. Məsələn: Hafiz Əbu Nəim İsfahani «Hilyətul-övliya» kitabının 2-ci cildinin 42-ci səhifəsində Aişədən belə rəvayət edir: «Atası istisna olmaqla, Fatimədən daha doğru danışan bir kəs görmədim».

## TƏTHİR AYƏSİNİN NAZİL OLMASI HAQQINDA İRAD

**Hafiz**: «Bizə görə Təthir ayəsinin bu 5 nəfər haqqında nazil olduğu iddiası qəti deyildir. Kitablarımızla kifayət qədər yaxıkdan tanışsınız, bu mövzuda xəta etdiyinizi qəbul edin; çüngi Qazi Beyzəvi və Zəməxşəriyə görə Təthir ayəsi Rəsulallahın (s) xanımları haqqında nazil olmuşdur; bu ayənin 5 nəfər haqqında nazil olduğunu söyləyən bir rəvayət varsa da, zəifdir; çünki ayə bu mənanın tam əksinə dəlalət edir. Ayənin əvvəli və sonu Peyğəmbərin (s) xanımları haqqındadır; buna görə də ayənin ortasını çıxarıb başqalarına aid etməyin!»

# TƏTHİR AYƏSİNİN HƏZRƏT PEYĞƏMBƏRİN (S) XANIMLARI HAQQINDA NAZİL OLMADIĞININ İSBATI VƏ İRADIN CAVABI

**Dəvətçi**: «Sizin bu iddianız bir çox baxımdan doğru deyildir. Əvvəla; ayənin əvvəli və sonunun Peyğəmbəri-əkrəmin (s.) xanımları haqqında olduğunu və bu səbəbdən Əli (ə) və Fatimənin (s.ə) ayənin misdaqı olmadığı haqdakı sözünüzə gəlincə; insanlar gündəlik danışıq tərzində bəzən danışarkən bir an sözlərini başqa bir istiqamətə yönəldib,başqalarına xitabən danışır və daha sonra yenidən əvvəlki sözlərinə dönürlər. Belə bir qayda ərəb ədəbiyyatı və şerlərində olduqca çoxdur. Hətta Quranda belə bir çox nümunə vardır. Xüsusilə «Əhzab» surəsinə diqqət etsəniz, Rəsulallahın xanımlarına xitab edilərkən bir an möminlərə xitab edilir, sonra yenidən xanımlara. Bunun şagidlərini ətraflı olaraq sizə ərz ədə bilərəm. Amma məclisimiz buna münasib deyildir.

İkincisi; əgər bu ayə Rəsulallahın xanımları haqqında olmuş olsaydı, onlara məxsus müənnəs zəmirin (qadın cinsinə aid ədat) istifadə olunması, «Liyuzhibə ankunnə və yutahhirrəkunnə» deyilməsi lazım gəlirdi. Amma məlum olduğu kimi, ayədə müzəkkər (kişi) ədatı (kum) istifadə edilmişdır. Bu da ayənin xanımlar haqqında deyil, Peyğəmbəri-əkrəmin Əhli-beyti haqqında nazil olduğunu açıq-aydın göstərir».

**Nəvvab**: «Sizə görə də həzrət Fatimə o cəmiyyətdən biridir; o halda nəyə görə həzrət Fatimə nəzərə alınmamış və Onun haqqında müənnəs zəmiri istifadə olunmamışdır?»

**Dəvətçi**: «(Alimlərə işarə edərək) Ağaların da bildiyi kimi həzrət Fatimənin olmasına baxmayaraq, müzəkkər zəmirinin istifadə olunması ədəbiyyatdakı təğlib (əksəriyyət) üsulu etibarilədir. Bir cəmiyyət içində bəzisi kişilər, bəzisi isə qadınlar olduğu yerdə müzəkkər zəmir istifadə olunur, hətta bilavasitə sözügedən ayədəki muzəkkər kəlməsinin olmağı bu nəzərin zəif olmadığını, əksinə güclü olduğunu gostərir. Əgər bu ayə Peyğəmbəri-əkrəmin xanımları haqqında nazil olmuş olsaydı, qadınların cəmi üçün müzəkkər ədatının istifadə olunması xəta olardı.

Bunlardan əlavə, bilmək lazımdır ki, sizin mötəbər kitablarınızda da yer alan səhih hədislər bu ayənin xanımlar haqqında deyil, Rəsulallahın Əhli-beyti haqqında nazil olduğuna hökm edir. İbn Həcər Məkki hədsiz təəssüb və inadına baxmayaraq, bu ayə haqqında «Səvaiqul-muhriqə» adlı kitabında belə deyir: «Çox müfəssirlər bu ayənin Əli (ə), Fatimə (o), Həsən (ə) və Hüseyn (ə) haqqında nazil olduğunu bəyan edir; çünki ayədə «ənkum» və «yutəhhirəkum» kum kişi zəmiri istifadə olunmuşdur».

## PEYĞƏMBƏRİN (S) XANIMLARI ƏHLİ-BEYTDƏN (Ə) DEYİL

Bundan başqa, bir çox dəlil Peyğəmbəri-əkrəmin (s) xanımlarının Əhli-beytdən (ə) olmadığına dəlalət edir. «Səhihi-Müslim» və «Camiul-üsul» kitabında belə rəvayət edilir: «Həsin ibn Səmurə Zeyd ibn Ərqəmdən «Peyğəmbərin (s) xanımları da Əhli-beytdəndirmi?»,-deyə soruşduqda, Zeyd belə dedi: «Allah-təalaya and olsun ki, xeyr! Çünki qadın bir müddət həyat yoldaşıyla olur; boşandıqda atasının evinə dönər və atasının ailəsinə qatılar, beləlikl ədə ərindən ayrı düşər. Peyğəmbəri-əkrəmin Əhli-beyti onlara sədəqə verilməsi haram olan kimsələrdir. Onlar hansı evə getsələr, hara getsələr Rəsulallahın Əhli-beytindən çıxmazlar».

Üçüncüsü; şiə qaynaqlarında Əhli-beyt İmamlarından rəvayət edilən bütün rəvayətlər və sizin mənbələrinizdə yer alan saysız hədislər də bu mənanın əksinə hökm edir.

## TƏTHİR AYƏSİNİN ƏHLİ-BEYT (Ə) HAQQINDA NAZİL OLDUĞUNU BƏYAN EDƏN ƏHLİ-SÜNNƏT MƏNBƏLƏRİNDƏN RƏVAYƏTLƏR

Təthir ayəsinin beş nəfər Ali-Əba (ə) haqqında nazil olduğunu əhli-sünnət alimləri öz mötəbər kitablarında nəql etmişlər. Məsələn:

1. İmam Sələbi: «Təfsiri Kəşfül-bəyan»; 2. İmam Fəxri Razi: «Təfsiri-kəbir», c: 6, səh: 783; 3. Cəlaləddin Siyuti: «Dürrül-Mənsur», c: 5, səh: 199 və «Xəsaisul-kubra», c: 2, səh: 264; 4. Nişaburi: «Təfsir», c: 3; 5. İmam Əbdürrəzzaq Rəsəni: «Təfsiri Rumuzul-kunuz»; 6. İbn Həcər Əsqəlani: «İsabə», c: 4, səh: 207; 7. İbn Əsakir: «Tarix», c: 4, səh: 204 və 206; 8. İmam Əhməd Hənbəl: «Müsnəd», c: 1, səh: 331; 9. Muhubbiddin Təbəri: «Riyazun-nazirə», c: 2, səh: 188; 10. Müslim ibn Həccac: «Səhih», c: 2, səh: 331 və c: 7, səh: 130; 11. Nəbhani: «Şərəfül-muəbbəd» (Beyrut nəşri), səh: 10; 12. Məhəmməd ibn Yusif Gənci Şafei (6 müsnəd xəbərlə): «Kifayətut-Talib», bab: 100 və s.

Həmçinin Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 33-cü babında «Səhihi-Müslim» və «Şəvahidi-hakim» kitablarından, o da Ümmül-möminin Aişədən, 10 rəvayət Qirmizidən, yenə Hakim Əlaud-Dövlə Simnani, Beyhəqi, Təbərani, Məhəmməd ibn Cərir, Əhməd ibn Hənbəl, İbn Əbu Şeybə, İbn Munzir, İbn Səd, Hafiz Zərəndi və Hafiz ibn Mərdəviyədən, onlar da Ümmül-möminin Ümmü-Sələmədən, Ömər ibn Əbu Sələmə (Peyğəmbərin ögey oğlu), Ənəs ibn Malik, Səd ibn Əbu Vəqqas, Vəsilə ibn Əsqə və Əbu Səid Xidridən Təthir ayəsinin Ali-Əba haqqında nazil olduğunu nəql etmişlər.

Hətta İbn Həcər Məkki hədsiz təəssübkeşliyinə baxmayaraq «Səvaiq»in 85-86-cı səhifəsində 7 müxtəlif yolla bu hadisəni rəvayət edir və sözügedən ayənin 5 nəfər — Məhəmməd (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) haqqında nazil olduğunu etiraf edir.

Seyid ibn Əbu Bəkr ibn Şəhabəddin Ələvi «Rəşfətus-sadi min bəiri-fəzaili bənin-Nəbiyyil-Hadi» kitabının 14-19-cu səhifələrində (çap tarixi: Misir 1303-cü il) 1-ci babın əvvəlində Tirmizi, İbn Cərir, İbn Munzir, Hakim, İbn Mərdəviyə, Beyhəqi, İbn Əbu Hatəm, Təbərani, Əhməd ibn Hənbəl, İbn Kəsir, Müslim ibn Həccac, İbn Əbu Şeybə və Səmhudidən və digər böyük alimlərinizin apardığı dərin araşdırmalar nəticəsində bu ayənin Ali-Əba (ə) olan 5 nəfər haqqında nazil olduğunu rəvayət edir.

Başqa dəlillər də Peyğəmbəri-əkrəmin sədəqə verilməsi haram olan Əhli-beytinin Qiyamətə qədər bu ayənin misdaqı olduğunu isbat edir. «Cəmun beynəs-

sihahis-sittə»də Movtə Malik ibn Ənəs Əsbəhidən «Səhihi-Buxari», «Səhihi-Müslim», «Sünəni-Əbu Davud», «Sünəni-Səcistani», «Sünəni-Tirmizi», «Camiul-üsul»da və bir çox fəqih, tarixçi, mühəddis və alimlərinizin bu ayənin Ali-Əba (ə) olan 5 nəfər haqqında nazil olduğunu etiraf etmələri nəql olunmuşdur.

Sizin nəzərinizdə də bu ayənin Ali-Əba (ə) haqqında nazil olduğu təvatür həddinə çatmışdır. Bir neçə inadkar və haqqı inkar edən üləmanın bu xəbəri zəif qəbul etməsinin bütün bu mötəbər və mütəvatir rəvayətlər qarşısında heç bir dəyər və etibarı yoxdur!

***Kiçik bir yarasa Günəşin düşməni ola bilməz,***
***O, qaranlıq içində ancaq öz-özünə düşməndir!***

## FATİMƏ (S.Ə) HAQQINDA ÜMMÜ-SƏLƏMƏNİN RƏVAYƏTİ ETDİYİ HƏDİS VƏ TƏTHİR AYƏSİNİN NAZİL OLMASI

Bəzi şəxslər Həriyrə hədisini nəql edərək Təthir ayəsinin nazil olması ilə əlaqəli hadisəni ətraflı olaraq, bəziləri isə qısaca qeyd etmişmlr. Məsələn: imam Sələbi «Təfsir»də, imam Əhməd ibn Hənbəl «Müsnəd»də və İbn Əsir «Camiul-üsul»da «Səhihi-Tirmizi» və «Səhihi-Müslim»dən nəql edərək kiçik bir fərqlə nəql etdiyinə görə Peyğəmbəri-əkrəmin (s) xanımı Ümmü-Sələmə belə demişdir: «Rəsulallah  mənim evimdə idi. Fatimə Rəsulallah üçün bir tas halva gətirdi. Peyğəmbər yatağı sayılan səffədə oturmuşdu və mübarək ayağının altına əbasını salmışdı. Mən də otağımda namaz qılırdım. Rəsulallah Fatiməyə belə buyurdu: «Getərini və uşaqlarını da çağır gəlsinlər».

Bir az sonra Əli, Həsən və Hüseyn gələrək, süfrə arxasında əyləşib, halvanı yeməyə başladılar. Çox keçməkdi ki, Cəbrayıl nazil olaraq onlara bu ayəni oxudu: «**Ey Əhli-beyt! Allah ancaq sizdən hər növ çirkinliyi (günahı) və pisliyi aradan aparmaq və sizi tərtəmiz (pak) etmək istər**»[1].

[1] "Əhzab" surəsi, ayə: 33

Peyğəmbər (s) sonra əbanın artığını onların üzərinə örtərək mübarək əlini göyə qaldırıb belə dedi: «**Allahım, bunlar mənim itrətim və Əhli-beytimdir; bu halda onlardan hər cür pisliyi uzaqlaşdır və onları pak et**».

Mən də başımı əbanın altına salaraq: «Ya Rəsulallah, mən də sizinləyəm»- dedim. Peyğəmbər belə buyurdu: «Sənin aqibətin xeyirlidir». (yəni Əhli-beytimin məqamında deyilsən, amma aqibətin xeyirlidir!)

Göründüyü kimi, sözügedən ayə bu 5 nəfərin (ə) hər cür küfr, nifaq, şübhə, iftira, yalan, riya, böyük və ya kiçik günahlardan uzaq olduğuna dəlalət edir.

Fəxri Razi bu barədə «Təfsir»ində belə deyir: «Bu ayə, Onların bütün günahlardan uzaq olduğuna və İlahi kəramət rizasına bağlandıqlarına dəlalət edir».

Bəzi alimlərinizin mötəbər kitablarında Əli (ə) və Fatimənin (s.ə) bu ayənin əhatəsində olduğunu və hər cür günah, pislik, iftira və yalandan pak olduğunu nəql etmələrinə baxmayaraq, insafsızlıq edərək Həzrət Əlinin imamət iddiasını, Həzrət Fatimə haqqındakı şəhadətini və Həzrət Zəhranın (ə) Fədək haqqındakı iddiasını rədd etmələri həqiqətən çox uzaqdır! Burada insaflı şəxslərin necə hökm edəcəklərini bilmirəm!

Yenidən mövzuya qayıdaq. Zəhmət olmasa, ədalətlə hökm verin. Əli (ə) və Fatimə (s.ə) kimi Allah-təalanın hər cür pislikdən pak etdiyi, yəni böyük və kiçik günahlardan hifz etdiyi məsumların şahidliyinin rədd edilməsi, digər tərəfdən Cabir kimi sıravi bir müsəlmanın iddiasının qəbul edilməsi doğrudurmu?! O dəyərli ailənin haqlarının mənimsənilməsi heç insafdandırmı?!»

**Hafiz**: «Peyğəmbəri-əkrəmin (s) xəlifəsi və mömin bir səhabənin Rəsulallaha yaxın olduğu halda qəsdən Fədəki qəsb etməsi inandırcı deyil. Şübhəsiz, insan etdiyi hər şeyi bir məqsədə görə edir. Bütün beytül-malı əlində saxlayan bir kəsin Fədəki qəsb etməyə nə ehtiyacı ola bilər?»

Dəvətçi: «Şübhəsiz ki, ehtiyac məsələsi deyildi. Əhli-beytin (ə) xilafət məqamına daha layiq olduğunu bildikləri halda, Onları müsəlmanların gözündə alçaltmaq istəyirdilər. Çünki dünya malının arxasınca olan insanlar, dünya işlərini təmin edə bilən maddi imkanı olan şəxslərə tərəfə yonəlirlər. Onlar əzəmət, elm, fəzilət, təqva və ədəb sahibi olan bu ailənin Fədəkdən əldə olunan maddi gəlir

nəticəsində zənginləşəcəyini və xalqın onlara tərəf daha çox yönələcəyini güman edirdilər. Bu səbəbdən həddən artıq mənfəət gətirən xurma bağını - Fədəki öz siyasətlərinə uyğun olaraq qəsb etdilər və Onların (ə) üzünə güclənə biləcəkləri bütün yolları bağladılar.

## PEYĞƏMBƏRİN (S) ƏHLİ-BEYTİNİN (Ə) XÜMS HAQQINDAN MƏHRUM EDİLMƏSİ

Bu qəsb edilənlərdən biri də Əhli-beytin (ə) sabit haqqı olan xüms idi. Allah-təala həzrət Peyğəmbər (s) və Əhli-beytinə sədəqəni haram etdiyi halda, ümmətin əksəriyyətinin icmasıyla Onlara xümsün verilməsini «Ənfal» surəsinin 41-ci ayəsində açıq-aydın belə buyurmuşdur: «**(Ey möminlər) Əgər siz Allaha, haqq ilə batilin ayırd edildiyi gün - iki dəstənin bir-birilə qarşılaşdığı gündə (Bədir döyüşündə) bəndəmizə (Məhəmməd) nazil etdiyimizə (ayələrə) imanırsınızsa (qəniməti belə bölüşdürün). Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin xümsu (beşdə biri), Allahın Peyğəmbərin, Onun qohum-əqrabasının, yetimlərin, yoxsulların və müsafirlərindir (pulu qurtarıb yolda qalan yolçuların). Allah hər şeyə qadirdir**».

Bu yolla Əhli-beyt Qiyamətə qədər rifah içindç yaşayacaq, xalqa möhtac olmayacaqdı. Amma bilindiyi kimi Peyğəmbəri-əkrəmin vəfatından sonra bu məsələdə də Əhli-beyti nəzarət altında saxladılar. Xüms puluyla döyüş sursatları alınacağını bəhanə edərək, Əbu Bəkr və tərəftarları xüms haqlarını da Onlardan aldılar. Bununla da Əhli-beyt hər tərəfdən məhrum edildi. Sədəqə Onlara haramdır, xüms haqları da əllərindən alındı.

Şafei imamı Məhəmməd ibn İdris «Kitabul-Ümmə»nin 69-cu səhifəsində bu mövzuyla əlaqəli belə deyir: «Əhli-beytə sədəqə əvəzində xüms verilməsinə icazə verilmişdi. Onların az və ya çox sədəqə alması, tanıyanların da Onlara sədəqə verməsi haramdır. Xüms verilməsinin qadağan olması belə Onlar üçün sədəqənin halal olmasına gətirib çıxartmaz».

Ömər ibn Xəttabın dövründə: «xüms çox artmışdır, hamısını Peyğəmbərin (s) qohumlarına vermək olmaz, doyüş sursatı almaq lazımdır» bəhanəsilə bu hüquqları da Onlarım əlindən alındı. İndiyə qədər bu İlahi hüquqlardan məhrum edilmişlər».

**Hafiz**: «İmam Şafei xümsun beş qismə bolünməsini, Peyğəmbəri-əkrəmin (s) haqqının müsəlmanların eitiyac üçün xərcləməsini, bir qismini nəslindən olan seyidlərə və digər üç qisminin də yetim, fəqir və yolda qalanlara xərcləməsini açıq-aydın bəyan etmişdir».

**Dəvətçi**: «Peyğəmbər (s) dövründə, müfəssirlərin əksəriyyətinin ittifaqına görə, bu ayə Rəsulallahın övlad və qohumlarına yardım üçün nazil olmuşdur. Amma şiələr Əhli-beytin (ə) təqibçiləri olaraq, bu mövzuda ayədə olduğu kimi xümsü altı qismə ayırır. Allah-təalanın, Peyğəmbəri-əkrəmin və nəslindən olan seyidlərin payı məsum İmama verilir. İmamın qeybətində də adil fəqih və müctəhid olan bir naibinə verilir, o da səlah gördüyü yerdə müsəlmanların məsləhəti üçün xərcləyir. Digər üç pay isə bəni-Haşimdən olan yetimlərə, möhtaclara və yolda qalanlara verilir. Xülasə, Peyğəmbəri əkrəmin vəfatından sonra Haşim oğullarının bu haqqını da qəsb etdilər.

Cəlaləddin Siyuti «Dürrül-Mənsur»un 3-cü cildində, imam Sələbi «Kəşfül-bəyan» təfsirində, Carullah Zəməxşəri «Kəşşaf»da, Quşçi «Şərhi-təcrid»də, Nisai «Əl-Fəyy» kitabında və daha bir çox böyük alimləriniz öz əsərlərində bu haqqın Peyğəmbərin vəfatından sonra «ağıllı siyasətçilər» tərəfindən öz məqsədlərini inkişaf etdirmək üçün alındığını yazırlar!!!»

**Hafiz**: «Siz müctehidin nəzəri, ictihad etmək haqqı olduğuna inanmırsınızmı?! Şübhəsiz, Əbu Bəkr də müsəlmanlara yardım etmək üçün beləcə ictihad etmişdir».

**Dəvətçi**: «Bəli, müctehidin nəzəri caizdir; amma nəss (dəlil) qarşısında deyil! Siz Əbu Bəkr və Ömərin nəzərlərini Quran və sünnət qarşısında keçərli sayırsınız?! İnsafən, bu caizdirmi? Allah-təala və Peyğəmbəri-əkrəm (s) bir hökm verdikdə, xəlifə ümmətin səlahı bəhanəsi ilə nəslər qarşısında ictihad edə bilərmi? Zəhmət olmasa, bir az insaflı olun. Bu işdə başqa bir niyyət olduğunu görmürsünüzmü? Şübhəsiz, ağıllı bir insan diqqətlə baxarsa, pis niyyətin olduğunu görər və

hadisənin heç də belə sadə olmadığını anlayar. Həqiqətdə onların məqsədi Peyğəmbərin (s) ailəsini (ə) pərişan etmək idi.

## ALLAH-TƏALA ƏLİNİ (Ə) PEYĞƏMBƏRİN (S) ŞAHİDİ ETMİŞDİR

Bilmək lazımdır ki, Allah-təala həzrət Əlini (ə) Peyğəmbəri-əkrəmin (s) şahidi etmişdir. Bu səbəbdən Qurani-kərimdə belə buyurur: «Rəbbindən açıq-aydın bir dəlilə istinad edən, ardınca Allahdan bir şahid (Əli) gələn...»[1]

hafiz: «Mənə görə ayədəki «dəlildən» məqsəd Peyğəmbəri-əkrəm (s), «şahid» isə Qurandır. «Şahid»in Əli (ə) olduğuna dair dəliliniz nədir?»

**Dəvətçi**: «Mən ayələri və ümumiyyətlə Quranı öz nəzərimə görə mənalandırmaq cəsarətinə sahib deyiləm. Qurani-kərimin bərabəri olan Əhli-beyt (ə) bu ayədəki şahiddən məqsədin həzrət Əli (ə) olduğunu açıq-aydın bəyan etmişdir. Üstəlik alim və müfəssirləriniz də 30-ə qədər rəvayət nəql etmişlər. Məsələn: İmam Əbu Əshəq Sələbi «Təfsir»ində 3 hədis, Cəlaləddin Siyuti isə «Dürrül-Mənsur»da İbn Mərdəviyə, İbn Əbu Hatəm və Əbu Nəimdən nəql etmişdir.

İbrahim ibn Məhəmməd Həmuyini «Fəraidus-Simtəyn»də 3 sənədlə, Süleyman Bəlxi Hənəfi 26-cı babda Sələbi, Həmuyini, Xarəzmi, Əbu Nəim və Vaqididən, İbn Məğazəli də İbn Abbas, Cabir ibn Abdullah və başqalarından, Hafiz Əbu Nəim İsfahani isə 3 müxtəlif yolla rəvayət edir. Təbəri, İbn Məğazəli, İbn Əbil-Hədid Mötəzili, Məhəmməd ibn Yusif Gənci («Kifayətut-Talib», bab: 62) və bir çox alimləriniz də bu inancdadır.

Kiçik bir fərqlə ayədəki «şahid»dən məqsədin həzrət Əli (ə) olduğunu bəyan etmişlər. Xətib Xarəzmi, «Mənaqib» kitabında belə deyir: «İbn Abbasdan «Ayədəki şahid kimdir»,-deyə soruşulduqda, «O şahid Peyğəmbəri-əkrəm üçün şahidlik edən və Onun özündən olan Əlidir»-deyə cavab verdi.

---

[1] "Hud" surəsi, ayə: 17.

Etibarlı hədislər əsasında, alimlərinizin də təsdiq etdiyi kimi, ümmətin, Allah-taalanın Peyğəmbərin (s) şahidi etdiyi həzrət Əlinin (ə) şahidliyini qəbul etməsi vacibdir.

Rəsulallah Xuzeymə ibn Sabitin şəhadətini iki nəfərin şəhadəti kimi qəbul etmiş, onu «Zuş-şəhadətəyn» adlandırmışdır. Allah-təala da bu ayədə həzrət Əlini müsəlmanlar arasında Peyğəmbəri-əkrəmin şahidi edərək Onu ən yüksək dərəcədə xüsusiyyətləndirmişdir.

Təthir ayəsinə görə də həzrət Əli məsum və xətadan pak bir şəxsdir; şəxsi mənfəətləri üçün, əsla, iftira və yalan yerə şəhadət verməz. Bilmirəm necə cəsarət etdilər, hansı şəri dəlilə görə şəhadətini qəbul etmədilər? Hətta onu təhqir belə etdilər. Şahidliyini rədd edərkən də «bu işdə mənfəət sahibidir» deyib, bu dəlilə görə şahidliyini qəbul etmədilər.

Həmin məclisdə və sonradan bir çox kinayələrlə xəyanət etdilər. Bunların bəzisinə əvvəl işarə etdiyim üçün mövzunun xırdalığına getmirəm. Dünyaya üç dəfə talaq verib boşayan, insanların ən təqvalısı olan, dost-düşmən - hər kəsin qəbul etdiyi Əli (ə) kimi bir şəxsiyyətin dünya malını istəməsi fikrinə və bundan başqa kitablarınızda yazılan, dilimə gətirməyə belə həya etdiyim kəlmələrə mistaq olmasına razı olarsınızmı?!

Xülasə, «Əli bu işdə mənfəət sahibidir» iddiasıyla İmamın həyat yoldaşı (s.ə) üçün (əuzu billah) yalan söyləyib şahidlik edə biləcəyini xalqın beyinlərinə yeritdilər. Allah-təala imam Əlinin şahidliyini qəbul etdiyi halda, bunlar oyun oynayaraq Onun şahidliyini rədd etdilər. Nazil olan Quran ayələrinin, vilayət məqamının və Peyğəmbəri-əkrəmin həzrət Əli haqqındakı tövsiyələrinin son nəticəsi bu olmalıydımı?

## ƏLİNİN (Ə) DƏRDİNİ DİLƏ GƏTİRMƏSİ

İmama (ə) o qədər əziyyət etdilər ki, «Şiqşiqiyyə» xütbəsində dərdini dilə gətirərək belə dedi: «Gözümdə tikan, boğazımda tikə qaldığı halda səbir etdim».

Həzrət Əlinin bu iki cümləsi Onun sonsuz dərdini, qəmini və səbrini anladır.

Bir başqa yerdə də belə buyurmuşdur: «Allaha and olsun ki, Əli ibn Əbu Talib ölümə, uşağın ana döşünü əmdiyi iştahadan daha şiddətlisini duyur».

Həzrət Əlinin qəlbi dərdlə dolu idi; həyatdan doymuşdu. Əbdürrəhman ibn Mülcəm zəhərli qılıncıyla mübarək başını ibadət mehrabında yardıqda «Kəbənin Rəbbinə and olsun ki, qurtuldum»,-deyə buyurmuşdur.

Tarixçilərinizin də yazdığına görə, ilk günlərdə lazım olmayan şeyləri etdilər, lüzumsuz sözlər söylədilər. Amma bu gün siz alimlərin Allah-təala və Rəsulunun sevgilisi olan həzrət Əlini incitməsi və məsələni avam xalqa yanlış çatdırması doğru deyildir. Sizin də bildiyiniz kimi həzrət Əlini incitmək, Rəsulallahı incitmək deməkdir.

## HƏZRƏT ƏLİNİ (Ə) İNCİDƏNLƏRİ QINAYAN RƏVAYƏTLƏR

Böyük alimlərinizdən imam Əhməd ibn Hənbəl «Müsnəd»də bir neçə müxtəlif yolla, imam Sələbi «Təfsir»də və Həmuyini isə «Fəraid»də Rəsulallahın (s) belə buyurduğunu rəvayət edir: «Əlini incidən məni incitmişdir. Ey insanlar! Əlini incidən Qiyamətdə yəhudi və ya xristian olaraq məşhur olacaqdır».

İbn Həcər Məkki 9-cu babın 2-ci fəslində, 16-cı hədisdə Səd ibn Əbu Vəqqasdan və Məhəmməd ibn Yusif «Kifayətut-Talib»in 68-ci babında sənədilə Rəsulallahdan (s) belə rəvayət edir: «Əliyə əziyyət edən, mənə əziyyət etmişdir».

İzninizlə zehnimə gələn bir hədisi nəql edim; hər halda Peyğəmbəri-əkrəmin hədisini eşitmək ibadətdir. Bu hədisi Buxari «Səhih»də, imam Əhməd «Müsnəd»də, Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba»da, Hafiz Əbu Nəim İsfahani «Ma nəzələ min əl-Qurani fi Əliyyin»də, Xətib Xarəzmi «Mənaqib»də, İbn Məğazəli Şafei «Mənaqib»də, Hakim Əbülqasim Hasqani Hakim Əbu Abdullah Hafizdən, o da Əhməd ibn Məhəmməd ibn Əbu Davuddan, o da Əli ibn Əhmədi-Əcəlidən, o da İbad ibn Yəqubdan, o da Ərtat ibn Həbibdən, o da Əbu Xalid Vəsitidən, o da Zeyd ibn Əli ibn Hüseyndən, o da atası Hüseyn ibn Əlidən (ə), o da atası Əli ibn Əbu Talibdən nəql etmişlər. Bu ravilarin hamısı da öz tüklərindən tutaraq demişlər: «Peyğəmbəri-əkrəm (s) də beləcə mübarək tükünü

tutaraq buyurdu: «Ya Əli, hər gim sənin bir tək tükünü belə incidərsə, məni incitmişdir, məni incidən Allahı incitmişdir; kim də Allahı incidərsə, Allahın lənəti olsun ona!».

Seyid ibn Əbu Bəkr ibn Şəhabuddin Ələvi «Rəşfətus-Sadi min Bəhri Fəzaili bənin-nəbiyyil-hadi»nin 4-cü babının 60-cı səhifəsində (Misir çapı: 1303) Təbəraninin «Kəbir»indən, İbn Həbbabın «Səhih»indən və Hakimdən hədisi səhih qəbul edərək, həzrət Əlidən Rəsulallahın belə buyurduğunu rəvayət etmişdir: «Kim Əhli-beytim haqqında mənə əziyyət edərsə, Allahın lənəti olsun ona!».

Bu səmimi sözlərimin təsirli olmasına ümid edirəm. Siz möhtərəm ağalar, Peyğəmbəri-əkrəmin (s) müqəddəs ruhunun incilməsinə razı olmayın. İlahi ədalət məhkəməsində cavab verməк məcburiyyətindəyik.

(Bu gecə bütün söhbətlərim ağlar göz yaşı ilə idi. Məclisdə iştirak edən ağaların gözləri yaşarmışdı və gözlərinin yaşı yanaqlarına süzülürdü, hətta hafizin belə gözlərindən yaş axırdı.)

Bir az düşünün, dəqiq olun, özünüzü bir anlıq belə hadisənin içində görüb, sonra kənardan baxın ki, 2 ay əvvəl Peyğəmbəri-əkrəmin (s) hüzurunda ona beyət etmiş, Allah-təala və Rəsulallahın əmrilə ona təslim olmuş bu ümmət arasında həzrət Əlinin (ə) şahidliyinin rədd edilməsi, həzrət Fatimənin (s.ə) mülkünün müsadirə olunması və Onlara (ə) həqarət edilməsi, Xatəmül-nəbinin bu iki əmanətini nə qədər kədərləndirdi və İslam düşmənlərini nə qədər sevindirdi! Məzlum Fatimə (s.ə) o qədər narahat olub qəzəbləndi ki, göz yaşında dərd və hüzn içində dünyadan ayrıldı».

**Hafiz**: «Şübhəsiz ki, ilk vaxtlarda həzrət Fatimə (ə) narahat olub, qəzəblənmişdi. Amma sonra xəlifənin haqq-ədalətlə hökm verdiyini gördükdə, onlardan razı olub, böyük bir rizayət içində dunyadan ayrılmışdır».

# HƏZRƏT FATİMƏ (Ə) SON NƏFƏSİNƏ QƏDƏR ƏBU BƏKR VƏ ÖMƏRDƏN RAZI OLMADI

**Dəvətçi**: «Əgər vəziyyət dediyiniz kimi olsaydı, o zaman niyə görə alimləriniz bunun tam əksini yazmışlar?! Məsələn: Buxari və Müslim kimi iki etibarlı saydığınız aliminiz öz «Səhih»lərində belə yazmışlar: «Həzrət Fatimə (ə) Əbu Bəkri qəzəbli halda tərk etdi və ömrünün sonuna qədər onunla danışmadı. Vəfat etdikdə həzrət Əli (ə) Fatimənin (ə) cənazə namazını qıldırıb, gecə yarısı dəfn etdi. Əbu Bəkri bu hadisədən xəbərdar etmədilər və onun cənazə namazına qatılmasına izn vermədilər»[1].

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib» kitabının 99-cu babında bu rəvayəti nəql etmişdir. Həmçinin Əbu Məhəmməd Abdullah ibn Müslüm ibn Qutəybə Deynəvəri də «Əl-İmamətu vəs-siyasət» kitabının 14-cü səhifəsində belə nəql etmişdir: «Fatimə (ə) ölüm yatağında Əbu Bəkr və Ömərə belə dedi: «Allahı və məlaklərini şahid tuturam ki, sizin ikiniz də məni qəzəbləndirdiniz, mənə qarşı zülm etdiniz. Əgər Peyğəmbəri-əkrəmi görməli olsam, ikinizdən də şikayət edəcəyəm».

Yenə eyni kitabda belə yazmışdır: «Həzrət Fatimə (ə) ölənə qədər Əbu Bəkrdən razı qalmadı və ondan uzaq durdu».

Bu və digər mötəbər kitablarınızda yazılan saysız-hesabsız rəvayətlərə baxıb, tərəfkeşlik etmədən, ədalətlə hökm verin. Bu rəvayətlərin nəticəsini mənə də söyləyin.

---

[1] Buxari “Səhih” kitabının 5 cildində - “Xeybər qəzavəti” babının 9-cu səhifəsində və həmçinin 7-ci cildində - “Qovlun-Nəbiyy la nurisu ma tərəknahu sədəqə” babının 87-ci səhifəsində demişdir: “Həzrət Fatimə dünyadan köçənə qədər Əbu Bəkrlə danışmadı”.

# FATİMƏNİ (Ə) İNCİTMƏK, ALLAHI VƏ PEYĞƏMBƏRİ (S) İNCİTMƏKDİR

İmam Əhməd «Müsnəd»də, Süleyman Qunduzi «Yənabiul-məvəddə»də, Mirseyid Əli Həmədani «Məvəddətül-qurba»da, İbn Həcər «Səvaiq»də Tirmizi, Hakim və digərlərindən nəql edərək çox kiçik bir fərqlə Peyğəmbəri-əkrəmin (s) dəfələrlə belə buyurduğunu rəvayət edirlər: «Fatimə mənim bir parçamdır, gozümün nurudur, qəlbimin meyvəsidir və canımdakı ruhumdur. Onu incidən məni incitmişdir, məni incidən Allahı incitmişdir. Onu qəzəbləndirən məni qəzəbləndirmişdir, ona əziyyət edən mənə əziyyət etmişdir».

İbn Həcər Əsqəlani «İsabə» kitabında Fatimənin (s.ə) tərcümeyi-halını yazarkən Buxari və Müslimdən nəql edərək Peyğəmbəri-əkrəmin (s) belə buyurduğunu rəvayət edir: «Fatimə momim bir parçamdır. Ona əziyyət edən mənə əziyyət etmişdir, opu narahat edən məni narahat etmişdir».

Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul»un 6-cı səhifəsində, Hafiz Əbu Nəim İsfahani «Hilyətul-övliya»nın 2-ci cildinin 40-cı səhifəsində və imam Əbu Əbdurrəhman, Nisai «Xəsaisul-Ələvi»də Rəsulallahın (s) belə buyurduğunu rəvayət edir: «Fatimə mənim qızım və bir parçamdır. Onu narahat edən məni narahat etmişdir, ona əziyyət edən mənə əziyyət etmişdir».

Əbülqasim Hüseyn ibn Məhəmməd (Rağibi-İsfahani) «Muhazaritul-üdəba» kitabının 2-ci cildinin 214-ci səhifəsində Peyğəmbəri-əkrəmin (s) belə buyurduğunu rəvayət edir: «Fatimə mənim bir parçamdır; elə isə onu qəzəbləndirən məni qəzəbləndirmişdir».

Hafiz Əbu Musa ibn Müsənna Bəsri (ö/t: 252) «Möcəm»ində, İbn Həcər Əsqəlani «İsabə»nin 4-cü cildinin 375-ci səhifəsində, Əbu Yəla Mosuli «Sünən»də, Təbərani «Möcəm»də, Hakim Nişaburi «Müstədrək»in 3-cü cildinin 154-ci səhifəsində, Hafiz Əbu Nəim İsfahani «Fəzailus-səhabə»də, Hafiz ibn Əsakir «Tarixuş-Şam»da, Səbt ibn Cövzi «Təzkirə»nin 175-ci səhifəsində, Muhubiddin Təbəri «Zaxair»in 39-cu səhifəsində, İbn Həcər Məkki «Səvaiq»in 105-ci səhifəsində və Əbul İrfan Səbban «İsafur-Rağib»inin 171-ci səhifəsində,

Peyğəmbəri-əkrəmin (s) həzrət Fatiməyə (s.o) belə buyurduğunu rəvayət edir: «Ya Fatimə, Allah-təala sənin qəzəbin üçün qəzəb edər, sənin razılığın üçün razı olar».

Məhəmməd ibn İsmayıl Buxari «Səhih»in «Mənaqibi qərabəti-Rəsulillah» babının 71-ci səhifəsində (Musəvvər ibi Məhzəmədən nəqlən) və həmçinin 75-ci səhifəsində Rəsulallahın (s) belə buyurduğunu rəvayət edir: «Fatimə mənim bir parçamdır; onu qəzəbləndirən məni qəzəbləndirmişdir».

Buxari və Müslimin «Səhih»ində, Əbu Davud və Tirmizinin «Sünən»ində, Əhməd ibn Hənbəlin «Müsnəd»ində, İbn Həcərin «Səvaiq»ində, Şeyx Süleyman Bəlxinin «Yənabi»sində və daha bir çox mötəbər kitablarınızda həzrət Fatimənin (s.p) fəzilətləri xüsusunda bir çox rəvayətlər nəql edilmişdir. Bunları, həzrət Fatimənin (ə) onlardan razı qalmadan vəfat etdiyini bildirən hədislərlə necə dəyərləndirə bilərsiniz?»

**Şeyx**: «Bu rəvayətlər doğrudur. Amma həzrət Əlinin haqqında (ə) nəql olunmuşdur. Çünki həzrət Əli Əbu Cəhlin qızını almaq istədikdə Peyğəmbəri-əkrəm (s) Ona hirslənib belə buyurdu: «Hər kim Fatiməni incidirsə, məni incitmişdir; məni incidən də Allahın qəzəbinə gələr». Rəsulallahın bu sözlərdən məqsədi həzrət Əli idi!!!».

## ƏLİNİN (Ə) ƏBU CƏHLİN QIZINA ELÇİLİK ETMƏSİ İDDİASININ CAVABI

**Dəvətçi**: «İnsan və digər heyvanlar arasında bir çox fərq vardır. İnsanı heyvandan ayıran iki əhəmiyyətli güç ağıl və fikirdir. Yəni heyvandan üstün olanlar həyatlarını ağıl və fikirlə istiqamətləndirirlər. İnsan eşitdiyi hər şeyi qəbul etməlidir; ağılla araşdırmalı, ağılı qəbul edərsə qəbul etməli, əks təqdirdə rədd etməlidir. Bax, bu səbəbdən Quran belə buyurur: «**Sözü eşidən və ən yaxşısına tabe olan bəndələrimi müjdələ. Onlar Allahın hidayətinə yetişənlərdir və onlar təmiz ağıl sahibləridir**»[1].

[1] "Zümrə" surəsi, ayə: 17, 18

Keçmişdəkilərinizin nəql etdiyi rəvayətləri ağıl süzgəcindən keçirmədən, üzərində düşünmədən, qəbul edib təkrarlayırsınız. Qısaca da olsa sizə cavab vermək məcburiyyətindəyəm.

Əvvəldə söylədiyim kimi, alimlərinizin də dəstəklədiyinə görə həzrət Əli (ə) Təthir ayəsinin mistaqıdır və zati bir paklığı vardır. Yəni hər cür pis əxlaqdan pakdır. Həmçinin Mübahilə ayəsində də, əvvəlki axşamlar bəhs etdiyim kimi, Allah-təala həzrət Əlini Peyğəmbəri-əkrəmin (s) nəfsi olaraq qəbul etmişdir. Digər tərəfdən imam Əli Rəsulallahın elm qapısıdır; Qurandan və onun əhkam və düsturlarından xəbərdardır. Allah-təalanın belə buyurduğunu da çox yaxşı bilirdi: «**Allahın Rəsuluna əziyyət etməniz sizin üçün caiz deyildir**»[1] .

Həzrət Əli kimi bir şəxsiyyətin Rəsulallaha əziyyət verəcək, Onu narazı salacaq bir əməl etməsini və ya söz söyləməsini ağıl necə qəbul edə bilər? Böyük əxlaq abidəsi olan Rəsulallah kimi bir insanın Allah-təalanın sevimlisinə, həm də Qurani-kərimin istisnasız halal etdiyi bir işdə qəzəblənməsi mümkündürmü? Allah-təala bu xüsusda bir fərq qoymamışdır. Nikah məsələsi bu ayənin hökmünə görə ümumidir: «**...Sizə halal olan qadınlardan iki, üç, dörd olmaqla nikah bağlayın..**»[2].

Bu ayənin hokmü bütün ənbiya, övliya və bütün ümmət arasında umumidir. Əgər fərzən həzrət Əli belə bir şey istəsəydi, şəri baxımdan caiz olduğu üçün Rəsulallah halal olan bir şey xüsusunda Ona qəzəblənməz və bu kəlmələri Ona söyləməzdi[3].

Bu halda ağıl və fikir sahibi olan hər kəs bir az araşdırsa, bu hədisin də Əməvilərin uydurması olduğunu anlayar. Böyük və dəyərli alimləriniz də bunu etiraf etmişlər.

---

[1] "Əzhab" surəsi, ayə: 53

[2] "Nisa" surəsi, ayə: 3

[3] Şiə rəvayətlərindən həzrət Fatimeyi-Zəhra (s.ə) həyatda ikən həzrət Əlinin (ə) başqa bir qadınla evlənməsinin caiz olmadığı anlaşılır. Bu mövzunun münazirə məclisində açılması uyğun deyil.

# ƏBU CƏFƏR İSQAFİNİN MUAVİYƏNİN DÖVRÜNDƏ RƏVAYƏTLƏRİN UYDURULDUĞUNA DAİR BƏYANI

İbn Əbil-Hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 358-ci səhifəsində bu mövzuda ustadı Əbu Cəfər İsqafi Bağdadidən nəql edərək belə deyir: «Muaviyə ibn Əbu Süfyan əshab və tabeindən bir qrupunu həzrət Əli (ə) haqqında çirkin rəvayətlər uydurmağa vəzifələndirmişdi. İnsanların həzrət Əlidən uzaqlaşması üçün xalq içində Ona lənət etmələrini əmr etmişdi. Əbu Hureyrə, Əmr ibn As, Muğirə ibn Şöbə və tabeindən Urvə ibn Zubeyr kimilərini bu işlə vəzifələnmişdilər.

Əbu Hureyrə bu mövzuda, həzrət Əlinin (a) Rəsulallah (s) həyatda olduğu vaxt Əbu Cəhlin qızıyla evlənmək istədiyi haqqındakı rəvayəti uydurdu. Guya Rəsulallah Ona əsəbiləşərək minbərə çıxıb belə buyurmuşdur: «Allah-təalanın dostuyla düşməninin arasını düzəltmək mümkün deyildir. Fatimə mənim bir parçamdır; ona əziyyət edən mənə əziyyət etmişdir; Əbu Cəhlin qızını almaq istəyən mznim qızımdan uzaqlaşmalıdır».

Sonra Əbu Cəfər İsqafi belə deyir: «Bu hədis, Kərabisi rəvayəti olaraq məşhurdur. Uydurulan hər rəvayətə «Kərabisi» deyirlər».

İbn Əbil-Hədid daha sonra belə deyir: «Bu hədis Buxari və Müslimin «Səhih»lərində Musavvər ibn Məhzəmədən rəvayət edilmişdir».

Böyük şiə alimi Seyid Murtaza «Tənzihul-ənbiya vəl-Əimmə» kitabında belə deyir: «Bu rəvayət Hüseyn Kərabisidən rəvayət edilmişdir; bu şəxs Əhli-beyt düşmənlarindən biridir. Bu səbəbdən onun rəvayətləri qəbul edilə bilməz».

Bilmək lazımdır ki, mötəbər kitablarınızda yer alan rəvayətlərə görə də həzrət Əliyə qəzəblənən kəs münafiq, Quranın hökmünə əsasən də Cəhənnəm əhlidir. Bu halda onun rəvayəti rədd edilmişdir. Üstəlik, Fatimeyi (s.ə) əziyyət edənlərin qınanması haqqındakı rəvayətlər, sadəcə Kərabisi və ya Əbu Hureyrənin rəvayat etdiyi Əbu Cəhlin qızıyla əlaqəli rəvayətlərlə hüdudlanmır. Bu mövzuda bir çox hədis mövcuddur.

Xacə Parsayi Buxari «Fəslul-Xitab»da, imam Əhməd ibn Hənbəl «Müsnəd»ində və Mirseyid Əli Həmədani Şafei «Mövəddətül-qurba»nın 13-cü Məvəddəsində Səlman Məhəmmədidən rəvayət etdiyi bir rəvayətdə Peyğəmbəri-əkrəm (s) belə buyurur: «Fatimənin şəfaəti 100 halda insanın köməyinə çatacaqdır; bunlardan ən çətin vəziyyətə düşdüyü ölüm, qəbir, mizan, sirat və hesabdır. Belə isə qızım Fatimə kimdən razı olarsa, mən də ondan razı olaram; mən kimdən razı olsam, Allah da omdan razı olar; Fatimənin razı olmadığı kimsədən mən də razı deyiləm, mənim razı olmadığım kimsədən Allah-təala da razı deyildir. Bu halda Fatiməyə, onun həyat yoldaşı Əliyə, onların nəslində və şiələrə zülm edənlərin vay halına!».

Dəlil və şahid olaraq zikr edilən bu qədər rəvayət kifayətdir. İndi siz mötəbər ağalar, hər iki firqənin etibarlı kitablarında yer alan bu qədər səhih rəvayətləri, Buxari, Müslim və digər  bir çox böyük alimlərinizin də Fatimənin (s.ə) Əbu Bəkrin əlindən qəzəbli olduğu halda dünyadan ayrıldığına dair nəql etdikləri hədisləri necə qiymətləndirirsiz?»

**Hafiz**: «Bu rəvayətlər doğrudur, bizim mötəbər kitablarımızda daha çox və ətraflı bir şəkildə rəvayət edilmişdir. Həzrət Əlinin (ə) Əbu Cəhlin qızıyla evlənmək istəməsilə əlaqəli Kərabisinin rəvayət etdiyi bu hədisə mən də inanmamışdım. Bu məsələni həll etdiyinizə görə çox məmnun oldum.

## HƏZRƏT FATİMƏNİN (Ə) QƏZƏBİNİN DİNİ OLMAMASINA DAİR İRAD VƏ ONUN CAVABI

Həzrəti Fatimə (ə) haqqında söylədiyiniz bu rəvayətlərdə deyilən qəzəb, şəxsi mənafedən irəli gələn ötəri bir qəzəb deyil, dini bir qəzəbdir. Amma bizim bütün Səhih kitablarımızda yazıldığına görə həzrət Fatimənin Əbu Bəkr və Ömərə olan qəzəbi, dini bir qəzəb deyildi; yəni həzrət Fatimə bu hökmün dini əmrlərin əksinə olduğunu zənn etmişdi. Bu səbəbdən onlara qarşı qəzəblənmişdi. Əlbəttə, hər kim həzrət Fitiməni dini baxımdan qəzəbləndirərsə, Allahın və Peyğəmbərin qəzəbinə gələcək. Ancaq Fatimeyi-Zəhranın bu qəzəbi hədəfinə çatmadığına görə demək

olar ki, hər bir insanın qarşılaşdığı, hadisələr müqabilində göstərdiyi təbii bir qəzəb halıdır.

Fədəki istədikdə xəlifə də qaytarmadığına görə, təbii olaraq Fatimə (ə) də üzüldü və qəzəbləndi. Amma bilindiyi kimi, sonralar bu təbii qəzəb qəlbindən çıxdı və xəlifənin hokmü ilə razı oldu. Onun (ə) razı olduğunu göstərən ən boyük dəlil sonradan Fədəki tələb etməməsi və sakit qalmasıdır! Hətta Əli (ə) xilafətə gəldikdə əlindəki bütün güc və imkana baxmayaraq Fədəki geri almadı, bu da Onun (ə) xəlifələrin hökmündən razı olduğuna qəti bir dəlildir!»

**Dəvətçi**: «Buyurduğunuz bu mövzuların hər birinin ayrı bir cavabı vardır. Sizin üzünüzdə bir yorğunluq görməsəm də, artıq vaxt keçib. Xahiş edirəm, bu məsələlərin ətraflı cavabını, sabah axşama qoyaq.

(Məclisdə olanlar hamı bir ağızdan belə dedilər: «Xeyr! Qəbul etmirik, çox mühüm bir yerə yetişdik, bu böyük məsələnin nəticəsi bəlli olmayınca bir yerə getməyəcəyik!)

Sizin istəyinizə görə, qısa da olsa, imkan daxilində mövzunun xırdalığına gedib, xas bir cavab vermək istəyirəm.

## FATİMƏNİN (Ə) QƏLBİ VƏ BÜTÜN ƏZASI İMANLA DOLU İDİ

Bir də ki, həzrət Fatimənin (ə) qəzəbinin dini deyil, təbii olduğunu söyləməkdə yanıldınız; düşünmədən və araşdırmadan hökm verdiniz. Çünki Qurani-kərim və hadislərdə də deyildiyinə görə, kamal sahibi olan bir mömin, əsla, belə bir qəzəbə düçar olmaz. O ki, olsun Təthir, Mübahilə ayəsi və «İnsan» surəsində mədh edilən Fatimə (s.ə) kimi bir şəxs belə bir qəzəbə mübtəla olsun.

Mötəbər kitablarınızda da yazıldığı kimi, həzrət Fatimənin imanı kamal dərəcəsinə çatmışdı. Bu səbəbdən Peyğəmbəri-əkrəm (s) belə buyurmuşdur: «Allah-təala, qızım Fatimənin qəlbini və bütün əzalarını imanla doldurmuşdur».

# FATİMƏNİN (Ə) QƏZƏBİ DİNİ İDİ

İmanının nişanəsi haqqın əmrlərinə təslim olan heç bir mömin və möminə, bir hakim ədalətlə hökm verdiyi təqdirdə, yəni Allah-təalanın hökmlərini icra etdiyi zaman ona qəzəblənə bilməz, xüsusilə də kin və nifrət dolu bir qəzəblə ölənə qədər bu qəzəbi daşıya bilməz, onların cənazəsinə namaz qılmamasını vəsiyyət etməz.

Əvvəla; Fatimə (s.ə) o kəsdir ki, Allah-təala paklığı haqda hökm verib. Bu insan, əsla, iftira və yalan atmaz və buna görə də hakim onun əleyhinə hökm etməz.

İkincisi; Həzrət Fatimənin qəzəbi bütün insanlarda olduğu kimi əhvalının dəyişməsi olsaydı, az bir müddətə aradan getməliydi; xüsusilə ondan üzr istədikdən sonra qəlbindən lazım gəlirdi. Çünki Peyğəmbəri-əkrəm (s) buyurmuşdur: «Mömin, kin əhli deyildir».

Möminin sifət və nişanələrindən biri, adət və nəfsani istəklərə görə qəlbində kin və qəzəb saxlamamasıdır. Bir rəvayətdə də belə buyurmuşdur: «Mömin bir kəs xəta edərsə, üç gündən çox onun düşmənliyini qəlbində saxlamaz».

Daha doğrusu, həzrət Fatimə kimi Təthir ayəsilə mədh olunan, bütün varlığı imanla dolan, hər cür pislik və əxlaqi rəzalətlərdən uzaq olan, xüsusilə də Allah-taalanın pak olduğuna dair şəhadət verdiyi bir kəs, əsla, kin ahli ola bilməz.

Digər tərəfdən, iki firqənin da ittifaq etdiyinə görə həzrət Fatimə Əbu Bəkrə qəzəbləndiyi halda dünyadan getdi. Bilavasitə həzrət Fatimənin qəzəbi dini bir qəzəb idi; çünki Allah-təala və Peyğəmbəri-əkrəmin hökmlərinin əleyhinə bir hökm verilmişdi. Onun bu hökmə olan qəzəbi dinidir və Allah-təala və həzrət Peyğəmbərin qəzəbini meydana gətirən bir qəzəbdir!

# FATİMƏNİN (Ə) SÜKUTU RAZI OLDUĞUNA GÖRƏ DEYİLDİ

Üçüncüsü; «Fatimənin (ə) sakit qalması Onun (ə) razılığına dəlalət edir» sözünə gəldikdə səhf edirsiniz. Çünki hər halda sakit qalmaq razılığın əlaməti deyildir. Bəzən zalımın güclü olduğuna görə məzlum, düşmənlər qarşısında

həyasını qorumaq üçün sükut etmək məcburiyyətində qalır. Məzlum Fatimə (ə) də onlardan qətqiyyən razı deyildi; hələ üstəlik bu dünyadan qəzəbli halda ayrılmışdır. Böyük alimləriniz, xüsusilə də Buxari və Müslim kimi iki etibarlı şəxs belə yazmışdır: «Fatimə (ə) Əbu Bəkrə qəzəbləndi; ondan uzaq durdu və ölənə qədər da onunla danışmadı».

## HƏZRƏT ƏLİ (Ə) XİLAFƏTİ DÖVRÜNDƏ İSTƏDİYİ HƏR ŞEYİ EDƏ BİLMƏK GÜCÜNƏ SAHİB DEYİLDİ

Dordüncüsü; həzrət Əlinin (ə) iqtidara gəldikdə Fədəki alıb Fatimənin (s.ə) övladlarına geri qaytarmaması da bu hökmə razı dəlilidir» fikriniz də yalnışdır. Çünki həzrt Əli xilafəti dovründə istədiyi hər şeyi edə bilmək, istədiyi hökmü verə bilmək və bir bidəti aradan aparmaq gücünə sahib deyildi. Bu mövzuda hər kiçik bir təşəbbüs göstərilsəydi fəryad edib, üsyan qaldıracaqdılar. Əgər həzrət Əli Fədəki həzrət Fatimənin övladlarına geri qaytarsaydı, xüsusilə Muaviyə və tərəfdarları bundan pis şəkildə öz məqsədləri üçün istifadə edərdilər. Elə onlar Fədəkin həzrət Fatiməyə məxsus olduğuna şahidlik edən həzrət Əlinin bu işdə mənfəəti olduğunu söyləmişdilər. Daha doğrusu, Əlinin (ə) müxalifləri belə bir vəziyyətdə öz nəzərlərini ortaya qoyub, Onun Əbu Bəkr və Ömərin yoluna zidd davrandığını söyləyər, hay-haray salardılar. Belp bir hökmü verə bilmək üçün əvvəlcə hakimiyyəti gücləndirmək və sonra bidətləri aradan aparmaq, haqqı tapdalanmış hər bir müsəlmanın haqqını qaytarmaq lazım gəlirdi. Ancaq bilindiyi kimi həzrət Əli üçün əvvəlkilərin əməl və davranışlarının əksinə davrana biləcək bir güc və qüdrət qoymamışdılar.

Yeri gəlmişkən deyim ki, minbər hadisəsində və Təravih namazında bu məsələ zahir oldu. Çünki əvvəlki xəlifələr Peyğəmbəri-əkrəmin (s) minbərinin yerini dəyişdirmişdilər. Həzrət Əli xilafət məqamına gəldikdə minbəri Rəsulallahın dövründəki ilkin yerinə qaytarmaq istədi. Xalq fəryad edərək ilk iki xəlifənin sünnətinə zidd davranıldığını söylədi. İnsanları camaatla qılınan Təravih

namazından çəkindirmək istədikdə, yenə xalq: «Əli Ömərin hökmünə zidd hökm verir»,-deyə fəryad etdilər».

**Nəvvab**: «Qibləsahib! Həzrət Əli (ə) nə üçün Təravih namazının camaatla qılınmasına mane olmağa çalışdı?»

## TƏRAVİH NAMAZI

**Dəvətçi**: «Lüğətdə «təravih» tərvihə sözünün cəmi mənası «oturmaq» deməkdir. Ramazan gecələri dörd rükət namaz qıldıqdan sonra istirahət etmək məqsədilə oturmağa təravih deyilirdi. Sonralar Ramazan gecələri qılınan dörd rükətli müstəhəb namaza deyildi (və ya bütün gecələrdə qılınan iyirmi rükətli müstəhəb namaz belə adlandı). Şübhəsiz müqəddəs İslam dinində təkcə vacib namazlar camaatla birlikdə qılınır. Müstəhəb namazlar isə camaatla qılınmaz. Bilavasitə Peyğəmbəri-əkrəm (s) belə buyurmuşdur: «Ramazan gecələri qılınan nafilə namazların camaatla qılınması bidətdir. Zuha namazı bidət və günahdır. Ramazan gecələri nafilələri camaatla qılmayın; Zuha namazını da qılmayın. Çünki sünnətə görə qılınan namaz, az da olsa bidət olan çox əməldən daha yaxşıdır. Hər bidət zəlalətdir, hər zəlalət Cəhənnəmə gedən yoldur».

Ömər hicri-qəməri 14-cü ildə öz xilafəti dövründə məscidə daxil olarkən çıraqların yandığını və camaatın bir yerə toplaşdığını görüb soruşdu: «Nə xəbərdir?». Dedilər: «Biz nafilə namazını camaatla qılmaq üçün toplanmışıq». Bunun ardınca Ömər belə dedi: «Bu bidətdir; amma gözəl bir bidətdir!».

Buxari «Səhih»ində Əbdürrəhman ibn Əbdülqaridən belə rəvayət edir: «Xəlifə camaatın pərakəndə şəkildə namaz qıldığını gördükdə onlara müstəhəb namazların camaatla qıldırmasını daha yaxşı olduğunu söylədi. Ubey ibn Kəbə onlara camaat namazı qıldırmasını əmr etdi. Sonrakı gecə gəlib hamının onun əmrinə müvafiq olaraq müstəhəb namazları camaatla qıldığını gördükdə belə dedi: «Bu bidət necə də gözəl bir bidətdir!»

Bu vəziyyət həzrət Əlinin xilafəti dövrünə qədər davam etdi. Həzrət Əli bu əməli Peyğəmbəri-əkrəmin dövründə olmadığına görə qadağan etdi və nafilələrin

camaatla qılınmamasını xatırlatdı. Kufəyə gəldikdə xalq ondan camaat namazı qılmağa imam istədi. Həzrət onları bu istəkdən çəkindirdi. Həzrət Əlinin qadağan etməsinə baxmayaraq, onlar bu adəti tərk etmək istəmədilər. Həzrət Əli çıxıb keçdikdən sonra yenə öz aralarından birini imam seçərək camaatla nafilə namazını qıldılar. Həzrət Əli bunu eşitdikdə imam Həsənə əlinə bir qamçı alıb onları bu işdən çəkindirməsini əmr etdi. Camaat bunu gördükdə: «Ey vay! Əli gəlib bizi namazdan çəkindirir!»-deyə hay-küy salıb fəryad etdilər. Halbugi özləri də Peyğəmbəri-ogrsşin dövründə belə namaz qılınmadığını və bunun Ömər tərəfindən adət halına salındığını bilirdilər. Rəsulallahın sünnətinə də uyğun olan bu işə boyun əyməyərək, həzrət Əliyə itaət etmədilər.

O halda həzrət Əli (ə) Fədəki Fatimənin (s.ə) övladlarına necə geri qaytara bilərdi? Əgər bu cür etmiş olsaydı, fəryad çəkib həzrət Əlinin dünyaya meyilli olduğunu və övladlarının mənfəəti üçün müsəlmanların malına əl uzatdığını söyləyərdilər. Buna görə yenə əvvəldə olduğu kimi səbir etdi və onu həzrət Məhdinin (ə.t) ixtiyarına buraxdı.

Beləliklə aydın oldu ki, həzrət Əlinin (ə) sükutu, o hökmə razı olduğunun dəlili deyildi. Əgər özündən əvvəlki xəlifələrin Fədək xüsusundakı əməllərini doğru bilmiş olsaydı, artıq onlarla mübahisə etməzdi, narahatlığını ifadə etməz və Allah-taalanı hakim qərar verməzdi.

Bu səbəbdən həzrət Əli (ə) «Nəhcül-bəlağə»də Bəsrə valisi Osman ibn Huneyfi Ənsari ilə dərdləşdiyi məktubunda belə deyir: «Göyün kölgə saldığı şeylərlə (dünya malıyla) dolu olan Fədək bizim əlimizdəydi. Bir qrup (əvvəlki üç xəlifə) tamahlanıb, onu əlimizdən aldı; bir qrup da (həzrət Fatimə və övladları) cömərdlik edərək ondan vaz keçdilər. Allah-təala (haqq ilə batil arasında) ən yaxşı hökm edəndir»[1].

Həzrət Fatimənin (ə) ömrünün sonunda Ömərdən razı olduğunu və onları əfv etdiyini deməyiniz də yanlışdır. Çunki belə bir şey, əsla, baş verməmişdir. Daha əvvəl ərz etdiyim rəvayətlərlə məzlum Fatimənin (s.ə) omrünün sonuna qədər

[1] "Nəhcül-bəlağə", məktub: 45

onlardan razı olmadığını, hətta onlara qarşı qəzəbli halda dünyadan ayrıldığını isbat etdim.

## ƏBU BƏKR VƏ ÖMƏRİN HƏZRƏT FATİMƏNİ (Ə) ZİYARƏT ETMƏSİ

İndi sözümü bitirmək və iddiamın doğruluğunu bir daha isbat etmək üçün bu rəvayəti nəql etmək istəyirəm. Əbu Məhəmməd Abdullah ibn Müslüm ibn Qutəybə Deynəvəri (ö/t: 276) «Əl-İmamətu vəs-siyasət» adı ilə tanılan «Tarixi Xüləfai-Raşidin»in 1-ci cildinin 14-cü səhifəsində İbn Əbil-Hədid və digər alimləriniz də öz mötəbər kitablarında belə yazır: «Ömər Əbu Bəkrə belə dedi: «Gəl, gedək Fatiməgilə, çünki Onu qəzəbləndirmişik». (Bəzi rəvayətlərdə isə Əbu Bəkrin Ömərə belə söylədiyi yer almışdır. Zahirə görə bu səhihdir).

Birlikdə Fatimənin (s.ə) evinə gəldilər. Lakin məzlum Fatimə (s.ə) onlarla görüşmək istəmədi. Həzrət Əlini (ə) vasitəçi tutduqdan sonra Fatimə (ə) Onun sözünə ehtiram göstərib, səssiz durdu. Elə buna görə də onlara yalnız daxil olmağa izn verdi. İçəri girib salam verdilər, ancaq həzrət Fatimə (ə) üzünü divara çevirdi. Əbu Bəkr belə dedi: «Ey Rəsulallahın qızı! Allaha and olsun ki, Peyğəmbərin qohumluğunu öz qohumluğumdan daha çox sevirəm; Səni qızım Aişədən daha çox sevirəm. Kaş ki, Rəsulallahdan sonra mən də öləydim. Mən sənin dəyər, şərəf və fəzilətini hər kəsdən daha yaxşı bilirəm. Əgər səni mirasından məhrum etdimsə də, bil ki, bilavasitə Peyğəmbərdən eşitdiyim «Biz peyğəmbərlər miras qoymuruq; qoyduğumuz miras deyil, sədəqədir» hədisinə əsaslandım».

Həzrət Fatimə Əmirəl-möminin Əliyə belə buyurdu: «Mən onlara Rəsuli-əkrəmin bir hədisini xatırladacağam. Qoy, Allahın rızası üçün doğru söyləsinlər. Məgər Rəsulallahın bu hədisini eşitməyiblərmi?!: «Fatimənin rızası mənim rızamdır; qəzəbi mənim qəzəbimdir. Fatiməni sevən məni sevmişdir; onu razı edən məni razı etmişdir; Fatiməni qəzəbləndirən məni qəzəbləndirmişdir».

Onlar «Bəli, həzrət Peyğəmbərdən bu hədisi eşitmişik»-dedilər. Bu əsnada Fatimə (s.ə) belə buyurdu: «Allahı və mələklərini şahid tuturam ki, sizlər məni

qəzəbləndirdiniz, məni razı etmədiniz. Rəsulallah ilə görüşəndə sizin ikinizdən də Ona şikayət edəcəyəm».

Əbu Bəkr həzrət Fatimənin (s.ə) bu bəyanı qarşısında ağlaya-ağlaya belə dedi: «Sənin və Peyğəmbərin qəzəbindən Allaha sığınıram». Fatimə də (ə) ağlayaraq buyurdu: «Allaha and olsun ki, hər namazda sənə bəd dua edirəm».

Əbu Bəkr bu sözləri eşitdikdə ağlayaraq bayıra çıxdı. Xalq ətrafına toplandı və ona təsəlli verməyə çalışdı. O, belə dedi: «Vay olsun sizə! Siz həyat yoldaşlarınıza və evinizə sevinc içində dönürsünüz. Məni buraxın, mənim sizin beyətinizə ehtiyacım yoxdur, məndən yan keçin. Allaha and olsun ki, Fatimədən eşitdiklərimdən, gördüklərimdən sonra heç bir müsəlmanın boynunda beyətimin olmasımı istəmirəm».

Böyük alimlərinizin bu yazdıqlarından da anlaşıldığı kimi, həzrət Fatimə ömrünün sonuna qədər Əbu Bəkr və Ömərdən narazı oldu, hüzn dolu bir qəlblə dünyadan ayrıldı və onlardan heç vaxt razı qalmadı.

## FATİMƏNİN (Ə) GECƏ YARISI DƏFN EDİLMƏSİ

Həzrət Fatimənin qəmgin, küskün olmasının, Əbu Bəkr və Ömərdən narazılığının ən böyük dəlili həzrət Əliyə etdiyi vəsiyyətindən açıq-aydın görünür: «Mənə zülm edənlərdən və haqqımı alanlardan heç kim cənazə namazıma qatılmasın. Onlar mənim və Rəsulallahın düşmənləridir. Onlardan və tərəfdarlarından heç birinin cənazə namazımı qılmasına izn vermə. Gecə düşüb, hər kəs yatdıqda məni dəfn et!»

Bu səbəbdən Buxari «Səhih»ində belə deyir: «Əli həzrət Fatimənin vəsiyyətini yerinə yetirdi və Onu gecə ikən dəfn etdi. Nə qədər axtardılarsa da, məzarının yerini tapa bilmədilər».

# FATİMƏNİN (Ə) DƏRDLƏRİ QİYAMƏTƏ QƏDƏR ÜRƏKLƏRƏ DAĞ ÇƏKƏCƏK

Həzrət Fatimənin öz vəsiyyətinə əsasən gecə dəfn edildiyi ittifaqla sabitdir. Allah xatirinə, insaflı olun! Peyğəmbəri-əkrəm ümmətin səadət və əzəməti üçün böyük zəhmət çəkdi, həyatını ümmətin rahatlığı və xoşbəxtliyinə sərf etdi. Rehlət etdikdə isə bircə qızını əmanət qoydu. Mötəbər kitablarınızda da yer aldığı kimi gecə-gündüz, açıq-aşkar belə buyurdu: «Fatimə mənim bir parçamdır, əmanətimdir. Məni qoruduğunuz kimi Onu da qoruyun, narahat olmasına səbəb olan pis iş görməyin. O, sizdən razı olduğu təqdirdə mən sizlərdən razı olaram».

Mirseyid Əli Həmədani Şafei fəqihi «Məvəddətül-qurba» kitabında Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql etmişdir: «Mən Fatiməyə əziyyət edənləri Qiyamətdə ağır sorğu-suala çəkəcəyəm. Fatimənin rizayəti mənim rizayətimdir; onun qəzəbi mənim qəzəbimdir. Mənim qəzəbimə gələn şəxsin vay halına!».

Lakin təəssüflər olsun ki, bu ümmət Rəsulallahın (s) o qədər tövsiyələrinə etina göstərmədi, Fatiməyə (s.ə) əziyyət etdi, Onun sabit haqqını qəsb etdi!

Həzrət Fatimə (s.ə) qəmli halda, ağlar gözlə belə buyurmuşdu: «Başıma çox müsibətlər gəldi. Bu müsibətlər gündüzün başına gəlsəydi, dönüb gecə olardı».

Rəsulallahın əziz qızı o qədər qəmgin və dərdli idi ki, Allah-təalaya müraciət edərək «Allahım, ölümümü tezləşdir»,-deyə dua edirdi. Gecə ikən dəfn edilməsini və müxaliflərindən heç kəsin cənazə namazına qatılmasına izn verilməməsini vəsiyyət edirdi.

Möhtərəm ağalar! Zəhmət olmasa, insafla hökm verin. Görəsən bu hadisələr Onun razılığını, yoxsa narazlıqını göstərir? Nəql etdiyim bu hadislərdən həqiqətlər açıq-aydın şəkildə görünür; siz də görun!.

Mən sizə qəm-qüssəmin, dərdimin sadəcə kiçik bir hissəsini açıb-söylədim;

Bu məclisdə hamımız, xüsusilə də hafiz ağa hönkür-hönkür ağlayır, istiğfar edirdi. O gecədən etibarən artıq danışmadı. Məntiqli dəlillərimiz o insaflı alimə təsir etmişdi. Son gecədə qəlbən şiə olaraq bizdən ayrıldı. Məclis bir neçə saat eləcə səssiz, hüzün dolu bir vəziyyətdə qaldı. Çay ikram edildi, lakin heç kəs içmədi. Sübh namazına yaxın məclis yenidən görüşmək ümidiylə sona çatdı.

# MÜNDƏRİCAT

ALTINCI GECƏ..........................................................................................3
Həzrət əli (ə) haqqında üç yüz ayə...........................................................................4
Əli (ə) Rəsulallaha (s) ilk iman gətirəndir.....................................................6
Rəsulallahın (s) həzrət Əlini (ə) uşaqlıqdan təlim-tərbiyə etməsi.....................7
Həzrət Əlinin (ə) islamdakı qabaqcıllığı........................................................8
Həzrət Əlinin (ə) uşaq olduğuna görə imanını zəif bilmək və belə bir düşüncənin cavabı..........................................................................11
Həzrət Əlinin (ə) kiçik yaşda iman gətirməsi onun (ə) çox ağıllı və fəzilətli Olmasından irəli gəlmişdir..........................................................12
Həzrət Əlinin (ə) imanı küfrdən sonra deyil, fitrətdən olan imandır!.............15
Həzrət Əli (ə) bütün səhabə və ümmətdən daha fəzilətlidir ..........................17
Hicrət gecəsi peyğəmbərin (s) yatağında yatan həzrət Əli (ə) haqda ayənin nazil olması………………………………………....................................21
Əlinin (ə) peyğəmbərin (s) yatağında yatmasının Əbu Bəkrin yol yoldaşlığından fəzilətli olması barədə əhli-sünnət alimlərinin etirafları…......23
Elmi və dini bəhslərdə Ömərin sərtliyi yoxdur.............................................25
Ömərin həzrət Əlinin (ə) elm və əməl baxımından üstünlüyünü etiraf etməsi……………………………………………………………………...25
Ömərin «Əli olmasaydı, Ömər həlak olardı» sözünün sənədləri...................26
Həzrət Əlinin (ə) xəlifələrə nicat verməsi və onların bu haqda etiraflarının bəzi mövqelərinə işarə.........................................................................27
Döyüş meydanlarında xəlifə Ömərdən hər hansı bir şücaət və qəhramanlıq gorülməmişdir..........................................................................29
Yenə də həqiqətin bəyanı.........................................................................30
Əbu Bəkr və Ömərin Xeybər döyüşündə məğlubiyyətə uğramaları..............31
Həzrət Əli (ə) Allah və Rəsulunun (s) sevdiyi bir şəxsdir..............................36
Xeybər fəthində «Rayət hədisi»................................................................36
Osmanın ədalı davranışı Əbu Bəkr və Ömərin xilafına idi...........................41

Osmanın Bəni-Üməyyə fasiqlərini iş başına gətirməsi..................................43
Bəni-Üməyyə, Həkəm ibn Əbil-As və Mərvanın Allah və Peyğəmbər (s) tərəfindən lənətlənməsi..........................................................................................43
Həkəm ibn Əbil-As........................................................................................45
Fasiq Vəlid sərxoş olduğu halda camaat namazı qıldırdı................................46
Osmanın etdiyi xətalar ölümünə səbəb oldu..................................................47
Xalqın narahatçılığı Osmanın öldürülməsinə səbəb oldu...............................48
Osmanın əmriylə Rəsulallahın (s) əshabının döyülməsi................................49
İbn Məsudun döyülməsi və ölümü..................................................................49
Əmmarın Osmanın əmriylə döyülməsi...........................................................51
Əbuzərin incidilərək sürgün edilməsi və onun rəbəzə çölündə vəfatı...........52
Əbuzər Allahın və Rəsulallahın (s) sevimlisi ümmətin isə düz danışanı idi ……...........................................................................................................53
Cəhalət pərdələrini yırtmaq üçün insafla hökm verməki lazımdır!..................55
Əbuzərin Rəbəzəyə zorla göndərilməsi ........................................................57
Əli ibn Əbu Talibdə (ə) şəfqət və mərhəmətləri …..........................................58
Həzrət Əlinin (ə) əqili çox yardım istədiyi üçün ədəbləndirməsi ...................60
Həzrət Əlinin (ə) Mərvan, Abdullah ibn Zübeyr və Aişəyə mərhəməti..........60
Müaviyənin suyu kəsməsi və həzrət Əlinin (ə) mərhəməti.............................62
Ayədə kəlmənin cəm gəlməsi təzim və ehtiram üçündür...............................64
Əhli-sünnət alimlərinin ümumi rəynə............................................................64
Əsasən «vilayət» ayəsi həzrət Əli (ə) haqqında nazil olmuşdur......................64
Vilayət ayəsi haqqında şübhələr və cavabları.................................................66
Ömərin Hübeydiyyədə Rəsulallahın (s) peyğəmbərliyinə şübhə etməsi...........................................................................................................72
Hudeybiyə vaqiəsi...........................................................................................73
Gözlənilməyən söhbətlər.................................................................................74
YEDDİNCİ GECƏ...............................................................................................77
Məcazi eyniliklə həqiqi eynilik arasındakı fərq.............................................78
Peyğəmbər (s) və Əlinin (ə) nəfs baxımdan eyniliyi......................................79

Mübahilə ayəsini şahid gətirmək..................................................................81
Həzrət peyğəmbərin (s) Həcran Həsraniləri ilə mübahiləsi............................82
Nəsranilərin mübahilə üçün hazırlaşması.....................................................82
Peyğəmbərlə (s) Əlinin (ə) eyniliyinə dair hədislər.......................................86
Rəsulallah (s) bütün peyğəmbərlərdən (ə) üstün olduğu üçün Əli (ə) də onlardan üstündür...............................................................................88
Səsəənin həzrət Əlinin (ə) peyğəmbərlərdən üstünlüyünün səbəbi haqqındakı sualları və onların cavablandırılması..............................................................89
Həzrət Əli (ə) bütün peyğəmbərlərin aynası idi.............................................92
«Təşbih hədisi» ətrafında şeyx Məhəmməd Yusif Gənci Şafeinin açıqlaması..............................................................................93
Müxaliflər deyirlər: icmaya söykənmək haqqdır............................................96
İcmanın rəddinə dair dəlillər.......................................................................98
Usamənin oyunçularla söhbəti....................................................................101
İcmanın həqiqiləşmədiyinə dair iki firqənin birliyi.....................................104
Əshabın böyüklərinin Əbu Bəkrin beyətindən çəkinməsi.............................106
Səqəleyn və səfinə hədisləri........................................................................107
«Əbu Bəkr yaş baxımındam böyük olduğuna görə xilafətə yetişdi» sözünün cavabı...................................................................................109
Yaşlı səhabələrin olmasına baxmayaraq peyğəmbər (s) Əlini (ə) seçdi.....................................................................................110
Həzrət Əli (ə) haqla batili ayırandır.............................................................111
Ömərin «nübuvvət və səltənət bir ailəyə mənsub ola bilməz» sözünün cavabı…………………………………….......................................115
Xilafətə təyin olunma haqqında həqiqətlərin bəyanı....................................117
Həzrət Əli (ə) və Bəni-Haşimin beyəti altı aydan sonra təhdidlə baş verdi.....................................................................................121
Həzrət Əlini (ə) qılınc gücünə məscidə apardıqlarına dair on iki dəlil.........123
İnsafla hökm vermək lazımdır.....................................................................126
Həzrət Fatimənin (ə) uşağının siqt olduğuna dair rəvayətlər........................130

Haqqı müdafiə etmək lazımdır..................................................................132
«Əlini sevmək savabdır», «Hüseynə ağlayana cənnət vacib olar» hədislərinin tənqidi və onların cavabı..........................................................................132
Sünnilərin yaşadığı şəhərlərdə fəsad daha çox yayılmışdır..........................134
Zəməxşərinin etirafı və Əhli-sünnəti tənqid etməsi.....................................135
«Əlini sevmək savabdır» hədisinin əhli-sünnət kitablarından sənədləri və mənası.........................................................................................................136
Həqiqətin kəşfi..............................................................................................138
«Kəs» ilə «nakəs» arasında fərq..................................................................140
Ağlama və yas tutmanın nəticə və faydaları................................................142
İmam Hüseyn (ə) məqam arxasınca deyildi ................................................144
Beş nümunəvi insan hər cür çirkin əməllərdən uzaqdır...............................145
İmam Hüseynin (ə) qiyamı zahiri riyasət və xilafət üçün deyildi...........................................................................................................146
İmam Hüseynin qiyamı la ilahə illəllah ağacını qorumaq üçün həqiqiləşmişdi..............................................................................................147
İmam Hüseynin (ə) məzlumiyyəti haqqında ingiltərəli qadının məqaləsi........................................................................................................155
İstənilən nəticənin əldə edilməsi..................................................................156
Ziyarətin savab və faydaları.........................................................................157
Əhli-beyt imamlarının (ə) qəbirlərini ziyarət etməyin faydaları.......................................................................................................159
SƏKKİZİNCİ GECƏ...................................................................................162
İslam və imanın fərqi...................................................................................163
İmanın mərtəbələri.......................................................................................164
Əhli-sünnət Qurani-Kərimin əksinə olaraq şiə müsəlmanları rədd edir...............................................................................................................166
Şiənin həzrət Əli və Əhli-beytin təqibçisi olması və dörd məzhəb imamına təqlid etməməsinin səbəbləri......................................................................167
Rəsulallahın əmrinə əsasən ümmət Əhli-beytə tabe olmalıdır.....................168

Kor-koranə təqlid insana yaraşmaz.............................................................172
İnsan elm və ağıla tabe olmalıdır.................................................................173
Xəlifələrin 12 nəfər olduğunu Peyğəmbər (s) bəyan etmişdir.....................175
İmam Cəfər Sadiqin (ə) məqamına işarə.....................................................176
Cəfəri məzhəbinin zühuru.............................................................................178
Böyük ürək ağrısı və Əhli-beytə (ə) etinasızlıq............................................180
Təəssüflər olsun!..........................................................................................181
Nə üçün şiə səhabələrə və peyğəmbərin (s) xanımlarına tənə edir?.............182
Səhabəni tənqid etmək və onlara tənə vurmaq küfr deyildir!........................183
Səhabənin pis və yaxşı əməlləri Rəsuli-əkrəmin (s) diqqətində idi.............187
Rizvan beyətinə dair cavab...........................................................................188
«Əshaba tabe olun» hədisinə dair cavab.......................................................189
Əqabə hadisəsi və peyğəmbərə (s) sui-qəsd.................................................191
Həzrət peyğəmbər (s) yalançılara tabe olmağı əmr etməmişdir....................192
Əshabın səqifədə müxalifəti .........................................................................192
Səd ibn Übadənin Ömər və Əbu Bəkrlə müxalifəti.......................................193
Təlhə və Zübeyrin Bəsrədə həzrət Əliyə (ə) qarşı qiyamı............................193
Müaviyə və Əmr ibn Asın həzrət Əlini (ə) söyməsi.....................................194
«Əshabım ulduzlar kimidir...» hədisinin sənədləri zəifdir............................195
Səhabə məsum deyildir.................................................................................195
Səhabədən on nəfərin əyləncə məclisində şərab içməsi...............................196
Səhabənin əhdi pozması...............................................................................199
Məhəmməd (s) və Əli (ə) Qurandakı sadiqlərdir..........................................200
Qədiri-Xum hadisəsi ....................................................................................201
Cəbrayılın (ə) Ömərə nəsihəti .....................................................................204
«Əshaba tabe olmaq…» hədisi səhih deyil...................................................205
Əshabdan bəzisi nəfsinə tabe olaraq haqdan uzaqlaşdı................................206
Ğəzzalindən əshabın əhdi pozmasına dair dəlillər .......................................207
«Sirrül-aləmin» Ğəzzalinin kitabıdır............................................................208
İbn Uqdənin aqibəti......................................................................................209

Təbərinin ölümü ..........................................................................................209
Nisainin öldürülməsi.......................................................................................210
«Mövla» kəlməsinin araşdırılması...................................................................211
«Mövla»nın «təsərrüfdə övləviyyət» olduğunun sübutu və «Ey Rəsul! Rəbbindən Sənə nazil olanı təbliğ et» ayəsinin nazil olması..........................211
«Bu gün sizə dininizi kamil etdim» ayəsinin Qədir-Xumda nazil olması.........................................................................................................213
«Mövla»nın mənası haqqında Səbt ibn Cövzinin nəzəri...............................214
«Mövla»nın mənası haqqında İbn Təlhə Şafeinin nəzəri..............................216
Həzrət Əlinin (ə) rəhbədə Qədir-Xum hədisini dəlil göstərməsi...................217
Dördüncü şahid «mən sizin nəfsinizdən daha övla deyiləmmi?!» hədisidir.......................................................................................................219
Həssanın Rəsulallahın (s) hüzurunda oxuduğu şerlər...................................221
Səhabənin əhdi pozması.............................................................................223
Səhabənin Ühüd, Hüneyn və Hüdeybiyyədə əhdini pozması.......................224
İnsafla hökm verməк lazımdır.....................................................................224
Səhabənin Hudeybiyədə qaçması...............................................................226
Allah bilir ki, mən cədəl əhli deyiləm.........................................................228
Fədəkin həqiqəti və onun qəsb olunması.....................................................229
«Və ati zəl-qurba həqqəhu» ayəsinin nazil olması.......................................230
«Biz peyğəmbərlər miras qoymuruq» hədisinin dəlil göstərilməsi və onun cavabı.............................................................................................................231
Həzrət Fatimənin (s.ə) «irs aparmırıq» hədisinin rəddinə dair dəlilləri...........................................................................................................233
Həzrət Əlinin (ə) Əbu Bəkrə dəlil gətirməsi................................................235
Əbu Bəkrin minbərdə həzrət Əli (ə) və Fatiməni (s.ə) söyməsi....................236
İnsafla hökm verməк lazımdır!....................................................................237
İbn Əbil-Hədidin Əbu Bəkrin sözlərinə təəccüblənməsi..............................238
Əliyə (ə) əziyyət peyğəmbərə (s) əziyyətdir................................................239
Əlini (ə) söyməк peyğəmbəri (s) söyməkdir................................................240

Əli (ə) elm və hikmət qapısıdır.................................................................240
Vəsilik haqqındakı rəvayətlərin nəqli...........................................................243
Rəsulallah (s) vəfat edərkən başı Əlinin (ə) sinəsi üstündə idi.....................246
Vəsilik xüsusunda araşdırma.........................................................................247
Vəsiliyə toxunan bəzi səhabələrin şerləri.....................................................248
Vəsilik əmrinə işarə.......................................................................................249
Peyğəmbərin (s) əmrinə itaət vacibdir...........................................................250
Peyğəmbərin (s) vəsiyyət etməsinə mane olunması......................................251
İbn Abbasın peyğəmbərin (ə) vəsiyyətinə mane olunmasına ağlaması.........252
Peyğəmbərin (s) vəsiyyətinə mane olunduğunu bildirən hədislərin mənbələri.........................................................................................................253
Təəssüb insanı kor və kar edir.......................................................................255
Əhli-sünnət alimləri də «sayıqlayır» kəlməsini söyləyənin risalət məqamına inanmadığını etiraf edirlər.............................................................................256
İslamda peyğəmbərin (s) hüzurunda baş verən ilk fitnə...............................256
Üzrü günahından daha pis.............................................................................258
Qutbuddin Şirazinin Ömərin sözlərinə etirazı .............................................261
Əbu Bəkrin ölüm anında vəsiyyətinə mane olunmaması.............................262
Böyük müsibət: ölüm anında peyğəmbərə (s) təhqir və hidayəti göstərməsinə mane olunması ..............................................................................................262
Altıaylıq uşaq doğuran qadın haqqında həzrət Əlinin (ə) verdiyi hökm ......266
Əbu Bəkrin Fədəki Fatiməyə (s.ə) geri qaytarması və Ömərin buna mane olması .............................................................................................................267
Xəlifələrin Fədəki Fatimənin (s.ə) övladlarına geri qaytarması....................267
Ömər ibn Əbdüləzizin Fədəki geri qaytarması.............................................268
Abdullah, Mehdi və Məmunun Fədəki Fatimə (s.ə) övladlarına yenidən geri qaytarması.....................................................................................................269
Fədəkin hədiyyə olduğunun isbatı................................................................269
«Əbu Bəkr şəhadət ayəsinə əsasən əməl etdi» iradı və onun cavabı.............................................................................................................270

Mülkiyyət sahibindən şahid istəmək şəriətə ziddir......................................271
«Zuş-şəhadətəyn» ləqəbli xuzeymə............................................................272
Fatimənin (ə) şahidlərinin rədd edilməsi.....................................................272
«Sadiqlər»dən məqsəd peyğəmbər (s) və Əlidir (ə) ....................................273
Həzrət Əli (ə) siddiqlərin ən üstünüdür.......................................................275
Əli (ə) haqq və Quranladır..........................................................................276
Əliyə (ə) itaət, Allaha və Peyğəmbərə (s) itaətdir........................................277
İnsaf və ədalətlə qəzavət edin......................................................................278
Cabirə bağışlanan mal. Ağıl sahiblərinin ibrət almasına səbəb oldu...........279
Təthir ayəsinin nazil olması haqqında irad..................................................281
Təthir ayəsinin həzrət peyğəmbərin (s) xanımları haqqında nazil olmadığının isbatı və iradın cavabı..........................................................................282
Peyğəmbərin (s) xanımları Əhli-beytdən (ə) deyil.......................................283
Təthir ayəsinin Əhli-beyt (ə) haqğında nazil olduğunu bəyan edən Əhli-sünnət mənbələrindən rəvayətlər........................................................................283
Fatimə (s.ə) haqqında ümmü-sələmənin rəvayəti etdiyi hədis və təthir ayəsinin nazil olması................................................................................................285
Peyğəmbərin (s) Əhli-beytinin (ə) xüms haqqından məhrum edilməsi...................................................................................................287
Allah-təala Əlini (ə) peyğəməbərin (s) şahidi etmişdir................................289
Əlinin (ə) dərdini dilə gətirməsi............................................................290
Həzrət Əlini (ə) incidənləri qınayan rəvayətlər............. ..............................291
Həzrət Fatimə (ə) son nəfəsinə qədər Əbu Bəkr və Ömərdən razı olmadı.....................................................................................................293
Fatiməni (ə) incitmək, Allahı və Peyğəmbəri (s) incitməkdir.......................294
Əlinin (ə) Əbu Cəhlin qızına elçilik etməsi iddiasının cavabı......................295
Əbu Cəfər İsqafinin Muaviyənin dövründə rəvayətlərin uydurulduğuna dair bəyanı......................................................................................................297
Həzrət Fatimənin (ə) qəzəbinin dini olmamasına dair irad və onun cavabı ..................................................................................................................298

Fatimənin (ə) qəlbi və bütün əzası imanla dolu idi.....................................299
Fatimənin (ə) qəzəbi dini idi....................................................................300
Fatimənin (ə) sükutu razı olduğuna görə deyildi.........................................300
Həzrət Əli (ə) xilafəti dövründə istədiyi hər şeyi edə bilmək gücünə sahib deyildi.....................................................................................................301
Təravih namazı.........................................................................................302
Əbu Bəkr və Ömərin həzrət Fatiməni (ə) ziyarət etməsi...............................304
Fatimənin (ə) gecə yarısı dəfn edilməsi.......................................................305
Fatimənin (ə) dərdləri qiyamətə qədər ürəklərə dağ çəkəcək..........................................................................................................306